MÜNDƏRİCAT

Giriş ……..
I. PUL NƏZƏRİYYƏSİ……..
1. Pulların zəruriliyi və mahiyyəti …….....
1.1.Pullar iqtisadi kateqoriya kimi ……
1.2.Pulların mənşəyi və mahiyyəti ilə bağlı mübahisəli məsələlər..
2.Pullar, onların təbiəti və tərkibi ……..
2.1.Pulların xüsusiyyətləri, formaları, tipləri və növləri …….
2.2. Qızıl pul dövriyyəsi və onun kağız pul dövriyyəsinə çevrilməsi
2.3. Kağız pullar…….
2.4.Kredit pullar ……
3.Pulların funksiyaları və onların iqtisadiyyatda rolu …….
3.1.Pulların funksiyaları və onların qarşılıqlı əlaqəsi ……
3.2.Pulların iqtisadiyyatdakı rolu ……
4.Pul dövriyyəsi və onun strukturu……..
4.1.Ödəniş sistemi və pul dövriyyəsi anlayışı ……
4.2.Qeyri nağd pul dövriyyəsinin xarakteristikası ……
4.3.Nağd pul dövriyyəsinin xüsusiyyətləri ……
5.Pul sistemi, emissiya və pul kütləsi …….
5.1.Pul sistemlərinin mahiyyəti, elementləri və tipləri……
5.2.Emissiya anlayışı və onun növləri …….
5.3.Pul kütləsi və onun strukturu…….
6. İnflyasiya və iqtisadiyyatın antiinfylasiya tənzimlənməsi ……..
6.1.İnflyasiya sosial iqtisadi hadisə kimi ……
6.2.İnflyasiyanın inkişaf faktorları ……
6.3.İnflyasiyanın təzahür formalarının və növlərinin xarakteristikası
6.4.Antiinflyasiya siyasətinin əsas üsulları və pul islahatı..
II FƏSİL. KREDİT NƏZƏRİYYƏSİ
7.Kreditin zəruriliyi və mahiyyəti

MUHASIBAT.AZ

7.1.Kredit münasibətlərinin yaranması

7.2.Kreditin mahiyyəti və kredit münasibətlərinin tipləri

8.Kreditin funksiyaları, prinsipləri və sərhədləri

8.1.Kreditin funksiya və prinsiplərinin xarakteristikası

8.2.Kreditin sərhədləri anlayışı

9.Kredit formaları

9.1.Kredit formalarının ümumi xarakteristikası və onun təsnifat meyarları

9.2.Bank krediti

9.3.Kommersiya krediti

9.4.Lizinq krediti

9.5.İstehlak krediti

9.6.İpoteka krediti

9.7.Dövlət krediti

9.8.Beynəlxalq kredit

9.9. Kreditin ayrı-ayrı spesifik formaları

III FƏSİL. Pul – maliyyə bazarı

10. Pul maliyyə bazarının tərkib hissələri

10.1.Pul maliyyə bazarı anlayışı

10.2.Qiymətli kağızların ümumi xarakteristikası

10.3.Törəmə qiymətli kağızlar və onların xüsusiyyətləri

11.qiymətli kağızlar bazarı

11.1.Qiymətli kağızlar bazarının fəaliyyət xüsusiyyətləri

11.2.Qiymətli kağızlar kursunun formalaşması

11.3.Qiymətli kağızlar analizinin zəruriliyi və xüsusiyyətləri

12.Fond birjası və onun əməliyyatları

IV FƏSİL. KREDİT VƏ BANK SİSTEMLƏRİ

13.Kredit sistemi və onun hissələri

13.1.Kredit sistemi anlayışı

13.2.Bank sistemi və onun quruluş modeli

MUHASIBAT.AZ

13.3. İxtisaslaşmış kredit maliyyə müəssisələrinin (institutlarının) xarakteristikası

14. Mərkəzi bank və onun fəaliyyət mexanizmi

14.1.Mərkəzi bankın, onun məqsədlərinin, vəzifələrinin, funksiya və əməliyyatlarının xarakteristikası

14.2.Mərkəzi bank tərəfindən pul dövriyyəsinin tənzimlənməsi

14.3.Mərkəzi bank tərəfindən aparılan minimal ehtiyat tələblər siyasətinin xüsusiyyətləri

14.4. Uçot norması pul dövriyyəsinin tənzimlənmə aləti kimi

14.5.Mərkəzi bank tərəfindən açıq bazarda əməliyyatların həyata keçirilməsi

15.Kommersiya bankının fəaliyyət əsasları

15.1.Kommersiya bankı təsərrüfat subyekti kimi

15.2.Kommersiya banknın funksiya və əməliyyatlarının xarakteristikası

15.3.Kommersiya bankının balansı, onun analizinin məqsəd və vəzifələri

15.4.Kommersiya bankının kapitalının likvidliyi və kafiliyi

16.Bank faizi

16.1.Faizin, onun mahiyyətinin və növlərinin xarakteristikası

16.2.Kommersiya bankının depozit siyasəti və depozit faizi

16.3.Borc faizi, onun funksiyaları və rolu

17.Bank riskləri

17.1.Bank riskləri anlayışı və onların təsnifatı

17.2.Bank risklərinin əsas növlərinin xarakteristikası

18.Bank işində marketinq və menecment

18.1.Bankda marketinq

18.2.Bank menecmenti

19.Bank auditi

V FƏSİL. VALYUTA SİSTEMİ VƏ BEYNƏLXALQ VALYUTA KREDİT MÜNASİBƏTLƏRİ

20.Valyuta sistemi

MUHASIBAT.AZ

20.1.Valyuta sisteminin və onun elementlərinin xarakteristikası
20.2.Müasir valyuta sistemləri və valyuta inteqrasiyası
21.Valyuta kursu və valyuta tənzimlənməsi
21.1.Valyuta kursu və onun növ təsnifatı
21.2.Valyuta kursunun müəyyənləşdirilmə üsullarının xarakteristikası
21.3.Valyuta tənzimlənməsi və onun alətləri
22.Valyutaların konvertasiya edilməsi
22.1.Valyutaların konvertasiya edilməsi anlayışı və zərurəti
22.2.Valyutaların konvertasiya edilməsinin forma və şərtləri
23.Beynəlxalq bank əməliyatları
23.1.Beynəlxalq hesablaşma əməliyyatları nəzəriyyəsi
23.2.Beynəlxalq iqtisadi münasibətlərdə hesablaşma formaları
Ədəbiyyat

MUHASIBAT.AZ

PUL, KREDİT, BANKLAR

Giriş

Bank sistemi bazar iqtisadiyyatının ən mühüm tərkib hissəsidir. Ona görə də bazar iqtisadiyyatlı müasir dövlət müxtəlif pul-kredit instrumentlərindən istifadə etməklə, praktik olaraq milli iqtisadiyyatın bütün parametrlərinə təsir edə bilər.

Müasir şəraitdə nəinki təkcə pul və ya kredit nəzəriyyəsinin işlənilib hazırlanması problemi xüsusi əhəmiyyət kəsb edir, həm də, əvvəla, iqtisadiyyatda mərkəzi və kommersiya banklarının yeri və rolunun aydınlaşdırılması, ikincisi, müxtəlif səviyyələrdə banklar arasında yaranan qarşılıqlı münasibətlərin araşdırılması, üçüncüsü, makro- və mikro iqtisadi problemlərin həll olunması məqsədilə mərkəzi və kommersiya banklarının potensial imkanlarından daha tam istifadə etmək üçün optimal şəraitin yaradılması da xüsusi əhəmiyyət kəsb edir.

Müasir bank işi üçün nəinki təkcə «ənənəvi» pul-kredit instrumentariyasını daim mükəmməlləşdirmək səciyyəvi sayılır, həm də həmişə cəmiyyətin iqtisadi həyatına bankın təsiri üçün yeni-yeni forma və metodlar meydana çıxır. Bütün bunlar iqtisadi müvazinətin dəstəklənməsinə xidmət edir.

Bu şərtlərə etinasızlıq göstərmək isə istənilən ictimai quruluşlu dövlətlərin iqtisadiyyatı üçün ən ağır nəticələrə səbəb olmuş və səbəb olmaqdadır. Bu, məsələn, pul kütləsinin artıqlığı fenomeninə, milli pul vahidinin valyuta kursunun uzun müddət direktivlərlə təsbit edilməsinə, eləcə də pul-kredit məkanının digər «güc–zor» vasitələri ilə tənzimlənilməsinə aiddir. Mərkəzi bankın elmi cəhətdən əsaslandırılmış pul tədavülü tənzimlənməsi pul bazarının istənilən

MUHASIBAT.AZ

ünsürünə – nəqd və nəqdsiz formada təklif olunan pul həcminə, tələbin kəmiyyətinə və kreditin dəyərinə və s. doğru yönəldilə bilər.

Təklif olunan dərs vəsaitində pul, kredit, bank sisteminin təşkili və fəaliyyətinin əsas prinsipləri, eləcə də müxtəlif kredit-maliyyə institutlarının nəzəriyyəsi işıqlandırılmışdır. Müəllifin uzun illər ərzində Azərbaycan Dövlət İqtisad Universitetində, eləcə də maliyyə-iqtisad fakültəsində «Pul, kredit, banklar» tədris kursu üzrə oxuduğu mühazirələr bu vəsaitin yazılması üçün əsas olmuşdur.

Bu dərslik hazırlanarkən yalnız müəllifin şəxsi elmi araşdırmaları və düşüncələri deyil, eləcə də pul-kredit və bank problemləri üzrə mövcud olan əhəmiyyətli və daha maraqlı elmi və elmi-metodik material ümumiləşdirilmiş və yenidən işlənilmişdir. Dərs vəsaitində göstərilən istifadə olunan ədəbiyyat siyahısı bunu bir daha təsdiq edir.

MUHASIBAT.AZ

I bölmə. Pul nəzəriyyəsi

1. PULUN ZƏRURİLİYİ VƏ ONUN MAHİYYƏTİ

1.1. PUL İQTİSADİ KATEQORİYA KİMİ

Pulun təbiətinin nəzəri cəhətdən dərk olunması üçün ilk cəhdlər hələ qədim dövrün böyük mütəfəkkirləri – Ksenofont, Platon və xüsusilə də haqlı olaraq iqtisad elminin, o cümlədən pul haqqında elmin banisi sayılan Aristotel tərəfindən edilmişdir. Məsələn, Aristotel hesab edirdi ki, hər hey pulla dəyərləndirilməlidir, çünki bu, həmişə insanlara xidmət mübadiləsinə imkan verir və beləliklə də cəmiyyətin mövcudluğunu mümkün edir. Aristotel nəinki pulun təbiəti və funksiyaları haqqında bir sıra çox mühüm elmi fərziyyələr söyləyib, eyni zamanda faktiki olaraq pulun elmi nəzəriyyəsinin əsasını təşkil edən «əmtəə», «kapital» kimi iqtisadi kateqoriyaların qarşılıqlı əlaqəsində pulun analizinə uğurlu cəhdlər etmişdi.

Pul probleminə bir çox kitablar həsr olunmuşdur, lakin yenə də əvvəlki tək sirr olaraq qalır: niyə kağız pullar ayrıca bir şəxsin əlində çoxaldıqda onun fərdi varidatını artırır, bütövlükdə cəmiyyətdə pul kütləsinin artması ictimai zənginliyin artmasına xidmət etmir. Əvvəllərdə olduğu kimi, ingilis siyasətçisi Qladstonun məlum zarafatı yenə də təbəssüm doğurur: «Hətta məhəbbət də pulun mahiyyəti haqqında düşüncələr kimi bu qədər çox adamı dəli etməmişdir».

Bir çox hallarda pulun mürəkkəbliyi onun qeyri-adi xüsusiyyəti – tarixin müxtəlif mərhələlərində fərqli şəkillərdə təzahür edən malların mübadiləyə məruz qalması mahiyyətinə müncər olmaqa izah edilir. Səciyyəvidir ki, iqtisadi nəzəriyyə üzrə bir sıra müasir kitablarda «pul tədavül vasitəsi, hesablama vahidi və dəyərin saxlanılması vasitəsi kimi fəaliyyət göstərən hər bir əmtəə şəklində müəyyənləşdirilir».[1] Pulun əhəmiyyətini göstərən C.S.Mill (1806-1873) vaxtilə yazmışdı ki,

[1] Харрис Л. Денежная теория. М., 1990, с. 75.

MUHASIBAT.AZ

«əgər pulun ixtirası əməyə və vaxta qənaət etməsəydi, iqtisadiyyatda öz təbiətinə görə onun qədər daha az əhəmiyyətli şey ola bilməzdi. Bu, yalnız elə bir maşındır ki, onun yoxluğu zamanı daha ləng və rahatlığı az olunanı mövcudluğu halda daha tez və rahat edir; və, bir çox təkmilləşmələrdə olduğu kimi, onun əhəmiyyəti yalnız onun sınması baş verən zaman daha aydın təzahür edir».[2]

Pul – əmtəə istehsalının tarixi kateqoriyasıdır, mübadilə prosesinin uzunmüddətli inkişafının obyektiv şərtlənmiş nəticəsidir. Hər bir dəyişmə münasibətində bir-biri ilə mübadilə edilən malların ekvivalentliyi birinci dərəcəli əhəmiyyət kəsb edir. İctimai məhsulun iki müqayisə edilən məhsulu arasındakı kəmiyyət nisbətini aydınlaşdırmaq üçün, müqayisə olunan malların hər birinin ölçülməsi üçün üçüncü daimi kəmiyyətin varlığı zəruridir. Ona görə də müxtəlif əmək məhsullarının dəyər ölçülüyü əsasında meydana gələn pul onların dəyər nisbətinin ifadəsi üçün xarici forma rolunu oynayır. Obrazlı desək, pul digər ölçülərlə – metr, kiloqram, dərəcə və s. ilə həm oxşardır, həm də oxşar deyil.

Müasir pulların meydana gəlməsinin ilkin tarixi ondan ibarətdir ki, *birinci böyük ictimai əmək bölgüsü (maldarlığın əkinçilikdən ayrılması)* və tarixin müəyyən inkişaf mərhələsində istehsalın ixtisaslaşması insan fəaliyyəti məhsullarının mübadiləsini mütləq təsadüfidən sabitə, mütəmadi təkrarlanan hadisəyə çevirir. Qanun qüvvəsi alan obyektiv, sabit, daim təzələnən əlaqələr sistemi bu əsasda formalaşır. Dəyər qanunu əmtəə dövriyyəsini əhatə edir, insan əməyinin məhsulu isə (əşya) istehsalçısı və istehlakçısının müəyyən ictimai münasibətlərinin daşıyıcısına çevrilərək əmtəə formasını alır. Əşyanın əmtəəyə çevrilməsi pulun meydana gəlməsi üçün obyektiv müqəddəm şərtlər yaradır.

[2] İqtibas: Фридмен М. Если бы деньги заговорили… . М., 1999, с. 139.

MUHASIBAT.AZ

Əmtəə və pul özlüyündə əksliklərin vəhdətindən ibarətdir. Pul da əmtəədir, lakin spesifik, bütün digər əmtəələrə əks olan və xüsusi ictimai rol oynayan xüsusi növ əmtəədir. *Pul elə bir vahid əmtəədir, ekvivalentdir, xüsusi əmtəədir ki, onunla bütün digər əmtəələrin dəyəri ifadə olunur və əmtəə istehsalçıları arasında onun vasitəsi ilə əmək məhsullarının mübadiləsi həyata keçirilir.*

Ümumi ekvivalent rolunda çıxış edən xüsusi «əmtəə» olmadıqda konkret bazarda tələb və təklif zamanı uyğunsuzluq ucbatından mübadilə baş tutmaya bilərdi. Hətta həmin bazar üçün tələb və təklif bütövlükdə bir-birinə uyğun olsa belə, bu halda bilavasitə məhsul istehsalçılarının maraqları uyğun gəlməyə bilər, çünki, məsələn, taxıl sahibi onu yalnız mal-qaraya dəyişmək istəyir, mal-qara sahibinə isə müasir avtomobillər lazımdır, mübadilə üçünsə ona kompüter təklif edirlər (faktiki olaraq bu situasiyada mübadilə baş tuta bilməz). Mübadilə nisbəti müəyyən dərəcədə əmtəənin istehlak xüsusiyyətləri ilə şərtlənir, belə ki, məsələn, əmtəəni istənilən ölçüdə taxıla dəyişmək olar, amma onu sərbəst bölünməyə malik olmayan elektrik lampasının yarısına, baltanın dörddə birinə dəyişmək olmaz.

Yalnız əmtəə istehsalçılarının mübadilə sövdələri üzrə «ümumi məxrəc» rolunda spesifik əmtəənin meydana gəlməsi həmin ziddiyyətin həllinə imkan verdi, əmtəə mübadiləsinin çətinliklərini dəf etməyə imkan yaratdı. Bu, tarixən dəyərin tam və ya bütöv formasından sadə əmtəə forması şəraitində baş verən dəyərin ümumi formasına keçidlə bağlıdır. Dəyərin sadə, tək və ya təsadüfi formalarından başlayaraq, onun pul formasında başa çatmasınadək *dəyər formalarının* nəzərdən keçirilməsi həmin proses haqqında tam təsəvvür yaradır.

Dəyərin *sadə, tək* və ya *təsadüfi formalarının* mahiyyəti ondan ibarətdir ki, bir əmtəə öz dəyərini digər əmtəədə ifadə edir. Bu zaman birinci əmtəə aktiv (fəal), ikincisi isə passiv rol oynayır. Birinci əmtəə

dəyərin nisbi formasında, ikincisi isə – dəyərin ekvivalent formasında olur, yəni onlardan hər biri digərini istisna edir və eyni zamanda onu şərtləndirir. Ona görə də bir əmtəə eyni vaxtda həm nisbi, həm də ekvivalent dəyər formasında ola bilməz.

Dəyərin tam və ya *geniş forması* hər biri birinci əmtəənin dəyərini əks etdirən hər hansı bir əmtəənin dəyərinin sonsuz sayda digər əmtəələrdə ifadə olunmasını nəzərdə tutur. İndiki halda təkcə müxtəlif sayda fərqli əmtəələr deyil, bərabər sayda insan əməyi itkisi müqayisə edilir. Bununla belə, pulun tam və ya geniş dəyər formasının aşağıdakılardan ibarət çatışmazlıqları vardır:

- indiki halda əmtəənin nisbi dəyəri tamamlanmamış qalır, çünki onun dəyərinin bir sıra ifadələri praktiki olaraq heç vaxt başa çatmır;
- dağınıq və müxtəlif cinsli dəyər ifadələrinin çeşidli mənzərəsi yaranır;
- hər cür digər əmtəənin nisbi dəyər formasının ifadəsindən fərqlənən sonsuz sayda dəyər ifadələri meydana çıxır.

Bu çatışmazlıqları xeyli dərəcədəsonsuz sayda əmtəənin bir əmtəədə dəyər ifadəsini özündə əks etdirən *dəyərin ümumi forması* aradan qaldırır, yəni indiki halda ümumi ekvivalent forması istənilən əmtəəyə mənsub ola bilər. Lakin belə əmtəə ona görə ekvivalent formada olur ki, o bir çox əmtəələr arasında fərqlənir və ya onlar tərəfindən ona təkan verilir. Pul keyfiyyətində fəaliyyət göstərən pul əmtəəsi belə ekvivalent formasına çevrilir. Pul əmtəəsinin əmtəə aləmində ümumi ekvivalent rolunda çıxış etməsi onun spesifik ictimai funksiyasına və ya onun ictimai inhisarına çevrilir. Ona görə də ümumi əmtəə dəyər formasında yeganə əmtəəni əvəz edən konkret əmtəə – «qızıl» *dəyərin pul formasını* aldı. Elə ki qızıl əmtəə aləminin dəyərlərinin ifadə olunmasında özünə inhisarçılıq qazandı, onda pul əmtəəsinə çevrildi, ümumi dəyər forması isə pula çevrildi.

MUHASIBAT.AZ

Əmtəənin daxili dialektik ziddiyyətinin nəticəsi olan əmtəə mübadiləsi ziddiyyətləri əmtəə dünyasından əmtəə sövdələri zamanı ekvivalent rolunu icra edən xüsusi dəyişmə dəyərinin ayrılması üçün şərait yaradır. Beləliklə, pul əmtəə mübadiləsi üçün zəruri məhsuldur. Bununla yanaşı, onlar əmtəəyə çevrilən əmək məhsulu mübadiləsinin ümumi xarakter alması üçün şəraitə çevrilirlər.

Yuxarıda nəzərdən keçirilən dəyərin sadə, tək formasından pul formasına keçməsi prosesi həm də əməyin ictimai bölgüsündəki dəyişikliklərlə və istehsalın inkişafı ilə şərtlənmişdir. Belə ki, *ikinci böyük ictimai əmək bölgüsü* – sənətkarlığın əkinçilikdən ayrılması ümumi ekvivalentin təkmilləşməsinə səbəb oldu. Ümumi ekvivalentin ən qeyri-mükəmməl forması tipi – mal-qara, xəz, balıq – çəki xarakteristikasına malik olan ekvivalentlərlə əvəz olunur: bölünənlik, bircinslilik, portativlik, uzunmüddətlilik, standartlaşdırıla bilmək, tanınanlıq.

Əsasən sənətkarların yaşadıqları şəhərlərin və kənd təsərrüfatı ilə məşğul olan oturaq əhaliyə malik kəndlərin meydana gəlməsi ilə mal-qaranın ümumi ekvivalent funksiyasını yerinə yetirmək qabilliyi lüzumsuz oldu. Onu az xarab olan çeşidli bitki məhsulları əvəz etdi. Qərbi Avropanın ayrı-ayrı hissələrində taxıl, müasir Meksikanın ərazisində – mais (qarğıdalı), Kiçik Asiyada – zeytun yağı, Filippin adalarında – düyü və s. dövriyyə aləti oldular. Müəyyən mərhələdə mineral xammal məhsullarından qabqarılmış duz və ya daş duz parçası pul kimi istifadə olunmuşdu.

İkinci böyük ictimai əmək bölgüsü metalların – dəmir və qalayın, qurğuşun və misin, gümüş və qızılın ekvivalent kimi tətbiq edilməsinə imkan verdi. Qalay pul qədim Meksikada və Yava adasında məlum idi. Mis pul kimi qədim Çində və qədim Romada bəlli idi, sonralar isə mədəni ölkələrin əksəriyyətində xırda pul kimi istifadə olunmuşdur.

MUHASIBAT.AZ

XVII əsrin ortalarında Şimali Amerikada qurğuşun diyircək (kürəcik) xırda ödənişlərdə istifadə olunmuşdu.

Bununla belə, metallar arasında əsas yer tədricən qızıl və gümüşə verilir, çünki ümumi ekvivalent üçün vacib olan bütün keyfiyyətlərə – az həcmlə böyük dəyərə və xarici mühitə dözümlülüyə məhz onlar malikdirlər. Onlar paslanmırlar və buna görə də istifadə üçün əlverişlidirlər. Tam dəyərli metal pulların meydana gəlməsi ilə əmtəə mübadiləsi əmtəə-pul dövriyyəsinə çevrildi ki, burada da əmtəə dövriyyəsi ilə pul dövriyyəsi qarşılıqlı surətdə bir-birini şərtləndirir. Bu həlqədə əmtəə dövriyyəsi pul dövriyyəsinin ilkin müqəddəm şərtidir. İkinci olan pul dövriyyəsi yalnız əmtəə istehsalında inkişaf edən prosesləri əks etdirir və möhkəmləndirir.

Hərçənd pulun inkişafı əmtəə istehsalı qanunauyğunluğu səbəbindən irəli gəlir, bununla belə, pul dövriyyəsinə passiv, qeyri-müstəqil rol şamil etmək olmaz. Onun özünün də inkişaf qanunları var və öz növbəsində əmtəə dövriyyəsinə, onun vasitəsi ilə də əmtəə istehsalına əks təsir göstərir. Bundan əlavə, metal pul dövriyyəsinin meydana çıxması onu ciddi dövlət nəzarətinin təsirinə məruz qoydu, amma əmtəə bazarı isə onun çox cüzi kənar təsirinə məruz qalmışdır. Pulun və dövlət hakimiyyətinin subyektiv əlaqəsi pul dövriyyəsinin bütün sonrakı inkişafına öz təsirini göstərmişdir.

Ona görə də pul istehsalı və mübadiləyə fərqli ixtisas səviyyəli əməyin və buna müvafiq olaraq müxtəlif məhsuldarlıqlı əməyin fərqli sərfi ilə istehsal olunmuş müxtəlif məhsullara sərf olunan ictimai əməyin ölçülməsinə imkan verən istehsala və mübadiləyə əmtəə və ümumi ekvivalent kimi lazım olmuşdur. Buna görə də pul özlüyündə bütün istehsal münasibətləri məcmusunda mühüm həlqədir və onsuz əmtəə istehsalı mövcud ola bilməz.

Əmtəə və pul öz təbiətlərinə görə eynimənşəlidirlər, yəni ümumi mənşə əsasında oxşarlığa, bənzər təbii özülə malikdirlər. Amma əmtəə

MUHASIBAT.AZ

aləmindən ayrılan və ona mütləq zidd olan pul əmtəə ilə ictimai bərabərsizlik qazanır. Əmtəə malları dövriyyə sferasında müvəqqətidirlərsə və gec-tez bu sferadan getməlidirlərsə, pul həmin sferanın daimi iştirakçısıdır və həmişə ona müraciət edilməsi qaçılmazdır. Bu məsələdə onun təbiəti əmtəənin təbiətindən köklü surətdə fərqlənir. Ona görə də əmtəədən törəyib inkişaf edən pul bütün əmtəə aləmindən fərqlənən xüsusi əmtəə kimi qalmaqdadır.

Pulun əmtəə aləmindən ayrılması ona gətirir ki, o spesifik ictimai funksiya yerinə yetirməyə – bazarda malların mübadiləsi zamanı vasitəçi olmağa başlayır.

Pul bir tərəfdən, istənilən başqa əmtəələr kimi ictimai zəruri əmək sərfi ilə müəyyənləşdirilən daxili dəyərə malikdir, digər tərəfdən isə xüsusi əmtəə olan pul adi əmtəə kimi həmin dəyəri qiymətdə ifadə edə bilmir və mübadilə nisbəti və ya mübadilə dəyərlərində təsbit olunaraq dəyəri sonsuz çeşidli əmtələrə nisbətən ifadə edir. *Pulun dəyişilmə dəyəri* – onların nisbi ifadəsi və ya alıcılıq qabiliyyətidir.

Pulun bir-biri ilə sıx əlaqədə olan daxili və mübadilə dəyərləri nisbətən sərbəstdir. Bunlardan hər birisi həm ümumi, həm də spesifik amillərin təsiri altındadır. Bir tərəfdən bazar şəraiti mübadilə və daxili dəyərə bərabəristiqamətli təsir göstərir, digər tərəfdən isə sikkənin meydana gəlməsi ilə pulun mübadilə dəyrinə dövlət güclü təsir göstərir.

Pul *dövriyyə vasitəsi* və ayrı-ayrı əmtəə istehsalçılarını və bazarı ictimai əmək bölgüsü əsasında vahid iqtisadi orqanizmdə bir-biri ilə bərk bağlayan qüvvədir.

Pulu, sahillərində satıcıların və alıcıların durduğu, tələb və təklifin, qiymət və əmək haqqının olduğu, çay üzərində salınmış körpüyə bənzətmək olar. Faktiki olaraq pul – əmtəə istehsalçıları arasında rabitə vasitəsidir, hərçənd o ictimai əmək bölgüsü və ayrılmış əmtəə istehsalçıları kooperasiyası vasitəsi ilə istehsal sferasında

MUHASIBAT.AZ

meydana gələn ictimai əlaqələrin yaradıcısı deyil. Pul ictimai əlaqələri möhkəmləndirir, mübadiləyə sabitlik verir, bazar vasitəsi ilə əmtəə istehsalçılarının ictimai əlaqələrinin etibarlı güvəncidir. Təbii əmək bölgüsünün mövcud olduğu natural təsərrüfatda belə mübadilə forması olmamışdır və təsərrüfat bölgüsü daxilində mübadilə qan qohumluğu münasibətləri əsasında baş verirdi.

Pulun istehsal münasibətlərinin ictimai forması kimi mahiyyətinin tədqiq olunduğu zaman, onun hansı materialdan hazırlandığının – istər metal, istərsə də kağızdan olsun – heç bir mənası yoxdur, necə ki, uzunluq ölçülərkən metrin dəmirdən, taxta və ya parçadan düzəldilməsinin heç bir mənası yoxdur. Bununla belə, pul statik kateqoriya deyil, onu nəsə dəyişməz, öz varlığında həmişə donmuş kimi qəbul etmək də olmaz. Pul, bir formasını digəri ilə əvəz etməklə inkişaf edir, yəni ümumi ekvivalentin konkret mücəssəməsi dəyişir, o daim inkişaf edir.

Tarixən *pul müxtəlif formalarda mövcud olmuşdur*. Lakin «cəmiyyətin inkişafının, yüksək keyfiyyət kimi xarakterizə olunan erkən mərhələlərində uzunmüddətli istifadə üçün maddi əmtəə kimi bir şey idi…».[3] Məsələn, bu dəmir, mis, latun, at, qoyun, keçi, tısbağa çanağı, dəniz donuzunun dişi, balina bığı, qaban köpək dişi, quş lələyi, şüşə, pardaxlanmış diyircəklər (mirvari), kənd təsərrüfatı alətləri, deşilmiş iri daşlar, ilbiz çanaqları, oyun kartları, dəri, qızıl, gümüş, qətran, inək, qul, kağız və s. ola bilərdi.

Bununla yanaşı, pulun tarixi genezisi – ayrı-ayrı təsadüflərin nəticəsi deyil. Bir tərəfdən, pulun təkamülü istehsal münasibətlərinin ümumi qanunauyğunluğu ilə müəyyən edilir, digər tərəfdən isə – pulun inkişafı onun özündə olan qanunauyğunluğa əsasən diktə edilir. Əmək məhsulunun əmtəə formasında əks olunan ziddiyyətlərin həllinin

[3] Дж.Р. Хикс. Стоимость и капитал. М., 1988, с. 283.

MUHASIBAT.AZ

nəticəsi kimi meydana çıxan pulun – məhz dialektik ziddiyyətin özü kimi inkişaf mənbəyi vardır.

Ona görə də pulun mahiyyətinin elmi izahı ümumiləşdirilmiş formada onun inkişaf tarixinə malik olmalıdır və özünün hər konkret formasında təsdiqini tapmalıdır. Bu onu bildirir ki, əmtəə mübadiləsi formasının tarixi hərəkəti prosesində pulun meydana çıxması və inkişafının araşdırılması pulun mahiyyətini açır. Xarakterik haldır ki, müxtəlif nəzəriyyələr pulu müxtəlif cəhətlərdən təsvir edirlər. Məsələn, *metal nəzəriyyəsi* pulu qiymətli metallarla eyniləşdirir və onların təbiətən pul olmaq xüsusiyyətinə malik olduğunu bildirir. *Nomianlist nəzəriyyə* pulu şərti işarələ aid edir, *kəmiyyət nəzəriyyəsi* isə pulun əmtəə və xidmətə mübadiləsi zamanı dəyişilməsi nöqteyi-nəzərindən dəyərləndirir. *Pulun dövlət nəzəriyyəsi* onun yaradılmasını dövlətə aid edir.

Pul özlüyündə əmtəə istehsalında meydana çıxan bütün mübadilələr zamanı əmək fəaliyyətinin nəticəsi kimi istehsal münasibətləri məcmusudur. Bu mübadilə müxtəlif formalarda milli və beynəlxalq bazarlarda baş verə bilər. Bununla belə, pulun öz maddi daşıyıcısı da olmalıdır. Bu, ümumi ekvivalentin hər bir tarixi dövrdə öz ifadəsini tapan konkret əmtəələrlə bağlıdır. Ona görə də pulun mahiyyəti «ümumi ekvivalent» məfhumu vasitəsi ilə ifadə olunur. Eyni zamanda «ümumi ekvivalent» məfhumu tarixi inkişafın hər bir mərhələsində, ümumiyyətlə, pulun mahiyyətini deyil, əmtəə istehsalının və dövriyyənin müxtəlif mərhələləri hüdudunda dolğunlaşan yeni məzmunlu spesifik mahiyyətini bildirir.

İqtisadi kateqoriya kimi *pulun inkişafı* elə həyata keçirilir ki, bir tərəfdən, istehsalın miqyasının gücləndiyini əks etdirən alqı-satqı aktlarının kəmiyyətcə artımı, onun dinamizminin artması, istehsal sferasında keyfiyyətcə yeni əlaqələrin yaranması baş verir ki, bunlar da, digər tərəfdən, dəyərin həmin formasının realizasiyası

MUHASIBAT.AZ

imkanlarının daha çox məhdudlaşdırılması ilə üzləşir, belə ki, müəyyən məqamdan etibarən pulun istehlak dəyərinin pulla vasitələnən ictimai funksiyaların inkişafını dayandırır (tormozlayır).

Bununla da pul münasibətlərinin müqəddəm ziddiyyətlərinin kəskinləşməsi üçün şərait yaradılır – əmtəə ilə pul arasında istehsal və tədavül sferaları arasında ötürücü mexanizm kimi dialektik ziddiyyət yaradılır. Məsələn, öz təbii xüsusiyyətlərinə görə nə mal-qara, nə taxıl, nə xəz milli bazarın yaranmağa başladığı məqamdan etibarən pul funksiyalarını yerinə yetirə bilmədilər. Bu rolun yerinə yetirilməsi yalnız metalların qüvvəsi daxilində idi və onlar bütün əvvəlki ümumi ekvivalentləri sıxışdırıb dövriyyədən çıxarmışdılar. Ona görə də pulun inkişaf mənbəyi kimi onun daxili ziddiyyəti çıxış edir ki, onun da mahiyyəti «pul münasibətlərinin əşya daşıyıcısı ilə pulun yerinə yetirdiyi ictimai funksiyalar arasındakı münaqişədən ibarətdir. Bu ziddiyyət pulun bütün sonrakı inkişafının başa düşülməsi üçün açar rolunu oynayır: pulun ayrı-ayrı funksiyalarının meydana gəlməsi və təkamülü; pulun formalarının inkişafı; pul daşıyıcılarının birinin digəri ilə əvəz olunması; dəyərin formalarının dəyişilməsi; milli pul və beynəlxalq valyuta sistemlərinin ayrılması».[4]

Pulun iqtisadi kateqoriya kimi təkamülü – pulun özünün daxili dialektik ziddiyyətinin həll olunmasının qanunauyğun nəticəsidir. Müasir istehsalatda baş verən proseslər isə göstərir ki, kağız (kredit) pullar deyil, yalnız əmtəə real dəyərə malik olmağa başlayır. Bunun təsdiqini onunla göstərmək olar ki, müasir pulun hazırlanmasına (pul formasında) sərf olunan əmək itkisi onun ifadə etdiyi nominal pul dəyəri ilə üst-üstə düşmür. Bununla belə, onun müəyyən dəyəri var, çünki konkret, real qiymətə malik olan əmtəənin haqqının ödəənməsi üçün qəbul olunur. Bu onu bildirir ki, müasir pul spesifik ümumi ekvivalent kimi əmtəə mübadiləsinin tələblərini ödəmə qabiliyyətinə

[4] İqtibas: Пашкус Ю.В. Деньги и валютная система современного капитализма. Л., 1983, с. 4.

MUHASIBAT.AZ

malikdir və əmtəə kütləsi bilavasitə onunla dəyişdirilir. Ona görə də hazırda pul spesifik pul əmtəəsi dəyərinin simvolik forma daşıyıcısıdır, yəni dəyər işarəsi rolunda çıxış edir.

Başqa sözlə desək, qızılın pul dövriyyəsi sferasından getməsi ilə əmtəə dəyərinin klassik pul forması əvəzinə yeni dəyər forması meydana çıxdı ki, bununla da hər bir əmtəə bazarda olan bütün əmtəə dəyərlərinin bir hissəsi kimi öz mübadilə ifadəsini tapır. Əmtəə kütləsinin bir hissəsi və ya qismi onların qiymətləri ilə təsbit olunur ki, bu da müasir pulun köməkliyi ilə birbaşa və bilavasitə bütün əmtəə kütləsinin məcmu dəyərinə bağlanır. Ona görə də müasir pul real qiymətə malik olan, üzvi olaraq həqiqi pulun ifadə etdiyi funksiyaları kifayət qədər dəqiq imitasiya etmək və təkrarlamaq imkanına malik olan real pulun yalnız modelidir.

1.2. PULLARIN MƏNŞƏYİ VƏ MAHİYYƏTİ İLƏ BAĞLI MÜBAHİSƏLİ MƏSƏLƏLƏR.

Müasir şəraitdə pulun nə olması və onun ictimai təkrar istehsal mexanizmində hansı yeri tutması haqqında dəqiq elmi təsəvvür yoxdur. Pulun yaranması və mahiyyəti haqqında nəzəri mübahisələr müasir iqtisadi ədəbiyyatda özlüyündə pul kütləsinin strukturu və həcmini xarakterizə edən konkret ünsürlər yığımı məsələsi ilə sıx çulğaşır. Pulun iqtisadi təbiəti tez-tez onun forma və növləri barədəki məsələ ilə əvəzlənir, bəzən isə müxtəlif pul aqreqatlarının konstruktorlaşdırılması problemləri ön plana çıxır.

Bank fəaliyyətində kompüter texnologiyasından kütləvi şəkildə istifadə olunarkən böyük çətinliklər meydana çıxır. Bu, «*elektron pullar*», yəni kompüter yaddaşındakı hesablarda olan pullar məfhumunun yaranmasına səbəb olur. Elektron pullar sistemində pulun özü özünün dövlətdaxili xarakterini itirir və dövlətüstü (fövqəldövlət) fenomeninə çevrilir. Əgər bunun milli valyuta

MUHASIBAT.AZ

emitentləri ilə qırılmaz və sıx əlaqələri olarsa, onda bu, baş verməyə də bilər. Əks halda «milli valyutaların yalançı dəyəri» kimi hadisə ilə toqquşmaq mümkündür.[5]

Elektron pulların mövcudluğu zamanı pul sistemi müəyyən dərəcədə dövlət idarəetmə sistemi ilə qarşılıqlı təsir göstərən, lakin onunla qovuşmayan müəyyən sistemə çevrilir. Bunun nəticəsində elektron pulların fəaliyyət göstərdiyi zaman mərkəzi bankın rolu dəyişir, bütövlükdə bank sisteminin fəaliyyəti mühüm əhəmiyyət kəsb edir. Bu, iqtisadiyyatda mərkəzi və kommersiya banklarının bərabər səviyyəli olmasını bildirmir. Onların məqsədləri, funksiya və rolları fərqli olaraq qalır, lakin nəzərə almaq lazımdır ki, maddi ifadəsi (əşya daşıyıcısı və ya bərk surətləri) olmayan elektron pulların verifikasiyası (həqiqiliyinin müəyyənləşdirilməsi) yalnız müəyyən şəkildə düzülmüş formada və yalnız informasiya təminatı vasitələri ilə mümkündür. Bu şərt pul və pul tədavülü haqqında ənənəvi təsəvvürlərə öz nəzərə çarpacaq düzəlişlərini edir. Hazırda pulun yaranması haqqında mövcud olan çoxsaylı konsepsiyalar arasında *rasionalist* və *təkamül* konsepsiyaları daha əhəmiyyətli sayılır.

Birincisi pulun yaranmasını insanlar arasında razılaşmanın nəticəsi kimi izah edir ki, dəyərlərin yerdəyişmələri üçün mübadilə dövriyyəsində xüsusi instrumentlər labüddür. Müqavilə kimi pul ideyası ta XVIII əsrin sonuna qədər şəriksiz ağalıq etmişdir.

Pulun rasionalist yaranması nəzəriyyəsi ilk dəfə olaraq Aristotelin «Nikomax etikası» əsərində meydana gəlmişdir və bu əsərdə göstərilirdi ki, mübadilənin bütün iştirakçıları ümumi razılıq üzrə hər hansı şəkildə tutuşdurulmalıdırlar. İkinci təkamül konsepsiyasına görə pul təkamül prosesində meydana gəlib və insanların iradəsindən asılı olmayaraq, bəzi əşyaların ümumi kütlədən ayrılaraq xüsusi yer tutmalarına səbəb olmuşdur.

[5] Müəllifin ilk dəfə «Проблемы современных денег и монетарная политика» // Белорус. эконом. журн. 2000, №3, с. 6 məqaləsində söylənilmiş tərifi.

MUHASIBAT.AZ

Pulun mahiyyəti və rolunun aydınlaşdırılması cəhdlərinin çoxəsrlik tarixi vardır və bu qəbildən həmin məsələlər hələ siyasi iqtisad klassikləri A.Smit və D.Rikardonun əsərlərində nəzərdən keçirilmişdir. Sonralar bu məsələlər XIX-XX əsrlərin digər görkəmli nəzəriyyəçiləri – K.Marks, C.S.Mill, U.Cevons, L.Valras, A.Marşall tərəfindən ümumiləşdirmələrə və tənqidi araşdırmalara məruz qalmışdır. XX əsrin birinci yarısında müasir iqtisad elminin klassikləri – C.Xiks, P.Samuelson, C.Tobin, F.Modilyani, D.Patinkin, M.Fridmen və b. pul nəzəriyyəsini öz əsərlərində inkişaf etdirmişlər. Pulun təbiəti və funksiyaları, iqtisadi münasibətlər sistemində onun yeri haqqında Aristotelin materialist ideyaları klassik siyasi iqtisad nümayəndələrinin əsərlərində inkişaf etdirilmişdir və onlar merkantalizm nəzəriyyəçilərinin qızıl və gümüşün öz təbiətlərinə görə pul olmaları haqqındakı illüzior – xülya təsəvvürlərinin puçluğunu açıb göstərmişlər. *Siyasi iqtisad klassikləri* tam əminliklə sübut etmişlər ki, pul rolunu ifadə edən əmtəənin dəyəri eynilə istənilən digər əmtəənin iş vaxtı ilə ölçüldüyü kimi müəyyənləşdirilir və bunun da nəticəsində əmtəənin pula mübadiləsi özlüyündə ekvivalentlərin mübadiləsidir. Siyasi iqtisadın klassik məktəbinin bu müddəasının pulun elmi nəzəriyyəsinin fundamental əsaslarının aydınlaşdırılmasında mühüm prinsipial əhəmiyyəti vardır.

Qızıl pul öz dəyərini pul əmtəəsinin dəyər substansiyasından əldə edir ki, bu da qızıl hasilatı sferasında yaradılır. Qızıl pulun dövriyyəsinin davamiyyətliliyi üçün onun tədavül sferasında daxili və mübadilə dəyərinin həmişə uyğun gəlməsi vacibdir. Bu vəhdətlik avtomatik olaraq qızıl külçələri ilə təmin olunurdu.

Qızıl pulun sikkə formasının meydana gəlməsi özünü çoxsaylı əmtəə proporsiyalarında ifadə edən külçə qızılın daxili dəyərinin və qızıl pulun mübadilə dəyərinin müəyyən qədər fərdiləşməsinə gətirib çıxarmışdır. Məsələ burasındadır ki, ayrıca mübadilə aktı nöqteyi-

MUHASIBAT.AZ

nəzərindən qızıl mübadilə olunan əmtəələrin və özəl substansiyanın daxili dəyərlərini mümkün qədər dəqiq nəzərə almalıdır. Eyni zamanda ictimaiyyət mövqeyindən dövriyyədə olan pulların dəyəri *konstant – dəyişməz* olmalıdır.

Qızıl pul dövriyyəsi şəraitində külçə metal dəyəri ilə sikkə metal dəyəri arasında hər hansı uzun müddətli fərq mövcud ola bilməz. Külçənin daxili dəyəri aşağı düşməyə başlayan andan ondan pul kəsmək sahiblər üçün sərfəli olmur. Əksinə, hər hansı səbəbdən sikkə metalın mübadilə dəyəri külçə metalın daxili dəyərindən yüksək olarsa, onda sikkə sahibləri üçün onları əridib külçəyə çevirmək və beynəlxalq bazarda satmaq əlverişli olacaq. Bu doğrudan da ta o vaxta qədər baş verəcək ki, göstərilən bərabərlik yenidən bərpa olunsun. Ona görə də qızıl sikkələrin dövriyyə davamlılığı yalnız əlverişli iqtisadi şəraitlərdə mövcud ola bilər. Müxtəlif növ iqtisadi sarsıntılar, müharibələr, böhranlar təmiz halda qızıl sikkə dövriyyəsini mümkünsüz edir.

Lakin K.Marksa qədərki klassik siyasi iqtisad pul – əmtəədəki özəl ümumi əmtəə xüsusiyyətlərini açа bilməmişdir. Bu məktəbin nümayəndələri pulda yalnız təmiz texniki dövriyyə vasitəsini görürdülər, çünki dövriyyəni əmtəənin adicə yerdəyişməsi kimi xarakterizə edirdilər. Belə ki, A.Smit güman edirdi ki, pul bütün digər əmtəələr kimi adi əmtəədən başqa bir şey deyildir. Məsələn, o qeyd edirdi ki, qızıl və gümüş «mətbəx qab-qacağı kimi adi məişət əşyasıdır».[6] D.Rikardo da oxşar fikir söyləyərək yazmışdır ki, «məhsullar hamişə məhsul və xidmətlərlə alınır; pul yalnız ölçü rolunu oynayır və onun köməkliyi ilə həmin mübadilə həyata keçirilir».[7] Qızıl və gümüşün yalnız mübadilənin texniki instrumentarisi (aləti) kimi pul rolu oynaması haqqında nöqteyi-nəzər müxtəlif iqtisadi təlimlərin nümayəndələri tərəfindən davam etdirilmişdir.

[6] См.: Смит А. Исследование о природе и причинах богатства народов. М., 1962, с. 322.
[7] См.: Рикардо Д. Начало политической экономии и налогового обложения. М., 1955, соч., т.1, с. 240.

MUHASIBAT.AZ

K.Marks pulun təbiətinin başa düşülməsində öz sələfləri ilə müqayisədə irəliyə doğru ciddi addım atmışdır. O, pulu mübadilənin texniki instrumentarisi kimi deyil, inkişafın sosial forması kimi, istehsal münasibətlərinin kateqoriyası kimi qiymətləndirirdi. Bir sıra müasir qərb iqtisadçılarının da analoji nöqteyi-nəzərdə durmaları diqqəti cəlb edir. Məsələn, L.Xarisə görə pulun ən fundamental xüsusiyyəti ondan ibarətdir ki, « o *ictimai fonemendir*. Pul başqa sözlə, təkcə ona görə mövcud deyil ki, insanlar ictimai varlıqlardır və onların bütün fəaliyyətləri (təsərrüfat fəaliyyəti də daxil olmaqla) ictimai struktur daxilində baş verir. Daha mühümü odur ki, pul yalnız müəyyən ictimai və təsərrüfat münasibətləri çərçivəsində fəaliyyət göstərir».[8]

Müasir pullar qızılla əlaqələrini itirdiyindən, qiymətli metallarla əvəz olunmayan kağız və ya kredit pulların dövriyyəsi şəraitində hər bir əmtəənin qiyməti özünün pul ifadə qiymətində (tamqiymətli pul ifadəsi) deyil, dəyər işarəsi vasitəsilə ifadə olunur. Ona görə də qızıl işarəsi olmayan müasir pullar yalnız dəyər işarəsi kimi və müvafiq olaraq ideal ümumi ekvivalent işarəsi kimi çıxış edir.

Hazırda pul nəzəriyyəsinin inkişafında baş verən çətinliklər onunla bağlıdır ki, pul həmişə təkamül prosesindədir, onun inkişafı düz xətt boyunca baş verməyib, tsiklik (dövri) xarakter daşıyır. Ona görə də pulun yaxşı öyrənilmiş köhnə formalarının qanunauyğunluqlarını müasir pul dövriyyəsinə induksiya etmək (köçürmək) cəhdləri üğurla nəticələnə bilməz. Nəzərə almaq lazımdır ki, pul nəzəriyyəsi hər bir elmin əsasında olan işlənilib hazırlanılmış təsnifatlı tədqiqat bazasına malik deyil. *«Kağız pullar» və «kredit pullar» anlayışlarının sərbəst şərhi* bir çox qarışıqlıqlar üçün əsas yaratmışdır. Pul nəzəriyyəsinin mövcud olduğu izolyasiyadan azad edilməsini tələb edən abstraktlaşdırma sərhədlərinin davamlılığı,

[8] Харрис Л. Денежная теория. М., 1990, с.76.

MUHASIBAT.AZ

bütövlükdə təsərrüfat proseslərində məcmudan ayrıca araşdırılarkən, habelə müasir pulun kredit, maliyyə və dövlət borcları ilə əlaqəsiz anlayışının qeyri-mümkünlüyü dayandırıcı amil rolunda çıxış edir. Bundan əlavə, pul nəzəriyyələrinin mövcud təsnifatlarının (metal, nominal və kəmiyyət) müasir iqtisadi zəminə sözsüz aid edilməsi onunla nəticələnmişdir ki, iqtisadçıların bir çoxu K.Marksın pul nəzəriyyəsini metal nəzəriyyəsi hüdudlarına pəncimləməyə çalışırdılar, hərçənd bu zaman onun kredit pullar haqqında təlimini kənarda qoyurdular. Gördüyümüz kimi, indiki zamanda pulun mənşəyi və mahiyyəti məsələsi üzrə nəzəri problemlər kəskin diskussiyalar meydanı kimi qalmaqda davam edir.

Bununla əlaqədar olaraq göstərmək lazımdır ki, əmtəələrin mübadiləsi gedişində meydana çıxan dəyişdirmə nisbətlərinin hər hansı qanuna tabe olmaması ilə əlaqədar iqtisadçılar arasında prinsipial mübahisələr yoxdur. Bunun ən sadə izahı ondan ibarətdir ki, əmtəənin faydalılığı nə qədər yüksək olarsa, digər əmtəələrlə dəyişdirmə nisbətində onun xüsusi çəkisi o qədər yüksək olur, ona görə də onun qiyməti yüksək olur. Son həddfaydalılığı nəzəriyyəsi tərəfdarları bu asılılığı hərtərəfli öyrənmişlər və bununla müasir pulların mahiyyəti kifayət qədər asan izah olunur.

Bununla belə, hazırda belə bir nöqteyi-nəzər də möcudluğunda qalmaqdadır ki, indi əsl pul elə qızıldır. Lakin bu heç də tam doğru deyil, çünki müasir şəraitdə qızıl sikkə dövriyyəsi yoxdur. Məlum olduğu kimi, onu kağız pul dövriyyəsi əvəz etmiş, kağız (kredit) pullar isə bir növü ümumi ekvivalentin əvəzedicisi rolunda çıxış edir. Bu, onunla şərtlənir ki, pul dövriyyəsinin kağız instrumentləri özünün klassik anlamında (əmtəə kimi) dəyərə malik deyil və elə buna görə də sözün tam mənasında tamdəyərli (klassik) pullar deyillər. Bundan əlavə, müasir iqtisadi nəzəriyyə və praktika mübadilə nisbətinin (dəyər

MUHASIBAT.AZ

nisbətlərinin) formalaşması prprosesləri ilə əmtəə və qızıl arasında qarşılıqlı əlaqə görmür.

Özünü yoxlama üçün suallar

1. Pulun meydana çıxması nə ilə şərtlənir?
2. Niyə «xüsusi» əmtəə olmadıqda mübadilə baş tutmaya bilər?
3. Dəyərin sadə və ya təsadüfi formasının mahiyyəti nədən ibarətdir?
4. Dəyərin tam və ya ətraflı forması nədir?
5. Ümumi dəyər forması hansı çatışmazlıqları aradan qaldırır və onun özü nədir?
6. Hansı şərtlər ümumi ekvivalentin təkmilləşdirilməsi üçün təkan rolunda çıxış etmişlər?
7. Niyə qızıl və gümüş digər metallar arasında aparıcı yer tutdular?
8. Pulun mahiyyəti nədədir?
9. Pulun mənşəyinin rasionalist və təkamül konsepsiyalarının mahiyyəti nədədir?
10. Niyə indiki dövrdə pulun mahiyyəti və rolu məsələləri mübahisəli olaraq qalır?

MUHASIBAT.AZ

2. PUL, ONUN TƏBİƏTİ VƏ MƏZMUNU

2.1. **PULUN XÜSUSİYYƏTLƏRİ, FORMALARI, TİPLƏRİ VƏ NÖVLƏRİ**

Ümumi ekvivalent rolunu oynayan pullar özlüyündə bilavasitə mübadilə forması (istənilən əmtəə bilavasitə pulla dəyişdirilə bilər), mübadilə dəyərinin sərbəst formasında (müxtəlif çeşidli əmtəələrin dəyərləri bir əmtəənin vahid şəkilli dəyər formasında ifadəsini alır), əməyin xarici əşyavi forması (sərf olunmuş əməyin hamısı bütövlükdə və ya onun bir hissəsi bir şəkilli pul ölçüsündə ifadə olunur) şəklində çıxış edən üç xüsusiyyətin vəhdətini təsbit edir.[9]

Pulun bilavasitə mübadiləçilik (dəyişdiriləbilmə) xüsusiyyəti əmtəələrin dövriyyəsi və ya onların realizasiyası (satışı) prosesində təzahür edir və bu zaman əhalinin pul gəlirlərinin bir hissəsi müxtəlif xalq istehlakı mallarına çevrilə bilər, eyni zamanda israf olunmuş istehsal xərclərinin ödənilməsi və istehsalın genişləndirilməsi üçün nəzərdə tutulmuş pul vəsaitləri şəxsi istehlak cisimlərinin alınması üçün yönəldilə bilməz. Bununla belə, həm birinci həm də ikinci halda pullar birbaşa (vasitəsiz) əmtələrə və xidmətlərə mübadilə edilir.

Pulun sərbəst dəyişdirmə dəyəri forması kimi xüsusiyyəti o halda təzahür edir ki, istehsal prosesi gedişində əmtəələrin məzmununda olan əməyin müqayisəsi əmtəələrin pul ilə tutuşdurulması (müqayisə edilməsi) yolu ilə baş verir. Əmtəələr mübadilə dəyəri kimi pul ilə ifadə olunur, pul isə ümumi ekvivalent kimi çıxış edir. Pul dəyər forması kimi məlum hərəkət müstəqilliyinə (sərbəstliyinə) malikdir (o əmanətlərdə yığıla bilər, ayrı-ayrı şəxslər arasında iqtisadi münasibətlərə xidmət edə bilər), amma mütləq zənginlik formasına çevrilə bilməzlər, çünki belə ki, əmək sərfinin hərəkəti heç də həmişə

[9] См.: Маркс К., Энгельс Ф. Соч., т. 23, с. 140, 65, 101.

MUHASIBAT.AZ

real əmtəə dəyəri kimi çıxış edə bilmir (məsələn, əsas kapitalın dəyərinin uçotu yenidənbölüşdürmə proseslərinə təsir edən inflyasiya tendensiyasını nəzərə almağı tələb edir).

Əməyin xarici əşyavi forması kimi pulun xüsusiyyətləri ondan ibarətdir ki, pula bərabər tutulan əmtəələr onlarda müncər olunan ictimai əməyin xarici, əşyavi ölçüsünü, yəni pul dəyərini ifadə edir və ölçür. Klassik halda bu ölçü rolunu keyfiyyətcə pul əmtəəsinin (qızılın) istehlak dəyəri, kəmiyyətcə – bu əmtəənin müəyyən miqdarı oynayır.

Pul dövriyyəsi tarixi sübut edir ki, pul özlüyündə eynicinsli kütlə deyil. Pulun həm mənşəcə, həm də mövcudluq dövrü, eləcə də dövriyyə şərtləri üzrə müxtəlifllikləri vardır. Faktiki olaraq *pul forması* dedikdə, ümumi ekvivalentin müəyyən tipdə əşyalaşmış mübadilə dəyərini başa düşmək lazımdır, belə ki, o əmtəələrin dövriyyəsinin sabitliyini təmin etmək qabiliyyətinə malikdir. Müxtəlif növ əmtəə-ekvivalentlərə, qiymətli metallara, borc öhdəliklərinə, bank depozitlərinə mücəssəmə olunan pullar pul formasını yaradırlar.

Bəşəriyyətə pul forması kimi qızıl, gümüş və billon sikkələr, kağız və kredit pullar bəllidir. Kredit pullar öz növbəsində, qızıla dəyişdirilən və banknot, veksel və depozitlər kimi dəyişdirilməyən növlərdə olur. Başqa pul formaları da tarixə bəllidir, məsələn, «torpaq» və «işçi» pulları. İnsan cəmiyyətinin inkişafının erkən mərhələlərində əmtəə pulları forma kimi çıxış edirdi, inkişaf etmiş əmtəə istehsalında isə – qızıl və gümüş sikkələr, kağız və kredit pullar forma kimi çıxış edir.

Pul forması anlayışını hər şeydən öncə pul əmtəəsinin natural xüsusiyyətləri ilə əlaqələndirmək olar. İqtisad ədəbiyyatında belə cəhdlər edilmişdir – bu, Z.V.Atlasın adı ilə bağlıdır. Mübadilə münasibətlərinin genezisini onların XX 20-ci illərinin sonlarına olan durumu üzrə analiz aparan Atlas *ümumi ekvivalentin dörd növünü* göstərmişdir: əmtəə-hesab, əmtəə-çəki, metalkəsmə və emission.

MUHASIBAT.AZ

Əmtəə-hesab ekvivalentinə formalaşmamış pulların ilk dalğası: əmək alətləri, mal-qara, qullar, bəzək əşyaları və s. daxil idi, çünki o zaman əmtəənin çəkisi heç də başlıca rol oynamırdı.

Əmtəə-çəki ekvivalenti digər növ əmtəələrlə – bitki mənşəli az xarab olan məhsullarla, sonralar isə metallarla bağlıdır. Ekvivalentin bu növünün özünün çəkisi, bölünməkliyi kimi keyfiyyətləri vardır, birinci dərəcəli əhəmiyyət kəsb edir; ilk dəfə olaraq onlarda qiymətlərin çəki miqyası təzahür edir.

Metalkəsmə növü sikkə şəklində metal pulları nəzərdə tutur.

Emissiya növü müəyyən atributlarla xüsusi kağız üzərində təmsil olunmuş bütün növlərdən olan dəyər nişanları ilə bağlıdır.

Ümumi ekvivalentin maddi-əşyavi cəhətdən xüsusiyyətləri nəzərə alınmaqla pulların təsnifi bütün mövcud pulları şərti olaraq tam dəyərli və tam dəyərli olmayan növlərə bölməyə imkan verir.

Pul o halda *tam dəyərli* adlanır ki, onun istehsal olunduğu əmtəə istər tədavül sferasında pul kimi, istərsə də var-dövlət kimi yığım sferasında eyni dəyərə malik olsun. Daxili dəyəri olan tam dəyərli pullar nə digər var-dövlət növlərindən, nə də onların dövriyyədə olduğu bazar şəraitlərindən asılı deyil. Əmtəə pulların bütün növləri, bimetallizm dövrünün qızıl sikkələri, gümüş sikkələri tam dəyərli pullara aiddir.

Tam dəyərli olmayan pullara alıcılıq qabiliyyəti pul münasibətləri daşıyıcıları kimi çıxış edən əmtəənin dəyərindən artıq olan pullar aiddir. Tam dəyərli olmayan pullara qızıldan sonrakı pulların hamısı: kağız və kredit pulları daxildir.

Tam dəyərli olmayan pulların *kağız və kredit pullara* ayrılması, kredit pulların əsas növü olan banknotların (mərkəzi bankın bank biletlərinin) qızılla əvəzləşdirilməsinədək elə ciddi problemə səbəb olmamışdır. Kağız və kredit pullar arasında üç əsas fərq var idi:

MUHASIBAT.AZ

- Kağız pulları dövlət xəzinədar simasında yaradır, banknotları isə emissiya hüququna malik olan banklar;
- Kağız pullar dövlətin estraordinar (fövqəladə dərəcədə qeyri-adi) ehtiyaclarının ödənilməsi üçün buraxılır, banknotlar isə yalnız veksellərin uçotu və kommersiya tələbatı üçün ssuda verilməsindən ötrü istifadə olunur;
- Kağız pullar metal ilə əvəzlənmir, kredit pulu metalla əvəzləmək olar.

Göstərilən formayaradıcı fərqlər pulu kimi istehsal edir, hansı məqsədlər üçün istehsal edir və o qızılla əçvəzləşdirilə bilirmi suallarının cavabını tələb edir.

Bu zaman əsas çətinliklər, hazırda mərkəzi bankın banknotlarının qızılla əvəzləşdirilən olmaması ilə bağlı yaranır. Buradan nəticə çıxarılmalıdır ki, banknotlarla xəzinədarlıq biletləri arasında prinsipial fərq yoxdur, necə ki, kağız və kredit pullar arasında əhəmiyyətli fərq yoxdur.

2.2. QIZIL SİKKƏ TƏDAVÜLÜ VƏ ONUN KAĞIZ PUL DÖVRİYYƏSİNƏ ÇEVRİLMƏSİ

XIX əsrin sonlarına dünyanın aparıcı ölkələrində qızıl sikkə tədavülü təşəkkül tapdı, qızıl bilavasitə pul funksiyasını yerinə yetirirdi. İtsehsalın təmərküzləşməsinin inkişafı və inhisarların yaradılması, ölkələrin sənayecə inkişafının qüvvətlənməsi ilə pul sistemində əhəmiyyətli dəyişikliklər baş verdi. Bu dəyişikliklərin mahiyyəti ondan ibarətdir ki, metal tədavülü tədricən ləğv edildi, pul sisteminin qızılla əlaqəsi zəiflədi, dəyər nişanları, əsasən də qızılla əvəzlənməyən kredit pulları başlıca tədavül vasitəsi oldu, pul sistemi isə dövlətin inhisarçı tənzimlənmə obyektinə çevrildi.

MUHASIBAT.AZ

Bu dəyişikliklər XX əsrin iqtisadiyyatının ən böyük çevrilişi ilə, qızıl pulların tədricən öz yerini kağız və kredit pullara verməsi, pul sferasını sındıraraq kardinal – ən mühüm yenidənqurma aparılması ilə bağlı idi. Pul mexanizminin transformasiyası altmış ilədək – Birinci Dünya müharibəsinin əvvəllərindən XX əsrin 70-ci illərinin ortalarınadək davam etdi.

Belə ki, Birinci Dünya müharibəsi illərində kağız pulların qızılla sərbəst əvəzlənməsinə son qoyuldu. Daxili qızıl tədavülü ləğv edildi və bu da inflyasiyaya və valyutaların kütləvi dəyərsizləşməsinə gətirib çıxardı. Müharibədən sonrakı dövrdə əvvəlki vəziyyətə qayıdılması üçün cəhdlər göstərildi, lakin yalnız bir neçə dövlətə milli pul vahidlərinin yarımçıq formada qızılla əvəzlənməsini bərpa etmək nəsib oldu. Metal tədavülü (qızıl sikkələrin tədavülü) isə ümumiyyətlə bərpa olunmadı. Ona görə də dövlətlərin daxili pul təsərrüfatı faktiki olaraq beynəlxalq dövriyyədən təcrid olunmuş şəkildə qaldı, tədiyə vasitəsi kimi qızılın bilavasitə istifadə olunması müstəsna olaraq xarici əlaqələr sferasında təmərküzləşdi, pulun vahid qızıl bazası dağıldı.

Qızıl standartın mövcudluğu şəraitində emission bankın qızıl ehtiyatı pulun təminatının zəmanət (qarantiya) fondu oldu. Buraxılmış banknotların məbləğinə nisbətdə müəyyən faiz mütləq qızıl təminatının varlığı nəqd pulların buraxılmasına ciddi nəzarət etməyə imkan vernirdi. Əksər ölkələr tərəfindən XX əsrin 30-cu illərində qızıl standartı ləğv edildikdən sonra metal ehtiyatı emissiyanın məhdudlaşdırıcısı rolunu oynamaqdan qaldı və beynəlxalq tədiyələrin zəmanətli sığorta fondundan istifadə olunmasına başlanıldı.

Qızıl standartın əsas prinsipləri ondan ibarət idi ki, qızıl sikkələrlə yanaşı pul nişanları da (kağız dəyər nişanları) tədavüldə idi, mərkəzi banklar kağız pulların sahiblərinin arzusu ilə onları nominal dəyəri nəzərə alınmaqla qızıl (müvafiq qızıl tutumlu) sikkələrə və ya qızıl külçələrə dəyişirdi, qızılın istənilən forma və çəkidə sərbəst gətirilməsi

MUHASIBAT.AZ

və aparılması, milli pul nişanlarının ölkə xaricində sərbəst tədavülü kimi mümkün idi.

Kağız pulların qızıla və tərsinə sərbəst dəyişdirilməsi, onların beynəlxalq miqyasda sərbəst tədavülü ayrı-ayrı milli valyutaların qızıl «nöqtə»lərinin qızıl paritetləri adlandırılan çərçivədə mübadilə kurslarının nisbi sabitliyini şərtləndirirdi. Bu, ona gətirib çıxarmışdır ki, qızıl «nöqtə»dən (qızıl paritet üstəgəl nəqletmə xərcləri, sığorta və qızıl tədiyənin digər itkiləri) yuxarı mübadilə kursu zamanı idxalçı (borclu) milli valyuta ilə deyil, qızılla ödəniş aparırdı, qızıl «nöqtə»dən aşağı mübadilə kursu zamanı isə əksinə, ixrac edən (kreditor) ödənişi qızılla aparırdı.

Qızılın milli valyutalardakı təsbit olunmuş tutumu və muxtar milli konyunktur pul siyasətindən, demək olar ki, tam imtina edilməsini nəzərdə tutan tələblərin yerinə yetirilməsi qızıl «nöqtə»lərlə birgə valyuta sisteminin müəyyən dərəcədə özünü tənzimləməsini təmin etmişdir. Lakin bu sistem zamanı daxili bazarda pulun təklif edilməsi xarici iqtisadi hesablaşmanın bilavasitə balanslaşdırılması ilə bağlıdır. Bu halda tədavüldə olan kağız pulların kəmiyyətinin artırılması aşağıdakılara gətirib çıxarır:

- Xarici ticarət partnyorlarının qiymətləri ilə müqayisədə daxili qiymətlərin səviyyəsi artır ki, bu da ixracın azalmasına səbəb olur və idxalı stimullaşdırır;
- Bu zaman meydana çıxan tədiyə balansı kəsiri qızıl külçələrinin ixracının zəruriliyini şərtləndirir ki, bunun da nəticəsində dövriyyədə olan kağız pul kütləsinin (qiymətdən düşməsini) ödəmək üçün qızılın miqdarı azalır.

Son məqamda bütün bunların hamısı qızıl standartın iflasına səbəb oldu və yuxarıda təsvir olunanlara əsasən göstərmək olar ki, bunun səbəbləri ayrı-ayrı dövlətlərin valyuta kursu ilə təsbit olunmuş valyuta sistemi prinsiplərinə zidd olan muxtar pul-maliyyə

siyasətindən irəli gəlir. Faktiki olaraq bilavasitə qızıla əsaslanan valyuta sisteminin dağılması 1929-1933-cü illərin iqtisadi böhranı zamanı baş vermişdir.

Pul nişanlarının qızıla dəyişdirilməsinin xarakterindən asılı olaraq qızıl standartın üç növü fərqləndirilirdi (qızıl monometallizmi): qızıl sikkə standartı, qızıl külçə standartı, qızıl deviz standartı.

Nisbətən sabit olan *qızıl sikkə standartı* üçün qızıl sikkələrin tədavülü, qızılın bütün pul funksiyalarını yerinə yetirməsi, təsbit olunmuş qızıl tutumlu qızıl sikkələrin sərbəst kəsilməsi, dəyər nişanlarının nominal dəyərlə qızıl sikkələrə sərbəst dəyişdirilməsi, insanlar və ölkələr arasında qızılın qeyri-məhdud hərəkəti xarakterikdir.

Bu xüsusiyyətlər qızıl sikkə tədavülünə sabitlik və elastikliyi təmin edirdi, çünki pul tədavülü tələbləri ilə müqayisədə izafi qızıl sikkələr tədavüldən xəzinəyə gedirdi. Təsərrüfat dövriyyəsinin pula olan tələbatının genişlənməsi zamanı qızıl xəzinədən tədavülə daxil olurdu, yəni pul tədavülü qanunu avtomatik fəaliyyət göstərirdi. Ona görə də qızıl sikkə standartı sərbəst rəqabət dövrünün tələblərinə daha çox uyğun gəlirdi, istehsalın, kredit sisteminin, dünya ticarətinin, kapital çıxarılmasının, beynəlxalq kreditin inkişafına kömək etmişdir.

Qızıl sikkə standartı tədricən ölkələrin əksəriyyətində mövqeyini möhkəmləndirdi, lakin eyni zamanda onun prinsipləri də pozuldu: pulun kəsilməsinə məhdudiyyətlər qoyuldu və qızıl sikkələr dövriyyədən çıxmağa başladı. Birinci Dünya müharibəsindən sonra yalnız ABŞ-da qızıl sikkə standartı saxlanılmışdı.

O dövrdə bir sıra ölkələrdə (İngiltərə, Fransa) *qızıl külçə standartı* yalnız müəyyən məbləğdə banknotların (İngiltərədə 1700 funt-sterlinq, Fransada 215 min frank, bu da 12 kq-dan artıq kütləsi olan standart külçə dəyərinə uyğun idi) təqdim olduğu hallarda tətbiq olunmuşdu,

MUHASIBAT.AZ

Ölkələrin çoxunda (Almaniya, Avstriya, Danimarka, Norveç və b. *qızıl deviz standartı* müəyyənləşdirilmişdi ki, bu zaman banknotlar dividendlərə, yəni qızıla dəyişdirilə bilən xarici valyutaya mübadilə edilirdi. Qızıl deviz standartı ölkələrin bir qisminin digər qismindən asılılığına səbəb oldu və daha zəif ölkələrin iri dövlətlərdən valyuta asılılığı metodlarından birinə çevrildi.

Qızıl standartın çeşidliyindən və onların fəaliyyət göstərmə mexanizmindən başqa pul nəzəriyyəsi də həqiqi və ya tam dəyərli pulları – qızıl və gümüş sikkələri (hazırda tədavül olunmur), tam dəyərli olmayan sikkələri (nominal dəyəri real dəyərindən yüksək olan), kağız pulları (xəzinə biletləri) və kredit pullarını (banknot, veksel, çek) fərqləndirir.

Həqiqi və ya tam dəyərli pullar – nominal dəyəri əsasən tərkibində olan metalın (tam dəyərli pulların əsas növü – qızıl sikkələrdir) dəyərinə uyğun gələn pullardır. Sikkə – metaldan hazırlanmış, üzərində qanunla müəyyənləşdirilmiş fərqləndirici nişanları (forması, xarici görünüşü, çəki tutumu və s.) olan pul nişanıdır. İlk sikkə Lidiya dövlətində (Kiçik Asiya) bizim eradan əvvəl VII əsrdə meydana gəlmişdir və bu sikkələr qızıl və gümüşün təbii qarışığından (elektra) hazırlanırdı.

Sikkə kəsilməsi qanunla və ya sikkə nizamnaməsi ilə müəyyənləşdirilir və kəsilən sikkənin xarakteri (açıq – istənilən şəxsə mənsub olan istənilən zərbxanada kəsilən və qapalı – yalnız dövlət metalından kəsilən), əyarı – sikkədə xalis metalın tutumu, çəkisi, tipi, sikkənin təsviri, remediumu (nominal çəkidən qanunla yol verilən faktiki fərq), sikkənin dövriyyəyə buraxılışı və dövriyyədən çıxarılması qaydaları təyin edilir. Sikkənin üz tərəfi (avers), əks tərəfi (revers) və yan kəsimi (qurt) fərqləndirilir.

Tam dəyərli sikkələrin alıcılıq qüvvəsi prinsip etibarilə sərbəst zərbetmə və əritmə zamanı tərkibində olan metalın dəyərinə uyğun

MUHASIBAT.AZ

gəlir. Lakin indi tam dəyərli qızıl sikkələr pul dövriyyəsindən birdəfəlik çıxmışdır. Bundan əlavə, hələ lap qədimdən pərakəndə əmtəə mübadiləsinə xidmət üçün *tam dəyərli olmayan (xırda) bilon sikkələr kəsilir* ki, onların da nominal dəyəri tərkiblərində olan metalın dəyərindən və onun kəsilməsi üçün sərf olunan xərclərdən artıq olur. Bilon sikkələr mis, nikel, allüminium, sink və xəlitələrdən kəsilir. Xırdalayıcı sikkələr dövlət tərəfindən yalnız ona məxsus olan metaldan (qapalı zərb sistemi) kəsilir. Bu, dövlətə sikkədə olan metalın nominal dəyəri ilə bazar qiyməti arasındakı fərq şəklində sikkə gəliri əldə etməyə imkan verir.

Hazırda əsas pul növü *dəyərin kağız nişanlarıdır*, yəni xəzinə biletləri və kredit pullarıdır – banknotlar, veksellər və çeklərdir. Pul nişanlarının bu növləri nəqd pul dövriyyəsinə xidmət edir və onun ümumi tədiyə dövriyyəsində, əsasən də sənayecə inkişaf etmiş ölkələrdə xüsusi çəkisi çox deyil. Məsələn, ABŞ-da nəqd hesablaşmalar pərakəndə dövriyyənin cəmi 10%-i, İngiltərəd isə 20%-i əhatə edir.

Hazırda ABŞ və Belçikadan başqa, hətta formal olaraq xəzinə biletləri və banknotlara bölgünün saxlandığı inkişaf etmiş ölkələr faktiki olaraq yoxdur. Onların arasındakı fərqlər tarixən emissiya və təminat xarakterindən ibarət olmuşdur. Xəzinə biletləri büdcə xərclərinin ödənilməsi üçün Maliyyə Nazirliyi tərəfindən təminatsız da buraxıla bilərdi. Bank biletləri mərkəzi bank tərəfindən buraxılır və qızıl ehtiyatı ilə təmin olunurdu. Lakin indi bütün dövlətlərdə milli pul vahidlərinin tərkibində rəsmi qızıl tutumu ləğv edilmişdir.

Xarakterikdir ki, qızıl pullar onlarla spekulyasiyanın yaranmasına səbəb olur. Problemə ilkin nəzər yetirildikdə səbəbi sadə görünür: qızılın qyiməti qalxdıqda öz pullarını bu qiymətli metala dəyişmək marağı meydana çıxır ki, sonralar o daha baha qiymətə satılsın və spekulyativ mənfəət əldə edilsin.

MUHASIBAT.AZ

Qızılla spekulyasiya, bir tərəfdən kapitalın daha da çox yığılması ilə izah edilir ki, bu da kapitalın spekulyativ yatırmı üçün obyektiv meyl – həvəs yaradır, ikinci tərəfdən isə alıcılıq qabiliyyəti aşağı düşən milli valyutadan «qaçmağa» imkan verir, amma dəyəri düşməyən qızılın – çünki onun özəl dəyəri vardır – durumu sabitdir. Hazırda bu, «qüvvətli» adlandırılan valyutalar üçün xarakterikdir.

Qızılla spekulyasiyanın öz hədləri vardır. Tezavrasiya kapital dövranını dayandırır: qızıla çevrilmiş pullar reinvestisiya (təkrar investisiya) edilmir, dondurulmuş formada saxlanılır. Bundan əlavə, digər spekulyasiya formaları ilə müqayisədə qızılla spekulyasiyanın çevikliyi yoxdur (o kredit dövriyyəsi üçün vəsait qoymur, elə buna görə də bank kapitalının dövranetməqabilliyini dayandırır).

Müasir şəraitdə qızılla spekulyasiya keçmişdə olduğu kimi elə də ümumi xarakter daşımır, ona görə də valyuta böhranının inkişafına onun təsiri əhəmiyyətli deyil. Müasir valyuta böhranının (XX əsrin 70-90-cı illəri – XXI əsr) inkişafı aşağıda baş verənlərlə xarakterizə olunur:

- bütün ölkələrdə kağız pulların kütləsinin sürətlə artması – bunun da nəticəsində mərkəzi banklar maliyyə kapitalının marağına tabe olaraq veksel və dollar öhdəlikləri ilə bir-biri ilə çözülməz bağlı bank sistemlərini dəstəkləmələdirlər;
- valyuta kurslarının müharibəsi – bu zaman hər bir ölkə satış bazarı axitararaq çalışır ki, mübadilə kursunda hər cür pozuntuya və nəyin bahasına başa gəlsə də öz mallarını ixrac etməyə can atır;
- kapitalın dəyərinin saxlanılmasına dair ümumi inamsızlıqla bağlı mühüm investisiya proqramlarının dayandırılması – mənəvi aşınmanın süni şəkildə sürətləndirilməsi, əlavə gəlir dəyəri normasının artım, mənfəət normasının bərpa çətinliyi

MUHASIBAT.AZ

nəticəsində dəyərinin bir hissəsini itirən böyük kapital kütləsinin tərpənməz əmlaka yönəldilməsi;

- beynəlxalq xarakter alan və qarşısı alınmaz olan qiymət artımı;
- əksər ölkələrin ödəməqabilliyinin azalması ilə müşahidə olunan xarici borclarının artması.

XX əsrin 30-cu illərindən dünya iqtisadiyyatında, öz təbiətinə görə kağız pullara yaxın olan əvəzlənməz kredit pullar sistemi yayıldı. Müasir banknotların təminatçısı əsasən dövlət qiymətli kağızlarıdır, qızıl təminatı və banknotların qızılla əvəzlənməsi isə faktiki olaraq dünyanın bütün ölkələrində ləğv edilmişdir. Məsələn, ABŞ dollarının xarici mərkəzi banklar üçün qızılla əvəzlənməsi 1971-ci il avqustun 16-dan dayandırılıb. Hazırda fəaliyyətdə olan qızıl bazarlarında o əsasən qızı məmulat və bəzəklərin düzəldilməsi üçün satılır.

2.3. KAĞIZ PULLAR

Kağız pulların (kağız dəyər nişanlarının) meydana gəlməsi sənaye və ticarətin daha da inkişaf etməsi ilə bağlı idi. Təmiz metal dövriyyəsi dövlətə çox baha başa gəlirdi və son hesabda imkansızlıqla nəticələnir, belə ki, qiymətli metalların hasilatı həmişə təsərrüfatın tədavül vasitələrinə tələbatına olan artımdan geri qalır. Ona görə də metal pulların kağız dəyər nişanları ilə dəyişdirilməsi tədavül xərclərinə qənaət etməyə imkan verir. Kağız pullar metal pulların dövriyyəsi prosesinin özündən, onların nominal tutumunda göstərilənlə real çəkisi arasında fərqin yaranması ilə meydana gəlmişdir. Onların meydana gəlməsidəyər ölçüsü kimi pulun ideal forması və tədavül vasitəsi kimi fəaliyyət göstərməsinin yolüstü xarakteri ilə şərtlənir. Tam dəyərli metal pulların dəyər nişanlarına çevrilməsini üç mərhələyə ayırmaq olar:

MUHASIBAT.AZ

- tam dəyərli pullar kimi fəaliyyət göstərən sikkələrin pozulması, aşınması;
- istər dövlət hakimiyyəti, istərsə də ayrı-ayrı adamlar – saxta pul kəsənlər tərəfindən korlanması ucbatından tam dəyərli olmayan sikkələrin buraxılması;
- dövlət xərclərinin ödənilməsi üçün kağız dəyər nişanlarının buraxılmasından asılı olaraq pulun nominal tutumunun onun real tutumundan ayrılması.

Ona görə də kağız pulları dövlət yaratmamışdır. O yalnız obyektiv imkandan və kəskin maliyyə böhranları dövrlərində məcburi pul kursu emissiyası zərurətindən öz xərclərini ödəmək üçün istifadə etmişdir. Faktiki olaraq *kağız pullar* məcburi kursla dəyərləndirilmiş pul nişanlarıdır (dəyərin nominal nişanıdır) və adətən metalla əvəzlənmir, dövlət tərəfindən öz xərclərini ödəmək (dövlət büdcəsi kəsirini) üçün buraxılır.

Kağız pulların təbiəti ondan ibarətdir ki, onların sərbəst dəyəri yoxdur, belə ki, onların çap olunması əmək itkisi onların dəyərini ifadə etdiyi mallarla müqayisədə cüzidir. Ona görə də kağız pullar öz dəyəri sayəsində dövriyyə edən qızıldan fərqli olaraq, yalnız özlərinin dövriyyəsi prosesində əsl dəyərlərini alırlar. Metal və kağız pulların paralel tədavülü zamanı onların dəyəri əvəz etdikləri qızıl və gümüşün kəmiyyətinin dəyəri ilə müəyyənləşir: bir kağız pul vahidinin dəyəri tədavüldə olan kağız pulun kəmiyyətinə bölünən tədavül üçün lazım olan metalın kəmiyyətinin dəyərinə uyğundur.

Bununla yanaşı, qızılın pul vahidinin dövlət tərəfindən sərbəst təyin olunan rəsmi tutumu heç vaxt onun dəyərini müəyyən etməmişdir, 1975-ci ildən isə o təsbit edilmədi. Faktiki olaraq kağız pullar özlərinin metal substansiyalarından izolə olunmuş şəkildə mövcuddur. Bu zaman kağız dəyər nişanlarının qızılla daxili bağlılığı onunla müəyyən edilir ki, onlar tarixən qızılın nişanı kimi meydana

MUHASIBAT.AZ

çıxıb, qızıldan onun əsl dəyərini mənimsəyib və uzun müddət ərzində əsl pullarla çulğaşıbdır. Bu rabitə özünün onda büruzə verir ki, hələ də qızıl mərkəzləşdirilmiş dövlət nəzarəti altında olan real ehtiyat aktiv rolunu oynayır, həm də tezavrasiya obyektidir.

Kağız pullar tam dəyəri ilə dəyər ölçüsü funksiyasını yerinə yetirə bilməz, çünki özlərinin dəyəri yoxdur. Onlar tədavül vasitələri və ödəniş vasitələri funksiyasını yerinə yetirirlər, qızıl standart ləğv edildikdən sonra isə yüksək inflyasiya olmadıqda həm də yığım funksiyası rolunu oynayır.

Öz təbiətlərinə görə kağız pullar qeyri sabitdirlər, belə ki, onların özlərinin dəyəri yoxdur, tam dəyəri olmayan pulların emissiyası heç də həmişə tədavülün pula olan real tələbatı ilə tənzimlənmir; bu zaman tədavüldə olan pul kütləsinin kortəbii tənzimlənmə mexanizmi fəaliyyət göstərmir, çünki kağız pullar metal pullar qədər yığım funksiyası rolunu oynamır.

Ona görə də kağız pullarla pul tədavülü qanunlarının fəaliyyəti qiymətyaratma mexanizmi vasitəsilə həyata keçirilir. Məsələn, kağız pullar kütləsinin tədavülün tələbatından artıq çoxaldıqda onların təmsil dəyərləri azalır və ya pulların qiymətdən düşməsi baş verir. K.Marks *pulların qiymətdən düşməsinin üç səbəbini göstərir*:

- kağız pulların adətən büdcə kəsiri, hərbi və digər xərclərin ödənilməsi üçün dövriyyənin real tələbatından artıq buraxılması ilə əlaqədar olaraq tədavülə artıq pul buraxılması. Bu zaman buraxılmış kağız pulların nominal dəyəri ilə onların çap olunması üçün çəkilən xərclər arasındakı fərq dövlətin emissiya gəlirini təşkil edir;
- əhalinin hökumətə etimadı itdiyi hallarda kağız pullar onların nominalları üzrə ödənişə qəbul olunmasından imtina edilir;

MUHASIBAT.AZ

- hətta tədiyə balansının yeniləşdirilmiş formasında olsa da belə, çünki qızılın sikkə pul rolunun aşağı düşdüyü şəraitdə, onun, tədiyə balansının kəsirinin ödənməsi üçün əhəmiyyəti kəskin şəkildə azalır, kağız pullar isə bu rolu ifa etmək iqtidarında deyil.

Kağız pulların dayanıqlığının təmin olunması ilk növbədə dövriyyədəki pul kütləsi ilə ona qarşı olan əmtəə kütləsi və pullu xidmətlər arasında obyektiv şərtlənmiş mütənasübliyin qorunduğu halda xarakterikdir. Pul kütləsi ilə əmtəə kütləsi arasında mütənasibliyin qorunması dövlət büdcəsinin kəsirsizliyini şərtləndirir. Kəsirin olduğu halda isə onu daxili borc və «artıq» («əlavə») pul emissiyası ilə kompensasiya etmək lazım gəlir.

2.4. KREDİT PULLAR

Kredit pullar və ya *kredit tədavül aləti* – kredit əsasında meydana gələn kağız dəyər nişanlarıdır. Məlum olduğu kimi, kredit tədavül xərclərinin əhəmiyyətli dərəcədə azaldılmasına səbəb olur. Bu onu bildirir ki, dövriyyəyə metal pullar əvəzinə banknot, veksel, çek daxil olur və bunlar da kreditlə sıx əlaqəlidir. Kredit pulların istifadə olunması nəticəsində qiymətli metalların, ilk növbədə qızılın rolunda çıxış etdiyi həqiqi və ya gerçək pullara qənaət edilir.

Müasir şəraitdə kredit pulların böyük hissəsi müxtəlif hesablardakı vəsaitlərdən ibarətdir. Mərkəzi banklar kredit pullara kifayət qədər qarantiya verirlər ki, pul dövriyyəsinin indiki miqyasında kommersiya bankları və özəl banklar bunu edə bilməzlər. Ona görə də müasir şəraitdə pul tədavülü əsas etibarilə nəqdsiz hesablaşmalar şəklində həyata keçirilir. Bu zaman kredit pulların öz dəyəri olmur. Lakin kağız pullardan (xəzinə biletlərindən) faktiki olaraq bu pullar yarandıqları andan (klassik anlamda) təkcə qızılın

MUHASIBAT.AZ

deyil, kreditin də nişanı kimi çıxış edir. Ona görə də bunlar həm də kreditorlarla borc alanlar arasında ssuda kapitalının hərəkətini əks etdirir.

Kredit pulların əsas emitenti bank sistemidir və o pul kütləsini nəinki təkcə müxtəlif borc öhdəliklərinin buraxılması ilə, həm də xəyali əmanətlər (bank ssuda verərkən müştərinin borcunu onun ssuda hesabında öz aktivinə yazır, eyni zamanda verilən ssudanın məbləği bank tərəfindən müştərinin hesablaşma hesabına köçürülür və onun əmanətinə çevrilir, hərçənd arada real əmanət olmayıb) yaratmaq yolu ilə formalaşdırır. Əmanətin xəyali xarakterinə baxmayaraq, o real pul formasını ala (alır) bilər. Həmin halda nəinki bankın təkcə qarşısında təminatı olmayan resurs bazası artır, həm də pul kütləsinin həcmi artır. *Kredit pulların* və ya kredit tədavül alətlərinin *üç əsas növü* göstərilir: veksel, banknot və çek.

Veksel – çox ciddi formada müəyyən olunmuş yazılı borc öhdəliyidir ki, bu da sahibinə (vekseli saxlayana) müəyyən müddət keçdikdən sonra borcludan (veksel verəndən) və ya akseptantdan göstərilən pul məbləğini qeyd-şərtsiz tələb etmək hüququ vardır.

Digər borc öhdəlikləri ilə müqayisədə vekselin aşağıdakı xüsusiyyətləri vardır:

- mücərrədlik, belə ki, onda borc öhdəliklərinin meydana gəlməsinin konkret səbəbləri izah olunmur (məsələn, əmtəənin kreditə satılması);
- borclunun borcun yaranma şərtləri və şəraitindən asılı olmayaraq öhdəlik üzrə ödəniş aparmasının qeyd-şərtsizlik, belə ki, vekselin hüquqi xüsusiyyətləri və onun tərtib olunması qanunla ciddi müəyyənləşdirilir;
- müntəzəm ticarət əlaqəsində olan bir çox adamın vekseli nəqd pul əvəzinə tədavül aləti kimi istifadə edə bilməsi ilə şərtlənən

MUHASIBAT.AZ

dövriyyəlilik (bununla əlaqədar olaraq vekseli bəzən ticarət pulu adlandırırlar).

Vekseller *sadə* və *köçürülən,* yaranma xarakterindən asılı olaraq onlar *özəl* və *xəzinə vekselləri*nə bölünür. Özəl vekselləri əmtəənin kredit alqı-satışı sövdəsi əsasında meydana çıxan kommersiya və bu sayaq əmtəə əsası olmayan *maliyyə* (sonralar satmaq və nəqd pullar almaq məqsədi ilə sahibkarların bir-birinə verdikləri dostluq vekselləri) növləri vardır. Maliyyə vekselləri çox hallarda şişirdilmiş, dəyərlə təminatsız olurlar, çünki qeyri-kreditqabilli şəxslər tərəfindən təqdim olunurlar (bürünc veksellər).

Xəzinə vekselləri (bonlar) dövlət tərəfindən öz xərclərini ödəmək məqsədi ilə buraxılır. Bu dövlət öhdəlikləri – maliyyə vekselləri nin bir növüdür və kapital qoyuluşunun likvid formalarından biridir. Adətən xəzinə vekselləri yüksək faiz gətirir, mərkəzi banklar və digər rəsmi orqanlar tərəfindən geniş istifadə olunur.

Öz təyinatına görə veksel müxtəlif funksiyalar yerinə yetirir. Bunlardan ən əsası veksel öhdəlikləri ilə qarantiya edilmiş əmtəələrin kredit satışının (verilmiş pulların, yerinə yetirilmiş işin və xidmətlərin) ödənilməsinin təmin olunmasıdır. Veksel kredit vasitəsi simasında çıxış edir, habelə inkassa (borc alınması) üçün istifadə olunur. O bankda uçot obyektinə çevrilir və veksel icrasının başlanmasına qədər onun adı ilə ödəniş aparılır. Veksellərin çoxu qarşılıqlı surətdə nəqdsiz hesablaşma mexanizmi vasitəsilə nəqd pulların iştirakı olmadan veksel öhdəliklərinin qarşılıqlı sayılması yolu ilə ödənilir. Lakin veksel tədavülünün nəqd pulları əvəz etməsinin həddi mövcuddur və bu onunla şərtlənir ki, kommersiya krediti əmtəə dövriyyəsinin yalnız bir hissəsini əhatə edir (əsasən topdan ticarətdə), veksel öhdəliklərinin qarşılıqlı uçot üzrə saldosu nəqd pullarla ödənməni tələb edir, veksellər xüsusi (özəl) borc öhdəlikləri kimi vekselverənlər və

MUHASIBAT.AZ

indossantların ödəməqabilliyinə əmin olan şəxslər arasında məhdud tədavül sferasına malikdir.

Banknot kredit pulların əsas növlərindəndir. Qızıl monometallizm şəraitində banknot bankirə verilən vekseldən başqa bir şey deyil və təqdimatçı istənilən vaxtda onunla pul ala bilər və ya bankir özəl vekselləri dəyişdirir. Bu müəyyənləşdirmədə klassik banknotun iki xarakterik əlaməti aydın göstərilib ki, banknot kommersiya vekselləri əvəzinə emissiya bankı tərəfindən buraxılır və ilkin tələblə qızılla əvəzlənir.

Ona görə də klassik banknotun ikili təminatı var, yəni veksel (əmtəə) və qızıl (emissiya bankının qızıl ehtiyatı). Metalla (qızılla) təmin olunmayan banknot emissiyası fidusiar, yəni etimada əsaslanmış banknot adlanır.

Kommersiya vekselinin bilavasitə banknotun əsası sayılmasına baxmayaraq, onların arasında aşağıdakı şərtlər üzrə borclunun növünə, qarantiya və müddəti fərqlər mövcuddur:

- veksel üzrə borclu fəaliyyətdə olan sahibkar – tacir və ya sənayeçi, banknot üzrə isə – emissiya bankıdır;
- banknotların bütün mülkiyyətçilərin bankda saxlanılan resursları kimi ictimai qarantiyası mövcuddur. Ona görə də banknotlar xüsusi – ümumi tədavülqabilli keyfiyyətə malik olan ictimai kredit pullardır. Özəl qarantiyaya malik olan veksel isə ümumi tədavül vasitəsi kimi çıxış etmir;
- banknot müddətsiz öhdəlikdir və emissiya bankı tərəfindən qızıla (klassik şəkildə) əvəzolunma yolu ilə istənilən təqdimolunma anında ödənilir, vekselin ödənilməsi isə müəyyən müddətdən sonra baş verir ki, bu da onun pul kimi dövriyyəsini çətinləşdirir.

Klassik banknotların dövriyyədə istifadə olunması tədavül sferasını artıq (əlavə) pulla doldurmağa xidmət etmir, çünki əmtəə

MUHASIBAT.AZ

dövriyyəsinin kreditləşdirilməsi qaydası ilə vekseller əsasında banknotların buraxılması banknotların banka tərəf əks hərəkət etməsinə səbəb olur və müvafiq olaraq kredit üzrə ödəniş müddətinin başlanmasıyla banknotlar müntəzəm olaraq emissiya bankına qayıdır. Eyni zamanda banknotun bir veksel dövriyyəsi özü-özlüyündə onun banka qayıtmasına qarantiya verə bilməz, çünki:

- adətən veksel öhdəliklərinin məbləği satılan əmtəənin qiymət məbləğindən artıq olur;
- həmişə tədavüldə real pul dövriyyəsi tələbatından artıq sayda veksel olur, özü də təkcə kommersiya deyil, həm də dostluq, bürünc, xəzinə vekselləri olur ki, bunlar da əmtəə əsası yoxdur;
- vekselların ödənmə müddəti heç də həmişə əmtəənin faktiki satışı ilə üst-üstə düşmür və bu da ödənişsizlik adlandırılan böhrana səbəb ola bilər;
- iqtisadi böhranlar dövründə hətta kommersiya vekselləri öz vaxtında ödənilmir, çünki yaranmış böhranlar ucbatından əmtəənin satışı çətinləşir.

Mütləq nəzərə alınmalıdır ki, əvvəllər klassik banknotlar gəzişi zamanı özünün ikili təminatı zamanı – kredit və metal təminatı – xəzinə kredit pulları ilə müqayisədə banknot dövriyyəsinin nisbi dayanıqlığı və elastikliyi təmin olunur. Əvəzlənən banknotların tədavül qanunu ondan ibarət idi ki, onların dövriyyədəki kəmiyyəti tədavül üçün lazım olan qızılın kəmiyyətinə, hər bir banknot isə onda işarə olunan pul vahidində qızıl tutumuna bərabər olmalı idi.

Qızıl monometallizm şəraitində *banknotlar kredit pullardan fərqlənir*: *buraxılış subyektinə görə* (banknotlar bank tərəfindən, kredit pullar isə dövlət xəzinədarlığı tərəfindən buraxılır); *təminata görə* (klassik banknotun ikili təminatı var – veksel və qızıl, kredit pulların isə praktiki olaraq heç nə ilə təmin olunmayıb); *buraxılış qaydasına görə* (klassik banknot əmtəə dövriyyəsinin kreditləşdirilməsi qaydası

MUHASIBAT.AZ

ilə buraxılırdı, kredit pullar isə – tədavülün pula olan həqiqi tələbatından kənar dövlət büdcəsi kəsirini ödəmək üçün buraxılırdı); *tədavül qanunauyğunluğuna görə* (kredit pullar elastik deyil, çünki dövriyyəyə buraxıldığından onlar orada qalır və tədavüldə pula olan tələblərə uyğunlaşa bilmirlər, veksel əsasında və qızıl təminatı ilə buraxılan klassik banknotlar isə veksellər üzrə ödəmə müddətinin başlanmasıyla və eləcə də onların qızılla əvəzlənməsinə təqdim olunması səviyyəsi ilə mərkəzi banka qayıdırdılar).

Emissiyanın xarakteri və iqtisadiyyata təsirinə görə banknotlar bir tərəfdən kredit pullara yaxınlaşır, çünki onlar məcburi kursa malikdirlər, onların emissiyası və təminatı dövlətin qiymətli kağızları ilə bağlıdır. Digər tərəfdən isə müasir banknotlar məlum səviyyədə kredit əsasını qoruyub saxlamışdır, belə ki, onlar təsərrüfat və dövlət bank kreditləşdirməsi qaydası ilə dövriyyəyə buraxılır və ssuda fondunun elementlərindən hesab olunurlar.

Çek – bankda cari hesab sahibinin nəqd və ya başqa şəxsin cari hesabına köçürmə yolu ilə müəyyən məbləğdə banknotun köçürülməsi haqqında yazılı əmridir. Çekin əsasında banknot təminatı durur. Çek bankda cari hesabdan nəqd pullar almaq vasitəsi, tədavül və alınmış malların ödənməsi vasitəsi, eləcə də borcun ödənilməsi və nəqdsiz hesablaşma vasitəsi sayılır.çek tədavülü kredit əməliyyatlarının genişləndirilməsi, bank sisteminin mərkəzləşdirilməsi və mərkəzi bankın kredit sisteminin əsasına çevrilməsi bazasında meydana çıxmış və inkişaf etməkdədir.

Çekin aşağıdakı növləri göstərilir: adlı (müəyyən şəxsin adına), orderli (başqasına vermək hüququ ilə), təqdim olunan (indossamentsiz təqdim oluna bilər).

Çekin müəyyən forması və rekvizitləri olur. Çekin inkişafı onun cari hesablaşmada istifadəsinin başqa instrumentlərlə, o cümlədən kredit kartoçkaları ilə əvəz olunmasına gətirib çıxarmışdır. *Kredit*

MUHASIBAT.AZ

kartoçkası – bank tərəfindən buraxılan, sahibinin bankda şəxsiyyətini müəyyənləşdirən və ona nəqd pul ödəmədən pərakəndə ticarətdə alınmış malların və xidmətlərin ödənməsinə hüquq verən adlı pul sənədidir. Müştəri mağazadə hesabı imzalayır, mağaza isə vaxtaşırı həmin müştərinin bankı ilə cari hesabından müəyyən məbləğdə pulun silinməsi yolu ilə hesablaşmalar aparır.

Özünü yoxlama üçün suallar

1. XX əsrin əvvəllərində pul sistemlərində hansı dəyişikliklər baş vermişdir?
2. Qızıl standartın hansı növləri var və onların mahiyyəti nədən ibarətdir?
3. Ayrı-ayrı pul növlərinin adlarını çəkin və onların fərqlərinin nədən ibarət olduğunu göstərin.
4. Kağız pulların kredit pullardan klassik fərqini göstərin.
5. Metal pulların kağız dəyər nişanlarına çevrilməsi nə ilə şərtlənir?
6. Kağız pullar niyə dayanıqsızdır?
7. Kredit pullar nə ilə təmsil olunur:
8. Kredit pulların hansı növləri göstərilir?
9. Qızıl monometallizm şəraitində banknotların kağız pullardan fərqi nədə təzahür edir?

MUHASIBAT.AZ

3. PULUN FUNKSİYASI VƏ ONUN İQTİSADİYYATDA ROLU

3.1. PULUN FUNKSİYASI VƏ ONUN QARŞILIQLI ƏLAQƏSİ

Pulun sosial-iqtisadi məzmunu onun funksiyaları vasitəsilə aşkarlanır, onun ayrılma və inkişafı əmtəə dövriyyəsində kəmiyyət və keyfiyyət dəyişikliklərini əksetdirir, bunların arxasında isə öz növbəsində istehsalın inkişafı durur. Pulun hər bir funksiyası mürəkkəb sosial-iqtisadi münasibətlər məcmusunda onun əmtəə mübadiləsi prosesindən irəli gələn tərəflərindən birini xarakterizə edir. Hər bir funksiyanın spesifikası pul üçün xüsusi tələblər doğurur ki, bu da həmin funksiyalar daxilində pulun ayrı-ayrı formalarının meydana gəlməsi və ayrılmasına səbəb olur.

Pul nəzəriyyəsi pulun dəyər ölçüsü, tədavül vasitəsi, ödəniş vasitəsi, yığım vasitəsi və ya qiymətli şeylərin və var-dövlətin, dünya pullarının saxlanılması kimi funksiyalarını göstərir. Pulun funksiyası mahiyyəti açır və onları xarakterizə edir. Pulun ümumi ekvivalent kimi yuxarıda göstərilən funksiyaları icra etmək onun mahiyyətindən doğur. Pulun ayrıca funksiyası əmtəə mübadiləsi proseslərindən irəli gələn əmtəə istehsalçılarının əlaqə forması kimi pulun sosial-iqtisadi tutumunun ayrıca bir tərəfini xarakterizə edir.

Pulun birinci və başlanğıc funksiyası dəyər ölçüsü funksiyasıdır, yəni onların bütün əmtəələrin dəyərlərini ölçə bilmək qabiliyyətidir, qiymətin müəyyənləşdirilməsi zamanı vasitəçi rolunu oynamaqdır. Pul dəyər ölçüsü kimi ictimai əməyin uçotunun ümumi vasitəsi və istehsal faktorlarının və əməyin nəticələrinin həcminin hesablanmasının əsası rolunu oynayır. Yalnız pul əmtəəsinin dəyərinin mövcudluğu əmtəənin və pulun funksiyalarında dəyər qanunua uyğun olaraq əks qütblərdə

MUHASIBAT.AZ

və sonrakı mübadilədə ekvivalentlərinin eyni zamanda təzahür etməsi tədavül vasitəsi, ödəniş və dünya pulları vasitəsini təmin edir.

Lakin pul özü özlüyündə əmtəələri ölçülən etmir, əmtəələr ona görə pulun köməkliyi ilə ölçüləndir ki, onlar da pul kimi insan əməyinin məhsuludurlar, onlarla eynicinsli müqayisə bazasına – mücərrəd əməyə (özünün klassik anlamında) malikdirlər.

Pulların özlərinin qiyməti olmur, onların mübadilə dəyəri onların özlərində deyil, digər əmtəələr vasitəsi ilə təyin oluna bilər. Pullar qiymət əvəzində alıcılıq qabiliyyətinə malik olurlar ki, bu da əmtəələrin mütləq kəmiyyətində ifadə olunur və bunları həmin pullarla almaq olar.

Dəyər ölçüsü kimi pulun funksiyası mübadilə sferası hüdudundan kənara çıxır. Bu onu bağlıdır ki, təsərrüfat subyektlərinin onun səmərəliliyini təyin etmək üçün çəkilən xərclərin uçotunu tələb edən bütün istehsal fəaliyyəti istehsal amillərinin müxtəlif dəyər qiymətləndirilməsinə və onların pul formasında ifadəsinə möhtacdır.

Dəyər ölçüsü funksiyasının ümumi ekvivalent kimi əmtəənin pula münasibətini əks etdirməsinə baxmayaraq, əmtəənin qiymətini müəyyənləşdirmək üçün kifayət deyil. Onların müqayisəsi üçün miqyas, ümumi ekvivalent əşyavi substansiyasının ölçü vahidi labüddür. Ona görə də orada ki, pul təsbit olunmuş kimi özünə aid olur, məsələn, qızılın çəkisinə, onda pul *qiymətlərin miqyası* kimi çıxış edir. Başqa sözlə, qiymətlərin miqyası verilən miqdarda qızılın digər çəki kəmiyyətlərinin dəyəri ilə deyil, qızılın milli pul vahidində olan tutumu ilə uyğun gələn miqdarının müxtəlif kəmiyyəti ilə ölçülür.

Pul qiymət miqyası kimi səhnədə o zaman meydana gəlir ki, əmtəə, dəyər ölçüsü kimi pul hesabına eyniadlı kəmiyyətə çevrimliş olur və bu eyniadlı kəmiyyətlərin ölçülməsi üçün vahidin tapılması tələb olunur. Çəki tutumunun seçilməsi iqtisaddankənar amillə – dövlət hakimiyyəti ilə təyin olunur. Bu zaman pulun miqyası pulun

MUHASIBAT.AZ

yeni funksiyası olmur. Bu, başqa növ funksiyadır – pul materialının «təbii substansiya» funksiyasıdır. Qızılın ciddi təsbit olunmuş çəkisinə müncər olan müəyyən ictimai əmək itkisi digər əmtəələrin dəyərində ifadə olunan texniki-iqtisadi vahidlə qarşıya çıxır.

Hərçənd dəyər ölçüsünün və qiymət miqyasının əşyavi daşıyıcısı rolunda eyni qızıl, dəyər ölçüsü və qiymət miqyası kimi pul çıxış edir, bunlar iki müxtəlif qaydalı kateqoriyalardır. O (pul) insan əməyinin ictimai təcəssümü kimi dəyər ölçüsüdür, metalın təsbit olunmuş çəkisi kimi – qiymət miqyasıdır. Ona görə də dəyər ölçüsü ilə dəyər kimi əmtəələr ölçülür və, əksinə, qiymət miqyası müəyyən miqdarda qızılın digər kəmiyyətləri ilə onun çəkisi deyil, müəyyən miqdarda qızılın müxtəlif kəmiyyətləri ölçülür.

Qızılın müəyyən çəkisi qiymət miqyası üçün ölçü vahidi kimi təsbit olunmalıdır. Ona görə də bu fərqi daha dərindən aydınlaşdırmaq üçün mövcud fiziki ölçülərin müqayisəsindən istifadə etmək olar. Məsələn, yerin meridianının uzunluğunun müəyyən hissəsini vahid kimi götürüb, onu metr adlandırmaqla həmin vahidin köməkliyi ilə istənilən məsafələri ölçmək olar. Milli pul vahidində qızılın çəki miqdarının miqyasının köməkliyi ilə (qızılın pula çevrilməsminə sərf olunan ictimai əmək itkisinin ölçüsü ilə) əmtəələrdəki istənilən ictimai əmək miqdarını ölçmək olar.

Pulun miqyasının rolu ondan ibarətdir ki, o, bir növü, milli pul vahidinin çəkisinin təsbitləyicisi rolunu oynayır. Qızıl standart şəraitində qiymət miqyası əlavə sikkə qiyməti xüsusiyyəti aldı (yalnız pulun adı nəzərə alınır), çünki bunda nəinki pul vahidinin qızıl tutumunu ifadə edən qiymətli metalın kəmiyyəti təsbit olunub, həm də qanunvericilik qaydası ilə müəyyən edilmiş qiymət miqyası göstərirdi ki, müəyyən miqdarda qızılın mübadiləsi zamanı nə qədər milli pul vahidi almaq olar. Qızılı milli pul vahidi ilə müqayisə etdikdə

MUHASIBAT.AZ

istehsalın bu və ya digər dinamikası və ya qızılın istfadə xarakteri haqqında qərar qəbul etmək üçün orientir yaranır.

Qızılın pul əmtəəsi kimi ağalığı dövründə qiymət miqyası vaxtaşırı dövlət tərəfindən pul vahidinin qızıl tutumunun və xarici valyutalara nisbətdə onun mübadilə kursunun təyin olunması yolu ilə təsbit olunurdu. Lakin müasir şəraitdə milli pul vahidlərinin qızıl tutumu yoxdur. Bununla belə, bir çox hallarda nəqdsiz və nəqd pul emissiyası, eləcə də kredit sisteminin və bütövlükdə iqtisadiyyatın dayanıqlığına təsir göstərən yenidən bölüşdürmə prosesləri qiymət miqyasının dəyişməsindən asılıdır.

Milli pul vahidlərinin təsbit olunmuş qızıl tutumunu və xarici valyutalara əsaslanılmış mübadilə kurslarını itirmələri qiymət miqyasının başqa meyarlarını müəyyənləşdirməyi tələb edir. Rəsmi qiymət miqyasının birbaşa və ya dolayısı yolla dövlət tərəfindən təsbit olunmuş milli pul vahidinin təmsil etdiyi dəyər kütləsini təşkil etdiyindən rəsmi dəyər miqyasını almaq üçün etalon dəyərini, yəni eyniadlı pul vahidində dövlət tərəfindən müəyyən olunmuş dəyər hissəciyini ifadə etmək lazımdır. Bunun üçün elə əmtəə tapılmalıdır ki, onun dəyəri təqdim olunan ən azı iki göstəricidə – əvvəla, pulda, ikincisi, həmin əmtəənin bütün ümumi məcmusunun ortaq məxrəcində əks olunsun.

Dəyər ölçüsü kimi pulun funksiyasının spesifikliyi ondan ibarətdir ki, onlar bu funksiyanı xəyalən təqdim olunmuş ideal pul kimi icra edirlər, zira burada əmtəələrin onların ümumi dəyər varlığına yalnız ideal çevrilməsindən söhbət gedir. Ona görə də pullar əmtəələrin dəyərinin «ölçüsü» kimi hesablama pulları şəklində çıxış edir. Bu onu bildirir ki, əmtəənin dəyərinin pulla ölçülməsi üçün ölçülən əmtəə vahidinin və ölçü vahidinin, məsələn, çəki ölçüsü zamanı çəki daşından savayı, başqalarının insanın yanında saxlanılmasına heç bir lüzum yoxdur.ogd müəyyən qiymətlər xəyali

MUHASIBAT.AZ

əməliyyatlardır və müqayisə obyektləri burada bilavasitə iştirak etmirlər.

Hər bir dövlət özünün dəyər ölçüsünü təyin edir. Rusiyada dəyər ölçüsü rubl, ABŞ-da – dollar, AB-də – avrodur. Dəyər ölçüsünün köməkliyi ilə əmtəələrin və xidmətlərin dəyəri, məsələn, çəki və uzunluğun kiloqram və metrlə ölçüldüyü kimi ölçülür.

Pul ölçü vahidi kimi yekcinsdir ki, bu da aparılan sövdələrin barəsində hesablamalarda və uçotunda vacibdir. Qiymətləri rubl və qəpiklə (dollar və sentlə) ifadə edən insanlar həmin andaca və elə bir çətinlik çəkmədən müxtəlif əmtəələrin qiymətlərini tutuşdura və müqayisə edə bilərlər. Əgər bir əmtəə 1000 rubl, digəri isə 500 rubldursa, onda bu əmtəələrin nisbi dəyəri aşkardır.

Təsəvvür edək ki, iqtisadi sistemin dəyər ölçüsü yoxdur. Bu halda hər bir əmtəənin qiymətini birmənalı şəkildə, məsələn, rublla bildirmək əvəzinə, hər bir əmtəə və xidmətin hər bir digər əmtəəyə mübadiləsi proporssiyasını tərtib etməyə lazım gələcək. Bu zaman müxtəlif əmtəə və xidmətlər üçün mümkün qoşa kombinasiyaların kəmiyyəti n(n – 1)/2-yə bərabər olacaqdır. Bu kəmiyyətdə mübadilə proporsiyası zamanı əmtəənin dəyərinin müəyyənləşdirilməsi son dərəcə çətin işə çevrilir. Məsələn, 5000 müxtəlif əmtəə və xidmət yerinə yetirilən iqtisadi şəraitdə alıcılar dəyər ölçüsü vasitəsi ilə ifadə olunan (daha dəqiqi, qiymət miqyası) 5000 qiymətdən deyil, əmtəə və xidmətlərin hər cür mümkün əlaqəli 12497500 mübadilə proporsiyalarından istifadə etməli olacaq. Ona görə də dəyər ölçüsü – əmtəələrin (xidmətlərin) dəyərinin ölçülməsi və müqayisəsi üçün istifadə olunan və bununla da onların mübadiləsini sürətləndirməyə kömək edən pulun funksiyasıdır.

Pulun ikinci funksiyası onunla bağlıdır ki, pul *tədavül vasitəsi* kimi çıxış edir. Bu halda pul əmtəə mübadiləsində vasitəçi rolunu oynayır və onun əsasını mübadilənin ekvivalentliyi təşkil edir. Bu onu

MUHASIBAT.AZ

bildirir ki, əmtəə pula dəyişdirildikdə həm alıcı, həm də satıcı əmin olmalıdırlar ki, nə əmtəə, nə də pul öz qiymətlərini itirməyəcəklər.

Bu funksiyanı yerinə yetirən pul əmtəələri bir əldən digərinə köçürür, onları həmişə tədavül sferasından itələyib çıxarır, əmtəələri istehlakçıyı çatdırır. Pul fasiləsiz olaraq hərəkətdədir, bir şəxsdən digərinə keçir, bununla da mübadilə aktlarını vahid əmtəə tədavülü prosesi ilə əlaqələndirir.

Tədavül vasitəsi funksiyasını ifa etmək üçün pullar həmişə nəqdiyyatda olmalıdır, yəni bu funksiyanı real mövcud olan pullar yerinə yetirə bilər. Belə pullar həm də portativlik (yüngül və əldə gəzdirilə bilən), möhkəmlik, yekcinslik, bölümlük (xırdalana bilən) kimi keyfiyyətlərə də malik olmalıdır.

Pulun tədavül vasitəsi funksiyasını ifa etməsi üçün heç də onun öz dövriyyə sürətini ölçməsi deyil, onun əmtəələrin hərəkətində vasitəçi olması vacibdir. Ona görə də tədavül vasitəsi kimi pul üçün onun öz dəyər tutumunun əhəmiyyəti yoxdur, yəni tədavül vasitəsi kimi pulun real pul əmtəəsi kimi puldan ayrılması mümkündür. Bunun nəticəsində tədavüldə real (tam dəyərli) olmayan pulun deyil, onların nişanlarının olması mümkündür.

Bu funksiyanın spesifikası pulun formasında da öz izini qoyur. Məsələn, ümumi istehlak dəyəri pulu kimi çıxış edən qızıl ilk başlanğıcda tədavüldə külçə kimi fəaliyyətdəydi və onu çəkisinə görə qəbul edirdilər. Sonralar ticarət münasibətlərinin inkişaf etməsi obyektiv olaraq qızılın külçə şəklində tədavüldə olmasından qızılın sikkə formasında tədavülünə gətirib çıxarmışdır. Əmtəə mübadiləsinin ilk mərhələləri üçün həm də ümumi ekvivalent rolunu oynayan hər bir əmtəə, eyni zamanda dəyər ölçüsü və tədavül vasitəsi rolunu oynayırdı. Hər iki funksiya qızılda bilavasitə üst-üstə düşürdü.

Mübadilənin daha da inkişaf etməsi funksiyaların bir-birindən təcrid olmasına gətirib çıxardı ki, bu da pulun müxtəlif formalarının –

dəyər ölçüsü kimi say pulu və tədavül vasitəsi kimi dəyər nişanlarının yaranmasına səbəb oldu. Bununla da ümumi ekvivalentdə funksiyaların eyniləşməsi iki əksliklərin – tam dəyərli pullarda vəhdətinə çevrildi. Sonralar bu əksliklər özünün ziddiyyətinədək inkişaf etdi və bu da pulun ictimai istehsal münasibətləri kimi dayanıqlığının pozulmasına səbəb oldu.

Pul dəyər ölçüsü kimi, XX yüzilliyin 90-cı illərinin əvvəllərində bir sıra MDB ölkələrində baş vermiş və ya 1939-cu ildən 1949-cu ilə kimi Çində müşahidə olunmuş sürətli inflyasiya dövründə olduğu kimi tədavül vasitəsi funksiyasını yerinə yetirmir. Bir çox Çin tacirləri hesablaşmanı ABŞ dolları ilə aparır, amma sövdələşmədə Çin valyutasından istifadə edirdilər. Bu, hesablaşmaları və ödəməni sabit dəyər ölçüsündən istifadə etməklə (həmin halda ABŞ dolları ilə) aparmağa imkan verirdi, hərçənd Çin pul vahidinin real dəyəri çox sürətlə düşürdü. Bütün əmtəələrin iki qiyməti var idi, biri dollarla ifadə olunurdu, digəri isə – Çin pul vahidi ilə. Çin valyutası ilə qiymətlər hər gün Çin pul vahidinin ABŞ dollarına nisbətdə mübadilə kursuna əsasən təkrar sayılırdı. Çin pulu ilə ifadə olunan qiymətlərin sürətlə qalxdığı halda, dollarla olan qiymətlər ümumən əvvəlki səviyyədə qalırdı.

Resursların (ərzağın, əmtəələrin) Çin pulu ilə ifadə olunan qiymətləri öz mənasını itirmişdi, belə ki, bnlar onların nisbi dəyərlərindən daha çox həmin resursların haçan alınmasından asılı idi. Ona görə də resursları dollarla dəyərləndirərkən Çin sahibkarları müxtəlif resursların (ərzağın, əmtəələrin) nisbi qiymətlərini daha dəqiq ifadə edə bilirdilər. Dəyər ölçüsü və tədavül vasitələri funksiyalarının bu sayaq bölünməsi – hiperinflyasiyaya uyğunlaşmağın kifayət qədər ağıllı üsuludur.

Analoji proseslər başqa ölkələrdə də olmuşdur. Məsələn, 1970-ci illərin hiperinflyasiyası zamanı İsraildə və 1980-ci illərdə Boliviyada

MUHASIBAT.AZ

ABŞ dolları standart dəyər ölçüsünə çevrildi, eyni zamanda milli valyutalar tədavül vasitələri rolunu saxlamaqda idilər.

Pulun *ödəniş vasitəsi* kimi növbəti funksiyasının meydana çıxması əmtəə istehsalı və dövriyyəsinin inkişafının daha yüksək mərhələsini əks etdirir. Satış və ödəniş aktının ayrılması sayəsində pul yeni rolu ifa etmək imkanında oldu. də

Kredit əməliyyatlarının inkişaf etməsi nəticəsində pul ödəniş vasitəsi funksiyasını qazandı. Bu, onunla şərtlənir ki, ssuda sövdələri arxasında real qızılın durduğu ideal hesablama vahidlərində təsbit olunurdu. Qarşılıqlı ödənişli öhdəliklər istisna olmaqla, borclar üzrə ödəniş aparmaq labüd idi. Bunu, ya yığılmış pullar (xəzinə) hesabına, ya da ssuda hesabına etmək mümkün idi. Pulun ödəniş vasitəsi kimi istifadə olunması borc öhdəliyinin verilməsi və ödənməsi zamanı onların alıcılıq qabiliyyətinin potensial dəyişməsi təhlükəsi ilə bağlıdır.

Ona görə də borc öhdəliklərinin ödəniş vasitəsi olan pullar ödəniş vasitəsi funksiyasında çıxış edir. Pulun bu keyfiyyətdə fəaliyyət göstərməsi əmtəə-pul tədavülünün müəyyən qədər transformasiyasına, əmtəə və pul dövriyyəsinin məlum olduğu qədər təcridlənməsinə, pulun kredit-pul dövriyyəsinə çevrilməsi üçün şərait yaranmasına səbəb oldu. Ödəniş vasitəsi kimi pulun funksiyasında indi qarşılıqlı tərəflər kimi, sadəcə satıcı və alıcı deyil, kreditora çevrilən satıcı və borcluya çevrilən alıcı durur.

Əmtəələrin kreditlə satışı zamanı real olaraq yalnız əmtəənin istehlak dəyərinin yeri dəyişir. Əmtəənin dəyəri isə borc öhdəliyində ideal ifadəsini tapır. Dəyərin ideal ifadədən real ifadəyə çevrilməsi ödəniş vaxtının başlanması ilə həyata keçirilir. Pullar bu funksiyada mübadilə prosesini başa vururlar. Pullar ödəniş vasitəsi kimi mübadilə pulun fəaliyyətə başlamasından əvvəl təşəkkül tapmış kontragentlərinin ictimai əlaqələrini realizə edir.

MUHASIBAT.AZ

Ödəniş vasitəsi, eləcə də tədavül vasitəsi kimi pullar əsas və dövriyyə kapitallarının dəyər dövriyyəsinə, ictimai məhsulun və milli gəlirin hərəkətinə xidmət edir. Bu onu bildirir ki, təkrar istehsal prosesində meydana çıxan müxtəlif növ dəyər formalarının hərəkət prosesini əks edən bütün elementlər həmişə pul ifadəsinə malikdirlər.

Pulun *yığım vasitəsi* kimi funksiyası bilavasitə dəyər ölçüsü və tədavül vasitəsi funksiyasından irəli gəlir. Bu funksiya bazar münasibətlərinin müəyyən inkişaf səviyyəsini və mübadilə dəyər kateqoriyalarını, eləcə də ümumi ekvivalent kimi qızıl və gümüşdən istifadə edilməsini nəzərdə tutur. Pul dəyər ölçüsü kimi tam dəyərli, heç olmazsa, ideal olmalıdır, tədavül vasitəsi kimi isə tam dəyərli olmasa da, real pullar çıxış edir. Pul üçün dəyər ölçüsü kimi onun əşyaviliyinin fərqi yoxdur. Yığım vasitəsi funksiyasında olan pullar isə eyni zamanda həm tam dəyərli, həm də real olur.

Yığım vasitəsi kimi pulun funksiyasının təcrid oluna bilməsinin mümkünlüyü satış və alqı aktlarının məkan və zaman baxımından ayrılması ilə bağlıdır. Bununla əlaqədar olaraq xüsusi əmtəə kimi pul forması bəzək əşyası formasına, qızıl və gümüş zinət əşyalarına çevrilə bilər. İndiki halda milli zənginliyin mütəmadi artması prosesindən söhbət gedir. Bu zaman milli zənginliyin artmasının özəl səbəbləri və törədici motivləri vardır. Pul yığımı fondunun mövcudluğu pulun tədavülünün dayanıqlığının əldə olunması üçün istifadə olunur.

Bunun üçün elə belə yığım deyil, onun tədavül sferasından yığım sferasına və geriyə pul əmtəəsinin sistematik qarşılıqlı axınını təmin edə bilmək qabiliyyəti vacibdir. Əmtəə istehsalının və əmtəələrin qiymətlərinin daimi dəyişməsi pul kütləsinin fasiləsiz dəyişməsini tələb edir. Məhz pulun qarşılıqlı axını fəaliyyətdə olan pul kütləsinin həcminin genişləndirilməsi və məhdudlaşdırılması üçün yeganə mümkün yoldur ki, bunun da sayəsində pul tədavülü kanalları heç vaxt artıq pulla doldurulmur. Ona görə də sərvət və ya yığımın tədavül

MUHASIBAT.AZ

vasitəsinə və tərsinə – tədavül vasitəsinin yığıma çevrilməsi bütövlükdə pul sisteminin çevik tarazlığının labüd şərtidir.

Pulun yığım (sərvət) funksiyasını ifa etməsi dövriyyə tələbatına lazım olan qədər tənzimləyici pul vahidi miqdarında ehtiyat pulun yaradılması yolu ilə həyata keçirilir. Yığım funksiyasının iqtisadi məzmunu bu və ya digər miqdarda ödəniş vasitəsində pul dövriyyəsinin tələblərinə əsaslanır və bu da aktiv pul dövriyyəsi kanallarına pulun qarşılıqlı axınını şərtləndirir. Qızıl standart şəraitində banknotların, ayrı-ayrı hallarda isə dövlət kağız pullarının qızılla əvəzlənməsi (dəyişdirilməsi) tədavüldə olan pul nişanlarının həcmini tənzimləmək imkanını təmin etmişdir.

Pulun yığım vasitəsi kimi funksiyası, xüsusi növ aktiv olmaq qabiliyyətindədir ki, bununla o əmtəə və xidmətlərin satılmasından sonra sahibinə gələcəkdə alıcılıq qabiliyyətini təmin edə bilir. İnsanlar öz var-dövlətlərini daş-qaş, sənət əsərləri, ev, səhm, istiqraz və digər formalarda saxlaya bilərlər, lakin pul daha çox bu funksiyaların yerinə yetirilməsi üçün əlverişlidir, çünki likvidlik ona xasdır. O aktiv *likvidli* adlanır ki, o həm ödəniş vasitəsi kimi istifadə oluna bilir (və ya ödəniş vasitəsinə asanlıqla çevrilə bilsin), həm də təsbit olunmuş nominal dəyəri vardır.

Pul mükəmməl likvidliyə malikdir, çünki həm ödəniş vasitəsi kimi istifadə oluna bilir, həm də mövcud qiymət miqyası hüdudlarında öz nominal dəyərini dəyişmədən dəyər ölçüsü funksiyasını ifa edir. Bütün qalan aktivlərə likvidlik çox və ya az dərəcədə xasdır. Bunlara aşağıdakıları aid etmək olar:

- hökumətin qısamüddətli qiymətli kağızları (xəzinə vekselləri) adətən yüksək likvidli hesab olunur, çünki bu kağızların bazar qiymətləri az dəyişilir, həm də ona görə ki, bu kağızlar çətinlik çəkilmədən maliyyə bazarlarında satıla bilər. Bu zaman aparılan

MUHASIBAT.AZ

sövdələrin xərcləri az olacaq. Lakin pullardan faktiki olaraq xəzinə vekselləri mükəmməl likvidli deyil;

- müxtəlif səhmdar cəmiyyətləri, banklar və s. tərəfindən buraxılmış səhmlər və uzunmüddətli istiqrazlar hökumətin buraxdığı qısamüddətli qiymətli kağızlardan az likvidliyə malikdirlər. Vaxtın keçməsi ilə əlaqədar olaraq bu aktivlərin qiymətləri çox dərəcədə sürətlə dəyişilir, eləcə də bu sayaq qiymətli kağızlarla sövdələrdən alınan ödəniş xeyli yüksəkdir. Bu cür aktivlərin ara və ya orta səviyyəli likvidliyi olur;
- son dərəcə qeyri likvid olan tərpənməz əmlakdır (ev, xüsusi dükan və digər tikililər). Tərpənməz əmlakın bazar qiyməti çox dəyişkəndir, sövdənin aparılmasınadək onun necə olacağını söyləmək çətindir. Evin və ya torpaq sahəsinin alıcısının axtarılması çox vaxt aparır, alqı-satqı aktlarının aparılması üçün itkilər (vasitəçilərə, reklama verilən qonorar, hüquqi sənədləşdirmə üçün ödəniş) isə xeyli böyük ola bilər.

Pulun mükəmməl likvidliyi onu qısa müddət zamanı üçün ideal yığım vasitəsi edirsə də, bununla belə, pula elə çatışmazlıqlar xasdır ki, pul aktivlərinin sahibi daha az likvidli aktivlərin istifadəsi zamanı əldə edilə biləcək gəlirləri itirə bilir. Məsələn, hiperinflyasiya dövrlərində pul yığım vasitəsi kimi, özünün yüksək likvidliyinə baxmayaraq, öz cazibədarlığını itirir. Hiperinflyasiya olan hallarda milli valyuta qismən yığım vasitəsi, eləcə də dəyər ölçüsü kimi istifadə olunmaya da bilər. İnsanlar ləngimədən öz ölkələrinin pullarını dayanıqlı valyutaya dəyişirlər. Bundan sonra onlar xarici valyutanı alış aparmaq üçün ehtiyac yarandıqda lazımi qədər milli pula dəyişirlər.

Dünya pulları funksiyasında olan pullar «ümumi ödəniş vasitəsi kimi, ümumi alıcılıq vasitəsi və ümumiyyətlə … var-dövlətin mütləq ictimai maddiləşməsi kimi fəaliyyət göstərir».[10] Bu onu bildirir ki,

[10] Маркс К., Энгельс Ф. Соч. 2-е изд., т. 23, с. 154.

MUHASIBAT.AZ


dünya pulları funksiyasında çıxış edən pullar beynəlxalq pul tədavülünə xidmət edir. Faktiki olaraq dünya səhnəsində pulun tədavül vasitəsi (alıcılıq vasitəsi) kimi deyil, ödəniş vasitəsi kimi rolu birinci yerə çıxır. Belə vəziyyət ilk növbədə beynəlxalq kreditin gur inkişafı ilə bağlıdır.

Müasir şəraitdə ödəniş vasitəsi kimi qızıl kredit pullarla sıxışdırılmışdır. Bu proses hələ XX əsrin birinci yarısında – qızıl standartın müxtəlif kəsilmiş formaları mövcud olanda başlanmış və beynəlxalq hesablaşmaların aparılması üçün ehtiyat valyuta fondları – funt sterlinq, Fransa frankı, ABŞ dolları – adlandırılan valyutaların istifadə olunmasında təzahür etmişdi. İndi dünya bazarında məhz ABŞ dolları daha çox istifadə olunan ödəniş vasitəsidir, Neft ixrac edən ölkələr təşkilatının (OPEK) üzvləri isə neft satışı üzrə bütün ödənişlərin 90%-dən çoxunu dollarla alırlar.

Amma dollardan, eləcə də digər milli valyutalardan ödəniş vasitəsi kimi istifadə olunması dünya iqtisadiyyatındakı və («Triffin dilemması» adlandırılan) emitent ölkələrdəki maraqların fərqinə görə beynəlxalq hesablaşmalar sisteminin sabitliyini güclü şəkildə pozur. Ona görə də beynəlxalq iqtisadi münasibətlərin müasir mərhələsində aydın ifadə olunmasa da, valyuta münasibətləri sferasının tənzimlənməsində tədricən müxtəlif milli orqanların rolunun güclənməsi baş verir. Bu, üstmilli valyuta maliyyə institutlarını emitasiya edən hesablaşma vahidlərinin istifadə olunmasında təzahür edir. Bunlardan daha çox məlum olanı – ingilis abbreviaturası ilə SDR adlandırılan «xüsusi borcalma hüquqü»dur. Digər beynəlxalq hesablaşma vasitəsi Qərbi Avropa ölkələrində kifayət qədər geniş istifadə olunan ekyüdür və o XX əsrin 90-cı illərinin sonunda avroya transformasiya etmişdir.

Pulların funksiyası öz aralarında qarşılıqlı təsir göstərir. Pulların funksiyasının qarşılıqlı əlaqəsi şəkil 3.1-də göstərilmişdir.

MUHASIBAT.AZ



Şəkil 3.1. Pul kütləsinin real hərəkəti

Şəkil 3.1-dən görünür ki, pulların funksiyasının qarşılıqlı əlaqəsinin əsasında dəyər ölçüsü kimi pulların funksiyası çıxış edir. Bu, tamamilə qanunauyğundur, çünki əvvəldə göstərildiyi kimi, həmin pulların funksiyası təyinedicidir. Bu funksiya pulda olmadıqda yerdə qalanları praktik olaraq öz rollarını tam dəyərincə yerinə yetirməyəcəklər.

3.2. PULUN İQTİSADİYYATDA ROLU

Pulun rolu onun ümumi ekvivalent kimi mahiyyəti ilə müəyyən edilir, çünki xüsusi növ spesifik əmtəənin bu rol üçün seçilməsi istənilən əmtəə istehsalının qanunudur. Pul özlüyündə pulu yaradan bankların rəhbər tutduqları qaydalara əsasən iqtisadiyyata təsir göstərir.

Pulun rolu onda təzahür edir ki, pul-kredit sistemi maliyyə resurslarının səfərbər olunmasını və onun daha səmərəli istifadə olunmasını, iqtisadi dövranda xərclərin azaldılmasını, sövdələrin

MUHASIBAT.AZ

maneəsiz həyata keçirilməsində, ciddi maliyyə intizamında təmin edir ki, təkrar istehsal prosesinin bütün iştirakçıları buna tabe olmağa məcburdurlar.

Pul, təsərrüfat həyatının durumuna və bütün iqtisadi proseslərə əhəmiyyətli dərəcədə və daimi təsir göstərən inkişaf etmiş əmtəə təsərrüfatının ayrılmaz hissəsidir. Pul külli miqdarda əmtəə kütləsinin hərəkətinə vasitəçilik edir, kredit və maliyyə sistemləri vasitəsilə cəmiyyətin məhsuldar qüvvələrinin inkişafını stimullaşdırır. Eyni zamanda pul istehsalın inkişafına mənfi təsir göstərə bilər, sosial münasibətlər sahəsində təhlükəli nəticələrə gətirəcək təkrar istehsal prosesində ciddi pozuntulara səbəb ola bilər. Pulun rolu pul əmanətləri yaradılması mexanizminin yaradılması və genişləndirilməsində, resursları əmanətçilərdən daha səmərəli istifadə edə biləcək investorlara ötürməkdən də ibarətdir. Məsələ burasındadır ki, əmanətlərin xeyli hissəsi fiziki aktivlərə (əmtələr, qızıl) qoyulur və ya, faktiki olaraq iqtisadi artım nöqteyi-nəzərindən gəlir vermədən, istehlaka yönəldilir. Müvəqqəti pul vəsaitləri ən yaxşı halda qeyri-mütəşəkkil bazarda kredit verilir və ya özünümaliyyələşdirmə məqsədi ilə istifadə olunur. *Aşağı səviyyədə və əsasən fiziki formada olan əmanətlərdən investisiyalar zərər çəkir*.

Pul əmanətlərinin stimullaşdırılması və onlardan istifadə olunma səmərəliliyinin artırılmasına pul-kredit infrastrukturunun inkişaf etdirilməsi yolu ilə nail olunur. Bank vasitəçiliyi ilə əmanətçilərlə investorlar arasındakı birbaşa əlaqələrin əvəzlənməsi tədavüldə olan pul məbləğinin milli gəlirə nisbətini artırır ki, bu da əmanət və investisiya normalarının artımı ilə müşahidə olunan real resursların sərbəstləşdirilməsini, əvvəllər müxtəlif pul-kredit müəssisələri (institutları) vasitəsilə səpələnmiş (dağıdılmış) əmanətçilərin və investorların bir yerə toplanmasını, təşkilatçılıq səviyyəsinin, milli

MUHASIBAT.AZ

maliyyə bazarının tutum və inteqrasiya dairəsinin artmasını nəzərdə tutur, çünki o daha çox qiymət mexanizminə tabe olmağa başlayır.

Yuxarıda göstərilən proseslər iqtisadiyyatın «pullanması» (natural mübadilədə faktiki olaraq bütün iqtisadiyyat miqyasında pul dövranı payının artmasını) və «maliyyə dərinləşməsi» (maliyyə müəssisələrinin vasitəçiliyi ilə pul sövdələrinin payının artması) adlarını almışdır. Bu halda faktiki olaraq məsələ pul bazarı ilə bağlıdır, tələbat nəzərdə tutulan investisiyanın təqdim olunan həcmi ilə, təklif – əmanətlərin mümkün həcmi ilə, qiymət isə – faiz stavkasının həcmi ilə bağlıdır. Pul bazarında (pul iqtisadiyyatında) təkrar istehsal prosesinə xidmət edən və ona əhəmiyyətli təsir göstərən pul dövriyyəsi baş verir. Əgər real iqtisadiyyatda təkrar istehsal prosesi həyata keçirilirsə, əmtəə və xidmətlərin real axının hərəkəti baş verirsə, pul iqtisadiyyatında pullar sırf texniki vasitə kimi çıxış edərək yalnız həmin axınlara xidmət edirlər. Real qtisadiyyatda nisbi qiymət səviyyəsi müəyyənləşdirilir, pul iqtisadiyyatında isə – qiymətlərin mütləq səviyyəsi təyin edilir.

Pulların kobud kəmiyyət deyilən nəzəriyyəsinə əsaslanan pul iqtisadiyyatının çıxış durumuna uyğun olaraq, qiymətlərin ümumi səviyyəsi dövran edən pulların kəmiyyətinin dəyişilməsinə proporsional şəkildə dəyişilir. Pulun bu nəzəriyyəsi riyazi baxımdan iki tənliklə ifadə olunur və onlardan biri *mübadilə tənliyi* və ya *Fişer tənliyi* adlanır və aşağıdakı aşağıdakı şəkildə yazılır:

$$M \cdot V = P \cdot Y, \qquad (3.1)$$

burada M – dövriyyədə olan pulların müvazinətli kəmiyyəti; V – pul vahidinin dövriyyə sürəti; P – qiymət səviyyəsi (vahidə bərabər olan baza illik göstərici ilə ifadə olunan əmtəə və xidmətlərin orta səviyyəli qiymət dərəcəsi); Y – il ərzində cəmiyyət tərəfindən istehsal olunan və satılan məhsulun həcmi.

MUHASIBAT.AZ

İkinci və ya *Kembric tənliyi* aşağıdakı şəkildə yazılır:

$$M = K \cdot P \cdot Y, \tag{3.2}$$

burada K – özünün ayrı-ayrı adamların və firmaların pul qalığı şəklində saxlamaq istədikləri nominal gəlir hissəsidir.

Kembric tənliyi pulun kəmiyyət nəzəriyyəsinin əsas ideyasını belə ifadə edir: bu şərtlə ki, həmin tənlikdə K və Y kəmiyyətləri dəyişməz olduqda pulun nominal kəmiyyətinin dəyişməsi (M) qiymətlərin mütləq səiyyəsinin (P) proporsional dəyişməsinə səbəb olmalıdır. Ona görə də dəyişənlərdən birinin tarazlığını saxlamaq üçün onun, məsələn, lazımdır ki, onun iki dəfə artması digərinin iki dəfə artmasına səbəb olsun, yəni pulun faktiki kəmiyyət nəzəriyyəsi özlüyündə qiymətlərin mütləq dərəcəsinin bərabərlik nəzəriyyəsidir. Kembric tənliyi üç tənlik sistemindən çıxarılmış müxtəsər formalı tənlikdir ki, bunlardan da birincisi nominal pul qalıqlarına olan tələbat tənliyidir:

$$M_s = K \cdot P \cdot Y, \tag{3.3}$$

burada M_s – pula olan tələbatdır.

İkinci tənlik pulun təklifi funksiyasından ibarətdir:

$$M_p = M, \tag{3.4}$$

burada M_p – pul təklifidir.

Üçüncü tənlik bərabərliyin şərtlərini ifadə edir, belə ki, bərabərliyə görə proqnozlaşdırılan pul tələbatı bərabərlik durumunda proqnozlaşdırılan təklifə bərabərdir:

$$M_p = M_s, \tag{3.5}$$

MUHASIBAT.AZ


Üç tənlik sistemi məlumatlarından aydın olur ki, 3.2 düsturu ilə ifadə olunan Kembric tənliyi bərabərlik şərtini ifadə edən 3.5 tənliyində pula olan tələbat funksiyasının onun sağ hissəsinə və pula olan təklif funksiyasını onun sol hissəsinə qoymaq yolu ilə alınır. Klassik makroiqtisadi modeldə məcmu pul tələbatı pulun ümumi dərəcəsinə vurulmuş (P) real pul gəliri funksiyasından (Y) ibarətdir. Ona görə də *pula olan tələbat* deyildikdə iqtisadi agentin aktivlər portfelinin o hissəsi başa düşülür ki, onu agent, məsələn, qiymətli kağızlar, əmək alətləri, tərpənməz əmlak və s. formasında deyil, pul şəklində saxlamaq istəyərdi. Faktiki olaraq pula olan tələbat təsbit olunmuş hansısa müddət ərzində ehtiyat pula olan tələbat kimi başa düşülür.

Pula tələbat funksiyası ayrı-ayrı şəxslərin və firmaların öz nominal gəlirlərinin ((P) mütləq pul dərəcəsinə vurulmuş (Y) real gəlirinə bərabər olan) müəyyən bir hissəsini (K) nominal pul qalığı şəklində saxlamağa çalışmaları ideyasına əsaslanır. Tutaq ki, məcmu real gəliri 1000 pul vahidinə bərabərdir, pulun mütləq dərəcəsi 2 dəfə artır, ayrı-ayrı şəxslər və firmalar isə orta hesabla öz nominal gəlirlərinin 0,5-ni pul qalığı şəklində saxlamağı planlaşdırırlar, onda pula olan tələbat 1000 pul vahidinə bərabərdir. Bu zaman K gəlirin alınma tezliyindən və aparılan xərclərdən asılıdır. Bütövlükdə K əmək haqqının iki həftədə bir dəfə verilməsindən ayda bir dəfə verilməsinə keçilən zaman çoxalır.

Pulun klassik formada təklifi ekzogen (xarici qüvvələrin təsiri ilə) olur, məsələn, hökumət tərəfindən təsbit edilir və ayrı-ayrı şəxslərin və firmaların bazarda davranışından asılıdır. Bu zaman Fişer tənliyi (3.1) formasına görə Kembric tənliyi (3.2) ilə identik olur. Bu onunla bağlıdır ki, pulun dövriyyə sürətini V (nominal ehtiyat pul vahidinin dövriyyədə sirkulyasiyası sürətini) bildirən dəyişən K-ya əks olan kəmiyyət kimi müəyyənləşdirilir. V sürətinin əks K həcmi olmasını Fişer tənliyinin V ilə dəyişməsinə tənliyin hər iki hissəsinin bölünmə nəticəsi və həmin

MUHASIBAT.AZ

nəticənin Kembric tənliyi ilə müqayisəsi təsdiq edir. Ona görə də *pulun dövriyyə sürəti* nəqd formada saxlanılan nominal gəlirə tərs mütənasibdir, V isə K–nın azalaması ilə bahəm artır. Pulun tələb və təklif funksiyası qrafik təsvirdə 3.2 şəklində göstərilib.



Şəkil 3.2. Klassik makroiqtisadi modeldə pulun tələb və təklif funksiyaları

Şəkil 3.2-də pulun təklif funksiyaı M_p şaquli xətti ilə, pula olan tələbat funksiyası isə M_s xətti ilə verilib. Pula olan tələb və təklif E nöqtəsində bərabərləşir. Həmin bərabərlik durumu sabit xarakterə malikdir, ondan hər cür yayınmalar isə son hesabda bərabərlik durumuna qayıdışla tamamlanır və bu da pulun əmanət yığımı və onun sonrakı invesitisiyası problemini həll etməlidir.

Faktiki olaraq pulun iqtisadiyyata təsiri *ümumi pul dövriyyəsi qanunu* vasitəsilə daha dolğun ifadə olunur və o formallaşmış şəkildə aşağıdakı kimi təqdim oluna bilər:

$$M = \frac{P - K + a - b}{V}, \qquad (3.6)$$

MUHASIBAT.AZ

burada M – dövriyyə üçün vacib olan pulun məbləği; P – realizə edilən əmtəə və xidmətlərin məbləği; K – kredit satılan əmtəələrin qiymətlərinin məbləği; a – gələn ödənişlərin həcmi; b – qarşılıqlı ödənilən öhdəliklər; V – eyniadlı pul vahidinin dövriyyə sürətidir.

Göründüyü kimi, pul dövriyyəsi qanunu bildirir ki, dövriyyə üçün labüd olan pulun kəmiyyəti kredit satılan əmtəələrin qiymətlərinin məbləği çıxılmaqla realizə olunan əmtəə və xidmətlərin qiymətlərinin məbləğinə, eləcə də qarşılıqlı ödənilən öhdəliklər çıxılmaqla gələn ödənişlər üzrə düz mütənasibdir, pulun dövriyyə sürətinə isə tərs mütənasibdir. Bu qanunun pozulması pul dövriyyəsinin pozulmasına səbəb olur. Ona görə də bazar iqtisadiyyatında pulun rolu həmişə əhəmiyyətli olmuşdur, çox vaxt əks mövqelərə əsaslanan bütün iqtisadi cərəyanların nümayəndələri də buna diqqət yetirmişlər. Məsələn, pul məktəbinin nümayəndələri (D.Rikardo, S.Overston, R.Torrens, C.Norman və s.) ilə bank məktəbinin nümayəndələri (T.Tuk, C.Fullarton, C.S.Mill və s.) arasındakı ixtilaflar pulun iqtisadiyyatda hansı rolu oynamasına – passiv, yoxsa aktiv, metal və kağız dəyər nişanları arasında fərqin olmasına, emissiya prinsipinin necəliyinə – avtomatikliyinə, yaxud mərkəzi bank vasitəsilə tənzimlənməsinə bağlanır.

Pul məktəbinin nümayəndələri hesab edirdilər ki, pul kütləsinin həcmi iqtisadiyyatdakı dəyişikliklərin ilkin səbəbidir. Onlar metal pulların unikal xarakterini qəbul edir, onlarla digər dövriyyə vasitələri arasında dəqiq sərhəd qoyur, banknotların kredit təminatını inkar edərək iddia edirdilər ki, pul qızılla təmin olunmalıdır. Bu cərəyanın nümayəndələri iddia edirdilər ki, banknot emissiyasının qızıl ehtiyatından artıq genişlənməsi əmtəələrin qiymətlərinin artmasına və istehsalın genişlənməsinə aparır, azaldılması isə iqtisadi böhrana səbəb olur. Ona görə də pul məktəbinin tərəfdarları hesab edirdilər ki,

MUHASIBAT.AZ

banknotların yalnız qızıl təminatı iqtisadi böhranların qarşısını ala bilər.

Pul məktəbi tərəfdarlarının mövqelərindəki zəif cəhət ondan ibarət idi ki, onlar:

- mübadilə konsepsiyasından çıxış edərək tədavül sferasını birinci yerə qoyur və iqtisadi böhranları yalnız pul tədavülü və kreditin dinamikası ilə izah edirdilər;
- əmtəə qiymətlərinin hərəkətini dövriyyədə olan pulların kəmiyyətinin dəyişmələri ilə izah edirdilər, yəni pulun kəmiyyət nəzəriyyəsi mövqeyində dururdular;
- banknotların kredit təbiətinə əhəmiyyət vermirdilər və hesab edirdilər ki, qızılla təmin olunmayan banknotlar kredit pullara çevrilirlər.

Bu konsepsiyanın əksinə olaraq *bank məktəbi* iqtisadiyyatın inkişafında pulun sərbəst rolunu inkar edirdi, metal pul nişanlarının xüsusi rolunu göstərir, metal və kredit pullar arasındakı fərqi silməyə çalışırdı. Bu məktəbin nümayəndələrinin fikrincə banknotlar yalnız veksel təminatı ilə buraxılmalıdır. Bunun tərəfdarları banknot emissiyasının qızılla əlaqəsinə qarşı idilər.

Lakin bank məktəbi banknotların kredit xarakterinin əhəmiyyətini şişirtmiş və qızıl təminatının rolunu lazımınca dəyərləndirməmişdi. Tək veksel təminatı heç vaxt banknotların dayanıqlığına qarant olmamışdır, çünki əmtəə dövriyyəsinə əsaslanan kommersiya veksellərindən başqa, real əmtəə ödəməsindən məhrum maliyyə və bürünc vekselləri də vardır. Bundan əlavə dövlət böyük miqdarda xəzinə vekselləri buraxır, ona görə də banknotların qızıla dəyişdirilə bilməməsi şəraitində onların artıq buraxılması və qiymətdən düşməsi mümkündür. Faktiki olaraq hazırda pul haqqında diskussiyalar qızılın ümumi ekvivalent funksiyasını itirməsinə və ya bu

MUHASIBAT.AZ

faktın inkar edilməsinə, müasir pulların təbiətinin probleminə, onların tədqiqinin metodologiyasına yönəldilir.

Bu, ilk növbədə onunla bağlıdır ki, müasir pullar əmtəə özüllərini itirmişlər, əmtəəlikdən çıxmışlar və öz aralarında dəyişdirilən əmək məhsullarının qiymət proporsiyalarını tam şəkildə əks etdirmirlər. Bununla belə, bütün əmtəələr mübadilə edilir, bu prosesin gedişində meydana çıxan dəyişdirmə nisbətləri hansısa bir qanuna tabe olur. Əgər bu olmasaydı, onda əmtəə tədavülündə xaos və özbaşınalıq olardı. Bu zaman mübadilə nisbətində bu və ya digər proporsiyanın ən sadə izahı ondan ibarətdir ki, əmtəənin faydalılığı nə qədər çoxdursa, onun digər əmtəələrlə mübadilə proporsiyasındakı xüsusi çəkisi o qədər çox və qiyməti də o qədər yüksəkdir.

Səciyyəvidir ki, əmtəə (əmək alətləri, mal-qara və s.) və metal (qızıl və gümüş sikkələr) pullardan fərqli olaraq müasir pullar yalnız dəyər nişanlarıdır, yəni daxili dəyər adlandırılan dəyərləri yoxdur. Başqa sözlə desək, müasir banknotların hazırlanmasının real xərclərinin pul ifadəsi nominalı ilə uyğun gəlmir. Bu onu bildirir ki, müasir pullar özlərinin əmtəə formasını itirmişlər və nəinki təkcə əmtəə deyillər, həm də qızıl kimi xüsusi spesifik əmtəə deyillər.

Hazırda pul sahəsində bir çox mütəxəssislər sənayecə inkişaf etmiş ölkələrdə pulun kapital forması olması fikrinə daha çox meyllidirlər. Bu halda ona əsaslanırlar ki, pul saxta kapital kimi, təqdimedici dəyərə malikdir və gəlir gətirir. Məsələn, ABŞ-da pul kütləsinin 90%-dən artığı ödəniş öhdəlikləri və kredit müəssisələri tərəfindən yazılmış sənədlərlə – çeklərlə, depozit sertifikatları, «əmanətlərin qaldırılması haqqında əmrlər»dən və s. ibarətdir. Bu, deməyə əsas verir ki, müasir pullar nəinki təkcə ödəməqabillik şəhadətnamələridir, həm də gəlir almağa hüquq verən daşıyıcılardır, belə ki, praktiki olaraq ödəmə sənədləri yazan sahiblərin bütün hesabları üzrə faizlər ödənilir, yəni öz mahiyyət əlamətlərinə görə müasir pullar pul kapitalından fərqlənmirlər. Bundan

MUHASIBAT.AZ

nəticə çıxarmaq olar ki, pul kapitalının dəyər və qiymətini, faizini, habelə əmanət və investisiya problemlərini öyrənmədən müasir pulların rolu və dəyər təbiətini aydınlaşdırmaq mümkün deyil.

Özünü yoxlama üçün suallar

1. Pulun hansı funksiyaları mövcuddur və onların qarşılıqlı əlaqələri nədən ibarətdir?
2. Pulun funksiyaları ideal və real pullarla, habelə tam dəyərli və tam dəyərli olmayan pullarla necə qarşılıqlı əlaqədədir?
3. Dəyər ölçüsü kimi pulun funksiyası nədən ibarətdir?
4. Pulun tədavül vasitəsi kimi funksiyası necə təzahür edir?
5. Pulun ödəniş vasitəsi kimi meydana çıxmasına hansı şərtlər imkan yaratmışdır?
6. Yığım vasitəsi kimi pulun funksiyası özlüyündə nədir və o pul tədavülünü necə tənzimləyir?
7. Dünya pulları niyə yarandı və onların inkişaf tendensiyası necədir?
8. Pulun iqtisadiyyatda rolu necədir və bu özünü necə təzahür etdirir?
9. Pulun iqtisadiyyatda rolu məsələsinə dair pul və bank məktəblərinin fərqi nədədir?

MUHASIBAT.AZ

4. PUL DÖVRİYYƏSİ VƏ ONUN STRUKTURU

4.1. ÖDƏNİŞ SİSTEMİ VƏ PUL DÖVRİYYƏSİ ANLAYIŞI

Bazar şəraitində pul hesablaşmalarının dürüst təşkili məsələləri xüsusi aktuallıq kəsb edir, belə ki, pul vəsaitlərinin dövranı istənilən mülkiyyət formasında müəssisənin təsərrüfat həyatında çox mühüm rol oynayır. İqtisadiyyatın idarəsində inzibati-amirlik sistemindən bazar münasibətlərinə keçid bankların ikimərhələli sisteminə əsaslanan yeni ödəniş sisteminin yaradılmasını labüdləşdirdi. Təsərrüfatla məşğul olan müxtəlif bazar strukturlarının pul resurslarının ayrılması və təcrid edilməsinə, müstəqil kommersiya banklarının təşəkkül tapmasına, onların arasında müxbir münasibətlərinin tətbiq edilməsinə ehtiyac yarandı. Ödəniş sisteminin yenidən qurulması nəqdsiz hesablaşmanın təşkili prinsiplərinin, ödənişlərin həyata keçirilməsində yeni forma və üsulların dəyişdirilməsini tələb edirdi.

Ödəniş sistemi özlüyündə hesablaşma münasibətləri subyektləri arasında istehsal prosesində və əmtəə və xidmətlərin realizasiyasında meydana çıxan pul hesablaşmalarının aparılması üçün labüd olan kompleks təşkilat və müəssisələrdən, eləcə də instrument və prosedurlardan ibarətdir. İnkişaf etmiş bazara aldekvat ödəniş sisteminin yaradılması çoxplanlı və mürəkkəbdir və onun realizasiyası çox vaxt tələb edir.

Ciddi qeyri-ödəniş böhranlarının dəf olunması zərurəti şəraitində dürüst təşkil olunmuş ödəniş sisteminin əhəmiyyəti çox dəfələrlə artır, belə ki, qarşılıqlı çox böyük borclar, hər hansı bir həlqədə ödənişlərin ləngiməsi böyük sayda təsərrüfat subyektlərinin işinə maneçilik törədir, onların istehsal və kommersiya fəaliyyətlərindəki mühüm göstəricilərində əks olunur.

MUHASIBAT.AZ

İstənilən müəssisə həm alıcı, həm də satıcı kimi pul hesablaşmaları aparır, büdcə və bankla hesablaşma aparır, eləcə də fəhlə və qulluqçularla pul hesablaşmaları həyata keçirir. Bütün pul ödənişlərinin məcmusu pul dövriyyəsinin bir hissəsini təşkil edən ödəniş dövriyyəsindən ibarətdir. Müəssisələrin ödəniş dövriyyəsinin xeyli hissəsi nəqdsiz yolla həyata keçirilir, yəni banklarda hesablar üzrə yazıların aparılması (keçirilməsi, kontirovkası) yolu ilə həyata keçirilir. Nəqd pullar ödəniş dövriyyəsində ilk növbədə əhali tərəfindən, eləcə də az miqdarda məbləğdə hesablaşmalar zamanı təsərrüfat subyektləri tərəfindən həyata keçirilir.

Pul münasibətləri təkrar istehsal proseslərinin müxtəlif tərəflərini əks etdirən kifayət qədər mürəkkəb sistemdir. Bu onunla şərtlənir ki, istehsalat və ya şəxsi istifadə üçün nəzərdə tutulmuş və əmtəə və ya qeyri-əmtəə formasını alan bütün istehsal olunan məhsullar və göstərilən xidmətlər müvafiq pul məbləği ilə realizasiya edilir. Bu pul məbləğinin köməkliyi ilə gəlirlərin, o cümlədən əlavə dəyər məhsulunun, habelə müvəqqəti azad olan pul vəsaitlərinin kredit bölüşdürülməsi, formalaşması və bölüşdürülməsi həyata keçirilir.

Bu zaman bilavasitə təsərrüfat subyektləri arasında, təsərrüfat subyektləri ilə dövlət arasında, təsərrüfat subyektləri ilə onların işçiləri arasında, əhali ilə dövlət arasında, habelə ayrı-ayrı vətəndaşlar arasında nəqdsiz formada və nəqd pullarla meydana çıxan pul münasibətləri pul hesablaşmaları ilə nəticələnir. Bu halda nəqd pulların hərəkəti və hesablaşmaların nəqdsiz formaları öz aralarında sıx təsirə malikdirlər və özlüyündə vahid *pul dövriyyəsidirlər*. Ona görə də pulun bütün funksiyalarının onların əmtəə mübadiləsi prosesinə xidmət etdiyi zaman məcmu (ümumi) milli məhsulun (ÜMM) və milli gəlirin (MG) genişləndirilmiş təkrar istehsal prosesində, bölüşdürülməsi və yenidən bölüşdürülməsində xidmət göstərməsi gedişində istifadə olunması pul

MUHASIBAT.AZ

dövriyyəsini yaradır. Pul dövriyyəsinin ümumi prinsipial əlamətlərini aşağıdakı kimi xarakterizə etmək olar:

- pul dövranı – müəssisə, təsərrüfat, dövlət, özəl və kooperativ təşkilatların, kredit müəssisələrinin və əhalinin, ödəniş vasitəsi və tədavül vasitəsinin pul vasitəsi ilə ödənişlərin aparılması prosesində əmələ gələn pul vəsaitlərinin bütün axınlarının məcmusudur. Bu zaman üstün (əsas) yeri müəssisə və təşkilatlar arasındakı pul axını tutur;
- pul dövranı nəqd pulların və nəqdsiz hesablaşma formalarının tədavül vəhdətini təşkil edir, belə ki, hər bir halda pul ictimai məhsulun və milli sərvətin dəyərinin ölçü vahidi kimi çıxış edir;
- pul dövranı bütün təkrar istehsal prosesini onun tərkib elementləri – istehsal, bölgü, mübadilə və istehlak ilə birlikdə əhatə edir;
- pul dövranının tənzimlənməsinin kredit əsası vardır, yəni pulun təsərrüfat dövranına avanslaşdırılması kredit münastibətlərinə söykənir;
- pul dövranının elmi tənzimlənməsi və proqnozlaşdırılması maliyyə kredit proqnozlarının, habelə pul tədavülü üzrə proqnozların işlənilib hazırlanması vasitəsi ilə həyata keçirilir.

Pul dövranı vasitəsi ilə iqtisadiyyatda yenidən bölüşdürmə prosesləri həyata keçirilir. Bu, dövlət tənzimlənməsinə məruzdur və əksər hallarda makroisqtisadi amillərdən, monetar siyasətdən və vergiqoyma siyasətindən asılı olur. Faktiki olaraq yenidən bölüşdürmə prosesləri maliyyə nazirliyi (xəzinədarlıq), vergi orqanları, kommersiya bankları və hesablaşma-kassa banklarına xidmət göstərən pul axının hərəkətindən ibarətdir.

Pul və əmtəənin hərəkti qanunauyğunluqlarını əks etdirən pul dövranı əmtəə dövriyyəsi ilə, onun maddi əsası kimi və dəyərin pul formasında hərəkəti ilə bilavasitə bağlıdır. Ona görə də ölkədə pulun

MUHASIBAT.AZ

dövranı əsas etibarilə bankların sənaye, ticarət, kənd təsərrüfatı və iqtisadiyyatın bütün digər sektorlarının kreditə və pula olan tələbatlarını ödəyə bilmək qabiliyyətindən asılıdır. Hər bir sektorun pul dövranı özlüyündə bütövlükdə pul dövranının nisbətən ayrıca bir hissəsidir və eyni zamanda onun digər hissələri ilə əlaqəlidir. Bütünlükdə pul dövranının fəaliyyət göstərməsinin obyektiv əsası və mərkəzi həlqəsi iqtisadiyyatın real sektorunun sahələrinin pul dövranıdır ki, burada təsərrüfat subyektlərinin mədaxi və məxaricləri arasındakı zəruri nisbətlərə nail olunması xüsusilə vacibdir.

Pul dövranının düzgün təşkil olunması iqtisadiyyatın səmərəli idarə olunmasının şərtidir. Pul dövranı əmtəə istehsalı prosesləri və xidmətlərin müsbət yekunlarını əks etdirdiyi kimi, onun mənfi anlarını da əks etdirir. Təsərrüfatçılıq praktikası, pul dövranının idarə olunmasının, dövlətin vahid emissiya, kassa və hesablaşma mərkəzi olan mərkəzi bankda təmərküzləşməsinin məqsədəuyğunluğunu sübut edir. *Pul dövranının təşkilinin* aşağıdakı *əsas prinsiplərini* fərqləndirmək olar:

- bütün müəssisələr (birliklər), təşkilatlar və müəssisələr pul vəsaitlərini bank hesablarında saxlamağa, hesablaşmaları başlıca olaraq nəqdsiz formada banklar vasitəsilə aparmağa borcludurlar;
- bank müəssisə və təşkilatların hesablarının aparılmasını təmin etməyə, həmin hesablar üzrə müvafiq nəzarətlə nəqdsiz və nəqd pul hesablaşmalarını aparmağa, əhalinin pul əmanətlərini qəbul etməyə və saxlamağa, əmanətçilərin ilkin tələbi üzrə bunları istənilən formada ödəməyə borcludurlar;
- bankdaxili dövranda yalnız müəyyənləşdirilmiş formada hesablaşma sənədlərindən istifadə olunur, bankdankənar dövranda isə – yalnız dövlət pul nişanlarından istifadə olunur.

MUHASIBAT.AZ

Pul dövranı mərkəzi bank tərəfindən tənzimlənir. Bu zaman mərkəzi bank tərəfindən pul dövriyyəsinin tənzimlənməsi pul-kredit bazarının istənilən elementinə – pulun nəqd və nəqdsiz formada təklif olunan həcminə, tələb olunan kreditin həcminə və oun dəyərinə tərəf yönəldilə bilər. Pul təklifinə təsir imkanı nəqd və nəqdsiz formada pul emissiyası subyektini və pul-kredit tənzimlənməsi subyektini mərkəzi bank simasında cəmləşdirməklə təmin olunur. Bu zaman banknotların emissiyasındakı inhisarçılıq pul tədavülünü təşkil edən nəqdiyyat üzərində nəzarət üçün baza yaradır, bütövlükdə bank sistemində kredit resurslarının formalaşdırılmasında mərkəzi bankın xüsusi rolu isə mümkün bank kreditləri həcminin müəyyənləşdirilməsi üçün əsas yaradır.

Pul dövriyyəsi nəqd və nəqdsiz pul dövranından ibarətdir. Müasir inkişaf etmiş dövlətlərin pul dövriyyəsinin prinsipial xüsusiyyətləri praktiki olaraq nəqd və nəqdsiz dövran bölgüsünün tamamilə olmamasından ibarətdir. Bu onu bildirir ki, nəqd və nəqdsiz pulların eyni səviyyədə alıcılıq qabiliyyəti vardır və pulların bir formadan digərinə keçidi isə təsərrüfatçılıq subyektlərinin real tələbatları ilə şərtlənir. Xarakterik haldır ki, nəqdsiz hesablaşmaların yüksək inkişaf səviyyəsi şəraitində hətta cüzi ödənişlər üçün (bir neçə yüz dollar) banknotlardan istifadə olunması inkassasiya xərcləri, qarətolunma riski ilə bağlı praktiki olaraq istisna edilir. Bu zaman pulların nəqdsiz formadan nəqd formaya axını problemi mövcud olmur, çünki qiymətlərin, faiz stavkalarının və valyuta kursunun dəyişilməsi yolu ilə məcmu pul kütləsi və əmtəə kütləsi, xidmətlər və investisiya imkanları, o cümlədən xarici iqtisadi əlaqələr balanslaşdırılır. Nəqdsiz və nəqd pul dövranının vəhdəti daxili tədiyə dövranında xarici valyutanın sərbəst dolanmasına yol verilməməsi üçün şəraitin yaradılması ilə təmin olunur.

MUHASIBAT.AZ

4.2. NƏQDSİZ PUL DÖVRANININ XARAKTERİSTİKASI

Nəqdsiz pul dövranı nəqd pullar istifadə olunmadan həyata keçirilən ödənişlər məcmusundan ibarətdir. Nəqdsiz və nəqd pul dövranı vahid pul dövranının iki tərkib hissəsi kimi bir-biri ilə qarşılıqlı əlaqədardırlar və bir-birini şərtləndirirlər, ona görə də bu rabitəni və pul dövranının tərkib hissələrinin mümkün təsirini nəzərə almaq lazımdır. Lakin iqtisadi nəzəriyyə və bank praktikasında bu məsələlər hələlik özünün birdəfəlik həllini tapmamışdır. Yalnız o məlumdur ki, pulun dövriyyəsinin möhkəmləndirilməsi nöqteyi-nəzərindən pul dövranının rasional təşkili nəqdsiz hesablaşmalar sferasının daha da genişləndirilməsini və onların təkmilləşdirilməsini, pul-kredit tənzimləməsinin yaxşılaşdırılmasını, kreditləşdirmə prinsiplərinə ciddi əməl edilməsini, kredit əməliyyatları ilə mərkəzi bankın kassa-emissiya əməliyyatları arasında əlaqələrin güclənməsini tələb edir, belə ki, məhz kreditlərşdirmə prosesində iqtisadiyyat zəruri ödəniş vasitələrini və nəqd pulları alır.

Dövlət həmişə nəqdsiz hesablaşmaların tətbiqi sferasını genişləndirir. Bütün pul dövranının böyük hissəsi onların payına düşür. Müəssisə və təşkilatlar arasında, təşkilatların və onların yuxarı orqanlarının arasında, maliyyə-kredit sistemi ilə hesablaşmalar nəqdsiz hesablaşma yolu aparılır. Hazırda əhali ilə hesablaşamalar üçün nəqd pulların tətbiqi sferası məhdudlaşdırılır.

Əhalinin nəqdsiz hesablaşmalara cəlb edilməsinin formalarından biri kommersiya banklarındakı əmanətlərdən müxtəlif növ xidmətlər üçün ödənişlərin müəssisə və təşkilatların hesablarına köçürülməsi yolu ilə və əksinə, habelə çeklər və bank plasstik kartları vasitəsi ilə mallar üçün hesablaşmaların tətbiq olunmasıdır. Bu tədbirlər nəqd pulların dövranını məhdudlaşdırmağa imkan verir ki, bu da dövlətin xərclərinin azalmasına səbəb olur və əhalinin əmanətlərinin müəyyən qədər

MUHASIBAT.AZ

artmasına kömək edir. Dövlətlərin pul dövranının ümumi tutumunda nəqdsiz dövran əsas yeri – pul vəsaitlərinin ümumi dövranının 90%-ni tutur.

Son illərdə nəqdsiz pul dövranında banklar arasındamüqavilə münasibətlərindən ibarət olan *müxbir münasibətləri* yaradılır və bunlara görə bir bank (müxbir) digər bankların (respondentlərin) depozitlərini saxlayır və sonuncuya ödəniş və digər əməliyyatlar üzrə xidmətlər göstərir. Bu zaman iri və müddətli (təcili) pul köçürmələri üzrə banklararası hesablaşmalar ümumi əsasda və real zamanda həyata keçirilir. İri köçürmənin məbləği mərkəzi bank tərəfindən müəyyən edilir. Digər ödənişlər üzrə banklararası hesablaşmalar (müddətsiz və xırda məbləğlər) *klirinq* əsasında iki- və çoxtərəfli daxil etmələr yolu ilə həyata keçirilə bilər. Sonuncu, hesablaşmaya qədər köçürmə prosesi, tədiyə məlumatlarının tutuşdurulması və təsdiq olunması, habelə tələbnamələrin, öhdəliklərin qarşılıqlı daxil edilməsi üzrə əməliyyatlar və son hesablaşma saldosunun müəyyənləşdirilməsindən ibarətdir.

Müxbir banklar, müxtəlif səbəblər üzündən bilavasitə bank sferasında təmsil oluna bilmədikləri ölkələrdə xüsusilə müstəsna rol oynayırlar. Ona görə də banklararası müxbir münasibətlər, iki bank arasında qarşılıqlı tapşırıqların dəqiq, dürüst və harmonik icrasına əsaslananhər cür əməkdaşlıq formasından ibarətdir. Müxbir münasibətlərinin tərifindən belə çıxır ki, bunlar, bir bank öz əməliyyatlarını aparmaq məqsədilə digər bankın xidmətlərindən istifadə etmək istədikdə meydana çıxır, yəni digər bank daha yaxşı, tez və ucuz xidmət göstərmək imkanına malikdir, zira birinci bank ümumiyyətlə belə xidmət göstərə bilməyəcək.

Ölkə bankı beynəlxalq hesablaşmalar və ödənişlər apararkən müxbir münasibətlərin xüsusilə böyük əhəmiyyəti olur. Çünki digər bankın cəlb olunması məsələsi o zaman meydana çıxır ki, milli sərhədlərin hüdudlarından kənarda bank əməliyyatlarının keçirilməsinə

MUHASIBAT.AZ

zərurət yaransın. Ona görə də xarici tərəf müqabili banklarla müxbir münasibətlərin yaradılması zərurəti bankın fəaliyyətinin beynəlxalq xarakter aldığı zaman meydana çıxır ki, bu da bankın müştəri kontingentindən (tərkibindən) və onların biznesinin coğrafiyasından asılıdır.

Xarici müxbir bankların seçilməsi üçün əsas şərtlərin aydınlaşdırılmasından sonra həmin ölkədə bir və ya bir neçə müxbir tərəf müqabillərin (partnyorların) axtarılması məsələsi həll edilir. Bu, onunla şərtlənir ki, müxbir münasibətlərin inkişafı böyük məsrəflər tələb edir. Ona görə də müxbir bank işinə o vaxt başlamaq məqsədəuyğundur ki, bu halda bankın mədaxili artsın, yəni müxbir münasibətlərin yaradılmasının məqsədəuyğunluğu məsələsini xərclər və gəlirlər nisbəti nəzərindən dəyərləndirmək vacibdir. Bu amil, eləcə də risk aspektləri (ölkəyə xas olan risk – ölkə riski və ya ölkəyə aid risk; ayrı-ayrı bankların maliyyə etibarlılığı ilə bağlı risk və ya adres riski; bank əməliyyatları spesifikasından irəli gələn risk – əməliyyat növü riski) müxbir münasibətlərinin uzunmüddətli zaman kəsiyində nəzərdən keçirilməsi məqamında həlledici rol oynayır.

Müxbir münasibətlərinin yaradılması məqamında əməliyyatların sadə standartlaşdırılması növləri tətbiq edilir, sonra isə mürəkkəb fərdi razılaşmalar baş verə bilər və bunlara aşağıdakıları aid etmək olar:

1) *müştərilərə xidmət göstərilməsinə əsaslanan* (bazis əməliyyatları) və mövcud hesablar üzrə müxbir banklarda ödənişlər aparılmasından ibarət olan *əməliyyatlar*. Bu əməliyyatlar kommersiya sövdələri adlandırılan prosesin aparılmasından başlaya bilər. Sonuncular ixrac-idxal əməliyyatları (əmtəə dövriyyəsinə uyğun olaraq) və xidmətlər göstərilməsi ilə nəticələnir. Bunlar da sənədli əməliyyatlar (dokumentar) kimi müəyyən edilən inkasso və akkreditiv əsasında bank köçürmələri ilə həyata keçirilir (hazırda beynəlxalq pul dövranında banklar arasında kommersiya sövdələrinin əksər hissəsi sənədsiz ödəniş əsasında həyata

MUHASIBAT.AZ

keçirilir, lakin üçüncü dünya ölkələri ilə münasibətlərdə sənədli (dokumentar) əməliyyatlar öz əhəmiyyətini saxlayır.

Müştəri ilə sövdəyə əsaslanan əməliyyata çeklərlə ödəniş və zəmanətlərin verilməsi də daxildir. Çeklər öhdəliklərin yerinə yetirilməsi məqsədi ilə müştərilərin tapşırığı ilə banklar tərəfindən tərtib olunur və ya müştərinin özü tərəfindən öz bankına adına təqdim edilir. Bank müştərilərin tapşırığı ilə öz üzərinə müxtəlif zəmanət (qarantiya) növləri götürür (məsələn, ödəniş, mal yollanılması, öhdəliklərin yerinə yetirilməsi zəmanətləri, təminat zəmanəti) və onun öhdəlikləri üzrə cavabdehlik edir. Beynəlxalq münasibətlərdə bu əməliyyatlar kifayət qədər tez-tez həyata keçirilir, belə ki, xarici ölkələrdə ayrı-ayrı firmaların ödəməqabilliyi etibarlı şəkildə dəyərləndirilə bilməz, amma bank böyük etimada malik olduğundan, o müştərinin öhdəliyini öz üzərinə götürür;

2) *banklararası əməliyyatlar* (banklararası əməliyyatlarda genişləndirilmiş əməkdaşlıq forması), bu zaman bankların öz əməliyyatları adlandırılan banklararası əməliyyatlar əməkdaşlıq predmetini təşkil edir ki, onların da icrası üçün xarici banklar cəlb olunurlar.

Belə əməliyyatlara sərbəst konvertasiya olunan (dönərli) valyutaların alqı-satqısı üzrə əməliyyatları aid etmək olar. *Kassa və müddətli valyuta əməliyyatlarını* fərqləndirirlər. Birinci halda alıcı sövdənin məbləğini həmin andaca ödəməyə borcludur, ikinci halda – ödəniş müəyyən olunmuş müddətdən başlanır. Bu sövdələrin reailzasiya forması qarşılıqlı dəyərləndirməədən və bankların bir-birlərinə etimadından asılıdır. Ona görə də banklar arasında etimad nə qədər çox olarsa, onlar sövdələrin icrasına o qədər tez başlayarlar.

Xarici valyutaya ilə ticarətə yaxın banklararası əməliyyatlar forması (həyata keçirilmə üslubuna görə) *pul bazarındakı ticarətdir*. Bu halda bir bank digər banka müəyyən müddətə (maksimum müddət bir

MUHASIBAT.AZ

ilədək ola bilər) pul məbləğləri təqdim edir. Bank belə münasibətlər çərçivəsində nəinki pul alır, həm də mütəmadi olaraq onları müəyyən müddətə müxbir banklara ötürür, yəni depozit əməliyyatları aparır və bu zaman əməliyyatın növündən asılı olaraq bank alıcı və ya ötürücü (təqdim edici) tərəfdə ola bilər.

Klirinq hesablaşmalar banklararası əməliyyatlara aiddir və bu zaman həmin hesab üzrə əməliyyatların həcmi müəyyən həddə çatır və digər bankların əməliyyatlarına qoşula bilməsi imkanı yaranır. Bu bankların tapşırıqları qarşılıqlı hesaba alına bilər ki, bunun da nəticəsində klirinq mərkəzlərin (məsələn, bir qayda olaraq milli hesablaşmalar mərkəzi kimi fəaliyyət göstərən mərkəzi bankların) qoşulması zərurəti aradan qalxır. Klirinq hesablaşmalar hesabın aparıldığı bank üçün xeyli risklə bağlıdır.

Kredit əməliyyatlar da banklararası əməliyyatlara aiddir və onun növlərindən biri də müvəqqəti pul qıtlığını dəf etmək üçün lazım olan qısamüddətli hesablaşma krediti və aksept, yaxud da ramburs kreditidir ki, bu həm də xarici ticarət sahəsində qısamüddətli kredit hesab olunur. Birinci halda beynəlxalq ödənişlərin aparılması ilə bağlı və ya qısamüddətli likvidliyin ödənilməsi üçün olan vaxtı keçmiş qısamüddətli kreditlərin ödənilməsi üçün istifadə olunur. Həmin qısamüddətli borc yalnız haqq-hesab sahibi ilə hesab aparan bank arasında ilkin razılaşma (müqavilə) əsasında mümkündür. Bu kredit akkreditivini təqdim olunması ilə maliyyələşdirmədən ibarətdir, çünki kredit alan banka imkan verir ki, onun hələ vəsaitləri istifadə edə bilmədiyi məqamda (əksər hallarda valyuta ilə) akkreditiv açsın və ondan istifadə etsin. İkinci halda kreditləşdirici bank ona təqdim olunan bank akseptli vekseli alır ki, qoyulan müddət keçdikdən sonra onu təqdim etsin. Borc alan bankın ödənişi yerinə yetirə bilməyəcəyi riski tamamilə kredit vermiş veksel alan bankın üzərində qalır. Hər iki halda təxirə salınmadan ticarət sövdəsi çərçivəsində satıcı və ya

MUHASIBAT.AZ

ixracatçının tələbatı təmin edilir və müddətli ödəniş aparmalı olan banka kredit verilir.


Hazırda nəqdsiz pul dövranında müxtəlif *hesablaşma formalarından* istifadə olunur. O cümlədən faktiki olaraq bankın elektron pulların nəqd və nəqdsiz formada ödənilməsi üçün kredit öhdəliyi olan *bank plastik kartlarından* istifadə olunur, belə ki, alınmış malı plastik kartla ödəyən alıcı satıcıya müvafiq məbləğdə öhdəlik verir. Bu zaman emitent bank bu və ya digər səbəbdən öz öhdəlikləri üzrə ödənişləri dayandırdıqdaplastik bank kartının öz funksiyaları, forma və xüsusiyyətləri ilə gücü çox az ola bilər və ya hətta sıfıra enə bilər. Nəqdsiz hesablaşmalar ödəniş tələbnamələri, ödəniş tapşırıqları, ödəniş tələbnamə-tapşırıqları, akkreditivlər, çeklər, veksellər, inkasso sərəncamları yolu ilə də (mübahisəsiz vəsait tutulmaları sərəncamları üzrə) həyata keçirilə bilər.

Ödəniş tapşırığı – göndərişçinin alıcıya müəyyən məbləğdə pulun ödənməsi və onun vəsait alanın hesabına köçürülməsi ilə bağlı ödəniş tələbnaməsidir. Həmin hesablaşma sənədinin spesifikası aşağıdakılardan ibarətdir:

- ödəniş tələbnaməsi məhsulun göndərilməsindən, xidmət göstərilməsindən, işlərin icrasından sonra tətbiq edilir;
- ödəniş tələbnaməsinin ödənilməsi tədiyəçinin razılığı (aksepti) ilə həyata keçirilir.
- Hesablaşmanın əsasında inkasso durur ki, bu zaman göndərişsinin bankı onun tapşırığı ilə alıcıdan ona çatacaq pul vəsaitlərini tələb (inkasso) edir.

Ödəniş tələbnaməsi müəyyən olunmuş formada blankda tərtib olunur və əmtəə-nəqliyyat qaiməsi və ya onu əvəz edəcək sənədləri ilə birlikdə göndərişçiyə xidmət edən banka təqdim edilir. Ödəniş tələbnamələri ilə hesablaşma zamanı sənədlərin hərəkəti qaydası şəkil 4.1.-də göstərilmişdir.

MUHASIBAT.AZ



Şəkil 4.1. İlkin (önləyici) aksept ilə ödəniş tələbnaməsiylə hesablaşma zamanı sənəd dövranı

1 – göndərişçinin banka ödəniş tələbnaməsi təqdim etməsinədək müqavilə və ya göndəriş şərtləri ilə nəzərdə tutulmuş məhsulun yollanması (xidmətlərin göstərilməsi, işlərin yerinə yetirilməsi) və əmtəə və ya digər sənədlərin tədiyəçiyə təqdim olunması, yaxud poçtla yollanması;

2 – göndərişçinin ona xidmət edən banka hesablaşma sənədləri dəstini təqdim etməsi (inkasso), müəssisə ilə razılaşdırıldıqda isə banklar hesablaşmanı sürətləndirmək məqsədilə ödəniş tələbnaməsini göndərişçinin bankından yan keçməklə, bilavasitə tədiyəçinin bankına göndərilməsinə icazə verirlər;

3 – ödəniş tələbnamələrinin yoxlanılması və alıcının bankına göndərilməsi;

4 – alıcının bankı tərəfindən aksept, ödəniş tələbnamələrinin ödənilməsi, bilavasitə ödəniş tələbnaməsi nüsxəsinin tədiyəçiyə təqdim olunma müddətlərinin müəyyənləşdirilməsi;

5 – tədiyəçinin ödəniş tələbnaməsinin ödənilməsinə razılığı və ya akseptdən imtina edilməsi;

6 – tədiyəçinin hesabından (alıcının ödənişə razılığı zamanı) pulun çıxarılması ilə ödəniş tələbnamələrinin ödənilməsi və ya ödəniş

MUHASIBAT.AZ


tələbnamələrinin göndərişçinin bankına qaytarılması (akseptdən imtina edildiyi halda);

7 – pulların göndərişçinin bankına köçürülməsi və ya ödənişdən imtina edilməsi haqqında bəyanat verilməsi;

8 – pulların göndərişçinin hesabına daxil edilməsi;

9 – göndərişçiyə onun hesablaşma hesabına pulların daxil olması haqqında xəbərdarlıq edilməsi və ya akseptdən imtina edilməsi barədə məlumat verilməsi.

Tədiyə tapşırığı – bu hesablaşma hesabı sahibinin ona xidmət edən banka müəyyən məbləğdə pulun tapşırıqda göstərilən alıcıya köçürülməsi barədə sərəncamıdır. Tədiyə tapşırıqları ilə alınmış mallar, göstərilmiş xidmətlər, qeyri-əmtəə əməliyyatları, malların (xidmətlərin) öncədən ödənilməsi üzrə və, əgər müqavilədə bu nəzərdə tutulmuşsa, avans ödənişləri üzrə hesablaşmalar aparılır. Tədiyə tapşırığı ilə hesablaşma zamanı sənəd dövranı sadədir və aşağıdakı kimi təqdim oluna bilər (şəkil 4.2).



Şəkil 4.2. Ödəniş tələbnaməsi ilə hesablaşma zamanı sənəd dövranı (ilkin (önləyici) ödəniş qaydası ilə)

MUHASIBAT.AZ

Tədiyə tapşırığı ilə hesablaşma zamanı (öncədən ödəmə qaydası ilə) aşağıdakı əməliyyatlar həyata keçirilir:

1 – göndərişçinin ona xidmət edən banka tədiyə tapşırığı təqdim etməsi;

2 – tədiyə tapşırığının yoxlanılması və ödənilməsi;

3 – pulların alıcının hesabına köçürülməsi;

4 – pulların alıcının hesabına daxil edilməsi;

5 – göndərişçiyə onun hesabına pul vəsaitlərinin daxil olması haqqında məlumat verilməsi;

6 – məhsulun yollanmasına dir sənədlər (xidmətlərin göstərilməsi, işlərin yerinə yetirilməsi).


Tədiyə tələbnamə-tapşırığı – göndərişçinin alıcıya ona bankdankənar göndərilən hesablaşma və yollama sənədləri əsasında məhsula, yerinə yetirilən işlərə, göstərilən xidmətlərə müqavilədə qoyulan qiymətlə ödəniş aparması barədə tələbnamədən ibarətdir. Tədiyə tələbnamə-tapşırığı yollama və digər sənədlərlə birlikdə bilavasitə alıcıya göndərilir. Ödənişə (tam və ya qismən) razılıq verildikdə tədiyə tələbnamə-tapşırığını tədiyəçi onun hesabı və möhürünə dair sərəncam vermək hüququna malik şəxsin imzası ilə tərtib edir (birinci və ikinci nüsxələri) və banka təhvil verir. Tədiyə tələbnamə-tapşırığının (bütün məbləğinin və ya bir hissəsinin) ödənilməsindən imtina edildiyi halda tədiyəçi bilavasitə göndərişçini müqavilədə müəyyən edilmiş qayda və müddət ərzində xəbərdar edir. Tədiyə tələbnamə-tapşırığı ilə hesablaşma zamanı sənədlərin hərəkəti qaydası şəkil 4.3-də göstərilmişdir.

Tədiyə tələbnamə-tapşırığı ilə hesablaşma zamanı aşağıdakı əməliyyatlar aparılır:

1 – tədiyə tələbnamə-tapşırıqlarının və məhsulun (xidmət götərilməsinin, işlərin yerinə yetirilməsi) yollanması sənədlərinin göndərilməsi;

MUHASIBAT.AZ

2 – alıcı tərəfindən akseptə edilmiş tədiyə tələbnamə-tapşırıqlarınınö üçün xidmətedici banka təqdim olunması;



Şəkil 4.3. Tədiyə tələbnamə-tapşırıqları ilə hesablaşmalar zamanı sənəd dövranı

3 – tədiyə tələbnamə-tapşırıqlarının ödənişçinin hesabından pul vəsaitlərinin silinməsi yolu ilə ödənməsi;

4 – ödənişin (tədiyənin) göndərişçi banka köçürülməsi;

5 – pul vəsaitlərinin göndərişçinin hesabına daxil edilməsi;


6 – göndərişçiyə onun hesabına pul vəsaitlərinin daxil olması haqqında məlumat verilməsi.

Akkreditiv – alıcının bankının göndərişçinin bankına onun tərəfindən verilmiş alıcının tapşırığı üzrə məhsulların yollanmasını təsdiq edən sənədlərlə, habelə akkreditiv ərizəsində nəzərdə tutulmuş digər şərtlərlə göndərişçiyə ödəniş aparmasından ibarətdir. Akkreditivlərlə hesablaşma ödənişlərin sistematik olaraq ləngidildiyi və eləcə də bu, müqavilədə nəzərdə tutulduğu hallarda aparılır.

Ödənilmiş və deponə olunmuş, ödənilməmiş və ya zəmanətli, geriyə çağırılan və geriyə çağırılmayan akkreditivlər də mövcuddur. Ödənilmiş akkreditivin açılması zaman emitent bank tədiyəçinin öz

MUHASIBAT.AZ

vəsaitlərini və ya borc (bank krediti) vəsaitlərini icraçı bankın sərəncamına emitent bankın öhdəliyinin qüvvədə olduğu bütün dövr ərzində ayrıca «Akkreditiv» balans hesabına köçürür. Ödənilməmiş akkreditiv icraçı banka emitent bankdakı aparıcı hesabda olan bütün akkreditiv məbləğinin silinməsinə imkan verir. Geriyə çağırılan akkreditiv göndərişçi ilə qabaqcadan razılaşdırılmadan emitent bank tərəfindən dəyişdirilə və ya ləğv edilə bilər. Geriyə çağırılmayan akkreditivlər emitent bankın, icraçı bank tərəfindən emitent bankın öhdəliyinə edilmiş əlavədə təsdiqlənmiş səbatlı öhdəliyi ilə akkreditiv üzrə onun bütün şərtlərinin yerinə yetirilməsi ilə ödənişlərin aparılmasından ibarətdir. Geriyə çağırılmayan akkreditiv, xeyrinə açılmış olduğu göndərişçinin razılığı olmadan pozula və ya ləğv edilə bilməz. Ödənilmiş (deponə edilmiş) akkreditivlərlə hesablaşma zamanı sənəd dövranının sxemi şəkil 4.4-də verilmişdir.



Şəkil 4.4. Ödənilmiş (deponə edilmiş) akkreditivlərlə hesablaşma zamanı sənəd dövranının sxemi

MUHASIBAT.AZ

Ödənilmiş (deponə edilmiş) akkreditivlərlə hesablaşma zamanı aşağıdakı əməliyyatlar aparılır:

1 – akkreditivin açılması üçün ərizənin verilməsi;

2 – alıcının hesabından akkreditivin məbləğinin silinməsi (akkreditivin açılması üçün kreditin verilməsi; açılmış akkreditivin uçotu);


3 – akkreditivin məbləğinin icraçı banka köçürülməsi;

4 – akkreditivin məbləğinin ayrıca hesabda deponə edilməsi və akkreditivin icrası şərtlərinin yoxlanılması;

5 – akkreditivin açılması barədə göndərişçiyə məlumat verilməsi;

6 – məhsulların göndərilməsi (xidmətlərin göstərilməsi, işlərin yerinə yetirilməsi);

7 – məhsulun yollanması faktını təsdiq edən sənədlərin təqdim



olunması (xidmətlərin göstərilməsi, işlərin yerinə yetirilməsi) və akkreditiv ərizəsinin şərtlərinin icrasının yoxlanılması;

8 – pul vəsaitlərinin göndərişçinin hesabına daxil edilməsi;

9 – göndərişçinin bankının alıcının bankına göndərişçi tərəfindən akkreditivlərin istifadə olunması barədə məlumat verilməsi;

10 – istifadə olunmuş akkreditivin uçotu (bax: əməliyyat 2);

11 – akkreditivin ödənməsi barədə alıcının məlumatlandırılması.

MUHASIBAT.AZ

Çek – çekverənin tədiyəçiyə çekdə göstərilən pul məbləğinin çeksaxlayana ödəniş aparılmasını bildirən qeyd-şərtsiz yazılı təklifidir. Çekverən – fiziki və ya hüquqi şəxs olub əmtəələr və ya göstərilən xidmətlər üçün ödəniş aparır, çeki doldurur və imzalayır. Çeksaxlayan – çeklə ödəniş alan hüquqi şəxsdir. Çeklərlə hesablaşma vəsaitlərin ayrıca hesabda deponə edilməsi ilə aparılır. Təqdim olunan çeklər pul məbləğinin bronlaşdırıldığı hesabdan ödənilir. Çeklə hesablaşma zamanı sənədlərin dövranı sxemi şəkil 4.5-də verilmişdir.

Şəkil 4.5. Limitləşdirilmiş çek kitabçalarından çeklərlə hesablaşma zamanı sənədlərin dövranı

Limitləşdirilmiş çek kitabçalarından istifadə olunmaqla hesablaşma zamanı aşağıdakı əməliyyatlar aparılır:

1 – çek kitabçasının alınmasına və pul vəsaitlərinin deponə edilməsi üçün ödəniş tapşırığının alınması barədə ərizə verilməsi;

2 – pul vəsaitlərinin ayrıca hesabda deponə edilməsi;

3 – limit məbləğinin göstərilməsi ilə çek kitabçasının verilməsi;

4 – məhsulun yollanması barədə sənədlərin təqdim olunması (xidmətlərin göstərilməsi, işlərin yerinə yetirilməsi);

5 – çekin yazılması və onun göndərişçiyə təqdim olunması (5-ci əməliyyat 4-cü əməliyyatla eyni vaxtda icra olunur);

6 – çekin xidmət göstərən banka inkasso üçün (çeklərin təqdim olunması;

7 – bank tərəfindən reestrlər tapşırıqlarının tərtib olunması və onların çeklərlə birlikdə alıcının bankına göndərilməsi;

8 – reestr-tapşırığının (çeklərin), pul vəsaitlərinin deponə olunduğu hesabdan silinmə yolu ilə ödənməsi;

9 – pulun göndərişçinin bankına köçürülməsi;

10 – pul vəsaitlərinin göndərişçinin hesabına daxil edilməsi;

MUHASIBAT.AZ

11 – pul vəsaitlərinin daxil olması haqqında göndərişçinin məlumatlandırılması.

Çeklərlə hesablaşmanın ödənişin zəmanətliliyi ilə bağlı üstünlüyü vardır, çatışmazlığı isə sənəd dövranının mürəkkəbliyidir, çünki pul vəsaitlərinin göndərişçiyə (çeksaxlayana) daxil edilməsi çeklərin həmin banka təqdim olunduğu anda deyil, onların tədiyəçinin (çekverənin) hesabından silinməsindən sonra həyata keçirilir.

Sənayecə inkişaf etmiş ölkələrdə ödəniş dövriyyəsinin əsas hissəsinə çeklərin köməkliyi ilə xidmət olunur. Çeklərdən istifadə olunmasına XVII əsrin axırlarında İngiltərədə başlanılmışdır. 1931-ci ildə Cenevrədə beynəlxalq konfransda Vahidnümunəli çek qanunu (VÇQ) qəbul olundu. Cenevrə konvesiyasında nəzərdə tutulan qaydalara görə çeklər yalnız hesabda müvafiq məbləğdə vəsait olduğu halda təqdim olunur. Çeklərin təminatsız təqdim olunmasına görə cəza nəzərdə tutulur, bankın isə onu ödəməmək hüququ vardır. Lakin bir sıra ölkələrdə qanun bankları, hesabda təminat olmadığı halda xırda məbləğlər həcmində ödənişlər həyata keçirməyə məcbur edir. Həmin tələbnamə banklarda özlərinin müştəri şəbəkələrinin komplektləşdirilməsi üzrə daha diqqətli işləməyi nəzərdə tutur və benefisiarlar üçün ödənilməmə riskini azaldır ki, bu da çek tədavülünün inkişafına kömək edir.

Veksel – satıcıların alıcılara əmtəə formasında satılmış əmtəə üçün ödəniş möhləti şəklində təqdim olunmuş kommersiya kreditlərinin sənədləşdirilmə vasitəsi, habelə vekselin verildiyi əsasdan asılı olmayaraq üzərində vekselverənin vekselsaxlayana müəyyən məbləği ödəyəci barədə öhdəliyi olan qiymətli kağızdır. Veksel borc öhdəliyidir. Adi və köçürmə vekselləri mövcuddur.

Banklar veksellərin uçotu ilə məşğul ola bilərlər və bu zaman elə əməliyyatın aparılması nəzərdə tutulur ki, vekselsaxlayan vekseli banka ödəniş müddətinin başlanmasınadək ötürmə yazısı ilə (indossament)


MUHASIBAT.AZ

satır və uçot faizi çıxılmaqla (diskont) veksel üzrə müəyyən pul məbləği alır. Yalnız o veksellər uçota qəbul olunur ki, onların ödənilməsi barədə tam əminlik olsun. Uçot əməliyyatının köməkliyi ilə:

- təsərrüfatçılıq subyektlərinin dövriyyə vəsaitlərinin dövretmə qabilliyinin sürətlənməsi baş verir, belə ki, vekselin uçotu vekselverən müəssisəyə materiallar və xidmətlərə görə göndərişçiyə ödəniş aparmağa, vekselsaxlayan müəssisəyə isə, yollanmış məhsul üçün sifarişçilərdən vəsait daxilolmalarını gözləmədən yeni istehsal tsiklinin başlanması üçün hesablaşmaları həyata keçirməyə imkan verir. Bu zaman hesablaşmalar daha tez baş verir, çünki vekselləri nəzərə alan sahibi müddətli öhdəlikləri pul vəsaitlərinə çevirir və bununla da məhsulların və xidmətlərin göndərişçiləri ilə kommersiya sövdələri aparmaq üçün əlavə resurslar əldə edir.

Veksellərlə hesablaşmalar ona kömək edir ki, vekselverən müəssisə və vekselsaxlayan müəssisə öz vəsaitlərini hesablaşmalara və istehsal olunmuş və alınmış məhsulun ödənişinə immobilizasiya etmirləruçot əməliyyatını aparmış kommersiya bankı da öz növbəsində uçota alınmış veksellərə mülkiyyətçilik hüququ əldə edir və müvafiq olaraq borcludan vəsaitlərin vekseldə göstərilən müddətdə vaxtlı-vaxtında daxil olmalarına nəzarəti həyata keçirir. Veksellərin uçotu banka həm də, əmanətlərə güclü tələbat yarandığı zaman istifadə edilə biləcək əlavə vəsaitlərin axınını təmin edir. Ona görə də veksellərin uçotu üzrə kommersiya bankları tərəfindən aparılan əməliyyatlar, təkcə öz müddətli öhdəliklərini diskontə edən müəssisələr üçün deyil, həm də bankların özləri üçün əhəmiyyətlidir. Adi kommersiya vekselinin hərəkəti ardıcıllığı şəkil 4.6-da göstərilmişdir.

MUHASIBAT.AZ



Şəkil 4.6. Adi vekselin tətbiqi qaydası

Vekseldən istifadə olunan zaman aşağıdakı əməliyyatlar aparılır:

1 – əmtəənin alıcıya yollanması;

2 – əmtəə göndərişçisinə vekselin yazılması;

3 – vekselin banka verilməsi;

4 – bank tərəfindən vekselin ödənilməsi;

5 – bank tərəfindən vekselin ödəniş üçün əmtəə alıcısına təqdim olunması;

6 – əmtəə alıcısının vekseli ödəməsi.

Bu zaman nəzərə almaq lazımdır ki, heç də istənilən veksel bank tərəfindən nəzərə alına bilər və alınmalıdır (veksellərin əksər hissəsi uçota alınmamalıdır). Üstəlik, veksellərə təqdim olunmazdan və uçota alınmazdan əvvəl, onlar, bir qayda olaraq, bir sıra əmtəə sövdələrinə xidmət göstərilməsi məqsədi ilə bir neçə dövriyyə etməlidirlər.

İnkassa sərəncamı – tədiyəçinin razılığı olmadan onun hesabından mübahisəsiz silinmə qaydası ilə pulun alınmasına xidmət edir. Vəsaitlərin tədiyəçinin hesabından qeyd-şərtsiz çıxarılması inkasso tələbnaməsi ilə tədiyə tələbnaməsi blankında tərtib olunmuş sərəncamla həyata keçirilir. Vəsaitlərin qeyd-şərtsiz silinməsi sildirənin sərəncamı ilə həyata keçirilir. Sərəncamda vəsaitlərin qeyd-şərtsiz qaydada silinməsi barədə onu sildirənə hüquq verən qanunvericilik aktına

MUHASIBAT.AZ

mütləq istinad edilməlidir. İnkasso sərəncamı vəsaitlərin yalnız icraçı və onlara bərabər tutulan sənədlərin əsasında silinməsi zamanı tətbiq edilir. İnkasso tapşırığına tutulma üçün əsas arbitrajın əmri, məhkəmənin qərarı və ya notariusun icra imzası olduqda icra sənədi (orijinal və ya dublikat) əlavə olunur.

4.3. NƏQD PUL DÖVRANININ XÜSUSİYYƏTLƏRİ

Pul dövranının bir hissəsi kimi nəqd pul tədavülü yalnız nəqd pulların hərəkəti ilə bağlıdır. O iqtisadiyyata nəqd pullarla xidmət göstərmək sahəsində təşkilati-iqtisadi işin bütün məcmusunu özündə əks etdirir. Nəqd pulların vasitəsilə müəssisə, təşkilat və idarələrin əhali ilə hesablaşmaları, habelə əhali qrupları arasında hesablaşmalar aparılır. Bütün pul dövranının az hissəsi nəqd pulların dövranının payına düşür.

Nəqd pulların dövranının elmi və rasional təşkili bir çox sosial-iqtisadi problemlərin həlli üçün mühüm əhəmiyyət kəsb edir. Pul münasibətlərinin bu sferasında məcmu ictimai məhsulun dəyərinin həlledici realizasiyası baş verir, istehsal olunmuş əmtəələr ictimai nüfuz qazanır. Malların realizasiyası prosesində istehsalın şəxsi istehlakın tələblərini nə qədər ödəməsi müəyyənləşdirilir ki, bu da pulun ölkədə normal sirkulyasiyasını və onun alıcılıq qabiliyyətinin sabitliyini əksərən müəyyən edir, yəni nəqd pul həcmini optimallaşdırır.

Faktiki olaraq banka aşağıdakıların yerinə yetirilməsinə imkan verəcək məbləğdə nəqd pul tələb olunur:

- həmin bankda hesabı olan müştərilərə nəqd pul ödənişi aparmaq;
- ehtiyac yarandıqda bankın kreditləşdirdiyi müştərilərə nəqd pul təqdim etmək;

MUHASIBAT.AZ

- başqa bankda hesabı olan və mövcud müqaviləyə uyğun olaraq öz çeklərini bu bankda ödətdirə biləcək müştərilərə nəqd pul təqdim etmək;
- digər banklarla tədiyə dövranında meydana çıxan disproporsiyanı balanslaşdırmaq.

Nəqd pulların hərəkəti mərkəzi bankın kassa dövranının proqnozuna uyğun olaraq həyata keçirilir və bu ölkənin sosial-iqtisadi inkişafı planının proqnoz göstəricilərinə, büdcəyə, əhalinin pul gəlirləri və məsrəfləri (sonuncu ərazi kəsiyində elə tərtib olunur ki, pul gəlirləri əsas etibarilə yerlərdə realizasiya olunsun) balansına əsaslanır. Nəqd pul dövranının düzgün təşkilinin birinci dərəcəli əhəmiyyəti vardır, belə ki, o istehsalatın və şəxsi istehlakın əlaqələrinə xidmət edir. Bu zaman nəqd dövran həmişə nəqdsizə və əksinə çevrilir.

Nəqd pul dövranının nəqdsizdən az olmasına baxmayaraq, bununla belə, onun sosial-iqtisadi planda düzgün təşkili çox vacibdir, çünki bu dövran əsasən şəxsi istehlak sferası ilə bağlı münəsibətlərə xidmət edir. Nəqd pul tədavülü sferası əhalinin pul gəlirlərində baş verən dəyişikliklərə, bu gəlirlərin real maddi dəyərlərə çevrilmə imkanlarına, pul gəlirlərinin əhalinin müxtəlif sosial qrupları və təbəqələri arasında bölüşdürülməsinə son dərəcə cəld reaksiya verir. Nəqd pul tədavülü sferasında baş verən proseslərin pulun dayanıqlığının təmin olunması üçün birinci dərəcəli əhəmiyyəti vardır.

Nəqd pul tədavülünün proqnozlaşdırılması ümumi iqtisadi proqnozlaşdırma sisteminin tərkib hissəsidir. Nəqd pul dövranının proqnozlaşdırılması prosesində pulun alıcılıq qabiliyyətinin və onun iqtisadiyyatda minimal tədavül itkiləri ilə normal sirkulyasiyası üçün ən yaxşı labüd şərait kimi pulun tədavülü qanunlarının tələbləri təmin olunmalıdır. Vahid pul dövranının nəqdsiz dövrana və nəqd pul tədavülünə məhdudlaşdırılması sayəsində nəqd pul tədavülü sferasında nəqd pulların aşağıdakı axın hərəkəti fəaliyyət göstərir:

MUHASIBAT.AZ

- birinci axınla pullar bankın kassalarından əmək haqqının, pensiya, təqaüd və müavinətlərin nəqd pullarla verilməsi zamanı tədavül sferasına daxil olur;
- ikinci axınla pullar malların əhaliyə satılmasından, əhaliyə müxtəlif pullu xidmət göstərən kommunal-məişət müəssisələrinin, təşkilatların əldə etdikləri gəlir şəklində pulların tədavülü sferasından bankların kassalarına qayıdır.

Nəqd pulların bu hərəkət axını əsas sayılır. Onlar nəqd pulların bankların kassaları vasitəsilə normal sirkulyasiyasını və təsərrüfatların fasiləsiz xidmətini təmin edir. Bundan əlavə, tədavül sferasında daha iki axın var: bu, əhalinin qrupları arasındakı, başlıca olaraq bazar ticarəti və həcmcə çox məhdud miqdarda müəssisələrarası nəqd pul hərəkəti axınıdır. Fərdi-əmək və özəl-xüsusi fəaliyyətin inkişafı ilə əhalinin qrupları arasındakı nəqd pul axını artır ki, bu da bankın kassaları vasitəsilə pul dövranının sürətinin artmasına təsir edə bilər.

Nəqd pullar faktiki olaraq mərkəzi bank tərəfindən buraxılmış və bankların kassalarında, habelə bank sferası xaricində tədavüldə olan banknotdan, sikkədən ibarətdir. Nəqd pullar öz hərəkətinə pulun tədavülə buraxılmasına inhisarçı hüquq verilmiş mərkəzi bankın kassasından başlayır. Kommersiya bankları mərkəzi bankdan nəqd pulları, onların nominal dəyərini vəsaitlərin nəqdsiz köçürülməsi yolu ilə öz ehtiyatları hesabına kompensasiya etməklə alırlar. Nəqd pullarla fəaliyyət göstərən təsərrüfat subyektlərini fasiləsiz təmin etmək üçün kommersiya banklarının kassalarında həmişə zəruri nəqd pul qalığı olmalıdır.

Təsərrüfat subyektləri öz hesablarında olan mövcud pul vəsaitləri və ya bank tərəfindən verilmiş kredit hesabına xidmət göstərən bankın kassasından nəqd pul alırlar. Həmin pul məbləğləri işçilərə əmək haqqı verilməsi, digər ödənişlərin həyata keçirilməsi üçün nəzərdə tutulur və buna görə də təsərrüfat subyektlərinin kassalarında ilişib qalmamalıdır.

MUHASIBAT.AZ

Nəqd pullar sonralar alınan malların və göstərilən xidmətlərin, habelə dövlətin, müəssisələrin, ayrı-ayrı şəxslərin xeyrinə digər ödənişlərin aparılması üçün istifadə olunur. Nəqd pulların bir hissəsinin xərclənməsinin təxirə salınması ilə bağlı olaraq o yığım vasitəsinə (qənaət) çevrilir və əhalinin özündə saxlanılır valyuta bankda yerləşdirilir.

Müəyyən müddət ərzində nəqd pullarla həyata keçirilən ödənişlərin ümumi məbləği nəqd pul dövranının həcmini xarakterizə edir ki, bu ödənişə də bankların kassalarından nəqd pulların verilməsi, pulların bankların kassalarına daxil olması, nəqd pulların poçt vasitəsilə dövranı, müəssisələrin, təşkilat və idarələrin kassalarından əhaliyə verilən ödənişlər, əhalinin müəssisələrə, təşkilat və idarələrə ödənişləri, vətəndaşlar arasında nəqd pul dövranı daxil edilir.

Nəqd pulların əsas dövranı iqtisadiyyata kassa xidməti göstərən bankların kassalarından keçir. Nəqd pul tədavülü fasiləsiz baş verir. Nəqd pul dövranı iştirakçılarında (bankların, təsərrüfat subyektlərinin kassalarında, əhalidə) həmişə bu və ya digər həcmdə pul qalıqları olur və bu qalıqlar tədricən xərclənir, onların əvəzinə isə yeni pul vəsaitləri daxil olur. Vahid pul dövranını nəqdsiz dövrana və nəqd pul tədavülü ilə məhdudlaşması nəticəsində sonuncunun sferasında həmişə müəyyən nəqd pul qalığı olur. O əhalinin əlində qalmış nəqd pul qalıqlarından, müəssisə və təşkilatların kassalarındakı və bankların dövriyyə kassalarındakı nəqd pul qalıqlarından əmələ gəlir.

Tədavüldə olan nəqd pul qalıqlarının həcmi həmişə dəyişkəndir, belə ki, bir çox amillərdən – iqtisadi və təşkilati: əhalinin gəliri səviyyəsindən, ticarət, kommunal və məişət təşkilatlarının fəaliyyətindən, bank sistemindən, müəssisələrin kassa intizamına əməl etmələri dərəcəsindən asılıdır. Nəqd pulların dövranının təsərrüfat subyektlərinin kassaları vasitəsilə tənzimlənməsi ölkədə pul tədavülünün təşkili və iqtisadiyyatın kassa xidməti üzrə banklar

MUHASIBAT.AZ

tərəfindən əməliyyatların aparılması gedişində həyata keçirilir. Bank praktikasında nəqd pul dövranının tənzimlənməsinin təsərrüfat subyektlərinin kassa qalıqlarının məhdudlaşdırılması, əldə edilən nəqd pullardan xərclənmə normasının müəyyənləşdirilməsi, əldə edilən gəlirin banka təhvil verilmə müddəti üsulları və müddətinin müəyyənləşdirilməsi, təsərrüfat subyektləri arasında nəqd pullarla hesablaşma məbləğinin son həddinin məhdudlaşdırılması, nəqd pulların məqsədli təyinatı üzrə xərclənməsi və s. kimi metodları işlənilib hazırlanılmışdır.

Təsərrüfat subyektlərinin bank müəssisələrindən aldıqları nəqd pullar hansı məqsədlər üçün alınmışsa, həmin təyinatı üzrə də xərclənməlidirlər. Təsərrüfat subyektlərinin öz kassalarında hesablaşma hesablarını açdıqları bank müəssisələri tərəfindən müəyyən edilmiş limit həddində nəqd pul saxlaya bilərlər. Bank tərəfindən kassa qalığının müəyyən olunmamış limiti zamanı təsərrüfat subyektlərinin kassalarında olan nəqd pullar bütün həcmi həddi aşmış sayılır. Kassa qalığı, əldə edilən gəlirin təhvil verilmə qaydası və müddətinin, habelə onun istifadə həcminin limitlərinin müəyyənləşdirilməsi üçün təsərrüfat subyektləri hər il qəbul olunmuş formada xidmət göstərən bank müəssisəsinə sifariş verməlidir. Bank təsərrüfat subyektinin rəhbəri ilə razılaşma əsasında kassalarda nəqd pul qalıqlarının son həddini, əldə edilən gəlirin təhvil verilmə qaydası və müddətini, habelə onun istifadə olunma həcmini müəyyənləşdirir. Müəyyən olunmuş kassa qalığı limitindən artıq olan, eləcə də müəyyən olunmamış limit zamanı bütün nəqd pulları təsərrüfat subyektləri xidmət göstərən bank müəssisələrində öz hesablaşma hesablarına həmin müəssisələrlə razılaşdırılmış qayda və müddətdə qaytarmağa borcludurlar.

Nəqd pullar bankların səhər və axşam kassalarına,sonradan bank müəssisəsinə verilmək üçün inkassatorlara, sonradan banka təhvil verilmək üçün təsərrüfat subyektlərinin nəzdindəki birləşdirilmiş

MUHASIBAT.AZ

kassalara, bank hesabına köçürülmək üçün rabitə müəssisələrinə təhvil verilə bilər. Təsərrüfat subyektləri müəyyən olunmuş limitdən artıq nəqd pulların kassa qalığını yalnız öz kassalarında əmək haqqının, sosial ödənişlərin, təqaüd, pensiya ödənilməsi üçün və yalnız müəyyən müddətə, məsələn, pulun bankdan alınması günü də daxil olmaqla, üç iş günündən artıq olmamaqla, saxlaya bilərlər.

Öz müştərilərinə kassa xidməti göstərilməsini təmin etmək üçün bankların strukturunda müstəqil bölmələr (mədaxil, məxaric,mədaxil-məxaric, valyuta, axşam kassaları, nəqd pulların sayılması üzrə kassalar, bankın təsərrüfat subyektləri yanında kassaları, habelə müəyyən olunmuş adi iş günü rejimində, yaxud uzadılmış gün rejimində işləyə biləcək müöadilə məntəqələri və hesablaşma-kassa mərkəzləri) yaradılır. Banka daxil olan bütün nəqd pulların mədaxil edilməsi və məxaric əməliyyatlarının icrası üçün hər bir bankın əməliyyat kassası vardır ki, bunun üçün də həmin kassalarda müştərilərə nəqd pul tələbatının tam ödənilməsi üçün bank öhdəliyinin vaxtında yerinə yetirilməsindən ötrü labüd olan minimal səviyyədə yol verilə biləcək həcmdə (limit) nəqd pul saxlanması müəyyən edilməlidir.

Nəqd pul dövranı bütün mülkiyyət formaları üzrə təsərrüfat subyektlərinin öz pul vəsaitlərini bank müəssisələrinin açıq hesablarında saxlamalarını; təsərrüfat subyektlərinin əmək haqqı və digər ödənişlərin aparılması üçün zəruri olan nəqd pulları bankların kassalarından almalarını; təsərrüfat subyektlərinin öz kassalarında limit həddində nəqd pul saxlamaq və əldə edilən gəlirin bir hissəsinin bank müəssisələri tərəfindən müəyyən edilmiş norma üzrə öz ehtiyacları üçün istifadə etmək hüququna malik olmalarını, müəyyən olunmuş limitdən artıq bütün nəqd pulların xidmət edən bankların kassalarına qaytarmalarını nəzərdə tutan prinsiplərə əsaslanıb.

Dövlət həmişə bu amillərin təsirini öyrənməli və tədavül sferasında nəqd pulların azaldılması istiqamətində təsir göstərməlidir.

MUHASIBAT.AZ

Tədavüldə pul kütləsinin azaldılmasına bankların kassalarında onların hərəkətinin sürətləndirilməsi yolu ilə nail olunur ki, bu da az məbləğdə nəqd pul kütləsi ilə çox pul dövranına xidmət etməyə imkan verir. Bu da öz növbəsində nəqd pulların hazırlanması və tədavüldə saxlanılmasına çəkilən xərclərə qənaət edilməsinə imkan verir, habelə onların alıcılıq qabiliyyətini möhkəmləndirir, belə ki, həmin halda hər bir vahidin qarşısında nisbətən böyük əmtəə-mal dəyərləri kütləsi və pullu xidmətlər durur.

Özünü yoxlama üçün suallar

1. Pul dövranı nədir və onun hansı növləri var?
2. Müasir inkişaf etmiş ölkələrin pul dövriyyəsinin prinsipial xüsusiyyəti nədən ibarətdir?
3. Pul tədavülü qanununun mahiyyəti nədən ibarətdir?
4. Metal pulların (qızıl və ya gümüş sikkələrin) istifadəsi zamanı pul dövriyyəsi necə tənzimlənirdi?
5. Pul dövranı niyə optimal olmalıdır?
6. Pul dövranının təşkilinin hansı əsas prinsipləri mövcuddur?
7. Pul dövranının rasional təşkili nəyi nəzərdə tutur?
8. Nəqdsiz hesablaşmaların sürətləndirilməsi hansı yollarla baş verə bilər?
9. Digər nəqdsiz hesablaşma formaları ilə müqayisədə plastik bank kartlarının hansı üstünlükləri vardır və onların geniş tətbiq olunmasına mane olan nədir?
10. Bankların müxbir münasibətləri nədir?
11. Nəqdsiz hesablaşmaların hansı əsas formaları var və onların əsas fərqləri nədən ibarətdir?
12. Nəqd pulların hansı axın hərəkətləri mövcuddur?
13. Nəqd pul dövranı hansı prinsiplərə əsaslanır?

MUHASIBAT.AZ

5. PUL SİSTEMİ, EMİSSİYA VƏ PUL KÜTLƏSİ

5.1. PUL SİSTEMİNİN MAHİYYƏTİ, ELEMENTLƏRİ VƏ TİPLƏRİ

Pul sistemi – bu və ya digər ölkədə tarixən formalaşmış və qanunla təsbit olunmuş pul tədavülünün təşkili formasıdır. Pul sistemləri əsasən XVI-XVII əsrlərdə əmtəə istehsalının meydana çıxması və təşəkkülü ilə bağlı yaranmışdır, hərçənd pul sisteminin ayrı-ayrı elementləri əvvəllər təzahür etmişdir.

Pul sisteminin inkişafı iki mərhələ keçir: pul əmtəəsi – ümumi ekvivalent (qızıl) – bilavasitə tədavüldə olub, pul funksiyasını yerinə yetirəndə, pul əmtəəsi kimi qızılın rolü zəifləyəndə və tədavüldə kredit pullar fəaliyyət göstərəndə.

Hər bir ölkənin qanunvericiliyi milli pul sisteminin əsas elementlərini müəyyən edir:

- pul vahidinin danı (ABŞ-da dollardır və 100 sentə bölünür, Rusiyada – rubldur, 100 kopeyekdən ibarətdir və s.);
- pulun miqasını;
- qanuni ödəniş qüvvəsinə malik dövlət pul nişanlarını, onların emissiya və tədavülü qaydalarını (təminatı, buraxılışı, dövriyyədən çıxarılması və s.);
- nəqdsiz dövranın reqlamentləşdirilməsini;
- pul tədavülünün tənzimlənməsini həyata keçirən dövlət aparatını.

Pul sistemləri daim inkişafdadır və bu da pul sistemi tiplərinin dəyişilməsinə səbəb olur. Pul sisteminin tipi pulun hansı formada – əmtəə kimi, yoxsa dəyər nişanı kimi funksiyada çıxış etməsindən asılıdır. Pul sistemlərinin düzülüş formalarındakı prinsipial fərqlər metal dövriyyələr sistemi ilə bağlıdır ki, bu zaman pul əmtəəsi sikkə formasında və kredit və kağız pullar tədavülü sistemində fəaliyyət

MUHASIBAT.AZ

göstərir və bu zaman banknotlar, çeklər, veksellər və xəzinə biletləri dövriyyədə olur.

Metal dövriyyəsi üçün pul sisteminin iki tipi xarakterikdir: bimetallizm və monometallizm.

Bimetallizm – elə pul sistemidir ki, burada iki metalın – qızıl və gümüşün – qarşılığında ümumi ekvivalent rolu qanunvericiliklə təsbit olunur, bu metallardan sikkələrin kəsilməsi və tədavülü isə bərabər əsaslarla baş verir. Bimetallizmin üç növü mövcud olmuşdur:

- paralel valyuta sistemi, bu halda qızıl və gümüş pullar arasında nisbət bazarda metalın bazar qiymətinə uyğun olaraq kortəbii şəkildə qoyulurdu;
- ikiqat valyuta sistemi, bu halda həmin nisbət dövlət tərəfindən müəyyən olunurdu;
- «axsayan» valyuta sistemi, bu halda qızıl və gümüş pullar qanuni ödəniş vasitələri idilər, amma bərabər əsaslarla yox, belə ki, gümüş pulların kəsilməsi azad kəsilən qızıl pullardan fərqli olaraq qapalı qaydada (bimetallizmin gümüş ayağı «axsayır») həyata keçirilirdi. Bu halda gümüş pullar qızılın nişanı olurdu.

Bimetallizm uzun müddət bir sıra Qərbi Avropa ölkələrində (o cümlədən həm də Rusiyada) mövcud olmuşdur. Burada qızıl və gümüş pulların sərbəst kəsilməsi rejimi tətbiq olunurdu və bu pullar heç bir məhdudiyyəti olmayan qanuni ödəniş vasitəsi idilər. Lakin iki metalın ümumi ekvivalent kimi istifadə olunması pulun təbiətinə ziddir və qızıl və gümüşdə ifadə olunan kəskin qiymət sıçrayışına malikdir. Dəyər qanununun kortəbii fəaliyyəti nəticəsində son hesabda ikiqat dəyər ölçüsünü ləğv etdi, bimetallizmin bir pul sistemi kimi ziddiyyətliliyi və qeyri-sabitliyi monometallizmə keçidi gerçəkləşdirdi.

Monometallizm – elə pul sistemidir ki, bu zaman bir metal ümumi ekvivalent rolunu oynayır, dövriyyədə isə qiymətli metallar üçün sikkələr (adətən qızıl və gümüş) və əvəzlənən (xırdalayıcı) dəyər

MUHASIBAT.AZ

nişanları fəaliyyət göstərir. Qızıl monometallizm ilk dəfə XVIII əsrin sonlarında İngiltərədə, XIX əsrin 70-ci illərdə isə digər Avropa ölkələrində tətbiq edilmişdi. Gümüş monometallizm Rusiyada 1843-1852-ci illərdə, İsveçdə – 1852-1893-cü illərdə, Hollandiyada – 1847-1875-ci illərdə mövcud olmuşdur.

Əksər dövlətlərin müasir pul sistemləri üçün:

- qiymətli metalların daxili və xarici dövriyyədən çıxarılması nəticəsində onlarla əlaqələrin kəsilməsi;
- mahiyyətinə görə kredit pullara yaxınlaşan qızılla əvəzlənməyən kredit pulların ağalığı;
- ölkənin iqtisadiyyatını kreditləşdirmə qaydası ilə və rəsmi qızıl valyuta ehtiyatlarının buraxılması;
- nəqdsiz pul dövriyyəsinin geniş inkişafı və nəqd pul dövranının ixtisar edilməsi;
- xroniki inflyasiya;
- pul tədavülünün dövlət tənzimlənməsi xarakterikdir.

Həmin şərtlər müasir pul sistemlərinin fəaliyyət göstərmə mexanizminə öz xüsusiyyətlərini əlavə edirlər. Bu sübut edir ki, pul sistemləri pul kimi donmuş qurumlar deyil, daimi inkişafdadırlar.

5.2. EMİSSİYA ANLAYIŞI VƏ ONUN NÖVLƏRİ

Emissiya sözün geniş mənasında pulun, kağız pulların, tədiyə-hesablaşma sənədlərin, plastik kartların və s. dövriyyəyə buraxılması ilə bağlıdır. Faktiki olaraq pul emissiyası bütün formalarda pulun tədavülə buraxılmasından ibarətdir ki, bu da büdcə (xəzinə) və kredit (bank) emissiyası ola bilər.

Büdcə emissiyası (adətən xəzinədarlıq tərəfindən) xəzinə biletlərinin və dövlət qiymətli kağızlarının dövlət büdcəsinin kəsirlərini

MUHASIBAT.AZ

maliyyələşdirmək üçün tədavülə buraxılması ilə bağlıdır. Xəzinə biletləri və dövlət öhdəlikləri adətən heç nə ilə təmin olunmayıblar və buna görə də kağız pullar adlanırlar. Bu zaman buraxılmış kağız pulların nominal dəyəri ilə onların hazırlanmasına sərf olunmuş xərclərin fərqi dövlətin büdcə xərclərinin ödənilməsi üçün istifadə olunan gəlirlərindən ibarətdir. Büdcə emissiyası real təsərrüfat dövranının tələbatı ilə deyil, büdcə kəsirinin həcmi ilə şərtlənir. Ona görə də dövrana çıxarılan əlavə pul nişanları bütün pul kütləsinin qiymətdən düşməsinə səbəb olur.

Kredit emissiyası (banklar tərəfindən həyata keçirilən pul emissiyası) kredit münasibətləri əsasında əmələ gələn kredit pulların dövriyyəyə daxil olması ilə bağlıdır. Kredit pullar ödəniş vasitəsi kimi pulun funksiyasının bazasında inkişaf etmişdir və bu zaman mübadilə kontragentlərindən biri sonradan ödəniş şərti ilə əmtəəni digər kontragentə verməyi mümkün hesab edir. Əvvəllər borc qəbzi tərtib olunardı ki, bu da sonralar veksel adlandırılan sənədə transformasiya etmişdir. Veksel faktiki olaraq tədavülün birinci kredit alətidir. Sonralar banklar kommersiya vekselləri əvəzinə özlərinin borc öhdəliklərini – banknotları buraxmağa başladılar, sonralar isə haqq-hesab tədiyə sənədləri və elektron pullar meydana çıxdı.

Kredit emissiyasının *əsas məqsədi* bankların hesablarında pul dövriyyəsinin qalıq şəklində zəruri miqdarda ödəniş vəsaitləri ilə təmin etməkdən ibarətdir. Kredit emissiyalarını nəqdsiz (nəqdsiz emissiya) və banknotların pul dövranına əlavə buraxılışı formasında (nəqd pullar) ödəniş vasitələri məbləğinin pul dövranının tamamlanması hesab edirlər.

Kredit pullar, onların məbləği (digər bərabər şərtlər olduqda) təsərrüfat dövranının artımı (məhsullar, realizasiya, mənfəət) ilə bərabər inkişaf edirsə, onda «tam dəyərli» (inflyasiyanı stimullaşdırmayan) sayılır. Kredit pulların təsərrüfat dövranının

MUHASIBAT.AZ

tələbatından artıq buraxılması inflyasiyaya səbəb olur (bu pullar faktiki olaraq həqiqətən də kağız pullara çevrilir). Bu, xüsusilə qısamüddətli dövlət öhdəlikləri, ümidsiz borcların meydana çıxması, kreditlərin prolonqasiyası (vaxtının uzadılması – tərcüməçi) ilə bağlıdır. Son hesabda bütün bunlar pul kütləsinin əsaslandırılmamış, lüzumsuz artımına səbəb olur.

Hesab olunur ki, mərkəzi bankın nə formal, nə də faktiki olaraq nəqdsiz emissiyaya inhisarı yoxdur və bu, kommersiya banklarının mərkəzi bankdakı hesablarında yerləşən vəsaitlərə bərabər deyil. Kommersiya bankları mərkəzi bankda əsasən mütləq (məcburi) ehtiyatlarını saxlayırlar ki, bunu da mərkəzi bank pul kredit tənzimləməsi qaydasında tələb edir və qismən də klirinq hesablaşma üçün vəsait şəklində saxlayırlar. Bu sayaq depozitlərin məbləği adətən mərkəzi bankın balansının 30-50%-dən artıq olmur, əksər hallarda isə daha az həcmdə olur. Bu zaman mərkəzi bank tərəfindən nəqdsiz emissiya nəinki təkcə qiymətli kağızlar və xarici valyuta almaq üçün, həm də eyni zamanda kommersiya banklarının kreditləşdirilməsi üçün istifadə olunur, çünki:

- qiymətli kağızların alınması, təkcə nəqdsiz emissiya üçün deyil, ilk növbədə bank sisteminin likvidliyinin tənzimlənməsi və dövlət borcunun idarə olunması (eləcə də bankların kreditləşdirilməsi üçün) məqsədi ilə alınır;
- yuxarıda göstərilən əməliyyatların həyata keçirilməsi üçün vəsait mənbəyi əhəmiyyətli dərəcədə mərkəzi bankda «normal» yolla əmələ gələn hesablaşma hesablarıdır (rezerv tələbatları, dövlət büdcəsi vəsaitləri);
- Banknot tədavülünün artımı mərkəzi bankın aktiv əməliyyatlarının nəticəsi ola bilməz, çünki tələbatdan artıq banknotların faizsiz alınmasını təsəvvür etmək çətindir.

MUHASIBAT.AZ

Praktikada faktiki olaraq kommersiya və digər banklar «depozitlər yarada» bilərlər və eynilə də mərkəzi banklarda olduğu kimi həmin metodla pul kütləsi yarada bilərlər. Bu zaman fərq yalnız ondan ibarət olur ki, kommersiya bankları bunu öz əməliyyatlarının inkişafı üçün, mərkəzi bank isə vəsatilərin çatışmadığı zaman bank sistemində likvidliyin tənzimlənməsi üçün edirlər. Lakin özəl və cəlb olunmuş vəsaitlər hüdudunda bankların işi haqqında qaydaya zidd deyil. Məsələn, əgər bankın balansı 100 mln. dollardırsa və 10 mln. dollar qiymətli kağızların müştəridən alınmasına ayrılırsa, onda formal olaraq aktiv dəyişməyəcək (sadəcə olaraq 10 mln. dollar bir aktivdən başqasına ötürülür), amma passivdə müştərinin hesabında 10 mln. dollar artacaq ki, bununla da həmin məbləğdə aktiv əməliyyatları aparmaq olar, balans isə 110 mln. dollar olacaq.

Nəqd pulların emissiyası ilk növbədə cari qiymətdə əmtəə dövranının artması ilə bağlılıdır, çünki bu pullar əsasən istehlak bazarındakı əməliyyatlara xidmət edirlər. Ona görə də dövriyyəyə buraxılan nəqd pul nişanlarının həcmi, bir tərəfdən nominal əmtəə mübadiləsinin artımına, digər tərəfdən isə – əhalinin nəqd pula olan tələbatına proporsionaldır. Nəqd pulların həcmi qiymətlərin miqyasının genişlənməsi ilə artır, lakin bu halda müəyyən əks fəaliyyət göstərən amil rolunu pul nişanlarının dövranının sürətinin artması təşkil edə bilər. Eyni zamanda inflyasiya şəraitində əhalinin əmək haqqı və digər gəlirləri artır. Bu zaman əhali tərəfindən alınan pullar, bir qayda olaraq ticarət təşkilatının onu alıb banka ötürməsindən daha artıq müddət ərzində onların özlərində qalır. Ona görə də nəqd pul kütləsinin daha əhəmiyyətli səbəbi, istehlak qiymətlərinin artmasından daha çox əhalinin müəyyən miqdarda nəqd pulların lazımi hissəsinin onda qalmasına olan tələbatının artmasıdır, hərçənd özlüyündə ikinci birincinin qanunauyğun nəticəsidir.

MUHASIBAT.AZ

Nəqd pulların emissiyasının tədqiqi (xüsusilə də inflyasiya şəraitində) göstərir ki, bu proses üzərində əməli nəzarət qoymaq imkanı yoxdur. Emissiyanın bilavasitə səbəbləri iqtisadiyyatın dövlət, habelə qeyri-dövlət sektorlarında əmək haqqı və digər pul ödənişlərinin artırılması, qiymətlərin artması ucbatından tədavülə buraxılan nəqd pulların artırılmıası, əhalinin müxtəlif kateqoriyalarının pul gəlirlərinin artmasına mərkəzi bank tərəfindən operativ tənzimlənməsi ola bilər. Nəqd pulların bu sayaq emissiyası ona gətirib çıxarır ki, onların «əmək haqqı – qiymətlər» spiralı üzrə baş verən qiymətdən düşməsi daimi və çox hiss olunacaq xarakter alır. Bununla belə, klassik şəkildə nəqd pulların emissiyası adətən az miqdarda büdcə kəsirinin ödənilməsi üçün istifadə olunur.

İnkişaf etmiş dövlətlərdə qanunverici hal kimi dövlətin nümayəndəsi olaraq mərkəzi bankın emissiya inhisarçılığı yalnız banknotlar və bir sıra hallarda sikkələr (sikkələrin kəsilməsi ilə maliyyə nazirliyi daha çox məşğul olur) üzərində qoyulur. Lakin banknot üzərində olan inhisarçılıq heç də ona ciddi nəzarət edilməsini və ya hər hansı makroiqtisadi göstərici ilə bağlılığını bildirmir (məsələn, hesab olunur ki, o DÜM-un artımına paralel şəkildə artır). Bu, nəqd tədavül planlaşdırmasının olmamasına aparır, çünki pul avtomatik olaraq mərkəzi bankın bölmələri tərəfindən mövcud tələbata uyğun olaraq banklara «satılır» və ən əsası da budur ki, dövlət büdcəsinin kəsirinin ödənilməsi üçün istifadə oluna bilmir. Məsələn, bu məsələdə İngiltərə Bankının siyasəti imkan daxilində hazırlanmasına qənaət edilməsi üçün köhnə pulları dövriyyəyə buraxmaqdan ibarətdir.

Banknot emissiyası dövlətin borc öhdəliklərinin buraxılmasından onunla fərqlənir ki, banknotlar (tələb olunanadək sadə veksllər) qanuni ödəniş vasitəsi kimi istifadə oluna bilər və onlar üçün faiz ödəmək lazım deyil. Banklara banknot satılması nominal üzrə aparılır, hərçənd ayrı-ayrı hallarda mərkəzi banklar əlavə xidmətlər göstərilməsinə görə

MUHASIBAT.AZ

komissiyon yığa bilərlər. Məsələn, Norveç Bankı avtomatik aparatlarda istifadə üçün yararlı olan banknotlar,eləcə də xüsusi qablaşdırılmış sikkələr üçün əlavə haqq alır. Mərkəzi bank üçün banknotlar əmtəə olduğundan, o da bunların hazırlanmasına çəkilən xərclərlə onun nominal dəyəri arasındakı fərqə görə faktiki olaraq gəlir əldə edir ki, bu da bankın resursunu (passiv) təşkil edir. Nəqd tədavülün həcminin kiçikliyi üzündən bu sayaq yanaşma və bir çox ölkələrdə çoxaldıcı texnikanın inkişafı ilə əlaqədar olaraq saxtakarlıqlara qarşı artan mübarizə xərcləri cüzidir.

Sənayecə inkişaf etmiş müasir dövlətlərdə banknotlar üzərində onların qızılla, qiymətli metallarla və mərkəzi bankın digər aktivləri ilə təmin olunması yazılmır, amma bu, onların nəşr etdikləri balanslarda əks etdirilir. Bank biletlərinin təmin olunması kimi mərkəzi bankın aktivləri çıxış edir və onun əsas maddələri adətən qızıl-valyuta rezervləri, dövlət və digər qiymətli kağızlar portfeli, qiymətli kağızların girovu kimi banklara verilən kreditlər hesab olunur. Səciyyəvi haldır ki, inkişaf etmiş ölkələrdə banknot emissiyasının təmin olunması məsələsi müxtəlif şəkildə həll olunur, amma həmişə o hüquqi cəhətdən sənədləşdirilir və təminatın xarakteri, həm də buna müvafiq olaraq banknot emissiyasının dolayı hədləri qanunvericiliklə təsbit olunur. Bir sıra ölkələrdə həm də fidusiar emissiyanın həddi qeyd olunur, hərçənd bunun böyük praktik əhəmiyyəti yoxdur.

Adətən Mərkəzi bank bütün ölkə ərazisində banknot emissiyası üçün inhisara malikdir, yalnız Böyük Britaniyada Şotlandiya və Şimali İrlandiya üçün istisnalıq edilmişdir. Ona görə də Şotlandiyanın üç ən iri kommersiya bankına ənənəvi olaraq öz dizaynları üzrə banknot emissiyası hüququ verilmişdir ki, bu da yalnız onların öhdəlikləri sayılır. Lakin bu sayaq praktika Böyük Britaniyanın vahid pul tədavülünə təhlükə yaratmır, belə ki, kiçik məbləğdən artıq bütün şotland emissiyası 100% İngiltərə Bankında əmanətlərlə və onun

MUHASIBAT.AZ

banknotları ilə təmin olunmalıdır. Bu zaman İngiltərə Bankının və Şotlandiya banklarının nominalları tamamilə üst-üstə düşür və onlar bütün ölkə ərazisində 1:1-ə kursu ilə sərbəst dövriyyədədirlər. Bu, öz pul sistemlərini birləşdirmək istəyən ölkələr üçün nümunədir.

MUHASIBAT.AZ

5.3. PUL KÜTLƏSİ VƏ ONUN STRUKTURU

Pulun optimal hissəsinin iqtisadiyyatın dayanıqlı fəaliyyət göstərməsi üçün müəyyənləşdirilməsi artıq neçə yüzilliklərdir ki, ən böyük alimləri maraqlandırır. Hələ 1667-ci ildə V.Petti yazırdı ki, ticarət üçün pul müəyyən kəmiyyətdə və ya proporsiyada lazımdır və əgər bu pullar çox və ya az olarsa, onda ticarətə xətər yetirər. A.Smit iddia edirdi ki, hər il ölkədə satılan və alınan malların dəyərliliyi özünün dövriyyəliliyi və istehlakçılar arasında bölüşdürülməsi müəyyən kəmiyyətdə pul tələb edir və bunu artıq tələb etmək olmaz. Ona görə də pul tədavülündə həmişə əmtəə və mübadiləni vasitələndirən, onların satıcının əlindən alıcıya keçdiyi zaman və ya əksinə, müəyyən kəmiyyətdə pul və ya pul kütləsi olmalıdır.

Eyni zamanda həmişə həmin məqamda pul dövranında iştirak etməyən müəyyən kəmiyyətdə pul olur, amma qanuni ödəniş və alqı vasitəsi (təsərrüfat subyektlərinin hesablaşma hesablarında eləcə də digər hesablarında, habelə əhalinin banklardakı hesablarında olan pullar) hesab olunur. Ona görə də faktiki olaraq tədavüldə olan pulların kütləsi həmişə bu hesablarda olan tədavüldəki pulun kütləsinə nisbətən azdır. Amma bu pullar həmişə aktiv pul dövriyyəsinə cəlb olunur və bununla da tədavüldəki pulun ümumi kəmiyyətinə təsir göstərir.

Mərkəzi bank tərəfindən tənzimlənən ən mühüm obyekt tədavüldəki *pulun kəmiyyyəti və ya pulun kütləsidir*. Onun həcmi ilk növbədə müəyyən kəmiyyətdə xəzinə və bank biletlərinin tədavülə buraxılması haqqında bilavasitə qərar qəbul edən dövlət hakimiyyətinin emissiya siyasəti orqanlarından asılıdır. Məsələn, pul bazarının rüşeym vəziyyətində olduğu keçmiş SSRİ-də pül kütləsi başlıca olaraq nəqd pullardan, müəssisə və təşkilatların hesablarındakı pul vəsaitləri qalıqlarından və əhalinin əmanətindən yaranırdı.

MUHASIBAT.AZ

Lakin bazar iqtisadiyyatında pul küləsi daha geniş məna kəsb edir. Məsələn, bir sıra ölkələrdə mərkəzi banklar pul kütləsi məfhumuna müxtəlif növ tələb olunanadək hesabları, pul bazarının müxtəlif instrumentlərini (çekləri, bonları, istiqrazları və s.) də daxil edirlər. Bu sayaq yanaşma pul kütləsinin və əmtəə ödənişinin balanslaşdırılmasını təmin etməyə kömək edir. Bu məsələnin həll olunması ictimai istehsalın səmərəliliyinin daha rasional idarə olunması tələbi ilə diktə olunur.

Yalnız zəruri pul vəsaitlərinin ümumi kütləsinin hesablanması ilə kifayətlənmək olmaz: ölkənin pul dövriyyəsi ilə bağlı olan müxtəlif plan və balansların (əhalinin pul mədaxi və məxaricləri balansı, kassa planı və nəqd pulların hərəkəti, kredit resurslarının planı, kredit planı və s.) proqnozlaşdırılması mexanizmini təkmilləşdirmək labüddür. Bununla belə, bazar münasibətlərinə keçid zamanı əvvəlki tənzimləmə metodları – kassa planı vasitəsilə – tətbiq oluna bilməz, çünki nəqd və nəqdsiz dövriyyə arasındakı hüdud silinib, əmək haqqı fondları bilavasitə müəssisələr tərəfindən formalaşdırılır, qiymətlərin liberallaşdırılması tələbləri daha çox həyata keçirilir, pərakəndə əmtəə dövriyyəsinin real planları olmur. Bütün bunlar nəqd pul dövriyyəsinin ayrılıqda planlaşdırılması üçün bazanın itirilməsinə aparır.

1991-ci ildən MDB-nin bir çox ölkələrində tədavüldəki pul kütləsinin həcmi və strukturunun tənzimlənməsi tədavüldəki nəqd pulların, hüquqi şəxslərin və vətəndaşların hesablarındakı pul vəsaitləri, bankların digər şərtsiz öhdəlikləri də daxil olmaqla, pul kütləsinin kvartallar üzrə hesablaşma dəyişikliklərinin proqnozlaşdırılması əsasında həyata keçirilir. Hesablaşmaların işlənilib hazırlanması ölkənin mərkəzi bankı tərəfindən dövlətin sosial və iqtisadi inkişaf göstəriciləri ilə bağlı şəkildə formalaşmış iqtisadi konyunkturanın nəzərə alınması ilə aparılır. Bu zaman əhalinin pul mədaxi və məxariclərinin proqnoz hesabları tərtib olunur, əhalidə nəqd pullar və

MUHASIBAT.AZ

mütəşəkkil əmanət formasında olan vəsait qalıqlarının (əmanətlər, sertifikatlar, istiqrazlar, xəzinə öhdəlikləri) dəyişikliyi müəyyənləşdirilir. Bunun əsasında əhalinin vəsaitinin (nəqd pullar üstəgəl əhalinin mütəşəkkil əmanətləri üzrə proqnozlaşdırılan gəlirlərinə faizlərlər) artım kvotası hesablanır.

Göstərilən hesablaşmaların nəticələri tədavüldə olan pul kütləsinin iqtisadi artım tempi ilə bağlı dəyişikliklərinin, qiymət səviyyəsi və digər göstəricilərin makismal həddinin əsaslandırılması baxımından mərkəzi bank tərəfindən diqqətlə analiz edilir. Analizin nəticələri üzrə kommersiya banklarına verilən kreditlərin ölçüsü məsələsi, həmin kreditlərin müddətinə, dövlət qiymətli kağızlarının alış və satış ölçülərinə baxılır. Mərkəzi bank hər ay əhalidə nəqd pulların artımı kvotasının icrasına – əhalinin pul mədaxi və məxariclərinin bankların kassa dövriyyələri üzrə dəyərləndirilməsi əsasında əhalinin faktiki pul gəlirlərinə nisbətən əhalinin nəqd pul vəsaitlərinin faktiki artım həddinin müəyyənləşdirilməsi yolu ilə nəzarət edir. Əhalidə vəsaitlərin artım kvotasının normanı keçdiyi halda mərkəzi bank buna müvafiq olaraq kreditləşdirmə həcmini azaltmalı və iqtisadi təsir metodlarından istifadə etməlidir (kommersiya bankları tərəfindən mərkəzi bankda yerləşdirilən mütləq öhdəliklər normasının dəyişdirilməsi, kommersiya banklarına verilən kreditlər üzrə faiz stavkalarının dəyişdirilməsi).

Maliyyə-kredit sisteminin strukturunun dəyişilməsi zamanı pul dövriyyəsinin zəruri sabitləşməsi amilləri *tədavüldə olan vəsaitlərin həcminə vahid dövlət nəzarəti* və bu nəzarətin həyata keçirilməsi mexanizmidir. Müasir şəraitdə müvafiq olaraq məcmu pul tədavülünün sərt şəkildə nəqd və nəqdsizə bölünməsi süni, nəqd və nəqdsiz vəsaitlərin tədavülünün prinsip və sferalarının birmənalı fərqləndirilməsi əsaslandırılmamış sayılır. Məsələn, pul kütləsinin artması depozit emissiyası əsasında kredit ekspansiyası vasitəsilə baş

MUHASIBAT.AZ

verə bilər və onunla şərtlənə bilər ki, bankın müştərisi öz əmanəti (depoziti) hüdudundaçek və ya kredit kartları vasitəsilə öz hesablaşma əməliyyatlarını apara bilər. Bunun nəticəsində pul kütləsi tərkibində dəyişikliklər baş verir və onun xarakterik əlaməti hüdudlarının «şərtiliyindədir» ki, komanda iqtisadiyyatı zamanı qeyri-sərbəst formadakı pul vəsaitlərini likvid formadakı pul vəsaitlərindən ayırmışdır. Bu halda pul kütləsinin müxtəlif komponentləri öz aralarında yaxınlaşırlar.

Pul bazası (tədavüldəki nəqd pullar və bankların mərkəzi bankdakı depozitləri) ilə yekun pul tədavülü (pul kütləsi həcmi) arasında birbaşa əlaqə vardır. İnkişaf etmiş bazar iqtisadiyyatında məcmu pul kütləsi tənzimlənir və onun ayrı-ayrı tərkib hissələrinə söykənilmir. Bu nöqteyi-nəzərdən dünya praktikasında nəzarət nəqd pul kəmiyyətinə deyil, müddətsiz bank depozitlərini, yol çeklərini və digər çek depozitlərini, uzunmüddətli əmanətləri və s. özündə birləşdirən pul kütləsinin həcminə nəzarət edilir. Pulların nəqdsiz formadan nəqd formaya axını problemi yoxdur, çünki qiymətlərin, faiz stavkalarının, valyuta kursunun dəyişdirilməsi yolu ilə əmtəə və xidmətlərin pul kütləsi balanslaşdırılır. Ona görə də bazar münasibətlərinin inkişafı, çoxnövlü mülkiyyət formalarının meydana gəlməsi, əhalinin nəqdsiz hesablaşmalar sisteminin genişlənməsi ilə nəqd pul tədavülü ilə nəqdsiz dövriyyə arasındakı hüdudlar daha çox silinir ki, bu da məcmu pul dövriyyəsi idarəetmə sisteminə keçidi tələb edir.

Pul kütləsi məfhumu bazar iqtisadiyyatının makroiqtisadi analizi üçün baza sayılır, çünki, məsələn, onun həddən ziyadə sürətlə artması qiymətlərin artmasına, inflyasiyaya, kəsirə səbəb olur və, əksinə, onun sürətlə ixtisarı zamanı işsizlik və istehsalın azalması baş verir. Pul kütləsinə *tədavüldəki nəqd pullar* (əhalinin əlində, habelə müəssisə, idarə və təşkilatların kassalarında olan bütün kağız pullar və metal sikkələr)

MUHASIBAT.AZ

daxildir. Bankların kassalarında olan nəqd pulları pul kütləsinə daxil etmirlər, çünki onlar hələlik pul dövriyyəsinə daxil edilməyiblər. Nəqd pullarla yanaşı pul kütləsini əhalinin, müəssisə, idarə və təşkilatların *bank depozitləri və əmanətləri* əmələ gətirir. Bunlar özx likvidliklərinə görə pul kütləsinə daxil edilirlər. Eyni zamanda təkrar hesablamadan yayınmaq məqsədi ilə hökumətin və bankların depozitləri pul kütləsinə daxil edilmir, amma *bankların digər öhdəlikləri* (depozit sertifikatları), qiymətli kağızlar və s. pul kütləsinə daxil edilirlər.

Pul kütləsi məfhumu *pul aqreqatları* adlandırılan müxtəlif qruplu likvidlik aktivlərin köməkliyi ilə konkretləşdirilir. Ona görə də məcmu pul dövriyyəsinin və onun ayrı-ayrı komponentlərinin kəmiyyət xarakteristikası təsərrüfat dövranına xidmət göstərilməsi üçün istifadə oluna biləcək həm real, həm də potensial pul vəsaitlərinin daxil olduqları pul kütləsinin müxtəlif göstəricilərinin düzülməsində əks olunur. Məcmu pul kütləsinin müxtəlif aqreqatlarının fərqləndirilməsinin əsas meyarı likvidlikdir, yəni dövriyyə və ödəniş vasitəsi kimi əmanət və yığımların ayrı-ayrı formalarının məsrəf və konversiya sürəti səviyyəsidir.

Bu zaman bankların nəinki pulu saxlamaq, həm də yeni pullar yaratmaq (qısamüddətli vaxt ərzində onların kəmiyyətini multiplikasiya etmək, uzunmüddətlidə isə – onların yeni növ və formalarına həyat vermək) qabiliyyətinə malik olmasıdır. Məsələn, qızıl və gümüş sikkələr tədricən yerlərini banknotlara verdilər, onlar isə öz növbələrində hesablarda yazılma yolu ilə onların saxlanılmasına (depozitlərdə yerləşdirilməsinə) həyat verdilər. Xarakterikdir ki, müasir depozitlərin həcmi bankların ambarlarındakı banknotların kəmiyyətindən artıqdır, yəni yeni pul formasını nəinki sadəcə yerləşdirirlər, həm də «köhnə» pulları multiplikasiya edirlər. Bu, *M1=dövriyyədəki nəqd pullar üstəgəltələb olunanadək depozitlər* (faiz gətirməyən) üstəgəl *digər çek*

MUHASIBAT.AZ

depozitləri (faiz gətirənlər) pul aqreqatının formalaşmasına gətirib çıxarmışdır.

İstehsalın daha da inkişaf etdirilməsi çevik kreditləşdirmə sisteminə tələbatın artmasına səbəb oldu. Kredit pulların meydana gəlməsi (ödəniş vasitəsinin rolunu deyil, kapital yığımı funksiyasını yerinə yetirən pulların) məhdud likvid passivlərin formalaşmasını tələb etdi ki, bu da *M2=M1* üstəgəl olmadan *müddətli əmanətlər* (faiz gətirənlər) üstəgəl çeklərdən istifadə etmək hüququ *tələb olunanadək əmanətlər* (faiz gətirənlər) üstəgəl *pul bazarının qarşılıqlı fondları və depozit hesabları* üstəgəl *geriyə alma haqqında birgünlük razılaşmalar* üstəgəl *avrodollarda birgünlük borclar pul aqreqatının* yaranmasına səbəb oldu.

Kreditə olan tələbatın genişlənməsi yeni girov obyektlərinin meydana gəlməsini zəruriləşdirdi və bunların rolunu saxlayanların iri müddətli əmanətlərin mülkiyyət hüquqlarını təsdiq edən depozit sertifikatları oynamağa başladı. Kredit resurslarına olan tələbatın artması M2-yə daxil olan elementlərin multiplikasiyasının nəticəsi kimi heç də az likvidli olmayan pul formalarının yaradılmasını tələb etdi. Bütün bunlar M3=M2 üstəgəl *depozit sertifikatları* üstəgəl *avrodollarda müddətli borclar* üstəgəl *pul bazarının qarşılıqlı fondlar aksiyası* pul aqreqatının yaranmasına gətirib çıxardı.

Pul formaları və pul aqreqatlarının inkişafı aşağıdakı səbəb-nəticə rabitəsinin mövcudluğunu təsdiq edir: *cari məsrəfləri artımı→qiymətlərin artımı→kreditlərin təklifinin artımı→depozitlərin artımı→pul aqreqatlarının artımı*. Bu zaman pul kütləsinin göstəriciləri məcmu pul dövranının strukturunu, onun ayrı-ayrı komponentlərinin dinamikasını, kreditləşdirmə həcmini xarakterizə edir.

Bir neçə göstəricidə (M1, M2…) pul kütləsinin həcminin dəyərləndirilməsi pul-kredit dövranının müxtəlif parametrlərini daha da tam xarakterizə etməyə, pul dövriyyəsinin inkişaf tendensiyasına və

MUHASIBAT.AZ

onların iqtisadiyyatın inkişafına uyğunluğunu qiymətləndirməyə imkan verir. Tədavül üçün zəruri olan pul kütləsinin müəyyənləşdirilməsi zamanı təkcə əmtəə dövriyyəsinin həcmi və strukturundan çıxış etmək deyil, həm də əhalinin pul gəlirlərinin həcmi və strukturunu, eləcə də pula olan tələb və təklifin nisbətini nəzərə almaq lazımdır.

Dövriyyədə olan pulların kəmiyyətini müəyyənləşdirən amillər arasında *mərkəzi bankın fəaliyyəti* həlledici sayılır. Monetaristlərin müəyyənləşdirməsinə görə dövriyyədə olan pul kütləsi mərkəzi bank tərəfindən emitasiya edilən (mərkəzi bankın banknotları və ya «yüksək güclü» pullar) pulların kəmiyyətindən, bank rezervlərinin normasından, nəqd pulların bank depozitlərinə nisbətindən asılıdır.

Mərkəzi bankların pulu adlandırılan vəsaitin (pul bazası) pul kütləsinə təsirini müəyyənləşdirmək məqsədi ilə *kredit multiplikatorundan* istifadə edilir. Ən sadə kredit multiplikatoru düsturu aşağıdakıdan ibarətdir

$$K = \frac{1}{a + b - ab}, \qquad (5.1)$$

burada K – kredit multiplikatoru; a – bank rezervlərinin bank depozitlərinə nisbətinin əmsalı; b – nəqd pulların pul kütləsinə nisbətinin əmsalıdır.

Pul kütləsinin, ümumi daxili məhsulun və qiymətin, göstəricilərinin artım tempinin dinamikasını tutuşdurularkən pul kütləsinin artım səviyyəsinin istehsal prosesi və istehlak qiymətlərinin tələblərindən asılılığı analiz edilməlidir. Dövriyyədəki pul kütləsinin artım səviyyəsinin daxili ümumi məhsul artımını və pərakəndə qiymət indeksini üstələdiyi halda hər bir göstəricinin rezervində pul kütləsinin özünü doğrultmayan artımının səbəblərini analiz etmək lazımdır, o cümlədən büdcə kəsiri, daxili dövlət borcunun həcmi, iqtisadiyyatda kreditin özünü doğrultmayan artımı kimi pul amillərinin təsərrüfat dövranını doldurmasına təsirini izləmək lazımdır.

MUHASIBAT.AZ

Pul dövriyyəsində baş verən proseslərin analizi üçün nəqd pulların bankın kassalarına qayıtması və aşağıdakı düsturla müəyyən edilən «yığıma meyl» göstəricisindən istifadə etmək olar:

$$Sv = \frac{\frac{M_n + M_k}{2} \cdot K_d}{P_k}, \qquad (5.2)$$

burada S_v – nəqd pulların bankın kassalarına qayıtma sürəti, gün; M_n və M_k – müvafiq olaraq dövrün başlanğıcı və sonuna olan nəqd pullar; K_d – hesabat dövründə günlərin sayı; P_k – hesabat dövrü üzrə kassa dövriyyəsi üzrə geniş mədaxildir.

$$S_s = \frac{V_n}{P_{n.d.}}, \qquad (5.3)$$

burada S_s – əhalinin yığıma meylliliyi; V_k – əhalinin banklardakı əmanətləri; $P_{n.d.}$ – milli gəlirin artmasıdır.

Pulun bankın kassalarına qayıtması sürətinin azalması əlavə nəqd pulların tədavülə buraxılmasını, qayıtmanın sürətlənməsi isə əksinə, onların buraxılmasını azaltmağı tələb edir. Eyni zamanda dövriyyədə nəqd pulların artması zamanı kassa dövriyyəsi və operativ məlumatlar, haqqında bankların əhalinin pul mədaxi və məxariclərinin faktiki balansı hesabatı əsasında analiz aparmaq vacibdir. Bu zaman «yığıma meyl» göstəricisi nəinki istehlak bazarında durumu xarakterizə edəcək, həm də bütövlükdə iqtisadiyyatın vəziyyəti haqqında informasiya verəcək. Pulun tədavül sürətinə pul-maliyyə bazarlarında baş verən proseslər, ödənişlərin hərəkətində dəyişikliklər və s. də təsir göstərir.

Müxtəlif ölkələrin pul tədavülünün müasir statistikasında pul kütləsi göstəricisinin müxtəlif variantlarından istifadə olunur, məsələn, ABŞ-da aşağıdakı göstəricilər (aqreqatlar) nəşr olunur:

M1 – nəqd pullar (sikkə və banknotlar) üstəgəl bank hesablarındakı və digər transaksiya hesablarındakı tələb olunanadək vəsaitlər;

MUHASIBAT.AZ

M2 – M1 aqreqatı üstəgəl müddətli (100 min dollaradək) və yığım əmanətləri;

M3 – M2 aqreqatı üstəgəl bank hesablarındakı iri müddətli əmanətlər;

L – M3 aqreqatı üstəgəl qeyri bank saxlayıcılarındakı dövlət qiymətli kağızlar portfeli.

Fransada pul kütləsinin elementlərinin təsnifatına dörd aqreqat daxildir:

M1 – dövriyyədəki nəqd pullardan və tələb olunanadək depozitlərdən ibarətdir;

M2 – M1 tam daxil olmaqla üstəgəl saxlanıldığı müəssisələrdən asılı olmayaraq əmanət kitabçalarındakı hər cür yığımlar;

M3 – M2 daxil olmaqla üstəgəl müddət üçün depozitlər, depozit sertifikatları və investisiya cəmiyyətlərinin (СИКАВ) müddət üçün satılmış qiymətli kağızları;

L – M3 daxil olmaqla üstəgəl mənzil almaq məqsədi ilə yığım hesabları, xəzinə bonları, kommersiya vekselləri.

Bu təsnifatda əmanət kitabçalarındakı depozitlərlə bank hesabları arasındakı fərqlər yoxdur. Lakin dörd aqreqatdan yalnız M1 və M2 daha sabit şəkildə tənzimləmə təsirinə məruz qalırlar və ÜDM-un proqnozlaşdırılan dinamikası ilə uzlaşırlar.

Belarusda pul dövriyyəsinin xüsusiyyətlərini nəzərə alan pul aqreqatlarının təsnifatı aşağıdakı kimidir:

MO – əhalinin əlində və təsərrüfat subyektlərinin kassalarındakılar da daxil olmaqla dövriyyədəki nəqd pullar;

M1 («sözün dar mənasında» pul kütləsi) – dövriyyədəki nəqd pullar (MO) üstəgəl əhalinin, təsərrüfat subyektlərinin və yerli idarə orqanlarının tələb olunanadək depozitləri;

M2 (genişləndirilmiş pullar) – M1 üstəgəl əhalinin, təsərrüfat subyektlərinin və yerli idarə orqanlarının müddətli depozitləri;

MUHASIBAT.AZ

M3 (milli valyutada pul kütləsinin ümumi məbləği) – M2 üstəgəl digər (məqsədli, yığım üçün) bank depozitləri və əhalinin, təsərrüfat subyektlərinin və yerli idarə orqanlarının kağız pullardakı vəsaitləri;

M4 (xarici valyuta da daxil olmaqla pul kütləsinin ümumi məbləği) – M3 üstəgəl əhalinin, təsərrüfat subyektlərinin və yerli idarə orqanlarının (tələb olunanadək, müddətli və digər) xarici valyutadakı depozitləri.

Bu halda MO, M1, M2 aqreqatları pul kütləsinin daha çox likvid hissəsini xarakterizə edir, yəni pul dövriyyəsinin ilkin satış, konversiya və ya hər hansı digər maliyyə əməliyyatı olmadan bütün vəsaitləri hesablaşmalarda istifadə olunur. Hazırda pul kütləsinin strukturunda ən çox xüsusi çəkisi olan dövriyyədə, hüquqi şəxslərin hesablaşma və cari hesablarında, əhalinin kommersiya banklarındakı əmanətlərində (müddətli və tələb olunanadək) olan nəqd pullardır. Pul kütləsinin digər aqreqatları (M3, M4) əsasən inkişaf mərhələsindədirlər. Təsərrüfatçılıq mexanizminin təşəkkülü və inkişafı səviyyəsinə uyğun olaraq onların da əhəmiyyəti artacaqdır.

Dövriyyədəki pul kütləsinin aqreqatlarının müəyyənləşdirilməsi üçün əsas çıxış orientirləri Belarus Respublikası Milli bankının respublika və vilayət (şəhər) səviyyəsində yekun hesabat balansı, respublika kommersiya banklarının hesabat balanslarıdır. Əlavə məlumat kimi kassa dövriyyəsi və əhalinin pul mədaxi və məxariclərinin hesabat balanslarından istifadə etmək olar.

Pul kütləsinin həcmi və strukturunun tənzimlənməsi, tədavüldəki nəqd pullar, hüquqi şəxslərin və vətəndaşların hesablarda və əmanətlərdəki pul vəsaitləri, bankların digər şərtsiz pul öhdəlikləri də daxil olmaqla, tədavüldəki pul kütləsinin həftəlik proqnoz hesablamaları əsasında həyata keçirilir. Hesabatların işlənilib hazırlanması təşəkkül tapan iqtisadi konyunkturanın respublikanın, vilayətin, şəhərin sosial və iqtisadi inkişafı ilə bağlılığı nəzərə alınmaqla

MUHASIBAT.AZ

aparılır. Bu zaman əhalinin pul gəlirləri və məsrəflərinin, kassa dövriyyələrinin proqnoz hesabatları tərtib olunmalı, əhalidə nəqd pulla və mütəşəkkül əmanət formasındakı (əmanətlər, borclar, kommersiya banklarının sertifikatları) pul qalıqlarındakı dəyişikliklər müəyyənləşdirilməlidir.

Bunun əsasında əhalinin vəsaitlərinin artım kvotası – nəqd pullar üstəgəl əhalinin pul gəlirlərinə olan mütəşəkkil yığım faizləri hesablanır. Tədavüldəki pul kütləsinin həcminə aylıq nəzarət, habelə əhalidə pul vəsaitlərinin artım kvotası nəzərdə tutulur. Məcmu pul dövranının analizi pul kütləsi göstəricilərinin və iqtisadi inkişafın makroiqtisadi göstəricilərinin – ümumi daxili məhsulun, milli gəlirin, pərakəndə əmtəə dövriyyəsi və digərlərinin dinamikasının müqayisəsinə əsaslanır və idarənin müxtəlif səviyyələri, iqtisadiyyatın sferaları, regionlar və istehsal sahələri üzrə qarşıya qoyulmuş konkret məqsədlərdən asılı olaraq həyata keçirilir.

Özünü yoxlama üçün suallar

1. Pul sistemi nədir və hansı elementlərdən ibarətdir?
2. Pul sisteminin hansı tipləri olur?
3. Emissiya nədir və xəzinə emissiyasının bank emissiyasından fərqi nədədir?
4. Pul kütləsi nədir və onu müəyyənləşdirmək nəyə lazımdır?
5. Pul kütləsi aqreqatlarının qurulmasının əsasında hansı meyarlar qoyulub?
6. Pul bazası pul kütləsindən nə ilə fərqlənir?

MUHASIBAT.AZ

6. İNFLYASİYA VƏ İQTİSADİYYATIN ANTİİNFLYASİYA TƏNZİMLƏNMƏSİ

6.1. İNFLYASİYA SOSİAL-İQTİSADİ TƏZAHÜR KİMİ

İnflyasiya müasir iqtisadiyyat üçün xarakterikdir, təcrübə onun hər yerdə yayılmasını sübut edir. Faktiki olaraq «inflyasiya» termini kütləvi şəkildə kağız pullara keçidlə bağlı meydana gəlmişdir və sonuncularla pul dövriyyəsi kanallarının doldurulması faktını əks etdirir. Eyni zamanda nəzərə almaq lazımdır ki, hər bir dövrdə dövlətlər büdcənin gəlirlərinin daim artan məxaricləri ilə balanslaşdırılması problemi ilə toqquşurdular. Problem müxtəlif yollarla həll olunurdu. Bu problemin həllinin ən azı üç «doğru» həll yolu mövcuddur və onlar tək-tək, birlikdə, eləcə də müxtəlif birləşmələrdə istifadə oluna bilər. Bu, dövlət xərclərinin məhdudlaşdırılması, vergilərin, rüsumların, tariflərin və ölkə daxilində və ya xaricdə dövlət büdcəsinə digər daxil olmalar borcunun artırılması ola bilərdi. Qədim dünyanın iqtisadi təfəkkürü dördüncü «qeyri-doğru» dövlət büdcəsini balanslaşdırma yolunu müəyyən etmişdir: tədavülə əlavə kəmiyyətdə pul buraxmaq. Bu «qeyri-zəhmət» gəlir çıxarmağın dördüncü yolu dünyanın əksər ölkələri tərəfindən bu günədək müxtəlif tutumlarda istifadə olunur, amma bu inflyasiya doğurur.

İnflyasiya mürəkkəb, çoxqütblü iqtisadi fenomendir ki, bu zaman onda iqtisadi, siyasi və sosial ünsürlər bir-biri ilə sıx çulğaşır və əzilib-düzülürdülər. Ən ümumi şəkildə inflyasiyanı tədavüldə artıq pulun olması və nəticədə onların (müxtəlif formalarda) qiymətdən düşməsinin təzahürü kimi müəyyənləşdirmək olar. İnflyasiyanın mahiyyətcə belə şərhi ensiklopedik lüğətlərdə, müxtəlif dərsliklərdə və elmi əsərlərdə verilir və o əsasən tədavül sferasında pul kütləsinin bolluğu, pul tədavülü kanallarının qiymətdən düşmüş kağız pullarla dolması kimi izah olunur.

MUHASIBAT.AZ

Pul tədavülü kanallarının dolması, pul kütləsinin artmasının əvvəlki tempinin saxlanılması, pul vahidinin tədavül sürətinin artması şərti ilə əmtəə kütləsinin azalması nəticəsində əlavə pulların emissiyası hesabına da baş verə bilər. Yuxarıda göstərilən komponentlərin hər birinin dəyişilməsi pul vahidinin qiymətdən düşməsinə təsir edə bilər. Bununla belə, pul tədavülü kanallarının kifayət qədər tez-tez dolmasını yalnız əlavə pul emissiyası ilə əlaqələndirirlər.

Lakin hər bir emissiya (pulun tədavülə buraxılması), məsələn, əgər emissiya vasitəsilə əmtəə görkəmini itirmiş pul nişanları tədavüldən çıxarılırsa və ya tədavülə əlavə pul buraxılması əmtəə istehsalı və xidmətlərin genişləndirilməsi ilə şərtlənirsə, bu inflyasiya əlaməti deyil. Bu onu bildirir ki, əgər nəqd və nəqdsiz formada pul kütləsinin artımı milli məhsulun artımı ilə üst-üstə düşürsə, onda iqtisadiyyat kifayət qədər uğurla inkişaf edir. Məsələ burasındadır ki, əmtəə kütləsinin artımı üçün ona xidmət göstərilməsi məqsədi ilə həmişə daha çox pul tələb olunur (digər bərabər şəraitlərdə). Ona görə də pullar, əmtəə kütləsinin artımı dəyər ifadəsi ilə əlavə pul emissiyası artımını üstələdikdə (pulun dövretməsi nəzərə alınmaqla) onların əlavə buraxılışı zamanı «artıq» olmayacaq.

Adətən pulun hansı səviyyəyədək emissiyanın təhlükəsiz olması və tədavül sferasının hansı həddən sonra dolması deyil, bundan sonra inflyasiyanın başlanacağı artıqlaması ilə dolması həddinin başlanması izah olunmur. Ona görə də belə yanaşma zamanı *inflyasiyanın meydana gəlməsinin dərin səbəbləri* kənarda qalır, onun üst formaları ön plana çəkilir, nəticə onun səbəbləri əvəzinə qəbul olunur. İnflyasiyanın tədqiqinin belə nəzəri çatışmazlığı zamanı əsaslandırılmış və əməli antiinflyasiya tədbirlərinin işlənilib hazırlanması tamamilə çətin olur.

İnflyasiyanın təbiətinin anlaşılmasının nəzəri əsası və dövlətin antiinflyasiya təsiri tədbirləri hazırda pulun monetarist və ya keynsian interpretasiyasında *onun kəmiyyət nəzəriyyəsidir*. Bu nəzəriyyə

MUHASIBAT.AZ

sadələşdirilmiş formada inflyasiyanın səbəbinin tələbin təklif üzərində xroniki artımını və son hesabda pul bazarında pulun qiymətdən düşməsi formasında təmərküzləşməsi və qismən (bəzən tamamilə) öz icra funksiyasını itirməsi ilə *bazarlarda qeyri-bərabər sabitliyin* olmamasında görür. Məlum olduğu kimi, pul bazarında uzunmüddətli tarazlıq şərti (Fridmen tənliyi) aşağıdakı kimidir:

$$M_{sr} = U_{sr} + R_{sr}, \qquad (6.1)$$

Burada M_{sr} – təkli olunan pulun orta illik artım tempi; U_{sr} – real məcmu gəliri (real istehsalı) xarakterizə edən orta illik göstərici; R_{sr} – qiymətlərin orta illik artım tempidir.

İnflyasiyanın pul vahidini qiymətsizləşdirdiyinə görə bu halda pulun dayanıqlığının xüsusi əhəmiyyəti vardır. Həqiqi (tam dəyərli) pullara və ya qızılla əvəzlənə biləcək dəyər nişanlarına nisbətən pulların dayanıqlığı dedikdə, onların dəyərinin, pul əmtəəsinin təkrar istehsalına və qiymət miqyası sabitliyinə sərf olunan əməyin hərəkəti ilə müəyyən olunan daimiliyi başa düşülür. Əvəzlənməyən dəyər nişanlarına münasibətdə isə dayanıqlıq dedikdə, pulun alıcılıq qabiliyyətinin sabitliyi, pulun tam dəyərliliyi (pulun nominal və real dəyəri), habelə pul nişanlarının dəyəri təbiətinin qızılın tədavüldəki nümayəndəsi kimi etiraf olunması başa düşülür. Öz növbəsində pulun alıcılıq qabiliyyəti (qüvvəsi) müəyyən əmtəə kütləsi və xidmətlərdə ifadə olunur ki, bunlar da həmin pul məbləği (eyniadlı pul vahidi) ilə əldə edilə bilər. Alıcılıq qabiliyyəti əmtəə və xidmətlərin pul ilə mübadiləsi prosesində formalaşır və qiymət səviyyəsi ilə müəyyən olunur, yəni onun artımı zamanı pulun alıcılıq gücü azalır, azalması zamanı isə artır.

Bununla belə, adətən inflyasiya dedikdə, bir qayda olaraq qiymətlərin arması ilə müşahidə olunan və pul tədavülü qanunlarının pozulması nəticəsində artıq pul kütləsinin meydana çıxması səbəbindən törənən pulun qiymətdən düşməsi prosesi başa düşülür. İnflyasiyanın zahirən qiymət artımında təzahür etdiyinə görə bu gün onun istənilən

MUHASIBAT.AZ

artımı inflyasiya ilə eyniləşdirilir. Amma bu qətiyyən belə deyil. Qiymətin artım səbəblərini analiz etmək lazımdır. Qiymətlərin özü istehsal xərclərinin real artımı üzündən (məsələn, hasilat sahələrində təbii xammalın hasilat şəraitlərinin pisləşməsi ilə bağlı) qalxır, amma çətin ki, bunu inflyasiya adlandırmaq mümkün olsun. Eyni sözləri ajiotaj tələbli dəbdə olan hər hansı əmtəə və ya yaxşılaşdırılmış keyfiyyətli məmulatın qiymətinin qalxması barədə də söyləmək olar. Digər tərəfdən inflyasiya əmtəənin keyfiyyətinin pisləşdiyi halda və ya onların qıtlığı zamanı da baş verə bilər. Qiymətlərin inflyasiya artımının zahiri əlamətləri onların artımının kütləviliyi, fasiləsizliyi və uzunmüddətliliyidir. Təbii ki, qiymətlərin inflyasiya artımını hesablamalar səviyyəsində qeyri-inflyasiya artımından fərqləndirmək çox çətindir, lakin ümumi analiz çərçivəsində mümkündür.

«İnflyasiya» termini XIX əsrin ikinci yarısından başlayaraq istifadə olunur. İlk dəfə olaraq pul tədavülünün durumunu səciyyələndirmək məqsədi ilə 1861-1865-ci illərdə Şimali Amerikada ondan istifadə etməyə başladılar. Amma inflyasiya hadisəsinin özüxeyli əvvəl, hələ qədim Romada və qədim Çində meydana gəlmişdi və pul nişanlarının dövlətin müəyyən etdiyi nominalla dövriyyəyə daxil edilməsi ilə bağlıdır. Metal pulun tədavülü zamanı inflyasiya epizodik xarakter daşıyırdı, iqtisadiyyət və cəmiyyət üçün ciddi təhlükə kəsb etmirdi. Kağız pulların meydana gəlməsi və istifadəsinin genişlənməsi ilə inflyasiya prosesləri güclənirdi və bunlara uyğun olaraq inflyasiyanın iqtisadiyyatın bütün sferalarına təsiri artırdı. İqtisadi inkişafın müxtəlif mərhələlərində iqtisadi planda inkişaf etmiş bütün dünya ölkələri praktiki olaraq inflyasiya problemi ilə qarşılaşmışdılar. Eyni zamanda istehlak pullarının hərəkətinin tarixi analizi *inflyasiyanın inkişafının* bir sıra *ən ümumi qanunauyğunluqlarının* formalaşdırılmasına imkan verir:

MUHASIBAT.AZ

- müxtəlif ölkələrdəki inflyasiya prosesləri kağız pul tədavülünün meydana çıxmasından xeyli əvvəl müşahidə olunmuşdur. Yeni yaradılan dəyərlərin bir hissəsinin dövlətin, habelə ayrı-ayrı istehsal sahələri və təsərrüfat sektorlarının xeyrinə bölüşcürülməsi zərurəti qiymətlərin qeyri-bərabər (əmtəə qrupları üzrə) hərəkətini stimullaşdırdı;
- irimiqyaslı qiymət artırmaları dövrləri vaxtaşırı olaraq onların sabitləşməsi və azalmaları dövrləri ilə əvəz olunurdu;
- metal pulların qiymətdən düşməsi ilə keçmişdə baş verən uzunmüddətli inflyasiyanın əsas səbəbi qiymətli metalların istehsalının artırılması və ya pulların «korlanması» idi;
- XX əsrin başlanğıcınadək dövlət orqanları tədavüldə olan pul kütləsinin həcminə hər hansı bir nəzarət həyata keçirmirdilər. Pul kəsilməsi, sonralar isə kağız pulların emissiyası başlıca olaraq dövlətin fiskal tələbatı ilə müəyyənləşdirilirdi;
- ötən əsrlərdə sıx qarşılıqlı iqtisadi əlaqə saxlayan ölkələrdə pul hərəkətinin əsas tendensiyaları əksər hallarda üst-üstə düşürdü. İnflyasiya tendensiyalarının bir ölkədən öaşqasına ötürülməsi əsasən ixrac-idxal qiymətləri mexanizmi vasitəsilə, habelə qızıl və gümüş ehtiyatlarının yenidən bölüşdürülməsi yolu ilə həyata keçirilirdi.

Tarixi təcrübə göstərir ki, inflyasiya – çox hallarda ictimai sarsıntıların, siyasi və sosial münaqişələrin nəticəsidir. Əgər cəmiyyətin bütün üzvləri inflyasiya gözləyirsə, onda bu, mütləq baş verəcək. Məlum mənada inflyasiya – cəmiyyətin durumunun göstəricisidir, onun əmin-amanlığının ölçü dərəcəsidir. İnflyasiya XX əsr ərzində tədricən ümumi, hərtərəfli və daimi amilə çevrilmişdir.

MUHASIBAT.AZ

XIX əsrin ikinci yarısında və XX əsrdə istehsalın sürətlə artımı baş verdi. Əmtəənin, vergi stavkasının, əmək haqqı səviyyəsinin vahid qiymətin dəyişilməsi bütün iqtisadiyyata öz təsirini göstərmişdi. Münaqişələrin yaranmasının qarşısının alınmasının ən yaxşı üsulunun əmək haqqı stavkalarının bir qədər artırılması olduğundan, bu da qiymətlərin qalxmasına səbəb olur və inflyasiya (ildə 2-3%) üçün təbii fon yaradılır.

İnflyasiyanın daimi iqtisadi amilə çevrilməsinə qiymətəmələgətirmə təcrübəsinin inhisarçı müəssisələrin təsiri ilə əhəmiyyətli dərəcədə dəyişdirilməsi səbəb oldu. Belə şəraitdə qiymətlərin iqtisadi tsikl mərhələsinə uyğun olaraq dəyişilməsi dayanıqlaşır, birtərəfli yüksələn istiqamət götürür. Qiymət rəqabətinin fəaliyyət sferası kəskin şəkildə daralmışdır. Rəqabət daha çox əmtəənin differensiasiyası, onun keyfiyyətinin yüksəldilməsi, assortimentin yeniləşməsi metodlarına söykənməyə başladı. İqtisadiyyatın səmərəliliyinin yüksəldilməsi, bir qayda olaraq, qiymətlərin azaldılmasında deyil, istehsal iştirakçılarının mənfəət və gəlirləri kütləsinin artımında təzahür edir ki, bunun da sayəsində istehsalın təkmilləşdirilməsi və istehlak üçün gəlirlərin artırılmasından ötrü yeni imkanlar yaranır. Qiymətlərin birtərəfli dinamikası inflyasiyanın müqəddəməsi, əksər hallarda isə inflyasiyanın özüdür.

Dövlətin iqtiysadiyyata müdaxiləsi təcrübəsi də inflyasiyanın daimi amilə çevrilməsinə kömək etmişdir. Qiymətlərin aşağı salınması vergiyə cəlb olunma bazasının azaldılmasıdır (kiçildilməsidir) ki, bu da dövlətə sərfəli deyildir. Ona görə də tədricən həm istehsalatda məşğul olanların, həm də pensionerlərin nominal gəlirlərinin azalmasına yol verməmək təcrübəsi yarandı və bu da ümumi məsrəflər siyahısında müəyyən gəlirlərin təsbitlənməsini tələb etdi.bu, qiymətlərin ən azı əvvəlki səviyyədə saxlanılmasını nəzərdə tutur. XX əsr ərzində dövlətlərin əksəriyyəti büdcənin daimi maddəsinə çevrilən çox böyük

MUHASIBAT.AZ

hərbi xərclərə məruz qaldılar. Ekoloji problemlər, ətraf mühitin və insanların özlərinin istehsalın zərərli nəticələrindən mühafizəsi də dövlət məsrəflərinin artması amili olmuşdur.

XX yüzilliyin 70-ci illərinin əvvəllərindən əmtəə qrupları üzrə qiymətlərin hərəkətinin qeyri-bərabər şəkildə təzahür etdiyi dünya inflyasiyası ümumdünya təsərrüfatının ən kəskin və yaralı problemlərindən birinə çevrildi. Dünya inflyasiyası özlüyündə obyektiv-iqtisadi prosesdir və bütün ölkələr beynəlxalq əmək bölgüsündə iştiraklarına uyğun səviyyədə ona uyğunlaşmalıdırlar. Təsərrüfat həyatının beynəlmiləlləşdirilməsi inflyasiyaya əlahiddə götürülən ölkədə baş verməyə imkan vermir. Dünya ticarəti inflyasiya proseslərinin aparıcı amilinə çevrilirlər və daxili qiymətlərə əhəmiyyətli təsir göstərir.

İnflyasiya tendensiyalarının transmilli ötürülməsi birbaşa (qiymətlə) və dolayısı (valyuta kursu vasitəsilə) şəkildə olur. Birinci halda inkişaf etmiş dünya təsərrüfat əlaqələri nəticəsində bir ölkədə qiymətlərin artması başqa bir dövlətdə qiymətlərin artmasına keçir. İnflyasiyanın dolayısı effekti onunla bağlıdır ki, ixracatçı ölkənin daxilində ilkin qiymət sıçrayışı idxalçı ölkənin valyuta kursunun azalmasına gətirib çıxarır. Xarici valyuta milli valyutaya nisbətən bahalaşırsa, onda inflyasiyanın sürəti artır, həm də idxal qiymətləri artır, ixrac qiymətləri isə azalır.

İqtisadi həyatın daimi amilinə çevrilən inflyasiya iqtisadi münasibətlər sistemini xeyli mürəkkəbləşdirmişdir. O normal, təhlükəsiz səviyyədə saxlanılması üçün özünə qarşı daim diqqət və tədbirlər görülməsini tələb edir. Onun iqtisadiyyata və cəmiyyətə təsir səviyyəsi onun səviyyəsindən asılıdır. Bu onu sübut edir ki, öz-özlüyündə istehlak qiymətlərinin artması yalnız inflyasiyanın başlanmasından xəbər verir, onun xüsusi sosial-iqtisadi əhəmiyyətə malik olan və siyasi partiyalar və müxtəlif cərəyanlar, hökumət, alimlər

MUHASIBAT.AZ

və əhalinin müxtəlif sosial təbəqələri və qruplarının diqqətini ciddi cəlb edən daha konkret məzmunu isə ondan ibarətdir ki, inflyasiya – qiymətyaratma vasitəsilə həyata keçirilən kapital axınının, ictimai məhsulun və milli gəlirin xalq təsərrüfatı sahələri, ictimai siniflər, qruplar və əhalinin təbəqələri arasında yenidən bölüşdürülməsinin gizli (kortəbii və ya bilərəkdən) formasıdır. Bu, inflyasiyanın sosial-iqtisadi nöqteyi-nəzərdən əhalinin ayrı-ayrı qrupları və təbəqələrinin vəziyyəti barədə ən mühüm xarakteristikasıdır.

MUHASIBAT.AZ

6.2. İNFLYASİYANIN İNKİŞAF AMİLLƏRİ

İnflyasiyanın inkişaf amilləri müxtəlifdir və həm pul, həm də qeyri-pul xarakterində ola bilər. Ümumən qəbul olunub ki, artıq pul kütləsinin meydana çıxmasıdövlətin maliyyəsinin pozulmasına gətirib çıxarır ki, bu da *dövlət büdcəsinin kəsiri* ilə ifadə olunur. İnflaysiyanın inkişafı bilavasitə həmini kəsiri doğurandan deyil, onun ödənilməsi üsullarından asılıdır. Əgər sonuncu birbaşa emissiya hesabına həyata keçirilirsə, onda inflyasiyanın təsiri şübhəsizdir, kəsir dövlət qiymətli kağızlarının emissiyası vasitəsilə (dövlət borcunun artırılması yolu ilə) həyata keçirildikdə isə məsələ daha da mürəkkəbləşir. İnflyasiya situasiyası, mərkəzi bank tərəfindən dövlət borcunun banknot ilə əvəzləndiyi, eləcə də kommersiya bankları tərəfindən kreditlərin genişləndirildiyi və bunun əsasında da depozitiv-çek emissiyasının genişləndirildiyi halda da baş verir. Başqa sözlə, inflyasiyanın mühüm amili nəqdsiz formada pul emissiyasına aparan *kreditin həddən ziyadə genişlənməsidir* (kredit ekspansiyası).

İnflyasiya o zaman inkişaf edir ki, ilkin təkan ona qiymət artımı ilə çatır. Belə situasiyanı yaradan ən mühüm amil qiymət artımına rəvac verən *iqtisadiyyatın strukturunun inhisarlaşdırılmasıdır*. İstehsalçının inhisarçı durumu ona imkan verir ki, vergi artımını, ilk növbədə, qiymətə özünəməxsus əlavə şəklində yığılan dolayısı vergi artımını istehlakçının üstünə atsın. Bu halda spesifik vergi inflyasiyası haqqında danışmaq mümkündür.

İnflyasiya təkcə iqtisadiyyatdaxili deyil, həm də beynəlxalq səbəblərin nəticəsidir. Bununla əlaqədar olaraq onun daha bir növünü – *idxal olunan inflyasiyanı* fərqləndirirlər. Bu, əsasən ölkəyə xarici valyutanın bol axını üzündən, habelə idxal olunan malların qiymətlərinin artması nəticəsində inkişaf edir. Qeyd etmək lazımdır ki, inflyasiya amilləri qeyri-iqtisadi xarakterli də ola bilər. Burada

MUHASIBAT.AZ

insanların davranışının psixoloji aspektləri (inflyasiya gözləmələri), müharibələr və inqilablar, hökumətə etimadın itirilməsi, siyasi sabitsizlik və s. nəzərdə tutulur. İnflyasiya eyni zamanda bir sıra ən mühüm amillərlə şərtlənə bilər. O cümlədən:

- əgər istehsal durğunluq, staqnasiya və istehsalın həcminin azalması vəziyyətində olarsa. Belə durum ölkənin iqtisadiyyatı üçün kritik sayılır ki, bu zaman artıq yenisi yaradılmır, əvvəllər yaradılmışı satılır, əhalinin yaşayış səviyyəsinin aşağı düşməsi prosesi gedir;
- əgər xarici borc dəyişilməz qalarsa və ya artaraq kritik həddə yaxınlaşarsa, onda inflyasiya olduğu kimi qalır;
- daimi mövcud olan, ildən-ilə emissiya yolu ilə ödənilən keçici büdcə kəsiri vardırsa, bu, inflyasiyaya səbəb olur ki, nəticədə istehlak bazarının pozğunluğu güclənir. Bu halda dövriyyə kanallarının kağız pullarla doldurulması dövlət tərəfindən nəzarət olunmayan malların və xidmətlərin qiymətlərinin artmasında özünü göstərir, kəsirin dərinləşməsinə aparır. Ona görə də dövlət büdcəsinin kəsirini dəf etmədən və əmtəə ilə təmin olunmayan kağız pulların buraxılışını aradan qaldırmadan əmtəə və pul kütləsini balanslaşdırmaq, son hesabda isə inflyasiyanı durdurmaq olmaz;
- əgər əhalinin qeyri-əməkqabilli hissəsi, habelə idarəçilik aparatı böyük sürətlə artırsa, xüsusilə də əgər onlar əvvəllər maddi istehsal sferasında işləyirdilərsə və sonuncunun səmərəliliyi artmırsa. Bu, inflyasiyaya dəstəkdir;
- iqtisadiyyatın strukturu saxlanıldıqda və bu zaman istehsal olunan məcmu məhsulun ¾-ü qədəri istehsal vasitəsidirsə. Bununla belə, istehsal vasitəsinin yaradılması məqsəd olmamalıdır, əksinə, istehlak cisimləri istehsalının sürətli inkişafına xidmət etməlidir. İstehsal vasitələri ilə istehlak

MUHASIBAT.AZ

cisimlərinin istehsalı, eyni zamanda yığımla istehlak arasındakı tərs mütənasiblik təklif olunan mallarla (xidmətlə) onlara olan ödəməqabilli tələb arasındakı disbalansa aparır. Təkrar istehsal prosesində pozuntuların nəticəsi olaraq inflyasiyanın inkişafına aparan pul tədavülündəki neqativ tendensiyalardır;


- əgər əmək məhsuldarlığı ilə əhalinin pul gəlirlərinin artımı arasındakı nisbət pozularsa, bu, inflyasiyanı qoruyub saxlayır. Lakin inflyasiyanı doğuran bir amil kimi əmək məhsuldarlığının və pul gəlirlərinin artım tempinin nisbəti analiz edildikdə, nəzərə almaq lazımdır ki, qiymətlərin inflyasiyon artımı pul gəlirlərinin və əmək məhsuldarlığının artım tempinin sonuncunun xeyrinə olduğu nisbətdə də mümkündür. Belə hal o vaxt yarana bilər ki, istehsal vasitələri istehsalı sferasında əmək məhsuldarlığı artsın, istehlak cisimlərinin istehsalı sahəsində isə dəyişilməz qalsın və ya azalsın. Ona görə də … səbəbi
- **страницы 92-93 отсутствуют**
-

qiymətlərin uzunmüddətli artırılması. Ona görə də inflyasiyanın monetar biramilli modelində (yalnız izafi pul kütləsinin uçotu) qeyri-istehsal məsrəflərinin inflyasiya təsiri, xammal və materialların bahalaşması və s. nəzərə alınmır. Ortodoksal monetaristlər hesab edirlər ki, bu təzahürlər yalnız qiymətin strukturunda dəyişikliyə səbəb olaraq onların səviyyəsini dəyişilməz saxlaya bilər. Deməli, yalnız pul kütləsinin izafi artımı şəraitində o inflyasiya təsiri göstərir.

M.Fridmen inflyasiyanı onunla izah edir ki, əhalidə olan pulun miqdarı istehsal olunan məhsulların və xidmətlərin məcmu həcmini üstələyir. Nəticədə həddən ziyadə tələbat yaranır ki, bu da inflyasiya ilə tarazlaşdırılır. O, hesab edir ki, inflyasiyaya səbəb emissiya və təsərrüfat dövranının tələbatından artıq pulun dövriyyəyə buraxılması ilə bağlı fövqəladə şəraitlərdir.

MUHASIBAT.AZ

Müasir monetaristlərin əksəriyyəti etiraf edir ki, qiymətlərin artımı ilə pul kütləsi arasında ortokosal pul kəmiyyəti nəzəriyyəsinin sərt «pul-qiymət» rabitəsindən (şək. 6.2) daha mürəkkəb asılılıq vardır. Müasir şərhdə təsərrüfat konyunkturasının mümkün dəyişikliklərinin qiymətləndirilməsi və proqnozlaşdırılmasına xüsusi rolu nəzərə çatdırılır. Müasir monetaristlərə görə qiymətlərin dəyişilməsi arasındakı rabitə nadir hallarda qısa müddət ərzində nəzərdəni keçirilə bilər (bu sayaq asılılıq yalnız uzunmüddətli planda mövcuddur).



Şək. 6.2. İnflyasiyanın monetarist modeli

Amma inflyasiya mexanizminin izahı təkcə pul dövriyyəsinin çatışmazlıqlarına əsaslanmalı deyil, həm də məcmu ictimai məhsulun istehsalına, natural-maddi və dəyər proporsiyalarının qanunauyğunluqları və spesifik xüsusiyyətlərinin uçotuna söykənməlidir. Ona görə də inflyasiya – milli iqtisadiyyat hadisəsidir, onun əsas səbəbini isə genişləndirilmiş təkrar istehsal prosesinin özündə axtarmaq lazımdır. Genişləndirilmiş təkrar istehsalın dinamikasında meydana çıxan dayanıqlı disbalans belə səbəb kimi çıxış edir. Bu disbalans istehsalat işinin yekunlarına görə, müxtəlif növ sosial fəaliyyətin ictimai faydalı fəaliyyətə görə əhaliyə ödənilmiş bütün pul gəlirlərinin ümumi məbləğinin artırılması üzündən yaranır. Belə artırılma az və ya çox ola bilər və buna görə də uyğun olaraq iqtisadiyyata dəyən inflyasiya təzyiqi böyük və ya kiçik ola bilər.

Öz növbəsində məcmu ictimai məhsulun təkrar istehsalının pozulmaları təsərrüfatçılıq üsullarından asılıdır. Əgər sonuncular obyektiv fəaliyyət göstərən iqtisadi qanunların volyuntaristcəsinə

MUHASIBAT.AZ

istifadə olunmasına əsaslanırsa, onda bu, son hesabda ictimai istehsalın natural-maddi və dəyər proporsiyaları arasındakı optimallığın pozulmasına səbəb olur. Ona görə də inflyasiyanı təkcə tədavüldə olan artıq (izafi) pullar doğurmur, həm də ilk növbədə hər növ resurslardan israfçılıqla istifadə edilən təsərrüfatçılıq üsulları doğurur. İndiki halda dövriyyədə artıq pulun mövcudluğu dövlətin, dövriyyədə artıq pulun meydana çıxmasını şərtləndirən və öz növbəsində əmtəə qıtlığını döğuran yanlış iqtisadi siyasətinin nəticəsidir.

Əmtəə qıtlığının iqtisadi əsaslandırılması təkcə pis istifadə olunan istehsalat gücü ilə əlaqələndirilməməlidir. Bu halda qıtlıq probleminin mahiyyəti ondan ibarətdir ki, həm istehsal vasitələrinə olan ödəməqabilli tələbat (ərzağa pul ilə ifadə olunan ictimai tələbat), həm də xalq istehlakı məhsullarına olan tələbat onların istehsal həcmini və buna uyğun olaraq həm də təklifin həcmini xeyli üstələyir. Bunun nəticəsi kimi maddi ödənişi və ya maddi ekvivalenti olmayan yüz milyardlarla pul nişanları mövcuddur.

İnflyasiya iqtisadiyyatın dövlət tərəfindən qeyri-düzgün tədbirlərlə tənzimlənməsi və pulların qiymətdən düşməsi və milli gəlirin ayrı-ayrı sahələr, sosial təbəqələr və ayrı-ayrı adamlar arasında düzgün bölünməməsi üzündən, eyni zamanda geniş zəhmətkeş kütlələrinin mənafeyi xilafına qiymət tənzimlənməsi siyasəti nəticəsində pul dövriyyəsi qanununun pozulması səbəbindən irəli gəlir. Eyni zamanda heç də, hətta uzun müddət fəaliyyət göstərən qiymət artırılması inflyasiya deyil. Qiymətlər əmtəənin xeyrinə olan amillərin təzyiqi ilə dayanıqlı arta bilər, məsələn, məhsulun istehsalı ilə bağlı təbii və coğrafi şəraitin dəyişdirilməsi, ayrı-ayrı mallara tələbatın artması nəticəsində arta bilər. Keçmişdə qiymətlər qiymətli metal yataqlarının aşkar edilməsi nəticəsində tez-tez qalxırdı, çünki bu, onların dəyərinin düşməsinə səbəb olurdu, yəni heç də hər cür qiymət artımı özlüyündə inflyasiya demək deyil, amma inflyasiya həmişə qiymət qaldıran

MUHASIBAT.AZ

amildir. Ona görə də inflyasiya mexanizmini yalnız təkrar istehsal prosesini analiz etmək əsasında, sonra isə həm pul-kredit, həm də müxtəlif qiymət yaradıcı amillərin funksional qarşılıqlı asılılığı əsasında başa düşmək olar.

MUHASIBAT.AZ

6.3. İNFLYASİYANIN TƏZAHÜR FORMALARI VƏ NÖVLƏRİNİN XARAKTERİSTİKASI

İnflyasiya kimi bir fenomen araşdırılarkən inflyasiyanın mahiyyəti və təzahür formalarını fərqləndirmək vacibdir. Ona görə də inflyasiyanın mahiyyəti tədavüldə pulların qiymətdən düşməsinə səbəb olan «izafi» pulların mövcudluğu, onun təzahür foması isə qiymətlərin artmasıdır. Qiymətlərin artması heç də həmişə birmənalı şəkildə inflyasiya proseslərinin zəhmətkeşlərin həyat səviyyəsinə, o cümlədən, əgər qiymətlərin artımı pul gəlirlərinin artımı ilə kompensasiya ilə müşayiət edilirsə, neqativ təsirinə dəlalət edə bilməz.

İnflyasiyanı bütün təsərrüfat mexanizminin xəstəli1yi kimi nəzərdən keçirmək lazımdır, çünki o bütün sosial və iqtisadi parametrlərdə özünü büruzə verir. O ilk növbədə qiymətlərin artımına təsir göstərir. Amma inflyasiya səbəbdir, qiymətlərin artımı isə – nəticə, hərçənd qiymətlərin inflyasion artımı pulların qiymətdən düşməsinin formaları ilə bağlıdır ki, bunları da aşkar və gizliyə bölmək olar.

İnflyasiyanın *aşkar* formasından o vaxt danışmaq olar ki, qiymət səviyyəsinin artım faktı statistika ilə müəyyənləşmiş olsun və məhsulun qiymətlərinin artımını buna aid edirlər. Lakin, qiymətlər dinamikası vasitəsilə aşkar inflyasiyanın tempi və miqyasını nisbətən asan və təxmini müəyyənləşdirmək olar. Xalq təsərrüfatının sahələri üzrə istehsal xərclərinin dinamikasının və rentabelliyinin böyük əhəmiyyəti vardır. Bu halda istehsal xərclərinin dinamikası pulların qiymətdən düşməsi miqyasını daha obyektiv xarakterizə edir.

İnflyasiyanın *gizli* forması pulların elə qiymətdən düşməsidir ki, bu zaman istehlakçı onların əvvəlki kəmiyyətinə (məbləğinə) daha az və pis keyfiyyətli məhsul alır. İnflyasiyanın gizli forması qiymətlərin üstüörtülü artımı ilə bağlıdır və yeni malların qiymətlərinin artımını da buna aid etmək olar (onların istehlak xüsusiyyətlərinin artımı eyni səviyyədə müşahidə olunmur), necə deyərlər, ucuz assortimentin

MUHASIBAT.AZ

«yuyulması»dır ki, bununla da məhsul məcburən (amma daha yüksək qiymətə) alınır (nəticədə orta pərakəndə qiymətləri artır, pulların alıcılıq qabiliyyəti azalır, bu da inflyasiyaya səbəb olur), müxtəlif mallara olan tələbatın daim mövcudluğu (onlar üçün izafi tələbat yaradır), bundan başqa, eyni keyfiyyətli məhsulların dövlət qiymətlərindən baha satılmasıdır.

Bundan əlavə, mütləq və nisbi inflyasiya da vardır. *Mütləq* inflyasiya qiymət səviyyəsinin artımını bildirir, *nisbi* inflyasiya zamanı isə qiymətlər artmır, amma buraxılan məhsulun maya dəyərinin azalması səviyyəsi ilə müqayisədə artırılmış olur. Bir sıra iqtisadçılar (ilk növbədə qərb iqtisadçıları) inflyasiyanın əmək məhsuldarlığının artımından asılılığını tədqiq edərkən mütləq və nisbi inflyasiya məfhumlarından istifadə edirlər. Əmək məhsuldarlığının artımı zamanı qiymətlər əvvəlki səviyyəsində qalırsa (bu halda digər bərabər səviyyəli şəraitdə qiymətlərin azalması baş verməli idi), onda nisbi inflyasiya mövcuddur. Əgər qiymətlər əmək məhsuldarlığının artımı ilə bərabər artırsa, onda belə inflyasiya mütləqdir.

Bunlardan əlavə *korrektəedici inflyasiya* da vardır və onun özünü büruzə verməsi qiymətlərin liberallaşdırılmasından sonra baş verir, onun miqyası və davamiyyəti isə qıtlıq dərəcəsindən (ödəməqabilli tələbat ilə təklif arasındakı fərqdən), valyutanın mübadilə kursunun həcmindən və daxili bazarın inhisarlaşdırılması səviyyəsindən, habelə xarici malların bu inhisarçılığı poza bilmə qabiliyyətindən asılıdır.

İnflyasiyanın mövcudluğu və ya olmamasının, habelə onun dərinliyinin əsas və ən çox əyani göstəricisi inflyasiya indeksidir (inflyasiya miqyasıdır). Əgər qiymətlər nisbətən ləng artırsa (təxminən ildə 3%-dən 10%-ə qədər), onda *sürünən* və ya *mötədil* (*mülayim*) inflyasiyadan danışılır. Qiymətlərin artımı tez və sıçrayışlı, ikiədədli rəqəmlərlə ölçülərək (ildə 10%-dən 200%-dək) baş verirsə, onda inflyasiyanı *çaparaq* (dördəmə) adlandırırlar. Pulların qiymətdən

MUHASIBAT.AZ

düşməsi özünüdəstəkləyə və nəzarətdən çıxmışsa, qiymətlərin və pul kütləsinin artım tempi son dərəcə yüksəkdirsə (ildə 200%-dən 1000%-dən artığa qədər), onda *hiperinflyasiya* başlayır. Bu, adətən müharibə, iqtisadi dağıntı, siyasi qeyri-sabitlik şəraitində baş verir. Hiperiflyasiyanın klassik nümunəsi kimi Birinci Dünya müharibəsindən sonra 1921-1923-cü illərdə Almaniyada, Vavətəndaş müharibəsi illərində isə Rusiyada baş vermiş inflyasiyanı göstərmək olar.

Çox hallarda inflyasiyanın xüsusiyyətləri iqtisadi sistemlərdəki müxtəlifliklərdən asılı olur. Bazar iqtisadiyyatı şəraitində – qiymətlərin və gəlirlərin əsasən tələb və təklifin təsiri ilə sərbəst formalaşdığı zaman pulların qiymətdən düşməsi açıq baş verir. Qiymətlərin və gəlirlərin mərkəzləşdirilmiş direktivlə müəyyənləşdirlidiyi zaman *gizli* (boğulmuş) inflyasiya mövcud olur. Onun əsas təzahürləri qiymətlərin yüksəlməsində deyil, malların və xidmətlərin xroniki qıtlığında, məcburi pul yığımlarının artımında, kölgə iqtisadiyyatın inkişavında və s. özünü büruzə verir. Başqa sözlə desək, bu halda pulların qiymətdən düşməsi örtülü şəkildə baş verir.

XX əsrdə *tələb inflyasiyası* konsepsiyası geniş yayılmışdı. Ona uyğun olaraq inflyasiya mexanizminin əsasında məcbu tələbin (dövlət və istehlak xərclərinin, özəl investisiyaların) son dərəcə artması durur ki, onun da istehsal həcminin artırılmasına gətirə biləcək imkanları yoxdur. Məsələn, dövlət büdcəsinin pul emissiyası yolu ilə, likvid materialların tələb və təklifinə təsir etməklə maliyyələşdirilməsi, faiz sstavkasının azaldılmasına səbəb olur ki, bu da investisiya üçün stimul yaradır və gəlirlərin və tələbin ardıcıl (multiplikasion) artmasına səbəb olur. Qiymət artımını labüd edən tələb və təklif arasında inflyasiya fərqi adlandırılan fərq yaranır.

İqtisadiyyatda yeni təzahürlərin izah edilməsinə olan tələbat XX yüzillikdə *xərclər inflyasiyası* konsepsiyasının yayılmasına səbəb oldu. İstehsal xərclərinin və qiymətlərin dəyişməsi arasında mövcud olan

MUHASIBAT.AZ

qarşılıqlı əlaqə problemi ön plana çıxdı. Belə konsepsiyalarda sonuncunun artması qiymətlərdəki xərclərin artımının əsasını qoya biləcək təkliflərin fəaliyyəti nəticəsi kimi dəyərləndirilir.xərclər inflyasiyasının dəstəklənməsi üçün əmək məhsuldarlığına nisbətdə əmək haqqının önləyici artmasının böyük əhəmiyyəti vardır (bununla bağlı olaraq «əmək haqqının inflyasion spiralından – qiymətlərdən» danışırlar). Adətən onun üçün məsuliyyət əmək haqlarının artırılması üçün iddialarını durdura bilməyən həmkarlar təşkilatlarının üzərinə düşür. Eyni effekt düşünülməmiş gəlir siyasəti yeridən dövlətin fəaliyyəti ilə də meydana çıxa bilər. Eyni zamanda nəzərə almaq lazımdır ki, işçilərin nominal əmək haqqının əmək məhsuldarlığının artımına nisbətdə önləyici iddiası o zaman əsaslandırılmış sayılır ki, qiymətlər əmək məhsuldarlığına nisbətən daha tez artır və real əmək haqqının azalması baş verir.

Son illərdə *inflyasiyanın monetarist nəzəriyyəsi* geniş yayılmışdır ki, buna görə də o təmiz pul fenomenidir və sabit, fasiləsiz artan qiymətdir. Bu konsepsiyanın tərəfdarları hesab edirlər ki, pul kütləsinin ölçülməsi qiymət dinamikasına təsir göstərən həlledici amil kimi məcmu tələbin və mədaxil səviyyəsinin həcminə bilavasitə təsir edir. Nəzəriyyədə *inflyasiya gözləmələrinə* əsas yer ayrılır. Bunlar özlüyündə elə psixoloji fenomen, təmayüllük, təfəkkür obrazıdır ki, təsərrüfat həyatının subyektlərini müəyyən edir. Əgər gözlənilən qiymət artımı kifayət qədər güclüdürsə, istehsalçılar ona uyğun olaraq əmtəə ehtiyatları və investisiyalara dair strategiyanı müəyyənləşdirirlər, fəhlələr əmək haqqının artırılması uğrunda mübarizələrini şiddətləndirirlər, istehlakçılar istehlak miqaysına və strukturuna (qiymətlərinin daha çox artması ehtimal olunan malların alınmasının artırılması) düzəlişlər edirlər, bunun da nəticəsində gəlirin yığılan, istehlak olunan və investisiya edilən hissəsinin nisbəti dəyişir. Nəticədə gözləmə inflyasiyası inflyasiyanın stimullaşdırılması yönümündən

MUHASIBAT.AZ

iqtisadi proseslərə təsir edən mühüm müstəqil amilə çevrilir. Monetaristlər və «rasional gözləmə» tərəfdarları inflyasiyanı antisipirləşən və antisipirləşməyənə, yəni irəlicədən duyulana və qəfilə, proqnozlaşdırılmayana bölürlər.

İnflyasiyanın miqyasları inflyasiyanın indekslərinin və ya istehlak mallarının qiymətlərinin inflyasion artımı indekslərinin köməkliyi ilə müəyyənləşdirilir. Qiymət indekslərinin hesablanılmasının Lapeyres düsturu ilə aparılmasının daha yaxşı olduğu qəbul edilmişdir:

$$İ_{qiymətlər} = \frac{\sum p_1 \cdot q_1}{\sum p_2 \cdot q_2}, \qquad (6,2)$$

burada $İ_{qiymətlər}$ – istehlak mallarının qiymət artımının inflyasion indeksidir; p_1, p_2 – müvafiq olaraq cari və baza dövrləridir; q_1, q_2 - cari və baza dövrlərinə uyğun olaraq əmtəələrin kəmiyyətidir (satışın ümumi həcmindəki payıdır).

İnflyasiyanın miqyasının hesablanması zamanı qarşıya qoyulan əsas vəzifə – əmtəə istehsalçılarının daxili bazarda öz məhsullarını onun əsasında satdıqları fəaliyyətdə olan (faktiki) qiymətlərin dəyişilməsini göstərməkdir. Amma inflyasiya prosesinin rəsmiyyətçiliyə salınması hələ onun sosial-iqtisadi nəticələri haqqında heç nə demək deyil. İnflyasiyanın əsas dağıdıcı yekunu qiymətlərin artımının özündə deyil, bu artımların qeyri-bərabərliyindədir. Qiymətlərin artımı məhsulların növləri üzrə, istehsal və tədavül mərhələləri, təsərrüfat subyektləri üzrə baş verir, o mallara, xidmətlərə və istehsal amillərinə şamil olunur, zamanına görə fərqlənir və regional aspektdə fəaliyyət göstərir. Belə qeyri-bərabərlik obyektivdir, lakin inflyasiya başlandıqda qiymətlərin artımının qeyri-bərabərliyi güclü sabitsizləşdirmə amilinə çevrilir. Müxtəlif növ qiymətlərin fərqli dəyişiklikləri iqtisadi münasibətlərin müəyyən subyektləri üçün real itkiləri bildirir. Bu zaman əsasən xırda və orta istehsalçılar var-yoxdan çıxırlar, qiymətlərlə sərbəst

MUHASIBAT.AZ

manipulyasiya edən iri inhisarçılar isə udurlar, iqtisadiyyatda rəqabət azalır, inflyasiya isə özünü təkrar istehsal prosesinə çevrilir.

İnflyasiyanın nəticələrindən biri təsərrüfatda axınla ehtiyat arasındakı dəyərin fərqidir. Qiymətlərin artımı ilk növbədə özünü axında göstərir, onların dəyər həcmi artır, ehtiyatlar isə bir müddət əvvəlki qiymətlərində qalır və son hesabda qiymətdən düşür. Bununla da pul emissiyası problemi kəskin şəkildə kəskinləşir və bu zərurətə çevrilir, onun formaları isə (büdcə, kredit) inflyasiyaya çox böyük təsir göstərir. Emissiya mədaxili siyasi və iqtisadi mübarizə obyektinə çevrilir.

İnflyasiya normal təsərrüfat fəaliyyəti üçün zəruri olan ən mühüm iqtisadi göstəriciləri təhrif edir. Söhbət bank faizindən və istehsalın mədaxilliliyindən gedir. Cəmiyyətin normal durumu zamanı müəyyən sərbəst rol oynayan faiz istehsalın rentabelliyinin ümumi dinamikası ilə müəyyən edilir. İnflyasiya zamanı faiz dinamikası real sektorun mədaxil norması dinamikasından ayrılır. Qiymətlərin inflyasion artımı hətta özünün başlanğıc mərhələsində (ildə 5-10%) faizin nominal və real stavkası arasında uyğunsuzluğə səbəb olur. İqtisadiyyatda süni, lakin tam real pul qıtlığı yaranır. İnflyasiyanın tempi nə qədər artıq olarsa, qiymətlərin ayrı-ayrı növlərindəki artım fərqi də o qədər çox olacaqdır. Eyni zamanda faiz stavkası da artır, amma o müxtəlif şəraitlərə uyğun olaraq differentiv olur və bu zaman stavka və qiymətlərin müxtəlif uzlaşmaları baş verir. Müəssisə kredit götürə bilmir, götürsə də, onu qaytara bilmir. Ona görə də faizin real stavkasının xeyli artırıldığı zaman təkcə investisiyaların kreditləşdirilməsi deyil, bir istehsal tsikli hesabilə cari istehsal da kəskin şəkildə azalır, yəni inflyasiya zamanı müəssisələrin maliyyə durumu kəskin şəkildə artıb-azalacaq. Bu artıb-azalma tempinin yüksək olduğu məqamda ziddiyyətli hadisə baş verir – real faiz vahiddən aşağı səviyyəyə düşür ki, bu zaman da kreditor öz kapitalını geriyə ala bilmir. Ona görə də mənfi faiz banklara sərfəli

MUHASIBAT.AZ

deyil. Bu zaman kreditləşdirmə müddəti həlledici əhəmiyyət kəsb edir, yəni bir-iki aylıq müdətədək ixtisar edilir və müəssisənin vəsait dövriyyəsinin texnoloji müddətinə daxil edilmir. İnflyasiya şəraitində pulun cari ehtiyatı qiymətdən düşür, elə bu səbəbdən də kreditə olan tələbat artır.

Yüksək inflyasiya zamanı bank sistemi öz iş qabiliyyətini saxlayır, belə ki, vasitəçi kimi işləyir və aktiv və passiv əməliyyatlar üzrə faiz stavkalarının fərqi hesabına xeyir götürməkdə davam edir. Bank sisteminin dayanıqlığının digər səbəbi iqtisadiyyatın maliyyə sektorundakı fəaliyyətindən ibarətdir. Maliyyə spekulyasiyası normal şəraitdə istehsalata, onun mənfəətliliyinə yön alır. İnflyasiya zamanı isə qiymətlərin artımı istehsalın həcminin və səmərəliliyinin xarici effektlə dəyişməsi ilə əvəzlənir. İqtisadi göstəricilərdəki xəyali yerdəyişmə mənfəətdə, gəlirin artımında özünü büruzə verir. Sərbəst pul kapitalı azad dövriyyə sferasında cəmləşərək istehsalatın özülünü, onun artımını və səmərəliliyini daha da pozur, dağıdır, pul buraxılışı isə onların artan məbləğinin alınmasını bildirir. Ona görə də qiymətlərin artması istehsalın artmasını təqlid edir, onu əvəz edir və bununla da maliyyə-vasitəçilik fəaliyyətinin real istehsalatdan ayrılmasına yardım edir.

Faiz stavkalarının artımı və mənfəət normasının artıb-azalması istehsalatı pozğunlaşdırır, inflyasiya cəmiyyətin iqtisadi əsaslarını pozur. Sabit qiymətlər zamanı təşəkkül tapan «təbii» mənfəət norması istehsalatda tətbiq edilən elmi-texniki yeniliklərə, məhsulun yaradılması və realizasiyasının aprobasiya olunmuş sxemlərinə söykənir. İnflyasiya təşəkkül tapmış asılılıqları qırır. Mənfəətlilik sahibkarın səylərindən deyil, istehsalatda elmi-texniki kəşflərin istifadə olunmasından deyil, qiymətlərin oynamasından və onunla bağlı olan faiz dinamikasından asılı olmağa başlayır. Yüksək inflyasiya müəssisəni maliyyə sabitsizliyinə, mənfəət normasının ümumi azalmasına, təsərrüfat

MUHASIBAT.AZ

əlaqələrinin pozulmasına aparır. Uzunmüddətli istehsal tsiklli müəssisələr daha çox zərər çəkirlər. Mənfəətin ümumi norması həm də ona görə azalır ki, mənfəətin payı sahələrin əksəriyyətinin qiymətində çox azdır, istehsalçının heç də hamısı qiymətin artımını istehlakçının üzərinə ata bilmir.

İqtisadi analiz zamanı inflyasiya hamı üçün eynisəviyyəli bəla kimi görünə bilər, amma sosial analiz zamanı başqa nəticələr əldə etmək olar. Qiymətlərin artımı əhalinin müxtəlif qrupları və təbəqələrinin real gəlirlərində müxtəlif şəkildə özünü büruzə verir: bəziləri itirir, bəziləri qazanır, uduzanların payı nə qədər çox olsa, udanların qazancı o qədər sabit olur. Əksər hallarda inflyasiyadan əmək haqları təsbit olunmuş (qəti müəyyən olunmuş – tərcüməçi) vətəndaşlar, əmanətçilər,kreditorlar və sahibkarlar əziyyət çəkirlər.

İnflyasiya zamanı yaşayış səviyyəsi bahalaşır. Ona görə də əvvəlki yaşayış səviyyəsini saxlamaq üçün daha çox qazanmaq lazım gəlir. Gəliri ən azı inflyasiyanın həcmi səviyyəsində artırmaq lazımdır. İnsanların bəzi qruplarının, məsələn, pensiyaçıların inflyasiyaya davam gətirmək üçün öz gəlirlərini artırmaq imkanları yoxdur. Nəticədə əhalinin bu kateqoriyadan olan üzvlərinin həyat səviyyəsi pisləşir. Əhalinin bu hissəsinin müdafiəsi üçün sosial sığorta üzrə ödəmələr inflyasiyaya uyğun olaraq korrektə edilir.

Bəzi vətəndaşlar öz pullarını müddətli hesablarda və ya qiymətli kağızlarda yerləşdirirlər ki, bu da onlardan təsbit olunmuş gəlir səviyyəsinə zəmanət verir. Nə qədər ki, gəlir səviyyəsi inflyasiya səviyyəsindən azdır, qoyulmuş pulun alıcılıq qabiliyyəti azalacaq, əmanətçilər isə bundan zərərə düşəcəklər. Əgər bu dövrdə pullar həmin müddət üçün kreditə verilmişsə, inflyasiya səviyyəsi artırsa, onda borc üzrə qaytarılmış pullar dəyərinə görə əvvəl qoyulmuş pullardan ucuz olacaq. Bu, yalnız o zaman baş verəcək ki, kredit üzrə faizlər mövcud inflyasiya səviyyəsindən artıq olmasın.

MUHASIBAT.AZ

İnflyasiyadan yalnız gəlirlərini artıra bilənlər, kredit götürənlər, habelə hökumət qazanır. Ayrı-ayrı peşə nümayəndələri, bəzi sənaye və əmək birlikləri inflyasiya dövründə qiymətləri və əmək haqlarını başqa dövrlərdəkinə nisbətən daha çox artırmağa üstünlük verirlər. Əgər məhsulun artımı inflyasiya səviyyəsindən çox olarsa, onda bu insanlar özlərini qiymətlərin artmasınadək olduğundan daha yaxşı hiss edəcəklər. Qiymətli əşyalarla ticarət buna misal ola bilər. İnflyasiya zamanı qiymətli əşyaların dəyəri ümumi kütlədə həyat səviyyəsindən daha çox artır. Bu dövrdə qiymətli əşyaların satışından əldə olunan daha yüksək mənfəət bunun nəticəsidir. Borc götürənlər də inflyasiya dövründə kreditə görə faiz ilə inflyasiya arasındakı fərqə görə qazanc əldə edirlər. Mənfəətdən proqressiv stavkaya görə vergi yığan hökumət də qazanc əldə edir. vergiyə cəlb olunan mənfəət artdıqca vergi stavkası da artır. İnflyasiya dövründə insanlar çalışırlar ki, dövlətə daha çox verməklə daha çox qazansınlar. Bundan əlavə, hökumət büdcə kəsirini ödəmək məqsədi ilə tez-tez pul vəsaitlərinin borc götürücüsü kimi çıxış edir.

Beləliklə, *inflyasiya* tam *müəyyən sosial funksiyanı* – cəmiyyətin məcmu gəlirini və məcmu varidatını *yerinə yetirir*. Qiymətlərin artımı şəraitində gəlirlər və itkilər əsasən əmək səylərindən, elmi-texniki amillərdən, hətta ümumiyyətlə, real əmtəə və istehsalatın mövcudluğundan asılı olmadan təşəkkül tapır. Son hesabda maddi nemətlərin istehsalçıları deyil, hansısa resursların (pul, xammal, yanacaq) sahibləri, möhtəkir-mafioz qruplaşmalar, korrupsiyaya uğramış məmurlar udurlar. İnkişaf etmiş bazar iqtisadiyyatı olan ölkələrdə inflyasiyanın kortəbii tənzimləyici rolunda çıxış etməsi başqa məsələdir. Sahibkarların əvəzlənməsi burada varlıların cüzi qisminə toxunur və tərpənməz əmlakın adi alqı-satqısı kimi baş verir ki, onun da məqsədi əlavə kapitalın cəlb olunması vasitəsilə inflyasiya stehsalın

MUHASIBAT.AZ

səmərələliyinin artırılması və operativ rəhbərliyin yaxşılaşdırılmasından ibarətdir. İnflyasion bölüşdürmənin iri sosial nəticələri olmur.

İnflyasiya mexanizminin məqsədyönlü və düşünülmüş şəkildə sahibkarlıq münasibətləri və sosial strukturların sındırılması üçün istifadə olunması isə tamamilə başqa bir məsələdir. Belə situasiya ictimai quruluşun dəyişdirilməsini həyata keçirən cəmiyyətlərdə meydana çıxır. Sürəkli və daim dəstəklənən inflyasiya əsl sosial bölüşdürməyə – ictimai mülkiyyət gəlirlərin və əmlakın bölüşdürülməsi vasitəsilə ləğv edilir və bazar münasibətlərini təmsil edən sosial qüvvələrin təşəkkül tapmasına gətirib çıxarır. Eyni zamanda əhalinin sosial təbəqələşməsi də baş verir. Bu təbəqələşmə erkən mərhələdə qütblü xarakterdə olur və bu, cəmiyyətin əksəriyyət təşkil edən yoxsullara və azlıq təşkil edən varlılara və zənginlərə bölünməsində təzahür edir. Praktiki olaraq orta sinif olmur, yaxud da çox cüzi olur. Onun formalaşması və inkişafı bazar münasibətlərinin möhkəmlənməsi ilə, o cümlədən fəaliyyəti sahibkarlığın çoxnövlü formasına əsaslanan xırda və orta biznesin meydana çıxması ilə sıx bağlıdır.

MUHASIBAT.AZ

6.4. ANTİİNFLYASİYA SİYASƏTİNİN ƏSAS METODLARI VƏ PUL İSLAHATI

Pul tədavülünün sabitləşdirilməsinin əsas metodları antiinflyasiya siyasəti və pul islahatıdır. *Antiinflyasiya siyasəti* inflyasiyanın məhdudlaşdırılmasına yönəldilmiş iqtisadiyyatın dövlət tərəfindən tənzimlənilməsi üzrə kompleks tədbirdən ibarətdir. Bu tədbirləri uzunmüddətli xarakterdə məqsəd və metodlardan ibarət olan strateji və qısamüddətli nəticələrin alınmasına istiqamətləndirilmiş taktiki bölümlərə ayırmaq olar.

Antiinflyasiya strategiyasına bazar mexanizmlərinin möhkəmləndirilməsi yolu ilə (konstitusional dəyişikliklər kompleksi) inflyasion gözləmələrin azaldılması və idarəetmə orqanlarının səlahiyyətinin artırılması hesabına idarəolunmaz inflyasiyanın kökünün kəsilməsi, pul kütləsinin illik artımına sərt limitlər tətbiq edilməsi yolu ilə pula olan tələbatın tənzimlənilməsini nəzərdə tutan uzunmüddətli monetar siyasəti (pul kütləsinin artımının tənzimlənilməsi), büdcə kəsirinin azaldılmasına yönəldilmiş büdcə siyasəti, saldo tədiyə balansı və valyuta kursunun tənzimlənilməsinin daxil olduğu milli iqtisadiyyatın xarici inflyasiya təsirlərindən qorunması (inflyasiya idxalının məhdudlaşdırılması siyasəti) daxildir.

Antiinflyasiya taktikası heç də təkcə inflyasiya səbəblərinin aradan qaldırılmasına deyil, həm də daha çox cari inflyasiya təzyiqinə və uzunmüddətli strateji tədbirlərin tətbiq olunması üçün zəmin hazırlayan qısamüddətli, amma güclü təsir tədbirlərinin istifadə olunmasına istiqamətləndirilmişdir. Antiinflyasiya taktikası metodları tələbin müvafiq artımı olmadan təklifi kəskin şəkildə artırmağa imkan verir və ya təklifin müvafiq azalması olmadan cari tələbin kəskin azaldılmasına yardım edir (əmanətlərin normalarının artırılması və onların likvidliyinin azaldılması və s. yolu ilə pul kütləsinə dolayısı təsir).

MUHASIBAT.AZ

Antiinflyasiya tədbirinin əsası bütün bazarlarda nisbi uzunmüddətli müvazinətin əldə olunmasından ibarətdir. Antiinflyasiya təsiri metodlarına dövlətin elə fəaliyyəti aid edilir ki, bu, inflyasiyanın səbəbinin aradan qaldırılmasına (makroiqtisadi sahədə – tələb və təklif üzrə bazarların müvazinətsizliyinin aradan qaldırılmasına) və onun realizasiyası mexanizminin dağıdılmasına yönəldilmiş olsun. Əgər açıq formalarda olarsa, onda inflyasiya ilə mübarizə nisbətən daha səmərəlidir. Eyni zamanda antiinflyasiya tədbirlərinin özünü inflyasiyanın nəticələrinin yumşaldılması üzrə tədbirlərdən (əhalinin sosial müdafiəsini, kompensasiya, gəlirlərin indeksasiyası və s.) və yalançı antiinflyasiya tədbirlərindən (dövlət təsiri tədbirləri – qiymətlər üzərində total dövlət nəzarəti, tələb və təklifin birbaşa inzibati tənzimlənilməsi və s.) fərqləndirmək lazımdır, çünki onlar inflyasiyanın səbəblərini aradan qaldırmırlar, yalnız onları açıq formadan gizli formaya keçirirlər.

Dünya praktikası *antiinflyasiya siyasətinin forma və metodlarının* zəngin təcrübəsini toplamışdır. Buraya geniş pul-kredit, büdcə, vergi tədbirləri, gəlirlər siyasəti və radikal pul islahatları aparılmasınadək tənzimləmə proqramı daxildir. Kredit siyasətinin ən geniş yayılmış instrumentlərindən biri fizin uçotu stavkasıdır. Onun artırılması mərkəzi bankdan kredit alınmasını çətinləşdirir və uyğun olaraq digər bankların resurslarını ixtisar edir, onların əməliyyatlarını məhdudlaşdırır. Pul-kredit sahəsində əməli tənzimləmə forması kimi məcburi ehtiyatlar normalarının, yəni ehtiyatların (rezervlərin) dəyişilməsidir ki, bunları da kredit institutları mərkəzi bankda saxlamalıdırlar.

İnflyasiya ilə mübarizə iqtisadi inkişafa neqativ təsir göstərən və istehsalın azalması və işsizliyin artması imkanlarına malik tədbirlərin köməkliyi ilə həyata keçirilir. Eyni zamanda istehsalın inkişafının stimullaşdırılması cəhdləri inflyasiyanın artmasına gətirib çıxarır. Özü

MUHASIBAT.AZ

özlüyündə həm birinci, həm də ikinci halda tənzimləmə üsulları eynidir, amma əks istiqamətlərdə fəaliyyət göstərməlidirlər. İnhisarçılıqla mübarizə də antiinflyasiya siyasətinin mühüm istiqamətlərindən biri kimi nəzərdən keçirilməlidir.

Pul tədavülününsabitləşdirilməsi işində əsas moment kimi mərkəzi bank tərəfindən *pul kütləsinin dəyişilməsi üzərində nəzarətin qoyulması* çıxış edir. Pul kütləsinə (bazaya) təsir göstərən mərkəzi bankın onun ölçüsünə təsir göstərmək imkanı vardır. Mərkəzi bankın bilavasitə nəzarəti yalnız banknot emissiyasına mümkündür, belə ki, o dövlət qiymətli kağızları kimi həyata keçirilir. Eyni zamanda onların özəl, kommersiya vekselləri, xarici valyuta, habelə kommersiya banklarının depozit-çek emissiyası kimi buraxılışı yalnız dolayısı təsirdə qala bilər.

Pul tədavülünün pozulması, inflyasiya prosesləri iqtisadiyyat üçün çox ciddi nəticələrə gitirb çıxara bilər və praktiki olaraq elə bir dövlət yoxdur ki, öz tarixinin bu və ya digər dövründə bu və ya digər dərəcədə bu problemlərlə qarşılaşmamış olsun. Bununla belə, inflyasiyanın səviyyəsi, onun nəzartqabilliyi müxtəlif ölkələrdə fərqlənir. Bir qayda olaraq, onun zəif tempi – tarazlaşdırılmış və sabit iqtisadi artımın səmərəli dəstəklənməsidir və eyni zamanda pul dövriyyəsinin tənzimlənilməsində dövlətin uğurudur. Ona görə də pul dövriyyəsinin sabitləhdirilməsi faktiki olaraq iqtisadiyyatın sabit inkişafını bildirir. Bunu müxtəlif elmi məktəblərin və cərəyanların nümayəndələri etiraf edirlər. Belə ki, pul-kredit tədbirlərinin neoklassik və neokeynsian nəzəriyyələrində istifadə olunması müxtəlif metodların tətbiq olunması yolu ilə iqtisadiyyatın sabitləşdirilməsinə yönəldilmişdir.

Keynsiançılar sabit iqtisadi artımın təmin olunmasını mötədil inflyasiyada görürlər. Onların nöqteyi-nəzərincə inflyasiya hökumət üçün sərfəlidir, belə ki, təsərrüfat agentinin nominal gəlirinin artması vergilərin həcminin artırılmasına və vergi daxilolmalarının çoxaldılmasına imkan verir. Hökumət həm də alış qiymətinin azalması

MUHASIBAT.AZ

hesabına istiqraz vərəqələrinin satışından da qazanır. Keynsiançılar hesab edirlər ki, iqtisadiyyatın həddən ziyadə «qızışması» zamanı pul-kredit məhdudiyyətləri tətbiq olunmalıdır ki, çaparaq inflyasiyaya yol verilməsin.

Kensian sxeminin əksi olaraq *monetarist nəzəriyyə tərəfdarları* çalışırlar ki, pul-kredit tənzimlənməsinin köməkliyi ilə, o cümlədən inflyasiyaya qarşı mübarizə yolu ilə iqtisadiyyatda sabitliyə nail olsunlar. Onlar dövlət orqanlarının mütəmadi olaraq iqtisadiyyata müdaxiləsini rədd edirlər, pula olan tələbə uyğun olaraq təklif olunan pulun sabit artımının dəstəklənilməsi siyasətini təbliğ edirlər. Monetaristlər inflyasiyanı uzunmüddətli pul fenomeni hesab edirlər və düşünürlər ki, inflyasiyaya qarşı mübarizə istehsalın müvəqqəti tənəzzülü hesabına mümkündür. Staqflyasiya gözlənilən inflyasiyanın təsiri ilə izah olunur, çünki məhdudlaşdırıcı tədbirlər sayəsində yaranan tənəzzül zamanı qiymətlər bir müddət arta bilər, o səbəbdən ki, mal istehsalçıları onları keçmiş inflyasiya tendensiyasının uçotu ilə dəyərləndirirlər.

Qərb ölkələrinin XX əsrin 60-cı illərinin təcrübəsi göstərir ki, pul dövriyyəsinin sabitləşməsi üzrə dağınıq tədbirlər görülməsindənsə, daha yaxşı olar ki, iqtisadiyyat və pul tədavülünün tənzimlənilməsi üçün başlıca metodların əlaqələndirilməsinə əsaslanan sabitləşdirici planların qəbul edilməsi, o cümlədən hər bir dövlətin spesifikası nəzərə alınmaqla, tətbiq edilməsi daha yaxşıdır. Məsələn, MDB ölkələrində inflyasiya keçid dövründə – sivil bazar iqtisadiyyatı mexanizmlərinin hələ işləmədiyi dövrdə mövcuddur. Bu zaman istehsalın tənəzzülü, siyasi qeyri-sabitlik, real dövlət və iqtisadi sərhədlərin olmaması inflyasiya proseslərini təhdid edir.

Antiinflyasiya siyasətinin işlənilib hazırlanması üçün çıxış nöqtəsi çoxamilli sosial-iqtisadi proses kimi inflyasiya nəzəriyyəsinin təkmilləşdirilməsidir. Bu o deməkdir ki, uzunmüddətli antiinflyasion

MUHASIBAT.AZ

strategiya işlənilib hazırlanmalı və *inflyasiya amilini dayandıran tədbirlər* müəyyənləşdirilməlidir. Bu, ən ümumi tədbirlərə aşağıdakıları aid etmək olar:

- iqtisadiyyatın sağlamlaşdırılması (struktur əyrilərin aradan qaldırılması, «A» qrupu sahələrinin və hərbi-sənaye kompleksinin hipertrofiyası, müəssisələrin zərərlə işləməsinin ləğv edilməsi);
- kapital qoyuluşunda (investisiyalarda), o cümlədən dünya layihə maliyyələşdirilməsi təcrübəsindən istifadə olunması ilə (büdcə vəsaitlərindən minimal istifadə olunmasına və qeyri-dövlət sektorunun maksimal payına əsaslanan) nizam-intizamın yaradılması;
- ticarətin normallaşdırılması, belə ki, rəqabətin olmadığı məqamda qiymətlərin özbaşına müəyyənləşdirilməsi, malların möhtəkir qiyməti ilə satılması, digər sui-istifadələr pul kütləsi ilə əmtəə kütləsi arasındakı disbalansı daha da dərinləşdirir;
- qeyri-ənənəvi malların (mənzillərin, qiymətli kağızların və s.) bazar dövriyyəsinə fəal cəlb edilməsi, своп (??) sövdələri üçün qızıldan istifadə olunması və ya qızıl girovu ilə kreditlər alınması üçün, valyuta müdaxiləsi üçün və ya sonradan respublikada yüksək qiymətə satılması məqsədilə xarici malların alınması;
- hərbi istehsalın konversiyası;
- bazar xidmətlərinin inkişaf etdirilməsi, belə ki, təkcə mallarla şişmiş pul kütləsini təmin etmək mümkün deyil.

Uzunmüddətli ümumiqtisadi strategiya ilə yanaşı inflyasiyanın məzmunu və onun tənzimlənilən inflyasiyaya çevrilməsi üzrə təxirəsalınmaz tədbirlərin görülməsi labüddür, çünki inflyasiyanı həmin andaca dəf etmək qeyri-mümkündür, bunun üçün illər tələb olunur. Bununla əlaqədar olaraq müasir təcrübə iqtisadiyyatın durumundan asılı olaraq *inflyasiyanın tənzimlənilməsinin iki variantını* nəzərə çatdırır:

MUHASIBAT.AZ

- pul kütləsinin, kreditlərin, əmək haqlarının artımının məhdudlaşdırılması ilə və son hesabda ödəməqabilli tələblə bağlı olan *deflasion siyasət*. Lakin, deflasion siyasət iqtisadi inkişaf şəraitində iqtisadiyyatın «hədsiz qızışması»nın qarşısını almaq məqsədilə tətbiq edilə bildiyindən həmişə mümkün olmur. Bunun da nəticəsində deflasion tədbirlər zəhmətkeşlər, bankirlər, sahibkarlar tərəfindən haqlı etrazlarla qarşılanır;
- staqflyasiya (inflyasiyanın istehsalın tənəzzülü ilə çulğaşması) zamanı dövlətin nəzarəti və vasitəçiliyi ilə tətbiq edilən və əmək haqlarının və qiymətlərin razılaşdırılmasından və uzlaşdırılmasından ibarət olan *gəlirlər siyasəti.* Lakin, bunu «tənzimlənilməyən bazar»ın tərəfdarları olan və bazar iqtisadiyyatında iki tənzimləyicinin – bazar və dövlətin olduğunu başa düşməyən «bazarçılar» qəbul etmirlər. Bununla belə, ikinci variant inflyasiyadan və iqtisadi tənəzzüldən tədricən çıxmaq üçün daha məqbul və etibarlı yoldur.

Pul dövriyyəsinin sabitləşməsi və inflyasiyanın durdurulmasına yönəldilmiş *birinci növbəli tədbirlərdən* aşağıdakıları göstərmək olar:

- dövlət tərəfindən (həmkarlar ittifaqlarının iştirakı ilə sahibkarlarla zəhmətkeşlər arasında bağlanmış kollektiv müqavilələr əsasında) nominal əmək haqqının yuxarı artımının və qiymətlərin hər il təyin olunan limitinin istehsalın eyni zamanda iqtisadi stimullardann (kreditlər, vergilər, valyuta) istifadə olunması vasitəsilə stimullaşdırılması faktiki olaraq çevik differensial siyasətin həyata keçirilməsini bildirir. Bu zaman gəlirlər siyasəti təkcə əmək haqqını deyil, həm də qiymətlərin artmasından zəhmətkeşlərə dəyən zərərin əvəzlənməsi məqsədilə müəssisələrin mənfəətlərinə da aid olmalıdır, belə ki, dünya təcrübəsi göstərir ki, sabitləşdirmə proqramları həmişə zəhmətkeşlərin hesabına həyata keçirilir;

MUHASIBAT.AZ

- dövlət qiymətli kağızlarının (ilk növbədə sərfəli və etibarlı) əsas etibarilə institusion investorlar – banklar, sığorta şirkətləri, maliyyə şirkətləri və s. arasında yerləşdirməklə maliyyə sisteminin sağlamlaşdırılması, dövlət büdcəsi kəsirinin ləğv edilməsi. Xarakterikdir ki, İkinci Dünya müharibəsindən sonra Fransada özəl banklar arasında dövlət qiymətli kağızlarının məcburi alınması limiti müəyyənləşdirilmişdi. Maliyyə sağlamlaşdırılmasının mühüm istiqamətlərindən vergilərin ikili təyinatının nəzərə alınması ilə vergi sisteminin təkmilləşdirilməsi ola bilər: təkcə fiskal deyil, həm də, məsələn, önəmli sahələrin inkişafı ilə bağlı stimullaşdırıcı;
- bankların sahibkarlıq imkanlarını məhdudlaşdırmadan fəaliyyətlərinin çevik tənzimlənilməsi, eyni zamanda onların inflyasiya fəaliyyətlərinin durdurulması. Bunun üçün hökumətlə banklar arasında, mərkəzi bankla kommersiya bankları arasında normal, qarşılıqlı faydalı razılaşdırılmış siyasətin yürüdülməsi labüddür. Məsələn, İsveçrənin təcrübəsi göstərir ki, centlmensayağı razılaşma qanunvericilik aktlarından daha güclü ola bilər, bunun üçün isə partnyorların normal münasibətləri lazımdır. İnflyasiya şəraitində bankların fəaliyyəti onunla bağlı olmalıdır ki, staqflyasiya zamanı müəssisələrin qarşılıqlı ödəmələrinin qarşısı alınsın, çünki bu əlavə emissiyaya və pul sistemi üzərində nəzarətin itirilməsinə səbəb olur.
- dünya təcrübəsinə əsasən monetarizmin təmiz şəkildə fiaskoya uğramasının və keynsiançılıqla bu mübahisələrin bazar və dövlət tənzimləmələri ilə yekunlaşmasının nəzərə alınması ilə pul dövriyyəsinin təkmilləşdirilməsi. Bu halda pul kütləsi strukturunun təkmilləşdirilməsinin, çek və kredit kartlarından istifadə olunması ilə pərakəndə ticarətə nəqdsiz hesablaşmaların tətbiq edilməsinin, əlavə pul gəlirlərinin (məsələn, xarici bank və

MUHASIBAT.AZ

firmaların iştirakı ilə qarışıq istiqrazların buraxılması) əlaqələndirilməsinin qeyri-ənənəvi metodlarından istifadə olunmasının böyük əhəmiyyəti vardır;

- milli pul vahidinin sabitləşdirilməsinin, o cümlədən ticarət və tədiyə balansının sabitləşdirilməsinin xarici amilləri müəyyən çərçivə daxilində xarici kapitalın cəlb edilməsi, valyuta ehtiyatlarının yığılmasıdır. O ki qaldı milli pul vahidinin təsbit olunmuş kursuna keçilməsinə, qeyd etmək lazımdır ki, dünya təcrübəsində təsbit olunmuş valyuta kursu yerini daha çevik, tənzimlənən sürüşkən kursa vermişdir. Ona görə də Avropa valyuta sisteminin təcrübəsinə əsaslanaraq məqsədəuyğun sayılır ki, çoxsaylı kurs nisbətlərinə və arzuolunmaz nəticələrə səbəb ola biləcək təsbit olunmuş valyuta kursuna keçilməkdənsə, kursun enib-qalxmasının yol verilə biləcək real həddi tətbiq edilsin;
- səlahiyyətli orqanların korrupsiya, kölgə iqtisadiyyatı və mafiya ilə mübarizəsidir ki, bu da öz növbəsində qanunvericiliyin pozulmasının araşdırılması üçün səmərəli metodikanın işlənilib hazırlanmasını nəzərdə tutur.

Ona görə də antiinflyasiya proqramının işlənilib hazırlanması üçün ilkin baza pul dövriyyəsinin sağlamlaşdırılmasından ibarət olan iki tənzimləyicinin – bazar və dövlət tənzimləyicisinin istifadə olunmasıdır. Daha mötəbər iqtisadçılar deyirlər ki, sivil azad bazarın qanunvericiliklə müəyyən edilən sərhədləri vardır.

Eyni zamanda iqtisadiyyatın sabitləşdirilməsi ilə bağlı elmi məktəblər arasında fərq qalmaqdadır. Məsələn, monetaristlər iqtisadiyyatın sabitləşdirilməsinin əsas instrumenti kimi pul emissiyasının məhdudlaşdırılmasını, balanslaşdırılmış büdcənin tətbiq olunmasını, milli bazarın xarici rəqabətdən minimal müdafiəsi siyasəti aparmaqda görürlər.

MUHASIBAT.AZ

Keynsiançılar iqtisadi siyasətin əsas instrumentləri kimi pulla yanaşı sənaye siyasətini (vergilər, maddi yardımlar), ticarət siyasətini (gömrük rüsumları, kvotalar, lisenziyalar), daha yüksək sosial xərclərin tətbiq edilməsində görürlər. Bu zaman ortodoksal keynsiançılar hesab edirlər ki, inflyasiyanın ixtisar olunması pula olan tələb və əmək haqqı üzərində nəzarət yolu ilə əldə olunmur, əksinə, istehsalat idxalının artırılması hesabına olur ki, bu da, xüsusilə də yüksək büdcə kəsirində mərkəzi hakimiyyətin ekspansionist siyasətini tələb edir. Onlar hesab edirlər ki, hökumətin xərclərinin, habelə sosial ödəmələrin artırılması müəssisələrin mədaxillərinin artmasına gətirib çıxarır ki, bu da öz növbəsində investisiyaları artırır və tənəzzüldən çıxışı sürətləndirir.

Eyni zamanda *monetaristlərin və keynsiançıların müddəaları əsasında qurulmuş kompromiss proqram* aşağıdakılardan ibarət ola bilərdi:

- büdcə siyasətini yeniliklə qurmalı, yəni bir il ərzində büdcəni balanslaşdırmaq əvəzinə, daha yaxşı olar ki, onu daha uzun müddət ərzinə, məsələn, 3-5 ilə bərabərləşdirməyə çalışmaq lazımdır;
- prinsipial mühafizəkar pul siyasətini saxlamaqla və bank nəzarətini gücləndirməklə faiz stavkalarının azaldılması;
- bazar üçün əlverişli sənaye siyasətinin yeridilməsi (vergilərin, maddi yardımların və s.), çünki normal bazar şəraitində «iqtisadiyyatda nə qədər az dövlət varsa, o qədər yaxşıdır» prinsipi fəaliyyət göstərir;
- bütün sahibkarlıq formaları üzrə müəssisələrin fəaliyyəti şəraitinin bərabərləşdirilməsi;
- təsərrüfat fəaliyyətinin səmərəliliyinin yaxşılaşdırılması və orta sinfin yaradılması məqsədini güdən davamlı özəlləşdirilmənin aparılması.

MUHASIBAT.AZ

Vaxtilə Polşa Nazirlər Sovetinin sədri və maliyyə naziri LöBalseroviç tərəfindən təklif olunan və beş əsas istiqamətdən ibarət olan sabitləşdirmə proqramı da maraq doğurur:

- proqressiv vergiqoyma məktəbinin köməkliyi ilə gəlirlərin artımının məhdudlaşdırılması;
- qızılın təsbit olunmuş kursundan imtina edilməklə azad valyuta bazarının tətbiq edilməsi;
- mərkəzləşdirilmiş maddi yardımların kəskin azaldılmasını təmin edən fiskal tədbirlər kompleksi və güzəştli vergi qoyulmasından imtina edilməsi;
- ssuda faizinin, xüsusilə də uzunmüddətli kreditlər üzrə xeyli artımını nəzərdə tutan sərt kredit siyasətinin yeridilməsi;
- qiymətlər üzərində dövlət nəzarətinin getdikcə azaldılması.

Bir çox iqtisadçılar hesab edirlər ki, pul dövriyyəsinin sabitləşdirilməsini topdan və pərakəndə qiymətlərin artırılması yolu ilə və ya qiymətlərin liberallaşdırılması deyilən yolla, habelə məhsul istehsalının və pullu xidmətlərin həcminin artırılması yolu ilə mümkündür. Lakin, pərakəndə qiymətlərin artırılması müəssisələrdə «artıq» pulların (nəqdsiz formada) cəmləşməsinə gətirib çıxarır və bunlar da sonralar nəqd pul dövranına təsir göstərir. Pərakəndə qiymətlərin artırılması da öz növbəsində məhsul istehsalının həcminin artırılması kimi, dövlətdə «artıq» pullar qalarsa, ümumi kəsirin aradan qaldırılmasına səbəb olmur. Xarakterikdir ki, inkişaf etmiş bazar iqtisadiyyatında pul dövriyyəsi mərkəzi bankın uçot stavkasının istifadə olunması, açıq qiymətli kağızlar bazarında əməliyyatlar, məcburi bank ehtiyatları normativlərinin istifadə olunması, bank likvidliyi standartlarının müəyyənləşdirilməsi yolu ilə tənzimlənir.

Pul islahatları da pul dövriyyəsinin sabitləşməsinə və inflyasiyanın məhdudlaşmasına yönəldilmişdi. Bu zaman iqtisadi nəzəriyyə və dünya təcrübəsi göstərir ki, yeni pul vahidinin tətbiq olunması ilə bağlı

MUHASIBAT.AZ

keçirilən pul islahatı özlüyündə iqtisadiyyatın böhrandan çıxarılması və ardınca sabitləşdirilməsi üzrə görülən tədbirlərdən ibarətdir. Ona görə də pul islahatı keçirilməsinin prinsipləri və konkret tədbirləri çox sıxı surətdə dövlətin iqtisadi siyasətinin icrası üzrə fəaliyyətlə əlaqələndirilir. Bu zaman pul islahatı islahat keçirmək xatirinə deyil, makroiqtisadi sabitləşdirmə və sonralar səmərəli pul-kredit, qiymət, vergi və investisiya siyasətinin keçirilməsi, xarici dövlət və özəl investisiyaların istehsal və dövriyyə sferasına cəlb edilməsi üzrə əlavə impulsların alınması məqsədi ilə aparılmalıdır. Zəruri tədbirlər kompleksi bir-biri ilə ardıcıl və razılaşdırılmış şəkildə qəbul olunmalıdır.

Pul islahatlarına ləğvetmə, bərpaetmə (revalvasiya), devalvasiya və denominasiya metodlarının istifadə olunması daxildir. *Ləğvetmə* (*nullifikasiya*) güclü şəkildə qiymətdən düşmüş pul vahidinin ləğv edilməsi və yeni pullarla əvəzlənməsi prosedurundan ibarətdir. *Restavrasiya* (*revalvasiya*) – pul vahidinin əvvəlki qızıl tutumunun (qızıl standart şəraitində) bərpa edilməsi və ya xarici valyutaya münasibətdə milli pul vahidinin kursunun artmasıdır. İkinci Dünya müharibəsindən sonra revalvasiya rəsmi valyuta kursunun dollara nisbətən artırılması yolu ilə aparılırdı, sonralar isə BVF milli pul vahidinin qızıl tutumunun artmasını qeydə alırdı. *Devalvasiya* pul vahidinin qızıl tutumunun azalmasıdır (qızıl standart şəraitində) və ya rəsmi valyuta kursunun ilk növbədə ABŞ dollarına nisbətən azalmasıdır. *Denominasiya* yeni eyniadlı pul vahidinin köhnəsi ilə müqayisədə nominal alıcılıq qabiliyyətinin artırılması yolu ilə miqyasının böyüdülməsidir.

Bu metodlar əhalinin pul əmanətlərinin müvəqqəti (tam və ya qismən) dondurulması ilə kağız pul kütləsinin xeyli azaldılması məqsədilə kağız pulların deflyasion kursla yeni pullara dəyişdirilməsi, habelə bu metodların əlaqələndirilməsi ilə bağlı ola bilər. Eyni zamanda pul islahatları müxtəlif rejimlərdə də həyata keçirilə bilər. Hazırda «şok terapiyası» şəklində pul islahatlarının keçirilməsi geniş

MUHASIBAT.AZ

yayılmışdır. Səciyyəvi haldır ki, konkret antiinflyasion strategiya və taktikadan asılı olaraq pul islahatı pul dövriyyəsinin başlanğıc və ya son mərhələsi ola bilər. Lakin, digər antiinflyasion tədbirlərlə əlaqə yaradılmadan pul islahatı strateji planda inflyasiyanın cilovlanması problemini həll etmir.

Tarixi təcrübə bunu sübut edir. Məsələn, 1895-1897-ci illərdə Rusiya imperiyasında keçirilən pul islahatı Rusiyanı maliyyə baxımından Avropanın digər böyük dövlətləri ilə bir sıraya qoymuşdur. Pul islahatına hazırlıq zamanı çar hökumətinin əsas tədbirlərindən biri qızıl ehtiyatlarının yığılması olmuşdur. Bu məqsədlə kənd təsərrüfatı məhsullarının ixracının artırılması üçün tədbirlər görüldü, habelə daxili vergilər artırıldı. Eyni zamanda hökumət qızıl sənayeçilərinə bir sıra güzəştlər verilməsi yolu ilə qızıl hasilatının artırılması üçün imkan yaratdı. Bu tədbirlər qızıl ehtiyatlarının artmasına səbəb oldu. Əgər 1886-cı il yanvarın 1-ə Rusiyanın qızıl ehtiyatı cəmisi 336,5 mln. rubl təşkil edirdisə, 1896-cı il yanvarın 1-ə onun həcmi 963,5 mln. rubla çatmışdı.

Pul islahatı nəticəsində qızıl monometalizm sistemi yaradıldı, yəni bütün pul sisteminin əsasında qızıl durdu. Devalvasiya yolu ilə rublun qızıl tutumunu azaldan hökumət onun yeni xalis qızıl payı həcmini 17,424 ilə müəyyənləşdirdi. Eyni zamanda kredit biletlərinin qızıla sərbəst dəyişdirilməsi elan olundu. Bank tərəfindən buraxılan 600 mln. rubl məbləğində kredit biletləri ən azı yarısınadək qızılla ödənmə qabiliyyətli olmalı idi. Bu məbləğdən artıq buraxılan kredit biletləri isə 100% qızılla təmin olunmalı idi. Gümüş pul ödənişin yardımçı vasitəsinə çevrildi. Məsələn, yüksək əyarlı qızılla ödəniş məbləği 25 rublla, xırda pul isə rublla məhdudlaşdırılıdı. Gümüş pulun buraxılışı əhalinin adambaşına rubldan artıq olmamalı idi. Bu pul islahatı Rusiyanı dayanıqlı valyuta ilə təmin etdi.

MUHASIBAT.AZ

Sovet Rusiyasında 922-19-cü illərdə keçirilən pul islahatı paralel valyutanın istifadə olunması ilə bağlı idi, yəni kapitalhnə pul nişanları və yeni pullar – çervon istifadə olunurda. Bu zaman çervon pul dövriyyəsinə aşağıdakı şəkildə daxil edildi: topdan malın alıcısı malı aldıqdan sonra ciddi təsbit olunmuş müddətdə borcunu ləğv etmək üçün veksel-öhdəlik yazırdı. Yeni pul nişanlarının son dərəcə sabitsizliyi üzündən sövdələr onun qiymətdən düşməsi nəzərə alınmaqla vekselin ödəndiyi günə qızıla münasibətdə aparılırdı. Satıcı alıcı tərəfindən yazılmış vekseli banka təqdim edirdi və sonuncu bunu nəzərə alaraq vekselin hesablanması üzrə öz xeyrinə müvafiq faizi saxlamaqla çervonla ssuda verirdi. Vekselin fəaliyyət müddəti başa çatdığı gün bank onu alıcıya təqdim edir və çervonla ödənməsini tələb edirdi. Möhkəm valyutanın olmadığı zaman alıcı yeni pul nişanlarına bazar kursu ilə lazımi bank ssudası biletlərini alır və onlarla vekseli ödəyirdi. Veksel müəyyən olunmuş müddətdə çervonla ödənmədikdə borcun məbləği dövlət bankı tərəfindən müflis elan olunmuş borclunun əmlakına yönəldilirdi. Bundan əlavə dövlət bankı tərəfindən satışa zəmanətli olan malın bilavasitə girov qoyulması ilə çervonla ssuda verilməsindən də geniş istifadə edilirdi. Verilən kreditlər də bank biletləri ilə geri qaytarılmalı idi.

Təsərrüfat subyektlərinin sərt iqtisadi və hüquqi məsuliyyəti çervonun əmtəə axını ilə sıx əlaqəsini təmin edirdi, yeni valyutanın yüksək alıcılıq qabiliyyətini dəstəkləyirdi, onu qiymətdən düşməkdən qoruyurdu. Emissiya qanunvericiliyinin ardıcıl gözlənilməsi sayəsində buraxılan çervonun məbləği dövranda olan malların qiymətlərinin məbləğindən az olmuşdur. Çervonun qıtlığı bank biletlərinin dayanıqlığına ən yaxşı arqument idi.

Müharibədən sonrakı Almaniyanın təcrübəsi göstərir ki, onun dirçəlməsi səhv valyuta maliyyə siyasəti, azad bazarın və azad sahibkarlığın gücünə inam ilə bağlı idi. Bununla belə Almaniyanın

MUHASIBAT.AZ

iqtisadiyyatının ən mühüm amili pul sisteminin yaşama qabilliyinin bərpa edilməsi idi, bu isə pul islahatı aparılmadan mümkün deyildi. Pul və əmtəə dövranı arasındakı qeyri-mütənasibsizlik pul kütləsinin sıxılması və əmtəə kütləsinin mövcud leqal qiymətlərə uyğunlaşdırılması yolu ilə aradan qaldırıldı.

Pul islahatı aşağıdakı şəkildə aparıldı. Bütün fiziki və hüquqi şəxslərsərəncamlarında olan nəqd pulları və reyxsmarka ilə bank depozitləri haqqda bəyanat verməyə məcbur idilər. Bu pullar 100:10-a nisbətində yeni alman markasına dəyişdirilməli idi, yəni əvvəlki məbləğdən yalnız 10% qalmalı idi. Bu zaman vergi xədmətinin yoxlamalarından sonra həmin 10%-in yarısı pul sahibinin sərbəst ixtiyarına daxil olurdu, yerdə qalan hissəsi isə bir daha bölünürdü. O cümlədən, onun 1/5 sahibin sərbəst sərəncamına daxil olurdu, 1/10 – investisiya üçün blokirovka olunmuş hesaba daxil olunurdu, yerdə qalan 7/10 hissəsi isə ləğv edilirdi. Nəticədə mübadilənin real tənasübü 100:6,5 (lakin kiçik məbləğlər barəsində müəyyən güzəştlər edilirdi). Bu şərtlər bütün növlərdən olan əmanətlərə də şamil edilirdi. Göründüyü kimi mübadilə son dərəcə sərt, əhali üçün çox ağrılı olan *müsadirə* yolu ilə həyata keçirilmişdi.

Əhalini «adambaşına» minimum pul vəsaitləri təmin etmək üçün 60 alman markası ayrılırdı və hər kəs bunun 40 markasını islahatın keçirildiyi gün, 20 markasını isə 2 aydan sonra ala bilərdi. Bu zaman yeni pulların verilməsi köhnə reyxsmarkanın 1:1-ə nisbətdə mübadiləsi ilə aparılırdı. Əmək haqqlarının və digər ödəniqlərin verilməsinin qarşısının tam alınmasına yol verməmək üçün hər bir müəssisəyə, hər bir işləyənə 60 marka hesabı ilə müəyyən məbləğdə yeni pul ayrılırdı. Yerli hakimiyyət orqanları ilkin məbləğləri onların həqiqi aylıq gəlirləri həcmində alırdılar, onların bütün əvvəlki pul yığımlarfı isə silinmişdi.

Pul kütləsinin kəskin ixtisar edilməsi əvvəlki qısamüddətli öhdəlikləri qeyri-mümkün etdiyindən və ya mümkünsüz etdiyindən bu

MUHASIBAT.AZ

sayaq borclar onun 1 nisbətində ucuzlaşdırıldı. Uzunmüddətli öhdəliklərə xüsusilə də ipoteka borclarında münasibətdə qeyri-qanunui varlanmağa yol verməyən xüsusi qaydalar mövcud idi. İpoteka mənfəətindən daxil olan ayırmalar xüsusi fonda düşürdü. Buradan isə sonralar ağırlığın bərabərləşdirilməsi proqramı üzrə maliyyələşdirmə aparılırdı.

Dünya təcrübəsi göstərir ki, *pul islahatı aşağıdakı əsas məqsədlərin həllinə yönəldilməlidir*:

- əmtəə və pul kütləsini uyğunlaşdırmaq (differensial müsadirə tədbirlərinin həyata keçirilməsi yolu ilə, eləcə də onlarsız) və yeni milli pul vahidini tətbiq etmək;
- iqtisadiyyatın inflyasiya proseslərinin inkişafına sürüşməsini durdurmaq və uyğun olaraq tətbiq edilmiş milli pul vahidinin qiymətdən düşməsini durdurmaq;
- əmək haqqını müəyyən dövr ərzində artımını məhdudlaşdlırmaq, bunun üçün isə onun «dondurulmasından» istifadə edilə bilər və buna uyğun olaraq istehlak qiymətlərini dondurmaq;
- yeni pul nişanlarının emissiyasının səhv həddlarini müəyyənləşdrmək, habelə nəqdvə nəqdsiz pul kütləsinin hərəkəti üzərində ciddi nəzarət etmək;
- iqtisadi yolla tətbiq olunmuş milli pul vahidinin valyuta kursunu sabitləşdirmək, o şərtlə ki, islahatın birici mərhələsində onun mübadilə kursu güclü valyutalara münasibətdə nisbətən sərt olacaq.

Özünü yoxlama üçün suallar

1. İnflyasiya nədir?
2. İnflyasiyanın başlıca dağıdıcı fəaliyyəti nədən ibarətdir?

MUHASIBAT.AZ

3. İnflyasiyanın təkamilli və çoxamilli nəzəriyyələrinin mahiyyəti nədən ibarətdir?
4. Hansı əsas amillər inflyasiyanın inkişafını stimullaşdırır?
5. İnflyasiyanın inkişafının monotarist və keynsiançı modellərinin mahiyyəti nədən ibarətdir?
6. İnflyasiyanın hansı formaları mövcuddur?
7. DVS deflyatoru nədir?
8. İqtisadiyyatın sabitləşdirilməsində monitarist və keynsian yanaşmanın mahiyyəti nədən ibarətdir?
9. İnflyasiyanı dayandırmağın əsas tədbirləri və onu tənzimləməyin variantları hansılardır?
10. İqtisadiyyatın sabitləhdirilməsinin Polşa təcrübəsinin müsbət cəhətləri hansılardır?
11. Pul islahatı nə üçün aparılır və o hansı vəzifələri yerinə yetirməlidir?

MUHASIBAT.AZ

II Bölmə. KREDİT NƏZƏRİYYƏSİ

7. KREDİTİN ZƏRURİLİYİ VƏ MAHİYYƏTİ

7.1. KREDİT MÜNASİBƏTLƏRİNİN MEYDANA ÇIXMASI

Kredit – tarixi kateqoriyadır. Hər hansı ictimai münasibət kimi onun da cəmiyyətdə iqtisadi əlaqələrin inkişafını əks etdirən tarixi var. Təsadüfi hadisə kimi meydana çıxan kredit özünün fəaliyyət sferasını genişləndirmiş, təkrar istehsal prosesi iştirakçıları arasında daimi rabitəni ifadə edən obyektiv zərurət olmuşdur. Müasir cəmiyyətdə kredit bütövlükdə ictimai məhsulun nəticəsinin mübadiləsi kimi ayrılmaz reallıqdır. Kredit dəyişikliklərə uğrayaraq iqtisadi həyatın yeni şəraitinə uyğunlaşmışdır. Üzdə kreditorla borc alan arasında özünü kredit sövdəsi kimi nəzərə çarpdıran kredit iqtisadi bazisin dəyişilməsi ilə bərabər öz mahiyyətini də dəyişmişdir. Bir istehsaldan digərinə keçilməklə kredit müxtəlif rol oynamışdır.

Kredit haqqında elm nisbətən yenidir. Krediti təhlil etməyin ilk cəhdi təsərrüfat həaytının, zənginliyin, onun istehsalı və bölüşdürülməsinin ümumi nəzəriyyələri fonunda meydana çıxmışdır. Demək olar ki, kredit haqqında elmin təşəkkülü siyasi iqtisadiyyatın formalaşması ilə eyni vaxtda baş vermişdir. Kreditin təsərrüfat həyatında istifadəsini xarakterizə edən müasir cəmiyyət xeyli material yığa bilmişdir, hərçənd alimlərin bir çoxu kredit münasibətlərinin mahiyyətini subyektiv sosial-psixoloji baxımdan şərh edirlər. Kreditə müasir iqtisadi baxışların ağırlıq mərkəzi siyasi iqtisadi analiz müstəvisindən bank işi sahəsinə keçirilmişdir.

Elmin kredit haqqında metodoloji prinsipləri bir çox iqtisadi məktəblər, o cümlədən marksist məktəb tərəfindən işlənilib

MUHASIBAT.AZ

hazırlanmışdır. K.Marks tərəfindən həyata keçirilən ssuda kapitalının analizi təkrar istehsal prosesinin tədqiqinin tərkib həlqəsidir. Kreditin istehsal prosesi, dövriyyə və dəyər dövranı, kapitalist cəmiyyətinin maraqları ilə qarşılıqlı əlaqədə marksist analizi, müasir şəraitdə kreditin tədqiqi üçün öz metodoloji əhəmiyyətini saxlayan siyasi iqtisadiyyatın mühüm bölməsini təşkil edir.

Kredit haqqında sovet iqtisadiyyatının çətinlikləri ondan ibarət idi ki, istehsal vasitələrinə ictimai mülkiyyətə, kredit sövdəsinin başqa sosial-iqtiasadi simasına əsaslanan təsərrüfat növü kreditin mahiyyətinin açılmasına digər yanaşma tələb edirdi. Ona görə də sosialist kredit nəzəriyyəsinin təşəkkülü prosesində yanlış, çox hallarda isə ziddiyyətli təsəvvürlər meydana çıxırdı. Kredit münasibətlərində, bütövlükdə sovet iqtisadiyyatı elminin inkişafını əks etdirən dəyişikliklər baş verirdi. Məsələn, XX əsrin 20-ci illərində kapitalist kreditinin sovet dövlətinin yeni sosial-iqtisadi əlaqələrini ifadə edən sosialist krediti ilə eyniləşdirilməsi baş verirdi. Bəzi hallarda istehsal münasibətlərinin tam ünsürü kimi kreditin analizi, kredit münasibətlərinin iştirakçılarından biri kimi çıxış edən bankın analizi ilə əvəzlənirdi. Kreditin vəhdəti iqtisadi kateqoriya kimi, müvafiq olaraq pozulurdu ki, bu da kreditin istifadə olunma sərhədlərinin subyektiv traktovkası üçün imkan yaradırdı. Elm tədricən bu çətinlikləri dəf etdi, alimlərin bank sisteminin praktiki işçilərinin səyi ilə kredit sahəsində ciddi tədqiqatlar aparıldı. Yeni tədqiq olunma obyektlərinə kreditin hərəkətinin məqsəd və qanunlarını, ssuda fondu, kredit prosesi, kredit münasibətlərinin səmərəliliyni aid etmək olar. Təsərrüfat planında kreditin zəruriliyi, funksiya və rolları məsələləri başqa mövqedən araşdırılmışdır. Bununla yanaşı, iddia etmək olmaz ki, müasir elm kredit barəsində bütün problemləri həll edərək tam yetkinliyə çatmışdır. Hazırda, keçid iqtisadiyyatın mürəkkəb problemlərinin izahat tələb

MUHASIBAT.AZ

etdiyi bir vaxtda, bank təcrübəsi iqtisadiyyat elminə qarşı yüksək tələblər irəli sürür.

Eyni zamanda biliklərin toplanılması, yeni nəşrlərin meydana çıxması prosesi ilkin nəzəri mövqelərin çoxsahəli şərhinə səbəb oldu. Nəticədə pul ilə kredit, kredit ilə maliyyə kimi əsas məsələlər üzrə bir-birinə qarşı diametral şəkildə zidd olan baxışların mövcudluğu göstərilir, ssuda fondu, kreditin funksiyası, onun formaları və s. məzmunu müxtəlif baxışlardan şərh olunur. Müasir elmdə kredit münasibətləri problemlərinin aşkar tamamlanmaması göstərilir. Təsəvvür yaranır ki, elmi işçilər kreditin kardinal məsələləri üzrə fikir söyləmişlər, lakin, mübahisəni başa çatdırmamışlar, sonrakı analiz üçün açar ola biləcək məsələlərin həll olunmasını yarı yolda saxlamışlar.

Kredit haqqında müasir təsəvvürlərin yarımçıqlığı və kifayət qədər arqumentləşdirilməməsi kredit siyasəti sahəsində, o cümlədən müəssisənin maliyyə çətinliklərinin kredit hesabına ödənilməsi sərhədləri, kredit vasitəsilə uzunmüddətli investisiya mənbələri, əhalinin pul vəsaitlərinin kreditləşdirmə ehtiyaclarına istifadə olunması və həcmi haqqında və s. məsələlərin həllində əməli tədbirlərin qeyri-müəyyənliyinə gətirir. Bütün bunlar kredit nəzəriyyəsinin fundamental məsələlərinə yeni münasibət bəslənilməsini, əlavə tədqiqatlar aparılmasını və bir sıra ilkin metodoloji problemlər üzrə fikir mübadiləsi aparılmasını tələb edir. Cəmiyyət kreditin təbiəti haqqında dəqiq biliyə malik olmadan, mahiyyətcə onun nə demək olduğunu bilmədən kreditdən istifadə edə bilməz. Kreditin iqtisadiyyatda istifadə olunması üçün əlavə ümumiləşdirilmiş nəzəri müddəalara və praktikaya ehtiyac vardır. Eyni zamanda unutmaq olmaz ki, kredit prosesinin yanlış şərh olunması düzgün olmayan praktiki nəticələrə gətirə bilər – ya da kreditdən iqtisadi həyatın tənzimləyicisi kimi istifadə olunmasına, yaxud da onun fəaliyyət sferasının məhdudlaşdırılmasına səbəb ola

MUHASIBAT.AZ

bilər. Göstərilən ifratçılıqlar son hesabda kredit resurslarının iqtisadi inkişaf tempinə edilən stimullaşdırıcı təsiri dayandırır, təsərrüfatçılığın səmərəliliyini azaldır.

Kreditin öyrənilməsi zamanı nəzəriyyə xüsusi rol oynayır və əvvəlki kimi ictimai inkişafın dərk olunmasında ən mühüm metod kimi öz əhəmiyyətini saxlayır. Şübhəsiz ki, nəzəriyyə praktikadan təcrid olunmuş şəkildə araşdırılmamalıdır. Elmi abstraksiyalar yalnız praktika ilə qarşılıqlı fəaliyyətdə yaradıla bilər, belə ki, praktika həmişə nəzəriyyəyə münasibətdə müəyyənləşdirici mövqe tutmuşdur. Təsadüfi deyil ki, bütün nəzəri problemlər son hesabda yalnız praktiki metodlarla həll olunur. Nəzəriyyə ilə praktika arasında dialektik vəhdət mövcuddur. Praktiki vəzifələrin həlli təcrübə nəticəsində, nəticələrin dərk olunmasında, yəni nəzəri analizlə əldə olunur. Nəzəriyyə praktika qarşısında duran məsələlərin düzgün həllinə kömək edir.

Kredit haqqında müasir elmin durumu sübut edir ki, (qnoseologiya nöqteyi-nəzərindən) praktika nəzəriyyəni bir qədər önləyir. Bu, tamamilə qanunauyğundur. Məsələn, kredit haqqında nəşrlər əsasən bank işi praktikasına, qismən də – nəzəriyyə məsələsinə həsr olunub. Lakin nəzəri və praktiki tədqiqatlar arasındakı kəmiyyət nisbətləri yalnız görüntü yaradırlar ki, guya praktika nəzəriyyəni önləyir. Əslində isə bank fəaliyyətinin yeni istiqamətləri nəzəriyyə və praktikanın bazası üzərində inkişaf edir. Bu və ya digər proseslər haqqında nəzəri təsəvvürlər kredit siyasətini təmin etmişlər və bundan sonra da təmin edəcəklər. Bununla belə, nəzəriyyə praktiki materialların ümumiləşdirilməsində ləngiyir. Ona görə də ictimai inkişafın irəli sürdüyü yeni problemlərə kifayət qədər hazır olmayan praktika fərdi təcrübəyə əsaslanır və düzgün həlləri təsadüfən tapır. Məhz buna görə də kredit haqqındakı iqtisadiyyat elmi qarşısında bir tərəfdən nəzəri ümumiləşdirmələri fəallaşdırmaq, digər tərəfdən isə – bank işini inkişaf etdirmək və təkmilləşdirmək vəzifəsi durur.

MUHASIBAT.AZ

Elə bu zaman müasir dövrdə iqtisadi nəzəriyyənin inkişafının diskussiya predmeti olmuş daha mühüm məsələləri açmaq lazımdır. Bunlara *kreditin mahiyyət, funksiyalar və qanunlar problemləri* aiddir. Məsələn, kreditin mahiyyəti onun təbiəti, məzmunu, onun tərəf və ya formalarından biri, digər iqtisadi kateqoriyaların mahiyyəti ilə eyniləşdirilir. Kreditin funksiyaları bankın funksiyaları ilə əvəzlənir. Əvvəlki kimi, təşəkkül tapmış bir sıra konsepsiyaların çatışmazlığı ondan ibarətdir ki, söylənilən ideyalar natamam xarakterlidir. Bununla əlaqədar olaraq onlar müvafiq arqumentasiya ilə tamamlanmayıblar və bu səbəbdən də əsaslandırılmış nəticələr kimi deyil, güman – ehtimal kimi təsir bağışlayırlar.

Kifayət qədər olmayan əminlik və bu səbəbdən də diskussiyalılığı kredit haqqında müasir elmin səciyyəvi xüsusiyyətlərindəndir. Bu, əlbəttə, o demək deyil ki, müasir kredit nəzəriyyəsinin əsaslandırılması yoxdur. Şübhəsiz, bir sıra nəticələrin nəzəri əsaslandırılması mövcuddur, lakin, təəssüflər olsun ki, o nəticənin özündən az problemli deyil. Artıq formalaşmış və bəzən də mübahisəli fərziyyələrə, qeyri-dəqiq terminoloji şərhlərə əsaslanan bəzi müəlliflər yanlış fikirlərin əsiri olurlar, xüsusilə də söhbət funksiyalardan, qanunlardan, kredit formalarından getdikdə. Kredit haqqında daha aydın təsəvvür kreditə olan təkrar istehsal nöqteyi-nəzərinin köməkliyi ilə, onun təkrar istehsalın müxtəlif fazaları ilə əlaqələrinin tədqiqi yolu ilə formalaşır. Analizə edilən bu sayaq aksent kredit münasibətlərinin təbiətini, onlarınistehsalat və bölüşdürülmə ilə qarşılıqlı təsir səviyyəsini, ictimaiyyətin iqtisadi münasibətlər sistemində rolunu dəqiqləşdirməyə imkan verir.

Bazar iqtisadiyyatına keçid şəraitində kredit rıçaqlarından istifadə olunması xüsusi əhəmiyyət kəsb edir. Bu onunla izah olunur ki, inzibati təzyiq metodlarının zəifləmə səviyyəsinə uyğun olaraq məhz maliyyə və kredit rıçaqları iqtisadi həyatın tənzimlənilməsində mühüm alət

MUHASIBAT.AZ

olmalıdır. İqtisadiyyatın bu sahəsinə artırılmış diqqət həm də XX əsrin 90-cı illərinin sonlarında təşəkkül tapmış kredit mexanizminin fəaliyyətinin az səmərəliliyi ilə bağlıdır. Sonuncu şərt müəyyən mənada onunla bağlıdır ki, xalq təsərrüfatında kredit münasibətlərinin təşkili məhsuldar qüvvələrin müasir inkişaf səviyyəsinə uyğun gəlmirdi, obyektiv iqtisadi qanunların fəaliyyətini kifayət qədər nəzərə almırdı.

Kredit nəzəriyyəsində bununla hesablaşmamaq olmaz ki, pula ictimai məqsəd rolu vermək cəhdi heç də anomaliya deyil, o P – Ə – P' düsturu ilə ifadə olunan əmtəənin hərəkəti strukturu ilə obyektiv hazırlanıb. Bu düstur xammal və digər istehsal vasitələri alan, eyni zamanda hazır məhsul satan, əmək haqlarını ödəmək və mənfəət götürmək, istehsal prosesinin davam etdirilməsi üçün əmək cismi və avadanlıq almaq üçün pul məbləği əldə edən müəssisələr arasındakı münasibətləri ifadə edir. Amma bu davametmə əldə edilən məbləğin müəssisənin hesablaşma hesabına daxil olmasından sonra baş verir. Bu daxilolma ilə müəssisə tərəfindən istehsal prosesinə buraxılmış pul məbləğinin dövranı başa çatır.

Kreditin yaranmasının obyektiv şərtləri cəmiyyətin təkraristehsal-iqtisadi sisteminin ayrı-ayrı elementlərinin istehsal tsiklindəki, pul resurslarının fərdi və istehsal yığımları imkanlarındakı fərqdən, habelə xalq təsərrüfatının (biznes) müxtəlif sahə və sferaları tərəfindən kapitala tələbat olan şəritdə müvəqqəti istifadə olunmayandövlət büdcəsi və digər maliyyə fondlarının mövcudluğundan ibarətdir.

Kreditin iqtisadi təyinatı resursların təkrar istehsal prosesinin müxtəlif həlqə və sferaları arasında, onun fasiləsiz fəaliyyət göstərməsinin təmin olunması məqsədilə bölüşdürülməsindən ibarətdir. Resursların belə bölüşdürülməsinin büdcə və smeta maliyyələşdirməsindən əsas fərqi ondan ibarətdir ki, o müvəqqəti və qaytarılma əsasında həyata keçirilir. Ona görə də kreditin köməkliyi ilə resurslarla, onların bilavasitə maliyyələşdirmə qaydası ilə həyata

MUHASIBAT.AZ

keçirilən ilkin kapital yatırımı nisbətinə uyğun baş verən təkrar istehsal prosesinin ayrı-ayrı sferaları arasında bölüşdürülməsi üçün təşəkkül tapan baza nisbətinə görə operativ manevr etmək imkanları yaranır.

Hətta müəssisənin sahibkarı öz vəsaitlərini sərf etdiyi hallarda da təkrar istehsal əsasən kredit sisteminin vasitəsilə maliyyələşdirilir. Kreditin bütün substansiyasının zəruri tərkib hissəsi olan resursların sahibi sayılan kredit münasibətləri iştirakçılarından başqa, çoxsaylı kredit müəssisələri – banklar, əmanət kassaları sığorta, investisiya və s. şirkətlər mövcuddur ki, onların maliyyə fondları da kreditin maliyyə daşıyıcısı sayılır və kreditləşdirmə mexanizminə daxildir.

Kredit, ilk dəfə artıq əmtəə-pul münasibətlərinin mövcud olduğu şəraitdə meydana çıxmışdır. Pul-kredit münasibətlərinin mövcudluğu təsərrüfatçılıq subyektlərinin bir-birindən ayrılığını bildirir. İstehsal və dövriyyə prosesində onların hər birinin vəsaitləri fərdi dövriyyə dövranı vurur.

İstehsal fondlarının (kapital) dövriyyə dövranının qanunauyğunluğu sahələrin və müəssisələrin tələbatının daim dəyişkənliyini şərtləndirir, fərdi dövriyyə dövretmələrinin nisbi müstəqilliyi isə bu tələbatların müxtəlif dövrlüyünə səbəb olur, yəni istehsal həlqələrinin bir qismi vəsaitə yüksək ehtiyac duyur, digərlərində isə müvəqqəti sərbəst vəsaitlər yaranır.

Sərbəstləşən vəsaitlər mütləq özünə tətbiq sferası tapmalıdır və buna kredit yolu ilə nail olunur. Lakin burada yalnız kreditin fəaliyyət göstərməsi imkanı yaranır, çünki müvəqqəti sərbəst pul vəsaitləri ancaq qaytarılma əsasında digər təsərrüfatçılıq subyektlərinə verilə bilər. Ona görə də kredit münasibətlərinin meydana gəlməsinin zəruri olması üçün cəmiyyətdə məhz belə qaytarılma vəsaitlərinə tələbat olmalıdır.

Əgər əlavə pul vəsaitlərinə olan tələbatla onların yoxluğu arasındakı ziddiyyətlər aradan qaldırılmazsa, onda təkrar istehsal

MUHASIBAT.AZ

prosesinin fasiləsizliyi pozulacaq. Ona görə də həmin tələbat nəzəri cəhətdən üç mümkün mənbədən ödənilə bilər:

- öz vəsaitlərinin ehtiyat fondunu yaratmaq olar, amma əlavə vəsaitlərə olan müvəqqəti tələbatın öz ehtiyat fondu hesabına ödənilməsi zamanı sonralar üçün vəsaitlərin mövcudluğu ilə onlara müvəqqəti tələbatın olmaması arasındakı ziddiyyətlərin dərinləşməsi üçün ilkin müqəddəm şərtlər yaranacaq;
- borc vəsaitlərə olan ehtiyacı qaytarılmayan büdcə maliyyələşdirilməsi yolu ilə ödəmək olar ki, bu da ictimai təkrar istehsal baxımından tələbatın formal ödənilməsini bildirir, çünki cəmiyyət miqyasında tələbat aradan qalxmayıb, sadəcə bir təsərrüfatçılıq səviyyəsindən digərinə yerdəyişmişdir (həmin həcmdə müəssisədən dövlətə keçmişdir). Bu halda dövlət büdcəsinin vəsaitləri qaytarılmamalı olduğundan müəssisənin əmlakına çevrilirlər ki, bu səbəbdən də birinci halda olduğu kimi eyni effekt alınır;
- (başqa müəssisələrin, dövlətin və əhalinin) müvəqqəti sərbəst vəsaitlərinin borc götürülməsi yolu ilə və bu, tələbatın həqiqətən ödənilməsini bildirir. Əlavə pul vəsaitlərinə tələbat aradan qalxdıqdan sonra (dövretmə prosesində) borc vəsaitlər ağrısız-filansız qaytarıla bilər (onların səmərəli istifadə olunması şərtilə).

Əlavə pul vəsaitlərinə müvəqqəti tələbatın ödənilməsinin üç mümkün mənbəyinin analizindən görünür ki, onların ödənilməsinin təbii mənbəyi müvəqqəti sərbəst vəsaitlərdir ki, onlar da yalnız ssuda formasında verilə bilər. Ona görə də kreditin meydana çıxması pul vəsaitlərinə olan tələbatla, ayrılmış təsərrüfat həlqələrinin vəsaitlərinin dövretmə prosesində əmələ gələn nəqd vəsait arasındakı ziddiyyətin hərəkətinin immanent formasıdır. Bu zaman əmtəə-pul münasibətləri sferasında aşağıdakı dayanıqlı səbəb-nəticə əlaqələri vardır:

MUHASIBAT.AZ

- təsərrüfat subyektlərinin iqtisadi münfəridliyinin mövcudluğu şəraitində kapitalın dövretmə qanunauyğunluqları vəsaitlərə olan tələbatla onların nəqdliyi arasında ziddiyyətin daim meydana çıxmasını şərtləndirir;
- vəsaitlərə olan tələbatla onların nəqdliyi arasında ziddiyyətin yeganə hərəkət forması yalnız müvəqqəti tələbatın müvəqqəti sərbəst pullar hesabına ödənilməsi ola bilər;
- vəsaitlərə olan tələbatla onların nəqdliyi arasında olan ziddiyyətin aradan qaldırılması kredit münasibətlərinin meydana çıxmasını nəinki mümkün, hətta zəruri edir.

Bu əlaqələr obyektiv zərurət xarakteri daşıyır və bunun nəticəsi kimi, kredit münasibətlərinin meydana çıxması labüdləşir. Belə qarşılıqlı əlaqə nəinki təkcə müəssisələrarası münasibətlər üçün ədalətlidir, o həm də xalq təsərrüfatında bütün kredit münasibətlərinin zəruriliyini xarakterizə edir, yəni ümumi xarakter daşıyır. Qısa olaraq onu belə ifadə etmək olar.

Kredit münasibətlərinin yaranması onunla bağlıdır ki, əmtəə istehsalı və tədavülü şəraitində təsərrüfatçılıq həlqələrinin öz vəsaitləri hesabına fərdi dövriyyə dövretmələri qaytarılma və ekvivalent əsasla kreditorun müvəqqəti sərbəst vəsaitləri hesabına borc götürənin vəsaitə müvəqqəti tələbatı zəruriliyini obyektiv şərtləndirir. Belə əlaqə zəruri, ümumi və əhəmiyyətli (qanun xüsusiyyətlərinə malikdir) olduğundan, kreditin yaranmasının obyektiv iqtisadi qanununun mövcudluğu haqqında nəticə çıxarmağa imkan verir və bu səbəbdən də o əmtəə istehsalı və tədavülünün ayrılmaz atributudur; dövlətin, təsərrüfatçılıq subyektlərinin və əhalinin müvəqqəti sərbəst vəsaitləri isə onun maddi əsası kimi çıxış edir.

MUHASIBAT.AZ

7.2. KREDİTİN MAHİYYƏTİ VƏ KREDİT MÜNASİBƏTLƏRİNİN TİPLƏRİ

Kreditin mahiyyətinin tədqiqində naturalist və kapitalyaratma nəzəriyyələri aydın şəkildə müşahidə olunur. *Kreditin naturalist nəzəriyyəsi* ilk dəfə görkəmli ingilis iqtisadçıları A.Smit (1723-1790) və D.Rikardo (1772-1823) tərəfindən əsaslandırılmışdır. Almaniya və Avstriyanın tarixi məktəb adlandırılan nümayəndələri, fransız iqtisadçıları J.Sey, F.Bastiya, amerikalı D.Mak-Kullox bu nəzəriyyəyə tərəf çıxmışlar. Naturalist nəzəriyyə iqtisadçılarının əsas müddəaları aşağıdakılardan ibarət idi:

- kreditin obyekti natural, yəni maddi nemətlərdir;
- kredit natural nemətlərin hərəkətindən ibarətdir və buna görə də o həmin cəmiyyətdə mövcud olan maddi nemətlərin yalnız bölüşdürülməsi üsuludur;
- ssuda kapitalı həqiqi kapitala bənzərdir və bu səbəbdən də ssuda kapitalının yığımı elə həqiqi kapital yığımının təzahürüdür, birincinin hərəkəti isə istehsal kapitalının hərəkəti ilə tam üst-üstə düşür;
- kredit passiv rol icra etdiyindən kommersiya bankları yalnız vasitəçi hesab olunurlar.

Beləliklə, naturalist məktəbin nümayəndələri kapitalist iqtisadiyyatında kreditin mahiyyətinə və onun rolunu təhrif olunmuş şəkildə şərh etmişlər. Onlarının baxışlarındakı səhv əsas etibarilə ondan ibarət idi ki, onlar sənaye kapitalının üç formada dövranını və sənaye kapitalının pul formasında ayrılmış bir hissəsi kimi ssuda kapitalının mahiyyətini, həm də buna müvafiq olaraq ssuda kapitalının müstəqil rolunu və onun spesifikasını başa düşmürdülər.

Onlar krediti maddi dəyərlərin natural formada bölüşdürülməsi üsulu kimi şərh edirdilər, hərçənd əsl həqiqətdə kredit ssuda kapitalının

MUHASIBAT.AZ

hərəkətindən başqa bir şey deyil. Ssuda və həqiqi kapitalları eyniləşdirən naturalistlər nəinki kreditin rolunu və bankların əhəmiyyətini, həm də onun ikili xarakterni başa düşmürdülər, elə bu səbəbdən də kredit həm kapitalist təkrar istehsalının genişlənməsinə, həm də onun ziddiyyətlərinin kəskinləşməsinə yardım edə bilir.

Naturalist nəzəriyyənin bütün çatışmazlıqları ilə bərabər bir sıra müsbət cəhətləri də var idi: naturalistlər düzgün olaraq hesab edirdilər ki, kredit real kapitalı yaratmır və sonuncu istehsal prosesində əmələ gəlir. Onlar kreditin rolunu şişirtmədən (kapitalyaratma nəzəriyyəsi nümayəndələrindən fərqli olaraq), onun istehsaldan asılılığını göstərirdilər, faizin mənfəətin artıb-azalması və dinamikasından asılılığını qeyd edirdilər. Ona görə də naturalist nəzəriyyədə kreditin ziddiyyətli şərhi mövcud idi.

Digər kredit nəzəriyyəsinin – *kapitalyaratma nəzəriyyəsinin* – əsas konsepsiyası isə ingilis iqtisadçısı C.Lo (1671-1729) tərəfindən yaradılmışdır. Onun baxışlarına görə, kredit təkrar istehsal prosesindən asılı olmayan mövqeyə malikdir və iqtisadiyyatın inkişafında onun həlledici rolu vardır. Kapitalyaratma nəzəriyyəsinin bütün sonrakı elementləri həmin bu əsas müddəadan irəli gəlirdi. Kredit pul və var-dövlətlə eyniləşdirilirdi. C.Loya görə ölkənin istifadə olunmayan bütün imkanlarını hərəkətə gətirməyə, var-dövlət və kapital yaratmağa qabildir. O, banklara vasitəçi kimi deyil, kapital yaradıcısı kimi baxırdı. Emissiya bankının yaradılması haqqında ideya C.Loya məxsusdur və onun fikrincə emissiya bankının köməkliyi ilə cəmiyyətin bütün məhsuldar qüvvələrini hərəkətə gətirmək və ölkəni zənginləşdirmək olar.

Lakin bu ideyalar praktikada bu ideyalar iflasa uğradılar. Belə ki, Fransanın maliyyə naziri olan C.Lo 1720-ci ildə özünün özəl bankını dövlət Kral bankına çevirdi və bu bank veksellərin nəzərə alınması qaydası ilə banknotlar buraxır və onları gümüşə dəyişirdi. Ancaq,

MUHASIBAT.AZ

«Koipaniya İndiya» cəmiyyətinin aksiyalarının alınması ilə bağlı olan təminatsız pulların buraxılması onların qiymətdən düşməsi ilə nəticələndi, bank iflasa uğradı, C.Lo ölkədən qaçdı. C.Lonun nəzəriyyəsinin əsas başlıca çatışmazlığı ondan ibarət idi ki, o, banknotun emissiyasına məcburi kursla stavka qoymuşdu ki, bu da möhtəkirlik xarakteri daşıyırdı.

Kredit sistemlərinin, səhmdar cəmiyyətlərin, çek tədavülünün tətbiqinin inkişafından asılı olaraq C.Lonun ideyaları ingilis və fransız iqtisadçıları tərəfindən inkişaf etdirildi. Belə ki, ingilis iqtisadçısı Q.Makmod (1821-1902) kapitalyaratma nəzəriyyəsinin ən iri davamçılarından birinə çevrildi. Onun konsepsiyasına görə alıcılıq qabiliyyətinə malik olan pul və kredit var-dövlətdir. Kredit mənfəət gətirir və bu səbəbdən də «istehsalçı kapitaldır», banklar isə, «kredit fabrikləridir», çünki onlar kredit yaradırlar, deməli, həm də kapital yaradırlar. Lakin, kapitalyaratma nəzəriyyəsi krediti yanlış şərh edirdi və hesab edirdi ki, pul, kredit və kapital – eyni məfhumlardır. Amma pulun və kreditin əlaqələri eyni deyil, çünki pullar kağız və kredit pullara bölünür. Bundan əlavə, nəzəriyyənin nümayəndələri yanlış olaraq hesab edirdilər ki, kredit və pul – varidatdır, çünki çeklər, səhmlər, istiqrazlar pula dəyişdirilə bilirlər, banklar isə özlərinin aktiv əməliyyatları sayəsində kapital yaradırlar. Bu nəzəriyyənin nümayəndələri başa düşürdülər ki, bank kreditinin həcmi bankların özlərinin istəkləri ilə ssuda əməliyyatlarını təyin etmələriylə deyil, təkrar istehsalın şərtləri ilə müəyyənləşdirilir.

XX əsrin əvvəllərində kapitalyaratma nəzəriyyəsinin davamçıları və nəzəriyyəçiləri İ.Şumpeter (Avstriya), A.Qan (Almaniya), C.Keyns və F.Xoutri (İngiltərə) kimi qərb iqtisadçıları olmuşlar. A.Qan və İ.Şumpeter bankları qüdrətli hesab edirdilər, çünki kredit depozitləri yaradır və, deməli, həm də kapitalı yaradır. Onlar güman edidilər ki, kredit hüdudsuz ola bilər, elə bu səbəbdən də onun yaratdığı depozitlər

MUHASIBAT.AZ

və kapital da hüdudsuzdur. Onların fikrincə inflyasiya krediti (hüdudsuz genişlənməyə qabil kredit) təkrar istehsalın, iqtisadi inkişafın hərəkətverici qüvvəsidir və daimi iqtisadi inkişafa yardım edir, bu səbəbdən də onların nəzəriyyəsi «kreditin ekspansionist nəzəriyyəsi» adını almışdır. Son kapitalyaratma nəzəriyyəsi tərəfdarlarını birləşdirən o idi ki, onlar istehsalla müqayisədə tədavül sferasına üstünlük verirdilər. A.Qan və İ.Şumpeterin baxışlarındakı səhv ondan ibarət idi ki, onlar kredit ekspansiyasına və inflyasiyaya bəraət qazandırırdılar və sonuncu təkrar istehsal ziddiyyətlərinin kəskinləşməsinə yardım edirdi.

1923-1933-cü illərin böhranı kapitalyaratma nəzəriyyəsini heçə endirdi və onun tamamilə əsassızlığını göstərdi. Lakin, bu nəzəriyyənin «rasional toxumları» 1929-1933 böhranından və İkinci Dünya müharibəsindən sonra C.Keyns və onun davamçıları tərəfindən istifadə olundu. Bütövlükdə, kapitalyaratma nəzəriyyəsinə əsaslanan C.Keyns və onun davamçılarıiqtisadiyyatın kredit tənzimlənilməsi prinsiplərini belə əsaslandırırdılar ki, kredit iqtisadi inkişafı müəyyən edir. Ona görə də istehsalı və istehlak bazarını stimullaşdırmaq üçün ssuda faizlərinin azaldılması yolu ilə investissiyaların genişləndirilməsinə imkan yaradılması vacibdir ki, bu da son hesabda istehsal və istehlaka tələbi artırır, işsizliyi azaldır.

C.Keyns ssuda kapitalını pulla bərabərləşdirir və tədavüldəki pulun kəmiyyətindən faiz səviyyəsini müəyyənləşdirirdi. Onun konsepsiyasına görə pul – faizə, faiz – investisiyaya, investisiya – istehsala, istehsal – gəlirə, gəlir də qiymətlərə təsir göstərir. C.Keyns eyni zamanda etiraf edirdi ki, pul kütləsi müəyyən səviyyəyədək faizə təsir göstərir, investisiya isə faizə heç də həmişə lazımınca reaksiya vermir.

C.Keynsin hakim dairələr tərəfindən tənzimləmə üsulu kimi qəbul olunmuş nəzəri konsepsiyaları 1929-1933-cü illərdə kapitalist dövlətlərin iqtisadi böhrandan çıxamalarına köməklik etmişdir,

MUHASIBAT.AZ

müharibədən sonrakı illərdə tənəzzülün ağırlığını zəiflətmiş, dövlət tənzimləmə sisteminin formalaşdırılmasına yardım etmişdir. Fəqət, bu konsepsiyalar sosial-iqtisadi ziddiyyətləri həll edə bilməmişlər.

Pul-kredit tənzimləməsinin neokeynsçi məktəbi əsasən Amerika iqtisadçıları P.Samuelson, L.Lerner, S.Xarris, E.Xansen, C.Helbreytlə təmsil olunmuşdur. Onların baxışlarının əsasında C.Keynsin dövlətin təsərrüfat proseslərinə, o cümlədən kreditin köməkliyi ilə, fəal müdaxiləsi haqqında ideyası durur. Bu zaman iqtisadiyyatın tənzimlənilməsində əsas ümid, bir tərəfdən büdcə maliyyələşdirilməsinə (dövlət məsrəflərinin artması), digər tərəfdən isə – mərkəzi bankın uçot stvakalarının dəyişdirilməsi yolu ilə pul-kredit siyasətini müəyyənləşdirmə qabiliyyətinə bağlanılırdı.

ABŞ-da bu qrupla yanaşı başqası da (R.Qoldsmit, S.Kuznets, X.Duqel, D.Krimer) meydana çıxır və ssuda kapitalları bazarını, onun kapitalın akkumulyasiyası və mobilizasiyası (uyğunlaşdırılması və səfərbərliyə alınması) yolu ilə iqtisadiyyata qarşılıqlı təsirini, kredit sistemini və onun ayrı-ayrı həlqələrini diqqətlə araşdırır. Bu iqtisadçılar iqtisadiyyatın inkişafının pul kapitalı yığımından, kapital və kredit bazarı dinamikasından müəyyən asılılığını izləyir. Bunlar göstərir ki, korporasiyalar, dövlət, əhali öz maliyyə resurslarının zəminində inkişaf edə bilməzlər və daim kapital bazarının pul vəsaitlərinin axınını tələb edirlər. Bu alimlərin xidməti ondan ibarətdir ki, onlar kapital bazarı və kredit sisteminin dəqiq strukturunu və fəaliyyət parametrlərini yaratmışlar. Bütövlükdə, onların konsepsiyası kredit haqqında Keyns və neokeyns ideyalarına əsaslanır.

Kapitalyaratma nəzəriyyəsi monetarizm nəzəriyyəsində daha da inkişaf etdirildi və sonuncu nəzəriyyənin nümayəndələri ABŞ-da M.Fridman, R.Ruza, A.Berns, Fransada J.Rüeff, AFR-də O.Fayt idi. M.Fridmanın monetarizm nəzəriyyəsini xüsusilə qeyd etmək lazımdır. Bu nəzəriyyəyə görə iqtisadiyyatın tənzimlənilməsinin əsas

MUHASIBAT.AZ

instrumentləri pul kütləsinin və faiz stavkalarının dəyişdirilməsidir və bu, da kredit ekspansiyası ilə restrikasiyanı növbələşdirməyə imkan verir. Pul kütləsinin müəyyən səviyyədə faiz stavkaları ilə uzlaşdırılmış orta illik artım tempinin müəyyənləşdirilməsi istehsal və qiymət dinamikasına təsir göstərməyə imkan verir.

Monetarizm nəzəriyyəsi həm də antiinflyasion adını almışdır, belə ki, onun təklifləri XX əsrin 80-ci illərinin əvvəllərindən bu günə qədər ABŞ-ın və Qərbi Avropanın iqtisadi siyasətində hakim dairələr tərəfindən istifadə olunmuşdur. Onun mahiyyəti bundan ibarətdir ki, pul kütləsinin artımı və faiz stavkalarının yüksəlməsininqarşısının alınması həyata keçirilir. Hərçənd bu tədbirlər XX əsrin 80-90-cı illərində qiymətlərin aşağı düşməsinə səbəb olmuşdur, bununla belə, onlar sənayecə inkişaf etmiş ölkələrdə inflyasiyanı və onun köklü səbəblərini ləğv etməmişdir.

Eyni zamanda iqtisadi təzahürün, eləcə də kreditin mahiyyətini müəyyənləşdirmək onun növ və cins əlamətlərinin məcmusunu araşdırmaq deməkdir. Kreditin cinsi əlamətləri onu inkişafın bütün mərhələlərində xarakterizə edir, növ əlamətləri isə tarixən müəyyənləşmiş istehsal üsulu şəraitində onun spesifikasını ifadə edir. Kreditin özünün bütün digər dəyər münasibətlərindən fərqli olan və pul fondlarının yaradılması və istifadə olunması ilə bağlı olan fərqli mahiyyətə malikdir (təsadüfi deyil ki, praktikada maliyyələşdirmə ilə kredtiləşdirməni fərqləndirmək qəbul olunmuşdur). Krediti başqa iqtisadi kateqoriyalardan fərqləndirənlərdən ən çoxu təciliiyi, dəyərin götürülməsinin müvəqqətiliyi, qaytarılmalılığı və ödənişliliyidir.

Kredit – iqtisadi münasibətləri ifadə edən, ssuda sövdəsi üzrə, yəni vəsaitlərin müəyyən müddətdə qaytarılması öhdəliyi ilə müvəqqəti istifadəyə verilməsi üzrə kreditorla borc götürən arasında formalaşan kateqoriyadır. Başqa sözlə, kredit dəyərin qaytarılma hərəkəti üzrə münasibətlərdir (bu, kredit münasibətləri obyektidir).

MUHASIBAT.AZ

Dövlət, müəssisələr, əhali, yəni müvəqqəti sərbəst pula malik olan, yaxud bunlara müvəqqəti ehtiyacı olan hər kəs *kredit münasibətləri subyektləri* (kreditorlar və borc alanlar) kimi çıxış edə bilər. Spesifik maliyyə münasibətlərinin məcmusu kimi kreditin ən mühüm əlaməti iqtisadi həyatın bir subyektinin digərinə borclu olması faktıdır. Həm fiziki, həm də hüququ şəxslər (firma, şirkət) belə subyekt kimi qəbul oluna bilər.

Kreditin mahiyyətini təkcə ssuda kapitalının hərəkəti kimi dəyərləndirmək olmaz. «Kredit» anlayışının geniş şərhi lizinq, möhlət, möhlətli ödəniş sövdəsi və s. kimi iqtisadi münasibətlərin varlığını nəzərdə tutur. Ona görə də qeyri-pul resursları (sənaye malları, istehlak təyinatlı mallar, istehsalat gücləri) və ya əmtəə formasında resurslar üzrə təsərrüfat əməliyyatları kreditin belə anlaşılmasına daxildir.

Kredit münasibətlərinin inkişafı qanunauyğun xarakterdədir və aşağıda ifadə olunan qarşılıqlı bağlılıqlar zənciri şəklindədir:

- kredit münasibətlərinin fəaliyyət göstərməsi ssuda edilən vəsaitlərin qaytarılması prosesində təsadüfilik elementinin istisna olunmasını tələb edir;
- kreditor və borc alanın münasibətlərində hər bir konkret sövdənin bağlanılmasında təsadüfilik elementi meydana çıxır;
- bu təsadüfiliyin dəf olunması yalnız onların tənzimlənilməsi və tənzimləyici başlanğıcın qüvvətlənməsi istiqamətində kredit münasibətlərinin inkişafı ilə mümkündür.

Kredit münasibətlərinin növlərini kreditə olan ehtiyacdan asılı olaraq fərqləndirmək olar. Borc vəsaitlərə və onlara müvafiq olan kredit növlərinə tələbatı üç böyük qrupa bölməək olar.

Birinci qrupa maddi dəyərlər ehtiyatının yaradılmasındakı, istehsalat itkilərinin planlaşdırılmasının aparılmasındakı tələbatlar daxildir. Kreditin onların təmin olunmasına təsiri müəyyən mənada mərkəzləşdirilmiş xarakter daşıyır. Kreditlərin həcmi əvvəlcədən

MUHASIBAT.AZ

istehsal plan-proqnozları və məhsul dövriyyəsi əsasında hesablanılır. Proqnoz kredit planında nazirliklər (idarələr) üzrə kreditlər üzrə borclar nəzərə alınır. Bundan sonra limitlər və ya kreditlləşdirmənin kontrol rəqəmləri sənaye, istehsalat birlikləri, müəssisələr üzrə bölüşdürülür. Bəzi hallarda limitlər kreditin ayrı-ayrı obyektləri üçün müəyyənləşdirilir. Bu üsulla idarəetmənin müxtəlif səviyyələrində dövriyyə vəsaitlərinin formalaşdırılmasına mərkəzləşdirilmiş təsir göstərilir.

Borc vəsaitlərinə tələbatın ikinci qrupu müəssisənin işinin, maddi-texniki təchizatının, məhsul satışının normal gedişindən kənara çıxması, ilə bağlıdır. Bu tələbatlar kreditlərin xüsusi növlərinin köməkliyi ilə ödənilir: plandankənar maddi dəyərlər ehtiyatları üzrə (məsələn, müvəqqəti ehtiyaclar üçün), müvəqqəti olaraq özünəməxsus (özəl) dövriyyə vəsaitlərinin çatışmazlığının doldurulması və s. bu kreditlərin xüsusiyyəti həm də ondan ibarətdir ki, bank müəssisəsi hər bir ayrılıqda götürülmüş halda müvafiq tələbatın mövcudluğunu yoxlayır, onun kredit hesabına təmin olunması imkanlarını müəyyənləşdirir, kreditlərin konkret həcmlərini təyin edirlər.

Üçüncü qrupa həm istehsalın və məhsulun normal tədavülünün, həm də bunlardan müvəqqəti yayınmalar olduqda meydana çıxan borc vəsaitlərinə yaranan tələbatlar aid edilir. Onlar, məsələn, göndərişçi ilə alıcının tədiyə dövriyyəsinin strukturundan, onların ərazicə yerləşməsindən, ödənişlərin uyğunlaşması (üst-üstə düşməsi) və vəsaitlərin daxil olması səviyyəsindən və b. asılıdır. Bu tələbatlar mütəhərrikdir, hər bir təsərrüfat təşkilatı üçün onların həcmi əvvəlcədən müəyyənləşdirilə bilməz. Ona görə də bunların təmin olunması üçün kreditlər bütövlükdə iqtisadiyyat üçün proqnozlaşdırılır və nə sahələr üzrə, nə də ərazi prinsipi üzrə bölüşdürülmür. Bununla yanaşı, onlar kütləvi xarakterdədir, çünki bütün kreditləşdirilən müəssisələrə verilə bilər.

MUHASIBAT.AZ

Ən ümumi şəkildə dövlət müəssisələrini və kommersiya təsisatlarını kommersiya veksellərinin uçotu formasında, ixrac və idxal fəaliyyətinin kreditləşdirilməsi, müəssisənin investisiya fəaliyyətinin kreditləşdirilməsi, digər bank müəssisələrinə kreditlərin verilməsi, müəssisə və kommersiya təsisatlarına münasibətdə milli və beynəlmiləl kredit əməliyyatlarının digər formalarını, xüsusi şəxslərin kreditləşdirilməsi, personal kreditlərin verilməsi, istehlak kreditlərinin verilməsi, kredit kartları sahiblərinin kreditləşdirilməsi və s. kimi kredit münasibətləri və ya ssuda kapitalının hərəkət növlərini fərqləndirmək olar.

Banklar kreditləşdirmənin ümumi qaydalarını rəhbər tuturlar. Kreditlərin bu proqnozlaşdırılması və verilməsi xüsusiyyətləri müəssisənin maliyyə-təsərrüfat fəaliyyətindəki uzunmüddətli kəsirlərin kreditlə bağlanılmasına səbəb ola bilər. Verilən kreditlərin məqsədli faktiki yönümlərinə bank müəssisələrinin sistematik nəzarəti getdikcə mühüm əhəmiyyət kəsb edir.

Özünü yoxlama üçün suallar

1. Əsas kredit nəzəriyyələrinin adlarını deyin və onların xüsusiyyətlərini göstərin.
2. Kreditin meydana çıxmasının zəruriliyi hansı şəraitdən irəli gəlir?
3. Kreditin meydana çıxmasının hansı obyektiv şərtləri mövcuddur?
4. Əlavə pul vəsaitlərinə tələbat hansı yollarla təmin oluna bilər?
5. Kredit siyasəti hansı prinsiplərə əsaslanmalıdır?
6. Kredit münasibətlərinin hansı növləri vardır?
7. Kredit münasibətlərinin inkişafının qanunauyğunluğu özünü nədə büruzə verir?

MUHASIBAT.AZ

8. Kreditə hansı tələbatlar qrupu mövcuddur?

MUHASIBAT.AZ

8. KREDİTİN FUNKSİYALARI, PRİNSİPLƏRİ VƏ SƏRHƏDLƏRİ

8.1. KREDİTİN FUNKSİYALARI VƏ PRİNSİPLƏRİNİN XARAKTERİSTİKASI

Kreditin funksiyalarını aydınlaşdırmazdan əvvəl onun *istehsal münasibətləri sistemindəki yerini* müəyyənləşdirmək lazımdır. Məsələ burasındadır ki, bəzi iqtisadçılar krediti dövriyyə fazasına, digərləri isə – bölüşdürmə fazasına aid edirlər. Amma kredit – bölüşdürmə kateqoriyasıdır, çünki milli gəlirin bölüşdürülməsi prosesində (kreditordan borc alana və əksinə) iştirak edir. Eyni zamanda kredit dəyərin qaytarılması hərəkətidir, belə ki, kredit mübadilə münasibətlərinə xas olan cizgi və xaraeterə malikdir.

Mübadilə fazasında bölüşdürmə münasibətləri anlarını fərqləndirmək mümkün olduğundan (istehsalat nəticələrinin bölüşdürülməsi), kredit münasibətlərini də elə bura aid etmək lazımdır. Ona görə də bölüşdürücü kateqoriya olan kredit mübadilə fazasına aiddir və ya ikili təbiəti vardır. Bu, *kreditin funksiyalarında* öz əksini tapır və onlara aşağıdakılar aiddir:

- bölüşdürücü funksiya, ondan ibarətdir ki, kreditin sayəsində iqtisadiyyatda vəsaitlərin qaytarılma əsasında bölüşdürülməsi baş verir. Bu halda kreditin bölüşdürülmə təbiəti təzahür edir;
- həqiqi (metal) pulların pul nişanları ilə əvəzlənməsi funksiyası və dövriyyənin kredit funksiyasının yaradılması. Bu halda kredit mübadilə kateqoriyası kimi çıxış edir;
- nəzarət-stimullaşdırıcı funksiya hansısa nəzarətedici orqanın (məsələn, bankların) nəzarət fəaliyyətini deyil, iqtisadi rıçaqların köməkliyi ilə müəssisənin özünə nəzarətini bildirir. Bu halda kreditin köməkliyi ilə təkrar istehsal prosesi üzərində pul nəzarəti həyata keçirilir. Məsələn, əgər müəssisə pis işləyirsə,

MUHASIBAT.AZ

onda bu, onun ssudalar üzrə borclarında və son hesabda bütövlükdə onun maliyyə durumunda öz əksini tapır. Ona görə də nəzarət-stimullaşdırıcı funksiyanın köməkliyi ilə kredit, bir növü, istehsalatın durumu haqqında xəbərdarlıq edir və müəssisəni öz işini yaxşılaşdırmağa, istehsal münasibətlərini təkmilləşdirməyə sövq edir.

Kredit nəzəriyyəsi qaytarılma, təcililik, ödənişlilik, məqsədli xarakter, kapital hesabı ilə kredit resurslarının əvəzlənilməsinə yol verilməməsi kimi *kreditləşdirmə prinsiplərini* fərqləndirir. Qaytarılma və təcililik kreditləşdirmənin əsas prinsipləridir və kreditin qaytarılmasının labüdlüyünü, üstəlik ondan istifadə üçün ödənişin verilməsini bildirir. Krediti kredit müqaviləsində təsbit olunmuş, təyin olunan vaxtda qaytarmaq lazımdır.

Kreditin ödənişliliyi prinsipi çox vaxt sırf nominal olur, çünki bəzən kredit mənfi faizlə verilir (bank əmanətçiyə pul ödəyir). Bununla belə, müəyyənləşdirici odur ki, kredit müəyyən ödəniş müqabilində verilməlidir (kreditə görə faiz). Yalnız bu halda kredit müəssisəsi təsərrüfat (kommersiya) hesabı prinsipi ilə işləyə biləcək. Bu zaman kreditin stimullaşdırma rolu təkcə borc alan üçün deyil, həm də kredit verən üçün ifa olunacaq.

Kreditin qiymətinin müəyyənləşdirilməsi zamanı aşağıdakıları nəzərə almaq zəruridir:

- komissionlar (marja) faizlərdəki kimi proporsiyalarda da dəyişilmir. Ona görə də faiz stavkalarının azaldılması zamanı bank itkiləri komissionların artırılması hesabına kompensasiya edə bilər;
- ayrı-ayrı kreditlərin verilməsi şərtləri baza bank stavkalarından asılı olmadan müəyyənləşdirilə bilər və buna görə də həmin stavkaların dəyişkənliyindən asılı olmayaraq dəyişilə bilər;

MUHASIBAT.AZ

- ayrı-ayrı qısamüddətli kreditlərin çıxış stavkası pul bazarında mövcud olan şərtlərlə bilavasitə uzlaşdırıla bilər.

Kreditin məqsədli xarakteri yalnız etibarsız borc alanların kreditləşdirməsi zamanı və ya bank maliyyələşdirilən tədbirin təşəbbüskarı kimi çıxış etdikdə, şərt ola bilər. Eyni zamanda kreditin məqsədli yönümü onu bildirir ki, borc vəsaitləri ciddi şəkildə öz təyinatı üzrə istifadə olunmalıdır. Bu, ilk növbədə göstərilən məqsədli proqramların (problemlərin) həlli üçün verilən kreditlərə aiddir.

Kredit resursları ilə kapital hesablarının əvəzlənilməsinə yol verilməməsi kreditləşdirmənin mühüm prinsipidir. Əgər bu baş verirsə, bank təxirə salınmadan kreditləşdirməni dayandırır və verilən bütün kreditləri, onların ödənilmə müddətindən asılı olmayaraq, geri çağırır. Əgər müəssisə bu məqamda əlavə resurslar tapmırsa və ya başqa mənbələrdən vəsait səfərbərliyə ala bilmirsə, bank onu müflis elan etmək məcburiyyətində qalır. Bu halda bankla hesablaşan müəssisə, əgər payçılar kapital paylarının özlərinə məxsus hissəsinin silinməsi ilə və müəssisənin azalmış kapitalla fəaliyyət göstərməsinə razılaşmarlarsa, vəsaitin qalıqlarını öz payçıları arasında bölüşdürür və öz likvidliyini (ləğv olunmasını) elan edir.

Banklar, belə situasiyanın qarşısını almaq məqsədi ilə, bir qayda olaraq, müəssisələrin başqa mənbələrdən maliyyələşdirilməsinə yol verməməlidirlər və kreditin verilməsi şərti üzərində müəssisənin kommersiya krediti üzrə borcları, möhlətli ödənişləri, vergiləri, müəssisə tərəfindən əlavə aksiya və istiqrazların və s. buraxılması üzərində ciddi nəzarəti olmalıdır. Son illərdə banklar çox tez-tez «paketdə» xidmət göstərməyi – təkcə kreditləşdirmə deyil, həm də cari hesabın, haqq-hesab əməliyyatlarının, investisiya üzrə məsləhətləşmələrin aparılmasını, əmək haqqının ödənilməsini, pensiya fondunun idarə olunmasını, xarici valyuta ilə əməliyyatları və s. sırımaq istəyirlər. Eyni zamanda müəssisələrin özləri də tez-tez «dövriyyə üzrə»

MUHASIBAT.AZ

kreditləşdirməyə üstünlük verirlər. Bu halda onlar kapital dövranındakı bütün ehtiyaclarını (çox vaxt əsas kapitala yeni yatırımların böyük hissəsini də) bankın kreditləri hesabına ödəyirlər, öz yığımlarını onda (əmanətlər şəklində) və ya onun vasitəsilə (başqa müəssisələrə yatırımlar şəklində) yerləşdirməklə (izafi əlavə vəsaitlərin və s. satılmasından amortizasiya, əldə edilən mənfəət, gəlir) təmin edirlər. Nəticədə bankların iqtisadi proseslərə təsir imkanları kəskin şəkildə artır.

MUHASIBAT.AZ

8.2. KREDİTİN SƏRHƏDLƏRİ ANLAYIŞI

Kreditin istifadəsi sferasının genişlənməsi və ya daralmasının müəyyən həddi vardır ki, bunu da kreditin sərhədləri adlandırmaq qəbul olunmuşdur. Bu günədək onun vahid şərhi yoxdur. Bununla belə, kreditin kəmiyyət və keyfiyyət sərhədlərini fərqləndirmək lazımdır.

Kreditin kəmiyyət sərhədlər – bu, konkret zaman kəsiyində iqtisadiyyata kredit yatırımlarının sərhədləridir. Bu, ssuda fondunun həcmi və natural-maddi tərkibindən asılıdır. Ssuda fondunun dəyişmələrinə uyğun olaraq kredit sərhədləri də genişlənə və məhdudlaşa bilər.

Lakin ilk növbədəkreditin yaranması qanunu və onun obyektiv fəaliyyət xarakteri ilə şərtlənən *kreditin keyfiyyət sərhədləri* və ya kredit münasibətlərinin sərhədləri (fəaliyyət sferası) müəyyənləşdirilməlidir, habelə kreditin zəruriliyi və mümkünlüyü ilə şərtlənən istifadə sferası nəzərə alınmalıdır.

Kredit münasibətlərinin zəruriliyi və mümkünlüyü kreditin meydana çıxması zəruriliyi qanunu ilə müəyyən edildiyindən, kredit mexanizminin bu qanunun fəaliyyət qanunundan irəli gələn tələbləri ondan ibarətdir ki, kredit resursları təkrar istehsal prosesində müvəqqəti azad olan vəsaitlər zəminində formalaşmalıdır və əlavə vəsaitlərə normal müvəqqəti tələbatın ödənilməsinə yönəldilməlidir.

Praktikada isə belə təsəvvür var idi ki, bank özü sərbəst şəkildə kredit resursları yarada bilər. Bu günədək təsərrüfatların (o cümlədən zərərlə işləyən) istənilən fəaliyyətini kreditləşdirmə «prinsipi» fəaliyyət göstərir, təki o planlı və ya dövlət sifarişi, yaxüd da müqavilə ilə həyata keçirilsin. Ona görə də kredit resurslarının real iqtisadi məhdudlaşdırılmasına nə bütövlükdə bank sistemi, nə də onun ayrı-ayrı təsisatları malik deyildi. Faktiki olaraq kreditin yaranması qanununun fəaliyyəti nəzərə alınmırdı.

MUHASIBAT.AZ

Elmi cəhətdən əsaslandırılmış kredit mexanizminin yaradılması kreditin yaranması qanununun fəaliyyətinin mütləq uçotunu nəzərdə tutur. Kreditin yaranması qanunu yalnız əmtəə-pul münasibətlərinin normal işləməsi şəraitində fəaliyyət göstərir. Real kredit münasibətləri iqtisadiyyatın o sferalarında meydana çıxır ki, burada təsərrüfat əlaqələri ekvivalentlik münasibətlərinə, tərəfindən ələ keçirilir-tərəfindən ələ keçirilir hallarda isə əvəzlənilmə münasibətlərinə əsaslanır.

Əgər müəssisənin öz fəaliyyətinin nəticələri üçün real maddi məsuliyyəti olmazsa, onda kredit münasibətlərinin normal işləməsinin, ssudaya verilən vəsaitlərin qaytarılabilməsinin qarantiyası da olmayacaq. Ona görə də əmtəə-pul münasibətlərinin inkişafının sərhədlərini kreditin işləməsi sferasının sərhədləri müəyyən edir. Bu çərçivələr daxilində kredit münasibətlərinin sərhədləri dəyişilə bilər ki, bu da yeni növ kredit münasibətlərinin meydana gəlməsi və kredit mexanizsinin təşkilati strukturunun dəyişilmələri ilə bağlıdır. Bu onu bildirir ki, mütləq kreditin faktiki istifadə olunması sferasını onun obyektiv işləməsi sferası ilə uyğunlaşdırmaq lazımdır ki, bunun üçün də:

- kreditin meydana çıxması qanununun işləmədiyi iqtisadiyyat sferalarında kredit yatırımlarının əsassız genişləndirilməsini dəf etmək və gələcəkdə iqtisadiyyatın kreditin yaranması qanununun işləmədiyi həmin sferalarında kredit yatırımlarının həyata keçirilməsinə yol verməmək. Kreditin istifadə olunmasının genişlənməsinə yalnız o halda yol verilir ki, onun sərhədlərinin genişlənməsi üçün şərait (əmtəə-pul münasibətlərinin və təsərrüfatçılığın təsərrüfat-hesablı inkişafı) və bununla bərabər əlavə kredit resursları meydana çıxsın;
- pulun kredit sisteminin fəaliyyət sferasının əsaslandırılmamış sıxışdırılmasının dövlət idarəçiliyi orqanlarının diktatından azad

MUHASIBAT.AZ

edilməsi yolu ilə istisna edilməsi. Bunun üçün əlavə vəsaitlərə olan müvəqqəti tələbatın ödənilməsi üçün büdcə təxsisatlarının sərbəst istifadə olunmasının qarşısının alınması və əsasən kredit münasibətlərinin iqtisadi tənzimlənilməsindən istifadə olunmasına keçilməsi lazımdır.

Özünü yoxlama üçün suallar


1. Kreditin hansı funksiyaları vardır?
2. Kredit prinsipi nə deməkdir?
3. Kreditin qiymətinin müəyyənləşdirilməsi zamanı nəyi nəzərə almaq lazımdır?
4. Kreditin hansı sərhədləri vardır və onların təzahür formaları hansılardır?

MUHASIBAT.AZ

9. KREDİTİN FORMALARI

9.1. KREDİTİN FORMALARININ ÜMUMİ XARAKTERİSTİKASI VƏ ONUN TƏSNİFATININ MEYARLARI

Kredit mexanizminə mahiyyətli xarakteristikalardan əlavə daha konkret formalar da daxildir. Təsnifatın seçilmiş meyarından asılı olaraq kreditin aşağıdakı daha mühüm formalarını fərqləndirmək olar (şəkil 9.1):



Şəkil 9.1. Kreditin əsas formaları

Əsas funksional xarakteristikaları nəzərə alaraq onları aşağıdakı kimi təsnif etmək olar:

- fəaliyyət göstərmə sferası üzrə – milli və beynəlxalq kredit;
- kredit sövdəsi obyekti üzrə – pul və əmtəə krediti;

MUHASIBAT.AZ

- kredit münasibətlərinin subyektləri üzrə – təsərrüfat təşkilatları ilə banklar (bank krediti) arasında, dövlətlə əhali arasında (dövlət krediti), müəssisələr arasında (kommersiya krediti), banklarla əhali arasında (istehlak krediti), dövlətlər və maliyyə-kredit təşkilatları arasında (beynəlxalq kredit) və s.

Pul-kredit siyasəti üzrə bir sıra ədəbiyyat mənbələrində kreditin müxtəlif növlərinin təsnifatı verilir: müddət üzrə (qısamüddətli, ortamüddətli, uzunmüddətli), növlər üzrə (təmin olunmuş, təmin olunmamış və ya blank krediti), borcluların növləri üzrə (kənd təsərrüfatı, sənaye, kommunal, fərdi), istifadə üzrə (istehlak, sənaye, şirkətlərin vəsaitlərinin formalaşdırılması üçün kredit, investisiya, mövsümi, qiymətli kağızlarla əməliyyatlar üzrə kredit, idxal, ixrac üzrə), həcmi üzrə (kiçik, orta, iri).

Belə hesab olunur ki, həmin təsnifatı yekunlaşdırıcı hesab etmək olmaz, çünki onun əsasında formal əlamətlər durur. Ona görə də həm də vaxtı uzadılmış kredit növlərini fərqləndirmək olar ki, bu halda kreditin qaytarılma müddəti bank tərəfindən uzadılıb və kreditlər üzrə vaxtı uzadılmış borclar hesabına daxil edilib. Borc alana kreditin verilməsi formalarından biri kredit xəttinin açılmasıdır. Kredit xətti (kredit növü kimi) kredit təşkilatının borc alan qarşısında razılaşdırılmış həcmdə və müəyyənləşdirilmiş məqsədlər üçün kredit müqaviləsinin fəaliyyətinin müəyyənləşdirilmiş dövr ərzində hüquqi cəhətdən tərtib olunmuş öhdəliyindən ibarətdir. Cari bank hesabının (overdraft) müqavilə çərçivəsində kreditləşdirilməsi kredit təşkilatı tərəfindən hesab sahibinə cari bank hesabına, orada pul vəsaitlərinin olmamasına baxmayaraq, fəqət daxil olan vəsaitlər hesabına hesab sahibinin meydana çıxan borclarının ödənilməsi üçün kreditor qarşısında borcu hüdudunda ödəniş tələbnaməsi vasitəsilə kredit verilməsini bildirir.

MUHASIBAT.AZ

Lombard krediti xüsusi kredit forması sayılır və qısamüddətli və asanlıqla satıla biləcək tərpənən əmlak və ya hüquqlarla təmin olunan həcmcə təsbit olunmuş ssudadır. Lombard kreditinin əsas növləri qiymətli kağızların girov qoyulması müqabilində kredit, girov qoyulmuş mal üzrə kredit, tələbnamənin (əmanət yatırımları, sığorta müqavilələri, ipotekalar və s.) girov qoyulması üzrə kreditlərdir. Borc alan lombard kreditini öz bildiyi kimi istifadə etmək hüququna malikdir və bu hüququn hər hansı şəkildə məhdudlaşdırılması doğru deyildir. Borc alan üçün lombard kreditinin dəyəri faizlərdən və komission ödənişlərindən əmələ gəlir. Lombard kreditindən istifadə üçün faizlərin hesablanılması müddəti kredit müddətindən artıq ola bilməz, komission ödənişlərin həcmi isə ilk növbədə girov qoyulan əmlakın (məmulun) saxlanılması üzrə məsrəflərdən asılıdır.

MUHASIBAT.AZ

9.2. BANK KREDİTİ

Ssuda kapitalının ən mühüm hərəkət forması kimi bank krediti çıxış edir. Bank krediti milli və beynəlxalq miqyasda təkrar istehsal prosesində kapitalın bölüşdürülməsinin universal alətidir. Bu halda iqtisadiyyatın dinamik müvazinəti kapital resurslarının müxtəlif regionlar və sahələr arasında, habelə sahədaxili investisiya manevrləşdirilməsi imkanlarının yaradılmasında disbalansın aradan qaldırılması yolu ilə təmin olunur.

Bank krediti banklar tərəfindən maddi təminatlılıq, məqsədyönlü istiqamətli, müddətli, qaytarılmalı və ödənişli əsaslarla ödəncə görə borc verilən ssuda kapitalının hərəkətindən ibarətdir. Bank krediti banklarla kreditləşdirmə subyektləri (borc alanlar) arasında iqtisadi münasibətləri ifadə edir. Banklar öz mənbələrinin, hüquqi şəxslərin və vətəndaşların əmanətlərinin (mütləq ehtiyatlar fondunda ehtiyatlaşdırılmışdan savayı), digər banklardan alınmış resursların (kredit resursları bazarında) hesabına kreditləşdirməni həyata keçirirlər.

Bu zaman banklar hüquqi və fiziki şəxslərin yalnız öz vəsaitlərini depozitə qəbul edə bilərlər. Cəlb edilmiş pul vəsaitlərinin bir hissəsi mərkəzi bankda kommersiya banklarının mütləq ehtiyat fondlarında depozitə qoyulur ki, bu da kredit resurslarının həcmini azaldır.

İstər öz dövlətinin hüquqi və fiziki şəxsləri, istərsə də digər dövlətlərin hüquqi şəxsləri kreditləşdirmə subyektləri ola bilərlər. Bank kreditlərinin təsnifatı müxtəlif meyarlarla müəyyənləşdirilə bilər: istifadə edilmə müddətindən, kreditləşdirmə məqsədlərindən, borcalanların növlərindən, kreditin verildiyi valyutadan, risk dərəcəsindən və s. asılı ola bilər.

MUHASIBAT.AZ

İstifadə olunma dövrü üzrə kreditlərin *qısamüddətli və uzunmüddətli* kreditlərə bölgüsü qəbul olunmuşdur. Kreditin müddəti onun ilkin verilmə anından ta ssuda borcunun tam ödənilməsinədək hesablanır. Kreditlərin müxtəlif müdətliliyi onların məqsədli təyinatında fərqlərin olmasını nəzərdə tutur.

Bank krediti qısamüddətli kreditlər borc alanın on iki ay çərçivəsində istənilən qısamüddətli dövr ərzində cari aktivlərinin formalaşdırılması üçün vəsaitə olan tələbatının müvəqqəti ödənilməsi üçün verilir və onun konkret həcmi istehsalın tələbləri, məhsulun realizasiyası, kreditləşdirilən ehtiyatların və ya məsrəflərin azaldılması ilə şərtlənir.

Uzunmüddətli kreditlər uzunmüddətli aktivlərin genişləndirilmiş təkrar istehsalı üçün nəzərdə tutulur, yəni əsas fondların yaradılması, rekonstruksiyası, genişləndirilməsi və modernləşdirilməsi üçün nəzərdə tutulur ki, bu da pul vəsaitlərinin çoxillik cəlb edilməsini tələb edir. Uzunmüddətli kreditin maksimal müddəti kreditləşdirilən tədbirlərin öz xərcini çıxarma normativ müddətləri ilə əlaqələndirilməlidir.

Bank kreditləşdirməsinin üstünlük təşkil edən *obyektləri* istehsal sferasında, xarici iqtisadi fəaliyyətdə, inşaatda əmtəə-mal dəyərlərinin və məsrəflərinin mövsümi (müvəqqəti) ehtiyatlarıdır, ticarət və satış-təchizat təşkilatlarındakı mallardır, kənd təsərrüfatı məhsullarının hazırlığıdır və s. Bank kreditləri dövlət əmlakının satın alınması, bankda əmtəə veksellərinin (və ya girov əsasında) hesablanması üçün, mənzil tikintisinə (alınmasına), istehlak ehtiyaclarına, lizinq əməliyyatların keçirilməsi və s. üçün xüsusi şərtlərlə həm də təsərrüfat subyektlərinə də verilə bilər.

Kreditlər təsərrüfat süubyektlərinə milli valyuta ilə verilir, kommersiya banklarında valyuta əməliyyatlarının həyata keçirilməsinə lisenziya olduqda isə xarici valyuta ilə də verilir.

MUHASIBAT.AZ

Bank krediti hesabına hüquqi şəxslərin itkilərinin ödənilməsinə, nizamnamə fondlarının üzvlük haqlarının ödənilməsinə, əvvəllər alınmış kreditlərin ödənilməsinə və ya özgə kredit alanın kreditinin ödənilməsinə, kreditdən istifadə olunmasına görə faizlərin verilməsinə, mükafatların, peniyaların, cərimələrin, dəbbələmələrin ödənilməsinə, lombard əməliyyatlarının həyata keçirilməsinə yol verilmir. Kredit verənin kredit alana ilkin qabaqlayıcı (avans) ödənişləri üçün yalnız qanunvericilikdə nəzərdə tutulan hallarda və həcmdə kredit vermək haqqı vardır.

Təsərrüfat subyektlərinə kreditlər müstəsna olaraq kredit müqaviləsində nəzərdə tutulan məqsədlər üçün verilir. Lakin, ödəniş, sənədində yalnız kredit müqaviləsinə istinad edilməsi vəsaitlərin göndərişçiyə köçürülməsi üçün əsas sayıla bilməz. Kredit yalnız o şərtlə verilə bilər ki, göndərişçinin akseptləşdirilmiş haqq-hesab sənədləri və ya ssuda verənin özünün faktiki olaraq yüklənilmiş (alınmış) maddi dəyərlərin, aparılmış xərclərin (işlərin) və göstərilən xidmətlərin (əgər onlar borc alanın fəaliyyətinin əsas növüdürsə) bilavasitə ödənilməsi üçün hesablaşma sənədləri banka təqdim olunsun.

Kreditlərin verilməsi yuxarıda göstərilən hesablaşma sənədlərinin ödənilməsi üçün nəqdsiz yolla həyata keçirilir. Mərkəzi bankın kreditləşdirmə qaydalarında xüsusi qeyd olunmuş ayrı-ayrı kredit növləri (əhalidən kənd təsərrüfatı məhsullarının alınması, əmək haqqının ödənilməsi, istehlak xərcləri) nəqd pul vəsaitləri şəklində verilə bilər və bu da tərəfindən ələ keçirilir-tərəfindən ələ keçirilir hallarda edilir. Bunun üçün kreditin nəqd pulla verilməsinin labüdlüyünü təsdiq edən müstəsna hallar və müvafiq iqtisadi əsaslandırma lazımdır.

Borc alan kreditdən istifadə etdiyinə görə banka *faiz* verir və onun həcminin müəyyənləşdirilməsi zamanı bank dövlətdə aparılan faiz siyasətinə, inflyasiya səviyyəsinə, kreditin növü və müddətinə, bank riskinin müdafiəsi dərəcəsinə (verilən girov öhdəliklərinin, qarant və

MUHASIBAT.AZ

zəmanətlərin keyfiyyəti) və digər amillərə əsaslanır. Faiz stavkalarının, faizlərin hesablanması və ödənilməsi qaydaları, dövriliyi, müddətliliyi, habelə hər bir konkret halda onların tutulması mexanizmi bank tərəfindən fərdi qaydada müştəri ilə razılığa əsasən müəyyənləşdirilr və kredit müqaviləsində təsbit olunur. Kreditə görə faiz stavkaları təsbit olunmuş (möhkəm) və tənzimlənən (qeyri-sabit) ola bilir. Təsbit olunmuş stavkalar üzrə ssudalar adətən 30 gündən artıq olmayan müddətə verilir və onun ödənilməsissudadan istifadə olunan bütün müddət ərzində dəyişiklik edilmədən, əvvəlcədən faizlər üzrə müəyyənləşdirilmiş ödənişlərlə müşayiət olunur. Daha uzun müddət üçün kreditlər tənzimlənən faiz stavkaları tələb edir ki, onların da səviyyəsinə kreditləşdirmə müddəti ərzində borc alana mütləq xəbərdarlıq edilməklə bank tərəfindən yenidən baxıla bilər və bu da kredit müqaviləsində təsbit olunmalıdır. Qeyri-sabit stavkalar bazar münasibətlərinin inkişafından, depozitlər (əmanətlər) üzrə faizlərin həcminin dəyişməsindən, kredit resurslarına tələb və təklifin yaranmasından, habelə iqtisadiyyatın durumundan asılı olaraq enib-qalxır. Qeyri-sabit stavkalardan istifadə olunan zaman faiz riskini borc alan daşıyır.

Kreditin verilməsi haqqında bank borc alanın kreditqabilliyinin və hüquqi haqqqabilliyin, maliyyə durumunun dayanıqlığını, gələcəkdə borc alanın inkişafı proqnozunu, krediti ödəmə perspektivlərini və digər tutarlı amilləri analiz etməklə qərar çaxarır. Kreditlər *kredit müqaviləsi* imzalandıqdan sonra onda nəzərdə tutulan şərtlər əsasında verilir. Kredit müqaviləsinin şərtləri hər bir müştəri üçün fərdi qaydada elə müəyyənləşdirilir ki, kredit sövdəsinin risk dərəcəsi minimal olsun.

Kredit müqaviləsində kreditin məqsədli təyinatı, ölçüsü və ya kreditin son həcmi, kredit üzrə faiz stavkası, müəyyən olunmuş hallarda komission mükafatları (kontokorrent üzrə), kreditin və faizlərin ödənilmə müddəti, kreditin qaytarılması üzrə öhdəliklərin

MUHASIBAT.AZ

icrasının təminat formaları, xarici valyutanın növü (valyuta ilə kredit üçün), banka kreditqabilliyin təminatının yoxlanılması üçün lazım olan balans və digər məlumatların təqdim olunma müddəti və dövriliyi, hüquqlar, tərəflərin qarşılıqlı öhdəlikləri və iqtisadi məsuliyyəti, borc alanın öz kapital dövriyyəsini artırmaq üzrə tədbirləri, bankın öz sərəncamı ilə kredit üzrə borcların və bundan istifadə üçün hesablanmış faizləri, o cümlədən borc alanın hesablaşma (cari) hesabından digər bankın müştərilərinə verilmiş kreditləri onun bank qarşısında kreditin qaytarılması barədə üzərinə götürdüyü öhdəlikləri vaxtında və ya kredit müqaviləsinin digər şərtlərini yerinə yetirmədiyi hallarda tutmaq hüququ nəzərdə tutulur; müqavilədə kreditin verilməsi və ödənilməsi barədə digər şərtlər də, o cümlədən kreditin təyinatı üzrə istifadə olunmadığı hallarda və digər şərtlərin qorunmadığı və ya borc alanın maliyyə-təsərrüfat durumunun pisləşdiyi hallarda krediti vaxtından əvvəl tutmaq hüququ müqavilədə göstərilir.

Bank praktikası nəinki təkcə kreditləşdirmə prinsiplərini, həm də kredit müqavilələrinin bağlanmasına dair müəyyən tələbləri də işləyib hazırlanmışdır. Məsələn, kreditin alınması barədə banka sifarişin daxil olması borc alanın kreditqabilliyinin və ödəməqabilliyinin yoxlanılması üçün, kredit müqaviləsinin bağlanması üçün, kredit təminatı üzrə müqavilənin bağlanması üçün əsas sayılır.

Kreditqabilliyin yoxlanılması zamanı kredit almağa iddia edən hüquqi və ya fiziki şəxsin iş bacarığının və hüquqi səlahiyyətinin aydınlaşdırılması labüddür. Nəzərdə tutulan borc alana münasibətdə kreditqabilliyin, o cümlədən onun ödəməqabilliyinin yoxlanılması kommersiya banklarının fəaliyyətində bütün başqaları üçün əsas sayılır. Ödəməqabillik deyildikdə, fiziki və hüquqi şəxslərin krediti banka qaytara bilməsi və faizləri və digər ödənişləri vaxtlı vaxtında yerinə yetirə bilməsi nəzərdə tutulur. Bu zaman potensial borc alanlar öz

MUHASIBAT.AZ

balanslarını, illik maliyyə hesabatlarını və müəssisənin işi üzrə bir sıra başqa göstəriciləri (bankın tələbi üzrə) banka təqdim etməlidirlər.

Borc alanın kreditqabilliyi hüquqi və ya fiziki şəxsin öz borc öhdəlikləri üzrə tam və vaxtında hesablaşa bilməsini bildirir. Dünya bank praktikasında müştərinin kreditqabilliyi kreditin verilməsinin məqsədəuyğunluğunun müəyyənləşdirilməsi zamanı əsas dəyərləndirmə obyektlərindən biri sayılır. Bu zaman borcun qaytarılmasına dair qabiliyyət həm də müştərinin mənəvi keyfiyyətləri ilə, onun idarəetmə bacarığı və məşğuliyyət növü ilə, tərpənməz əmlaka qoyulan kapitalın dərəcəsi ilə, istehsal və tədavül prosesində ssudaların və digər öhdəliklərin ödənilməsi üzrə vəsait qazanmaq imkanları ilə əlaqələndirilir, yəni borc alanın kreditqabilliyi müştərinin mənəvi keyfiyyətlərinə əsaslanır və onun borcun ödənilməsi üçün avanslaşdırılmış vəsaitlərin təkrar istehsal qabiliyyəti ilə əlaqələndirilir.

Borc alanın kreditqabilliyi onun ödəməqabilliyindən fərqli olaraq keçən dövr ərzində və ya hər hansı bir tarixdə ödənilməməni (vaxtı keçmiş ödəməni) təsbit etmir, yalnız onun yaxın perspektivdə ödəməqabilliyini proqnozlaşdırır. O göstəricilər sistemi əsasında dəyərləndirilir və həmin göstəricilər dövriyyə vəsaitlərinin yerləşdirilməsini və mənbələrini, borc alanın təsərrüfat-maliyyə fəaliyyətinin nəticələrini əks etdirir. İnkişaf etmiş bazar iqtisadiyyatlı ölkələrin bankları müştərilərin kreditqabilliyinin dəyərləndirilməsi üçün mürəkkəb çoxsaylı göstəricilər sistemi tətbiq edirlər. Bazar iqtisadiyyatına keçid dövründə kreditqabilliyin göstəricilərinin seçimi dövriyyə vəsaitlərinin və onların mənbələrinin formalaşmış strukturunu, hesabatın xüsusiyyətlərini və s. nəzərə almalıdır.

Borc alanın kreditqabilliyinin və kredit əməliyyatının kommersiya bankı üçün sərfəliliyi haqqında edilmiş seçimin yoxlanılması məqsədilə onun sənədlərinin analizindən sonra kreditin verilməsinə yazılı formada razılıq (iri ssudalar üçün mütləq), habelə kreditin şərtləri haqqında borc

MUHASIBAT.AZ

alanın razılığı verilməlidir. Bu zaman bankın kredit əməliyyatlarında ssudanın təminatının böyük əhəmiyyəti vardır, belə ki, o bir tərəfdən bankın mənfəətinin təminatı ilə əlaqədardır, digər tərəfdən isə ssudanın təminatı bankın aktivlərinin saxlanılması qarantiyası üçün vacibdir, çünki onlar, demək olar ki, tamamilə borc vəsaitlərindən (müştərilərin əmanətlərindən) ibarətdir. Müasir bank praktikasında istifadə olunan ən mühüm kredit növləri təminatına girov, zaminlik, qarantiya, borc alanın tələbnamə və hesablarını bankın xeyrinə üçüncü şəxsə güzəştə getməsi, kredit riskinin sığortalanmasıdır.

Girov öhdəliyin icrasının təminatı üsuludur ki, bu zaman kreditorun (girov saxlayanın) borclunun (girov qoyanın) girovla təmin olunmuş öhdəliyini yerinə yetirmədiyi halda girov qoyulmuş əmlakın dəyərindən kompensasiya almaq hüququ vardır. Banklar əsasən real dəyərlər girov qoyulduqda kredit verirlər və həmin girovun mövcudluğu və saxlanılması həm kredit verilməsi ərəfəsində (ssuda verilməzdən əvvəl), həm də kreditləşdirmə prosesində yoxlanılmalıdır. Girov yazılı şəkildə girov müqaviləsində təsbit edilir və bu zaman tərəflərin adları, yerləşdikləri ünvan, girovun növü, əmlakın siyahısı, onun həcmi, öhdəliklərin icrası müddətləri, girov qoyulmuş əmlakın tərkibi və dəyəri, onun yerləşdiyi ünvan, habelə müqavilədə girov haqqında tərəflərdən hər hansı birinin bəyanatına əsasən girov haqqında razılığa gəlinməsi barədə bütün digər şərtlər öz əksini tapır.

Girov cisminə irəli sürülən əsas tələblər aşağıdakılardan ibarətdir:

- girov verənin girov qoyulan cismə mülkiyyət hüququnun olması;
- digər kreditorlar tərəfindən həmin girov cisminə iddiaların olmaması;
- girov qoyulan əmlakın növündən asılı olaraq müəyyən keyfiyyət meyarlarının, fərqləndirmələrin uyğunluğu;

MUHASIBAT.AZ

- müştərinin müvafiq öhdəliyinin təmin olunması üçün girovun dəyərinin kifayət etməsi.

Girov kimi əmlakın seçilməsinə dair irəli sürülən əsas tələb onun likvidlik dərəcəsidir. Mülki dövriyyədən çıxarılmayan, tutulma istiqaməti və girov qoyulması qanunvericilik tərəfindən qadağan edilməyən, habelə qanunvericiliyə uyğun olaraq, o cümlədən girov hüququnun özgələşdirilməsi mümkün olanlardan savayı istənilən əmlak (müəssisə, bina, tikinti, avadanlıq, qiymətli kağızlar, pul vəsaitləri və digər əmlak) girov cismi ola bilər.

Xarici bank praktikasında bankda və ya neytral anbarlarda saxlanılan dəyərlərin girov növü yayılmışdır. Bu halda malların girov qoyulması anbar qəbzinin kreditor banka verilməsi yolu ilə həyata keçirilir ki, bu zaman həmin qəbz, bir qayda olaraq dəyərin qorunub-saxlanılması və qəbzin yazılması qaydalarına nəzarət edən bankın adına tərtib olunur. Borc alanın əmlakının anbarlarda saxlanılması zamanı onun qorunub-saxlanılması üçün nəzarəti anbarın işçisi ilə bərabər, bank tərəfindən bu məqsəd üçün tutulmuş şəxs və bankın özü də yerinə yetirə bilər.

Borclunun girovla təmin olunmuş öhdəliyinin icra olunmadığı halda bank məhkəmənin qərarı ilə öz tələblərini girov qoyulmuş əmlakın dəyərindən ödəyir. Borcun notarial qaydada təsdiq olunduğu zaman borcların tutulması mübahisəsiz qaydada notariusun icra imzası əsasında həyata keçirilir. Əgər məbləğ girov qoyulan əmlakın satışından əldə edilən gəlirlə tələb olunanı ödəmirsə, bankın hüququ vardır ki, çatışmayan məbləği mövcud qanunvericilik üzrə növbəlilik qaydasında borclunun digər əmlakından alsın.

Zaminlik ondan ibarətdir ki, kreditor qarşısında öhdəliyin icra olunması üçün təkcə borclu olan deyil, həm də üçüncü şəxs – zamin cavabdehlik edir. Bu, kreditor üçün onun borcluya onun tələbinin yerinə yetirilmədiyi zaman öhdəliyin zaminliklə real təmin olunması

MUHASIBAT.AZ

üzrə böyük ehtimallıq yaradır. Zaminlik müqaviləsində borclunun, zaminin və kreditor bankın adı və ünvanı, ödəniş məbləği, ödəmələrin müddəti və şərtləri, zaminlə bank arasında hesablaşma qaydası və digər məlumatlar göstərilir.

Borclu tərəfindən öhdəlik icra olunmadığı halda o zaminlə birlikdə kreditor qarşısında bərabər səviyyədə məsuliyyət daşıyır. Bu o deməkdir ki, kreditorun borcluya və zaminə, yaxud da onlardan birinə, özü də tam və ya qismən tələb irəli sürmək hüququ vardır. Kreditin qaytarılması təminatının bu sayaq üsulundan istifadə olunması zaminin kreditqabilliyinin diqqətlə araşdırılmasını tələb edir. Bu, bankın həm hüquqi, həm də fiziki şəxslərlə münasibətlərində tətbiq edilir.

Qarantiya yalnız hüquqi şəxslər arasında öhdəliyin təmin olunması üçün tətbiq olunan zaminlik müqaviləsinin elə bir formasıdır ki, bu zaman məsuliyyət subsidiar xarakter daşıyır. Öhdəliyin icrası zamanı qarant ödənilmiş məbləğin qaytarılması barədə borcluya qarşı reqression tələb hüququ əldə etmir. Borclu təşkilata münasibətdə yuxarıda dayanan təşkilat, icarədar, təsisçi, bank, müəssisə ssuda üzrə qarant kimi çıxış edə bilər. Çox hallarda bir müəssisənin başqasının xeyrinə göstərdiyi qarantiyadan istifadə olunur. Bu halda qarant müəssisənin kreditqabilliyi haqqında informasiyanın olması vacibdir.

Qarantiya qarant məktubu ilə tərtib olunur və həmin məktub bankın kreditləşdirici təsisatına təqdim olunur. Məktubda qarantın, ssuda alan təşkilatın, onlara xidmət göstərən bankın adı, qarantiyanın növü, ödəniş müddəti və məbləği, habelə son müddət göstərilir. Ssuda alanın hesablaşma hesabında kreditin ödənilməsi üçün vəsait olmadıqda, bank ssudanın ödənilməsi üçün tələbnaməni qaranta təqdim edir.

Bankın xeyrinə tələbnamə və hesabların üçüncü şəxsə güzəştə gedilməsi (tsessiya) güzəştə gedilmiş tələbnamə üzrə pul vəsaitlərinin alınması hüququnun banka keçməsini nəzərdə tutur. Güzəştə gedilmiş

MUHASIBAT.AZ

tələbnamənin dəyəri ssuda borcunun ödənilməsi üçün kifayət qədər olmalıdır. Bankın hüququ vardır ki, əldə olunmuş gəlirlə yalnız verilmiş kreditin ödənilməsi və onun haqqının ödənilməsi üçün istifadə etsin. Güzəştə gedilmiş tələbnamə üzrə kredit borclarından artıq pul vəsaitləri məbləği daxil olursa, yaranmış fərq borc alana (tsedentə) qaytarılır.

Praktikada tsessiyanın açıq və sakit kimi növlərindən istifadə olunur. Açıq tsessiya borcluya tələbnamənin güzəştə gedilməsi barədə məlumatın verilməsini nəzərdə tutur. Bu halda borclu öz öhdəliyini bankdan borc alana deyil, bankın özünə ödəyir. Sakit tsessiya zamanı bank üçüncü şəxsə tələbnamənin güzəştə gedilməsini xəbər vermir və borclu tsedentə ödəyir, o isə aldığı məbləği banka ötürməyə borcludur. Borc alanlar sakit tsessiyaya üstünlük verirlər ki, öz etibarlarını qırmasınlar. Amma bank üçün bu böyük risklə bağlıdır, çünki: güzəştə gedilmiş tələbnamələr üzrə vəsaitlər çox hallarda borc alanın digər banklardakı hesablarına daxil olur, borc alanın isə tələbnaməni bir neçə dəfə güzəştə getmək imkanı yaranır və borc alan artıq mövcud olmayan tələbnaməni güzəştə gedə bilər.

Kreditin qaytarılmaqabilliyinin təmin olunması forması kimi *sığortadan* XX əsrin 90-cı illərində MDB ölkələrində istifadə olunmağa başlandı. Sığortalanma könüllü əsasda kreditin ödənilməməsi və kreditin ödənilməməsi riskinin sığortalanması üçün borc alanın məsuliyyətinin sığortalanması formasında həyata keçirilir.

Birinci halda borc alan sığortaçı kimi çıxış edir, sığorta obyekti isə onun vaxtında və tam şəkildə krediti (kreditdən istifadə faizləri də daxil olmaqla) ödəməsi məsuliyyətidir. İkinci halda sığortaçı bankdır, sığorta obyekti isə – bütün və ya ayrı-ayrı borc alanların bank qarşısında məsuliyyətidir.

Kommersiya bankları bank əməliyyatları zamanı sığortadan, meydana çıxan risklərdən müdafiə formaları kimi istifadə etməkdən çəkinirlər. Sığorta auditinin və mətbuatda sığorta cəmiyyətlərinin

MUHASIBAT.AZ

balanslarının geniş şəkildə işıqlandırılmasının olmaması sonuncuların ödənişqabilliyinə şübhə yaradır. Bundan əlavə, hazırda kifayət qədər öz kapitalına malik olan və banklara dəyən zərəri ödəməyə qabil olan sığorta şirkətləri azdır.

Bir borc alan eyni zamanda kredit qaytarma təminatının bir neçə formasından istifadə edə bilər. Adı ləkəsiz olan və dayanıqlı maliyyə vəziyyəti olan xüsusi etibarlı borc alanlara, bank onun maddi təminatının varlığını təsdiq edən sənədləri tələb etmədən, qabaqcadan müştərinin borcu qaytarması üzrə öhdəliklərinə əsasən müvafiq kredit verə bilər.

Banklar kredit verilməsindən sonra onun təyinatı üzrə istifadə olunması və təminatlılığına nəzarət etməyə borcludurlar. Onların hüququ vardır ki, ssuda borc götürənləri yerində yoxlasınlar və hər kvartalda, lazım gəldikdə isə hər ay yoxlamağa borcludurlar, verilmiş kreditin təminatı üzrə balans məlumatları əsasında real ehtiyatların və məsrəflərin mövcudluğunu yoxlamalıdırlar.

Kreditlərin təmin olunmasının yoxlanılması zamanı bütün kreditlər üzrə borclar, digər banklardan alınanlar da daxil olmaqla, nəzərə alınır. Təminatın yoxlama zamanı aşkar olunan çatışmazlığı borc alanın hesablaşma hesabından tutulmaq üçün təqdim olunmalı və ya vaxtı keçmiş ssudalar hesabına aid edilməlidir. Əgər borc alan yüksək risk dərəcəsi ilə kredit verilirsə, onda müqavilədə verilən kredit məbləğindən müəyyən faizin tutulması və ya ssuda verilən zaman həmin faizin bir dəfəyə ödənilməsi nəzərdə tutula bilər.

Qanunverici və icraedici hakimiyyət orqanları güzəştli şərtlərlə kredit verilməsi barədə qərar qəbul etdikləri halda kommersiya banklarının itkisinin kompensasiyası güzəştli kredit haqqında qərar qəbul edən orqanın hesabına və müvafiq büdcələrin vəsaitləri hesabına həyata keçirilir. Əgər nəzərdə tutulmuş tədbir nəticəsində borc alanın

MUHASIBAT.AZ

xarici valyuta ilə gəliri varsa, onda onun razılığı ilə faizlər müvafiq hissəyə uyğun olaraq xarici valyuta ilə alına bilər.

Bankın krediti üzrə borcun qaytarılması qaydası və konkret müddəti kredit müqaviləsində nəzərdə tutulur. Kreditin ödənilməsi bir dəfəyə və ya hissə-hissə həyata keçirilə bilər. Borc alanın hüququ vardır ki, aldığı krediti vaxtından tez qaytarsın. Kredit və borc alanın – hüquqi şəxsin – hesablanmış faizlər üzrə borclarının ödənilməsi müddətin başa çatdığı zaman vəsaitlərin onun hesablaşma (cari) hesabından bankın verdiyi müddətli öhdəliyə (öhdəlik-tapşırığa) əsasən silinməsi yolu ilə həyata keçirilir. Tərəflərin qarşılıqlı qərarına görə borc alan müqavilədə konkret göstərilmiş müddətdə krediti tədiyə tapşırığı ilə ödəyə bilər.

Hesablaşma hesabında bankın borclarının ödənilməsi üçün vəsaitin kifayət qədər olmadığı halda əvvəlcə kredit üzrə borclar, sonra isə onların faizləri ödənilir. Kreditlərin ödənilməsi habelə bilavasitə malların və xidmətlərin realizasiyasından (xüsusi ssuda kreditləşdirilməsi, kotokorrent hesablar zamanı, bank tərəfindən girov hüququndan istifadə olunan zaman) əldə olunan gəlirdən ssuda hesabına köçürmə yolu ilə aparılır.

Fiziki şəxslər alınmış kreditləri nəqd pullar daxil etməklə, pulları rabitə müəssisələri vasitəsilə köçürməklə, vəsaitləri öz əmanət hesabından köçürmə yolu ilə, hesablaşma çekini, sertifikatı təqdim etməklə, müəyyən edilmiş hallarda kredit müqaviləsinin şərtlərinə uyğun olaraq bank vekselləri ilə ödəyə bilərlər.

Kreditlərin ödənilmədiyi zaman bankın öhdəliklərin qaytarılması üzrə təminat formalarından asılı olaraq, müəyyən olunmuş qaydada borcun tutulacağı məbləğinin qarantın hesabından silinməsi üçün təqdim etməyə, qanunvericiliyə müvafiq olaraq borc alınmış əmlakın dəyərindən kreditin ödənilməsi üzrə təminat almağa, depozitlərin uçotu üzrə hesabı ehtiyatdan çıxarmaq, girov götürülmüş qiymətli kağızları

MUHASIBAT.AZ

satmaq, borc alanın, onun tərəfindən bankın xeyrinə güzəştə gedilmiş tələbnamə və hesablarını başqa şəxsə ödəniş üçün təqdim etmək hüququ vardır.

Kreditin ödənilməməsi riski sığorta müqaviləsinin bağlandığı halda bankın sığorta hadisəsinin başlanması zamanı, qanunvericiliklə müəyyən edilmiş qaydada sığortaçıdan sığorta məbləğini almaq haqqı vardır.

Borc alanın zəmanəti ilə kreditin real təminatının mövcudluğu zamanı və vaxtında geriyə qaytarılmamasına gətirə biləcək obyektiv səbəblərin mövcudluğu zamanı bankın hüququ vardır ki, müstəsna hal kimi ödənilməmiş borc məbləğini prolonqasiya etsin və bunun üçün isə kredit müqaviləsinə əlavə saziş bağlamalıdır. Prolonqasiya olunmuş borcun məbləği artırılmış faiz tutulmaqla ayrıca ssuda hesabına aid edilir və faizin həcmi bankla borc alan arasında müqavilə şərtilə müəyyənləşdirilir. Kredit üzrə ümidsiz borc şübhəli borclar üzrə mümkün itkilərə görə ehtiyat hesabından ödənilir, bu çatmadıqda isə – bankın rezerv fondu və mədaxili hesabına ödənilir.

Kredit müqaviləsi üzrə öz öhdəliyini yerinə yetirməyən borc alana münasibətdə, habelə hesabatın düzgün aparılmaması halları və ya mühasibat uçotunda baxımsızlıq halları aşkar edildikdə, əgər razılaşdırılmış müddət ərzində bankın tövsiyələri nəzərə alınmırsa, bank onu sonrakı kreditləşdirmənin dayandırılması barədə xəbərdar edir, habelə kredit müqaviləsində nəzərdə tutulan sanksiyaları tətbiq edir. Kreditləşdirmə prinsiplərinə, eləcə də kredit müqaviləsindəki digər şərtlərə əməl edilmədikdə mövcud qanunvericiliyə uyğun olaraq bank və borc alan eyni dərəcədə inzibati, əmlak və digər əmsuliyyətləridaşıyırlar. Borc alan alınmış kreditin qaytarılması üzrə öhdəliklərini yerinə yetirmədikdə, bank onun iqtisadi cəhətdən kasıb və ya müflis olması barədə məsələ qaldıra bilər.

MUHASIBAT.AZ

MUHASIBAT.AZ

9.3. KOMMERSİYA KREDİTİ

Kommersiya krediti iki mübadilə kontragenti – müəssisə-satıcı (kreditor) ilə müəssisə-alıcı (borc alan) arasında aparılan kredit sövdəsidir. Ona görə də kommersiya kreditləri əmtəə formasında satıcıların alıcılara satılan mal üçün ödəniş müddətinə möhlət verilən kreditdir.

Kommersiya kreditləri zamanı kredit münasibətlərinin iştirakçıları öz təsərrüfat əlaqələrinə nəzarət edir və *veksellər* şəklində – borclunun kreditora müəyyən müddət ərzində göstərilən məbləği ödəməsi üçün tərtib olunmuş yazılı öhdəliyi (və ya kreditorun borcluya əmrləri) şəklində ödəniş vəsaitləri yaradırlar. Həmin halda göndərişçi müəssisə öz malının (xidmətinin) ödənilməsinə möhlət verir, alıcı müəssisə isə borc şəhadətnaməsi kimi vekseli və ya ödəniş öhdəliyini kreditora verir. Bu zaman veksellər ikinci dəfə, bankdan yan keçməklə, pul əvəzinə əldən ələ ötürmək yolu ilə ödəniş üçün istifadə oluna bilər.

Kommersiya kreditləri fəaliyyətdə olan əmtəə istehsalçılarının mal alınan zaman bir-birlərinə ödəniş möhləti vermələri nəticəsində yaranır. Bununla da onlar öz mallarının satılmasını stimullaşdırırlar. Kommersiya kreditləri eyni zamanda ictimai təkrar istehsal prosesini sürətləndirir və kapitalın əmtəə formasında qalması müddətini azaldır. Kommersiya kreditləri müəyyən əmtəə sövdəsi ilə bağlıdır, malların ödəniş qarantiyası və kreditin verilməsi üçün dəlil rolunu, bir qayda olaraq veksel oynayır. Kommersiya kreditləri malların hərəkəti ilə bağlı olduğundan, o, əvvəla, mal göndərişçisinin maliyyə imkanlarından, ikincisi, alıcının vaxtında faktiki olaraq borclarını ödəmək qabiliyyətindən asılıdır. Kommersiya kreditlərinin hüdudları göndərişçinin maliyyə imkanları ilə şərtlənir.

MUHASIBAT.AZ

Lakin kommersiya kreditlərinin verilməsi heç də həmişə veksel öhdəliyinin tərtib olunması ilə müşayiət olunmayıb, çünki vekselin qoyulmuş qanuna görə ticarət dövranında mövcudiyyəti ticarət münasibətlərinin inkişaf səviyyəsinə və ictimaiyyətdə kreditorların mülki hüququnun təminatına dəlalət edir. Məsələn, Rusiyada veksel nizamnaməsi 1729-cu ildə qəbul olunmuşdur. Lakin, ta XIX əsrin sonlarına kimi malların kreditə satılması zamanı veksellərin verilməsindən yayınmağa çalışırdılar. Bu, bank kreditinin veksellərin hesablanması və vekselin girov qoyulması ilə ssuda verilməsi formasında inkişaf etməməsi ilə şərtlənirdi.

Kommersiya kreditinin xüsusiyyəti ondan ibarətdir ki, ssuda sövdəsi başlıca məqsəd deyil: o yalnız alqı-satqı sövdəsini, malların sürətlə satılmasına imkan yaradaraq müşayiət edir. Kredit sövdəsi ticarət sövdəsi bağlanan zaman göndərişçi ilə alıcı arasında tərtib olunur. Ona görə də kommersiya krediti ticarət və kredit sövdələrinin qarşılıqlı əlaqəsini nəzərdə tutur. İndiki halda ticarət (kommersiya) əməliyyatının qurtarması burada kredit sövdəsinin başlanğıcı ilə üst-üstə düşür ki, sonuncu da öz növbəsində borc alan müəssisənin ssuda üzrə borclarını qaytarması zamanı başa çatacaq.

Kommersiya kreditinin tətbiqi sferası məhduddur, çünki o yalnız əmtəənin dövranı prosesinə xidmət göstərir. Əmtəə kapitalı (göndərilmiş mallar, yerinə yetirilmiş işlər, xidmətlər) kommersiya kreditinin obyekti rolunda çıxış edirlər. Kommersiya kreditinin subyektləri rolunda isə mal sövdəsi agentləri çıxış edirlər: bu, material resurslarının müəssisələr arasında təkrar bölüşdürülməsi üzrə münasibətləri ifadə edən kreditin əmtəə formasıdır. Kommersiya krediti zamanı yalnız öz məhsulunu satan və ya xidmət göstərən göndərişçinin resursları kredit sövdəsinə qoşulur. Bu, təkcə göndərişçinin özlərinin dövranı və dövriyyəsi prosesində müvəqqəti azad olan material

MUHASIBAT.AZ

resursları deyil, həm də göndərişçinin, hazır məhsulların dövranın mərhələlərindən birində olan resurslardır.

Kommersiya kreditinin bir sıra müsbət tərəfləri vardır. Göndərişçi müəssisə üçün kredit sövdəsi məhsulun satılması (xidmətlərin göstərilməsi) momenti ilə çulğaşır, həm də nəinki təkcə satışı sürətləndirir, eyni zamanda satılmış malların və göstərilmiş xidmətlərin dəyərinə daxil edilən faiz formasında gəlir gətirir. Borc alan üçün daha çox sərfəlidir ki, kreditin əmtəə formasından istifadə etsin, nəinki maddi dəyərlərin təxirəsalınmadan ödənilməsi üçün pul krediti (məsələn, bank krediti) alsın. Kommersiya kreditinin alınması zamanı borc alan növbəti dəfə kapital dövranını pulla avanslaşdırmaq zərurətindən azad olur. Bu, göndərişçi ilə hesablaşmaq üçün pul vəsaitlərinin müvəqqəti qənatəinə səbəb olur. Müvafiq olaraq borc alanın kapital dövranının başa çatması ilə sərbəst pul vəsaitlərinin meydana gəlməsi ona imkan verir ki, kommersiya kreditini pul formasında ödəsin.

Müəssisə eyni zamanda kommersiya krediti ala və verə bilər. Bununla əlaqədar olaraq ayrıca götürülmüş müəssisə üçün kommersiya kreditinin həcmini, alıcı üçün ödənişin möhləti şərtilə verilmiş malların dəyəri ilə analoji şərtlərlə göndərişçidən alınmış malların qiyməti arasındakı fərqi kimi müəyyənləşdirmək olar.

Kommersiya kreditinin yalnız bu və ya digər malları istehsal edən sahələrə, bunları istifadə edən təsərrüfat sferalarına verilə bilməsi ilə şərtlənən *ciddi məhdudiyyəti vardır*, yox ki, əksinə. Kommersiya krediti zamanı kreditor və borc alan məhsul istehsalçıları və ya onun realizasiyasında (ticarət, təchizat-satış təşkilatları) vasitəçidirlər.

Kommersiya kreditinin hüdudları vardır və onlar kreditorun əmtəə formasında ssuda verə bilmək qabiliyyətindən və əmtəə resursları kütləsinin mövcudluğundan, növbəti dövran üçün kapitalın avanslaşdırılmasından ötrü kreditorun kifayət qədər pul vəsaitlərinin

MUHASIBAT.AZ

olmasından, bankdan vekselə görə ssuda ala bilmək imkanlarından, borc alanın kreditqabilliyi səviyyəsindən asılıdır.

Kommersiya krediti həmişə qısamüddətli xarakterdə olur. Kommersiya kreditinin verilməsi müddəti bir sıra amillərdən asılıdır ki, malların növünü, sövdənin dəyərini, alıcı və satıcının maliyyə durumunu, kreditin qiymətini, göndərişçilərlə alıcılar arasında uzunmüddətli əlaqələrin olmasını, əmtəə istehsalçıları arasında rəqabət mübarizəsinin səviyyəsini, müxtəlif göndərişçilər tərəfindən təklif olunan məhsulun keyfiyyətini onlara aid etmək olar.

Dövlətin iqtisadi inkişafı, banklarda sərbəst kredit resurslarının olması, kreditin digər formalarının inkişafı kommersiya kreditinin həcminə və onun dinamikasına təsir göstərir. Kommersiya krediti birbaşa və dolayısı bank kreditləşdirməsi ilə qarşılıqlı əlaqədədir. Belə ki, birbaşa bank kreditləşdirməsi göndərişçinin kommersiya kreditinin verilməsi imkanlarını genişləndirir, alıcının kommersiya krediti istehlakını azaldır. Kommersiya krediti zamanı dolayısı bank kreditləşdirməsi veksellərin uçotu (alınması) və veksellərin girov qoyulması ilə ssuda verilməsi formasında həyata keçirilə bilər.

Veksellərin uçotu zamanı bank veksel saxlayana bank fəaliyyətdə olan uçot stavkası üzrə (faiz vekselin alınması günündən onun ödənməsi müddətinədək hesablanır) minus faizə görə verilən vekselə pul ödəyir. Kommersiya kreditinin bank kreditinə transformasiyası ssuda borcunun və əmtəə ilə təmin olunan pul kütləsinin kəskin artmasına səbəb olmayacaq, çünki bir veksel bankda uçota alınana qədər bir neçə ticarət sövdəsinə xidmət göstərə bilər. Bundan əlavə, bankda veksellərin uçotu və girov qoyulması yeni kapital ssudası deyil, çünki ssuda, kapitalın verilməsinin qarşılıqlı olmadığı yerdə, yalnız birtərəfli, özü də müəyyən müddətə həyata keçirilir. Veksellərin uçotu zamanı faktiki olaraq hətta ssuda forması da aradan qalxır. Bu, hər şeydən öncə, vasitəçilik əməliyyatı, sadə alqı-satqı aktıdır, çünki bankın

MUHASIBAT.AZ

müştərisi (satıcı-göndərişçi) banka satılmış əmtəə (veksel) üçün pul alır. Bu halda veksel ötürücü yazı vasitəsilə bankın mülkiyyətinə keçir, pul isə müştərinin mülkiyyətinə keçir və buna uyğun olaraq «bank veksel aldı» və «bank vekseli nəzərə aldı» anlayışları sinonimdir.

Bir halda ki, bir veksellə bir sıra öhdəlik ödənilə bilər, onda veksel tədavülünün tətbiqi ödəniş vəsaitləri kütləsinin artmasına səbəb olmur. Yalnız onların bir növünün (məsələn, tədiyə tapşırıqlarının) başqa növə – vekselə çevrilməsi baş verir. Müvafiq olaraq, ümumi kreditləşdirmə həcmi də dəyişmir, yalnız kreditin strukturunun şəkli dəyişir.

Kreditin vekselin girov verilməsi ilə təqdim olunduğu halda ssuda veksellə təmin olunan əmtəə-mal dəyərləri üçün verilir. Bu zaman girov əmtəə kapitalı kimi ssudadan daha artıq qiymətə malik olur. Bu halda müştəriyə yeni kapital lazım deyil, çünki ona likvid tədavül vasitələri – pul lazımdır.

Bank uçot girov əməliyyatlarını nə qədər geniş apararsa, bank krediti də kommersiya kreditinin inkişafına o qədər çox təsir göstərir, çünki göndərişçilər öz müştərilərinə ödəniş üçün məmnuniyyətlə möhlət verirlər o səbəbdən ki, onlar çətinlik çəkmədən bankda vekseli uçota ala və onun girovluğu vasitəsilə ssuda ala bilər. Kommersiya kreditinin inkişafı da öz növbəsində resurslara (heç də bütün veksellər, özü də tam dəyərində bankda nəzərə alınmır) istehlakın ixtisarı yolu ilə bank kreditinin inkişafına, müştərilərin saynın azalması ilə bağlı bank riskinin azalmasına, veksellərin və onların girovluğunun uçotu üzrə qeyri-ənənəvi ssudaların verilməsi zərurəti ilə bağlı bank kreditləşdirməsi texnikasının təkmilləşdirilməsinə təsir göstərir. Kommersiya kreditinin bank krediti ilə tənzimlənilməsi aksept (müəyyən məbləğdə borc öhdəliyinin etiraf olunması və müəyyən şərtlərlə onun imzalanması), veksellərin uçotu və təkrar uçotu, bank ssudasının verilməsi zamanı veksellərin girov verilməsi prosesində həyata keçirilir.

MUHASIBAT.AZ

Kommersiya kreditlərindən istifadə olunması onunla nəticələnir ki:

- kapitalların müəssisə və sahələr arasında təkrar bölüşdürülməsinə kömək edir, çünki təkrar bölüşdürümə funksiyasını yerinə yetirirkən o məlum həddə bank kreditini əvəz edə bilər. Bu halda göndərişçi-kreditorların bank resurslarına (bankda veksellərin uçotu əməliyyatı vasitəsilə) daha asançatmaq imkanları vardır, nəinki əmək haqqını vermək zərurəti ilə bağlı çətin maliyyə durumunda olan borc alanın;
- son hesabda kapitalın dövranını sürətləndirməyə kömək etməklə əmtəəni genişləndirir və satışını asanlaşdırır. Ona görə də iqtisadi böhranlar dövründə kommersiya kreditlərinin həcminin mütləq ixtisarı və ya onun artım tempinin azalması qanunauyğundur;
- pul və əmtəə kütləsinin balanslaşdırılmasının bərpasına kömək edən əlavə amillərə xidmət edir, çünki kommersiya kreditinin alınması nəticəsində istehlak dəyəri və əmtəə dəyərinin tanınması və buna uyğun olaraq həm də pulun əmtəə təminatlılığının təsdiqlənməsi baş verir;
- dövriyyə vəsaitlərinin dövranının sürətlənməsinə kömək edə bilər, çünki kreditor müəssisənin obyektiv tələbatından artıq olan əmtəə-mal dəyərlərinin ehtiyatlarının azalması və satışı üçün əlavə imkanlar yaranır;
- daha əlverişli kredit münasibətləri formalarında müştərilərə xidmət növləri və böyük seçim imkanlarının genişləndirilməsi əsasında kredit-hesablaşma xidmətinin keyfiyyətinin yaxşılaşdırılmasına kömək edir.

Kommersiya kreditinin üstünlükləri həm də vəsaitlərin əmtəə formasında verilməsinin operativliyində, sənədləşdirmənin texniki sadəliyində,sərbəst əmtəə resurslarının səfərbərliyi və təkrar bölüşdürülməsi mexanizminin aktivləşdirilməsindən, dövriyyə

MUHASIBAT.AZ

vəsaitlərinin manevrləşdirilməsində müəssisələrin imkanlarının genişləndirilməsindən, müəssisələrin bir-birlərinə maliyyə yardımı göstərə bilmək imkanlarından, ssuda bazarının inkişafına kömək etməkdən ibarətdir, çünki veksel dövriyyəsi dövran üçün zəruri olan pul vəsaitlərinin kəmiyyətini və birbaşa bank kreditlərinə tələbatı azaldır (indiki halda eyni veksel uçota təqdim olunmazdan əvvəl bir neçə ticarət sövdəsinə xidmət göstərə bilər, bir çox hallarda isə ümumiyyətlə uçota təqdim olunmaya da bilər).

Kommersiya kreditinin çatışmazlıqlarına onun istiqamətinin məhdudluğu, habelə istifadə müddəti və həcmi, bəzən də göndərişçi tərəfindən alıcıların maddi durumları ilə əlaqədar məcburi ödəniş möhləti xarakterli olması, göndərişçi üçün riskin mövcudluğu, veksellərin uçotu zamanı bank sferası tərəfindən güclü təsirin olması, ödənişə möhlət verilməsi nəticəsində pul dövriyyəsi sürətinin zəifləməsi, kommersiya krediti zamanı banklarda veksellərin uçotu pul kütləsinin artmasına gətirib çıxara bilər.

Müasir şəraitdə bir sıra səbəblər üzündən *kommersiya krediti mexanizmi əhəmiyyətli dərəcədə dəyişmişdir*:

- kommersiya kreditinin sərhədləri xeyli genişlənmişdir və o bu və ya digər şəkildə praktiki olaraq bütün sənaye şirkətləri və ticarət firmaları tərəfindən istifadə olunur (ilk öncə kommersiya krediti ticarət sferasında fəaliyyət göstərirdi);
- nəinki xarda, həm də iri əmtəə partiyalarının satışı daha çox kommersiya krediti mexanizmi vasitəsilə maliyyələşdirilir;
- malların realizasiyasının və əmtəə kapitalının pul kapitalına çevrilməsinin sürətləndirilməsi məqsədilə bir çox firmalar alıcılara malların qiymətindən ticarət güzəşti (skonto) kimi kommersiya krediti üsulunun göstərilməsindən istifadə edirlər həmin güzəştlər adətən malların qiymətinin nəqd pullarla, hesab yazılmasından sonra müəyyən müddət ərzində köçürmə yolu və ya çeklə ödənildiyi zaman göstərilir və bu əvvəlcədən kontraktda

MUHASIBAT.AZ

göstərilir. Bu zaman skontonun faizlə hesablanan həcmi göstərilən müddətdən asılı olaraq hissələrə bölünür (diferensiallaşdırılır) və mövcud faiz stavkaları səviyyəsinə orientləşdirilir;

- kommersiya krediti istehlak mallarının topdan satışdan pərakəndə satışa köçürülməsi ilə əlaqədar olan sövdələrin maliyyə təminatı üçün daha geniş istifadə olunur. Məsələn, sənayecə inkişaf etmiş ölkələrdə komission ticarətin konsiqnasiya kimi forması geniş yayılmışdır və bu zaman mal sahibi (konsiqnant) müvafiq müqaviləyə uyğun olaraq onu (konsiqnatorun) anbarından sonrakı satış üçün komissionçuya (konsiqnatora) verir. Xarakterikdir ki, konsiqnantla konsiqnator arasında meydana çıxmış kredit münasibətləri borc öhdəliyi ilə sənədləşdirilmir, kommersiya kreditinin ödənilməsi hesabına ödənişlər isə malın satılmasından asılı olaraq həyata keçirilir;
- kommersiya kreditinin (satıcının krediti və alıcının kreditinin) ənənəvi formalarının getdikcə daha sərt çulğaşması, habelə kommersiya kreditinin bank krediti ilə qarşılıqlı əlaqəsinin güclənməsi baş verir. O cümlədən daxili və xüsusilə də xarici ticarətdə veksel krediti nəqd ödənişlərlə, o cümlədən bir neçə akkreditiv növündə avans formasında kombinasiya olur;
- kommersiya krediti getdikcə daha çox stabil xarakter alır və onunla xarakterizə olunur ki, məsələn, Qərbi Avropa və ABŞ-da, bir qayda olaraq, ödənişçinin (trassatın) onların ödənişinə aksepti (razılığı) olan trassatlar dövriyyədədir. Akseptə olunmuş veksellər qanunauyğun olmayan tələblərin irəli sürülməsindən özünəməxsus qarantiyadır, hərçənd bəzən akseptə olunmamış trattlar müraciət edə bilər (məsələn, vekselin akseptə olunması üçün ödəyişçinin vaxtı olmadıqda və trattı dayanıqlı maliyyə firmasına verdikdə).

Çox da uzaq olmayan keçmişdə dünya praktikasında *kommersiya kreditlərinin* kommersiya kağızları və sadə veksellərə görə verilən firmalararası pul kreditləri kimi *yeni spesifik növləri* meydana çıxmışdı. Maliyyə, dostluq və saxta veksellərin yazılmasına əsaslanan

MUHASIBAT.AZ

kommersiya krediti ilə müqayisədə firmalaraarsı pul krediti daha sivil xarakter daşıyır. Onun üçün kreditordan borc alana məhdudlaşdırılan (daraldılan) pul hərəkəti xarakterikdir. Bir qayda olaraq, qarşılıqlı pul ssudaları transmilli korporasiyalar (TMK) və nisbətən daha nüfuzlu firmalar tərəfindən verilir. Yüksək ödəniş və kreditqabillik reytinqinə malik olan iri korporasiyalar kommersiya kağızlarını emitasiya edirlər ki, bu da maliyyə pozuntuları riskini azaldır.

MUHASIBAT.AZ

9.4. LİZİNQ KREDİTİ

Lizinq, lizinq müqaviləsinin qüvvədə olduğu bütün müddət ərzində icarədarın mülkiyyətində qalan tərpənən və ya tərpənməz əmlakın uzun müddət istifadə hüququnun icarəyə verilməsindən ibarət maliyyə əməliyyatlarıdır. Lizinq dedikdə, faktiki olaraq maliyyə vəsaitlərinin müqavilə üzrə müəyyən müddətə fiziki və hüquqi şəxslərə verilən əmlak investisiyasına yönəldilmiş sahibkarlıq fəaliyyətinin növü başa düşülür. Əsas vəsaitlərə aid edilən istənilən tərpənən və tərpənməz əmlak, habelə əmlak hüquqları müqavilə cismi ola bilər. Ona görə də lizinq – əmlak sahibi (icarəyə verən) və icarədar arasında razılaşdırılmış müddət üçün müəyyənləşdirilmiş ödənişlə hər il, hər kvartal və ya hər ay haqqı ödənilməklə istfadə üçün verilən əmlak haqqında sazişdir.

Lizinq öz məzmununa görə kredit münasibətlərinə uyğun gəlir və mahiyyətcə ssuda ilə analojidir. Ona görə də iqtisadi mənada lizinq əmlakın istifadəyə verilməsi formasında (əmtəə krediti) lizinq verənin lizinq alana təqdim etdiyi kreditdən ibarətdir. Lizinq sövdəsinin iştirakçıları öz aralarında ən azı iki müqavilə bağlayırlar. Birincisi – avadanlıq və ya əmlakın göndərilməsi müqaviləsi (icarədarın göstərişi ilə icarə verənlə göndərişçi arasında bağlanır), ikincisi – məhz avadanlığın satın alınması hüququnun icarəsi müqaviləsidir ki, bu da öhdəlik deyil.

Bank krediti ilə müqayisədə *lizinqin üstünlükləri* aşağıdakıları nəzərdə tutmasından ibarətdir:

- yüzfaizli kreditləşdirmə və ödənişlərin həmin andan başlanılmasını tələb etmir;
- lizinq üzrə kontraktı almaq bank kreditini almaqdan sadədir. Əksər hallarda lizinq şirkətləri lizinq alandan heç bir əlavə qarantiya tələb etmirlər və sövdənin təminatçısı rolunu isə

MUHASIBAT.AZ

əmlakın özü oynayır və icarədar öz öhdəliklərini yerinə yetirmədikdə lizinq şirkəti onu geriyə alır;

- lizinq kreditinin verilmə mexanizmi daha çevikdir, nəinki bank kreditinin, çünki sonuncu ödəniş müddəti və həcminin məhdudiyyətini nəzərdə tutur. Lizinq krediti lizinq alan üçün əlverişli icarə ödənişi sxemini, onların dəyişkən və ya təsbit olunmuş stavkasını nəzərdə tutur;
- avadanlığın köhnəlmə oiski tamamilə lizinq verənin üzərinə düşür, lizinq alan isə müvəqqəti sərbəstləşmiş resursları başqa məqsədlərə yönəltmək imkanına malik olur.

Lizinq kreditinin çatışmazlıqlarına aşağıdakıları aid etmək olar:

- əmlakın lizinq müqaviləsinin başa çatması müddətindən əvvəl mənəvi cəhətdən köhnəlməsi, özü də o halda ki, icarə ödənişi kontraktın qurtarmasınadək dəyişməz qala bilər (maliyyə lizinqi);
- operativ lizinq zamanı əmlakın köhnəlməsi riski lizinq verənin üzərinə düşür ki, bu da onu lizinq alandan icarə haqqını artırmağa məcbur edir;
- əmlak sıradan çıxdığı halda ödənişlər, əmlakın vəziyyətindən asılı olmayaraq, müəyyənləşdirilmiş müddətdə həyata keçirilir (maliyyə lizinqi);
- əgər lizinq müqaviləsi obyekti iri və ya unikal obyekt olarsa, lizinq müqaviləsinin hazırlanması xeyli vaxt və vəsait tələb edə bilər.

Lizinq, sonradan icarəyə vermək üçün avadanlıq almaqdan ötrü böyüu kapital yatırımları tələb edir. Lakin *icarə verən bir sıra üstünlüklər əldə edir:*

- bank əməliyyatları dairəsinin genişlənməsi və müştərilərin sayının artması;
- icarədarın ödənişqabilli olmamasından itkilər riskinin azalması;

MUHASIBAT.AZ

- lizinq əmlakına mülkiyyətçilik icarə verəndə (bankda) qalır – öhdəliyin ödənilməsi üçün o, əmlakın geriyə qaytarılmasını tələb edə, onun icarəsini başqa lizinq alana verə və sata bilər;
- verilən əmlakın balans aktivinə daxil edilməsindən sonra icarə verən (kommersiya bankı) amortizasiyanı hesablayır və bunu nəzərə alaraq vergi qoyulmadan bank tərəfindən yeni avadanlığın alınması üçün istifadə olunan (nəzərdə tutulan) fondun artırılmasına yönəldilir;
- sadə bank ssudasından fərqli olaraq lizinq komissiyası orta və uzun müddətə nəzərdə tutulub və buna görə də lizinq müqaviləsi müddəti ərzində icarə verənə (banka) ödənişlər sabit qalır;
- müqavilə imzalandıqdan sonra bank icarə haqqını müəyyən tarixə daxil edir ki, bu da hesablamadan, ssudalar üzrə faizlərin hesablanmasından və uzunmüddətli kreditləşdirmə prosesində təsərrüfat orqanlarının tədiyə işlərinin aparılmasından xeyli asandır.

İcarədar aşağıdakı faydaları da əldə edir:

- əsaslı fondların yeniləşdirilməsi tempinin sürətləndirilməsi üçün ilkin böyük kapital yatırımları olmadan bahalı ən yeni texnikadan istifadə etmək imkanı;
- ödənişlər icarəyə götürülən əmlakın istismarından əldə edilən gəlirdən aparılır və amortizasiya ayırmaları kimi vergiyə cəlb olunmur;
- başqa bankların böyük kreditlərini cəlb etməkdən yan keçməklə tam maliyyələşdirmə;
- maliyyə resurslarının istifadəsini, vəsaitlərin xərclənməsi üzərində uçot və nəzarəti asanlaşdıran dəyişkən icarə haqları;
- icarədarın sorğularının təmin olunması üçün möhkəm və dəyişkən haqları arasında seçimin mümkünlüyü;

- rublun və bank faizlərinin valyuta kursundan asılı olmayaraq ödənişlərin sabitliyi;
- avadanlıq cari qiymətlərlə dəyərləndirilir, gələcək daxilolmalardan ödənilən icarə haqları inflyasiyanın azaldılması vəsaitinə çevrilir;
- sənədləşdirmə çox vaxt aparmır və tərtibatı çətin deyil;
- bankların digər müəssisələrinin əlavə zəmanətləri heç də həmişə vacib deyil;
- lizinqlə yanaşı bankın bir sıra maliyyə və qeyri-maliyyə xidmətlərindən istifadə edə bilmə imkanının mümkünlüyü.

Lizinq əməliyyatları obyektlərini qruplara ayırmaq mümkündür:

- orqtexnika (elektron-hesablama texnikası, kontor avadanlığı, tibbi və poliqrafiya avadanlığı);
- istehsalın istifadəsi üçün maşınlar, avadanlıq (ЧПУ ilə dəzgahlar, kranlar və s.);
- nəqliyyat vasitələri (yük maşınları, gəmilər, təyyarələr);
- binalar və tikililər, anbarlar və sair tərpənməz əmlak.


Bu fərqləndirmə hər qrup üzrə müxtəlif icarə müddəti ilə şərtlənir: 1-ci – 10 ilədək; 2-ci və 3-cü – 20 ilədək və daha artıq; 4-cü – daha uzun müddət üçün. Bu, icarəyə götürülən əmlakın amortizasiya müddətinin müxtəlifliyini şərtləndirir. Sadalanan hər qrup üzrə (iriləşdirilmiş əmlak üzrə qruplarda) iriləşdirilimiş avadanlıqlar qrupunun uçotu üçün nümunə forma (blank) və icarə olunan əmlakın ayrı-ayrı (unikal) nümunələri üçün xüsusi blank işləyib hazırlamaq lazımdır.

Hazırda əmlakın primitiv icarəsi kimi lend-liz dövrünün lizinqi haqqında ənənəvi təsəvvür ümidsiz dərəcədə köhnəlmişdir. Elmi-texniki inqilab müəssisələrin maliyyələşdirilməsi probleminin sürətləndirilmiş həllində keyfiyyətcə yeni tələbləri meydana çıxarmışdır. XX əsrin 80-ci illərinin əvvəllərində lizinq sadə uzunmüddətli icarə kimi deyil, yeni, qeyri-ənənəvi, perspektiv maliyyələşdirmənin əlavə sistemi kimi çıxış

MUHASIBAT.AZ

etməyə başladı ki, burada da icarə münasibətləri, girov əsasında kredit maliyyələşdirilməsi elementləri, borc öhdəlikləri üzrə hesablamalar və digər maliyyə mexanizmləri işə salınmışdır. *Lizinq əməliyyatlarının iqtisadi məntiqi* ondan ibarətdir ki, müəssisənin fəaliyyətinin son nəticələrinin maksimizasiyası üçün istehsal vasitələrinə mülkiyyət hüququ deyil,gəlir və ya mənfəət əldə etmək məqsədilə onlardan istifadə hüququ vacibdir (şəkil 9.2).

Belə əməliyyatları tənzimləyən hüquqi norma və qaydaların lazımınca gözlənilməsi zamanı lizinq sazişlərinin istifadə olunması partnyorlara imkan verir ki, öz qanuni hüquq və imtiyazlarını tam realizə edə bilsinlər. Məsələn, bir sıra ölkələrdə icarəyə götürülən əmlak (lizinq azamanı) istifadəçi müəssisənin balansında əks etdirilmir, çünki mülkiyyət hüququ icarəverəndə qalır. Bu halda lizinq aktivləri ağırlaşdırmır. Bu zaman avadanlığı alanın icarə haqqı istehsal xərclərinə (maya dəyərinə) aid edilir və buna görə də vergi qoyulən mənfəəti azaldır. Lizinq icarədarın təsərrüfat dövriyyəsinin maliyyələşdirilməsi üzrə əməliyyatlarının ümumi həcminin artmasına kömək edir və ənənəvi vəsait mənbələrinin cəlb olunmasına mane olmur. Təsadüfi deyil ki, müasir lizinqi tez-tez «balanslaşdırılmış maliyyələşdirmə» kimi xarakterizə edirlər.



Şəkil 9.2. Lizinq əməliyyatlarının təxmini ardıcıllığı: 1 – lizinq müqaviləsinin bağlanması; 2 – lizinq obyektinin göndərişi; 3 – lizinq obyektinin ödənişi; 4 – lizinq üçün ödənişlər

MUHASIBAT.AZ

İcarədar üçün və daha çox icarəyə verən üçün lizinqin mühüm üstünlüyü dinamik inkişaf və istehsal vasitələri icarə bazarının diversifikasiyasının mümkünlüyüdür ki, bu da öz növbəsində büdcə yardımlarından məhrum olan və bu səbəbdən də iqtisadi qeyri-sabitlik dövründə təkcə istehsal üçün deyil, həm də avadanlığın satışı üçün maliyyələşdirməyə yardım etməyə, avadanlıq istehsalçı firmaları üçün satış bazarının genişlənilməsinə səbəb olur.


Lizinq formalarının müxtəlifliyi daha geniş yayılmış üç növ əməliyyata əsaslanır:

1) operativ və ya servis lizinqi;

2) maliyyə (bank), kapital və ya birbaşa lizinq;

3) qayıdış lizinqi.


Operativ lizinq – avadanlığın (əmlakın) kiməsə, onun öz ömründən az müddətə ötürülməsi (verilməsi). Sifarişçi əmlakı müəyyən müddətə və ya bir istehsal tsikli müddətinə öz sərəncamına alır və müqavilə 2-5 ilə bağlanır. Müqavilənin qüvvədə olma müddətinin başa çatması zamanı icarədar icarə ödənişlərini tamamlaya, əmlakı banka qaytara, müqavilənin bağlandığı anda razılaşdırılmış qiymətlə əmlakı ala bilər (şəkil 9.3).



Şəkil 9.3. Operativ lizinq əməliyyatlarının ardıcıllığı: 1 – lizinq müqaviləsinin bağlanması; 2 – lizinq obyektinin göndərişinin ödənilməsi; 3 – lizinq obyektinin göndərişi; 4 – lizinq üçün ödənişlər

MUHASIBAT.AZ


Maliyyə lizinqi ondan ibarətdir ki, lizinq müqaviləsi müddəti ərzində icarədar icarə verənə əmlakın bütün dəyərini ödəyir (tam amortizasiyanı həyata keçirir). Sifarişçi tərəfindən əmlak seçildikdən sonra bank avadanlığı alır və yerləşdirilən əmlakın amortizasiya müddətindən asılı olan müqavilənin qüvvədə olduğu müddət ərzində onun sahibi olaraq qalır (şəkil 9.4.). Sığortalaşdırma sifarişçinin hesabına həyata keçirilir.



Şəkil 9.4. Maliyyə lizinq əməliyyatlarının ardıcıllığı: 1 – lizinq müqaviləsinin bağlanması; 2 – lizinq obyektinin göndərişinin ödənilməsi; 3 – lizinq obyektinin göndərişi; 4 – lizinq üçün ödənişlər və əmlakın alınması

Qayıdış lizinqi zamanı bank başqa təşkilatdan həmin hüquqi şəxsə ötürmək məqsədi ilə əmlakı satın almaq üçün müqavilə bağlayır (şəkil 9.5). Bu əməliyyatda yalnız iki iştirakçı var, amma əmlakı alan (keçmiş sahib) artıq qoyulmuş kapital yatırımına «hüququnu itirir», hərçənd özünün keçmiş əmlakından istifadəni davam etdirir. Tərpənməz əmlakın lizinqi zamanı binalar, tikililər obyekt rolu oynayırlar və icarə müddəti (20 ilədək) qurtardıqdan sonra onlar icarədara satıla bilər. Lizinqin bu növü böyük kapital yatırımları tələb edir və digər banklarla birgə əməkdaşlıq əsasında həyata keçirilir.

MUHASIBAT.AZ



Şəkil 9.5. Qayıdış lizinqi zamanı əməliyyatlar: 1 – lizinq obyektinin ödənilməsi və onun əvvəlki sahibinə ötürülməsi; 2 – lizinq üçün ödənişlər

Tarixən lizinqin ilk növü *maliyyə (bank) və ya kapital lizinqi* olmuşdur və onunla fərqlənirdi ki, o icarə verən tərəfindən heç bir xidmət göstərilməsini nəzərdə tutmur, icarənin vaxtından əvvəl dayandırılmasına yol vermir, tam amortizasion hesab olunur. Bu, icarə verənə avadanlığın alınması üzrə bütün məsrəfləri tam ödəyən icarə ödənişlərinin alınmasına arxayın olmağa imkan verir.

Ənənəvi maliyyə (bank) lizinqindən əvvəl potensial partnyorlar müəyyən fəaliyyət göstərirlər:

- əvvəlcə avadanlığı istifadə etmək istəyən firma (icarədar) onun üçün lazım olan texnikanı alır və qiymət və göndəriş müddətləri haqqında istehsalçı firma ilə danışıqlar aparır, hərçənd avadanlıq alınması üçün kontraktı icarədar deyil, gələcək icarə verən – bank və ya lizinq şirkəti imzalayacaq;
- sonra potensial icarədar lazımi avadanlığın göndərişçi firmadan (istehsalçı və ya ticarət vasitəçisindən) alqı razılaşmasını icarə verənlə başa çatdırır;
- praktiki olaraq avadanlığın alınması ilə eyni vaxtda icarədar icarə verənlə lizinq haqqında müqavilə (razılaşma, kontrakt) imzalayır. Belə razılaşmanın şərtləri avadanlığın alınması zamanı icarə verənin həyata keçirdiyi investisiyaların tam amortizasiyasını ödəməsi haqqında icarədarın öhdəliyini, habelə icarədarın borc vəsaitlər hesabına avadanlığı alacağı halda onun lazımi təminatı üzrə bank kreditinin məqsədli şəkildə ödəməli olduğuna yaxın stavka üzrə amortizasiya olunmamış qalıqlarını da tam ödəməsini nəzərdə tutur.

MUHASIBAT.AZ

Maliyyə (bank) lizinqinin aşağıdakı üstünlükləri var:

- o «cəldlik və çeviklik» prinsipi üzrə qurulub. Avadanlığın, istehsal binalarının sahibi ilə icarədar müəssisə arasında alqı-satqı müqaviləsi hazırlanan kimi sonuncu bank və ya lizinq şirkəti ilə lizinq sazişinin şərtləri haqqında danışıqları başa çatdırır. Danışıqların başa çatması və müqavilələrin imzalanması adətən eyni vaxtda, nadir hallarda isə iki-üç gün fərqi ilə başa çatır;
- lizinq proseduraları az sayda sənəd tələb edir (xarici partnyorların da qoşulduğu mürəkkəb lizinq əməliyyatları istisna təşkil edir). Kiçik və orta lizinq əməliyyatları nümunəvi, standart razılaşmalar əsasında həyata keçirilir, iri sövdələr üzrə isə fərdi kontraktlar tərtib olunur. İnvestisiyaların öz xərclərini çıxarması müddətinə icarə ödənişləri müddətinin adaptasiyası (uyğunlaşması) da müsbət məqam sayılır;
- klassik bank kreditindən fərqli olaraq o əlavə xərclər də daxil olmaqla, bütün xərclərin tam maliyyələşdirilməsinə imkan verir. Bu, özəl və likvid vəsaitlərin qənaət olunmasına imkan verir, müəssisənin ödənişqabilliyini artırır: nə qədər ki, icarədar alqı opsionunu razılaşmanın qüvvədəki müddətinin sonunda istifadə etdiyindən, lizinq əmlakının dəyəri balansa daxil edilmir.

Kəskin rəqabət şəraitində maliyyə (bank) lizinqinin istifadə olunması, xüsusilə də yüksək texnoloji sahələrdə çox səmərəlidir. O tez və kəskin maliyyə gərginliyi olmadan istehsal fondlarını təzələməyə imkan verir. Lizinq sazişlərinin bəzi nümunələrində icarə müddətinin başa çatmasınadək icarə olunmuş əmlakın (kompüterlər, digər informasiya texnikası) yeniləşməsini də nəzərdə tutur.

Maliyyə (bank) lizinqi, ilk növbədə tərpənməz əmlak lizinqi bazarı vergi qanunvericiliyi dəyişikliklərinə həssasdır. Məsələn, vergiqoyma bazasına (icarə ödənişlərinin maya dəyərinə aid edilməsi mənasında)

MUHASIBAT.AZ

hesablanma üsulu dəyişilmədən mənfəət stavkasının artması lizinqi stimullaşdırır, onu daha sərfəli edir. Eyni zamanda vergiqoyma bazasının dəyişilməsi hətta bütövlükdə vergi sıxıntısının azaldığı şəraitdə belə, əgər qanunvericilik bazası pis qurulubsa, lizinq əməliyyatlarına mənfi təsir göstərə bilər.

Hətta beynəlxalq lizinq də mövcuddur. *Beynəlxalq lizinq* – elə maliyyə lizinqidir ki, bu zaman tərəflərdən biri (lizinq firması, icarə verən, icarədar) başqa ölkəyə, habelə üç müxtəlif ölkəyə mənsubdurlar. İdxal (xarici göndərişçidən daxil olan əmlak lizinq obyekti kimi çıxış edir) və ixrac (xarici alıcı üçün nəzərdə tutulan əmlak lizinq obyekti kimi çıxış edir) kimi beynəlxalq lizinq növləri də mövcuddur.

Borc alanla kirayə verənə münasibətdə, yəni birbaşa (əmlak istehsalçısı və ya sahibi kirayə verən kimi çıxış edirlər) və dolayısı (icarəyə vermə vasitəçinin vasitəsilə həyata keçirilir) lizinq əməliyyatlarının xüsusiyyətlərini fərqləndirirlər.

Maliyyələşdirmə növünə görə lizinq müddətli (bir dəfəlik icarə) və revolverə (bərpa olunan) bölünür – birinci müddət başa çatan kimi müqavilənin vaxtı uzadılır. Lizinq obyektləri müəyyən zaman kəsiyində aşınmadan və avadanlığın dəyişdirilməsi üzrə xərcləri öz üzərinə götürən icarədarın istəyindən asılı olaraq dəyişilir. Lizinq obyektlərinin sayı və onların bərpa olunan lizinq üzrə istifadə olunma müddəti danışığa daxil edilmir (yəni müqavilədə əks etdirilmir). Bir qayda olaraq, texniki xidmət göstərilməsi yeni xüsusi biliklər tələb edən yük maşınları və avadanlıqlar (orqtexnika, elektron avadanlıq, dəzgahlar) lizinq obyekti rolunu oynayırlar.

İcarə əmlakına münasibətdə lizinq təmizə (əlavə xərcləri icarədar öz üzərinə götürür) və tama (əmlaklara texniki xidmət göstərilməsini və başqa xərcləri icarə verən öz üzərinə götürür) bölünür.

Lizinq əməliyyatlarının aparılmasının təşkili zamanı icarə verənlərin bir sıra amilləri diqşqətlərində saxlamaları lazımdır:

MUHASIBAT.AZ

- potensial icarədarların strukturunu (təsərrüfat orqanları, kooperativlər, bank təsisatları, birgə müəssisələr, ictimai təşkilatlar, vətəndaşlar);
- lizinq əlavəsi sahələrini (sənaye, inşaat, nəqliyyat və s.);
- kontraktların və əmlakların növlərini (avadanlıq, EHM, nəqliyyat vasitələri, tərpənməz əmlak və s.);
- icarəyə verilən əmlakın çatdırılması üzrə nəqliyyat xərcləri.

Mütləq işi əmlakın növünə, bankın lizinq əməliyyatlarına reklamına olan tələb və təklif üzrə təşkil etmək lazımdır. Texniki xidmətini icarədarın özünün təmin edə biləcəyi mürəkkəb olmayan avadanlıqdan başlamaq məsləhət görülür. Təsərrüfat orqanı-icarədar bankın ona xidmət göstərən müəssisəsinə müraciət edir və ya bank özü avadanlığın həm icarədarı, həm də göndərişçisi kimi potensial müştəriləri axtarıb tapır. Avadanlığın dəqiq göstərilməsi ilə lizinq sifarişi xüsusi sənədlə tərtib olunur. Lizinq üzrə mütəxəssis potensial müştəri haqqında informasiyanı kartotekaya toplayır, yəni onun icarəyə götürülən avadanlığın istismarına görə icarə haqqını ödəyəbilmə qabiliyyətini və avadanlığın dəyişdiriləbilmə imkanlarını dəqiqləşdirir (məsələn, standart avadanlığı dəyişdirmək xeyli asandır, nəinki xüsusi avadanlığı).

Lizinq müqaviləsi üçün ilkin məlumatların hazırlanmasından ötrü işçi əmlakın qiyməti, bank tərəfindən tətbiq olunan stavkanı və lizinq üçün komissiyon, əmlakın alınması məqamındakı avans, müqavilə müddətinin davamiyyəti, icarə haqlarının dövriliyi, amortizasiyanın hesablanması metodu, qalıq dəyəri üzrə geriyə alqı həcmi kimi informasiyanı təhlil etməlidir.

Lizinq müqaviləsinin hazırlanılması və lazımi sənədlərin tərtib olunması bank işçilərindən xüsusi bilik və təcrübə tələb edir. Lizinq üzrə ödənişlərin hesablanılması zamanı uzunmüddətli kreditlər üzrə faiz stavkası, zərurət yarandıqda kreditlərin məbləği (digər bankların) və

MUHASIBAT.AZ

onlar üzrə faizlər, bankın potensial icarədarı üçün vergi stavkaları, amortizasiya ayırmalarının norma və qaydaları, əmlakın xidməti müddəti, əmlakın nəzərdə tutulan qalıq dəyəri, lizinq şöbəsinin əməliyyat məsrəfləri, bu növ bank üçün rentabellik normativinin (mənfəət norması) hesablanması üsulu kimi amillər nəzərə alınır.

Lizinq sövdəsinin labüd şərtlərindən biri həm icarəyə verən, həm də icarədar üçün eyni bərabər faydanın olmasıdır. Sənayecə inkişaf etmiş müasir ölkələrdə iri banklar lizinq əməliyyatlarının aparılması üzrə məsləhətlər, hüquqşünasların və mühasib-təftişçilərin (auditorların) cəlb edilməsi ilə vergilər və hesabatlar sahəsində hüquqi məsləhətlər verir. İri banklarda lizinq şöbələri həm də zəruri hüquqi və metodik sənədləri, habelə EHM üçün proqram paketləri hazırlaya bilər.

Nəzərə almaq lazımdır ki, *lizinq kreditdən yaranmış maliyyələşdirmə metodudur*. Ona görə də müəyyən lizinq sövdəsindən bank üçün fayda mühasibat uçotu üzrə inikasının sadəliyində, habelə hesablamalarda nəzərdə tutulan güzəşt mərhələlərində, icarə haqqının ödənilmə müddətində (hər ay, hər kvartal, yarımillik və illik, əvvəlcədən ödənilən və ya müəyyən müddət keçdikdən sonra ödənilən), qalıq dəyərinin möhlətinin ödənilməsi məqsədilə icarənin uzadılması hüquqlu ödənişlərdə, icarənin bank kreditindəkindən fərqli olaraq, daha uzun müddətə uzada bilinmə imkanında ola bilər.

Lizinq əməliyyatının maliyyələşdirilməsi zamanı əmlaka həbs qoyulması və onun büdcənin xeyrinə müsadirə edilməsi kimi risklər, avadanlığa və ya əmlaka pis xidmət göstərilməsi riski, nimdaş mallar bazarında əmlakın sərfəsiz satıla bilməsi riski, əmlakın qaytarılmasına və təkrar satılmasına itirilən əlavə pul və vaxt məsrəfləri riski mövcuddur.

Bank (icarə verən) və ya icarədar yuxarıda göstərilən risklərdən ictimai və ya dövlət orqanı tərəfindən lizinq kreditinin qaytarılmaması riskindən, əmlakın qalıq dəyərinin sığortalanması ilə, habelə əmlakın

MUHASIBAT.AZ

satışı üzrə icarə verənin icarədarın öhdəliyindən müdafiəsi ilə sığorta oluna bilər.

9.5. İSTEHLAK KREDİTİ

Həmişə kəskin ehtiyac duyulan kredit növlərindən biri də *istehlak kreditidir*. O malın alıcılığı aktının o vaxt həyata keçirilməsinə imkan verir ki, hələlik malların alınması üçün vəsaitin toplanılması prosesi başa çatmayıb, amma əhalinin ayrı-ayrı kateqoriyalarında onların gəlirlərinin nisbətən az olması üzündən bu proses heç başlanılmayıbdır. Ona görə də istehlak krediti iki qrup ziddiyyəti (son istehlakçı nöqteyi-nəzərindən) həll edir:

- uzunmüddətli istifadə üçün olan malların nisbətən yüksək qiyməti ilə əhalinin cari gəlirləri arasında;
- əhalinin bir qrupunun pul yığımları ilə digər qrupunda onların istifadəsi zərurəti arasında.

İstehlak krediti müəyyən mənada qeyri-bərabər gəlirləri olan insanların həyat səviyyəsinin nisbətən bərabərləşdirilməsinə yardım edir, müxtəlif sosial təbəqə və əhali qruplarının istehlakının səviyyəsi ilə strukturu arasındakı uyğunsuzluğu azaldır. İstehlak krediti sferasındakı münasibətlər iki subyektin mövcudluğunu nəzərdə tutur: kredit verənin və borc alanın.

Öorc alan rolunda əhali çıxış edir, istehlak kreditinin əsas hissəsini isə bank müəssisələri təqdim edir. İstehlak krediti alınan zaman, bir qayda olaraq, həm də kreditorla borc alan arasında vasitəçi və ya vasitəçilik edən həlqə vardır, məsələn, kreditə mal satan ticarət təşkilatları belə həlqə rolunu oynayırlar. Onlar əhalini kreditləşdirirlər (istehlak kreditini əmtəə formasında), amma özləri həm mal almaq üçün, həm də sonradan əhalini kreditləşdirmək üçün bank kreditlərindən istifadə edirlər. İstehlak kreditinin verilməsi zamanı borc alanın işlədiyi müəssisə və ya təşkilat vasitəçi həlqə rolunda çıxış edir.

MUHASIBAT.AZ

Bu halda təsərrüfat subyektləri istehlak krediti üzrə borcların mütəmadi olaraq tutulması və onun banka qaytarılması üzrə, habelə öz işçilərinə yardım göstərməyi – istehlak krediti alanlar üçün həmin kreditdən ötrü lazım olan zəruri sənədlərin tərtibində (konkret hallarda) öhdəliyi öz üzərinə götürə bilər. Təşkilatların həm də istehlak kreditləri üzrə borcların ödənilməsi zamanı öz işçilərinin ayrı-ayrı kateqoriyalarına maddi yardım göstərmək ixtiyarları vardır. Bu zaman *istehlak kreditlərinin əsas növləri* aşağıdakılardan ibarət ola bilər:

- ödənişə möhlət verilməklə malların satışı (əmtəə formasında istehlak krediti);
- MTK-larda yaşayış evlərinin tikintisi, yaşayış və bağ evlərinin fərdi tikintisi üçün pul formasında ssuda vermək;
- Mənzillərin əsaslı təmiri və ölkənin az məskunlaşmış rayonlarına köçərkən təsərrüfatçılığın yaradılması;
- Mal-qara almaq və yardımçı ev təsərrüfatının inkişafı;
- Müəyyən mənada istehlak kreditinə parabank sisteminin ayrı-ayrı həlqələri tərəfindən verilən pul ssudalarını da aid etmək olar (əmlakın girov qoyulması əvəzinə lombard ssudaları, qarşılıqlı yardım kassalarının, kredit birliklərinin (yoldaşlığın) ssudaları və s.).

Keçmiş Sovet İttifaqında istehlak krediti yalnız 60-cı illərin əvvəllərindən sürətlə inkişaf etməyə başladı, çünki məhz həmin illərdə istehlak təyinatlı bir sıra sənaye mallarının möhlətlə satışına icazə verildi və mənzil-inşaat kooperativləri vasitəsilə mənzil tikintisi genişləndirildi. İstehlak kreditinin mal alınması üçün istifadə olunması, müəyyən mənada məhsullar üzrə tələbin təklifdən geri qaldığı malların yığılıb qalmasından qaçılmasına imkan verir, yəni əmtəə ehtiyatlarının dövriyyəliliyini sürətləndirir. Bununla da ticarət müəssisələri və təşkilatları malların saxlanılması, onların tamamlanılması və yerdəyişmələri ilə bağlı əlavə xərcləri azaldır. Bu, saxlanılması üçün

MUHASIBAT.AZ

böyüu sahələr və xüsusi yerlər tələb edən və uzunmüddətli istifadə üçün nəzərdə tutulmuş texniki cəhətdən mürəkkəb malların realizasiyası zamanı çox mühümdür. İstehlak krediti faktiki olaraq əhalinin ödəməqabillik tələbatını artırır.

Kommersiya bankları bilavasitə, banka ssuda üçün müraciət edən və ya istehlakçılara mal satan, yaxud da onlara xidmət edən pərakəndə satıcılardan istehlak öhdəliklərini (ABŞ-da belə öhdəliklər əlavə olunmuş sənədlərlə diler maliyyə kontraktı adlandırılır) əldə edən borc alana istehlak kreditləri verə bilərlər. İndiki halda alıcı əvvəlcə əşyanı əldə edir, bundan sonra isə maliyyə öhdəliklərini sənədləşdirir. Pərakəndə satıcılar belə təcrübəni dəstəkləyirlər və mal dövriyyəsini artırmaq məqsədilə malları kreditə təklif edirlər. Kredit verdikləri mallar üzrə debitor borclarının ödənilməsi üçün onlar bunun ardınca kredit üçün bank müəssisələrinə müraciət edirlər.

İstehlak predmeti üçün əhalinin ödənişqabilli tələbatının genişləndirilməsində istehlak kreditinin rolunu dəyərləndirmək məqsədilə dörd göstəricini tutuşdurmaq, müqayisə etmək lazımdır:

- əhalinin istehlak malları və xidmətlərinə olan şəxsi istehlak xərclərinin həcmini;
- əlavələr və müavinətlərlə birlikdə ödənilən əmək haqlarının məbləğini («məşğulluq kompensasiyası»);
- istehlak krediti üzrə əhalinin borclarının artmasını;
- yaranmış borca görə əhali tərəfindən ödənilən faizləri.

İstehlak təyinatlı məhsulların və istehlak xidmətlərinin realizasiyasında istehlak kreditinin rolu, bank və kommersiya kreditlərinin investisiya tələbatının hərəkətindəki rolu kimi hələ o qədər də böyük deyil. Bununla belə, sənayecə inkişaf etmiş ölkələrdə istehlak krediti sahibkarlarla (ticarət) və əhali arasında kredit münasibətlərinin əsas növlərindən biridir. XX əsrin 50-ci illərinin sonu – 60-cı illərinin əvvəllərində istehlak krediti müstəsna olaraq uzunmüddətli istifadə

MUHASIBAT.AZ

üçün malların (soyuducu, televizor, nəqliyyat vasitələri və s.) alınması üçün verilirdi. Sonralar istehlak kreditinin sferası gündəlik tələbat malları (paltar, ayaqqabı və ərzaq malları) hesabına genişlənməyə başladı.

Sənayecə inkişaf etmiş ölkələrdə istehlak kreditinin artması səbəblərindən biri kreditor təşkilatların xeyli genişlənməsi olmuşdur. Əgər əvvəllər kredit istehlakçılara bilavasitə ticarət firmaları tərəfindən verilirdisə, artıq indi, məsələn, XX əsrin 80-ci illərində bu sferaya kapital dövlət və bank müəssisələri, əmanət kassaları və məxsusən istehlak krediti məqsədilə yaradılmış maliyyə müəssisələri tərəfindən verilməyə başlamışdı. Məsələn, bu illərdə İngiltərədə istehlak kreditinin 40%-i bilavasitə ticarət firmaları tərəfindən, qalanı isə ixtisaslaşdırılmış maliyyə müəssisələri və banklar tərəfindən verilirdi. ABŞ-da bankların, maliyyə şirkətləri və kredit ittifaqlarının payına verilən istehlak kreditlərinin ümumi həcminin 85%-i düşürdü.

İstehlak krediti üçün onun bank əməliyyatları ilə sıxı şəkildə çulğaşması tamamilə xarakterikdir. Belə ki, alıcıların uzunmüddətli borc öhdəliklərinə ticarət şirkətləri tərəfindən banklardan ssuda alınması üçün istifadə olunur. İstehlakçılara bilavasitə banklar tərəfindən kredit verildikdə isə praktiki olaraq ticarət firmaları ilə banklar arasındakı lüzumsuz kredit münasibətləri həlqəsi aradan qılxır.

Kreditə alınmış mallara ticarət şirkətləri onların ssudalar ilə təmin olunması kimi baxırlar. Ona görə də sonuncu haqqın ödənilməsinədək mal üzərində mülkiyyət hüququ firmada qalır. Bu qaydanın qanunvericilikdə təsbit olunması bir çox əyintilərə gətirib çıxarır. Məsələn, satıcılar tərəfindən ödənişqabilli olmayan alıcılara həddən çox mallar sırınır. Belə təcrübə sənayecə inkişaf etmiş bir çox ölkələrdə alıcıların maraqlarının qorunması üçün qanunvericilik aktlar qəbul olunmasına səbəb oldu.

MUHASIBAT.AZ

Sənayecə inkişaf etmiş ölkələrdə bir neçə istehlak krediti növündən istifadə olunur. Amma malların möhlətlə satılması onların arasında ən böyük xüsusi çəkiyə malikdir. Malların kreditlə satın alınması alıcının nəinki malın dəyərini müntəzəm şəkildə aylıq ödəmələrlə ödənişini, həm də kreditdən istifadə üçün faizlərin ödənişini nəzərdə tutur. İstehlak kreditindən istifadə üçün faiz stavkası adətən adi bank ssudasının stavkasından artıq olur. Bir çox hallarda möhlətlə satış zamanı malın qiyməti kredit üçün faiz üstü hesaba görə ticarət firmasının və ya maliyyə şirkətinin komisyonu həcmində artır.

9.6. İPOTEKA KREDİTİ

İpoteka krediti tərpənməz əmlakın girov qoyulması hesabına ssuda verilməsi üzrə iqtisadi münasibətlərdən ibarətdir. İpoteka krediti bazar iqtisadiyyatının *spesifik xüsusiyyətləri* olan ayrılmaz elementidir:

- ipoteka krediti – ciddi müəyyən olunmuş girova görə verilən ssudadır, çünki adi bank ssudası girovla təmin olunmaya da bilər. Kredit qaytarılmadığı halda girov qoyulan tərpənməz əmlak satılır, əldə olunmuş vəsaitlə kreditora olan borc qaytarılır. Tərpənməz əmlak girov olduğundan bu, girov alana girov cisminin saxlanılmasında nəzarəti xeyli dərəcədə asanlaşdırır, lakin kreditin ödənilmədiyi halda onun realizasiyasını çətinləşdirir. Bu, ona əsaslanır ki, tərpənməz əmlak yüksək likvidli aktivlərə aid deyil;
- ipoteka ssudalarının əksəriyyəti çox ciddi məqsədli təyinatlıdır, çünki onlar həm yaşayış, həm də istehsal binalarının alqısı, inşası və yenidənqurulmasının, habelə torpaq sahələrinin becərilməsinin istifadə olunmasının maliyyələşdirilməsi üçün nəzərdə tutulur;

MUHASIBAT.AZ

- ipoteka kreditləri uzun müddətə, adətən 10-30 ilə verilir. Uzun müddət kreditin ödənilməsini zamanca uzadır və bununla da aylıq ödəmələrin həcmini azaldır.

Tərpənməz əmlaklarla əməliyyatlar kommersiya banklarının cari kredit əməliyyatları ilə müqayisədə kifayət qədər tez-tez az riskli olduğundan, bunun nəticəsində ipoteka krediti bank fəaliyyətinin perspektivli istiqaməti sayılır. İpoteka bankı, bir qayda olaraq, nisbətən dayanıqlı və mənfəətli bank müəssisəsidir. İpoteka banklarının işinin sabitliyi həm də ipoteka kreditini müşayiət edən mütləq sığortalanma hesabına da güclənir. Adətən əmlakın titulunun sığortalanması, tərpənməz əmlakın sığortalanması, borc alanın həyatının sığorta edilməsi və s. ilə həyata keçirilir.

İpoteka bankı (ipoteka üzrə digər kreditorlar kimi) borclunun əmlakını onun sahibindən alınmadan girov qoymağa icazə verir. Sonuncu borclarını müəyyən olunmuş müddət ərzində ödəməyi öhdəsinə götürür. Əgər bu baş tutmursa, onda borcu başqa şəxsə (banka) satırlar və ya borclunun əmlakı satışa gedir (hərrac). Qeyd etmək lazımdır ki, inkişaf etmiş ölkələrdə ipoteka kreditləşdirməsinin tərpənməz əmlak üzrə agentləri, ipoteka kreditləşdirməsi həyata keçirən ipoteka bankları və digər kredit isntitutları, müştərilərin kreditqabilliyi haqqında informasiya verən sığorta şirkətləri, kredit agentlikləri, girov qoyulmuş əmlakın müsadirə olunması üzrə ixtisaslaşan şirkətlər tərəfindən təqdim olunan bütöv sistemləri formalaşmışdır.

İpoteka kreditləşdirilməsi zamanı borc alan rolunda, mülkiyyətində ipoteka obyekti olan hüquqi və fiziki şəxslər çıxış edirlər. Girov obyekti rolunda tərpənməz əmlak, yəni yaşayış evləri və mənzillər, istehsalat tikililəri, binalar, dükanlar, anbarlar, torpaq sahələri çıxış edə bilər.

Lakin, *ipoteka kreditləşdirməsi mexanizminə hər şeydən öncə torpağın girov qoyulması daxildir*. Bu halda kənd təsərrüfatı məhsulları

MUHASIBAT.AZ

istehsalçılarının torpağın girov qoyulması ilə kredit almaları alınmış vəsaitlərin banka qaytarılması üçün qarantiya ola bilər. Eyni zamanda torpaq sahəsinin girov qiymətinin müəyyənləşdirilməsi torpaqla bağlı xeyli əməliyyatların aparılması üçün həllini tapmalı olan əsas məsələlərdən biridir. Bu zaman girovun başlıca xüsusiyyətləri aşağıdakılardan ibarətdir: borc alanın mülkiyyətinin olması; mülkiyyət onun sahibinə gəlir gətirməlidir; mülkiyyət başqa sövdədə girov obyekti olmamalıdır.

İpoteka kreditləşdirməsi nisbətən az riskli bank əməliyyatı sayılır, çünki ipoteka kreditləşdirməsi zamanı riskin böyük hissəsi borc alanın və investorun üzərinə qoyulur. Bu zaman bank da müxtəlif növ ipoteka ssudasından istifadə edərək (dəyişkən faiz stavkası ilə) öz risklərini azaldır. Lakin, bu, o şərtlə mümkündür ki, borc alanın kreditqabilliyinin qiymətləndirilməsi ilə tərpənməz əmlakın qiymətləndirilməsi düzgün aparılsın. Ona görə də ipoteka kreditləşdirilməsi bank personalından yüksək ixtisas və xüsusi biliklər tələb edir, ipoteka kreditinin mühüm məqamı isə onun təminatı üzrə təklif olunan mülkiyyətin dəyərləndirilməsidir. Qiymət qoyanlar bir sıra amillərin təsirinə məruz qalmış tərpənməz əmlakın qiymətini müəyyənləşdirməlidirlər. Bununla yanaşı, qiymətləndirmənin dəqiqliyi ipoteka kreditinin əsası sayılır, çünki girovun qiymətləndirilməsindəki səhvlər kreditora baha başa gələ bilər.

Tərpənməz əmlak obyektlərinin dəyərinin (qiymətinin) qiymətləndirilməsinin xaricdəki təcrübəsi göstərir ki, obyektin obyektivliyə (bazar) daha yaxın qiymətinin nisbətən dəqiqi bazar qiymətləri əsasında müəyyənləşdirilənidir. Bu zaman qiymət qoyanlar üç üsuldan istifadə edirlər:

- satışın müqayisəli analizi üsulu (bazar üsulu);
- gəlirli üsul və ya gəlirlərin kapitallaşdırılması üsulu;
- məsrəf üsulu və ya kalkulyasiya üsulu.

MUHASIBAT.AZ

Birinci üsul *əvəzləmə prinsipinə* əsaslanır və bu da onu nəzərdə tutur ki, dəyərləndirilən obyektin qiyməti əvvəllər tərpənməz əmlak bazarında alqı-satqı predmeti olmuş analoji obyektin dəyərindən artıq olmamalıdır. Bu üsula satış bazarı və dəyərləndirilən tərpənməz əmlak obyektinə uyğun təklif olunan obyekt haqqında informasiya toplanılması daxildir. Bundan sonralar analoji obyektlərin qiymətləri parametrlərin nəzərə alınması ilə korrektə edilir və obyektlər onlara görə bir-birlərindən fərqləndirilir. Korrektə olunmuş qiymətləri sonralar dəyərləndirilən obyektin bazar qiymətinin müəyyənləşdirilməsi üçün istifadə etmək olar.

Müqayisəli analiz üsulu nisbətən sadədir və əsasən yaşayış binalarının qiymətinin dəyərləndirilməsi üçün istifadə olunur. Bunun üçün müqayisə etməkdən ötrü kifayət qədər obyekt olmalıdır ki, bu da inkişaf etmiş tərpənməz əmlak bazarının olmasını nəzərdə tutur. Məsələn, müqayisə üçün üçdən az olmamaq şərtilə, ən azı beş-on obyektin olması lazımdır. Bu üsulu spesifik obyektlərin (kilsə, muzey, stadion və s.) dəyərləndirilməsi üçün istifadə etmək olmaz, çünki onları praktiki olaraq heç nə ilə müqayisə etmək olmaz və belə obyektlər üzrə az satış aparılır.

Tərpənməz əmlakın qiymətləndirilməsinin ikinci üsulu – glirlərin kapitallaşdırılması üsuludur və o *gözləmə prinsipinə* əsaslanır ki, bu da tipik investor və ya alıcının gələcəkdə həmin əmlakdan gəlir götürməsi məqsədilə o əmlakı almasını nəzərdə tutur. Buna uyğun olaraq obyektin qiyməti onun gələcəkdə gəlir gətirmə qabiliyyətinə əsasən müəyyənləşdirilir. Bu üsul investisiya xarakterli obyektlərin qiymətləndirilməsi üçün istifadə olunur, yəni mənzil, anbar, ofis binaları, mehmanxana binaları icarəyə verilərkən ondan istifadə olunur. Bu halda aşağıdakı düsturdan istifadə oluna bilər:

$$D = G/K, \qquad (9.1)$$

MUHASIBAT.AZ

burada D – obyektin dəyəri; G – xalis gəlir; K – kapitallaşdırma əmsalıdır.

Tərpənməz əmlaka tətbiq olunan kapitallaşdırma əmsalı investisiyaya qoyulan gəlir stavkasından və faizlərlə ifadə olunan infestisiyanın qayıdış normalarından əmələ gəlir. Xarakterikdir ki, tərpənməz əmlak obyektlərinin qiymətləndirilməsi üçün kapitallaşdırma üsulunun istifadə olunması zamanı ən çox çətinlik kapitallaşdırma əmsalı ilə bağlıdır.

Üçüncü üsul – *məsrəf* və ya *kalkulyasiya* üsulu yeni tikilmiş tərpənməz əmlak obyektlərinin, yeniləşdirilmiş (bərpa olunmuş) tərpənməz əmlak obyektlərinin, xüsusi təyinatlı binaların və tikililərin (tarix və mədəniyyət abidələrinin, stadionların, sitayiş tikililərinin və s.) dəyərləndirilməsi üçün istifadə olunur.

Bu üsul aşağıdakılardan ibarət olan üç yanaşmanı nəzərdə tutur:

- birinci – balans dəyəri üzrə qiymətləndirmə. Bu, mühasibat hesabatı üzrə müəyyənləşdirilir;
- ikinci – likvidlik dəyəri üzrə müəyyyənləşdirmə. Bu, tərpənməz əmlakın tezliklə satılması zamanı əldə olunan gəlirin məbləği kimi müəyyənləşdirilir;
- üçüncü – bərpa dəyərri üzrə qiymətləndirmə.

Tərpənməz əmlak obyektinin qiymətləndirilməsi üçün məsrəf üsulu və ya kalkulyasiya üsulunun istifadə olunması zamanı əsas çətinliyi torpağın qiymətləndirilməsi təşkil edir. Bu məqam onunla şərtlənir ki, torpaq əmək məhsulu deyil və klassik variantda torpağın qiyməti kapitallaşdırılmış rentadır.

Tərpənməz əmlak obyektlərinin qiymətləndirilməsinin yekun mərhələsi (indiki mərhələdə qiymət qoyanın yüksək ixtisaslılığı xüsusilə vacibdir) üç üsulla (satışın müqayisəli analizi, gəlirlərin kapitallaşdırılması, kalkulyasiyası) alınan qiymətlərin müqayisə

MUHASIBAT.AZ

edilməsi və alınmış dəyər qiymətlərinin obyektin vahid dəyərinə cəmləşdirilməsindən ibarətdir. Sonuncu kreditor (ipoteka bankı) üçün ssuda verilməsi haqqında qərar qəbul edilməsindən ötrü əsas sayılır.

İpoteka banklarının kreditləşdirmə resursları öz yığımlarından, ipoteka istiqrazlarından və müştərilərin hesabında cəlb olunmuş vəsaitlərdən ibarətdir, çünki ipoteka bankları həm də adi bank əməliyyatları həyata keçirirlər. İpoteka istiqrazları banklar tərəfindən tərpənməz əmlakın təminatlığı ilə buraxılan və möhkəm gəlir gətirən uzunmüddətli qiymətli kağızlardan ibarətdir.

İpoteka kreditinin tərtib olunması zamanı əsas sənədlər girov sənədləri, veksellər və digər qiymətli kağızlardan ibarətdir. Bu sənədlər, eləcə də ipoteka istiqrazları ikinci qiymətli kağızlar bazarında qiymətləndirilə bilər. Bu zaman *girov sənədləri* kreditora ssuda üzrə girova qanuni mülkiyyətçi hüququ verən sənədə çevrilir. Tərpənməz əmlak üzrə girov sənədi ipoteka kreditinin əsas təminatıdır. Tərpənməz əmlak üzrə girov sənədi kredit müqaviləsi ilə borc alanın öhdəliklərini təşkil edir. Bütün borclar, faizlər, vergilər, yığımlar və həmin mülkiyyətdən yığılan digər ödənişlər, girov qoyulan əmlakın yaxşı vəziyyətdə saxlanılması, tərpənməz əmlakın qeyri-qanuni fəaliyyətdə istifadə olunmaması, tərpənməz əmlakın bankın xeyrinə sığorta olunması, tərpənməz əmlakın başqa şəxslərə verilməsinin qadağan olunması və s. borc alanın öhdəliyinə həvalə olunur.

İpoteka krediti alınması zamanı tərtib olunan girov sənədi xüsusi kredit sazişi hesab olunur. Girov sənədləri ikinci bazarda dövr edir ki, bununda vəzifəsi kreditləşdirmə üçün resursların daim axının təmin olunmasından və kredit resurslarının bolluğunun mövcud olduğu bir sferadan (regiondan) onların qıtlığının hiss olunduğu digər sferaya (regiona) axıdılmasının təmin olunmasından ibarətdir. Həm də ipoteka krediti üçün girov kimi məhz satışı üçün götürülən həmin tərpənməz əmlak çıxış edə bilər.

MUHASIBAT.AZ

İpoteka krediti zamanı *qiymətli kağızların* istifadə olunması, yuxarıda qeyd olunduğu kimi, onların qiymətli kağızlar bazarında qiymətləndirilməsini nəzərdə tutur. İpoteka qiymətli kağızlarının ikinci bazarının təşkil olunması *titrləşdirmə* adlandırılan mexanizmə, yəni borc öhdəliklərinin ipoteka banklarında dövr edən qiymətli kağızlara çevrilməsinə əsaslanır. Titrləşdirmə ipoteka kreditləri ilə təmin olunan qiymətli kağızların (veksellərin, istiqrazların), ipoteka kreditlərinin bütünlüklə bazar iştirakçılarına verilməsi yolu ilə həyata keçirilməklə emissiya formasında, habelə ümumi ipoteka borc öhdəlikləri fondunun təşkili vasitəsilə həyata keçirlir.

Hazırda sənayecə inkişaf etmiş ölkələrin bir çoxunda dövlət institutları girov qoyulmuş tərpənməz əmlakla təmin olunan təkrar (ikinci) qiymətli kağızlar bazarının təşkilində çox əhəmiyyətli rol oynayırlar. Məsələn, təkrar ipoteka qiymətli kağızlar bazarının normal və böhransız fəaliyyət göstərmələsinin təmin olunması üçün dövlət institutları riskin bir qismini öz üzərlərinə götürürlər, habelə problemli situasiyalarda kredit müəssisələrinə fəal köməklik göstərirlər.

İpoteka krediti zamanı girov rolunu oynayan mülkiyyətin məcburi ləğv olunma imkanının mövcud olması səbəbindən, borc alan müəyyən olunmuş müddətdə ssudaların ödənilməsi üzrə öz borc öhdəliklərini yerinə yetirmədikdə, onda kreditor üçün borca görə əmlakın tutulması hüququnu almaq vacibdir. Ssuda verilənədək kreditor başqa kreditorların borca görə həmin əmlaka hüquqlarının olub-olmamasını aydınlaşdırmalıdır. Girov sənədləri adətən kreditin, borc alanın borca və faizlərə görə ödənişləri vaxtında həyata keçirmədiyi və ya hər hansı bir öhdəliyi yerinə yetirmədiyi zaman, ssudanın tam həcmdə dərhal ödənilməsini nəzərdə tutan *tezləşdirilmiş ödəniş* şərtinə malik olur.

İpoteka krediti əlavə kredit alınması üçün əmlakın təkrar girov qoyulmasına yol verir, bu şərtlə ki, əmlakın dəyərliliyi ipoteka üzrə

MUHASIBAT.AZ

əvvəlki kredit sövdəsi zamanı tükənməsin və borc alanın faizləri və borcları ödəməyə iqtisadi imkanları olsun. Tərpənməz əmlakın girov qoyulması zamanı borc alan yalnız özünün mülkiyyət hüququnu saxlayır, lakin girov qoyulmuş əmlak borc alanın əlində qalır və o bundan istifadə etməkdə davam edir. Kreditorun maraqlarını müdafiə etmək üçün girov sənədi dövlət müəssisəsində (notariusda) müvafiq qaydada tərtib olunmalıdır. Borc alanın maraqlarının müdafiə olunması üçün adətən əlavə müddət nəzərdə tutulur ki, həmin dövr ərzində o, ipoteka krediti üzrə müəyyən olunmuş müddətdən sonra ssuda üzrə borcunu ödəyə bilmədikdə mülkiyyətin alınması və satılması hüququndan məhrum edilməsinədək öz əmlakını geriyə ala bilsin.

İpoteka krediti üçün nisbətən az likvidlik xarakterikdir, kreditin sığortalanması və təkrar (ikinci) ipoteka bazarının yaradılması vacibdir. Tərpənməz əmlak üzrə ipoteka kreditinin verilməsi haqqında məsələnin öyrənilməsini öyrənən bank üçün ən mühüm məsələ borc alanın kreditqabilli olmasıdır. Borc alanın kreditqabilliyinin öyrənilməsi zamanı hər şeydən öncə ssudanın həcmi (maksimal həcmi) ilə girov qoyulan tərpənməz əmlakın dəyəri, borc alanın gəlirlərinin həcmi və sabitlik dərəcəsi, gələcəkdə tərpənməz əmlakın satıla bilməsi imkanları arasındakı nisbət müəyyənləşdirilir.

Borc verənin (bank) girov qoyulan əmlakın sənədlər üzrə faktiki mövcudluğunu, həcmini, vəziyyəti və saxlanılma şəraitini yoxlamaq hüququ vardır. Tərpənməz əmlak üzrə kreditlər ödənişin möhlət şərtləri və faizlərin ödənişi ilə ödənilməlidir.

Hazırda bir çox ölkələrdə ipoteka kreditinin daha çox istifadə olunan forması vaxtaşırı təzələnmiş kredit məbləğili girov sənədinə bənzər (vaxtaşırı təzələnən kredit məbləğili girov sənədi konkret bazar şəraitindən asılı olaraq vaxtaşırı kredit üzrə stavkaların yenidən baxılmasını nəzərdə tutur) dəyişkən faiz stavkalı girov sənədidir. İpoteka kreditləşdirməsinin bu forması bütün kredit müddəti ərzində

MUHASIBAT.AZ

cari kredit konyunkturasını əks etdirən hər hansı əsas və ya indeks enib-qalxmasından asılı olaraq faiz stavkasında edilən dəyişiklikləri nəzərdə tutur.

Bundan əlavə, ipoteka kreditləşdirməsi çox hallarda mənzil tikintisi ilə bağlıdır. İpoteka krediti vasitəsilə mənzil alınması əhalinin öz yaşayış problemlərinin həllinin əsas növüdür. Bu zaman inkişaf etmiş dövlətlərin təcrübəsi *ipoteka kreditləşdirməsi təşkilinin əsas prinsiplərini* fərqləndirməyə imkan verir:

- dövlət əhalinin nisbətən az təminatlı təbəqələrinin «sosial» mənzil alınmalarına müxtəlif üsullarla yardım göstərməklə, öz vətəndaşlarının mülkiyyətçilik hüququna daxil olmasını fəal şəkildə stimullaşdırır;
- dövlətlərin əksəriyyətində mənzil maliyyələşdirilməsinə dövlət yardımının bölüşdürülməsində əmanət kassaları, Fransa və Almaniyada isə həm də qarşılıqlı yardım kassaları əsas rol oynayırlar. ABŞ-da dövlət kapitalı və sığorta şirkətlərinin iştirakı ilə ixtisaslaşdırılmış ipoteka institutlarının rolu böyükdür. İpoteka kreditləşdirməsinin təşkili prosesində kommersiya banklarının iştirakı isə.

İpoteka kreditinin vətəni Almaniyadır. İlk dövlət ipoteka bankı 1770-ci ildə Sileziyada iri mülkədar təsərrüfatlarına maliyyə dəstəyi məqsədilə yaradılmışdır. Pul vəsaitlərinin cəlb olunması üçün o borc alanın tərpənməz əmlakın (torpağın, tikililərin) girov qoyulması haqqında girov sənədi sayılan və kreditora olan borcunu vaxtında ödəmədikdə girov qoyulan əmlakın hərracda satılmasına hüquq verən sənədlər buraxmışdı. Girov sənədi mütləq notarius idarəsində tərtib olunmalı idi və tərpənməz əmlakın girov qoyulması haqqında kadastr kitabında qeyd aparılırdı.

XIX əsrin əvvəllərində ipoteka banklarının fəaliyyəti xırda mülkədar əmlaklarına, XIX əsrin ortalarından isə bir sıra kəndli

MUHASIBAT.AZ

təsərrüfatlarına da şamil edildi. XIX əsrin ikinci yarısında şəhər tərpənməz əmlaklarını kreditləşdirmək üçün «ştadtşaft»lar yaranmağa başlandı və onlar da mülkədar təsərrüfatlarını kreditləşdirən «landşaft»lar kimi, yerli hakimiyyət orqanlarına məxsus idilər. İlk dəfə özəl aksioner və «təmiz ipoteka bankı» 1962-ci ildə Frankfurtda yaradılmışdır.

Hazırda Almaniyada özəl ipoteka bankları torpaq və kommunal kreditləri verilməsi üzrə xüsusi banklar sayılırlar. Mənzil tikintisinin, binaların və tikililərin modernləşdirilməsinin uzunmüddətli kreditləşdirilməsi, sənaye və kənd təsərrüfatında kapital yatırımlarının maliyyələşdirilməsi (ipoteka ilə həyata keçirilir), istiqraz şəklində dövlətə, ölkə daxilində bölgələrə və yerli idarə orqanlarına, habelə xaricdə (AİB çərçivəsində) korporasiyalara və dövlət müəssisələrinə kommunal kreditlərinin verilməsi onların funksiyasına daxildir. Dövlət ipoteka bankları öz fəaliyyət xarakterinə görə əsasən özəl ipoteka bankları ilə oxşardır. Resursların formalaşdırılma mənbələrində (resursların yarıdan çoxu əmanətlərin hesabına, az hissəsi isə girov sənədləri emissiyası və kommunal istiqrazları hesabına formalaşır), habelə ayrı-ayrı kreditləşdirmə obyektlərində (dövlət banklarının ictimai-hüquqi statusu nəzərə alınır) bəzi fərqlər mövcuddur.

ABŞ-da ipoteka bankları regional əhəmiyyətli xırda yerli (torpaq) fermer bankları ilə, Kanadada ipoteka şirkətləri ilə təmsil olunurlar. İngiltərədə ipoteka kreditlərinin verilməsi ilə inşaat cəmiyyətləri məşğul olur və onların əsas funksiyası əhalinin qısamüddətli əmanətləri şəklində cəlb olunan vəsaitləri hesabına yaşayış evlərinin inşası (alınması) üçün fərdi uzunmüddətli ssudaların verilməsindən ibarətdir. İnşaat cəmiyyətlərinin belə ciddi ixtisaslaşması xırda ailə əmanətlərinin akkumulyasiyasının mühüm kanalı olmasına maneçilik törətmir. Cəmiyyətlərin fəaliyyətini onlara kifayət qədər tez-tez maliyyə dəstəyi göstərən dövlət tənzimləyir. İtaliyada ipoteka krediti mənzil tikintisi ilə

MUHASIBAT.AZ

sıx bağlıdır və orada torpaq sahəsi və ya tikilən binanın bir hissəsi girov rolunda çıxış edir. İtaliyada ipoteka krediti sahəsində siyasət təkcə kəskin sosial problemin (mənzil çatışmazlığı) həlli nöqteyi-nəzərindən deyil, həm də investisiyaların inşaatda iqtisadiyyatın inkişafı gedişinə göstərilən təsir ilə əhəmiyyət kəsb edir. İsveçrədə ipoteka kreditlərini regional banklar, əmanət və ssuda kassaları verir. İpoteka krediti Skandinaviya ölkələrində geniş inkişaf etmişdir.

Rusiyada ipoteka kreditlərinin təşkil olunmasına ilk dəfə XVII əsrdə cəhd göstərilmişdir. 13 may 1753-cü il tarixli Fərmana uyğun olaraq zadəganlar üçün Dövlət İstiqraz bankları təsis olunmuşdur. Lakin bu müəssisələrin fəaliyyəti çox uğurlu olmamışdır. Belə ki, mülkədarlar nəinki ssudaları qaytarmamışlar, hətta çox hallarda faizləri də ödəməmişlər, vaxtı keçmiş girovların qanunla nəzərdə tutulan satışı tətbiq olunmamışdır, düzgün hesabdarlıq aparılmamışdır və bu səbəbdən də təqdim olunan hesabatlar yalnız təxmini tərtib olunurdu.

Rusiyada yerli (torpaq) ipoteka bankları XIX əsrin ikinci yarısında – XX əsrin əvvəllərində inkişaf etməyə başladı. Belə ki, 1883-cü il aprelin 10-da əməliyyatlar aparmağa başlayan Krestyanski Pozemelnı bankın (Kəndli Torpaq bankı) kəndlilərə onlar tərəfindən satın alınan (sahibkarla könüllü razılaşma üzrə) torpağın girov qoyulmasına görə ssuda vermək, bankın yardımı olmadan kəndlilər tərəfindən satın alınan torpaqların girov qoyulmasına görə bu torpaqların alınması üzrə həmin torpaqlarla təmin olunan yaranan borcların ödənilməsi üçün ssuda vermək kimi əməliyyatlar aparmağa hüququ var idi. Ssuda kənd cəmiyyətlərinə (icmalarına), bütöv kənd icması təşkil etməyən ayrı-ayrı məskənlərə, daim əkinçiliklə məşğul olan və kəndlərdə yaşayan meşşanlara verilirdi.

Rusiyada 1917-ci ilə kimi digər əməliyyatlarla yanaşı, mənzil tikintisi və ipotekaya investorların özəl və dövlət vəsaitlərinin cəlb

MUHASIBAT.AZ

edilməsi ilə məşğul olan güclü, çoxsubyektli kredit-maliyyə sistemi var idi. İnqilabdan əvvəlki Rusiyada sayı 16 minə çatan (filial şəbəkəsi də nəzərdə tutulur) kommersiya və ipoteka banklarının şaxələnmiş infrastrukturu yaradılmışdır. Bu banklar pul vəsaitləri və qiymətli kağızlardan əlavə, torpaq sahələrinə, binalara və tikililərə, mənzillərə və müxtəlif obyektlərin inşası hüququna mülkiyyəti təsdiqləyən əmtəə öhdəlikləri, veksellər və sertifikatlar şəklində *paralel valyutanı* da öz dövriyyələrinə daxil edirdilər.

Bu zaman ipoteka bir çox seqmentlərdən ibarət olurdu ki, torpaq, tərpənməz əmlak bazarı, podratçı inşaat təşkilatları arasında sifarişlərin yerləşdirilməsi seqmentləri ən əhəmiyyətlilərindən sayılırdı. Rusiyanın bir sıra ipoteka bankları əhali arasında əlverişli faizlə əmlakı hissə-hissə banka girov qoymağa imkan verən imza vərəqələri və xüsusi ipoteka yığım istiqrazlarının yayılması təcrübəsindən istifadə edirdilər. İldə 1,5-2%-lə verilən kreditlər sayəsində tədricən mənzil almaq və onu kirayə vermək yolu ilə varidatı tədricən artırmaq mümkün olurdu. Kreditləri tədricən qaytarmaqla var-dövləti artırmaq mümkün idi. Əgər kreditlər qaytarılmırdısa, müştərinin şəxsiyyəti nəzərə alınmaqla, əlavə ödəniş müddəti təyin edilirdi. Əgər bu müddətə də əməl olunmurdusa, onda girov qoyulmuş əmlak bankın sərəncamına keçirdi. Lakin müştəri, bank öz itkilərini kompensasiya etmək barədə qərar qəbul edənədək, məsələn, girov qoyulmuş əmlakdan kiçik həcmdə yeni əmlakı müştəriyə təqdim etməklə ondan istifadə etməkdə davam edirdi və ya onu girov qoyulmuş əmlakdan istifadə etmək hüququndan məhrum edirdi.

İnqilabdan əvvəlki Rusiyada girov qoyulmuş tərpənməz əmlaka görə pulla deyil, girov qoyulmuş tərpənməz əmlakla təmin olunan qiymətli kağızlarla kredit verən şəhər kredit cəmiyyətləri və yerli (torpaq) bankları ipoteka əməliyyatları ilə fəal məşğul olurdular. Bu sistem təkcə resursların güclü akkumulyatoru kimi deyil, həm də iqtisadiyyatın əsası kimi xidmət göstərirdi, çünki təkcə pulu deyil,

MUHASIBAT.AZ

torpaq sahələrinə, tikililərə və s. mülkiyyət hüququnu təsdiqləyən qiymətli kağızları, əmtəə veksellərini, sertifikatları, girov sənədlərini dövriyyəyə cəlb edirdi. 1917-ci ilin noyabrında Krestyanski Pozemelnı bank ləğv edildikdən, eləcə də torpaq üzərində xüsusi mülkiyyət ləğv edildikdən sonra ipoteka əməliyyatlarının aparılması üçün zəmin də aradan qaldırıldı.

MUHASIBAT.AZ

9.7. DÖVLƏT KREDİTİ

Dövlət krediti dövlət tərəfindən büdcə kəsirinin ödənilməsi məqsədilə və ya cəmiyyətin dövlətin cari imkanlarından artıq tələbatını əlavə maliyyələşdirmək üçün fiziki və hüquqi şəxslərin müvəqqəti sərbəst pul vəsaitlərini müddətlilik, qaytarılmaqlıq və ödənişlilik şərtlərilə səfərbərliyi ilə bağlı münasibətlər məcmusundan ibarətdir. Dövlət kreditinin fərqləndirici xüsusiyyətləri ondan ibarətdir ki, borclu rolunda çıxış edən münasibət iştirakçılarından biri dövlətdir, dövlət krediti münasibətlərinin digər iştirakçısı əhali ilə, müxtəlif mülkiyyət formalı təsərrüfat subyektləri, ictimai təşkilatların müəssisələri və ictimai təşkilatların özləri ilə, habelə xarici fiziki və hüquqi şəxslərlə və dövlətlərlə təmsil oluna bilər.

Ona görə də dövlət kreditinin meydana çıxması və mövcudluğu onunla bağlıdır ki, dövlət iqtisadi münasibətlərin subyekti kimi öz məsrəflərini ödəmək üçün təkcə büdcə gəlirlərini deyil, həm də əlavə, borc zəminində formalaşmış maliyyə resurslarını cəlb edir. Onların alınmasının unikal üsulu kimi, dövlətin əlində əlavə pul vəsaitlərinin formalaşması ilə bağlı (büdcə ilə yanaşı) dövlətlə çoxsaylı fiziki və hüquqi şəxslər arasında münasibəti ifadə edən dövlət krediti çıxış edir. Bu halda dövlət vəsaitlərin borc alanı kimi çıxış edir, əhali, müəssisə və təşkilatlar isə kreditorlar kimi çıxış edir.

Tarixdən bəllidir ki, Rusiya hökuməti hələ XVII əsrin əvvəllərində öz xərclərini ödəmək məqsədilə dövlət krediti xidmətlərinə əl atırdı. Elə o vaxt ilk dövlət istiqrazları yaranmışdı, hərçənd istiqrazlar nisbətən müntəzəm mənbə daxilolamaları kimi yalnız XVIII əsrin ortalarından çıxış etməyə başlamışdılar. Feodal Rusiyası şəraitində əsas daxili kreditorlar monastırlar və kilsə idi. Lakin, tədricən dövlət kreditinin sosial bazası genişləndi: tacirlər, müəssisə sahibləri, bəzən də torpaq

MUHASIBAT.AZ

sahibləri borc verənə çevrilirdilər. Dövlət pulu dövlət əmlakı təminatı ilə könüllü əsasla qəbul edirdi. Lakin, bəzi hallarda borclar məcburi qaydada da alınırdı. Bu zaman dövlət kreditinin dövlət istiqrazları (daxili və xarici), xəzinədarlıq öhdəliklərinin buraxılışı, vəsaitlərin dövlət banklarından borc alınması kimi forma və növləri formalaşırdı. Ölkədə aşağıdakı dövlət bank müəssisələri fəaliyyət göstərirdi:

- Dövlət istiqraz bankı (1786-cı il);
- Dövlət kommersiya bankı (1817-ci il);
- Peterburq və Moskva tərbiyə evləri nəzdində saxlanc xəzinədarlıqları (1772-ci il);
- İctimai himayə prikazları (1775-ci il).

Onların qarşısında duran vəzifələrin bir sıra spesifikasına görə yuxarıda adları çəkilən dövlət müəssisələrinin başlıca əməliyyatları əmanətlərin qəbul olunması və mülkədar torpaqlarının (mülklərinin) girov qoyulması ilə ssuda verilməsindən ibarət idi. Tədricən bank sisteminin ən böyük borclusu çar hökuməti olur. Dövlət borcu 1861-ci ildə böyük məbləğə – 1264 mln. rubla çatmışdı. Borclar üzrə ödəmə və faizlərin ödənişi ildə 50 mln. rubla və ya təxminən büdcə xərclərinin 15%-nə çatmışdı.

Dövlət kreditinin tarixi göstərir ki, borc əməliyyatlarının tərtibinin səbəbi kimi büdcə kəsirinin mövcudluğu çıxış edir. Əlavə maliyyə resurslarına ehtiyac duyan hökumət balanslaşdırılmış büdcə şəraitində də əlavə maliyyə fondunun səfərbərliyə alınması imkanlarından imtina etmir. Bu, özünü tamamilə doğruldan addımdır, çünki dövlət krediti fondunun vəsaitləri hesabına əlavə təsərrüfat və sosial-mədəni quruculuq proqramları, adi büdcə gəlirlərinin daxilolmalarını gözləmədən, təxirə salınmadan maliyyələşdirilə bilər. Bununla yanaşı, istənilən anda – həm büdcə kəsiri zamanı, həm də balanslaşdırılmış büdcə zamanı – borc vəsaitlər dövlətin gəlirləri sayıla və büdcənin gəlir hissəsində əks etdirilə bilməz. Ona görə də dövlət

MUHASIBAT.AZ

krediti xətti üzrə münasibətləri bank krediti ilə qarışdırmaq olmaz, çünki bank kreditinin maddi zəmini kimi çıxış edən ssuda fondu müəssisələrə, idarələrə və ayrı-ayrı xüsusi şəxslərə genişləndirilmiş təkrar istehsal prosesinin fasiləsiz təmin olunması məqsədilə borc vəsaitlərin verilməsi üçün istifadə olunur.

Dövlət krediti zamanı siyasi üstqurumun əlində əlavə maliyyə resurslarının formalaşması baş verir. Ona görə də dövlət krediti cəmiyyətin maliyyə münasibətlərinin bir hissəsini ifadə edir ki, bu da ölkənin ssuda fondu ilə «sərbəst» rəftar etməyə və bank resurslarının bir qismini hökumətin xərclərinin maliyyələşdirilməsinə maneəsiz cəlb etməyə yol vermir. Tarixi təcrübə göstərir ki, dövlət tələbatının maliyyələşdirilməsi üçün resursların borc alınması mümkündür. Lakin bu borcalma dövlət kreditinin mahiyyəti üçün xarakterik olan və qaytarılma, müddətlilik, ödənişlilik prinsipləri müddəalarına riayət olunması ilə həyata keçirilməlidir.

Dövlət krediti məcmu ictimai məhsulun dəyərinin təkrar bölüşdürülməsi münasibətlərindən ibarətdir. Ona görə də dövlətin borc əməliyyatları sferasına əhalinin, müəssisə və təşkilatların cari istifadə üçün nəzərdə tutulmayan müvəqqəti sərbəst pul vəsaitlərinin aid olduğu gəlirlərin və ilkin bölüşdürmə mərhələsində formalaşan pul fondlarının yalnız bir hissəsi daxil ola bilər. Lakin müəyyən şəraitlərdə əhali və əmək kollektivləri istehlakın məhdudlaşdırılmasına əl atırlar. Belə hallarda dövlət kreditinin mənbəyi rolunda təkcə müvəqqəti sərbəst pul vəsaitləri deyil, həm də birinci növbəli tələbatın təmin olunması və ya zəruri istehsalat və müəssisələrin sosial xərclərinin maliyyələşdirilməsi üçün üçün nəzərdə tutulmuş vəsaitlər də çıxış edir. Belə şey yalnız dövlət tərəfindən dövlət qiymətli kağızlarının maksimal çeşidli gəlirliliyi zamanı fəal və çevik kredit siyasətinin yeridildiyi şəraitdə, dövlət qiymətli kağızlarının qüvvədə olduğu müddətlərdə, gəlirin ödənilməsi

MUHASIBAT.AZ

üsullarında, dövlət qiymətli kağızlarının mütləq likvidliyi şəraitində könüllü əsasla baş verə bilər.

Dövlət qiymətli kağızlarının (fond dəyərlərinin) potensial kreditorlar üçün kifayət qədər cəlbedici olmadığı hallarda bu imkan yalnız hökumət tərəfindən məcburiyyət olduqda həyata keçirilə bilər. Eyni zamanda əhalinin, müəssisə və təşkilatların pul vəsaitlərinin səfərbərliyə alınması hesabına dövlətin əlində əlavə maliyyə resurslarının formalaşması dövlət krediti münasibətlərinin tərəflərindən yalnız biridir. Göstərilən əlaqələrin ikinci aspekti onunla şərtlənir ki, gəlirlərin kreditorlara ödənilməsi əsas etibarilə dövlət büdcəsinin gəlirləri hesabına təmin olunur. Bu halda vergi ödəyiciləri və toplayıcılarının çevrəsi dövlət qiymətli kağızlarını saxlayanların çevrəsi ilə üst-üstə düşmür.

Dövlət kreditini həm də əhalinin, müəssisə və təşkilatların müvəqqəti sərbəst pul vəsaitlərinin kredit münasibətlərinə xas olan prinsiplərlə səfərbərliyə alınması üzrə bölüşdürmə münasibətlərinin məcmusu kimi təqdim etmək olar. Əhalinin, müəssisə və təşkilatların müvəqqəti sərbəst pul vəsaitlərinin həmin səfərbərliyi büdcə kəsirinin və dövlətin cari imkanlarından artıq ictimai ehtiyacların əlavə maliyyələşdirilməsinin ödənilməsi üçün istifadə olunur. Dövlət krediti onunla xarakterizə olunur ki, əhalinin və hüquqi şəxslərin müvəqqəti sərbəst pul vəsaitləri istiqrazların, xəzinə öhdəliklərinin, dövlətin digər qiymətli kağızlarının buraxılması və realizasiyası (satışı) yolu ilə cəlb olunur. Dövlətin yuxarıda adları sadalanan öhdəlikləri üzrə gəlir formasından asılı olaraq, dövlət istiqrazları faizli, uduşlu, faizli-uduşlu, uduşsuz olmayan, faizsiz (məqsədli) növlərə bölünür.

Faizli istiqraz vərəqələrinin sahibləri müəyyən olunmuş faiz stavkaları üzrə hər il möhkəm gəlir əldə edirlər. Faizlər istiqrazın buraxılışı zamanı müəyyən edilən və ödənişə təqdim olunan kuponlar üzrə ödənilir.

MUHASIBAT.AZ

Uduşlu istiqrazlar üzrə onların sahibləri bütün gəlirləri istiqrazın bağlanılması (ödənişi) məqamında uduş şəklində alır. Gəlir bütün istiqrazlar üzrə deyil, yalnız uduş tirajına düşmüş istiqrazlar üzrə ödənilir.

Faizli-uduşlu istiqrazların buraxılış şərtləri gəlirlərin bir qisminin kuponlar üzrə, digər hissəsinin isə uduş formasında ödənişini nəzərdə tutur.

Uduşsuz istiqrazların buraxılışı zəmanət verir ki, istiqrazın fəaliyyəti müddəti ərzində uduş bütün istiqrazlara düşəcək.

Faizsiz (məqsədli) istiqrazlar onların saxlayıcılarına ödənişi nəzərdə tutur, lakin hələlik tələbatı tam ödənilməyən müvafiq malların alınmasına qarantiya verir. Məqsədli istiqrazlar yolların tikintisinin aparılması üçün, ətraf mühitin mühafizəsi üzrə işlərin həyata keçirilməsinə, əhalinin maraqlı olduğu digər tədbirlərin həyata keçirilməsinin maliyyələşdirilməsində istifadə oluna bilər.

Dövlət öhdəliklərini saxlayanların kateqoriya əlamətləri üzrə dövlət kreditləri yalnız əhali arasında satılan, müəssisə və təşkilatlar arasında yayılan, universal, yəni fiziki və hüquqi şəxslər arasında yerləşdirilən kreditlərə bölünə bilər.

İlk başlanğıcda yalnız dövlətin ayrı-ayrı kateqoriya kreditorları arasında yerləşdirilən və universal istiqrazlar buraxılırdı. Dövlət kreditinin bazasının süni şəkildə məhdudlaşdırılması ilə əlaqədar olaraq onun ayrı-ayrı növləri üzrə konkret iştirakçılar dairəsi möhkəmlənməyə başladı. Hazırda saxlama kateqoriyalarının daha aydın ifadə olunduğu istiqrazlar daha çox yayılmaqdadır.

Emissiya hüququna görə dövlət istiqrazları mərkəzi hökumət və yerli hakimiyyət orqanları tərəfindən buraxılan istiqraz növlərinə bölünə bilər. Yerli istiqrazların istifadə olunması aşağı idarə orqanlarının kredit əməliyyatlarına yuxarı orqanlar tərəfindən qarantiya institutunun bərpa olunmasını tələb edəcək. Xarakterikdir ki,

MUHASIBAT.AZ

mərkəzi hökumət tərəfindən qarantiya olunmuş istiqrazlar inqilabdan əvvəlki Rusiyada və XX əsrin 20-30-cu illərində SSRİ-də aktiv istifadə olunmuşdu. Belə qarantiyaları təkcə yerli özünü idarə orqanları deyil, həm də ayrı-ayrı dövlət və özəl təşkilat və müəssisələri ala bilirdilər.

Əhalinin əmanətlərinin hissələrinin müxtəlif bankların təsisatlarında dövlət borcuna çevrilməsi kimi çıxış etməsi dövlətin maliyyə resurslarının formalaşmasının mühüm kanalıdır və bunlar istiqraz vərəqəli və istiqraz vərəqəsiz ola bilər. İstiqraz vərəqəsiz borclar faktiki olaraq müddətsizdir. Onlar dövlət tərəfindən qiymətli kağızların buraxılması şəklində deyil, bilavasitə müvafiq müəssisələrin hesablarındakı məbləğin uçotu ilə və dövlət borcu kitabında qeydi ilə tərtib olunur. Belə borcların ödənilmə müddəti göstərilmir, amma dövlət borcu satınalma hüququnu özündə saxlayır və onun bütün fəaliyyəti dövrü ərzində faizləri ödəməyi öhdəsinə götürür. Əhalinin əmanət yatırımlarının bir hissəsinin dövlət borclarına çevrilməsi dövlət kreditinin spesifik forması kimi fərqlənir, ona görə ki, dövlət borclarından fərqli olaraq o zaman ki, fiziki və hüquqi şəxslər sərbəst şəkildə və özlərinin müvəqqəti sərbəst pul vəsaitləri hesabına dövlətin qiymətli kağızlarını alırlar, əhalinin əmanət yatırımlarının bir hissəsinin dövlət kreditinə çevrilməsi vasitəçinin (əmanət bankının) köməkliyi ilə həyata keçirilir ki, bu zaman vasitəçi də öz növbəsində özünün deyil, borc vəsaitləri ilə, özü də onların real sahiblərinin xəbəri olmadan iş görür.

Hazırda *xəzinə ssudalarının* tətbiqinin məqsədyönlülüyü haqqında məsələ qaldırılır. Bu halda dövlət orqanları müəssisə və təşkilatlara maliyyə yardımı göstərə bilərlər, amma müddətlilik, ödənişlik, qaytarılmaqlıq əsasında. Xəzinə ssudaları xətti üzrə büdcə münasibətləri bank kreditləşdirməsinin analoqu deyil, çünki təsərrüfat hesablı bank strukturlarından fərqli olaraq dövlət hakimiyyəti

MUHASIBAT.AZ

orqanları və idarələri başqa şərtlərlə, başqa səbəblər üzündən və başqa məqsədlərə görə maliyyə yardımı göstərirlər.

Xəzinə ssudaları müəssisə və təsərrüfat təşkilatlarına, onların bazarda xüsusi mövqeləri və ya iqtisadi situasiyanın pisləşməsi üzündən maliyyə çətinlikləri zamanı imtiyazlı şərtlərlə (müddət və faiz səviyyəsinə görə) verilir. Bu ssudaların kommersiya məqsədi yoxdur, lakin xalq təsərrüfatı üçün həyati əhəmiyyət kəsb edən iqtisadi strukturlara dəstək vasitəsidir. Xəzinə ssudalarının istifadə olunması heç də dövlət müəssisələrinə münasibətdə təmənnasız (havayı) büdcə maliyyələşdirməsinin tamamilə aradan qalxması demək deyil. Onun mövcudluq hüququ qalmaqdadır, amma müstəsna tədbir qaydasında cəmiyyətin mənafeyi naminə istehsal etdiyi məhsulun satılması (realizasiyası) xüsusiyyətləri üzündən, əlverişsiz təsərrüfat konyunkturası, iqtisadiyyatda böhran hadisələri və s. üzündən çətin vəziyyətdə qalan təsərrüfat orqanlarına maliyyə yardımı göstərilməsində qalmaqdadır.

Dövlət kreditinin fəaliyyət göstərməsi, dövlətin borc öhdəliklərinin bütün məbləğinin buraxılması və ödənilməməsindən, o cümlədən onlar üzrə ödənilməli olan faizlərin tutulmuş məbləğindən ibarət olan *dövlət borcunun* əmələ gəlməsinə səbəb olur. Dövlət borcu dövlətin kredit münasibətlərinin hesabatlarda əks etdirilən nisbətən daha dolğun kəmiyyət xarakteristikasıdır. Dövlət borcunun həcmi münasibətlərin yalnız bir tamamlayıcı (səmərəli) tərəfini göstərir: ödəniş müddəti cari ildə başa çatan ən uzunmüddətli, qüvvədə olan borcun fəaliyyət göstərdiyi illərin kəmiyyətinə müvafiq dövr ərzində meydana gələn dövlət borcu.

Dövlət borcu daxili və xarici borclara bölünür. *Daxili borc* dövlət borcları öhdəliklərinin realizasiyası üzrə borclardan, xəzinə öhdəlikləri üzrə borclardan, ssuda fondları vəsaitlərinin borc alınmasından, habelə əmanət və sığorta sistemlərinin səfərbər etdikləri vəsaitlərdən əmələ

MUHASIBAT.AZ

gəlir. Dövlət borcunun mövcudluğu onların idarə olunması üzrə aşağıdakılardan ibarət tədbirlərin həyata keçirilməsini nəzərdə tutur: gəlirlərin kreditorlara ödənilməsi və borcların ödənişi; buraxılmış istiqrazların şərtlərinin dəyişdirilməsi; emissiya şərtlərinin müəyyənləşdirilməsi; yeni istiqrazların buraxılması. İstiqrazlar üzrə gəlirlərin ödənilməsi və onların ödənişi adətən büdcə vəsaitləri hesabına həyata keçirilir.

Dövlət borclarının xeyli artması və büdcə çətinliklərinin artması şəraitində hökumət dövlət borcunun təkrar maliyyələşdirilməsinə əl atır. *Təkrar maliyyələşdirmə* dedikdə, köhnə dövlət borcunun yeni istiqrazların buraxılması yolu ilə ödənişi başa düşülür. Keçmiş SSRİ-də bu yolla dövlət, məsələn, 1966-cı il 3 faizli dövlət daxili uduşlu istiqraz vərəqələrinin ödənişi zamanı belə etmişdir. Bu borcun fəaliyyət müddəti başa çatan zaman onun istiqraz vərəqələri bir il ərzində 1982-ci ildə buraxılmış yeni analoji istiqraz vərəqələrinə, kurs fərqi ödənilmədən sərbəst şəkildə dəyişdirilmişdir.

İstiqrazlar üzrə uduşların, faizlərin verilməsi və borclar üzrə ödəniş məbləğinin verilməsi dövlət borclarının idarə olunması üzrə məsrəflərin əsas hissəsini təşkil edir. Dövlətin qiymətli kağızlarının hazırlanması, göndərilməsi və satışı, uduş tirajlarının keçirilməsi üzrə xərclər və bir sıra digər xərclər də buraya daxildir. Dövlət kreditinin səmərəliliyinin yüksəldilməsi barədə qayğılanan hökumət bütün xərclər məcmusunun azaldılmasına çalışır ki, bu da bəzən reqressiv nisbət üzrə istiqrazların konversiyası, konsolidasiyası və unifikasiyası, borcun ödəniş möhlətinin artırılması, istiqrazların (borcun) ləğv edilməsi kimi xüsusi tədbirlər sayəsində əldə olunur.

Dövlət krediti fiziki və hüquqi şəxslərin müvəqqəti sərbəst pul vəsaitlərinin hesabına əlavə maliyyə resurslarının dövlətin əlində səfərbər olunması üçün güclü vasitə rolunu oynayır. Dövlət büdcəsinin kəsirdə qalması zamanı əlavə səfərbərləşdirilən maliyyə resursları büdcə

MUHASIBAT.AZ

məsrəfləri və gəlirləri arasındakı fərqin ödənilməsinə yönəldilir. Müsbət büdcə saldosu zamanı dövlət krediti hesabına səfərbər olunan vəsaitlər iqtisadi və sosial proqramların maliyyələşdirilməsi üçün istifadə olunur. Ona görə də dövlət krediti dövlətin maliyyə durumunun möhkəmləndirilməsi üçün rıçaq rolunu oynayır ki, bununla da dövlət büdcəsinin xərcləri və gəlirləri arasında müvazinətə nail olunmasına yardım edir və sosial-iqtisadi inkişafın sürətlənməsinin mühüm mənbəsi rolunda çıxış edir. Bununla belə, *dövlət kreditinin səmərəliliyinin yüksəldilməsi üçün xeyli rezervlər (ehtiyatlar)* mövcuddur və onların realizasiyası üçün aşağıdakılar lazımdır:

- borc verənlərin və əmanətçilərin maraqlarının inflyasiya itkilərindən real mühafizəsi istiqrazların, borcların və banklardakı əmanətlərin nominal dəyərinin təkrar qiymətləndirilməsi yolu ilə təmin olunsun;
- ayrı-ayrı dövlət qiymətli kağızlarının və əmanət əməliyyatlarının gəlirliliyi artırılsın ki, dövlətin kreditorları ölkədə yaranmış inflyasiya səviyyəsindən az olmayan səviyyədə gəlir götürmələrinə əmin olsunlar;
- fiziki və hüquqi şəxslərin dövlətin kredit əməliyyatlarına real maraqları oyadılsın və bunun üçün nəinki kreditorların maraqlarının müdafiə olunması məqsədəuyğundur, həm də buraxılan istiqrazların şərtləri makimal dərəcədə müxtəlifləşdirilsin (müddəti üzrə, gəlirin ödənilmə üsulu üzrə, qiymətli kağızların gəlirliliyi üzrə, istiqrazların tam likvidliyinin təmin olunması üzrə);
- bütün müəssisələr, təşkilat və idarələrin istisnasız olaraq dövlətin kredit əməliyyatlarına buraxılması hesabına borc verənlərin dairəsi genişləndirilsin;

MUHASIBAT.AZ

- dövlət qiymətli kağızlarının realizasiyası zamanı onların rəsmi kursundan fond dəyərlərinə real tələbat əsasında müəyyənləşdirilən bazar kursuna keçirilsin;
- aşağı hakimiyyət orqanlarının kredit əməliyyatlarının yuxarı orqanlar tərəfindən qarantiya olunması praktikası yerli istiqrazların təşəkkülü üçün əlverişli şəraitin yaradılması məqsədilə bərpa edilsin;
- müəssisə və təşkilatların dönməz büdcə maliyyələşdirilməsindən onlara əsas etibarilə xəzinə ssudalarının verilməsi yolu ilə yardım göstərilməsinə keçid həyata keçirilsin;
- büdcə məqsədilə ümumdövlət ssuda fondundan birbaşa havayı (təmənnasız) və dönməz istifadədən imtina edilsin və kredit müəssisələrinin resurslarından müstəsna olaraq kredit prinsipi üzrə dövlətin ehtiyaclarına cəlb olunması həyata keçirilsin.

Fiziki və hüquqi şəxslərin iqtisadi maraqları nəzərə alınmaqla, onların müvəqqəti sərbəst pul vəsaitlərinin səfərbər edilməsi əmanətlərin optimallaşdırılmasına, əhalinin gəlirlərinin və məsrəflərinin balanslaşdırılmasına, habelə pul tədavülünün normallaşdırılmasına yardım edə bilər. Dövlət kreditinin köməkliyi ilə və bunun nəticəsi kimi istehlak bazarına o qədər də çox «təsir» göstərməyən xeyli pul məbləği tədavüldən çıxarıla bilər. Bu, dövlət idarə orqanlarının dövlət kreditinin bazasının genişləndirilməsi üzrə tədbirlər görməsinin zəruriliyinə bir daha dəlalət edir.

9.8. BEYNƏLXALQ KREDİT

Hər bir ölkənin iqtisadi inkişafının təmin olunmasında ilkin müqəddəm rolu kapital yığımı oynayır. Belə yığımların daxili mənbələri müəssisələrin gəlirləri, dövlət büdcəsi vəsaitləri, əhalinin əmanətləri və s. ola bilər. Bununla yanaşı, daxili mənbələrə əlavə kimi investisiyalar

MUHASIBAT.AZ

və ölkənin iqtisadi inkişafına əhəmiyyətli təsir amili kimi xaricdən cəlb edilən dövlət və özəl vəsaitləri çıxış edə bilər ki, bunların da arasında xarici kreditlər əhəmiyyətli rol oynayırlar. Bununla da xarici pul vəsaitlərinin geniş axınına artan tələbat beynəlxalq iqtisadi münasibətlər sferasında ssuda kapitalının hərəkətindən, dövlətlər, banklar, beynəlxalq valyuta-maliyyə təşkilatları, habelə bir dövlətlərin müxtəlif şirkətləri, firmaları, korporasiyaları tərəfindən digər dövlətin (hökumətin, bankların və təsərrüfat subyektlərinin) bank kreditləşdirməsi prinsipləri əsasında ssudaların verilməsindən ibarət olan *beynəlxalq kreditin* yaranması üçün zəmin rolu oynayır.

Hazırda, praktiki olaraq elə bir dövlət tapmaq olmaz ki, o başqa ölkələrin, beynəlxalq maliyyə təşkilatlarının və bankların kreditlərindən istifadə etməsin. Xarici kreditləşdirmə imkan verir ki, yeni texnikanın, texnologiyanın, mallar və xidmətlərin idxalı genişləndirilsin. Bu zaman milli istehlak çərçivəsi genişlənir, xarici kredit isə müəyyən müddətə əlavə yığım mənbəyinə və ödəniş balansı kəsirinin ödənilməsi vasitəsinə çevrilir. Lakin, bu problemlər yalnız xarici kreditlərin optimal miqyasda cəlb olunması və səmərəli istifadəsi şəraitində mümkündür. Bu şərt qorunmadıqda ödənilməmiş borc yığımı və cari xarici borc üzrə ödəmələrin artımı borc alan dövlətin valyuta-maliyyə durumunu ağırlaşdıracaq və onu son dərəcə qeyri-sabit edəcək, hətta siyasi və iqtisadi təzyiq təhlükəsi də yarana bilər. Kreditlər xarici investorlar üçün kapital yatırımının nisbətən daha cəlbedici formasıdır, çünki təkcə borc alan müəssisə və bank tərəfindən deyil, həm də, bir qayda olaraq, hökumətin qarantiyası ilə təmin olunur.

Xarici kreditin alınmasının əsas mənbələri ikitərəfli və çoxtərəfli dövlət kreditləri, ayrı-ayrı sənaye firmalarının, korporasiyaların, inhisarların kreditləri, beynəlxalq valyuta-maliyyə təşkilatları və banklarının kreditləridir. Bu zaman kreditlər, məsələn, Avropa yenidənqurma və inkişaf bankının (AYİB) və Dünya yenidənqurma və

MUHASIBAT.AZ

inkişaf bankının kreditləri hazırda təkcə güzəştli (aşağı faizlərlə 20 ilədək müddətə 5 və daha çox ilə əsas borcun ödənilməsinə moratori qoyulması ilə verilir) deyil, həm də kompleks xarakter daşıyır. Bu halda bankın nümayəndələri, işlənilib hazırlanılmasından başlayaraq, onun tam başa çatdırılmasınadək, zəruri texniki və kosultasion yardım göstərməklə layihənin həyata keçirilməsində iştirak edirlər.

Beynəlxalq kreditlər *qısamüddətli* (1 ilədək), *ortamüddətli* (1 ildən 5 ilədək), *uzunmüddətli* (5 ildən artıq) olur. Xarkterikdir ki, məsələn, AİB-dən beş ildən artıq müddətə kreditin alına bilməsi imkanı hazırda əsasən üç meyardan asılıdır:

- kreditorlar ixrac kreditinin beş ildən artıq müddətə verilməsini avadanlıq, texnologiya və s. alan ölkənin inkişaf səviyyəsi ilə əlaqələndirirlər. Kreditin verilmə müddəti müəyyənləşdirilərkən kreditləşdirilən ölkənin «xüsusi vəziyyəti» də nəzərə alınır;
- kreditin beş ildən artıq müddətə verilməsi həmin kreditin hesabına göndərilən avadanlığın xüsusiyyətləri və öz xərcini çıxarması müddəti ilə əlaqələndirilir;
- xarici kreditlərin verilməsi zamanı verilən kredit hesabına alınan avadanlığın kimin maraqlarına – alıcı ölkənin iqtisadi inkişafı üçün və ya ixrac edən ölkənin sənayesi üçün xidmət etməsi ilə bağlı şərtlər də böyük rol oynayır.

Kreditlər beş ildən artıq müddətə o halda verilə bilər ki, maliyyələşdirilən sövdə öz həcminə görə böyük olsun, kredit əməliyyatı çoxtərəfli «konsorsium yardımı» çərçivəsində həyata keçirilir, kredit əməliyyatı isə hər hansı beynəlxalq maliyyə təşkilatı tərəfindən bəyənilir; maliyyələşdirilən layihə idxalçı ölkənin sosial-iqtisadi inkişafı üçün vacibdir, kredit sövdəsi qlobal hökumətlərarası saziş çərçivəsində həyata keçirilir, maliyyələşdirilən kontrakt göndərişçi ölkə üçün yeni bazarın mənimsənilməsi mövqeyindən və göndərişçi dövlətin bu və ya digər sənaye sahəsinin, xüsusilə də kredit «üçüncü ölkələr» tərəfindən

MUHASIBAT.AZ

rəqabətin dəf olunması üçün zəruri olduqda, vəziyyəti nöqteyi-nəzərindən mühümdür.

Beynəlxalq kreditin vasitəsi ilə ölkələr arasında genişləndirilmiş təkrar istehsalın təmin olunması məqsədi ilə kapitalın yenidən bölüşdürülməsi, beynəlxalq hesablaşmalar sferasında müxtəlif valyutalarla nəqdsiz ödənişlər formasının inkişafı vasitəsilə dövriyyə xərclərinin qənaəti, habelə konsentratların güclənməsi, və kapitalın mərkəzləşdirilməsi baş verir. Bu zaman beynəlxalq kreditin alıcısı bir sıra şərtləri nəzərə almalıdır:

- borc vəsaitləri ixrac göndərişləri ilə, ilk növbədə müasir maşın və avadanlıqla, yeni texnologiya ilə sıx əlaqələndirilməlidir, yəni beynəlxalq krediti ciddi işlənilmiş proqramlar üzrə məhz bu məqsədlər üçün cəlb etmək labüddür;
- beynəlxalq kreditin yardımına geniş şəkildə müraciət etmək lazımdır, lakin bəzən kreditor dövlət tərəfindən kreditin şərtləndirilməsi ilə bağlı şərtləri də nəzərə almaq lazımdır;
- hazırda beynəlxalq kreditin verilmə həcmi kifayət qədər dayanıqlı artır və iqtisadiyyatda neqativ hadisələrin baş verdiyi zaman (birbaşa investisiyaların həcmindən fərqli olaraq) kəskin şəkildə artır;
- beynəlxalq kredit maliyyələşdirilən obyektin xarakterinə, habelə onun bilavasitə alıcılarının dairəsinə münasibətdə universaldır.

Beynəlxalq kreditlərin cəlb edilməsi zamanı kreditlərin «bağlanılmış xarakterindən» «kənarlaşmağa» cəhd göstərmək lazımdır, çünki bu zaman idxal xeyli səviyyədə yalnız kreditor ölkə tərəfindən malların göndərişi ilə məhdudlaşa bilər və onların alqısı ciddi müəyyənləşdirilmiş nomenklatura üzrə həyata keçirilir.

Bu şərait nəzərə alınmazsa, onda borc alanın kredit verənlər arasındakı rəqabəti öz maraqları üçün istifadə etmək imkanları çox mədudlaşa bilər. Dünya təcrübəsinin göstərdiyi kimi, «bağlı

MUHASIBAT.AZ

(əlaqələndirilmiş) yardım» adətən 15-20% «bağlanılmayan (əlaqələndirilməmiş)» kreditdən baha olur, bəzən isə kreditləşdirilən obyektin son qiyməti ilkin başlanğıcdan, demək olar ki, iki dəfə baha başa gəlir. İdxal olunan malların qiymətlərinin artırılmasının mümkünlüyünü də nəzərə almaq lazımdır ki, bu da verilən kreditlərin real həcmini və ya səmərəliliyini xeyli azaldır. «Bağlı (əlaqələndirilmiş) yardım» zamanı əksər hallarda heç də ən səmərəli olmayan layihələrin kreditləşdirilməsinə üstünlük verilir, tez-tez sonuncuların xeyrinə seçim daha çox ona görə edilir ki, onlar üzrə avadanlıq almaq daha asandır. Ona görə də malların alınmasına beynəlxalq kreditlərə «bağlılığın» ləğv edilməsi manevrliliyin artmasına və borc alan ölkənin sənayecə inkişaf etmiş dövlətlərlə təsərrüfat əlaqələrinin mobilliyinə kömək edəcək.

Eyni zamanda formal olaraq bağlı olmayan müxtəlif növ kreditlər sənayecə inkişaf etmiş dövlətlərin ixracatına böyük təsir göstərir ki, beynəlxalq kreditin ümumi sistemində onların əhəmiyyəti, xüsusilə də vahid Avropa valyuta bazarının inkişafı ilə xeyli artmışdır. Bunlar istiqrazlar, bankların maliyyə kreditləri (ixracdan fərqli olaraq), beynəlxalq kredit-maliyyə təşkilatlarının kreditləri və s.-dir. Bununla belə, belə kreditlər bu və ya digər dərəcədə müəyyən mənbələrdən göndərişlərlə bağlıdır. Xarici kreditlərin cəlb edilməsi zamanı bu şərti də nəzərə almaq lazımdır ki, *ixracın uzunmüddətli maliyyələşdirilməsi sistemi* iki istiqamətdə inkişaf edir:

- ixracın uzunmüddətli kreditləşdirilməsinin formalarından biri xarici alıcıların birbaşa dövlət kreditləşdirməsi praktikasıdır. Əksər hallarda Qərbi Avropa ölkələrinin birbaşa dövlət kreditləri 10 ildən artıq müddətə, özü də onların xeyli hissəsi 20 ildən artıq müddətə verilir;
- ixracın uzunmüddətli maliyyələşdirilməsinin inkişafı vasitəsi maliyyə kreditləri adlandırılan kreditlərin verilməsidi praktikasıdır və onların verilməsi üçün əsas mənbə xüsusi (özəl)

MUHASIBAT.AZ

kapitaldır. Məsələn, bir çox Qərbi Avropa ölkələrinin hökumətləri (məsələn, AFR, İngiltərə, Fransa) firma kreditlərində olduğu kimi, maliyyə kreditləri üzrə də müvafiq qarantiyalar verirlər. Bu zaman göndərişçi firmaların özləri adətən ümumiyyətlə öz vəsaitləri ilə maliyyələşdirmə sövdələrində iştirak etmirlər. Bu halda ixracın maliyyələşdirilməsində bankla yanaşı (ortamüddətli kapital mənbələri), özəl sığorta şirkətləri, pensiya fondları və kassaları və s. bu kimi uzunmüddətli kapital mənbələri geniş iştirak edirlər. Belə kreditlərə dövlət qarantiyası ixracatçılara deyil, bilavasitə sövdəni maliyyələşdirən müəssisələrə verilir. Ona görə də ixracatçının özü faktiki olaraq kredit üzrə hesablaşmalarda iştirak etmir, ancaq öz mallarının göndərişi üzrə pul ekvivalentini alır.

Eyni zamanda xarici kommersiya banklarının kəskin şəkildə həcmi artan ixracın maliyyələşdirilməsində iştirak etməsi onlar üçün əsasən həmin əməliyyatla bağlı olan böyük risk, bir çox hallarda belə maliyyələşdirmə üçün kommersiya banklarında sərbəst resursların məhdudluğu, bankların bir tərəfdən ixrac kreditlərinin uzadılmış müddəti ilə bağlı öz aktivlərinin likvidliyinin pozulacağından qorxması, digər tərəfdən isə əsasən qısamüddətli depozitlərə əsaslanan kapitallarının xarakterinin spesifikliyi kimi üç səbəblə çətinləşir.

Bütün bu problemlər təkcə özəl inhisarçı sektorun qüvvəsi ilə həll oluna bilməz. Ona görə də lazım gəldiyi hallarda inhisarlar dövləti köməyə çağırırlar. Bu zaman ixracın maliyyələşdirilməsində dövlətin iştirakı səviyyəsi və onun konkret formaları hər bir ayrıca ölkədə fərqlidir. Lakin belə iştirakın prinsipləri ixrac kreditləri üzrə qarantiyanın verilməsi formasında ixracın dövlət sığortasının aid olduğu əksər ölkələrdə eynidir (Qərbi Avropa ölkələrində hələ ikinci dünya müharibəsinədək kifayət qədər geniş inkişaf etmiş praktikadır,

MUHASIBAT.AZ

amma onun fəaliyyət sferası o zaman qısamüddətli kreditlərlə və ixracın maliyyələşdirilməsi və təkrar maliyyələşdirilməsinin əlavə sistemlərinin yaradılması ilə məhdudlaşırdı).

Beynəlxalq bazarda rəqabət vasitəsi kimi kreditin rolunun artması şəraitində banklar, onlarla bağlı firmalarla xarici alıcıların cəlb olunması üçün müstəsna şəraitlər yaratmağa çalışırlar göndərişlərin uzadılmış müddətli maliyyələşdirilməsinə, habelə kreditlər üzrə faizlərin azaldılmasına gedirlər. Banklar borc alanlara rəqiblərdən daha çox güzəştlər, kredit şərtləri (o cümlədən, avrokreditlər) verirlər ki, sazişlərin bağlanılmasını sürətləndirsinlər və bununla da öz müştərilərinə mallar və xidmətlərin göndərişi üzrə sərfəli sifarişləri təmin etsinlər. Bu zaman onlar göndərişçi firmaların, kreditin, onların xarici borc alanlara «güzəştə getdikləri» həmin hissəsinin dəyərini kompensasiya edə biləcəklərini gizlətmirlər. Belə praktika geniş yayılmışdır.

Beynəlxalq kreditin verilməsi aşağıdakı *üsullardan* birinə əsaslana bilər:

- kreditin məbləği bütünlüklə borc alan ölkənin xeyrinə ayrıca hesaba köçürülür və göndərilən mallar üzrə ödənişlər onunla həyata keçirilir;
- ssuda hesabında göndərilmiş malların məbləği tədricən hesablanır, yəni göndərişlərin həyata keçirilməsindən asılı olaraq kreditin həcmi o vaxtadək artır ki, ta ki ssuda bütünlüklə istifadə olunsun;
- kredit üzrə göndərişlər əmtəə dövriyyəsi üzrə klirinq hesabı vasitəsilə həyata keçirilir, sonra isə kreditin məbləği klirinq hesabından ssuda hesabına köçürülür (bu üsul, adətən, cari əmtəə dövriyyəsində olduğu kimi, həmin nomenklaturadan olan malların kreditin obyekti rolunda çıxış etdiyi zaman istifadə olunur);

MUHASIBAT.AZ

- kredit kompensasiya sövdələri üzrə verilir;
- lizinq və s. istifadə olunur.

Beynəlxalq kreditlər nəinki təkcə mallar və xidmətlərin ixracını sürətləndirir, həm də bazarda əlavə tələbat yaratmaqla və konyunkturanın dəstəklənməsinə kömək etməklə, bununla da qiymətlərin hərəkətinə ümumi təsir göstərməklə, onun səmərəliliyini artıra bilər. Lakin, ən başlıcası ondan ibarətdir ki, onlar konkret sövdələr üzrə, xüsusilə də alıcı üçün kreditin alınması şərtlərinin göndərişin qiymət səviyyəsindən daha çox vacib olduğu hallarda qiymətləri qaldırmağa imkan verir. Ona görə də beynəlxalq kreditin rolunun dəyərləndirilməsi zamanı aşağıdakı şərtləri nəzərə almaq vacibdir:

- hazırda xarici firma kreditləri, bir qayda olaraq, mal göndərişi ilə, başlıca olaraq, maşın və avadanlıq göndərişi ilə sıx bağlıdır. Bundan əlavə, belə kreditlərin köməkliyi ilə həyata keçirilən göndərişlərin həcmi daha çoxdur, çünki bu hallarda alıcı kontraktın məbləğinin bir hissəsini göndərişçiyə nəqd ödəməlidir. Adətən bu, kontrakt bağlanan zaman, eləcə də maşın və avadanlığın alıcıya göndərişi (yola salınması) zamanı həyata keçirilir. Nəqd ödənişlərin həcmi hər bir konkret halda fərqlidir, XX əsrin 60-cı illərinin əvvəllərinədək göndərişin ümumi məbləğinin 20%-dək idi. Son dövrlərdə nəqd ödənişin payı azalmışdır və şərti olaraq 10-15% səviyyəsində götürülə bilər;
- beynəlxalq təşkilatların kreditlərinin və birbaşa dövlət («layihə») kreditlərinin hesabına adətən göndərişlərin maliyyələşdirilməsi kreditin bütün məbləğinə həyata keçirilir. Amma bu kreditlərin hesabına bilavasitə mal göndərişi ilə bağlı olmayan əməliyyatlar da həyata keçirilə bilər (layihələrin, məsləhətlərin işlənilib hazırlanması, fraxtın və digər xidmətlərin ödənilməsi). Maşın və

MUHASIBAT.AZ

avadanlıqlarla yanaşı, bu kreditlərin hesabına bu və ya digər obyektin və s. inşası üçün zəruri olan materiallar da göndərilir. Faktiki olaraq birbaşa dövlət kreditlərinin və beynəlxalq təşkilatların kreditlərinin ümumi məbləğindən yalnız üçdə ikisi maşın və avadanlıqların göndərişinin maliyyələşdirilməsinə sərf olunur.

Bununla əlaqədar olaraq qeyd etmək lazımdır ki, nazirliklər, idarələr müəssisə və təşkilatlar kifayət qədər tez-tez onlar tərəfindən xarici kreditlər hesabına maliyyələşdirilmək üçün təklif olunan layihələrin hazırlanması və realizasiyası ilə bağlı bir sıra məsələlərin həllində və əlaqələndirilməsinin icrasında imkansız olurlar. Bu halda layihənin texniki-iqtisadi və maliyyə əsaslandırılmasının zəif hazırlandığını, layihənin alternativ variantının yoxluğunu, layihənin realizasiyası üzrə mümkün partnyorların tanınmamasını, işlənilən layihə sahəsində marketinq tədqiqatının olmamasını, layihələrin yalnız idarə maraqlarının nəzərə alınması əsasında və onların komponentlərinin qarışıq sahələrin elementləri və bütövlükdə ölkənin imkanları ilə kompleks şəkildə qarşılıqlı bağlılığının nəzərə alınmamasını göstərmək olar.

Bu çatışmazlıqların aradan qaldırılması üçün layihələrin xarici kreditlərin hesabına layihələşdirilməsi mexanizmini işləyib hazırlamaq lazımdır ki, ona uyğun olaraq qərarların qəbul edilməsi prosedurunun mütləq elementləri sırasında layihələrin müsabiqə yolu ilə seçilməsi prinsipi əsas olsun (ümumdövlət maraqlarının üstünlüyü – prioritetliyi qorunmaqla), layihələrin müstəqil kompleks ekspertizası, layihələrin alınması üzrə müsabiqə satışlarının keçirilməsi yolu ilə layihənin daha rasional maliyyələşdirilməsi, layihə üzrə mümkün risklərin kreditin bütün iştirakçıları arasında ağıllı bölüşdürülməsi, layihənin realizasiyasına və borc verən müəssisənin ayırdığı kredit vəsaitlərinin istifadə olunmasına müvafiq hökumət orqanlarının nəzarəti (layihələrin

MUHASIBAT.AZ

monitorinqi), kredit resurslarının yatırım səmərəliliyinin dəyərləndirilməsi, həyata keçirilən və yeni layihələr üzrə məlumatların informasiya bazasının formalaşması baş versin.

Xarici kreditlərin cəlb edilməsi investirləşdirmənin zəif infrastrukturu ilə də tormozlanır, çünki audit, faktorinq, konsaltinq, incinirinq, informasiya xidmətləri və s. kimi xidmətlərin bazarı inkişaf mərhələsinin başlanğıcındadır. Xarici investirləşdirmənin aktivləşdirilməsi investirləşdirmənin sığortalanmasının inkişaf etdirilməməsi şəraitində mümkün deyildir. Ona görə də xarici kreditlərin cəlb edilməsinə investisiya layihələri üzrə hazırlıq xidmətlərinin göstərilməsi, kompleks müstəqil ekspertiza və realizasiya olunan layihələrin fəal monitorinqini həyata keçirmək üzrə ixtisaslaşan konsaltinq firmaları və ixracat təşkilatları şəbəkəsinin inkişaf etdirilməsi hiss olunacaq yardım göstərə bilər. Xarici kreditlərin cəlb edilməsi zamanı onların verilmə müddətinin mühüm əhəmiyyəti vardır. Belə ki, praktikada *xarici kreditlərin verilmə müddəti* əsasən bir-biri ilə bağlı dörd *amillə müəyyənləşdirilir*:

- bu kreditlər hesabına göndərilən maşınların və avadanlığın (və ya onların hesabına həyata keçirilən layihələrin) növü və xarakteri, habelə avadanlığın dəyəri və kontraktın ümumi ölçüsü ilə;
- müəyyən alıcı ölkənin bazarında yaranmış təcrübə, habelə malların kredit alıcıları ölkələrində idxalın dövlət tərəfindən tənzimlənilməsi şərtləri ilə;
- göndərişçi ölkələrin qanunvericiliyi və formalaşmış ixrac kreditləşdirməsi təcrübəsi ilə;
- kreditlərin verilməsinin müxtəlif beynəlxalq (çoxtərəfli və ikitərəfli) razılaşmalarla tənzimlənilməsi ilə.

Hazırda beynəlxalq kredit sisteminin inkişafı iri borc alanlar (verənlər), vasitəçilər və investorlar tərəfindən güclü stimullaşdırıcı

MUHASIBAT.AZ

təzyiqlə müəyyənləşdirilir. Bu zaman ağırlıq mərkəzinin borc almanın bir tərəfindən digərinə keçməsi, ssuda-borc əməliyyatları mexanizmlərinin transformasiyası, bazar iştirakçıları tərkibinin dəyişməsi və s. baş verir. Ona görə də nisbətən daha sərfəli kredit müqavilələrinin bağlanılması zamanı kapitalların beynəlxalq bazarının inkişafı tendensiyalarını diqqətlə öyrənmək, habelə beynəlxalq kreditlərə olan əsaslandırılmış tələbatı müəyyənləşdirmək lazımdır.

Xarici kreditlərə olan tələbatı zəruri investisiyaların ümumi məbləği ilə mümkün daxili investisiyaların məbləği və tədiyə balansının saldosu arasındakı fərq kimi müəyyənləşdirmək lazımdır:

$$K_r = İ_{ov} - İ_{vi} - (\pm S_{pb})\text{-dir ki,} \qquad (9.2)$$

burada K_r – labüd xarici valyutanın ümumi məbləğidir; $İ_{ov}$ – investirləşdirmə üçün labüd olan vəsaitlərin ümumi məbləğidir; $İ_{vi}$ – mümkün daxili investisiya məbləğidir; $\pm S_{pb}$ – proqnozlaşdırılan tədiyə balansının (nəzərdə tutulan borc vəsaiti nəzərə alınmadan) müsbət və ya mənfi saldosudur.

Xarici kreditlərə olan tələbatların müəyyənləşdirilməsi zamanı dövlətin ödəməqabilliyi durumu mühüm amil sayılır ki, bu barədə nəinki dövlətin xarici borclarının həcmi, həm də dolayısı və birbaşa indikatorlar təsəvvür yaradır. *Milli ödənişqabilliyin durumunun* dolayısı sübutları, bir qayda olaraq, aşağıdakı kritik (böhranlı) səviyyələrdir:

- ümumi daxili məhsulun artımı tempi (ildə 3%-dən aşağı olmaması);
- inflyasiya (ildə 12%-dən artıq olmaması).

Ödənişqabilliyi durumunun birbaşa indikatoru kimi daha çox aşağıdakı kritik (böhranlı) səviyyələrdən istifadə olunur:

- təmiz borcun ixracın dəyərinə nisbəti (120%-dən çox olmaması);

MUHASIBAT.AZ

- ixrac gəliri və ya borca xidmət norması ilə borca xidmət göstərilməsi üzrə ödənişlərin nisbəti (25%-dən çox olmaması).

Dövlətin öz borclarını genişləndirmək istəməməsi (hətta xarici kreditlərə obyektiv tələbatın olduğu halda belə), eləcə də dəyişməz (möhkəm) faizlə (bu, kreditorlara inflyasiyanı nəzərə almağa imkan vermir) kredit alınmasına üstünlük verilməsi ilə yanaşı, kreditləşdirmənin son dərəcə əlverişli şərtlərlə verilməsinə ciddi səy göstərməsi kreditlərin verilməsi şərtlərinin sərtləşdirilməsinə səbəb ola bilər. Eyni zamanda kreditlərin verilməsi şərtləri beynəlxalq ssuda kapitalları bazarının konyunkturası, ayrı-ayrı dövlətlərin və inteqrasiya qruplarının iqtisadi strategiyası ilə bağlı bir çox amillərdən asılıdır. Bununla yanaşı, dünya iqtisadiyyat elmi və praktikası tərəfindən maraqlı tərəflərə bu və ya digər ölkənin borcları haqqında fikir yürütməyə və artıq bunun əsasında yeni kreditlərin alınması barədə mümkün xahişlərə dair öz mövqeyini formalaşdırmağa imkan verən bir sıra göstəricilər və əmsallar işlənilib hazırlanmışdır.

İstənilən dövlətin borclarının durumunun analizi «ümumi» plan parametrlərindən, yəni borcların məcmu həcmindən, əhalinin adambaşına düşən borcu səviyyəsindən başlayır. Bu zaman onların dinamikası, müddətlər, valyutalar, əmələgəlmə mənbələri üzrə strukturu nəzərdən keçirilir. Bu mütləq göstəricilər kreditora borclu haqqında təsəvvür əldə etməyə və borcluya öz borclarının vəziyyəti barədə düşünməyə imkan verir. Lakin, belə mühakimələr daha çox ümumi xarakter daşıyır.

Növbəti mərhələ – borcların mütləq həcmlərini ölkənin inkişafının bu və ya digər parametrləri ilə əlaqələndirməyə imkan verən «nisbi» göstəricilərdir. Məsələn, xarici borcun məbləği ilə ümummilli gəlirin və daxili məhsulun həcmi tutuşdurulur. Bunun əsasında borc alanın kənardan resursların cəlb olunmasına hazırlığı və imkanları haqqında nəticələr çıxarılır. Bu nisbət nə qədər yüksək olarsa (xarici borca

MUHASIBAT.AZ

cəlbolunma), ölkənin iqtisadiyyatının xarici maliyyə mənbələrindən asılılığı da o qədər çox olar, hadisələrin əlverişsiz inkişafı hallarında o daha zəif olur. Xarici borcun məbləği ölkənin ixrac obyektlərinin gəlirləri ilə daha tez-tez müqayisə olunur. Nəticə ixrac daxilolmalarının hansı hissəsinin (əgər həcmi 1-dən kiçikdirsə) və ya neçə illik ixracın (əgər kəmiyyət 1-dən artıqdırsa) ölkənin öz borclarını ödəyə bilməsi üçün lazım olduğunu göstərir.

Nisbətən geniş yayılmış göstərici borca *xidmət göstərilməsi normasıdır*. O ixracın həcminə dair xarici borclara xidmət üzrə ödənişlərin (faizlərin ödənilməsi və borcun əsas məbləğinin ödənilməsi) məbləği nisbəti kimi əldə edilir:

$$N_{b.x.} = \frac{Ö_{x.b.}}{İ}, \qquad (9.3)$$

burada $N_{b.x.}$ – xarici borca göstərilən xidmət normasıdır; $Ö_{x.b.}$ – xarici borca göstərilən xidmət üzrə ödənişlərin həcmidir; İ – ixracın həcmidir.

Borca edilən xidmət norması göstərir ki, borclu ölkə öz ixrac gəlirlərinin hansı hissəsini əvvəllər cəlb olunmuş kreditlər və borclar üzrə ödəmələr şəklində kreditorlara qaytarmalıdır, yəni əldə olunan valyutanın hansı hissəsi ölkənin iqtisadiyyatından çıxarılır və nə yığım məqsədilə, nə də istehlak məqsədilə istifadə oluna bilməz. Bu pay nə qədər çox olarsa, ölkə də o qədər çox itkiyə məruz qalır. Təhlükəli həcm 25% hesab olunur. Əgər xarici borca xidmət norması bu həddə çatırsa, onda ölkənin valyuta-maliyyə durumu ağırlaşmış sayılır, onun kreditorlar qarşısında öz öhdəliklərini poza bilməsi ehtimalı kifayət qədər realdır.

Ölkənin valyuta-maliyyə vəziyyəti analiz edilərkən cari tədiyə balansının vəziyyəti və tendensiyası, ixrac gəlirlərinin hansı səviyyədə idxal alışlarını ödəməsi, valyuta ehtiyatlarının və idxal həcminin nisbəti kimi parametrləri hesaba alınır.

MUHASIBAT.AZ

İqtisadiyyatın «zəifliyi» kimi göstəricilər də mövcuddur. O ölkənin həmin məqamda malik olduğu valyuta ehtiyatları ilə xarici valyutaya olan bütün tələbatı arasındakı fərq kimi əldə edilir:

$$İ_z = V_e - T_v, \tag{9.4}$$

burada $İ_z$ – iqtisadiyyatın «zəifliyi» əmsalı; V_e – ölkənin valyuta ehtiyatları; T_v – xarici valyutaya tələbatın həcmidir.

Əgər iqtisadiyyatın «zəifliyi» əmsalının hesablanması zamanı fərq müsbətdirsə, onda ölkənin mövqeyi möhkəm hesab olunur, belə ki, kreditorların ona qarşı gözlənilməz etibarsızlığı və etibarının katastrofik dərəcədə düşməsi və ona hər hansı vəsait verilməsindən tam imtina etmələri zamanı o müəyyən müddət ərzində yığılmış vəsaitlər hesabına «yaşamaq» məcburiyyətində qalır. Əgər fərq mənfidirsə (tələbat mövcud ehtiyatdan artıqdırsa), onda onun idxal həcmi ilə tutuşdurulması aşağıdakı disturdakı kimi aparılır:

$$И_c = \frac{E_y}{И}, \tag{9.5}$$

burada $İ_s$ – yeni kredit axınlarının olmadığı zaman idxalın ixtisar olunan hissəsidir; İ – idxalın həcmidir.

Alınmış kəmiyyət (faizlə) ölkədə yeni kreditlərin və istiqrazların axınının tam dayandığı hallarda xarici valyutaya olan tələbatın və mövcud valyuta ehtiyatlarının sahmana salınması üçün idxalın ixtisar olunan hissəsi kimi götürülür. Faiz nə qədər artıq olarsa, ölkənin iqtisadiyyatı o qədər «zəif» olar.

Yuxarıda sadalanan, eləcə də bir sıra digər göstəricilər kreditorlara imkan verir ki, borclunun valyuta-maliyyə vəziyyətinin bu və ya digər tərəfini qiymətləndirə bilsin. Beləliklə, əmsallardan heç biri əhali siyahıya almaları, universal deyil, onlar bir-birlərini tamamlayan

MUHASIBAT.AZ

məqamlar kimi kompleks şəkildə nəzərdən keçirilməlidir. Bundan əlavə, bu və ya digər əmsalla əldə olunan «kritik təhlükəli» məqam düzgün (korrekt) şərh olunmalıdır. Yalnız bu sayaq yanaşılmanın gözlənildiyi zaman debitor ölkənin borcluluq situasiyasının dayanıqlıq səviyyəsi haqqında real təsəvvür yaratmaq olar. Belə ki, borcluluq situasiyası həm yüksək xarici borcluluq səviyyəsi zamanı (o cümlədən əhalinin adambaşına sayına görə), həm də borca 25% və daha çox xidmət göstərilməsi zamanı da dayanıqlı hesab oluna bilər.

Kreditor üçün əsas əhəmiyyət kəsb edən göstəricilərin kəmiyyətlə ifadə olunması deyil, borclu ölkənin kreditorla vaxtında hesablaşa bilməsi imkanıdır. Ona görə də xarici borcun mütləq hədlərinin müəyyənləşdirilməsindən əlavə, xarici borcların alınmasının miqyaslarına nəzarət üçün *xarici borcun kəmiyyətinin normativ nisbəti ilə malların və xidmətlərin idxalının həcmi göstəricisindən* istifadə etmək məqsədəuyğundur və bu göstərici beynəlxalq maliyyə-kredit təşkilatları tərəfindənaşağıdakı düsturla müəyyən edilir:

$$N_{vt} = \frac{B_x}{İ} \leq N_{bx} \qquad (9.6)$$

burada N_{vt} – ölkənin valyuta təhlükəsizliyinin hesablanma normativi; B_x – xarici borc; N_b – beynəlxalq maliyyə-kredit təşkilatları tərəfindən müəyyən edilmiş valyuta təhlükəsizliyi normatividir.

Beynəlxalq kreditin ödənilməsinin mənbə və metodları problemi də mühümdür. Məsələn, beynəlxalq kreditin ödənilməsi zamanı proporsional, proqressiv və birdəfəlik üsullardan istifadə olunur. Birinci halda kreditin eyni məbləğlərlə bərabər səviyyəli ödənişi nəzərdə tutulur, ikinci halda – ödəniş həcminin tədricən artması baş verir, - üçüncü halda isə kreditin bütün məbləği birdəfəyə ödənilir.

Beynəlxalq kredit üzrə faizlərin ödənilməsi zamanı nəzərə almaq lazımdır ki, daxili borclar üzrə faizlərin ödənilməsi ölkənin ümumi

MUHASIBAT.AZ

daxili məhsulunun həcmini dəyişmir, fəqət yalnız onu yenidən bölüşdürür. Əksinə, xarici borclar üzrə ödənişlər borclu ölkənin ümumi milli məhsulunun azalmasına səbəb olur. Buradan məntiqi olaraq, kənardan cəlb olunmuş maliyyə resurslarının istifadə olunmasına qarşı aşağıdakı tələb irəli çıxır: o elə olmalıdır ki, bütün faizlərin ödənilməsi və borcun əsas məbləğinin ödənişi zamanı ölkənin ümumdaxili məhsulu və milli sərvəti azalmasın. Bu zaman kreditorlarla heç də bütün resurslarla və heç də bütün mənbələrlə hesablaşmamaq olar. Ölkənin milli sərvətinin, onun bərpaolunmaz təbii (insanların gücü ilə borc vəsaitlər hesabına yaradılmayan) resurslarının çıxarılıb aparılmasını və borcun ödənilməsi üçün məhsulların gücləndirilmiş ixracı hesabına daxili bazarın mallarla doldurulmasının azalmasını normal hal hesab etmək olmaz.

Əgər kreditorlarla hesablaşmaq üçün belə addımların atılması məcburiyyətində qalınırsa, onda xaricdən borc alınmalarının cəlb olunması haqqında qərarı səhv, iqtisadi və sosial-siyasi nöqteyi-nəzərdən qeyri məhsuldar qərar kimi qəbul etmək lazımdır. Ona görə də xaricdən maliyyə vəsaitlərinin cəlb olunması o zaman doğruldulmuş addım sayılır ki, həmin vəsaitlər məhsuldar istifadə olunmuş olsun. Bu zaman kəmiyyət və keyfiyyət tələblərini də göstərmək olar:

- kəmiyyət tələbləri nöqteyi-nəzərindən borc vəsaitlərinin minimal makroiqtisadi verimi (qaytarımı) kredit üzrə ödənilən faizlərin məbləğindən artıq olmalıdır. Bu şərtlərə əməl olunmazsa, onda xarici borcun həcmi faizlərin məbləği ilə ödənilməli olan və faktiki olaraq ödənilmiş məbləğ arasındakı fərqlə «öz-özünə artacaq».bz borc probleminin həlli yolu olmayacaq;
- keyfiyyət tələbləri nöqteyi-nəzərindən borc vəsaitlərindən elə istifadə olunmalıdır ki, borcların ödənilməsi üçün vəsaitlər öz-özünə yaransın, yəni, başqa sözlə desək, sərbəst əmələ gəlsin; bu da ölkənin ixrac potensialının artması deməkdir. Əgər bu artım

MUHASIBAT.AZ

borc üzrə ödənişlərin artım tempindən yüksəkdirsə, onda xarici borc problemi həll oluna biləsidir; borc tsiklinin dürüst zaman çərçivəsi vardır və ölkənin valyuta-maliyyə vəziyyəti dayanıqlı hesab edilir.

Nəzəri olaraq situasiyanı belə təsəvvür edə bilərik ki, xarici borc o zaman ödənilə bilər ki, həmin halda borc alınmış vəsaitlər idxalı əvəzləyəcək istehsalın yaradılmasına yönəldilmiş olsun. Bu halda dövlət – bu profilli müəssisələrin işə salınmasından sonra – bu yolla qənaət olunmuş valyutanı götürülmüş kreditin və ya borcun ödənilməsinə yönəldə bilər. Lakin problem onunla çətinləşir ki, işdə bu baş vermir, sərbəstləşdirilmiş valyuta isə heç də təxirə salına bilməyən və vacib olan digər alışlar üçün sərf olunur. Ona görə də xarici kreditlərin cəlb olunması o zaman doğruldulmuş addım hesab edilir ki, onlar məhsuldar olsun və makroiqtisadi və valyuta nöqteyi-nəzərindən səmərəli olsun. Borcla bağlı problemlər əksər hallarda onun kəmiyyəti ilə əlaqədar deyil, ölkənin bir sıra daxili və xarici iqtisadi səbəblər üzündən normal metod və üsullarla milli iqtisadiyyata və əhalinin həyat səviyyəsinə zərər vurmadan vaxtında ödənilə bilməməsi ilə bağlıdır.

9.9. KREDİTİN AYRI-AYRI SPESİFİK FORMALARI

Proqressiv bank xidmətlərinin formalarından biri *faktorinqdir* – yəni müştərinin dövriyyə kapitalının kreditləşdirilməsi ilə uzlaşan və özünün istənilən formasında malların və xidmətlərin realizasiyası prosesində təsərrüfat orqanları arasında meydana çıxan (debitor borcunun inkassa edilməsi) ödənilməmiş tədiyyə tələbnamələrinin (hesab-fakturaların) faktorinq şirkətinə öz qiymətinə verilməsi ilə bağlı olan əməliyyatın ticarət-komissiya növüdür. Faktorinq xidmətinin məqsədi ödənişin vaxtının ötməsindən yaranan itkilərin minimallaşdırılması üçün borcların vaxtında inkassa edilməsi və

MUHASIBAT.AZ

ümidsiz borcların yaranmasının qarşısını almaqdan, önləyici ödəniş formasında (göndərişçinin arzusu ilə) kredit verilməsindən, kreditin idarə olunması və mühasibat hesabının aparılmasında müəssisələrə köməklik göstərilməsindən, təsərrüfatçılıq subyektlərinin təkrar istehsal fəaliyyəti üçün şəraitin yaradılmasından və, buna müvafiq olaraq onların dövriyyə və gəlirlərinin artırılmasına yardım etməkdən ibarətdir.

Adətən faktorinq əməliyyatında sövdənin üç iştirakçısı iştirak edir: faktor (bank) – tələbnamənin alıcısı, ilkin kreditor (müştəri) və müştəridən ödəniş möhləti ilə mal alan borclu. Faktorinq xidməti ilk dəfə bazara çıxan təsərrüfat subyektləri üçün, habelə öz alıcılarının ödənişqabilliyi haqqında heç də həmişə lazımi informasiyaya malik olmayan və kredit almaq imkanları məhdud olan xırda və orta müəssisələr üçün daha səmərəlidir. Bank da faktorinq əməliyyatlarının aparılmasında maraqlıdır, çünki o kredit riski və faktorinq yığımı da daxil olmaqla, müştərinin hesablarını idarə etməyə görə komission ödənişlər şəklində mükafat alır.

Faktorinq krediti yüksək ödənişli sayılır (kreditə görə yüksək faizə malikdir). Lakin, yüksək faizə baxmayaraq, müəssisələr faktorinq müqaviləsinin bağlanılmasına ona görə gedirlər ki, bu, bir tərəfdən dövriyyə vəsaitlərinin tədavülünün sürətlənməsinə imkan verir, digər tərəfdən – əlavə gəlir əldə etmək imkanı yaranır ki, o da faktorinqin ödənilməsinə çəkilən xərcləri ödəyir. Dünya praktikasında faktorinq kreditinin həcmi adətən razılaşdırılmış tələb məbləğinin 70-90%-i arasında olur və 90-120 gün müddətinə verilir. Faktorun bu haldakı muzdu (bədəli) faktorinq əməliyyatı üçün komissiondan (müştərinin dövriyyə məbləğinin 0,5-2%-i təşkil edir) və orta hesabla rəsmi uçot stavkasından artıq olan 2-4% kredit faizindən ibarət olur.

MUHASIBAT.AZ

Eyni zamanda heç də hər bir xırda və orta müəssisə faktorinq şirkətinin xidmətlərindən istifadə edə bilməz, çünki aşağıdakılar *faktorinq xidmətinə müqabil deyil*:

- böyük sayda debitor üzrə və bunlardan hər birinə dair xeyli borcun ifadə olunduğu müəssisə;
- qeyri-standart və ya məhdud ixtisaslı məhsulun istehsalı ilə məşğul olan müəssisələr;
- əlavə podratçılarla (subpodratçılarla) işləyən inşaat şirkətləri və başqaları;
- öz məhsullarını satışdan sonra xidmət göstərilməsi şərtləri ilə realizə edən və kompensasion sövdələrdə (barter) təcrübəli olan müəssisələr;
- öz müştəriləri ilə uzunmüddətli kontraktlar bağlayan və işlərin müəyyən mərhələsinin başa çatmasından və ya göndərişlərin həyata keçirilməsindən sonra (avans ödənişi) haqq-hesabı təqdim edən müəssisələr.

Faktorinq əməliyyatlar da fiziki şəxslərin, müəssisələrin filial və ya bölmələrinin borc öhdəlikləri üzrə yerinə yetirilmir. Bu məhdudiyyətlər onunla şərtlənir ki, bu hallarda faktorinq şirkəti üçün kredit riskini dəyərləndirmək son dərəcə çətindir və ya artırılmış iş həcmini, habelə belə tələbnamələrin başqasına güzəştə gedilməsi zamanı yaranan əlavə riski öz üzərinə götürmək sərfəli deyil, çünki onların ödənilməsi göndərişçinin hansısa başqa öhdəliyini yerinə yetirməsi üzündən vaxtında yerinə yetirilməyə də bilər. Bundan əlavə, göndərişçi yüksək keyfiyyətli mal istehsal etməli və ya xidmət göstərməlidir, istehsalı sürətlə genişləndirmək və mənfəəti artırmaq perspektivinə (yalnız bu halda müəssisəyə faktorinq şirkətinin xidmətinin kifayət qədər yüksək qiymətini ödəmək sərfəli olacaq) malik olmalı, habelə pul vəsaitləri çatışmazlığına yalnız müvəqqəti səbəbləri mövcud olsun (debitorlarla olan borcları vaxtında ödəyə bilməmək, gəlirin həcminin

MUHASIBAT.AZ

kifayət qədər olmaması, həddən çox mal ehtiyatlarının mövcudluğu və istehsal prosesi ilə bağlı çətinliklər üzündən). Bütün bunlar ondan xəbər verir ki, faktorinq kifayət qədər mürəkkəb və çoxcəhətli əməliyyatdan ibarətdir.

Faktorinq çox riskli əməliyyatdır, belə ki, onun səmərəliliyi determinasiya olunmayıb, yəni bağlanma anında hələ tam məlum deyil. Eyni zamanda səmərəliliyin determinasiya olunmaması, demək olar ki, mallar və xidmətlərin realizasiyası ilə bağlı bütün sövdələrin xüsusiyyətidir, hərçənd bu zaman əməliyyatın bütün şərtləri – satış qiyməti, alqı qiyməti, vasitəçi (miyançı) üçün komission faizləri bəllidir. Lakin, öhdəliyin yerinə yetirilməməsi riski mövcuddur. Ona görə də qərar qəbul edilərkən vasitəçi *həmin sövdənin səmərəliliyi proqnozu ilə* mümkün risksiz (daha az riskli) əməliyyatın səmərəliliyi ilə *müqayisə* aparmalıdır. Bu zaman faktorinq əməliyyatı riskinin aşağıdakı göstəricilərindən istifadə oluna bilər:

$$O_f = \frac{F_q}{F_{sr}}, \qquad (9.7)$$

burada O_f – faktorinq vəsaitlərinin dövranlılığı; F_q – faktorinqin illik həcmi; F_{sr} – hesablar üzrə faktorinq kreditləşdirilməsi həcminin orta həcmidir.

Əgər faktorinqin həcmi il ərzində xeyli dəyişirsə, onda hesablar üzrə faktorinq kreditləşdirməsinin həcmini hesablar üzrə faktorinq kreditləşdirməsinin həcminin aylıq və ya illik qalıqlarına əsaslanmaqla, ortaçəkili kimi hesablamaq lazımdır.

Faktorinq əməliyyatı üzrə vəsaitlərin ödənməsi müddəti aşağıdakı qaydada müəyyənləşdirilə bilər:

$$P_f = \frac{365}{O_f}, \qquad (9.8)$$

MUHASIBAT.AZ

burada P_f – faktorinq əməliyyatı üzrə vəsaitlərin ödənilməsinin dövranıdır.

(9.8) düsturuna görə faktorinqin vaxtının ötməsi müddəti nə qədər çox olarsa, onun ödənilməməsi riski də o qədər çox olar. Faktorinq üzrə vəsaitlərin ödənilməsi üzrə vaxtın çox olması, faktorinq xidmətinin şərtləri yüngülləşdirilərsə, məsələn, bazara yeni məhsulun çıxması ilə, özünü doğrulda bilər.

Faktorinq əməliyyatı riskinin müəyyənləşdirilməsi zamanı aktivlərin ümumi məbləğində faktorinq əməliyyatlarının xüsusi çəkisinin göstəricilərindən istifadə oluna bilər:

$$F_u = \frac{F}{A}, \qquad (9.9)$$

burada F_u – aktivlərin ümumi məbləğində faktorinq əməliyyatlarının xüsusi çəkisi; F – faktorinq əməliyyatların həcmi; A – aktivlərin məbləğidir.

(9.9) düsturunu təhlil edərkən belə nəticəyə gəlmək olar ki, əvvəlki dövrlərlə müqayisədə faktorinq əməliyyatlarının həcminin artması göndərişçinin məhsulun realizasiyası ilə bağlı çətinliklərinin olmasından xəbər verə bilər, hərçənd, digər tərəfdən bu, onun, dövriyyə vəsaitlərinin dövriyyəsinin artmasına səbəb olacaq maliyyə əməliyyatlarının həcminin artması da ola bilər.

Risk dəyərinin analizindən istifadə etməklə, onun faktorinqin maliyyə nəticələrinə təsirinin azalması imkanlarını tapmaq və müştərinin daha yaxşı maliyyələşdirilməsi proqramının seçilməsi üzrə qərar qəbul olunmasından ötrü zəruri informasiyanı hazırlamaq olar. Bunu da nəzərə almaq lazımdır ki, faktorinq şirkəti (bank) ödənilməmiş tələbnamələrin sahibkarına çevrilir və onların ödənilməməsi riskini öz üzərinə götürür, hərçənd borcluların kredit qabilliyi əvvəlcədən yoxlanılır. Müqaviləyə uyğun olaraq faktorinq şirkəti göndərişnin kontragentlərinin ödəyib-ödəməmələrindən asılı olmayaraq, onun

MUHASIBAT.AZ

tərəfindən öz qiymətinə başqasına güzəştə gedilən tədiyə tələbnamələrinin məbləğinin ödənilməsini öhdəsinə götürür, bu şərtlə ki, ödəmələr onun tərəfindən bəyənilmiş olsun. Bunun nəticəsində göndərişçi öz ödənişlərinin dəqiq ödənilmə tarixini bilirlər. Faktorinq sayəsində pul vəsaitlərinin və hesablaşmaların dövranının sürətlənməsinə nail olunur. Maliyyə baxımından faktorinq şirkəti tərəfindən göndərişçinin maliyyələşdirilməsi onun üçün yeni passiv yaratmır və, deməli, onun kreditqabilliyini azaltmır. Lakin, faktorinq xidmətinin məqsədi, ödənişçinin ödəməqabilliyinin olub-olmamasından asılı olmayaraq (bu şərtlə ki, o faktorinq şöbəsi və ya şirkəti tərəfindən bəyənilmiş olsun), vəsaitləri təxirə salınmadan və ya müqavilədə müəyyən olunmuş tarixdə almaqdan ibarətdir.

Faktorinq xidməti təkcə göndərişçinin kreditləşdirilməsini deyil, həm də onun maliyyə durumuna, habelə onun alıcılarının alıcılıqqabilliyinə müşahidə və nəzarəti nəzərdə tutur. Müqavilə bağlanmazdan əvvəl faktorinq şöbəsi müəssisənin mühasibat hesabatları və balanslarını, müəssisənin fəaliyyətinin maliyyə göstəricilərini, ona borclu olanların ödənişqabilliyini, göndərişçinin özünün kreditqabilliyini və onun başqalarına güzəştə gedəcəyi tədiyə tələbnamələrinin keyfiyyətini analiz edir.

Analizin aparılması zamanı həm də göndərilən məhsulların növü, keyfiyyəti, rəqabətqabilliyi, reklamasiyaların sayı və onun qaytarılma halları nəzərə alınır. Müvafiq informasiyanı almaq üçün şöbə bankların şöbələri ilə, auditor və vasitəçi-konsaltinq təşkilatlarla müqavilələr bağlaya bilər.

Göndərişçinin və ödənişçilərin kreditqabilliyinin yoxlanılmasından sonra faktorinq şöbəsi faktorinq əməliyyatı üzrə ödənişin alınmaması riskindən çəkinilmədən malların göndərilməsi və xidmətlərin yerinə yetirilməsi üzrə son məbləği müəyyənləşdirir. Müqavilə ilə faktorinq əməliyyatı üzrə son məbləğin necə təyin


MUHASIBAT.AZ

olunması, habelə faktorinq şöbəsinin hansı şəraitin yaranması zamanı göndərişçinin xeyrinə ödənişlər aparmalı olduğu hallar müəyyənləşdirilir. Dünya praktikasında adətən *məbləğ həddinin müəyyənləşdirilməsinin üç üsulundan* istifadə olunur:

- kreditləşdirmə limitlərinin müəyyənləşdirilməsi. Hər bir ödənişçi üçün dövri olaraq yeniləşdirilən kreditləşdirmə limiti müəyyənləşdirilir ki, faktorinq şöbəsi bu zaman yalnız onun hüdudlarında məsuliyyət daşıyır. Əgər ödənişçinin borcunun məbləği limit məbləğini aşarsa, onda faktorinq müqaviləsinin müddəalarına uyğun olaraq o ödəməqabilliyə malik olmadıqda, borcarın ödənilməsi hesabına bütün ödənişlər ilk növbədə faktorinq şöbəsinə o vaxtadək daxil olacaq ki, göndərişçinin xeyrinə həyata keçirilən ödənişlərin məbləği kompensasiya edilə bilsin və yalnız bundan sonra ödənişçinin xeyrinə daxilolmalar olacaq;
- aylıq göndərmə limitlərinin müəyyənləşdirilməsi. Bu halda bir ay ərzində bir ödənişçiyə göndərişin həyata keçirilə biləcəyinə imkan verən məbləğ müəyyənləşdirilir. Bu şərtlə ki, göndərişçi limiti aşmasın və faktorinq şöbəsinin əks halda bu barədə xəbərdarlıq məktubu olmasın, göndərişçi ümidsiz borcların yaranması riskindən sığortalanır. Bəzən limit aylarla deyil. Həftələr üzrə müəyyənləşdirilir;
- ayrı-ayrı sövdələr üzrə sığortalama. Bu üsuldan o halda istifadə olunur ki, göndərişçinin istehsalat fəaliyyətinin spesifikası eyni müştərilərə göndərişlər seriyasını deyil, iri məbləğlərdə bir sıra sövdələr aparılmasını nəzərdə tutur. Məbləğin həddi müəyyən müddət ərzində malların göndərilməsi üzrə hər bir sifarişin bütün məbləğindən ibarətdir.

MUHASIBAT.AZ

Müxtəlif situasiyalarda həmin üsulların müxtəlif kombinasiyalarından istifadə oluna bilər. Lakin, bütövlükdə faktorinqin təşkilini aşağıdakı kimi göstərmək olar (şəkil 9.6).



Şəkil 9.6. Faktorinqin təşkili

Faktorinq zamanı əməliyyatların ardıcıllığı belədir: 1 – mal istehsalçısının istehlakçıya məhsul göndərişi; 2 – tədiyə tələbnaməsinin (borcun) faktora öz qiymətinə satılması (öz qiymətinə güzəştə gedilməsi); 3 – göndərişin məbləğinin 85-90% həcmində göndərişçinin maliyyələşdirilməsi; 4 – məhsulun alıcısından borcun tutulması proseduru üzrə tədbirlərin həyata keçirilməsi; 5 – alıcının göndərilmiş məhsulun haqqını ödəməsi; 6 – komission faktorun çıxılması ilə göndərişdən qalan məbləğin (10-15%) göndərişçinin hesabına köçürülməsi.

Bəzi hallarda (faktorinqin açıq növü) alıcıya faktorinq şirkətinin sövdədə iştirakı haqqında xəbər verilir. Bu sayaq məlumatlandırma, adətən hesab-faktura üzərində, həmin hesab üzrə debitor borclarının bütünlüklə, faktorun tədiyə rekvizitlərinin göstərilməsi ilə (ödənişin yeganə qanuni alıcısı olur) ona verilməsini bildirən xüsusi yazının köməkliyi ilə həyata keçirilir. Bundan əlavə, göndərişçi adətən öz alıcısına xüsusi məktub göndərərək alıcını bütün debitor borcların faktora verilməsi barədə məlumatlandırır.

MUHASIBAT.AZ

Faktorinq şöbəsi ilə göndərişçinin faktorinq əməliyyatlarının həyata keçirilməsi üzrə qarşılıqlı münasibətləri müqavilə ilə tənzimlənilir. Müqavilədə göstərilir ki, faktorinq açıqdır, yəni debitor faktorinq şöbəsinin sövdədə iştirakı haqqında məlumatlandırılıb. Qapalı və ya konfidensial faktorinq də mövcuddur ki, bu zaman debitorlara faktorinq müqaviləsinin mövcudluğu haqqında məlumat verilmir.

Müqavilə həm də göndərişçiyə reqress hüququnun (hər hansı iltizamın yerinə yetirilməsi üçün əks tələbin verilməsi – tərcüməçi) düşüb-düşməməsini müəyyənləşdirir. Bu şərt müştərinin öz öhdəliklərini yerinə yetirməkdən imtina etməsi ilə bağlı yaranan risklə, yəni kredit riski ilə bağlıdır. *Reqress hüququ* ilə müqavilə bağlanırkən göndərişçi, onun faktorinq şöbəsinə satdığı tədiyə tələbnamələri üzrə kredit riski daşıyır. Lakin, dünya praktikasında reqress hüquqlu müqavilə kifayət qədər nadir hallarda – mübahisəli məqamların yaranması ehtimallarında və ya ödənişçilərin ödəməqabiliyyətsizliyi minimuma endiyi hallarda bağlanılır. *Reqress hüququ* olmayan müqavilələr zamanı faktorinq şöbəsi özünün bəyəndiyi ödənişçi tərəfindən ödənilməmə riskini bütünlüklə öz üzərinə götürür (şöbə ödənilməyə razılığını verir).

Tam xidmət göstərilən və ya tam xidmətin bu və ya digər həmahəng elementlərini nəzərdə tutan tam xidmət vardır. Tam xidmət haqqında müqavilə adətən göndərişçi ilə faktorinq şöbəsi arasında daimi və kifayət qədər uzunmüddətli ünsiyyətin olduğu hallarda bağlanılır və ümidsiz borcların təzahüründən (reqressiya hüququ olmadan müqavilə bağlanarkən) 100 faizli müdafiəni, uçtorun aparılması və kreditin idarə olunmasını, pul vəsaitlərinin qarantiya olunmuş axınının təmin olunmasını və, göndərişçinin arzusu ilə öncədən ödənişi nəzərdə tutur. Faktor həm də debitor borcun tam mühasibat uçotunu apara, hesablaşmaların təşkili məsələləri üzrə

MUHASIBAT.AZ

məsləhətlər verə, müqavilələr bağlaya və ödənişləri ala, satış bazarları, qiymətlər, gələcək alıcıların ödəməqabilliyi haqqında informasiya verə, habelə nəqliyyat, anbar, sığorta, reklam xidmətləri və s. göstərə bilər.

Faktorinq şöbəsi göstərilən tarixə və ya razılaşdırılmış müddət arasında (tədiyə tələbnaməsinin alınması tarixindən müəyyən müddətin ötməsi ilə bağlı) tədiyə tələbnamələrinin müəyyən məbləğ payını göndərişçiyə ödəməyə borcludur. Göndərişçinin yeganə vəzifəsi faktorinq şöbəsi ilə sövdənin uçotunu aparmaqdan ibarətdir. Şöbə, müştərilərin öz borclarını ödəyib-ödəməmələrindən asılı olmayaraq (məsrəf xərcləri çıxılmaqla) öz qiymətinə güzəştə gedilmiş (satılmış) tələbnamələrin məbləğini göndərişçiyə ödəyir, amma o şərtlə ki, alıcılar onun tərəfindən dəstəklənmiş olsunlar.

Reqress hüququnun mövcud olduğu halda faktorinq şöbəsi müəyyən olunmuş müddət ərzində ödənilməmiş istənilən məbləğdə tədiyə tələbnamələrini göndərişçiyə qaytarmaq hüququna malikdir. Əgər göndərişçi faktorinq şöbəsinə borc tələbnamələrini başqasına verməməyi və adi inkassalaşdırma prosedurunu davam etdirməyi təklif edirsə, yaxud da ondan borcun əvəzinin ödənilməsi üçün qanuni fəaliyyət görməyi xahiş edirsə (bu halda arbitraj üzrə bütün xərcləri göndərişçi çəkəcək), onda faktorinq şöbəsi faktorinq ödənişinə analoji olan refaktorinq üçün ödənişi özü üçün götürəcək. Bu zaman göndərişçiyə qarantiya olunmuş və öz vaxtında gələcək pul vəsaitləri yalnız reqress hüququ olmayan müqavilənin bağlanması şərtilə təmin oluna bilər.

Faktorinq sövdəsinin imzalanması məqamında borcun məbləğinin 100% ödənilməsinə faktorinq şöbəsi tərəfindən müstəsna hallarda yol verilir. Bu halda faktorinq əməliyyatlarının aparılmasına görə göndərişçi müqavilədə şərtləşdirilmiş müddətdə tədiyə tələbnaməsi ilə şöbəyə komission mükafatı köçürür. Bu zaman bir sıra səbəblər var ki, onlara görə faktorinq şöbəsinə borc öhdəliklərinin dəyərini öncədən

ödəmək sərfəli deyil. Bu, hər şeydən əvvəl mübahisəli məqamların və hesablarda səhvlərin meydana çıxa bilməsi ilə bağlıdır. Əgər göndərişçi öz fəaliyyətini dayandırırsa və ya hər hansı səbəb üzündən faktorinq müqaviləsinin şərtlərini pozursa, onda faktorinq şöbəsinin tədiyə tələbnamələrinin özündən öncədən ödənilmiş məbləğlərin savayı sığorta ödəməsi yoxdur. Ona görə də fərq bu səbəbdən vacibdir ki, şöbə zərurət yarandıqda öncədən ödənilmiş məbləğləri kompensasiya edə bilsin. Faktorinq şöbəsinin komission mükafatları iki elementdən formalaşır:

- xidmətə görə ödəniş – uçot aparılması zərurətindən azad etməyə görə, ümidsiz borcların meydana çıxmasından sığortalama – bu, adətən hesab-faktura məbləğindən faiz kimi sayılır. Onun həcmi göndərişçinin istehsal fəaliyyətinin miqyası və strukturundan və alıcılarının keyfiyyətindən, habelə faktorinq şöbəsinin işin çətinliyi və riskləri dəyərləndirməsindən asılı olmayaraq, xeyli dəyişə bilər, lakin, dünya praktikasına uyğun olaraq, orta hesabla o güzəştə gedilmiş hesabların dəyərinin 0,5-3,0% hüdudunda olur. Reqress hüququnun olduğu zaman 0,2-0,5% güzəşt (endirim) edilir. Lakin, təcrübənin göstərdiyi kimi, hər bir konkret müqavilə üzrə stavkaların ciddi reqlamentasiyasından imtina etmək və həmin elementin komission mükafatının həcmini və onun təsbit olunma formasını (tədiyə tələbnamələrinin məbləğindən faizlə və ya mütləq məbləğin göstərilməsi yolu ilə) müəyyənləşdirmək məqsədəuyğundur;
- öncədən ödənilmə şərti ilə kredit verilməsinə görə haqq – onun həcmi uzunmüddətli alqı ilə inkassalaşdırma tarixi arasındakı müddət ərzində hər gün üçün hesablanır. Kredit üçün faiz adətən analoji dövriyyə və kreditqabilliklə müştərilərin qısamüddətli kreditləşdirilməsi zamanı bankların tutduqları faizdən 2-3% artıq olur. Bu, əlavə xərclərin və bankın riskinin kompensasiyası zərurəti ilə bağlıdır.

Faktorinq əməliyyatlarının həyata keçirilməsi üzrə praktiki təcrübənin əldə olunması ilə bağlı bankın faktorinq şöbəsi öz müştərilərinə daha geniş xidmətlər dəsti, o cümlədən tam mühasibat xidməti (müştərinin tapşırığı ilə müntəzəm olaraq onun maliyyə-təsərrüfat fəaliyyətinin analizini aparmaqla, mühasibat uçotunun aparılmasının daha da yaxşılaşdırılması üzrə tövsiyələr verməklə və s.), göndərişçilərin sövdələri üzrə kredit nəzarətinin aparılması və təftişlərin keçirilməsi, hüquqi xidmət göstərilməsi (göndərişçinin tapşırığı ilə məhkəmədə arbitrajda, cərimələr, iddialar, tələblər, ərizələr üzrə məxfi işlərin – vəkalətli işlərin aparılması), sığortalama, informasiya təminatı xidmətləri göstərilməsi, nəqliyyat və reklam xidməti göstərilməsi, satış strategiyasının işlənilib hazırlanması, müxtəlif maliyyə məsələləri üzrə məsləhətlər verilməsi, habelə xarici ticarətdə (yüksək kredit riski və kreditlərin böyük müddəti ilə xarakterizə olunan) faktorinq xidməti göstərə bilər.

Faktorinqin məziyyəti ondan ibarətdir ki, o müəssisəyə öz diqqətini öz istehsal funksiyalarına yönəltməyə imkan verir, öz ödənişlərinin böyük hissəsinin alınmasını sürətləndirir, borcun tam ödəndirilməsini qarantiya edir və hesablanma (uçot) üzrə məsrəfləri azaldır. Göndərişçi bankdan artıq kreditlər almaq zərurətindən xilas olur, ödənişlərin vaxtlı-vaxtında daxil olmalarının qarantiyası isə ona dayanıqlı maliyyə durumuna malik olmağa imkan verir.

Faktorinq müqaviləsinin çoxdəfəli razılaşma xarakteri vardır, yəni o konkret təsərrüfat subyektinin maraqları daxilində uzunmüddətli faktorinq xidmətinin yerinə yetirilməsini nəzərdə tutur. Belə müqavilələrin əsas şərti, razılaşdırılıb-razılaşdırılmamasından asılı olmayaraq, göndərişçinin müştərilərinin müəssisəyə onun tərəfindən güzəştə gedilmiş tələbnamələrin ödənilməsi barədə faktorun öhdəliyidir. Müqavilədə göndərişçinin müvəqqəti sərbəst pul vəsaitlərini onun maraqları çərçivəsində faktorinq üzrə məsrəfləri ödəmək üçün faktora

MUHASIBAT.AZ

köçürməsi öhdəliyi nəzərdə tutula bilər. Faktor müştərinin və ya onun kontragentlərinin onların əmtəə müqavilələri üzrə öhdəliklərini yerinə yetirməmələri üçün məsuliyyət daşımır. Faktorinq müqaviləsi tərəflərin qarşılıqlı razılığı üzrə, tərəflərdən birinin arzusu ilə, habelə göndərişçinin faktiki və ya ehtimal olunan (gözlənilən) ödəməqabiliyyətsizliyi üzündən dayandırıla bilər.

Hazırda kreditin bir sıra digər spesifik formaları mövcuddur. *Sindikatlaşdırılmış krediti* həmin formalardan birinə aid etmək olar. Bu, bir qrup bank tərəfindən bir kredit razılaşması çərçivəsində kreditin verilməsindən ibarətdir. Dünya bank praktikasında sindikatlaşdırılmış kreditləşdirmə kredit bazarında aparıcı mövqe tutur, MDB ölkələrində isə ondan istifadə olunması bir sıra problemlərlə toqquşur və bunlara aşağıdakıları aid etmək olar:

- müxtəlif bankların kreditləşdirmə üçün resursların müxtəlif qiyməti, habelə pul vəsaitlərinin cəlb olunmasının müddəti və həcmi üzrə müxtəlif imkanları vardır;
- layihələrin birgə maliyyələşdirilməsi və onların qiymətləndirilməsinin təşkilinə vahid metodoloji yanaşma yoxdur;
- sindikatlaşdırılmış kreditləşdirmə üçün sənədlər dəsti unifikasiya olunmayıb və standartlaşdırılmayıb, habelə banklar digər bankların layihələrinin maliyyələşdirilməsində iştirak edərkən öz müştərilərinin bir hissəsini itirməkdən qorxurlar;
- banklar arasında yüksək dərəcədə etimadsızlıq səviyyəsi mövcuddur, sindikatlaşdırılmış kreditləşdirmənin təşkilində və onda iştirak etməkdə praktiki təcrübə yoxdur.

Bununla belə, sindikatlaşdırılmış kreditləşdirmə bankların məhdudlaşdırılmış kredit imkanları ilə birinci dərəcəli borc alanların böyük maliyyə sorğuları arasındakı ziddiyyəti aradan qaldırmağa imkan verir. Kreditləşdirmənin bank praktikası da yaxşılaşacaq, çünki

MUHASIBAT.AZ

sindikatlaşdırılmış kreditin klassik forması bilavasitə maliyyələşdirməni həyata keçirən banklarla yanaşı, agent bankın da varlığını nəzərdə tutur ki, sonuncunun da əsas funksiyası kreditləşdirmə üçün vəsaitləri toplamaqdan, kreditin özünü verməkdən, borc alanlar tərəfindən faizlə birlikdə qaytarılmış kredit banklar arasında bölüşdürməkdən ibarətdir.

Özünü yoxlama üçün suallar

1. Kreditin formaları hansı əlamətləri üzrə təsnif oluna bilər?
2. Bank kreditləşdirməsi hansı mənbələr hesabına həyata keçirilə bilər?
3. Kreditin qaytarıla bilməsinin hansı təminat formaları vardır?
4. Kommersiya krediti nədir və o bank kreditindən nə ilə fərqlənir?
5. Kommersiya kreditinin hüdudları nə ilə şərtlənir?
6. Niyə müasir şəraitdə kommersiya kreditinin görünüşündə dəyişiklik baş vermişdir?
7. Kommersiya kreditinin üstünlükləri və çatışmazlıqları nədən ibarətdir?
8. Lizinq nədir və onun hansı formaları (növləri) vardır?
9. lizinq verən və lizinq alan hansı üstünlükləri əldə edirlər?
10. Lizinq müqaviləsi hazırlanarkən hansı ifnormasiya zəruridir və onun lizinq üzrə hesablanması zamanı hansı amillər nəzərə alınır?
11. İstehlak kreditinin meydana çıxması nə ilə əlaqədardır?
12. İpoteka kreditinin spesifik xüsusiyyətləri nədən ibarətdir?
13. Tərpənməz obyektlərin hansı dəyərləndirmə üsulları var və onların mahiyyəti nədən ibarətdir?
14. Girov kağızı nədir və onun hansı növləri vardır?
15. Dövlət kreditinin meydana çıxması nə ilə əlaqədardır?
16. Dövlət kreditinin səmərəliliyini hansı yollarla yüksəltmək olar?

MUHASIBAT.AZ

17. Beynəlxalq kreditin alınması zamanı borc alan hansı şərtləri nəzərə almalıdır?
18. Bank krediti alarkən borc alan hansı şərtləri nəzərə almalıdır?
19. Xarici kreditlər hesabına maliyyələşdirilmə üçün təklif olunan layihələrin hansı çatışmazlıqları var və onları hansı yollarla aradan qaldırmaq olar?
20. Beynəlxalq kreditlərin verilmə müddəti hansı amillərlə şərtlənir?
21. Ölkənin ödəməqabilliyinin dolayısı və birbaşa indikatorlarının mahiyyəti nədən ibarətdir?
22. Ölkənin valyuta-maliyyə durumunun analizi zamanı hansı parametrlər nəzərə alınır?
23. Faktorinq əməliyyatları nədir və onlar hansı məqsədləri güdürlər?
24. Faktorinq əməliyyatları üzrə hansı həddə məbləğ hüdudu müəyyənləşdirilir?
25. Faktorinq şöbəsinin komission mükafatlandırılması hansı elementlərdən ibarətdir?
26. Sindikatlaşdırılmış kredit nədir?

MUHASIBAT.AZ

III bölmə. PUL-MALİYYƏ BAZARI

10. PUL-MALİYYƏ BAZARININ TƏRKİB HİSSƏLƏRİ

10.1. PUL-MALİYYƏ BAZARI ANLAYIŞI

Pul-maliyyə bazarı – bu, pulun, kreditin, qiymətli kağızların əmtəə sayıldığı bazardır. Buna uyğun olaraq pul-maliyyə bazarını pul-kredit və maliyyə (qiymətli kağızlar bazarı) bazarlarına bölmək olar.

Pul-kredit bazarı – müasir pul-kredit siyasətinin institusion əsaslarına aiddir, çünki o iqtisadiyyatın pul-kredit tənzimlənilməsi bazar modelinin mühüm həlqəsidir. Müxtəlif müddətlər üçün kreditlərin tələb və təklifi bu bazarda təmərküzləşir, faiz stavkaları, mübadilə kursları və s. formalaşır. Pul-kredit sferasında bazarlar sistemi olmadan ikimərhələli bank sisteminin səmərəli fəaliyyət göstərməsini təmin etmək olmaz.

Hesab edilir ki, pul-kredit sferasında bazarların təsnifi əsasında üç əlamət mövcuddur: sövdə obyekti; iştirakçıların tərkibi və sövdənin zamanda sürəkliyi.

Bundan asılı olaraq kredit, pul və valyuta bazarlarını fərqləndirmək olar. *Kredit bazarı* banklararası bazarla təmsil olunur ki, ona təkcə banklar daxil ola bilərlər və orada dövrlər üzrə bankların aktiv və passiv əməliyyatlarının gündəlik balanslaşdırılması baş verir. Bankların resursları bir-birlərinə alıb-satmaq hüquqları bazar iqtisadiyyatında öz təbiətinə görə immanent olan (yəni, özünəxas) horizontal əlaqələrin mövcudluğunu bildirir. Pul bazarı iştirakçılarının tərkibinə və sövdə obyektlərinə görə daha genişdir və banklardan əlavə, bir qayda olaraq, müəssisələr, maliyyə təsisatları, sığorta şirkətləri, pensiya fondları, investisiya fondları, dilerlər və s. oraya daxil ola bilərlər. *Valyuta bazarı* pul-kredit bazarının tərkib hissəsi kimi, xarici

MUHASIBAT.AZ

valyuta ilə və xarici valyutada tədiyə sənədləri ilə (çek, veksel, köçürmə, akkreditiv) alqı-satqı əməliyyatlarının (mübadilənin) həyata keçirilməsi ilə bağlı iqtisadi münasibətlər sistemindən ibarətdir. Valyuta bazarına konkret əməliyyatların həyata keçirilməsi üzrə (müəyyən regionlarda və beynəlxalq ticarət mərkəzlərində xarici ticarət hesablaşmaları, turizm, kapitalların, işçi qüvvəsinin miqrasiyası, sığortalaşdırma və başqaları) xeyli miqdarda lokal bazarlar da daxildir.

Valyuta bazarının meydana çıxması tamamilə qanunauyğun haldır. Beynəlxalq kommersiya sövdəsini həyata keçirilməsi üçün müxtəlif milli valyutaların qarşılıqlı mübadiləsi mütləq labüddür. Dünya təcrübəsi valyuta bazarları sistemi ilə bağlı belə mübadilələrin səmərəli praktikasını işləyib hazırlanmışdır. Valyuta bazarlarında beynəlxalq ödənişlərə xidmət göstərilməsi üçün istifadə olunmaq məqsədilə müntəzəm olaraq milli pul vahidlərinin qarşılıqlı alqı-satqısı aparılır. Bu mexanizm konvertasiya ideyasını özündə ən yaxşı şəkildə təcəssüm etdirir və obyektiv şərait və real iqtisadi zəminin mövcudluğu zaman onun realizasiyasını təmin edir. Valyuta bazarlarında ənənəvi olaraq çek, veksel, köçürmə, nəqd banknot, bank hesablarındakı pul vəsaitləri kimi xüsusi kommersiya pul sənədləri satılıb-alınır. Bütün bu hallarda bazar ticarətinin spesifik predmeti müxtəlif milli mənsubiyyətli spesifik ölçü və dəyərləri – valyuta kursu olan pul vəsaitləridir.

Beynəlxalq iqtisadi dövriyyə subyektlərinin (ixrac mallar və xidmətlərin istehsalçısı və satıcıları, xarici alıcılar və istehlakçılar) özlərinin bir-birləri ilə praktiki olaraq heç vaxt bilavasitə hesablaşma aparmadıqlarından, realizasiya olunmuş dəyərlər üçün pul ödənməsini və ödənişlərin alınmasını bank müəssisələri öz üzərlərinə götürürlər. Yerli və xarici kommersiya banklarının simasında bu vasitəçi həlqə həm regional valyuta bazarlarının, həm də dünya miqyasında qlobal valyuta ticarəti sistemi kimi institusional strukturun özəyini əmələ gətirir. Həmişə irimiqyaslı valyuta ticarətlərində iştirak edən banklar daha

MUHASIBAT.AZ

etibarlı və mənfəətli valyutaları öz portfellərində cəmləşdirirlər, valyuta risklərindən sığortalanırlar, müştərilər üçün maksimal rahatlıq və fayda təmin edirlər və əlbəttə ki, özlərinin kommersiya maraqlarını güdürlər. Valyuta bazarları üçün broker (dəllal) firmaları və ayrı-ayrı brokerlər kimi vasitəçi həlqənin mövcudluğu xarakterikdir. Əgər kommersiya bankları təsərrüfatçılıq subyektlərinin özlərinə münasibətdə vasitəçilik funksiyalarını icra edirlərsə, brokerlər yalnız banklar arasında vasitəçilik edirlər (iqtisadi ədəbiyyatda belə məlumat var ki, ABŞ-ın valyuta bazarlarında banklararası sövdələrin yarıdan çoxu brokerlərin vasitəçiliyi ilə həyata keçirilir).

Mərkəzi bankların simasında valyuta bazarlarının fəaliyyətinə dövlət müdaxiləsi valyuta bazarının digər iştirakçıları üçün bu və ya digər «oyun qaydaları»nın müəyyənləşdirilməsi ilə bağlıdır (xüsusi valyuta satıcıları və alıcıları kontingentinin, icazə verilən valyuta əməliyyatlarının, valyuta kursunun enib-qalxma səviyyə və ya hədlərinin və s. müəyyənləşdirilməsi yolu ilə). Lakin, dövlət valyuta bazarını iqtisadi mütodlarla tənzimləməlidir. Belə ki, mərkəzi bank kommersiya banklarının fəaliyyətinə müdaxilə etmədən, valyuta kursuna tələb və təklifin təsiri ilə formalaşmasına imkan verməklə, bütün alıcı və satıcılarla bərabər hüquqluluq səviyyəsində, valyuta alqı-satqısı üzrə əməliyyatlarda iştirak etmək yolu ilə valyuta bazarına təsir edə bilər.

Valyuta bazarında müxtəlif pul vahidlərinin mübadiləsinə dair mürəkkəb, eyni zamanda həm də kifayət qədər çevik fəaliyyət göstərən konqlomerat bazar münasibətləri və əlaqələri yaranır. Bu konqlomerata və ya mexinizmə, əvvəla, sənaye-ticarət müştərilərinin münasibətləri, ikincisi, bu ölkənin kommersiya banklarının özləri ilə yerli brokerlər arasındakı münasibətlər, üçüncüsü, yerli kommersiya bankları ilə xarici banklarla və beynəlxalq broker müəssisələri ilə münasibətləri, dördüncüsü, kommersiya bankları ilə mərkəzi banklar

MUHASIBAT.AZ

arasındakı və mərkəzi bankların özləri arasındakı münasibətlər daxildir. Bu zaman valyuta bazarının əməliyyatları əmtəə və fond birjalarından fərqli olaraq hansısa bir yerdə, müəyyən binada və ya otaqda təmərküzləşmir, bir qayda olaraq, paytaxtlarda və ya dövlətin digər ənəvi maliyyə mərkəzlərində toplaşan çoxlu sayda, əsasən iri banklarda aparılır. Bu halda əsas birləşdirici amil rolunu etibarlı rabitə sistemi və zəruri informasiyanın ötürülməsi oynayır. Hazırda ən iri valyuta bazarları Qərbi Avropada – London, Paris, Sürix, Frankfurt, Amsterdam, Milan, Brüssel, Şimali Amerikada – Nyu-York, San-Fransisko, Toronto, Yaxın Şərqdə – Bəhreyn, Uzaq Şərqdə – Tokio, Honkonq, Sinqapurdur. Bu maliyyə mərkəzləri bir-birləri ilə ən yeni telekommunikasiya sistemləri ilə bağlıdırlar və dünya valyuta bazarını – istənilən zamanda, sövdə iştirakçılarının olduqları yerlərindən asılı olmayaraq, istənilən müştəriyə istənilən məbləğdə istənilən valyutanı alıb-satmaq imkanı verən qlobal dünya şəbəkəsi və sutka ərzində fasiləsiz aparıla biləcək ticarəti əmələ gətiriblər.

Ona görə də valyuta bazarları xarici ticarət, turizm və xidmətlərin göstərilməsində, xarici valyutanın alqı-satqısını nəzərdə tutan kapitalların və digər hesablaşmaların hərəkətində onun ödəyiciləri və alıcıları üçün beynəlxalq hesablaşmaların aparılması mexanizmi rolunu oynayırlar. Valyuta bazarlarının sığortalanması, valyuta rezervlərinin divesifikasiyası, valyuta intervensiyaları da valyuta bazarlarının köməkliyi ilə həyata keçirilir.

Bir çox milli valyutaların qeyri-dayanıqlığı və valyuta kurslarının dəyişikliyinin kəskin artması ilə bağlı olaraq valyuta kurslarının dəyişməsindən mənfəət əldə edilməsinə yönəlmiş möhtəkirlik əməliyyatları xüsusilə genişlənir. Valyuta bazarları öz rejimlərinə görə *sərbəst* (valyuta məhdudiyyətləri olmayan regionlar üçün) və *qeyri-sərbəstə* (məhdudiyyətlər müəyyənləşdirilib, və valyuta əməliyyatları

MUHASIBAT.AZ

səlahiyyətli orqanlar, yaxud da sərbəst kurs üzrə icazə verilir) bölünürlər.

Valyuta bazarındakı əməliyyatlar *nəqd* və ya *spota* (xarici valyutanın verilməsi və onun xarici valyuta ilə ekvivalentinin ödənilməsi dərhal həyata keçirilir), *müddətli*, yaxud da *forvarda* (tərəflərin razılaşmasına əsasən xarici valyutanın verilməsi və ekvivalentin ödənilməsi 1-3 və daha çox aydan sonra sazişin bağlanması zamanı şərtləndirilmiş kursla ödənilir), *svop əməliyyatlarına* (nəqd və müddətli sövdələrin birləşdirilməsi), *arbitraja* (sövdə iştirakçılarından biri müxtəlif valyuta bazarlarında şərtləndirilmiş müddətdə valyuta kurslarındakı və faiz stavkalarındakı fərqdən mənfəət əldə edərkən istifadə edir) bölünür.

Avropa valyutalarının (Qərbi Avropa ölkələrinin valyutaları ilə əməliyyatlar üçün), Avropa depozitlərinin (beynəlxalq borcların verilməsi), Avropa istiqrazlarının (Aropa valyutası ilə uzunmüddətli istiqrazlar alınması zamanı borc öhdəlikləri üzrə əməliyyatlar üçün), valyuta bazarları mövcüddür.

Valyuta bazarı bankların, valyuta birjalarının, ixtisaslaşdırılmış broker firmalarının, iri, ilk növbədə transmilli korporasiyaların institusional mexanizm kimi, məcmusundan ibarətdir.

Uzun müddətə pul resurslarının alqı-satqısı üzrə sövdələr *maliyyə bazarında* həyata keçirilir. İlkin və törəmə (ikinci) maliyyə bazarları göstərilir. İlkin maliyyə bazarlarına istiqrazların və aksiyaların emissiyası, ikincilərə isə – fond birjasında qiymətli kağızların alqı-satqısı aiddir. Maliyyə bazarının təşkil olunması (formalaşdırılması) faktiki olaraq dövlət büdcəsinin kredit sistemi ilə münasibətlərinin sağlamlaşdırılmasına cəhd edilməsini bildirir.

MUHASIBAT.AZ

10.2. QİYMƏTLİ KAĞIZLARIN ÜMUMİ XARAKTERİSTİKASI

Qiymətli kağızlar bəşəriyyətə ən azı son orta əsrlərdən bəllidir. O dövrlərin böyük coğrafi kəşfləri beynəlxalq ticarəti xeyli genişləndirdi. Ona görə də tacirlərə ticarət əməliyyatlarında istifadə etmək üçün çoxlu kapital lazım olurdu. Lakin, dənizlərarxası satış bazarlarına və xammal mənbələrinə sahib olmaq o dövrün bir çox sahibkarlarının qüvvəsi xaricində idi. Bunun üçün çoxlu pul tələb olunurdu. Bu, Ost-Hindiya ilə ticarət üçün ingilis və holland şirkətlərinin, Qudzon körfəzi şirkətləri ilə ticarət üçün səhmdar (aksioner) cəmiyyətlərinin yaranmasına gətirib çıxardı. Onlar o dövrdə qiymətli kağızların ilk iri emitentləri oldular. Lakin sənaye çevrilişinin və iri emaledici sənayenin yaradılmasının elə ilk başlanğıcından səhmlərin yayılması və onlarla ticarət əsl geniş vüsət aldı.

Qiymətli kağızlar kağız üzərində çap olunmuş blank şəklində buraxıla və ya hesabda yazı formasında ola bilərdi. *Qiymətli kağızların emitenti* – öz adından qiymətli kağızlar buraxan hüquqi şəxsdir və bu qiymətli kağızların buraxılmasından irəli gələn şərtləri yerinə yetirməyi öhdəsinə götürür. *İnvestor* – qiymətli kağızlara sahib olan fiziki və ya hüquqi şəxsdir. Qiymətli kağızlara səhmlər, istiqrazlar, dövlətin xəzinə öhdəlikləri, əmanət sertifikatları, veksellər aiddir.

Bir sıra ölkələrdə borc öhdəliyindən ibarət olan faizli qiymətli kağızlar mövcuddur. Məsələn, ABŞ-da *üç əsas faizli qiymətli kağızlar növünü* buraxan əsas emitent dövlətdir:

- *xəzinədarlıq vekseli* göstərilən müddətdə (alınması məqamından ta 1 ilədək) müəyyən nominal qiymət məbləğinin (bir qayda olaraq, 10 min dollar) ödənilməsinə zəmanət verir;
- *xəzinədarlıq qəbzi* daha uzunmüddətli borclara dəlalət edir (1 ildən 10 ilədək). Bütün sənədlər adlıdır (fərdidir). Ona görə də sahib dəyişərkən yenidən qeydiyyatdan keçirilmə aparılır.

MUHASIBAT.AZ

Sahibə hər yarım ildə faiz ödənilir. ABŞ-da 1983-cü ilə kimi xəzinədarlıq qəbzləri kuponlarla buraxılırdı. Belə ki, kuponu kəsən sahib faiz almaq üçün onu xəzinədarlığa təqdim edir. Hazırda başqa sistemdən istifadə olunur ki, bu da ondan ibarətdir ki, xəzinədarlıq faiz ödəmələrini və nominal qiymətə bərabər olan son məbləği müəyyən olunmuş tarix üçün xəzinədarlığın qəbzinin qeydə alınmış sahibinə göndərir;

- *xəzinədarlıq bonları* uzunmüddətli (10 ildən artıq) əmanətlərə dəlalət edir. Ödəmə və bildirişlər sxemi xəzinədarlıq qəbzindəkilərlə eyniyyət təşkil edir. Yeganə fərq ondan ibarətdir ki, bəzi bonlar son müddətinədək 5-10 il əvvəlcədən geriyə çağırıla və geriyə alına bilər.

Səhm (aksiya) səhmdar cəmiyyətin inkişafı üçün vəsaitin verilməsinə dəlalət edən və onun sahibinə həmin səhmdar cəmiyyətin gəlirlərindən (dividendlərdən) bir hissəsinin alınmasına hüquq verən qiymətli kağızlardan ibarətdir. Səhmlərin buraxılmasından əsas məqsəd həm yeni hüquqi şəxsin yaradılması üçün pul vəsaitlərinin səfərbər olunması, həm də onun nizamnamə fondunun artırılmasından ibarətdir. Səhmlər onları saxlayanların hüquqlarının müəyyənləşdirilməsi üsulu nöqteyi-nəzərindən adlı (fərdi) və ya təqdim edənə olur. Dividendlərin hesablanması qaydası nöqteyi-nəzərindən səhmlər adi (sadə) və imtiyazlı olur.

Adi səhmlər sahibə səhmdar cəmiyyətin idarə olunmasında (bir səhm – səhmdarların yığıncağında məsələlərin həlli zamanı bir səsə bərabərdir) və rezervlərin (ehtiyatların) tamamlanmasından və imtiyazlı səhmlər üzrə dividendlərin ödənilməsindən sonra cəmiyyətin xalis gəlirinin bölüşdürülməsində iştirak etmək hüququ verir.

İmtiyazlı səhmlər idarə olunmada iştirak etməyə hüquq vermir, lakin daimi (təsbit olunmuş) dividend gətirir və gəlirlərin bölüşdürülməsi və cəmiyyətin ləğvi zamanı adi səhmlərə qarşı üstünlüyə

MUHASIBAT.AZ

malikdirlər. İmtiyazlı səhmlər *konvertasiya olunan* səhmlər şəklində buraxıla bilər və onlar sahibinin arzusu ilə adi səhmlərə və ya konversiya imtiyazlarının (şərtlər konvertasiya səhmlərinin buraxılmasına hazırlıq zamanı müəyyənləşdirilir) şərtlərinə uyğun olaraq həmin emitentdən olan istiqrazlara dəyişdirilə bilər. Konversiya qiyməti səhmlərin vaxtından əvvəl konvertasiyasından yayınmaq məqsədilə adətən adi səhmlərin bazar qiymətindən azacıq yüksək müəyyənləşdirilir. Konvertasiya olunan səhmlər xüsusi və borc kapitalı arasında keçid formasıdır.

Səhmdarların səhmlərə dair sərəncam vermək üzrə hüquqlarının miqyasından asılı olaraq sonuncular sərbəst dövr edən və məhdud çərçivə dövranlı olur. Sərbəst dövr edən səhmlər açıq səhmdar cəmiyyətlərinin səhmləridir və onların qiymətli kağızlar bazarında hərəkət mexanizmi qanunun fəaliyyəti ilə tənzimlənilir. Məhdud çərçivə dövranlı səhmlər qapalı səhmdar cəmiyyətləri üçün xarakterikdir, çünki bu səhmlərin qiymətli kağızlar bazarında sərbəst hərəkəti qanunla, eləcə də səhmdar cəmiyyətin nizamnaməsi ilə qadağan edilə və ya məhdudlaşdırıla bilər.

Əmək kollektivinin səhmləri və müəssisə səhmləri də mövcuddur. Əmək kollektivinin səhmləri və müəssisə səhmləri onların sahiblərinə müəssisənin idarə olunmasında iştirak etməyə hüquq vermir, səhmləri buraxan müəssisənin hüquqi ödənişində və mülkiyyət formasında dəyişdirilmir, yalnız əlavə maliyyə resurslarının səfərbərlik vasitəsi hesab olunur.

Səhmlər likvid (satıla bilən), az likvid və qyeri-likvid ola bilər. Səhmlərin likvidlik dərəcəsi kimi *spred* – alqı qiymətindən faizlə satış və alış kotirovkası arasındakı nisbi fərq çıxış edə bilər. Daha az spredli səhmlər daha çox likvidli hesab olunur. Səhmlərin likvidliyinin digər göstəriciləri kimi aşağıdakılar ola bilər:

MUHASIBAT.AZ

- səhmlərə qoyulan valyuta investisiyalarının gəlirliliyi (səhmlərin dollarla kurs qiymətinin müddət ərzində faizlə artımı);
- ikinci bazarda öz səhmlərinin hərəkəti nöqteyi-nəzərindən müəssisənin miqyasını və emitent aktivliyini xarakterizə edən (şirkətin səhmlərinin dollarla kursunun adi səhmlərin ümumi sayına hasili) bazar kapitallaşması səviyyəsi.

İstiqraz, onun sahibi tərəfindən pul vəsaitlərinin ödənilməsini və nəzərdə tutulmuş müddətdə (istiqrazlar müəyyən müddət üçün buraxılır) təsbit olunmuş faizin ödənilməsi ilə həmin qiymətli kağızla onun nominal dəyərinin sahibinə ödənilməsi öhdəliyini təsdiqləyən qiymətli kağızdır. İstiqrazlar eyni nominal dəyərdə seriyalarla buraxılır. İstiqrazları istənilən təşkilati-hüquqi formaların (səhmdar cəmiyyətlər, dövlət və icarə müəssisələri, məhdud məsuliyyətli cəmiyyətlər, özəl müəssisələr və s.) hüquqi şəxsləri buraxa bilər.

İstiqraz səhmdən prinsipial olaraq onunla fərqlənir ki:

- istiqraz borc öhdəliyinə vasitəlik edir, səhm isə – emitentin (səhmdar cəmiyyətin) fəaliyyətində iştiraka münasibətdir;
- səhm vəsaitin müddətsiz qoyuluşudur, istiqraz isə müəyyən müddətə buraxılır və həmin müddət ötdükdən sonra emitent onu geriyə almaqda öhdəlik daşıyır;
- səhm dividendlər (imtiyazlaşdırılmış səhmlərdən başqa) alınmasına zəmanət vermir, istiqraz isə əvvəlcədən müəyyənləşdirilmiş (təsbit olunmuş) gəlirliliklə qiymətli kağızdır;
- istiqrazın sahibi emitentin idarə olunmasında iştirak edə bilməz.

İstiqrazlar adlı (fərdi) və ya təqdim edənə, faizli və ya faizsiz (əmtəə və xidmətlər üçün məqsədli), sərbəst dövriyyə edən və ya məhdudlaşdırılmış çərçivədə dövriyyə edən ola bilər. Daxili dövlət və yerli borc istiqrazları təqdim edənə, təsərrüfat subyektləri istiqrazları – həm adlı, həm də təqdim edənə şəklində buraxılır. Faizli istiqrazlarda

MUHASIBAT.AZ

faizin dərəcəsi və ödənilmə müddəti göstərilir, məqsədli (faizsiz) istiqrazlarda isə təyinatı ilə buraxıldığı əmtəə və xidmətlər göstərilir.

Faizli istiqrazlar üzrə gəlirlər istiqrazların kuponlarının ödənilməsi yolu ilə həyata keçirilir. Kupon istiqraz sertifikatının bir hissəsidir və o sertifikatdan qoparılan (ayrılan) zaman onun sahibinə faiz (gəlir) almağa hüquq verir. Ödəniş hər il və ya istiqrazın ödənilməsi zamanı nominal dəyərə faizlərin hesablanması təriqilə birdəfəlik ödəmə yolu ilə həyata keçirilir. Faizin həcmi və onun ödənilmə tarixi kuponda göstərilir.

Məqsədli borc istiqrazları üzrə gəlir ödənilmir. Belə istiqrazın sahibi istiqrazın buraxıldığı təyinat üzrə müvafiq əmtəə və xidmətləri əldə etmək hüququ qazanır.

Təsərrüfat subyektlərinin istiqrazları əlavə maliyyə resurslarının cəlb olunması üçün buraxılır. Bu istiqrazlar təsərrüfat subyektinin nəzərdə tutulmuş müddətdə onların nominal dəyərinin hər il təsbit olunmuş faizin ödənişi ilə verilməsi öhdəliyini təsdiq edir. Təsərrüfat subyektinin istiqrazları onların sahiblərinə həmin subyektin idarə olunmasında iştirak etməyə hüquq vermir.

İstiqraz emitentin möhkəm borc öhdəliydir və bu səbəbdən də o səhmdən daha etibarlıdır, amma bununla belə, istiqrazın qiyməti faiz stavkalarının dəyişilə bilməsi riskinə məruzdur. Ona görə də inflyasiya səviyyəsinin istiqrazın qiymətinə təsirini azaltmaq məqsədilə *konvertasiya olunan* adlandırılan istiqrazlardan istifadə olunur, belə ki, onlar sahiblərinə həmin istiqrazları konversiya imtiyazı şərtlərinə uyğun olaraq eyni emitentdən olan adi səhmlərə dəyişdirmək hüququ verir. Konvertasiya olunan istiqrazlar üçün əsas xarakteristika kimi, mütləq istiqrazın səhmə çevrilməsi imkanını açan ilk tarixi və çevirmə mükafatını göstərirlər. Mükafat deyildikdə, istiqrazı adi səhmə çevirməkdən ötrü hüquq verən səhmin cari qiymətindən artıq məbləğin

MUHASIBAT.AZ

ödənilməsilə ifadə olunan faiz başa düşülür. Mükafatın həcmi səhmin gəlirliliyi ilə sıx bağlıdır.

Konvertasiya olunan səhmlər və istiqrazlar həm investor üçün, həm də emitent üçün dəyərə malikdir. İnvestor üçün konvertasiya olunan səhmin və istiqrazın üstünlüyü qarantiyalı faizli (kuponlu) gəlirdən və əsas məbləğin adi səhmin dəyər kursunun artmasından əldə olunan gəlirindən uduş imkanı ilə ödəməkdən ibarətdir. Emitent üçün konvertasiya olunan səhmin və istiqrazın buraxılması əlavə miqdarda adi səhmlərin, onların cari bazar dəyərindən bir neçə dəfə yüksək qiymətlə yerləşdirilməsi üçün vasitə rolunu oynayır.

Xarici dövlətlərdə istiqrazlar geniş yayılmışdır. Məsələn, müəssisələr varrantla (orderlə) istiqraz buraxa bilər. *Varrant* şirkətin müəyyən olunmuş müddət ərzində şərtləşdirilmiş qiymətlə müəyyən miqdarda səhmini almaq hüququnun verilməsindən ibarətdir. Konvertasiya olunan istiqrazdan fərqli olaraq varrant istiqrazın sahibi orderin realizasiyası zamanı istiqrazın sahibi kimi qalır, amma eyni zamanda həmin müəssisənin səhmlərini əldə edir. Varrantın, onu əvvəlcədən müəyyən olunmuş qiymətə səhmlərə dəyişməyə imkan verdiyindən, investor mümkün mübadilə haqqında qərar qəbul edərkən, konvertasiya olunan istiqrazlarla rəftar etdiyi kimi, eyni orientirləri əldə dəstəvüz edəcəkdir. Əgər səhmlərin bazar qiyməti varrantla olan bu kağızların alınma qiymətindən yüksək olarsa, əmanətçi öz hüququndan istifadə edir. Bəzən varrant istiqrazdan təcrid olunur və müstəqil kağız kimi təkrar (törəmə) bazarda dövriyyə edir.

İstiqraz konkret kağız formasında (qiymətli kağızın müdafiə olunan blankı şəklində) və hesaba yazı şəklində (balans kağızı kimi) buraxıla bilər. Emissiyanın sonuncu forması həm emitentə, həm də istiqrazçıya müəyyən üstünlüklər verir, çünki bu zaman istiqrazların çapı və saxlanılmasına çəkilən xərclər azalır, kağızların saxtalaşdırılması və oğurlanılması imkanları istisna edilir. Göstərilən

MUHASIBAT.AZ

formanın bir sıra nöqsanları sahibin girov hüququnu realizasiya etməsi ilə bağlı meydana çıxa bilər.

Dövlət sərhədlərinə malik olmayan qiymətli kağızlar nəzəriyyəsi də dövlətin xəzinə öhdəliklərini, əmanət sertifikatlarını və vekselləri xarakterizə edir.

Dövlətin xəzinədarlıq öhdəlikləri – təsərrüfat subyektləri və ya əhali arasında könüllü şəkildə yerləşdirilmiş, sahiblərinin büdcəyə pul vəsaitləri qoymalarını təsdiqləyən və bu qiymətli kağızlara sahib olduqları bütün müddət ərzində onlara təsbit olunmuş gəlir almaq hüququ verən dövlət qiymətli kağızlarıdır. Ona görə də istiqraz (dövlətin xəzinədarlıq öhdəliyi) dövlətin borc öhdəliyini simvolizə edən və sahibinə müəyyən müddət ərzində borc məbləğini və faizləri geriyə almaq hüququ verən qiymətli kağızdır. Dövlət istiqrazı, məsələn, dövlət borcunu satmaqla borcun məbləğini müəyyən müddətdə faizlə birlikdə qaytarmağı və ya borc vəsaitlərindən bütün istifadə olunma müddəti ərzində kreditorlara gəlir ödəməyi – borcun məbləğini qaytarmağı öhdəsinə götürür.

Dövlət istiqrazların nominal dəyərlərini müəyyənləşdirir. Dəyər istiqrazın üzərində göstərilir və istiqraz sahibinə dövlət üçün müvəqqəti verdiyi pul məbləğini ifadə edir. Məhz bu məbləğ istiqraz sahibinə onun ödənilmə məqamında verilir və onun üzərinə faiz hesablanılır. Lakin istiqrazın sahibi üçün onun real gəliri müəyyənləşdirilmiş nominal dəyərdən çox və ya az ola bilər. Bunu şərtləndirən odur ki, istiqraz nominal dəyərdən yayınan (kənara çıxan, fərqlənən) kurs qiyməti ilə satılır. Belə yayınma (kənara çıxma) kurs fərqi adlanır və, istiqraz üzrə ödənilən gəlirin həcmi, ssuda fizinin dərəcəsi, istiqrazın alınma müddəti, fond bazarında dövlət qiymətli kağızlarının çoxluğu səviyyəsi, özəl qiymətli kağızların buraxılması şərtlərinin cəlbediciliyi, təsərrüfat konyunkturasının durumu, əhalinin hökumətə etimadı səviyyəsi kimi bir sıra amillərdən asılı olur.

MUHASIBAT.AZ

İqtisadiyyatın inzibati-amirlik üsulları ilə idarə olunması və fond bazarının qeyri-mövcudluğu zamanı dövlət istiqrazları rəsmi kurs qiyməti ilə satırdı ki, bunun da həcmində yuxarıda sadalanan amillərdən yalnız bir qismi əks olunurdu, özü də onun ancaq artması şəklində. Hərçənd kurs qiymətini dövlət sərbəst təyin edə bilər, bununla belə, istiqrazın uğuru təkcə hökumətin iradəsi ilə qarantiya olunmur. Borc istiqrazlarının real kurs qiyməti və borc verənlər üçün onun cəlbediciliyi dövlət qiymətli kağızlarının yalnız fond bazarında sərbəst dövriyyəsi zamanı aydınlaşa bilər. Bu halda borc istiqrazlarının öz nominal dəyəri qiymətindən kənara çıxması dövlətin kredit siyasətində ciddi çatışmazlıqların olmasından və onun təcili korrektə olunması zərurətindən xəbər verir. Ona görə də, məsələn, dövlət borc istqrazlarının fond bazarında sərbəst kotirovkası faiz kağızlarının kurs qiymətində əks olunan bütün amillərin uçotu mexanizmidir.

Borc verənlərin dövlətin kredit əməliyyatlarına etimadsızlığının aradan qaldırılmasına istiqrazların müddət üzrə fərqli buraxılış şərtləri yardım edə bilər. Əgər dövlət yalnız uzunmüddətli kredit əməliyyatlarına orientasiya edirsə, onda bu qısamüddətli və uzunmüddətli xarakterli sərbəst pul vəsaitlərinin istiqrazların alınmasına cəlb olunmasını çətinləşdirir, potensial kreditoru uzunmüddətli əməliyyatlara yatırımlarını qoymağın məqsədəuyğunluğu haqqında fikirləşməyə məcbur edir.

Məsələn, dövlət qiymətli kağızlarının kreditorlar üçün gəlirliliyi inflyasiyanın faktiki səviyyəsindən aşağı ola bilməz. Əmtəə qıtlığı zamanı bu şərt istiqraza münasibətdə kifayət qədər marağı qarantiya edə bilər, çünki pulun dəyərdən düşdüyü zaman borc verən itkilərdən sığorta olunacaq. Əgər inflyasiya itkisinin əvəzinin ödənilməsindən əlavə kreditora həm də müəyyən faizin verilməsi qarantiya olunarsa, onda qiymətli kağızlara fəal tələbin meydana çıxmasını gözləmək olar. Qiymətli kağızlar arasında məhz dövlət xəzinə öhdəliklərinin xüsusilə

MUHASIBAT.AZ

dəyərləndirilməsi xarakterikdir. Bu, onunla əlaqədardır ki, o qiymətli kağızların tarixən ən qədim növüdür, dövlət isə həmişə iri, həm də daha etibarlı borclu hesab olunur.

Dövlət xəzinə öhdəliklərinin buraxılışı şərtləri nəzərdə tutur ki, onların sahibləri həmin öhdəlikləri ödəniş müddətinin başlanmasınadək bank müəssisələrinə təhvil vermək hüququna malikdirlər. Bu zaman xəzinə öhdəliklərinin nominal dəyəri, əvvəllər kuponlarla alınmış gəlirin tutulması və dövlət tərəfindən vəsaitin istifadə olunmasına görə onun sahibinə xəzinə öhdəliklərinin nominal dəyərinin müəyyən faizi qədər əlavə faizlər hesablanılması ilə sahibinə qaytarılır.

Depozit sertifikatı və ya *əmanət sertifikatı* – bu, emitent bankın pul vəsaitlərinin yatırılması haqqında və əmanətçiyə (benefisiara), yaxud da onun varisinə müəyyən olunmuş müddət ərzində depozitin (əmanətin) məbləğini və onun faizlərini almağa hüquq verən yazılı şəhadətnamədir. Sertifikatlar birdəfəlik, seriyalarla, adlı və təqdim edənə, habelə müddətli və tələb olunanadək qaydada buraxıla bilər. Sertifikat satılmış mallar və göstərilmiş xidmətlər üçün hesablaşma və ya ödəniş vasitəsi rolunu oynaya bilməz.

Müasir iqtisadiyyatda depozit sertifikatları ikili rol oynayır:

- investisiya qiymətli kağızı, bir qayda olaraq, qısa müddətə faizlə qoyulmasına və vaxtından əvvəl realizasiyasının mümkünlüyünə imkan verən sərbəst pul vəsaitləri kimi çıxış edir;
- dövriyyə vəsaiti kimi çıxış edir (böyük nominal zamanı – «topdan pul» kimi).

Eyni zamanda bəzi mütəxəssislər hesab edirlər ki, depozit sertifikatları (DS) müddətli bank əmanətlərinin növlərindəndir. Müştəriyə adi əmanət hesablarından fərqli olaraq kitabça deyil, bankın borc qəbzi rolunu oynayan sertifikat (vəsiqə) verilir. Belə əmanətlərdəki vəsaitləri razılaşdırılmış müddətin tamamlanmasınadək və faizlərin

MUHASIBAT.AZ

müəyyən hissəsinin tutulması formasında cərimə verməklə götürmək mümkündür.

Depozit sertifikatları, bir qayda olaraq, ödənilmə müddəti 30 gündən altı ayadək və ya daha çox müddətə, amma dəyişən faiz stavkası ilə təqdim edənə formasında buraxılır. ABŞ-da sertifikatın nominalı 100 min dollar, amma əksər hallarda 1 mln. dolar və ya onun dəfələrlə artımı həcmində ola bilər. İnvestor ödəniş müddəti başa çatanadək depozit sertifikatını kifayət qədər tez və maliyyə şirkətinə, banka, yaxud da emitentin özünə az məsrəflə başqasına sata bilər.

Bank tərəfindən depozit sertifikatlarının satışı zamanı nominaldan yüksək faizlərin hesablanılması əvəzinə çox hallarda güzəştlə satışdan (diskontdan) istifadə olunur. Məsələn, 6 ay müddətinə 10% güzəştlə 100000 dollar məbləğində DS buraxılması onu bildirir ki, sertifikatın emission qiyməti

$$100\,000 - 6/12 \cdot (0{,}1 \cdot 100\,000) = 95\,000 \text{ dollar olur.}$$

Başqa sözlə, alıcıya ildə

$$(100\,000 - 95\,000)/95\,000 \cdot 12/6 \cdot 100\% = 10{,}6\%$$

bərabər olan gəlir norması təklif edilir.

Banklar xəzinədarlıq vekselləri, qısamüddətli banklararası kreditlərə və ya birinci dərəcəli borc alanların ssudaları üzrə, stavkalara bağlı daha uzunmüddətli sürüşkən faiz stavkalı DS buraxırlar. Belə ki, 5 il müddətinə 0,5%-lizinq əməliyyatı stavkadan artıq bəndlə 3 aylıq xəzinədarlıq vekselləri üzrə buraxılmış depozit sertifikatlarına görə faizlərin ödənilməsinə hər üç aydan bir düzəliş edilir. Əgər baza stavkası hesablaşma tarixinə görə 10-dan 11%-ə artırsa, onda DS üzrə faizlərin ödənilməsi 10,5-dən 11,5%-dək artır.

MUHASIBAT.AZ

Sənayecə inkişaf etmiş ölkələrdə pul vəsaitlərinin cəlb edilməsi üçün daha çox hallarda depozit sertifikatlarının və istiqrazların buraxılmasından istifadə edirlər. Bu, iri qərb şirkətlərinin fəaliyyətinin xeyli özünəməxsusluğu ilə bağlıdır. Məsələn, səhmlərin buraxılmasına onlar tərəfindən çox hallarda kifayət qədər aşağı dividend səviyyəsinin mövcud olduğu zaman pul vəsaitlərinin səfərbər edilməsinin çox baha üsulu kimi baxılır. Məsələ burasındadır ki, yeni səhmlərin həddən ziyadə buraxılması əvvəlki buraxılışlardan olan qiymətli kağızların kursunun dinamikasını pisləşdirə bilər. Bundan əlavə, sadə səhmlərin əlavə emissiyası korporasiyanın nəzarət paketinin itirilməsi təhlükəsi ilə üzləşə bilər.

Veksel – müddətin başa çatması ilə müəyyən pul məbləğinin veksel sahibinə ödənilməsi üzrə veksel verənin qeyd-şərtsiz pul öhdəliyini təsdiqləyən qiymətli kağızdır. Başqa sözlə, veksel – qanunla nəzərdə tutulmuş formada tərtib olunmuş və müddətin başa çatması ilə sahibinə öhdəliyi verən və ya akseptə edən şəxsdən onun üzərində göstərilmiş pul məbləğini qeyd-şərtsiz tələb etmək hüququ verən yazılı borc öhdəliyidir.

Vekselin böyük tarixi vardır. Belə ki, Rusiyada ticarətin və sənayenin inkişafı və çiçəklənməsinin tarixi təcrübəsi veksel dövriyyəsinin böyük əhəmiyyəti olduğunu sübut edir. 1862-ci il 3 dekabr tarixli qanunla dini rütbəli şəxslərdən başqa hamıya icazə verilirdi ki, həm sadə, həm də köçürmə vekseli öhdəliyini götürə bilsin. İnqilabdan əvvəlki Rusiyada veksel dövriyyəsinin geniş yayılması ticarətin və sənayenin sürətlə inkişafına səbəb oldu. Sovet hakimiyyəti illərində daxili hesablaşmalarda veksel rədd edilsə də, xarici ticarət əməliyyatlarında geniş istifadə olunurdu. XX yüzilliyin 80-ci illərinin sonlarında kommersiya krediti ideyasına qayıtmağa başladılar və 01.01.1991-ci ildə bütün dövlət müəssisələrinə kommersiya krediti və vekseldən istifadə etmək ixtiyarı verildi. Hazırda həm hüquqi, həm də

MUHASIBAT.AZ

fiziki şəxslər üçün veksel üzrə heç bir hüquqi maneə yoxdur. Bununla belə, hesablaşma kredit münasibətləri banklar vasitəsilə və bilavasitə sövdələr üzrə kontragentlər arasında təşkil oluna bilər.

Hesablaşma kredit münasibətləri bilavasitə sövdələr üzrə kontragentlər arasında təşkil edildikdə, vekseldən istifadə oluna bilər. Bu kredit münasibətinin əsas xüsusiyyəti onun dövranlılığıdır. Məsələn, ötürmə yazısı (indossament) vasitəsilə veksel nəqd pul funksiyasını yerinə yetirərək, məhdudlaşmayan sayda adamlar arasında dövr edə bilər.

Belə öhdəlik xüsusi veksel kağızında tərtib olunur və sahibi onu müqaviləyə görə məhsulun və ya xidmətin ödənilməsi üçün alır. Alınmış veksel onun sahibi tərəfindən öz göndərişçiləri və kreditorları ilə indossament deyilənlə və ya vekselin arxasında ötürmə yazısı yolu ilə hesablaşmaq üçün istifadə oluna bilər. Bu yazı onu bildirir ki, veksel üzrə ödənişi tələb etmək hüququ yeni adama keçir. Bu sayq əməliyyat qyeri-məhdud sayda həyata keçirilə bilər. Veksel üzrə ödəniş müddəti başlananda, onu verən şəxs vekseli verdiyi adam qarşısında deyil, ödəniş məqamında vekselin əlində olduğu şəxs qarşısında cavab verəcək.

Veksel – təkcə hesablaşma forması deyil, həm də kommersiya krediti formasıdır. Belə ki, veksellə məhsul və ya xidmətə görə hesablaşan sahibkar vekselin verildiyi müddət ərzində bankdakı hesablaşma hesabında olan pullarını sərf etmir. Faktiki olaraq, bu onu bildirir ki, sövdə üzrə kontragent ona vekseldə göstərilən məbləğdə və müddət ərzində kommersiya krediti verir.

Bir sıra hallarda veksellərdən təsərrüfat dövranında istifadə olunması bilavasitə bank vasitəsilə hesablaşma ilə müqayisədə daha məqsədəuyğundur. Məsələn, bir-birinin ödəməqabilliyindən yaxşı xəbərdar olan birgə çalışan müəssisələr bank xidmətlərinə müraciət etmədən öz aralarında hesablaşmalar apara və bir-birinin kommersiya

MUHASIBAT.AZ

kreditləşdirilməsini həyata keçirə bilərlər. Bu, onunla nəticələnir ki, hesablaşmalar və dövriyyə vəsaitlərinin dövranlılığı sürətlənir, bank kreditinə tələbat azalır, ondan istifadə üçün faiz stavkaları azalır və nəticədə pul emissiyası ixtisar olunur.

Veksel dövriyyəsinin təsərrüfat praktikasına tətbiq edilməsilə banklar əhəmiyyətlərini itirmirlər, çünki veksel yalnız hesablaşmanın sürətlənməsinə yardım edir, amma borclu vekseli özünün bankdakı hesablaşma hesabından ödəyir. Banklar da veksellərlə bir sıra əməliyyatlar aparırlar ki, onlardan da ən mühümü uçotlarının aparılmasıdır. Veksellərin uçotu müddətinədək alınmış veksel üzrə veksel verənin pula tələbatının yaranması zamanı qısamüddətli kreditin xüsusi formasıdır. Ayrı-ayrı hallarda banklar daha etibarlı müştərilərə verilmiş veksellər üzrə zəmanət verə bilərlər. Amma iki şərt var ki, onlar olmadan veksellərdən geniş istifadə olunması problem yaradır:

- vekselin nə olduğunu, onun necə doldurulduğunu, onunla hansı əməliyyatların aparılmasının mümkün olduğunu, ödənişin yerinə yetirilmədiyi zaman veksel üzrə məbləğin necə tutulmasını hər bir sahibkarın bilməsi labüddür;
- veksel münasibətlərini, arbitraj və məhkəmə orqanları tərəfindən veksel üzrə tutulma prosedurunun sürətləndirilməsini tənzimləyən qanunlar yaxşı işlənilib hazırlanılmalıdır.

Adi və köçürmə (çevirmə) vekseli göstərilir. *Adi veksel* borc verən tərəfindən verilir və kreditora (veksel sahibinə) ödəniş öhdəliyinə malik olur. *Köçürmə vekseli* (*tratta*) kreditor (*trassant*) tərəfindən verilir və qeyd olunan məbləğin üçüncü şəxsə (*remitentə*) və ya təqdim edənə verilməsi haqqında borcluya (*trassata*) əmrdən ibarət olur. Köçürmə vekseli onun trassat (borclu) tərəfindən akseptə (ödənişə razılıqdan) olunmasından sonra qeyd-şərtsiz borc qəbzinə çevrilir. Öhdəliyin qeyd-şərtsizliyi onu bildirir ki, düzgün tərtib olunmuş veksel üzrə ödənişdən

imtina edilməsi borclunun əmlakının məcburi qaydada tutulması üçün müraciət etməyə əsas verir.

Ticarət əməliyyatlarının kreditləşdirilməsi üçün istifadə olunan kommersiya vekselləri də mövcuddur. Amma veksel nəqdsiz hesablaşmalar üçün əsas ödəniş vasitəsi ola bilməz və olmamalıdır. Dünya praktikası göstərir ki, yardımçı rol oynamaq da onun üçün tamamilə kifayətdir. Ona görə də müəssisənin təxirə salınmadan pulla hesablaşa bildiyi yerdə, onun üçün yaxşısı budur ki, bank sistemi vasitəsi ilə hesablaşsın. Əgər onun hesabda pulu yoxdursa və tezliklə belə pullar köçürüləcəksə, onda veksel verməsi daha yaxşı olar.

Bu halda vekseldən istifadə olunması hesablaşmanın etibarlılığını artırır. Bu halda bank-inkassator alıcıya əmtəə sərəncamçı sənədləri yalnız o halda verir ki, o köçürmə (adiləşdirmə) veksellərini kontraktda göstərilən məbləğdə akseptə etmiş olsun. Əgər söhbət təqdim edilənədək veksellərdən gedirsə, bank sənədlərə qarşı təxirəsalınmaz ödənişi tələb edəcək. Əgər ödənişə möhlət verilməsi tələb olunursa, akseptə olunmuş trattlar satıcıya qaytarılır. Bundan sonra trattı kreditin müddəti başa çatanadək saxlaya, sonra isə ödənişə verə və ya təxirəsalınmadan pul almağa üstünlük verərsə, trattı müəyyən güzəştlə (uçotla) banka sataraq vekselə görə girov götürə və ya onu təkrar bazarda sata bilər.

Tanınmış iri bankların aval (zaminlik) və ya aksept formasında qarantiyası ilə təchiz olunmuş veksellər üçün daha likvidli, tutumlu bazar mövcuddur. Aval vekselin arxasında və ya əlavə vərəqdə yazılı şəkildə tərtib olunur, qarantın imzası ilə təsdiqlənir.

Bank aksepti banka təqdim olunmuş vekseldən ibarətdir və onun üzərində bankın səlahiyyətli əməkdaşının imzası ilə təsdiqlənən «akseptləşdirilib» ştampı vurulur və qısaca olaraq vekselin mənşəyi göstərilir. Belə instrument adətən alıcıya mal müşayiət edən sənədlərin və ya anbar qəbzinin girov qoyulması ilə verilir. Alıcı da öz növbəsində onu mal göndərişçisinə verir. Məhdud müddətli (adətən 180 günədək)

MUHASIBAT.AZ

və bankın nüfuzu ilə təsdiqlənmiş etimadlılıq avallaşdırılmış trattları və bank akseptlərini yüksək keyfiyyətli aktivlərə çevirir ki, bu da onların gəlirliyində özünü əks etdirir. Bu gəlirlilik xəzinədarlıq veksellərinə nisbətən bazar qiyməti artıq, kommersiya kağızları (özəl maliyyə vekselləri) üzrə stavkalara nisbətən xeyli aşağıdır.

Konversiya əvəzinə sahibi nəqd olan vekseli indossament vasitəsilə öz öhdəlikləri üzrə hesablaşmalarda istifadə edə bilər. Veksel dövriyyəsi mütəşəkkil ticarət birliyində – mal brokerləri və dilerlərinin birlikləri çərçivəsində xüsusilə səmərəlidir. Belə birlik tərəfindən qəbul olunmuş veksellər onun iştirakçıları arasında sərbəst dövran edir və qarşılıqlı tələblərin zaçotu yolu ilə ödənilir.

Xəzinə vekselləri – dövlətin 3, 6 və 12 aylıq müddətdə ödənilməsi nəzərdə tutulan qısamüddətli öhdəliyidir. Yeni buraxılışlar səlahiyyətli banklar tərəfindən həyata keçirilən müntəzəm hərraclar prosesində yerləşdirilir. Start qiyməti kimi nominalın 100%-i qəbul edilir. Rəqabətli satış prosesində bütün buraxılış satılıb başa çatanadək sifarişlər nisbətən ən az diskontla ardıcıl olaraq təmin edilir.

Əslində investorların əksəriyyəti aktiv fəaliyyət göstərən təkrar bazarda xəzinə vekselləri alır. Nəticədə praktiki olaraq 100 faizli etimadlılıq və buraxılışın çox böyük həcmi nəticəsində xəzinə vekselləri üzrə gəlirlilik pul bazarında orientir rolunu oynayır. Digər qısamüddətli və təkrar başlanılan öhdəliklər üzrə stavkalar onlarla əlaqələndirilir (bağlanılır). Yüksək inflyasiyalı ölkələrdə xəzinə vekselləri üzrə gəlirlilik tez-tez möhlətli göndəriş və ya ödənişlə bağlı ticarət kontraktları üzrə qiymətlərin müəyyənləşdirilməsi zamanı istifadə olunur.

Maliyyə vekselləri xəzinə veksellərindən fərqli olaraq tutumlu təkrar bazara malik deyil. Lakin emitent şirkət və ya kağızı satmış vasitəçi adətən ödəniş müddətinin başlanmasınadək onu investordan almağa hazır olurlar. ABŞ-da kommersiya kağızları adlandırılan belə qısamüddətli öhdəliklərin buraxılmasını yalnız geniş tanınmış iri

MUHASIBAT.AZ

korporasiyalar və maliyyə qrupları özlərinə rəva görə bilərlər. Kommersiya kağızlarının xüsusi təminatı olmur. Onların etibarlılığının rəhni emitentin ümumi kredit reytinqidir. Belə veksellərin müddətliliyi bir neçə həftədən 270 günədək olur. İri korporasiyalar qısamüddətli kapitalların səfərbər olunmasının bu sayaq instrumentlərindən çox fəal istifadə edirlər, çünki onlar həmin müddətli bank ssudalarından 1,5-2 faizli bənd ucuz olur.

Veksellərin meydana çıxması xüsusi kontorların yaradılmasını tələb edir ki, həmin veksellərin uçotunu aparsın, lazım gəldikdə borcun alınmasının tələb olunmasına, borc alanın maliyyə durumunun dəyərləndirilməsinə kömək etsin. Bu vəzifəni razılaşdırılmış metodika ilə işləyən uçot-veksel kontorları həll edə bilərlər. Bunun üçün, əvvəla, həmin kontorlarda veksellərin dövranını reqlamentasiya edən qanunvericiliyin xüsusiyyətlərini yaxşı bilən, borclularla iş təcrübəsinə malik olan mütəxəssislər işləməlidirlər, ikincisi, borcların qaytarılması üçün təkmilləşdirilmiş metodika olmalıdır. Bunun üçün ilk mərhələdə uçot-veksel kontorları borclunun müvafiq veksellərlə öz borclarını təsdiq etməsinə çalışır və nail olurlar. Veksel ödəniş olmadıqda, notariusa təqdim olunur. O isə ödənişi yerinə yetirməyənə açıq protest verir, kreditorun hüquqlarını rəsmi olaraq təsdiqləyir və borcun qaytarılmasının sürətləndirilməsini tələb edir.

Eyni zamanda vekselin əhəmiyyəti az olmayan aşağıdakı üstünlükləri vardır:

- veksel diskontla satılır, bu isə o deməkdir ki, ödəniş zamanı onun sahibinə gəlir gətirməsini nəzərdə tutur;
- veksel, maliyyə bazarında kurslardakı fərq oyunundan gəlir götürmək məqsədilə peşəkarlıqla əməliyyatlar aparan maliyyə institutları tərəfindən istifadə oluna bilər. «Üç valyutada kross sövdəsi» adlandırılan əməliyyat zamanı iki sabit və bir qeyri-sabit valyuta ilə əməliyyatlar aparmaqla sabit gəlir götürmək,

MUHASIBAT.AZ

yaxud da bir sabit və iki qeyri-sabit valyuta ilə oyun zamanı daha çox gəlir əldə etmək imkanı verən risk əməliyyatları nəzərdə tutulur.

Amma MDB ölkələrində veksel dövranı hələ təşəkkül mərhələsindədir, çünki SSRİ MİK və XKS-nin 1930-cu il 30 yanvar tarixli «Kredit islahatları haqqında» qərarına əsasən SSRİ-də veksellər və veksel dövranı ləğv edilmişdir. 1937-ci il avqustun 7-də SSRİ MİK və XKS-nin köçürmə və adi veksel haqqında təsdiq olunmuş qərarı yalnız xarici ticarətdə hesablaşmalar üçün nəzərdə tutulmuşdur.

Qiymətli kağızların bir qədər ayrı, hərçənd o qədər də fərqlənməyən şərhinin (traktovkasının):

- sahibinin həmin səhmdar cəmiyyətin öz vəsaitlərində payının olması, onun fəaliyyət göstərməsindən gəlir götürmək, bir qayda olaraq, bu cəmiyyətin idarə olunmasında iştirak etmək hüququnu təsdiqləyən səhmdar cəmiyyətin səhmlərinin – istənilən qiymətli kağızların;
- sahibi (kreditorla) iləsənədi buraxan şəxsin (borclunun) borc münasibətlərini təsdiqləyən istiqrazların – istənilən qiymətli kağızların;
- dövlətin, dövlət hakimiyyəti orqanlarının və ya idarələrinin borclara olan münasibətlərini təsdiqləyən dövlət borc öhdəliklərinin – istənilən qiymətli kağızların;
- istənilən qiymətli kağızların alınıb-satılmasına sahibinin hüququnu təsdiqləyən törəmə qiymətli kağızların – istənilən qiymətli kağızların mövcud olması da xarakterikdir.

MUHASIBAT.AZ

10.3. TÖRƏMƏ QİYMƏTLİ KAĞIZLAR VƏ ONLARIN XÜSUSİYYƏTLƏRİ

Törəmə qiymətli kağızlar dedikdə elə qiymətli kağızlar başa düşülür ki, onların dəyəri zəmin olan maliyyə aktivlərinin və ya digər, daha sadə maliyyə instrumentlərinin əsasındakı kursun dinamikasından törəyir. Törəmə qiymətli kağızların əsasında duran instrument rolunda, bir qayda olaraq, nəqd bazarda dövriyyə edən maliyyə instrumenti, məsələn, səhmlər və istiqrazlar çıxış edir. Dünya təcrübəsində törəmə qiymətli kağızlarına (maliyyə derivatlarına) forvard və fyüçers kontraktları, opsionları və svopları aid edirlər. Varrant və «hüquqlar» kimi derivativlər xarici ədəbiyyatda opsionların növlərindən birinə aid edirlər, hərçənd onu opsionların bir çox digər növlərindən fərqləndirirlər.

Törəmə qiymətli kağızlarla sövdələrin bağlanması iqtisadi münasibətlərin iştirakçılarına qiymətlər haqqında daha dəqiq informasiya almağa kömək edir. Əgər tərəflər dəqiq qiymətlərə əsaslanaraq sövdə bağlayırlarsa, onda resurslar daha səmərəli paylaşdırıla bilər. Ona görə də kimsə bazarın durumunu yalnız müşahidə edirsə, öz sövdələrinin bağlanılması üçün faydalı informasiya əldə edir. Firmalar və ayrı-ayrı şəxslər, hətta onların özləri törəmə qiymətli kağızlarla sövdələrin bağlanılması ilə məşğul olmadıqları halda belə, maliyyə derivativləri haqqında informasiyanı öz iqtisadi qərarlarının keyfiyyətini daha da yaxşılaşdırmaq üçün istifadə edə bilərlər. Bu halda törəmə maliyyə instrumentlərinin əsas təzahür şərtləri qiymətli kağızlar bazarının aktivləşdirilməsi, riskin xecirlənməsi və ya sığortalanması, böyük mənfəətlərin tez götürülə bilinməsi qabiliyyətidir.

Forvard kontrakt tərəflər arasında gələcək kontrakt cisminin göndərişləri haqqında birjadan kənarda bağlanan sazişdən ibarətdir. Sövdənin bütün şərtləri müqavilənin imzalanması məqamında

MUHASIBAT.AZ

kontragentlər tərəfindən şərtləşdirilir, kontraktın icrası isə müəyyən olunmuş müddətdə həmin şərtlərə uyğun olaraq baş verir. Forvard kontrakt möhkəm sövdədir, yəni icra üçün mütləq sövdədir. Müxtəlif aktivlər, məsələn, mallar, səhmlər, istiqrazlar, valyuta və s. razılaşma cismi ola bilər. Müvafiq aktivi kontrakt üzrə göndərməyi öhdəsinə götürən kontragent *qısa mövqe* açır, yəni forvard kontrakt satılır. Kontrakt üzrə aktivləri alan kontragent uzun mövqe açır, yəni kontraktı alır. Kontraktın bağlanması kontragentlərdən mümkün əlavə xərclərdən savayı digər xərclərin çəkilməsini tələb etmir.

Forvard kontraktı aktivlərin kurs dəyəri fərqində oyun məqsədi ilə bağlanıla bilər. Bu halda uzun mövqe açan kontragent kontraktın əsasında duran aktivlərin qiymətinin daha da artmasına ümid bəsləyir. Qısa mövqe tutan kontragent həmin i nstrumentin qiymətinin azalmasına ümid edir. Forvard kontraktı üçün təkrar bazar çox məhduddur və ya ümumiyyətlə heç yoxdur, çünki bəri başdan iki kontragentin tələbatından çıxış edilərək bağlanılmış müqavilə şərtlərinin dəqiqliklə maraqlarına uyğun gələn hər hansı üçüncü şəxsi tapmaq çətindir. Ona görə də tərəflərdən biri kontrakt üzrə öz mövqeyini, bir qayda olaraq, öz kontragentinin razılığı ilə ləğv edə bilər.

Forvard kontraktı üçün göndəriş qiymətinin, forvard qiymətinin və forvard kontraktı qiymətinin mövcudluğu xarakterikdir. Forvard kontraktının bağlanması məqamında tərəflər sövdənin həyata keçiriləcəyi qiymətləri razılaşdırırlar. Həmin qiymət *göndəriş qiyməti* adlanır. Forvard kontraktının fəaliyyətdə olduğu bütün dövr ərzində dəyişilməz qalır. Əgər müəyyən müddətdən sonra yeni forvard kontraktı bağlanılırsa, onda həmin kontraktda göndərişin yeni qiyməti təsbit edilir və o birinci kontraktdakı qiymətdən fərqlənə bilər, belə ki, investorların kontraktın təməl daşı olan aktiv üçün gələcək bazar konyunkturasına dair ümidləri dəyişmişdir. Ona görə də *forvard qiyməti*

MUHASIBAT.AZ

forvard kontraktında təsbit olunan və həmin məqamda bağlanılmış göndəriş qiymətidir. Eyni zamanda *forvard kontraktının qiyməti* cari forvard qiyməti ilə göndəriş qiyməti arasındakı fərqə bərabərdir.

Fyüçers kontraktı – bu, iki tərəf arasında gələcək göndəriş cismi haqqında əldə olunan sazişdir və o birjada bağlanılır. Fyüçers kontraktları kənd təsərrüfatı malları, təbii resurslar, xarici valyuta, təsbit olunmuş gəlirli qiymətli kağızlar və bazar indeksləri kimi aktivlərə də bağlanılır. Fyüçers sövdələrinin bağlanılması, bir qayda olaraq, aktivin real göndərişini (qəbuletməni) deyil, kontragentlərin mövqelərinin xecirləşməsini və ya qiymət fərqindəki oyun məqsədini güdür. Ona görə də fyüçers kontraktları üzrə investorların mövqelərinin mütləq əksəriyyəti onlar tərəfindən kontraktın fəaliyyəti prosesində ofset sövdələrin köməkliyi ilə ləğv edilir və dünya praktikasından kontraktların yalnız 2-5%-i müvafiq aktivlərin real göndərişi ilə başa çatır.

Birjada fyüçers kontraktları bağlandıqdan sonra o qeydiyyatdan keçirilir və həmin məqamdan satıcı və alıcı faktiki olaraq bir-birləri üçün mövcudluqlarını itirirlər. Birjanın hesablaşma palatası hər bir kontragent üçün kontrakt tərəfinə çevrilir, yəni palata alıcı üçün satıcı, satıcı üçün isə alıcı rolunda çıxış edir. Fyüçers kontraktları göndərişçiyə müddətin bu dövrü üçün ayrılmış zaman çərçivəsində göndərişin konkret tarixini seçmək hüququ verir. Fyüçers qiymətinin hesablanılması üçün forvard qiymətlər üçün tətbiq olunan üsullardan (düsturlardan) istifadə etmək olar.

Opsion qiymətli kağızların elə növüdür ki, o sahibinə müəyyənləşdirilmiş kurs üzrə konkret dövrdə təsbit olunmuş miqdarda müvafiq maliyyə aktivlərini alıb-satmaq hüququ verir. Opsionun üç əsas növü «hüquq (haqq, ixtiyar)», varrant (order), opsion «put» və kolldur. Birinci növ orta investor üçün daha cazibədardır, sonuncu ikisi isə hazırda ticarətin cəlbedici obyektləri kimi daha populyardılar.

MUHASIBAT.AZ

«Opsion» sözü dilimizə seçim kimi tərcümə olunur. Opsionun mahiyyəti ondan ibarətdir ki, o sövdə tərəflərindən birinə kontraktın icra olunması və ya ondan imtina edilməsinə *seçim hüququ* verir. Seçim hüququ opsionun, sövdənin mütləq icrasını tələb edən fyüçers və forvard kontraktlarından xeyli dərəcədə fərqlənməsidir.

«Koll» və «put» opsionları təqdim edən üçün buraxılan dövriyyə edən instrumentdir. Onlar öz sahiblərinə imkan verirlər ki, müəyyən qiymətli kağızları müəyyən olunmuş qiymətlə müəyyən olunmuş sayda ala və ya sata bilsinlər. «Put» opsionu sahibinə imkan verir ki, onun özülündəki qiymətli kağızı müəyyənləşdirilmiş qiymətlə müəyyən müddət ərzində satsın. «Koll» opsionu qiymətli kağızı müəyyən müddət ərzində müəyyənləşdirilmiş qiymətlə almağa imkan verir. «Koll» və «put» opsionları dəyərə malikdirlər, çünki sahiblərinə müvafiq aktivlərin dinamikasından uduş əldə etməyə imkan verirlər. Başqa opsionlarla olduğu kimi, bu halda da onlar üzrə cari faizlər və dividendlər verilmir, onlar səs hüququ və mülkiyyət hüququ imtiyazları vermirlər.

«Koll» və «put» opsionlarının dəyəri müvafiq maliyyə aktivlərinin bazar kursundan birbaşa asılıdır, yəni özülündəki qiymətli kağızların bazar kursunun artıdı halda «koll» opsionunun dəyəri artır, «put» opsionunun qiyməti artıqda isə onun özülündəki səhmlərin kursu düşür. «Koll» və ya «put» opsionlarının alış qiyməti *opsion mükafatından* ibarətdir. Opsion mükafatı – fond birjasında dəyəri olan (kotirovka edən) «koll» və ya «put» opsionlarının alınma qiymətidir. Opsion mükafatına təsir göstərən amillərdən biri müvafiq səhmlərin bazar kursudur. Səhmlərin bazar kursu ilə opsionun icra kursu arasındakı fərq nə qədər çox olarsa, «koll» və ya «put» opsionlarının qiyməti də o qədər çox olar. Digər amil opsionun fəaliyyət müddətinin davamlılığıdır: opsionun fəaliyyət müddətinin başa çatmasına nə qədər

MUHASIBAT.AZ

çox vaxt qalırsa, mükafatın həcmi də o qədər çox olur. Opsionun özülündə duran qiymətli kağızların dayanıqlığı da əhəmiyyətli amildir.

Varrant – sahibinə müəyyən sayda digər qiymətli kağızları, bir qayda olaraq, adi səhmləri, müəyyən olunmuş müddət ərzində müəyyən olunmuş qiymətlə almaq hüququ verir. Varrant faktiki olaraq «koll» opsionlarıdır. Varrant sahibinə səs hüququ vermir, dividend gətirmir, şirkətin aktivlərinə iddia etməyə əsas vermir.

Hüquq – müəyyən olunmuş (kifayət qədər qısa) müddət ərzində müəyyən olunmuş kurs üzrə yeni buraxılmış adi səhmlər payını almaq hüququ verən opsiondur. Hüquq o zaman meydana gəlir ki, korporasiyalar yeni adi səhmlərin buraxılması yolu ilə pul vəsaitlərini səfərbər etmiş olsunlar. İnvestorun nöqteyi-nəzərincə «hüquq» səhmdara yeni buraxılmış səhmləri müəyyən olunmuş (bir neçə həftədən artıq olmayan) müddət ərzində müəyyən olunmuş kurs üzrə almaq hüququ verir.

Svop əksər hallarda mərkəzi banklar arasında həyata keçirilən qısamüddətli valyuta mübadiləsi əməliyyatından ibarətdir, yəni svop qısamüddətli dövr ərzində ölkənin valyuta imkanlarını artırmağa imkan verir və bu valyuta bu və ya digər səbəb üzündən möhtəkirliyə məruz qala bilər. İndiki halda valyutanın mübadilə riski yardıma gələn ölkənin mərkəzi bankına şamil olmur. Mübadilə haqqında xahişlə çıxış edən mərkəzi bank müəyyən valyuta məbləğini cüzi faizlə məhdud müddət üçün öz sərəncamına alır və həmin valyuta üçün tərəf müqabilinə həmin məbləğdə, fəqət milli valyuta ilə vəsait köçürür. Svop sövdələri barədə razılaşmalar əsasında mərkəzi banklar tez bir zamanda, ilkin danışıqlara vaxt itirmədən, bir-birlərinə zəruri dəstək verə bilərlər. Sövdənin başa çatması onun ləğv edilməsi yolu ilə həyata keçirilir, yəni kreditor banka faizlərin hesablanması şərtilə alınmış valyuta məbləğinin banklar tərəfindən qaytarılması ilə başa çatır.

MUHASIBAT.AZ

Özünü yoxlama üçün suallar

1. Pul-maliyyə bazarı nədir?
2. Hansı valyuta bazarları olur və bunlarda hansı əməliyyatlar aparılır?
3. Səhm nədir?
4. İstiqraz səhmdən nə ilə fərqlənir?
5. Dövlətin xəzinə öhdəlikləri nədir?
6. Əmanət sertifikatları nədir və onlar necə fəaliyyət göstərir?
7. Vekselin təbiəti nədən ibarətdir?
8. Törəmə qiymətli kağızlar nədir və hansı maliyyə instrumentlərə onlara aid edilir?
9. Forvard kontraktı fyüçers kontraktından nə ilə fərqlənir?
10. Opsion nədir və onun hansı növləri var?
11. Varrant hüquqdan nə ilə fərqlənir?
12. Svop nədir?

MUHASIBAT.AZ

11. QİYMƏTLİ KAĞIZLAR BAZARI

11.1. QİYMƏTLİ KAĞIZLAR BAZARININ FƏALİYYƏT GÖSTƏRMƏSİNİN XÜSUSİYYƏTLƏRİ

Qiymətli kağızlar bazarı (QKB) – bu, emissiya və qiymətli kağızların alqı-satqısı üzrə əməliyyatları özündə əks etdirən maliyyə-pul bazarının bir hissəsidir. Hüquqi və fiziki şəxslərin, dövlətin pul yığımları qiymətli kağızlar bazarı (banklar, ixtisaslaşdırılmış kredit-maliyyə müəssisələri və fond birjaları) vasitəsilə akkumulyasiya olunur və kapitalların istehsal və qeyri-istehsal yatırımlarına yönəldilir. Qiymətli kağızlar bazarı bank krediti sistemini tamamlayır və onunla qarşılıqlı əlaqədə olur. Məsələn, kommersiya bankları QKB vasitəçilərinə yeni buraxılış qiymətli kağızlara yazılmaq üçün ssuda verir, onlar isə banklara qiymətli kağızların iri bloklarını, o cümlədən yenidən satmaq üçün, satırlar.

Qiymətli kağızların emissiyası və ilkin yerləşdirilməsi baş verdiyi ilkin bazarı və əvvəllər buraxılmış qiymətli kağızların alqı-satqısının (tədavülünün) baş verdiyi ikinci bazarı fərqləndirirlər. Bundan əlavə, QKB-nı ərazi əlamətləri üzrə (beynəlxalq, milli və regional bazarlar), qiymətli kağızların növləri üzrə (səhmlər bazarı, istiqraz bazarı və s.), sövdə növləri üzrə (müddətli forvard) bazar, spot (kassa) bazarı və s., emitentlər üzrə (dövlət qiymətli kağızları bazarı, korporativ qiymətli kağızlar bazarı və s.), müddət (qısa-, orta-, uzunmüddətli və müddətsiz qiymətli kağızlar), sahə və digər əlamətlər üzrə təsnif etmək olar. Bu zaman bir sıra ölkələrdə QKB-da əsas vasitəçi rolu ən iri kommersiya bankları oynayırlar. *Fond bazarının subyektləri aşağıdakılardır*:

- qiymətli kağızları buraxan emitentlər və ya təşkilatlar;
- qiymətli kağızlara kapital qoyan investorlar və ya sahibkarlar;
- qiymətli kağızların emitentlərdən investorlaradək (broker kontorları, fond birjaları, investisiya fondları və qiymətli

MUHASIBAT.AZ

kağızlar bazarının digər peşəkar iştirakçıları) hərəkət etdirən vasitəçilər.

Eyni hüquqi və fiziki şəxslər emitent, investor və vasitəçi rolunda çıxış edə bilərlər. Bu zaman fond bazarının istənilən iştirakçısının məqsədi kapitalın artırılmasından ibarətdir.

İstənilən digər bazarlar kimi, qiymətli kağızlar bazarı da tələb, təklif və onların tənzimləyici qiyməti ilə müəyyən edilir. QKB-nın xalis borc alanları rolunda investisiyaları maliyyələşdirmək üçün öz vəsaitləri çatışmayan dövlət və müəssisələr, xalis kreditor isə – müxtəlif səbəblər üzündən gəlirlərinin bir hissəsini əmanət şəklində saxlayan əhali və hüquqi şəxslər çıxış edirlər. İndiki halda qarşıda duran vəzifə pul vəsaitlərinin tərəflərin hamısını qane edən şərtlərlə istehsalata mümkün qədər tam və tez axıdılmasından ibarətdir. Bu vəzifənin yerinə yetirilməsi QKB-da fəaliyyət göstərən vasitəçilərin, yəni brokerlərin və investisiya dilerlərinin iştirakı olmadan mümkün deyil.

Broker yalnız qiymətli kağızların satıcısı ilə alıcısını ortaqlaşdırır (üzləşdirir, aralarında vasitəçilik edir) və buna görə komisyon haqqı alır, investisiya dileri isə həm də qiymətli kağızları öz adına və öz hesabına satın alır ki, onları sonradan başqasına satsın (prinsipial əməliyyatlar). Alqı-satqıdan əldə olunan gəlir onun mənfəətidir. Hazırda bazar iqtisadiyyatı inkişaf etmiş dövlətlərdə qiymətli kağızlar bazarında vasitəçilik ayrı-ayrı fərdi brokerlər tərəfindən deyil, xüsusi broker şirkətləri tərəfindən həyata keçirilir. QKB-da baş fiqur broker və diler əməliyyatlarını öz işində inteqrasiya edən iri firmadır.

Müasir bazar iqtisadiyyatında *qiymətli kağızların «həyati tsikli»* (dövranı) müddətə görə qeyri-bərabər olan üç fazadan ibarətdir:

- iki-üç həftə qiymətli kağızların yeni buraxılışının təşkil olunmasına gedir;
- iki-üç həftə qiymətli kağızların yeni buraxılışının ilkin yerləşdirilməsinə gedir;

MUHASIBAT.AZ

- qiymətli kağızların ikinci bazardakı «uzunmüddətli» həyatları ilə bağlı öz dövranı.

Qiymətli kağızlar – müstəsna spesifik əmtəədir və onun «normal» əmtəə ilə müqayisədə öz dəyəri ilə istehlak dəyəri arasında balans ikincinin xeyrinə kəskin meyllidir. Başqa sözlə desək, fond kağızının kursu (qiyməti) ilk növbədə onun satıcı (emitent) və alıcı (investor) üçün dəyərliliyi (faydalılığı) ilə müəyyən olunur. Bu halda qiymətli kağızın öz dəyəri və ya nominalı aparıcı rol oynamır. Ona görə də investorlar tərəfindən qiymətli kağızlara olan tələb aşağıdakı amillər əsasında formalaşır:

- mənfəətlilik – qiymətli kağızların faizlər, dividendlər vasitəsilə və ya birjada kursun artması nəticəsində;
- risk dərəcəsi – itkilərə məruz qalmağın mümkünlüyü;
- likvidlik – sahib üçün onların hesabına pul əldə etməyin mümkünlüyü.

Bütün bu amillər investor tərəfindən, pulların bankda yerləşdirilməsinin, hər hansı bir malın, o cümlədən tərpənməz əmlakın, qızılın və başqa şeylərin alınmasının, öz işinin təşkil olunmasının aid edilə bildiyi *alternativ vəsait yatırımı formaları* ilə müqayisə olunaraq nəzərə alınmalıdır.

Qiymətli kağızın, onun emitenti nöqteyi-nəzərindən istehlak dəyəri müəyyən stavka üzrə vəsaitlərin müəyyən müddətə cəlb edilə bilməsi mümkünlüyündən ibarətdir. Məsələn, o istiqrazlar üçün kommersiya banklarının təklif etdikləri analoji imkanlarla müqayisə olunur, səhmlər üçün isə – şirkətin kapital mülkiyyətinin «sovurulmayan» (xırdalanmayan), o cümlədən gözlənilən dividendlərin həcmi, «nəzarətdən gələn mənfəət» və s. üstünlükləri ilə müqayisə olunur. Bu, investorlar və emitentlər tərəfindən qiymətli kağızların istehlak dəyərinin nəzəri əsaslarla müəyyənləşdirilməsinə aiddir.

MUHASIBAT.AZ

Qiymətli kağızlar bazarının yaradılması üçün zəruri müqəddəm şərtlər vacibdir. Lakin, qiymətli kağızlar bazarının səmərəli fəaliyyət göstərməsinin ən mühüm şərti, qiymətli kağızların pul ilə satılıb alındığı bir şəraitdə, pulun tam dəyəri ilə öz funksiyasını icra etməsindən ibarətdir. Pulun öz funksiyasını yerinə yetirməməsi, qiymətli kağızlarla əməliyyatlar zamanı stimullar və motivlər sisteminin fəaliyyətini xeyli məhdudlaşdırır və azaldır. Belə ki, hər hansı müəssisənin səhmlərini alarkən iri investor həmin qiymətli kağızlardan gəlir əldə edəcəyi və ya həmin maliyyə aktivlərinin dəyərinin və öz varidatının pul ilə çoxaldılması barədə fikirləşmir, həmin müəssisənin səhmlərinin alınmasını müəssisənin idarə olunmasında və gələcək mənfəətinin bölüşdürülməsində iştirak etmək hüququnun mümkünlüyü ilə əlaqələndirir.

Fond birjaları və əmtəə birjalarının fond şöbələri, hərracların, broker kontoru şəbəkələri fond bazarının institutları və ya fond əmələ gətirənləridir. Bu zaman fond bazarı və qiymətli kağızlar bazarı anlayışları üst-üstə düşür. QKB pul-maliyyə bazarı, pul bazarı və kapitallar bazarı kimi bazarlarla müxbirlik edir.pul-maliyyə resurslarının akkumulyasiyası və yerdəyişməsi bu bazarlar vasitəsi ilə baş verir. Pul bazarında qısamüddətli (bir ilədək) yığımların, kapital bazarında orta və uzunmüddətli (bir ildən artıq) yığımların hərəkəti (yerdəyişməsi) baş verir. Ona görə də qiymətli kağızlar bazarı həm pul bazarının, həm də kapital bazarının seqmentidir.

Hazırda maliyyə vasitəçilərinin bank və ya qeyri-bank xarakterliliyindən asılı olaraq qeyri-bank modeli (ABŞ) kimi fond bazarı modelini göstərirlər. Burada qiymətli kağızlar üzrə qeyri-bank şirkətləri vasitəçi rolunda çıxış edirlər. Almaniyanın bank modelində banklar vasitəçi rolunda çıxış edirlər, Yaponiyanın qarışıq modelində həm banklar, həm də qeyri-bank təşkilatları vasitəçidirlər.

MUHASIBAT.AZ

11.2. QİYMƏTLİ KAĞIZLARIN KURSUNUN YARANMASI

Xeyli sayda amillər qiymətli kağızların kursuna çoxmənalı və ziddiyyətli şəkildə təsir göstərir. Nəzəriyyə hələ ki, bu problemi həll etməyib. Bununla belə, şərti olaraq qiymətli kağızların kursunu müəyyənləşdirən xalis subyektiv, obyektiv, spekulyativ (möhtəkir) kimiamillər qrupunu göstərmək olar.

Subyektiv amillər arasında iki yarımqrupu göstərmək olar:

- ayrı səhm və istiqraz buraxılışı səviyyəsində, yəni mikrosəviyyədə fəaliyyət göstərən amillər;
- buraxılışlar qrupu və ya bütün fond bazarı səviyyəsində, yəni makrosəviyyədə fəaliyyət göstərən amillər.

Səhmlərin kursuna təsir göstərən subyektiv amillər xarakterlərinə görə yekcins deyillər, çünki onların arasında aşağıdakılar vardır:

- fond bazarının fəaliyyətinin texniki aspektləri ilə bağlı amillər. Fond bazarlarının fəaliyyətinin texniki aspektləri ona dəlalət edir ki, səhmlərin kursunun hərəkəti üçün qiymətli kağızlar bazarının həcminin, birja vasitəçilərinin fəaliyyətinin miqyası, fond ticarətinin texniki təchizatının mühüm əhəmiyyəti vardır. Bütövlükdə, fond bazarının həcmi nə qədər böyük və onun təchizatı nə qədər yaxşı (ticarətin təşkili texnologiyasından yüksək) olarsa, investisiya fəaliyyətinin riski də o qədər az olar. Lakin, birja mexanizminə çox böyük inam olduğu halda belə, səhmlərin qiymətləndirilməsindəki istənilən texniki səhv və sistemdəki pozuntu iqtisadiyyatda və fond bazarında real durumla heç bir əlaqəsi olmayan gözlənilməz nəticələrə gətirə çıxara bilər;
- qiymətli kağızların analizi və onların dinamikasının proqnozlaşdırılması metodikasının tətbiqi ilə bağlı amillər. Qiymətli kağızların analizinə və onların dinamikasının

MUHASIBAT.AZ

proqnozlaşdırılması üçün tətbiq olunan metodika qiymətli kağızların kursuna onunla təsir göstərir ki, hər bir həmin məqamda səhmlərin və istiqrazların kursu şirkətdə (firmada) və bütövlükdə iqtisadiyyatda real durumla, habelə kursun gözlənilən dəyişmələri ilə müəyyənləşir. Bununla əlaqədar olaraq investorlar tərəfindən qiymətləndirmənin (kotirovka) analizi və proqnozlaşdırılmasına böyük diqqət yetirilir, çünki müxtəlif analiz məktəblərinin («fundamental» və «texniki») və çoxlu birja oynları nəzəriyyələrinin mövcudluğu şəraitində investisiya fəaliyyətinin böyük miqdarda reseptləri meydana çıxır. Bu nəzəriyyələrdən heç biri sabah, birigün, bir aydan sonra və s. qiymətli kağızların kursunun necə olacağı sualına dəqiq cavab verə bilməz. Bununla belə, investorlar uduşda olmaq ümidi ilə həmişə belə cavabları, o cümlədən müxtəlif metodika yollarından istifadə etməklə axtarıb tapmağa çalışırlar;

- ayrı-ayrı şəxslərin mövqe və rəylərini əks etdirən amillər. Ayrı-ayrı şəxslərin nöqteyi-nəzərləri (şəxsi amillər) qiymətli kağızların kursuna aşağıdakılar vasitəsilə təsir edir:
  - ayrı-ayrı birjaçıların və investisiya işbazlarının konfidensial informasiyadan istifadə etməyə meyl göstərmələri qiymətli kağızların kursunun subyektiv artmasına və ya azalmasına gətirib çıxara bilər;
  - investorların inandıqları maliyyə xadimlərinin bəyanatları;
  - bu və ya digər şirkətin (firmanın) direktorluğu və ya idarə heyətində böyük nüfuz sahibinin və ya diribaş işbaz və fırıldaqçı kimi tanınmışın və s. olması.

Obyektiv amillər də mikro və mkro səviyyəyə təsir edir. Mikro səviyyədə təsir göstərən obyektiv amillər mahiyyət etibarilə konkret qiymətli kağızlar buraxılışının əsasında duran həqiqi kapitalın

MUHASIBAT.AZ

vəziyyətinin parametrlərinə müncər olunur. İndiki halda aşağıdakılar nəzərə alınır:

- emitent firmanın maliyyə durumu və mötəbərliyi (bu parametr ilk növbədə yatırımlar riski səviyyəsinə təsir edir, çünki firmanın maliyyə durumu nə qədər yaxşı olarsa, onun qiymətli kağızlarına investisiya yatırılması da o qədər «təhlükəsiz» olar);
- firmanın böyüklüyü (bu parametr başlıca olaraq qiymətli kağızların likvidliyinə təsir edir, çünki onlar dövriyyədə nə qədər çox olarsa, bir qayda olaraq, onların likvidliyi də o qədər yüksək olar);
- şirkətin dividendlərinin həcmini müəyyənləşdirən cari mənfəəti;
- konkret firmanın fəaliyyət göstərdiyi sahənin perspektivliyi (yüksək texnologiya sahələrində və digər perspektiv sahələrdə dividendlərə özünəməxsus «yığılmış təklif» meydana çıxır, belə ki, investorlar dividend ödənişlərin həcminə deyil, perspektivdə səhmlərin qiymətlərinin gözlənilən artımına, yəni kurs fərqindən əldə olunan uduşa orientasiya edirlər);
- hər bir firmanın fəaliyyət.

Makrosəviyyədə fəaliyyət göstərən obyektiv amillər ölkənin iqtisadiyyatının (bir sıra hallarda – dünya iqtisadiyyatının) ümumi vəziyyətini xarakterizə edən amillərdən ibarətdir və aşağıdakıları əks etdirməlidir:

- dayanıqlılığı, iqtisadiyyatınbalanslılığını və inkişaf perspektivini, maliyyə sisteminin etibarlılığını (yatırım riskinin səviyyəsini);
- pul yığımları və əmanətlərinin həcmini, dövlət borcunun həcmini (ssuda faiz stavkasını);
- əmtəə bazarlarının, qızıl bazarlarının, tərpənməz əmlakın və s. konyunkturasını (vəsaitlərin əlavəsinin alternativ sferaları ilə tutuşdurulması);

MUHASIBAT.AZ

- iqtisadi inkişafın, inflyasiyanın tempi (gəlirlilik);
- səhmdar müəssisələrin istehsal miqyasları, vəsaitlərin cəlb olunması üçün onlar tərəfindən qiymətli kağızlardan istifadə olunması səviyyəsi (likvidlik);
- kapitalların dövlətlərarası axını, tədiyə balanslarının və valyuta sistemlərinin vəziyyəti (bütün parametrlər kompleksi);
- iqtisadiyyatın dövlət tərəfindən tənzimlənilməsi.

Beləliklə, qiymətli kağızların kursu üçün emitet şirkətin həqiqi kapitalının, ölkənin kapital resurslarının, dünya iqtisadiyyatının kapital resurslarının vəziyyətini xarakterizə edən kompleks amillərin böyük əhəmiyyəti vardır. Lakin, nəzərə almaq lazımdır ki, fond bazarı uydurma kapital sektorundan ibarətdir. Ona görə də qiymətli kağızlar bazarının spesifik şərtlərinin təsiri bəzən obyektiv amillərdən daha güclü olur. Belə ki, ABŞ-da XX əsrin 80-ci illərində səhmlərin kursunun artımı real kapitalın artımını o qədər qabaqlamışdı ki, onilliyin sonlarında uydurma kapitalın həcminin onun əsasında duran həqiqi kapitalın həcmi ilə heç bir əlaqəsi yox idi, yəni xüsusi birja amillərinin – möhtəkirlik və subyektiv amillərin fond kağızlarının qiyməti üçün xüsusi əhəmiyyəti olur.

Möhtəkirlik amilləri obyektiv və subyektiv amillər sırasında xüsusi ara yer tutur, çünki möhtəkirlik həqiqi kapitalın vəziyyəti ilə birbaşa əlaqəli deyil və buna görə də onu obyektiv amillərə aid etmək olmaz. Qiymətli kağızlar bazarı üçün möhtəkirlik, mal bazarı üçün adi ticarətin olduğu qədər, əməliyyatın obyektiv və mühüm forması kimi vacib sayılır.

Birja möhtəkirliyi özü özlüyündə özünün sonrakı inkişafı üçün o qüvvətdən baza yaradır ki, təkrar istehsal prosesindən asılı olan qiymətyaratma amilləri, möhtəkirlər ondan öz əməliyyatlarında fəal istifadə edərlərsə, həmin qiymətli kağızların kursunda təzahür etməyə də bilər. Möhtəkirlik amillərinin qiymətli kağızların kursuna təsir

MUHASIBAT.AZ

spesifikası ondan ibarətdir ki, onlar kompleks qiymətyaradan amilləri təkrar istehsal prosesinin obyektiv şərtlərindən gözləmə prosesinə doğru kənarlaşdırır. Başqa sözlə desək, fond bazarlarında böyük həcmdə möhtəkirlik kapitallarının olması üzündən birja kursu artıq həqiqi kapitalın adi durumu ilə deyil, əhəmiyyətli dərəcədə kurs dəyişikliklərinin gözlənilməsi ilə müəyyənləşdirilir. Bu zaman dividend və faizlər deyil, kurs fərqində udmaq imkanı birinci dərəcəli əhəmiyyət daşıyır.

Möhtəkirlik amilləri sırasında aşağıdakıları göstərmək olar:

- əsasında səhmlərin kursları ilə onlar üzrə kontraktların qiymətləri arasındakı fərqin dəyişilməsindən gəlirin götürülməsinin olduğu «proqram» ticarətinin həcmi. Bu birja ticarətinə əlavə dayanıqlıqsız elementi gətirir. «Proqram» ticarətin təsiri o qədər qüvvətli ola bilər ki, o bütün obyektiv amillərin təsirini artıqlamasilə üstələyə bilər. 1987-ci ilin oktyabrında və qismən də 1989-cu ilin oktyabrında ABŞ-da belə olmuşdur və o vaxtlar iqtisadiyyatdakı real vəziyyətdə təhlükə özünü göstərmişdi, səhmlərin qiymətlərinin bir qədər aşağı düşməsi isə kompüter möhtəkirlik ticarətinin parlaması sayəsində güclü birja böhranına və hətta iflasadək arta bilərdi;
- müddətə satılmış səhmlərin ümumi həcmini xarakterizə edən fond bazarında «yekun qısa mövqe»nin vəziyyəti. Əgər bu göstərici çox yüksəkdirsə, bu onu bildirir ki, böyük miqdarda investorlar eyni zamanda kursun endirilməsində oynayırlar. Qiymətli kağızlar bazarı tez reaksiya göstərə bilər və belə halda möhtəkirlik amilinin təsiri də real şəraitə nisbətən daha çox təsir göstərə bilər;
- korporasiyaların öz səhmlərini almaları ya onların öz maliyyə durumlarını (xüsusilə də mümkün udulma qarşısında qalındıqda) yaxşılaşdırmaq cəhdidir, ya da nəzarət edən qrupun

MUHASIBAT.AZ

şirkətdə öz mövqeyini möhkəmləndirmək istəyidir. Bu amil istənilən halda səhmlərin kursuna əhəmiyyətli təsir göstərə bilər;

- səhmlərin ayrı-ayrı buraxılışı ilə, onların dinamikasında böyük rol oynayan maxinasiyalar.

Səhmlərin kursuna təsir edən amillər müxtəlif istiqamətyönümlüdürlər. Bu amillərin təsiri kəmiyyət dəyərləndirilməsinə caiz deyil. Onu sırf mexaniki olaraq onu gəlirlilik (səhmlər üçün dividendlər və istiqrazlar üçün faizlər), yatırımların riski səviyyəsi, likvidlik, kapital yatırımının alternativ sferaları ilə nisbət kimi dəyişən nəticələnmə məhdud dəstə müncər etmək olar. Lakin, hətta bütövlükdə iqtisadiyyatın və qismən də birja əməliyyatlarının dövlət tənzimlənməsi şəraitində səhmlərin kursları əvvəlki kimi, kəmiyyət dəyərləndirilməsinə caiz olmayan bir çox təsirlər parametrinin yekunlaşdırıcısı olaraq qalır. Ən yaxşı halda onların analizi əsasında fond kağızlarının qiymət dinamikasında yalnız tendensiyaları müəyyənləşdirmək olar.

11.3. QİYMƏTLİ KAĞIZLARIN ANALİZİNİN ZƏRURİLİYİ VƏ XÜSUSİYYƏTLƏRİ

Real gerçəklikdə istənilən halda qiymətli kağızların analizi aparılır, çünki onların hər birisi keyfiyyəti ilə xarakterizə olunur ki, bu da qiymətli kağızların bu və ya digər növünə vəsait qoyulmasının düzgünlüyünə ümumiləşdirici xarakteristika verir. Bunun üçün emitentin maliyyə durumunu öyrənirlər. Belə öyrənmə fundamental analiz, bəzən isə – qiymətli kağızların analizi adlandırılır.

Əvvəlcə sahə nöqteyi-nəzərindən analiz aparılması, yəni təsərrüfat fəaliyyəti son illər nisbətən səmərəli olan sahələrin seçimi həyata keçirilməsi labüddür. Bu halda əsas diqqəti yeni törənən, böyüyən, sabit və köhnələn adlandırılan sahələrə yönəltmək lazımdır. Belə dəyərləndirmə zəminində müxtəlif sahələrin inkişaf perspektivlərini

MUHASIBAT.AZ

öncədən sezmək və satış həcmi, mənfəət, qiymət səviyyəsi, ölkədəki iqtisadi situasiya və s. qarşılıqlı əlaqələri haqqında nəticələr çıxarmaq olar. Növbəti mərhələ dərc olunan maliyyə hesabatlarının bilavasitə analizi və faiz və dəyər ifadəsi ilə bir neçə ilin yekunlarının müqayisəsi ilə bağlıdır. Bu halda hər şeydən öncə aşağıdakı göstəriciləri nəzərdən keçirmək lazımdır: satış həcmi və əldə olunan ümumi gəlir, balans mənfəəti, xalis mənfəət, vergi stavkaları, aktivlərin bölüşdürülməsi və sairə. Sonra əsas nisbətlər və əmsallar hesablanılır.

1. Səhmdar kapitala aşağıdakı düsturla *mənfəət norması*:

$$N_{pr} = \frac{P_ç}{K_{səhm}}, \qquad (11.1)$$

burada N_{pr} – səhmdar kapitalına mənfəət norması; $P_ç$ – xalis mənfəət; $K_{səhm}$ isə – səhmdar kapitalıdır.

Bu göstərici şirkətin öz kapitalından istifadəsinin səmərəliliyini xarakterizə edir. Onu sahələr üzrə analoji olanla müqayisə etmək, habelə müəyyən dövr (2-3 il) ərzində dinamikasını izləmək məqsədəuyğundur. Bu göstəriciyə xalis mənfəətin və səhmdar kapitalının həcmindən əlavə satış həcmi və şirkətin aktivlərinin dəyəri kimi amillər də təsir göstərir. N_{pr} – kompleks göstəricidir və onu əmsal mədaxili, vəsaitlərin dövranlılığı və istiqraz vasitələrinin iştirak hasili kimi yazmaq olar.

Mənfəət əmsalı xalis mənfəətin satışdan əldə olunan gəlirə (satış həcminə) nisbətlə müəyyənləşdirilir. O şirkətin vergi yükündən nə dərəcədə qaça bilməsini göstərir və rəsmiləşdirilmiş şəkildə aşağıdakı kimi təqdim oluna bilər:

$$K_{pr} = \frac{P_ç}{R}, \qquad (11.2)$$

MUHASIBAT.AZ

burada K_{pr} – mədaxillik əmsalı; R – məhsulun satış həcmidir.

Vəsaitlərin *dövretmə əmsalı* (dövriyyə sürəti) şirkətin aktivlərinin dəyərinə olan satışdan əldə edilən gəlirdən bölünən qismətdir və maliyyə ili ərzində rublun aktivlərinin dövranının sayını xarakterizə edir və aşağıdakı şəkildə olur:

$$K_{ob} = \frac{R}{A}, \qquad (11.3)$$

burada K_{ob} – dövretmə əmsalı; A – aktivlərin dəyəridir.

İstiqraz vasitələrinin *iştirak əmsalı* aktivlərin səhmdar kapitalın həcminə nisbəti kimi hesablanılır. O şirkətin kapitalının strukturunu müəyyənləşdirir və aşağıdakı kimi müəyyən olunur:

$$K_z = \frac{A}{K_{səhm}}, \qquad (11.4)$$

burada K_z – istiqraz vasitələrinin iştiraketmə əmsalıdır.

2. Özəl və istiqraz vasitələrinin *nisbət əmsalı* şirkətin maliyyə durumunun dayanıqlığı haqqında təsəvvür yaradır, yəni

$$K_{sz} = \frac{S_s}{S_z}, \qquad (11.5)$$

burada K_{sz} – özəl və istiqraz vasitələrinin nisbət əmsalı; S_s – özəl vəsaitlər (kapital); S_z – istiqraz vasitələridir.

Əgər nisbət özəl vəsaitlərin xeyrinə, özü də əhəmiyyətli həcmdə artırsa, onda bu, şirkətə qiymətli kağızların emissiyası yolu ilə istiqraz vasitələrini artırmaq imkanı verir.

3. Borcun vaxtında ödənilməsinə müqabilliyin müəyyənləşdirilməsinə, yəni aktivləri tezliklə realizə etməyə imkan

MUHASIBAT.AZ

verən *likvidlik əmsalı. Asanlıqla realizə olunan* aktivlərə pul vəsaitləri, qiymətli kağızlar, debitor borcları – xarici (yüklənilmiş mallar) və daxili (şirkət qarşısındakı xidmətçilər) aid edilir. *Çətin realizə olunan* aktivlərə əmtəə ehtiyatları (xammal, materiallar, başa çatdırılmamış istehsal, hazır məhsul, digər ehtiyatlar), tərpənməz əmlak.

Likvidlik əmsalları borcun ödənilmə müddətindən asılı olaraq hesablanılır. Belə ki, *təxirəsalınmaz (kritik) likvidlik əmsalı* asan realizə olunan aktivlərin ödəniş qiyməti çatan kreditor borcların və qısamüddətli ssudalar hesab olunan debitor borcların və qısamüddətli öhdəliklərin (cari passivlərin) çıxılması nisbəti kimi müəyyənləşdirilir:

$$K_n = \frac{A_l}{O_k}, \qquad (11.6)$$

burada K_n – təxirəsalınmaz (kritik) likvidlik; A_l – asan realizə olunan aktivlər; O_k – qısamüddətli öhdəliklərdir.

4. Şirkətlərin xalis gəlirlərinin istiqrazlar və səhmlərə görə dividendlər üzrə faizlərinin ödənilməsinin *adekvatlıq əmsalı.*

Maddi aktivlər və cari passivlər arasında fərq kimi hesablanılan xalis maddi aktivlər istiqrazların təminatçısı rolunu oynayır. Bu zaman *bir istiqraza düşən gəlir* xalis maddi aktivlərin istiqrazlar üzrə öhdəliklərə nisbətidir:

$$D_{ob.} = \frac{M_{a.ç}}{O_o}, \qquad (11.7)$$

burada $D_{ob.}$ – bir istiqraza düşən gəlir; $M_{a.ç.}$ – xalis maddi aktivlər; O_o – istiqrazlar üzrə öhdəliklərdir.

Xalis aktivlər (xalis maddi aktivlərlə borc vəsaitli uzunmüddətli kreditlər arasındakı fərq) imtiyazlı səhmlərin təminatçısı rolunda çıxış

MUHASIBAT.AZ

edir. Bir imtiyazlı səhmə düşən gəlir xalis aktivlərin imtiyazlı səhmlərin sayı nisbətini təşkil edir və aşağıdakı düsturla hesablanılır:

$$D_{n.p} = \frac{A_ç}{\Sigma A_{pr}}, \qquad (11.8)$$

burada $D_{a.p}$ – bir imtiyazlı səhmə düşən gəlir; Aç – xalis aktivlər (xalis mənfəət); ΣA_{pr} – imtiyazlı səhmlərin sayıdır.

Adi səhm istiqrazlar üzrə öhdəliklərin və imtiyazlı səhmlərin ödənilməsindən sonra qalan vəsaitlə təmin olunur. İndiki halda bir sadə səhm üzrə gəlir imtiyazlı səhmlər üzrə öhdəliklərin tutulmasından sonra sadə səhmlərin sayına nisbətini təşkil edir:

$$D_{a.o} = \frac{(A_ç - O_{pr})}{\Sigma A_o}, \qquad (11.9)$$

burada $D_{a.o}$ – adi (sadə) səhmə olan gəlir; O_{pr} – imtiyazlı səhmlər üzrəöhdəliklər; ΣA_o – adi (sadə) səhmlərin sayıdır.

Hesablamanın aparılmasının belə ardıcıllığı həmin qiymətli kağızların öz məzmunu ilə izah olunur:

- istiqrazlar borc vəsaitləridir, onların sahibləri isə – kreditordurlar və, deməli, şirkət hesablaşmanı onlarla ilk növbədə aparmalıdır;
- ikinci növbədə hesablaşma imtiyazlı səhmlərin sahibləri ilə aparılır, belə ki, onlar şirkətə münasibətdə onun əmlakının sahibi sayılırlar və təyinatlarına görə sadə səhmdarların malik olmadıqları imtiyaz sahibi hesab olunurlar, bu səbəbdən də şirkət onlarla son növbədə hesablaşır.

Şirkətin maliyyə durumunu müəyyənləşdirən digər amilləri də nəzərə almaq lazımdır. Səhmdarlara ümumi mənfəət tutumundan

MUHASIBAT.AZ

ödənilən «bir sadə səhmə mədaxil» nisbəti, «mənfəətə kurs» nisbəti və s. dividendlərin payı məhz bundan ibarətdir.

Korporasiyanın əlverişli maliyyə durumunun labüd şərtləri yüksək menecment keyfiyyətinin olmasıdır. Amma idarəetmə səmərəliliyi kimi sezilməz amili dəyərləndirmək çətindir. Lakin, şirkətin daimi monitorinqinin keçirilməsi, səhmdarların iclaslarında iştirak edilməsi, vəsaitlərin istifadə manevrlərinin dəyərləndirilməsi, auditor nəticələrinin ynekunları üzrə, maliyyə mətbuatında nəşrlər əsasında zəruri nəticələr çıxarmaq mümkündür. Müsbət halda aparılmış analizin nəticəsi konkret emitentin qiymətli kağızlarının alınması haqqında qərarın qəbul olunmasıdır.

Tam təşəkkül tapmış bazar münasibətləri strukturuna malik normal bazarda qiymətli kağızların alınması zamanı investoru səhmdar cəmiyyəti üzərində tam və ya qismən nəzarətin mümkünlüyü, keyfiyyəti və xüsusiyyətləri bir-birini qarşılıqlı tamamlayan qiymətli kağızların seçilməsi yolu ilə öz investisiya portfelinin optimallaşdırılması, illik və ya kvartallıq dividendlər şəklində mənfəət əldə etməyin mümkünlüyü, qiymətli kağızların gələcəkdə daha yüksək qiymətə satılması yolu ilə mənfəət edə bilməyin mümkünlüyü, dividendlərin həcmi (bazar iqtisadiyyatı şəraitində səhmlərin alınması zamanı ən mühüm məqam sayılır) kimi məsələlər maraqlandırır.

İnvestorun qiymətli kağızlar bazarında işinin əsas uğurlu şərtlərindən biri idarəçilik qərarının vaxtında və tam alınmasıdır. Fond birjaları bununla əlaqədar olaraq qiyməti təyinetmə vərəqi formasından (cədvəl 11.1) istifadə edirlər ki, bu da listinq (birjada dövriyyəsinə icazə verilmiş qiymətli kağızların siyahısı) prosedurunu keçmiş şirkətin səhmlərinə sahib olan investora imkan verir ki, qərarın qəbul olunması üçün labüd minimum informasiyaya malik olsun:

I. Səhmlərin kurs dövriyyəsi

MUHASIBAT.AZ

Bunun üçün qiymət təyinetmə vərəqində 1, 2, 7-12 sütunları vardır və orada həmin məsələ üzrə informasiya mövcuddur.

1 və 2 sütunları birjada həmin səhmlə həyata keçirilən sövdələrin ən yüksək və ən aşağı qiymətlərini göstərirlər.

İnvestor 7 və 8 sütunlarının köməkliyi ilə birjada həmin səhmlə bağlı birja qiymət təyinetmə komissiyasının rəyi ilə tanış olur ki, bu da tələb qiymətlərinin (TələbQ) və təklif qiymətlərinin (TəklifQ) böyük müxtəlifliyində seçim etməyə imkan verir. Sonralar həmin səhmlər üzrə sövdələrin həcminin artması və ticarət günü ərzində sövdələrin qiymətlərinin dəyişməsi ilə bu sütunlar cari ticarət gününün sövdələrinin ən yüksək və ən aşağı qiymətləri ilə əvəzlənəcək.

9-gu sütun investoru bağlanış qiyməti ilə, yəni ticarət gününün ən son qiyməti ilə tanış edəcək. Əgər sövdə yalnız bir idisə, onda həmin sövdənin qiymiəti də bu sütunda öz əksini tapacaq.

Aparılmış sövdələrin ümumi həcmi (satılmış səhmlərin sayı) 10-cu sütunda əksini tapacaq.

11 və 12-ci sütunlarda investor həm mütləq (artım – «+», azalma – «–»), həm də nisbi (qiymətin ötənkinə 1 minusla nisbəti) ifadədə sövdənin bağlanış qiymətindəki dəyişiklikləri (əgər belə dəyişikliklər baş veribsə) görə bilər.

II. Emitentin maliyyə durumu

Bunun üçün qiymət təyinetmə vərəqinin 4-6–cı sütunları vardır.

4-cü sütunda ötən il üçün dividendin həcmi göstərilir (böyük dövrlük üçün dividendlərin ödənilməsi zamanı bu sütunda, məsələn, belə göstəriləcək: yarımillik üçün dividend 25% – 25% – 2; kvartal üçün – 25% – 4).

Qiymət təyinetmə vərəqinin 5-ci sütununda yatırımın $Ц_{p.a} : Д_{a.o}$ riskliliyini xarakterizə edən ən mühüm göstəricilərdən biri göstərilmişdir, yəni səhmin bazar qiymətinin ($Ц_{p.a}$–nın müəyyənləşdirilməsi zamanı bağlanış sövdəsi, o olmadıqda isə tələb

MUHASIBAT.AZ

qiyməti istifadə olunur) bir sadə səhmin gəlirinə nisbəti göstərilmişdir ($Д_{a.o}$ imtiyazlı səhmlər üzrə xalis mədaxildən ödəniş məbləğinin tutulması yolu ilə hesablanılır və alınmış fərq adi səhmlərin ümumi sayına bölünür).

6-cı sütunda da mühüm bir göstərici vardır: səhmin bazar qiymətinin onun balans qiymətinə nisbəti ($Ц_{б.a}$). Balans dəyəri (qiyməti) səhmin balans üzrə (emitentin xalis aktivlərinin adi səhmlərin ümumi sayının həcminə nisbəti kimi hesablanılır) neçəyə olduğunu göstərir.

Cədvəl 11.1 Qiymət təyinetmə vərəqi (müəyyən tarix

Yüksək qiymət	Aşağı qiymət	Emitentin Adı	Dividend	$Ц_{p.a} / Д_{a.o}$	ЦП	Bağlanış sövdəsi	Nisbi	Dəyişiklik
1	2	3	4	5	8	9	12	
		Vozroj denie	20%	8,95	14500	14000	—	
		Minskbank	24%	1,95	1450	—	—	
		Toribank	—	11,3	5000	—	—	
		Finistbank	—	5,44	12000	—	—	

MUHASIBAT.AZ

Bazar qiymətinin balans dəyərindən xeyli yüksək olduğu zaman, yəqin ki, investora həmin səhmi almağa dəyməz, çünki şirkətin ləğv olunması zamanı səhmə görə alınmış vəsaitin dəyəri onun alınmasına sərf olunan xərcləri ödəməyəcək.

Özünü yoxlama üçün suallar

1. Qiymətli kağızlar bazarı nə deməkdir və onun subyektləri və vasitəçiləri kimlərdir?
2. Xüsusi növ əmtəə kimi qiymətli kağız nəyi ifadə edir?
3. İnvestorlar tərəfindən qiymətli kağızlara tələbi hansı amillər formalaşdırır?
4. Qiymətli kağızların kursunu hansı amillər qrupu müəyyənləşdirir və onların xüsusiyyətləri nədən ibarətdir?
5. Hansı yekunlaşdırıcı dəyişənlər dəsti qiymətli kağızların kursu haqqında məlumat verə bilər?
6. Qiymətli kağızların keyfiyyətinin analizinin mahiyyəti nədən ibarətdir?
7. Qiymətli kağızların analizi zamanı hansı nisbət və əmsalların mühüm əhəmiyyəti vardır?
8. Qiymət təyinetmə vərəqəsi nə üçün lazımdır və onun özü nəyi bildirir?

MUHASIBAT.AZ

12. FOND BİRJASI VƏ ONUN ƏMƏLİYYATLARI

Bazar iqtisadiyyatının ən vacib elementlərindən biri fond birjasıdır. V.Dalın birja haqqında izahlı lüğətində belə deyilir: «Birja – ticarət üzrə tacirlərin məlum dövrdə cəmləşdiyi bina və ya yer, eləcə də həmin yığıncağın özü».[11]

Lakin, bu XIX əsrdə deyilmişdir. Bununla əlaqədar olaraq qeyd etmək lazımdır ki, XX əsrin əvvəllərində dünyada dörd əsas birja növü formalaşmışdı ki, rus alimi A.Filippov onları belə xarakterizə edirdi:[12]

1) birja hamı üçün əlçatar yığıncaq kimi. Belə birjaların ya onların fəaliyyətini reqlamentləşdirən hər hansı təyinatı ümumiyyətlə olmur, ya da belə reqlamentasiya tamamilə məhdudlaşdırılıb. Hökumət yalnız birjada qaydaya ümumi nəzarəti həyata keçirir. Birja yığıncağının qaydalarına təhlükə törətməyən hər kəs orada iştirak edə bilər. Birja binası ya hökumət, ya da bu və ya digər korporasiya tərəfindən verilir. Belə birjalar Hollandiya, Belçika və Fransada yayılmışdı;
2) birja dövlət tərəfindən hərtərəfli reqlamentləşdirilən qapalı yığıncaq kimi. Birja ticarəti burada qanunverici təyinatların fəaliyyətinə tabe edilib və administrasiyanın ciddi nəzarəti altında olur. Lakin, bir halda ki birjaya gələnlər korporasiyada təşəkkül tapmadıqlarından və birjanın yalnız yığıncaq xarakteri daşıması səbəbindən birja komitəsinin üzvləri müvafiq instansiya tərəfindən birjadankənar təyin edilirlər. Qanza birjaları istisna olmaqala, Almaniya birjalarının əksəriyyəti bu növ birjalara aid idi;
3) birja dövlət tərəfindən hərtərəfli reqlamentləşdirilən korporasiya kimi. Birjaya gələnlər korporasiyada birdləşiblər və birja komitəsi də onların arasından seçilir. Qanunvericilik

[11] Даль В.И. Толковй словарь живого великорусского языка. М., 1978, т. 1, с. 87.
[12] Тер-Баленц Р. Выбор за вами // Экономика и жизнь. 1991. №32, с. 12.

MUHASIBAT.AZ

normalaşdırılması və inzibati nəzarət ikinci variantda olduqları ilə eynidir. Birja komitəsi ciddi şəkildə dövlət orqanına tabe etdirilib. Korporasiyanın üzvlərindən əlavə kənar şəxslər də, amma yalnız xüsusi icazə və məhdudlaşdırılmış hüquqlarla buraxılır. Birjaların bu növü Avstriya-Macarıstanda və Rusiyada hakim idi;

4) birja azad korporasiya və ya sonuncunun xüsusi (özəl) müəssisəsi (təsisatı) kimi. Dövlətin heç bir müdaxiləsi olmadan özəl korporasiya və ya səhmdar şirkəti tərəfindən təsis edilib və o ya birja ilə eyniləşdirilir (Amerika Birləşmiş Ştatları, ayrı-ayrı hallarda isə İngiltərədə), ya da özünün əsas məqsədlərindən birini birjanın saxlanılması və ya idarə olunmasında görür (İngiltərə). Xüsusi birja qanunvericiliyi yoxdur və ya o bir neçə təyinatla məhdudlaşdırılıb. Birja komitəsinə geniş səlahiyyətlər verilib və birja üzvlərinin ümumi yığıncağı tərəfindən seçilir.

Bu təsnifat üçün dövlətin birja dövriyyəsi sferasına müdaxiləsi səviyyəsi və birjanın açıq və qapalı bazarlar kimi təşkili formaları kimi amillər əsas götürülmüşdür. Hazırda bu, hər iki amil birjaların təşkilində əhəmiyyətli rol oynayırlar. Lakin, birja müasir anlamda standartlar və nümunələr üzrə (əmtəə birjası) satılan kütləvi malların topdan satış bazarının fəaliyyət göstərməsinin daha inkişaf etmiş forması və ya qiymətli kağızlar və xarici valyuta bazarıdır (fond birjası). Ona görə də *birja* – satılan və alınan hər şeyin nəzərdə tutulduğu topdan satış əmtəə partiyalarının alqı-satqısı üzrə razılaşmaların bağlandığı təşkilatdır (və yerdir) ki, bu da tələbə malikdir və bazarda təklifi doğurur. Məlum olduğu kimi, sonuncu əmtəə bazarından, işçi qüvvəsi bazarından, kapital bazarından ibarətdir.

Bu halda təkrar kapital yaradan və onun ekvivalenti sayılan qiymətli kağızlar da əmtəəyə çevrilir, sərbəst satıla, alına və tələbdən asılı olaraq daha yüksək, yaxud aşağı qiymətə alına və ya satıla bilər.

MUHASIBAT.AZ

Özünəməxsus əmtəə növləri – qiymətli kağızlar üzrə əməliyyatlarla fond birjaları məşğul olurlar. Onlar müəssisələrin, səhmdar cəmiyyətlərin səhmlərinin və dövlət istiqrazlarının alqı-satqısının böyük hissəsini həmin birjalarda qeydə alınan qiymətlərlə (kursla) öz əllərində cəmləşdirirlər.

Fond birjasının klassik anlamını aşağıdakı kimi təsəvvür etmək olar:

- təsbit olunmuş ticarət yeri ilə, yəni ticarət meydançasının mövcudluğu ilə mərkəzləşdirilmiş bazar;
- konkret tələblərə (maliyyə dayanıqlığı və emitentin iri ölçüləri, bircinsli və standart əmtəə kimi qiymətli kağızların kütləviliyi, tələbin kütləviliyi, qiymətlərin aşkar ifadə olunan dəyişkənliyi və s.) cavab verən ən yaxşı malların (qiymətli kağızların) seçilməsi prosedurunun mövcudluğu;
- birja üzvü kimi ən yaxşı bazar operatorunun seçilməsi prosedurunun mövcudluğu;
- qiymətli kağızlarla və standart ticarət prosedurları ilə ticarətin müvəqqəti reqlamentinin olması;
- sövdələrin qeydiyyatının və onlar üzrə hesablaşmaların mərkəzləşdirilməsi;
- rəsmi (birja) qiymət təyinetmələrinin müəyyənləşdirilməsi;
- birja üzvlərinə nəzarət etmək (onların maliyyə dayanıqlığı, biznesi təhlükəsiz aparmaları fond bazarı etikasına əməl etmələri nöqteyi-nəzərindən).

Bazar iqtisadiyyatı məlum düstur üzrə fəaliyyət göstərir: pul – bazar – pul. Faktiki olaraq bu, kapitalın fəaliyyət göstərməsi prosesidir və o inkişaf etmiş bazar münasibətləri şəraitində qiymətli kağızların fəaliyyət göstərməsinə çevrilir. Onların yerdəyişməsi, yatırılması, alqı-satqısı fond birjasının fəaliyyətinin başlıca istiqaməti olur. Obrazlı şəkildə ifadə etsək, kapital dövranı – iqtisadiyyatın qan dövranı

MUHASIBAT.AZ

sistemidir, fond birjası isə bu sistemin ürəyi funksiyasını yerinə yetirir, bazarı kapitalla qidalandırır (istənilən əmtəə kapitalla ifadə olunur), sonuncunun ekvivalenti rolunda isə qiymətli kağızlar çıxış edir. Ona görə də qiymətli kağızların dövriyyəsi – kapitalda ifadə olunan malların, cisimlərin, əmək vasitələrinin və istehsalın özünün dövriyyəsidir. Faktiki olaraq bu, sözün tam anlamında bazarın əsas hissələrindən biridir və o kapitalın səmərəli axımını təmin edir.

Birjaların mənbəi XIII-XIV əsrlərdə İtaliyanın ticarət şəhərlərindəki tacir toplantılarından başlanır. Onların meydana gəlməsi kapitalist istehsal münasibətlərinin inkişafı, natural istehsaldan və mübadilədən malların azad satışına keçilməsi, kapitalın sürətləndirilməsi tələbləri ilə bağlı idi. Bu, qanunauyğun şəkildə bazar münasibətlərinin genişləndirilməsi və dərinləşdirilməsinə yardım edəcək strukturların yaranmasına imkan yaratdı. Banklar və birjalar belə strukturlardan oldu. İlk birjalar İtaliyada, Hollandiya və İngiltərədə meydana çıxdı. Birjalar əsl inkişaflarına isə XIX əsrdə çataraq, praktiki olaraq o dövrün bütün mədəni aləmini, o cümlədən Rusiya dövlətini də əhatə etmişdi. İlk birjalar yalnız əmtəə birjaları idi və onların başlıca əhəmiyyəti ondan ibarət idi ki, onlar alqı-satqını əldən-ələ sıxışdıraraq, alqını sifariş vasitəsi ilə aparmağın mümkünlüyünə imkan açdılar.

Birjaların meydana çıxmasından dərhal sonra onların təbəqələşməsi baş verdi: əmtəə və fond birjaları ayrıldı. Dünyada ilk fond birjası 1602-ci ildə Amsterdamda açılmışdı. Hazırda ən böyük fond birjası Nyu-York birjası sayılır ki, o da 1992-ci ilin yanvarında özünün 200 illiyini qeyd etmişdi. Nyu-York birjasının ardınca Tokio, ABŞ-da Orta-Qərb, London, Parisdə fond birjalarının Beynəlxalq federasiyası gəlir.

Rusiyada ilk birja tacirlərin öz təşəbbüsləri ilə deyil, hökumətin əmri ilə yaradılmışdır. I Pyotr 1703-cü ildə xaricdən qayıtdıqdan sonra, orada birja fəaliyyəti ilə tanış olduğundan və birjaların ticarət işinə

MUHASIBAT.AZ

faydasına əmin olduğundan, rus tacirləri üçün də, böyük islahatçının ömrü boyu «dağıdılmış tifaqın» taleyinin yaxşılaşdırması haqqında düşündüyü birja yığıncaqlarını yaratmaq fikrinə düşdü. Əmtəə və fond birjasının funksiyalarını birlikdə əhatə edən birja Peterburqda açıldı. Rusiya birjaları XX yüzilliyin 20-ci illərinin sonlarında öz varlıqlarını başa vurdular. Bazar iqtisadiyyatına keçidlə fond birjalarının yaradılması prosesinə başlanıldı.

Fond birjasında firma və şirkətlər, ayrı-ayrı sahibkarlar qiymətli kağızlarla əməliyyatlar yolu ilə istehsalın modernləşdirilməsi və onun hazırkı dövrdə daha çox tələb olunan məhsulların buraxılmasına yönəldilməsi məqsədi ilə vəsait cəlb edə bilərlər. Birja vasitəsilə kapitalın dövriyyəsi sürətləndirilir və onun bir sahədən digərinə yerdəyişməsi baş verir. Bu zaman *birjaların başlıca vəzifələri* aşağıdakılardan ibarət olur:

- qiymətli kağızların alqı-satqısı və valyuta hərraclarının keçirilməsi üçün şəraitin təşkil olunması;
- kapitalın daxili və xarici bazarlarının iqtisadi konyunkturasının təhlili və onların inkişaf perspektivlərinin müəyyənləşdirilməsi;
- milli iqtisadiyyata xarici kapitalın investisiyasına və milli kapitalın xarici bazara çıxmasına yardım edilməsi;
- sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi üçün şəraitin yaradılması;
- öz dövlətində və xaricdə qiymətli kağızlar bazarının təşkili və sonrakı inkişafı məqsədilə maliyyə və kredit təsisatları ilə əməkdaşlığın inkişaf etdirilməsi;
- qiymətli kağızlar bazarının vəziyyəti haqqında maliyyə qurumları və geniş əhali təbəqəsinin mütəmadi olaraq obyektiv məlumatlandırılması.

Fond birjası kifayət qədər böyük həcmdə əməliyyatlar həyata keçirir:

MUHASIBAT.AZ

- qiymətli kağızlarla satışlar;
- qiymətli kağızların qiymətinin təyin edilməsi (kotirovkası);
- qiymətli kağızların ilkin qiymətlərinin zəmanətliliyi;
- qiymətli kağızların kursunun müəyyənləşdirilməsi və uçotu;
- valyuta hərraclarının keçirilməsi;
- qiymətli kağızların alqı-satqısı üzrə razılaşmaların tərtibatının təşkil olunması və belə razılaşmaların hüquqi təminatlılığı;
- qiymətli kağızların birjadaxili bazarında mərkəzləşdirilmiş qarşılıqlı hesablaşmaların aparılması;
- kurs nəzarətinin həyata keçirilməsi və s.

Fond bazarında fəaliyyət göstərən şəxslər aşağıdakılardır:

- emitentlər, yəni qiymətli kağızları buraxan təşkilatlar;
- investorlar, yəni pul vəsaitlərini qiymətli kağızlara yatıran şəxslər;
- qiymətli kağızların emitentlərdən investorlara doğru (broker kontorları, fond birjaları, investisiya fondları) həyata keçirən vasitəçilər.

Fond birjalarında kapitalın müxtəlif formaları kotirovka edir və onlara aşağıdakılar aiddir:

- müəssisələrin, səhmdar cəmiyyətlərin və kəndli təsərrüfatlarının səhmləri;
- daxili borc istiqrazları;
- xəzinədarlıq öhdəlikləri;
- əmanət sertifikatları;
- veksellər;
- bankların kredit öhdəlikləri (kredit resursları);
- broker yerləri (satış və icarə).

Bir sıra fond birjalarında öz sahiblərinin onları əldə etməyə və ya götürməyə hüququnu təsdiq edən qiymətli kağızlar, yaxud da həmin

MUHASIBAT.AZ

kağızlardan törəmə kağızlar, eləcə də kredit resurslarının və valyuta dəyərlərinin hərəkəti ilə bağlı kağızlar kotirovka edir. Faktiki fond birjası qiymətli kağızların hər növünün əməliyyatı ilə, habelə kredit resurslarının alqı-satqısı, broker yerlərinin icarəsi və satışı, mülkiyyətin özəlləşdirilməsinin investisiyalaşdırılması ilə məşğul olur. Maliyyə nazirliyinin icazəsi olan və ekspert dəyərləndirməsini keçmiş qiymətli kağızlar satışa (hərraca) buraxılır.

Özünü yoxlama üçün suallar

1. Fond birjalarının meydana gəlməsinin səbəbləri nə idi?
2. Rusiya imperiyasında fond şöbələrinin fəaliyyət göstərməsinin spesifikası nədən ibarət idi?
3. Fond birjalarının əsas vəzifələri nədən ibarət idi?
4. Fond birjası hansı əməliyyatları yerinə yetirir?
5. Fond birjasında kapitalın hansı formaları kotirovka edir?

MUHASIBAT.AZ

IV bölmə. KREDİT VƏ BANK SİSTEMLƏRİ

13. KREDİT SİSTEMİ VƏ ONUN HƏLQƏLƏRİ


13.1. KREDİT SİSTEMİ ANLAYIŞI

Kredit sisteminin strukturu və kredit işinin təşkili bütün iqtisadiyyatın və onun həlqələrinin tələbatının daha dolğun təmin olunmasına köməklik etməlidir. Bu zaman *kredit sistemi* bank və digər kredit müəssisələrinin məcmuluğu ilə, kredit əməliyyatlarının təşkilinin hüquqi formaları və yanaşılmasının həyata keçirilməsi ilə xarakterizə olunur.

Kredit işi sahibkarlıq fəaliyyətinin müvəqqəti sərbəst pul vəsaitlərinin cəlb olunması və akkumulyasiya olunmasına və onların kreditləşdirmə prinsiplərinə uyğun olaraq ayrı-ayrı təsərrüfat həlqələri arasında bölüşdürülməsinə yönəlmiş xüsusi sferasıdır. Bu zaman ölkənin tarixi-iqtisadi inkişafının hər bir mərhələsinə özünəxas kredit işinin təşkili və kredit sisteminin öz strukturu uyğun gəlir.

İqtisadiyyatda kredit əməliyyatları ən müxtəlif təsisatlar tərəfindən həyata keçirilə bilər. Lakin, əməliyyatların miqyası və əhəmiyyətinə görə təsərrüfat dövranına əsas xidmət göstərənlər banklardır. Bununla belə, bank təsisatları (institutları) çərçivəsində və qeyri-bank (bankyanı, kvazibank) təsisatları (institutları) çərçivəsində kredit münasibətlərinin təşkilinin iki əsas altsistemini fərqləndirirlər. Kredit münasibətləri bu sayaq təşkilinə uyğun olaraq kredit sisteminin iki əsas həlqəsi – bank sistemini yaradan bank təsisatları və parabank sistemini əmələ gətirən parabank təsisatları təşəkkül tapır (şəkil 13.1).

MUHASIBAT.AZ



Şəkil 13.1. Kredit sisteminin təşkili strukturu

Bu halda bank sistemi banklarla və bank tipli digər təsisatlarla (məsələn, uçot evləri ilə), parabank sistemini isə – ixtisaslaşmış kredit-maliyyə və poçt-əmanət müəssisələri ilə təmsil olunur. Bu zaman kredit sisteminin özü müvafiq şəkildə təşkil olunmuş idarəçilik həlqələrindən

MUHASIBAT.AZ

və ya mərkəzi idarəetmə orqanı və aşağı (funksional) orqanların aid olduğu onun elementlərini təşkil edən ierarxiya strukturlarından ibarət olur.

Aşağı həlqələrin fəaliyyətinin əlaqələndirilməsi məqsədi ilə idarəedici orqan kredit təsisatlarının fəaliyyətinə nəzarəti, kredit təsisatlarının fəaliyyətini təhlil etməli və onu elə lazımi məcraya yönəltməlidir ki, kredit sisteminin, təsərrüfat dövranının kredit-hesablaşma xidmətinin səmərəliliyinin fasiləsiz və etibarlı fəaliyyətini təmin etmiş olsun, kredit əməliyyatlarının həcminin əsaslandırılmamış genişləndirilməsi və ya ixtisarına yol verilməsin. Buna uyğun olaraq kredit sistemi funksional ixtisaslaşması, kredit əməliyyatlarının həcmi və kredit təsisatlarının sayı, habelə ayrı-ayrı təsərrüfat subyektlərinə göstərilən maliyyə-kredit xidmətlərinin kəmiyyəti ilə xarakterizə edilir.

Kredit sisteminin nüvəsini *bank sistemi* təşkil edir və təsərrüfat dövriyyəsinə göstərilən pul-kredit sistemi üzrə əsas ağırlıq da onun üzərinə düşür, bank təsisatlarının fəaliyyətini əlaqələndirən vahid orqan isə kredit-hesablaşma təşkili proseslərinin idarəolunması və iqtisadiyyata maliyyə xidməti funksiyasını yerinə yetirən mərkəzi (emissiya) bankıdır. Mərkəzi banklar bank sisteminin və bank təsisatları balanslarının likvidliyini tənzimləyir. Bu zaman tənzimləmə məqsədləri son hesabda pulun alıcılıq qabiliyyəti və faiz stavkalarının, iqtisadi inkişafın stimullaşdırılmasına və inflyasiya ilə mübarizəyə yönəldilir.

Hər bir bank sisteminin öz xüsusiyyətləri vardır. O cümlədən Almaniyanın bank sistemi fəaliyyət növlərinin və mülkiyyət formalarının müxtəlifliyi baxımından çeşidlidir. Bank sisteminin önündə mərkəzi bank (Döyçe Bundesbank) durur; bankın hər bir bölməsi orta hesabla təxminən 1600 nəfərə xidmət göstərir. İngiltərənin bank sistemidayanıqlı ənənə ilə, habelə təşəkkül tapmış hüquqi reqlamentləşmə ilə xarakterizə olunur. İsveçrəinin bank sistemi üçün

MUHASIBAT.AZ

bankların və investisiya şirkətlərinin fəaliyyətinə ciddi nəzarətin göstərilməsi xarakterikdir.

Mərkəzi bank bir qayda olaraq yalnız bank təsisatlarına, eləcə də xalis bank əməliyyatları ilə ixtisaslaşan və mərkəzi bankın müvafiq lisenziyası olan digər təşkilatlara da birbaşa və bilvasitə təsir və tənzimləmə, kontrol və nəzarət funksiyalarını da yerinə yetirir. Mərkəzi bank və onun təsisatları kredit sisteminin digər həlqələrinə yalnız ayrı-ayrı hallarda təsir göstərə bilər, əksər hallarda da kredit-maliyyə xidmətləri bazarının müxtəlif kredit-maliyyə əməliyyatları sektorlarının qarşılıqlı əlaqələri ilə təzahür edən vasitəli təsir göstərə bilər.

Bununla əlaqədar olaraq qeyd etmək lazımdır ki, bir sıra ədəbiyyat mənbələrində «bank» və «kredit təsisatları» anlayışları arasında mübahisəli fərq yaratmağa cəhd göstərilir. Məsələn, iddia edilir ki, banklar universal tipli maliyyə institutlarıdır və ödəniş vəsaitləri yaratmaq və tədavüldəki pul kütləsinin tənzimlənilməsi (ödəniş vəsaitlərinin yaradılması, onların tədavülə buraxılması və dövriyyədən çıxarılması) hüququna malikdirlər. Kredit təsisatları isə, əksinə, yalnız ayrı-ayrı maliyyə əməliyyatları üzrə ixtisaslaşırlar və yalnız mövcud ödəniş vəsaitlərinin bölgüsünü həyata keçirirlər. Lakin, banklarla kredit təsisatları arasında belə fərqləndirmənin aparılması xeyli dərəcədə birtərəfli görünür. Məsələ burasındadır ki, həm birincilər, həm də ikincilər xeyli miqdarda əməliyyat həyata keçirirlər. Məsələn, kommersiya banklarının (ikinci mərhələ banklarının) klassik əməliyyatları hesablaşma (cari) hesablarına pul vəsaitlərinin və müddətli əmanətlərin cəlb edilməsi, akkumulyasiya olunmuş pul vəsaitlərinin ssuda verilməsi və hesablaşmaların aparılmasından ibarətdir.

Hazırda həm də bank əməliyyatlarının çevrəsi də genişlənir, ənənəvi bank və kvazibank əməliyyatları arasındakı həddgetdikcə daha da silinir və buna müvafiq olaraq banklarla parabankların

MUHASIBAT.AZ

əməliyyatları arasındakı hüdudlar da silinir. Bankların özəlliyi ondan ibarətdir ki, onlar bütün pul dövranını onun məcmusunda təşkil edirlər, onu bilavasitə həyata keçirirlər və nəqd pul dövriyyəsini nəqdsizə və əksinə transformasiya edirlər. Prinsip etibarilə kapital yatırımlarını maliyyələşdirmə, əmanət işləri, Dövlət büdcəsinin hesablaşma kassa icrası funksiyalarını və hətta kreditləşdirməni yerinə yetirməyən banklar da mövcud ola bilər. Amma pul dövriyyəsini təşkil etməyən bankları təsəvvür etmək olmaz. Ona görə də bankların əsas əlamətləri pul dövriyyəsinin təşkili və bilavasitə həyata keçirilməsi, ümumdövlət uçotunun aparılmasıdır. Ancaq bəzi hallarda banklar kredit təşkilatları ilə eyniləşdirilir ki, bu da qətiyyən düzgün deyil, çünki:

- ola bilsin ki, elə banklar var ki, onlar kredit fəaliyyəti ilə məşğul olmurlar, ancaq, misal üçün, pul emissiyasını və ya qaytarılmamaq əsasında kapital yatırımlarının maliyyələşdirilməsini həyata keçirirlər;
- banklar digər funksiyaları, məsələn, nəqdsiz dövriyyənin, vəsaitlərin akkumulyasiyasının təşkili üzrə fəaliyyəti yerinə yetirmədən yalnız kredit fəaliyyəti ilə məşğul ola bilməzlər.
- kreditləşdirmə ilə təkcə banklar məşğul olmurlar. Kreditlə məhsullar müxtəlif dövlət və kooperativ ticarəti təşkilatları tərəfindən satılır. Lombardlar, kirayə məntəqələri də bu və ya digər formada əhalini kreditləşdirirlər. Müəssisələr və təsərrüfat təşkilatları stimullaşdırıcı qənaət fondları hesabına fəhlə və qulluqçulara təsərrüfatlarının sahmana salınması, mənzil şəraitinin yaxşılaşdırılması üçün ssuda verirlər. qarşılıqlı yardım kassaları, yaradıcı birliklərin (ittifaqların) fondları öz üzvlərinə ssuda verirlər. Müəssisələr və təsərrüfat təşkilatları yuxarı idarəetmə orqanlarından özünəməxsus kredit forması sayılan müvəqqəti maliyyə yardımları alırlar.

MUHASIBAT.AZ

Kreditləşdirmə ilə məşğul olan *kredit institutları* yüzlərlə və minlərlə kommersiya təsisatlarını özündə birləşdirən geniş sistem yaradırlar. Kredit sisteminin inkişaf etdiyi ölkələrdə onun təşkilati quruluşu təsərrüfat strukturlarının formalaşmasının tarixi və iqtisadi şəraitlərinin xüsusiyyətləri ilə müəyyənləşmişdir. Bu ölkələrdə bankların təşkilinin əsası ikimərhələli bank sisteminin olmasıdır. Lakin, bu, daxili struktur üzrə müxtəlif bank sistemlərinin qurulmasına mane olmur.

Məsələn, *ABŞ*-ın həddən ziyadə mərkəzsizləşdirilmiş (desentralizasiya olunmuş) *kredit sistemi* 1987-ci ildə 15 mindən artıq kommersiya bankını və 55 minə yaxın müxtəlif ixtisaslaşdırılmış kredit-maliyyə təsisatlarını əhatə edirdi. Kommersiya banklarına, əvvəla, federal qanunlar əsasında fəaliyyət göstərən mərkəzi banklar (4910), ikincisi, fəaliyyətləri müvafiq ştatların qanunları ilə tənzimlənən banklar (10□223) daxildir. 1980-ci ilədək yalnız milli banklar (bütün bank aktivlərinin 60□%-ə qədəri onların payına düşürdü) mütləq mərkəzi bankın – Federal rezerv sisteminin (FRS) və Depozitlərin sığortalanması üzrə federal korporasiyaların üzvü idilər (DSFK).

Faktiki olaraq ABŞ-ın kredit sistemini aşağıdakı təsisatlar əmələ gətirir: Federal rezerv sistemi (ölkənin mərkəzi bankının funksiyasını icra edir), kommersiya bankları, investisiya bankları, ssuda-əmanət assosiasiyaları, maliyyə şirkətləri, kredit kooperativləri, sığorta şirkətləri və pensiya fondları, sosial sığorta fondları, qarşılıqlı kredit cəmiyyətləri, depozitlərin sığortalanması institutları və s.

ABŞ-ın mərkəzsizləşdirilmiş kredit sisteminin əksinə olaraq, *Yaponiyanın* kredit sistemi mərkəzləşdirilmiş kimi xarakterizə edilir. Ona 13 iri şəhər kommersiya və 64 regional bank, 3 uzunmüddətli kredit bankı və 7 trast-bank daxildir. Onların maliyyə-kredit baxımından tənzimlənilməsi mərkəzi bank – Yaponiya bankı tərəfindən həyata keçirilir. Şəhər və regional bankları geniş şöbə şəbəkələrinə malikdirlər və korporasiyaların kreditləşdirilməsini həyata keçirir və

MUHASIBAT.AZ

əhalinin əmanətlərini qəbul edirlər. Şəhər bankları pul bazarında, bir qayda olaraq, borc alanlar kapitalist istehsal münasibətlərinin inkişafı regional banklar isə kreditor kimi çıxış edirlər. Yaponiyanın kredit sisteminə poçt-əmanət təsisatları (23 minə yaxın), sığorta şirkətləri və qiymətli kağızlarla ticarət üzrə investisiya şirkətləri, eləcə də kənd təsərrüfatının, kiçik müəssisələrin, kooperativlərin və s. üzrə kreditləşdirilməsi üzrə xüsusi kredit-maliyyə institutları (təsisatları) da daxildir. Son illərdə Yaponiyanın pul-kredit sistemi fəal şəkildə tənzimsizləşdirməyə məruz qalır.

Fransanın kredit sistemi həm müəssisələrin növləri, həm də mülkiyyət formaları üzrə son dərəcə rəngarəngdir. Ona kommersiya bankları (milliləşdirilmiş və ya özəl) ilə yanaşı öz xarakterinə görə yaradılması və inkişafı selektiv kredit siyasəti çərçivəsində müxtəlif çətin və məhdud problemlərin həlli zərurəti ilə izah olunan çeşidli xüsusi hüquqi statuslu təsisatlar daxildir. Bu, mərkəzi bankın tənzimləyici rolunu mürəkkəbləşdirdi ki, nəticədə bu da öz növbəsində müəssisələrin aşağıdakı – banklar, kooperativ bankları, əmanət kassaları, sosial sığorta kassaları, bələdiyyə krediti kassaları, maliyyə şirkətləri və ixtisaslaşdırılmış maliyyə institutları kimi altı kateqoriyanı birləşdirən yeni təsnifata gətirib çıxardı.

Kredit sisteminin yeni həlqələri ikiqat və hətta üçqat tabeçilikdə ola bilərlər. Bu ona gətirib çıxarır ki, bir idarənin icra üçün normativ, mütləq tələbləri digər müəssisənin tələblərinə zidd çıxır. Bu halda kredit institutlarının özləri üçün daha əlverişli olan normativ sənədlərdən istifadə olunmasında mümkün manevrlərdən istifadə etsinlər.

13.2. BANK SİSTEMİ VƏ ONUN QURULMASI MODELLƏRİ

MUHASIBAT.AZ

Bank sistemi kredit sisteminin əsas həlqəsidir və o kredit və maliyyə əməliyyatlarının əsas kütləsini özündə mərkəzləşdirmişdir. Banklar, hazırda kredit-maliyyə xidmətlərinin əksəriyyətini yerinə yetirən və mahiyyət etibarilə universal (onların cüzi qismindən savayı) profilli institut olmaqla kredit təsisatlarının ən qocaman və geniş yayılmış kredit müəssisələri qruplarıdır.

Bununla belə, bank fəaliyyətinin nə dərəcədə reqlamentləşdirilməsindən asılı olaraq, *bank fəaliyyətinin təşkilinin iki tipi fərqləndirilir*:

- banklarla parabankların əməliyyatları arasında sərt həddin mövcud olduğu şəraitdə ixtisaslaşdırılmış bank işində kvazibank əməliyyatlarının həyata keçirilməsi üzrə banklar üçün qadağalar və limitlər tətbiq edilir və СКФИ-nin «klassik» bank funksiyalarının icrasına icazə verilmir;
- praktiki olaraq kredit institutlarının bütün növlərinə kredit-maliyyə xidmətlərinin müxtəlif növlər üzrə həyata keçirilməsinə imkan verən universal bank işi (onların bir sıra kəmiyyət məhdudiyyətlərinin qoyulması mümkündür).

Bank işinin universallaşdırıldığının təcrübədən keçirildiyi ölkələrdə kredit sisteminin ayrı-ayrı həlqələrinin ixtisaslaşmaları arasındakı sərhəd getdikcə daha çox silinir. Hazırda bankların, bank institutları (təsisatları) arasında ənənəvi sərhədlərin pozulmasında təzahür edən universallaşdırılması tendensiyası üstünlük təşkil edir. Bu tendensiya Avropa ölkələrinə xarakterik olduğu kimi, bankın xarakteri üzrə müxtəlif fəaliyyətin qanunvericilik tərəfindən ənənəvi şəkildə məhdudlaşdırıldığı ABŞ və Yaponiya kimi ölkələrə də xarakterikdir. Funksional ixtisaslaşmanın aradan qaldırılması müasir bankları öz müştərilərinə 200-dək xidmət növü göstərməyə qabil olan çoxfunksiyalı kredit təsisatlarına çevirir. Bu zaman banklar öz fərdiliyini, bununla

MUHASIBAT.AZ

yanaşı, həm də müştərilərinin bir qisminin etibarını itirir. Ona görə də müəyyən mənada həm də paralel olaraq bankların bəzi ixtisaslaşmalarının bərpası və ya yenidən yaradılması baş verir.

Bank sistemi özü özlüyündə mövcud olmur. O iqtisadiyyatın və sosial sferanın tələbatına xidmət göstərir və buna görə də onlara adekvat olmalıdır. İqtisadi inkişaf şəraitində bank xidmətlərinə tələbat artır, iqtisadi tənəzzül və əhalinin aşağı həyat səviyyəsi bank xidmətlərinə tələbatı məhdudlaşdırır. Ödənişqabilli ssuda-borc alanlar, kreditləşdirmə üçün elmi cəhətdən əsaslandırılmış investisiya layihələri olmadıqda, bank fəaliyyətini tənzimləyən qanunvericilik bazası qeyri-mükəmməl olduqda bank sistemi səmərəsiz işləyir. Ona görə də iqtisadiyyata xidmət edən və bazarda bank xidmətlərinin resurs təkliflərinin məhdudlaşdırıcısı olan, habelə bank əməliyyatlarının gəlirliliyini digər fəaliyyət sferalarında olduğu səviyyəyədək aşağı salan pul vəsaitlərinin kəsirinin güclənməsi ilə şərtlənən bank sisteminin ekstensiv yüksəliş rezervlərinin tükənməsi zamanı, və, deməli, yatırılmış kapitala gəlir normasını bərabərləşdirən bank sistemi intensiv artım amillərinin istifadə olunmasına yönəlməlidir.

Bunun nəticəsində də iri və xırda banklar arasında optimal nisbət qoyulmalıdır, hərçənd, birincilər, mübahisəsiz, özü üçün xeyli maliyyə imkanlarının mövcudluğundan, investisiyanın, fəaliyyətinin diversifikasiyası vasitəsilə etibarlılığının təmin olunması üçün yüksək potensial imkanlarının mövcudluğundan, müştərilərə daha yüksək xidmət göstərilməsinə nail olmağa imkan verən müasir bank texnologiyasının tətbiqindən ibarət olan üstünlüyə malikdirlər. *Bank holdinq şirkətlərinin* (BHŞ) – bir və ya bir neçə bankın və ya şirkətin səhmlərinə malik olan təşkilatların fəaliyyət göstərməsi təcrübəsi əhəmiyyət kəsb edir.

Faktiki olaraq BHŞ özlüyündə, alınan bankların və ya şirkətlərin məcmu aktivlərində payları olan, portvel (səhmlərə malikdirlər və digər

MUHASIBAT.AZ

bankların və ya şirkətlərin fəaliyyətinə nəzarət edirlər) və ya investisiya (həm də alınan bank və şirkətin qiymətli kağızlar portfelinin idarə olunmasını həyata keçirirlər) cəmiyyətlərini təmsil edirlər. BHŞ rəqabət şəraitində portfelin diversifikasiyası imkanını – öz aktivlərinin komponentlərinin rəngarəngliyini yaradırlar ki, bu da kreditlər üzrə faiz stavkalarını azaltmağa və depozitlər üzrə isə artırmağa imkan verir və bununla da təsərrüfat subyektlərinin və əhalinin müvəqqəti sərbəst kapitalını və əmanətlərinin cəlb olunması, investisiya fəaliyyətini genişləndirmək üçün əlverişli şəraiti təmin edir. Eyni zamanda filialsız kommersiya və investisiya bankları üçün aktivlər portfelinin sərbəst diversifikasiyası çətin həll olunan məsələdir. Bank fəaliyyətinin təşkilinin holdinq forması banklara imkan verir ki, onların kapitallarını sənaye-istehsal sferasına və sosial infrastruktura tətbiq edə bilsinlər.

Xırda bankların məqsədi iri investisiya resurslarının yığılmasından və maliyyə fond bazarlarında fəal işləməkdən deyil, yerli müəssisə və təşkilatların cari fəaliyyətinə hesablaşma-kassa xidməti göstərilməsi və kreditləşdirilməsindən ibarətdir. İri bankların maraqları bir qədər başqadır: xırda müştərilər onlar üçün əhəmiyyət kəsb etmir. Qeyd etmək lazımdır ki, hazırda kommersiya banklarının böyüdülməsi tendensiyası bir çox dövlətlər üçün xarakterikdir. Məsələn, XX əsrin 90-cı illərinin ortalarında ABŞ-da 15 mindən artıq kommersiya bankı ABŞ-ın 2,5 trln. dollara yaxın məbləğdə aktivlərinə nəzarət edərək, 15,5 mlrd. dollar mənfəət götürmüşlər. 2000-ci ilə 5 trln.-dan artıq ABŞ dolları məbləğində aktivlərə malik olan və 17mlrd. ABŞ dolları məbləğində mənfəət götürmüş cəmi 9500 kommersiya bankı qalmışdır.

Hazırda sənayecə inkişaf etmiş ölkələrdə bankların dəqiq təsnifatı mövcud deyil. Məsələn, İngiltərə Bankının struktur sxemlərindən birinə görə ları İngiltərədə depozit bankları, uçot evləri, aksept evləri, xarici və s. banklar fərqləndirilir. AFR-in bank-kredit təsisatlarının təsnifatına kommersiya bankları, əmanət kassaları və kredit

MUHASIBAT.AZ

cəmiyyətləri, ipoteka bankları və inşaat əmanət kassaları, istehlak krediti bankları, investisiya şirkətləri, xüsusi məqsədli (tapşırıqlı) kredit institutları daxildir. Yaponiyada özəl kredit sferasında şəhər banklarını, regional bankları, trast bankları,uzunmüddətli kredit banklarını, xarici bankları fərqləndirirlər.

Bank sisteminin yuxarı, rəhbər və aşağı həlqələr arasında dayanıqlı kontakt və əlaqələri olmalıdır. Mərkəzi bankın tədbirlərinin aparılması üçün regional təsisatları, zərurət yarandıqda isə – mərkəzi bank tərəfindən xüsusi təyin olunmuş və müvəkkil edilmiş institutlar xidmət göstərirlər. Mərkəzi bankın tədbirlərinin tənzimlənilməsinin təsirliliyinin və operativliyinin yüksəldilməsi məqsədilə, bank və parabank sistemlərinin funksional əlamətləri üzrə analoji institutlara malik olan sektorlara bölünməsi təcrübəsindən istifadə olunur, məsələn, torpaq bankı sektoru, istehlak krediti sektoru, lizinq şirkətləri sektoru və s.

Belə bölüşdürmənin əsas məqsədi bu və ya digər sektorun institutlarınınəməliyyat və fəaliyyətlərinin təşkil olunması spesifikasından asılı olaraq prosedur və qaydaların fərqli tənzimləyicilərinin müəyyənləşdirilməsindən ibarətdir. Mərkəzi bank öz siyasətinin əsas istiqamətlərinin realizasiyası üçün müvafiq sektorun mərkəzi institutunu müəyyənləşdirir (təyin edir) və ona tənzimləyici və nəzarətçi tədbirlərin təşkili üzrə səlahiyyətlər verir. Əgər sektorda təsisatlar həddən ziyadə çoxdursa (məsələn, ABŞ-da kommersiya bankları sektoruna 9,5 min institut daxildir), onda göstərilən funksiyaların yerinə yetirilməsi üçün bir neçə imtiyazlı bank seçilə bilər və onların tərkibi və sayı kredit institutlarının bank qanunvericiliyinə və kredit sisteminin ierarxiya strukturunun həmtabeliliyindən asılı olaraq mərkəzi bank tərəfindən dəyişdirilə bilərlər.

İqtisadi nəzəriyyə və bank praktikası bank sistemi quruculuğunun iki əsas tipini fərqləndirirlər: birmərhələli və ikimərhələli. *Birmərhələli*

MUHASIBAT.AZ

bank sistemi banklar arasında üfqi əlaqələrin üstünlüyünü, habelə bankların əməliyyatlarının və onların funksiyalarının universallaşdırılmasını nəzərdə tutur.

Birmərhələli bank sistemi çərçivəsində, mərkəzi bank da daxil olmaqla, bütün kredit təsisatları bir ierarxiya pilləsində yerləşərək, müştərilərə kredit-hesablaşma xidməti üzrə analoji funksiyaları yerinə yetirirlər. Belə quruculuq prinsipi iqtisadi strukturları həm zəif inkişaf etmiş ölkələrin, həm də totalitar və ya izibati-amirlik rejimli idarəetməyə malik ölkələr üçün xarakterikdir. Məsələn, 1930-1932-ci illərin kredit islahatından sonra SSRİ Dövlət Bankı faktiki olaraq qısamüddətli və uzunmüddətli kreditləşdirmənin vahid mərkəzi, xalq təsərrüfatının emissiya, hesablaşma və kassa mərkəzi kimi ölkənin bank işində faktiki inhisarçıya çevrildi.

Birmərhələli bank sistemi şəraitində pul-kredit tənzimlənilməsi və iqtisadiyyatda ödəniş vasitələrinin sayının azaldılması üzrə tədbirlər nəqdiyyatla əməliyyatların sərt şəkildə məhdudlaşdırılması və ölkənin vahid dövlət ssuda fondu çərçivəsində müəssisələrin, təşkilatların və bankların nəqdsiz pul vəsaitlərinin bank sistemi vasitəsilə mərkəzləşdirilmiş şəkildə bölüşdürülməsinə gətirib çıxarır. Özü özlüyündə bankların fəaliyyətinin idarə olunması üzrə funksiyalar mövcud deyil, çünki bütün kredit-maliyyə əməliyyatları faktiki olaraq vahid idarəetmə mərkəzli bir bankda təmərküzləşir.

SSRİ-də uzun müddət kredit əməliyyatlarının vahid mərkəzdə (SSRİ Dövlət bankında və onun təsisatlarında) və onun sifarişi ilə ayrı-ayrı əməliyyatlar növünü həyata keçirən, məsələn, SSRİ Promstroybankı və SSRİ Vneştorqbankı kimi bir neçə dövlət xüsusi banklarında təmərküzləşməsilə kredit işinin təşkilinin belə tipinə xarakterik olan bank sistemi quruculuğunun birmərhələli prinsipi üstünlük təşkil edirdi. Bu zaman SSRİ Dövlət bankı müştərilərə qısamüddətli kreditləşdirməni həyata keçirirdi, SSRİ Stroybankının

MUHASIBAT.AZ

funksiyası müştərilərə uzunmüddətli xidmətlər göstərmək idi, Vneştorqbank isə – xarici iqtisadi fəaliyyətə xidmət üzrə vəzifələr tapşırılmışdı.

XX əsrin 80-ci illərinin axırlarında yenidən qurulma nəticəsində SSRİ-nin bank sistemi altı həlqədən ibarət oldu:

- SSRİ Dövlət bankı (Qosbank SSSR);
- SSRİ Aqrosənaye bankı (Aqroprombank SSSR);
- SSRİ Sənaye-tikinti bankı (Promstroybank SSSR);
- SSRİ Mənzil-kommunal təsərrüfatı və sosial inkişaf bankı (Jilsosbank SSSR);
- SSRİ Xarici iqtisadi fəaliyyət bankı (Vneşekonombank SSSR);
- Əmanətin mühafizəsi və kreditləşdirmə bankı (Sbereqatelnı bank SSSR).

Lakin, bank sisteminin belə strukturu özünü doğrultmadı: bu, bank işçilərinin sayının artmasına və bankların praktiki işlərinin mürəkkəbləşməsinə səbəb oldu. Ona görə də bazar iqtisadiyyatı şəraitində ikimərhələli bank sisteminə üstünlük verilir.

İkimərhələli bank sisteminə yuxarı və aşağı mərhələlər daxildir. Yuxarı mərhələ – bu, bilavasitə kreditləşdirmə ilə məşğul olmayan, «banklar bankı» funksiyasını icra edən və pul-kredit tənzimləməsinin mərkəzi sayılan mərkəzi bankdır. Bank sisteminin aşağı mərhələsi – bunlar, bazar iqtisadiyyatı prinsipi ilə işləyən, kredit resurslarını müstəqil səfərbər və istifadə edən kommersiya banklarıdır.

Kommersiya bankları universal və ixtisaslaşdırılmış banklara bölünürlər. Universal banklar bütün və ya, demək olar ki, bütün bank əməliyyatlarını (bütün növlərdən olan əmanətlərin qəbulunu, qısamüddətli və uzunmüddətli kreditlərin verilməsi, qiymətli kağızlarla əməliyyatlar və s.), istənilən mülkiyyət formasında və istənilən sahədə təsərrüfat subyektlərinə, eləcə də əhaliyə xidmət göstərilməsini həyata

MUHASIBAT.AZ

keçirir. İxtisaslaşdırılmış banklar bir və ya bir neçə bank əməliyyatlarını həyata keçirirlər.

Birmərhələli bank sistemindən fərqli olaraq, ikimərhələli bank sistemi banklar arasında şaquli və üfqi qarşılıqlı münasibətlər üzrə quruculuğa əsaslanır. *Şaquli üzrə qarşılıqlı münasibətlər* – bu, rəhbər, idarəedici mərkəz kimi mərkəzi bank ilə aşağı həlqələr (kommersiya bankları və ixtisaslaşdırılmış banklar) arasında tabelik münasibətləridir. *Üfqi üzrə qarşılıqlı münasibətlər* – bu, müxtəlif aşağı həlqələr arasında bərabərhüquqlu partnyorluq münasibətləridir. Belə münasibətlər zamanı təsərrüfata xidmət göstərilməsi ilə bağlı inzibati və operativ funksiyaların bölgüsü baş verir. Mərkəzi bank sözün tam mənasında yalnız kommersiya bankları və ixtisaslaşdırılmış lar üçün, habelə hökumət strukturları üçün bank olaraq qalır. Onun üçün üstünlük təşkil edən «banklar bankı» funksiyası və kredit-maliyyə xidmətləri bazarının fəaliyyətini tənzimləmə və ona nəzarət etmə məqsədilə bank təsisatlarının fəaliyyətini idarə etməkdir.

Banklar, icra etdikləri funksiyaların spesifikasından asılı olaraq emissiya və qeyri-emissiya banklarına bölünürlər. Emissiya bankları, bir qayda olaraq, pul nişanlarının tədavülə emissiyası hüququna malik olan mərkəzi banklardır. Bunlar müxtəlif ölkələrdə xalq, milli, rezerv, mərkəzi adlanır.

Bank təsisatlarının son dərəcə çoxluğu və rəngarəngliyinə baxmayaraq, onların müxtəlif ölkələrdə fərqli birləşmələri, ikimərhələli bank sisteminin mövcud olması mərkəzi banka imkan verir ki, iqtisadi metodların vasitəsilə bankların fəaliyyətini tənzimləsin və ictimai istehsal prosesinə təsir göstərsin. Ona görə də qlobal planda bank fəaliyyətinin tənzimlənilməsi bank sistemindən makroiqtisadi tənzimləmədə instrument kimi istifadə olunmasına səbəb olur. Sağlam banklararası rəqabətin inkişaf etdirilməsi və banklara etimadın

MUHASIBAT.AZ

böhranının qarşısının alınması müasir iqtisadi nəzəriyyə tərəfindən onların səmərəli fəaliyyət göstərməsinin əsas şərti kimi qiymətləndirilir.

MUHASIBAT.AZ

13.3. İXTİSASLAŞDIRILMIŞ KREDİT-MALİYYƏ TƏSİSATLARININ (İNSTİTUTLARININ) XARAKTERİSTİKASI

Müasir pul-kredit münasibətləri ixtisaslaşdırılmış kredit-maliyyə təsisatlarının (İKMT) fəaliyyəti olmadan təsəvvür edilməzdir. İxtisaslaşdırılmış kredit-maliyyə təsisatlarının fəaliyyəti əksər hallarda pul-maliyyə bazarının kiçik seqmentinə xidmətdə təmərküzləşir və, bir qayda olaraq, spesifik müştərilərə (məsələn, lombard və ya faktorinq) xidmət göstərilməsinə yönəlib. Ona görə də İKMT və ya parabank təsisatlarını ya müəyyən tip müştərilərə xidmət göstərilməsinə orientasiya, ya da bir-iki əməliyyatın (xidmətin) həyata keçirilməsi fərqləndirir.

İKMT üçün ikili tabeçilik xarakterikdir:

- kredit-hesablaşma əməliyyatlarının həyata keçirilməsi ilə bağlı olduqlarından İKMT-ları mərkəzi bankın müvafiq normativ sənədlərini rəhbər tutmağa məcburdurlar;
- hər hansı maliyyə, sığorta, investisiya və ya digər əməliyyatlar sahəsində ixtisaslaşan İKMT-ları müvafiq idarələrin tənzimləyici fəaliyyəti altına düşürlər.

İxtisaslaşdırılmış kredit-maliyyə təsisatlarına lizinq firmalarını (şirkətlərini), faktorinq firmalarını (şirkətlərini), lombardları, kredit birliklərini, cəmiyyətləri, ittifaqları, qarşılıqlı kredit cəmiyyətlərini, sığorta cəmiyyətlərini, investsiya fondlarını (şirkətlərini), pensiya fondlarını, maliyyə şirkətlərini, hesablaşma (klirinq) mərkəzlərini və s. aid etmək olar.

Poçt-əmanət sistemini formalaşdıran *poçt-əmanət təsisatları* İKMT-nin xüsusi növüdür. Həmin sistemin ən mühüm və qocaman ünsürlərindən biri tarixən xırda əmanətçilərin vəsaitlərinin cəlb olunması üzrə dövlət müəssisələri kimi meydana çıxan poçt-əmanət

MUHASIBAT.AZ

banklarıdır. Poçt-əmanət müəssisələri poçt şöbələri vasitəsilə əhalinin əmanətlərini toplayır, vəsaitəlrin qəbulu və ödənilməsini həyata keçirirlər. Son dövrlərdə ölkələrin əksəriyyətində poçt-əmanət təsisatlarının banklar üçün xarakterik olan kredit-hesablaşma əməliyyatları getdikcə daha geniş yayılır, müxtəlif kredit təsisatları tərəfindən göstərilən xidmətlərin fəaliyyət cismi və növünə dair bank qanunvericiliyinin müddəaları ilə maliyyə qanunvericiliyi sahələri arasındakı hədlər getdikcə daha çox silinir.

Dünya kredit sistemində *əmanət bankları* xüsusi yer tutur. Ölkələrin əksəriyyətində onlar dövlətin və ya xüsusi şəxslərin təşəbbüsü ilə xırda əmanətlərin cəlb olunması və onların ümumi mənafe naminə (dövlətə, yerli özünüidarə orqanlarına yardım), bu zaman mənfəət əldə etmək məqsədi güdülmədən, istifadə olunması üçün yaradılmışdır. Hazırda əmanət banklarının xüsusi hüquqi statusu vardır və onların fəaliyyəti və imtiyazları əhaliyə aşağı faizlə mənzil tikintisi üçün uzunmüddətli kredit götürməyə imkan verən xüsusi normativ aktlarla tənzimləilir. Əmanət banklarının böyük gəlirləri olmur, mənfəətləri isə cüzi olur. Bu, onunla şərtlənir ki, əmanət banklarının başlıca məqsədi mənfəət əldə etmək deyil, dövlətə və əhaliyə xidmət göstərməkdən ibarətdir, özü də bütün ölkələrdə əmanət kassaları və əmanət bankları əhalinin bütün əmanətlərinin xeyli hissəsini cəlb edirlər (adətən üçdə birindən yarısınadək).

Rusiyada Sankt-Peterburq əmanət kassası 1842-ci ildə təsis olunmuşdur və o dövrdə kassalar əmanətlərə dövlət zəmanətindən istifadə edirdilər. Oktyabr inqilabından sonra bütün bank müəssisələri milliləşdirildi. Əmanət bankı sovet hakimiyyəti illərində bir çox islahatlara məruz qaldı, lakin dövlət siyasətinin həyata keçirilməsi instrumenti olaraq qaldı. Hazırda Əmanət bankında vətəndaşların əmanətlərinin 70%-dəki saxlanılır.

MUHASIBAT.AZ

ABŞ-da 5 mindən artıq təsisat mövcuddur ki, onları əmanət bankı (hərfən – «ailə iqtisadiyyatı müəssisəsi») adlandırmaq olar. Faktiki olaraq bu müəssisələr ABŞ-ın digər banklarına nisbətdə xüsusi mütəşəkkillik saxlayırlar. Lakin bir sıra tədbirlərin həyata keçirildiyi hallarda (bank fəaliyyətinə qoyulan bir sıra məhdudiyyətlərin götürülməsi və tənzimləmə orqanlarının yenidən qurulması) kommersiya və əmanət bankları arasındakı həddsilinəcək.

Lombardların, kredit birliklərinin, qarşılıqlı kredit cəmiyyətlərinin (QKC) İKMT-na aid edilməsi bir sıra şərtlərə söykənir. Belə ki, *lombardlar* tərpənən əmlakın girov qoyulması ilə ssuda verən kredit təsisatlarından ibarətdir. Lombardlar tarixən sələmçi kredit xüsusi müəssisələri meydana çıxmışdır. Hazırda dövlətin və özəl kapitalının lombardların fəaliyyətində iştirak etməsi səviyyəsindən asılı olaraq dövlət lombardları, kommunal lombardları, özəl lombardları, qarışıq tipli lombardlara (özəl və dövlət kapitallarının iştirakı ilə) ayrılır.

Lombardlar tərpənən əmlakın, o cümlədən qiymətli metalların və daşların (qiymətli kağızlar istisna olmaqla) girov şəklində qoyulması ilə istehlak kreditliyi üzrə ixtisaslaşır. Əsasən qısamüddətli (3 ayadək) ssudalar girov qoyulan əmlakın 50%-dən 80%-dək həcmdə verilir. Ssuda ilə yanaşı müştərilərinin dəyərlərinin girovla saxlanılması, habelə girov qoyulmuş əmlakın komission əsasda satılması praktikasından da istifadə olunur.

Lombardlar tərəfindən kredit əməliyyatlarının təşkilinin xüsusiyyətləri müştəri ilə kredit müqaviləsinin olmamasından və girov öhdəliyinin olmamasından ibarətdir. Girovla ssuda verilən zaman müştəri bir qayda olaraq, qeydiyyat jurnalında qeydiyyat nömrəsi olan təqdim edənə girov bileti (girov və ssuda verilməsi faktını təsdiqləyən digər sənəd) alır və orada borc alanın rekvizitləri və sövdənin əsas şərtləri göstərilir. Kredit sövdələrinin əksəriyyəti üzrə güzəştli müddət

MUHASIBAT.AZ

qoyulur və həmin müddət başa çatdıqdan sonra girov qoyulmuş əmlak satıla bilər.

Kredit birlikləri, cəmiyyətləri və ittifaqları – ayrı-ayrı şəxslər qrupu və ya xırda kredit müəssisələri tərəfindən yaradılmış kredit kooperativləridir. Kredit ittifaqları iki əsas tipdə olur:

1) fiziki şəxslərin professional və ya ərazi əlamətləri üzrə qısamüddətli istehlak krediti vermək məqsədilə təşkil olunmuş;
2) müstəqil kredit birliklərinin, məsələn, ssuda-əmanət birliklərinin, kredit qarşılıqlı yardım cəmiyyətlərinin, kooperativlərin könüllü birləşməsi şəklində və s.

XX əsrin sonlarına kredit ittifaqları dünyanın 90-dan çox ölkəsində fəaliyyət göstərir və 95 mln.-dək adamı birlişdirirdilər. Eyni zamanda 55 min kredit ittifaqının məcmu aktivləri 4,3 mln. ABŞ dollarından artıq idi. Kredit ittifaqları Kanada, ABŞ, İrlandiya, Avstraliya, Cənubi Koreya, Tayvanda daha çox inkişaf etmişdi. Praktiki olaraq hər yerdə iki əsas vəzifəni yerinə yetirən kredit ittifaqları barədə xüsusi qanunvericilik mövcuddur:

- vətəndaşların qarşılıqlı yardım üçün birləşmiş qeyri-kommersiya təşkilatları kimi kredit ittifaqlarının maraqlarının müdafiəsi;
- kredit ittifaqlarının payçılarının özlərinin kredit ittifaqlarının yol verilən fəaliyyət növlərinə məhdudiyyətlər qoymaq və kredit ittifaqlarına nəzarət etmək yolu ilə maraqlarının müdafiəsi.

Kredit ittifaqlarında bir qayda olaraq, birgə iş və ya yaşayış yerinə görə bir-birlərini yaxşı tanıyan adamlar birləşirlər. Kiçik həcmlər, etimadlı münasibətlər, eləcə də əlçatarlıq və etibarlılıq kredit ittifaqını xırda əmanətçi üçün cəlb edir. Kredit ittifaqlarının kapitalı payların ödənişi, üzvlərin vaxtaşırı üzvlük haqqı vermələri, habelə istiqrazların buraxılması hesabına formalaşır. Onların əsas əməliyyatları əmanətlərin cəlb olunması və istiqrazların buraxılması, , öz üzvlərinə təminatla ssuda verilməsi və veksellərin uçotu, ticarət-vasitəçi və

MUHASIBAT.AZ

komission əməliyyatlar, öz üzvləri üçün konsaltinq və auditor xidmətlərin göstərilməsindən ibarətdir.

İlk başlanğıcda kredit ittifaqlarının yaradılması kortəbii xarakter daşıyırdı, lakin sonralar əsas prinsiplər işlənilib hazırlandı və 1994-cü ildə Ümumdünya kreditlər ittifaqı şurası tərəfindən təsdiq olundu. Kredit ittifaqlarının fəaliyyəti aşağıdakı prinsiplərə əsaslanır:

- kredit ittifaqları demokratik institutlardır;
- üzvlüyün açıqlığı və könüllülüyü, onun xidmətlərindən istifadə etməyə razı olan və müvafiq öhdəlikləri öz üzərlərinə götürməyə hazır olan kredit ittifaqlarının bütün üzvlərinin maraqlarına əməl olunması. Bu zaman irqi, milli, cinsi əlamətlərə, dini və siyasi əqidəyə görə diskriminasiya qadağan edilir;
- idarəçiliyin kredit ittifaqlarının üzvlərinin kredit ittifaqının işləri üzrə səsvermə zamanı (bir üzv – bir səs) bərabər hüquqlardan, yatırımların, əmanətin həcmindən, və ya biznesin miqyasından asılı olmayaraq istifadə etmələri ilə bağlı olan demokratğikliyi;
- kredit ittifaqlarının fəaliyyətinin demokratikliyinə nəzarət edilməsini nəzərdə tutan demokratik nəzarət ümumi və ya xüsusi yığıncaqlar tərəfindən həyata keçirilir ki, həmin yığıncaqlarda idarəetmə orqanlarının hesabatları dinlənilir və müzakirə olunur, İdarə heyətinin və onun komitələrinin üzvlərinin açıq seçilməsi həyata keçirilir;
- qarşılıqlı yardım, kredit ittifaqlarının üzvləri özlərinə və bir-birlərinə yardım etməklə bütün cəmiyyətin maddi rifanın yüksəlməsinə yardım edirlər;
- kredit ittifaqlarının qarşılıqlı fəaliyyətinə uyğun olaraq kooperativ hərəkatının ənənələri əsasında kredit ittifaqları bir-birləri ilə, kooperativlərlə, onların yerli, dövlət və beynəlxalq səviyyədə birlikləri ilə öz üzvlərinin tələbatlarını daha yaxşı təmin etmək üçün fəal şəkildə qarşılıqlı fəaliyyət göstərirlər;

MUHASIBAT.AZ

- müxtəlif şəraitlərə uyğunlaşa bilmə və yeni xidmətlər yarada bilmə qabiliyyəti sayəsində kredit ittifaqlarına öz üzvləri üçün səmərəli maliyyə yardımı nəzərdə tutan yaradıcı yanaşma.

Kredit ittifaqları və ya birlikləri öz üzvlərinə – kooperativlərə, icarə müəssisələrinə, xırda və orta biznesə, fiziki şəxslərə kredit-hesablaşma xidməti göstərmək üçün yaradılır. Kredit birliklərinin kapitalı payların alınması və daxil olma zamanı mütləq üzvlük haqqının ödənilməsi yolu ilə formalaşır və o üzvlükdən çıxan zaman geriyə qaytarılmır. Əsas passiv əməliyyatlar əmanətlərin cəlb olunması və istiqrazların yerləşdirilməsidir. Əsas aktiv əməliyyatlar – ssuda, komission, ticarət-vasitəçilik əməliyyatlarıdır.

Kənd təsərrüfatı krediti cəmiyyəti (KTKC) kredit birliklərinin növlərindən biridir və onun təsisçiləri mərkəzi, kommersiya və ixtisaslaşmış bankların şöbələri, hökumət strukturları, fiziki və hüquqi şəxslərdir. Əsas fəaliyyət istiqaməti – kənd təsərrüfatına yardım və kredit-hesablaşma xidmətinin göstərilməsi, inventarların, mal-qaranın, toxumun, gübrənin alınmasına, meliorasiya və digər işlərin və s. çəkilən xərclərin kreditləşdirilməsidir. KTKC-nin müştəriləri rolunda kəndli təsərrüfatları, fermerlər, habelə kənd təsərrüfatı müəssisələridir. KTKC-nin əsas əməliyyatları qısamüddətli və ortamüddətli ssudaların verilməsi və əmanətlərin qəbul edilməsi, eləcə də vasitəçilik fəaliyyətidir.

KTKC-nin fəaliyyətinin təşkilindəki xüsusiyyətlər əhəmiyyətli vergi imtiyazlarından ibarətdir: KTKC-ləri mədaxilə vergi ödəməkdən azad edilirlər, onların payçıları isə vergilərin ödənilməsi zamanı vergi güzəştlərindən, yaxud da vergilərin ödənilməsi zamanı möhlət hüququndan istifadə edirlər.

Qarşılıqlı kredit cəmiyyətləri (QKC) xarakterinə görə bankların fəaliyyətinə yaxın olan kredit təsisatlarının xüsusi növüdür, xırda və orta biznesə xidmət göstərir. QKC-ləri fiziki şəxslər və ya xırda

MUHASIBAT.AZ

sahibkarlıq subyektləri tərəfindən maliyyə maraqlarının ümumiliyi əsasında könüllü birləşmə ilə yaradılır. QKC-rin yaradılmasından məqsəd üzvlərinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılmasına yönəldilmiş xidmət göstərilməsindən ibarətdir. QKC-in fəaliyyəti üçün aşağıdakılar xarakterikdir:

- QKC elə təşkilatdır ki, onun üzvləri müəyyən struktur və normalar çərçivəsində (oyun qaydalarında) fəaliyyət göstərirlər;
- QKC tam hüquqi təşkilatdır və iştirakçılar onun daxilində öz ictimai-faydalı fəaliyyət yolu ilə öz vəsaitlərini könüllü əsasla sərbəst birləşdirmək və azad seçmək konstitusion hüquqlarını həyata keçirirlər;
- QKC hüquqi şəxs statuslu təşkilatdır;
- QKC qeyri-kommersiya təşkilatıdır və onun məqsədi öz fəaliyyəti nəticəsində mənfəət əldə etmək və əldə olunmuş mədaxili onun iştirakçıları arasında bölüşdürmək deyil, lakin QKC-nin mədaxilsizliyi ideyası təşkilatın maliyyə dayanıqlığına nail olunması və onun inkişafı üçün gəlir əldə etməyə mane olmur;
- QKC istehlak kooperatividir, çünki o insanların özləri arasında üzvlükdə könüllü əsasla, üzvlərinin pul payı üzvlük haqları yolu ilə həyata keçirilən birləşməsini bildirir. Ona görə də istehlak kooperasiyasının ümumi normativ-hüquqi bazası QKC-yə də şamil edilir.

QKC-nin iştirakçıları cəmiyyətin kapitalını üzvlük haqları hesabına formalaşdıran həm fiziki, həm də hüquqi şəxslər ola bilər. QKC üzvlüyünə qəbul prosedurunun özünəməxsus xüsusiyyətləri vardır, məsələn, qəbul komitəsi (komissiyası) üzvlüyə daxil olanın kredit qabilliyini dəyərləndirir, qəbul olanın təqdim etdiyi qarantiya və zaminliyi analiz edir, təminat kimi qoyduğu əmlakı qəbul edir və

MUHASIBAT.AZ

dəyərləndirir, onun üçün ayrılan kreditin mümkün maksimal həddini müəyyənləşdirir.

Daxil olma zamanı QKC üzvlərinin hər biri müəyyən kredit (məsələn, öz pay üzvlük haqqının ödənişi kimi ona açılan kreditin 10-30%-i) daxil edir və öz şəxsi borcları üzrə, habelə ona açılan kreditin məbləğinə bərabər həcmdə QKC əməliyyatları üzrə məsuliyyət daşıyacağını öhdəsinə götürür.

QKC-nin qərarı ilə onun ayrı-ayrı üzvlərinə üzvlük haqqının həcmi onun üçün ayrılmış kreditin məbləği dəyişdirilmədən artırıla bilər. QKC-dən çıxış zamanı onun iştirakçısı (cəmiyyətə çatası kreditin ödənişi ilə), əgər cəmiyyətin itkisi varsa, iştirakçının payına düşən əsas borc məbləğini ödəyir. Bundan sonra üzvlükdən çıxana onun üzvlük haqqı və yatırdığı əmlak özünə qaytarılır.

QKC-nın əsas məqsədinin requlyar əmanətlərin təmin olunması və öz üzvlərinə kredit vermək olduğundan, hazırda bu məqsədin realizasiyası üçün bir sıra konkret servis modelləri işlənilib hazırlanılmış və tətbiq olunmuşdur. Daha çox işlənilib hazırlanılmış və dünya ölkələrinin əksəriyyətinin əhalisi arasında populyar olan QKC xidmətləri aşağıdakılardır:

- sadə əmanət hesablarını (həmin hesablar üzrə əmanətin minimal həddi qoyulmur, açılan hesabların sayı və hesablarda saxlanılan pul vəsaitlərinin həcmi məhdudlaşdırılmır, faizlər isə QKC idarə heyəti tərəfindən müəyyənləşdirilir və təkrar baxılır) özündə müncər edən əmanət hesabları, müddətli əmanət hesabları (konkret müddət üçün əmanətin müəyyən həcmi müəyyənləşdirilir və sadə əmanət hesabına nisbətən daha yüksək faiz ödənilir), tələb olunanadək əmanətlər (bu hesabla çeklər, veksellər və plastik debet kartları üzrə hesablaşmalar aparılır, faiz stavkası isə həmişə sadə əmanət hesabındakından daha az olur), ayrı-ayrı əmanətçilər qrupu üçün, məsələn, pensiya

MUHASIBAT.AZ

hesabları üzrə, onların vergi imtiyazları almalarından ötrü xüsusi hesab (adətən uzun müddət üçün ayrılır və onlar üzrə daha yüksək faizlər müəyyənləşdirilir);

- təminatsız və ya «imza ilə kredit»i özündə müncər edən kredit (adətən bərpa olunmur, çünki kreditin qaytarılmasından sonra müqavilə qüvvəsini itirir), təminatlı kredit (şəxsi qarantiyalar əsasında, şəxsi əmlak əsasında və tərpənməz əmlak əsasında), bərpa oluna bilən kredit (daha geniş yayılmış növü kredit kartları və kredit xətləridir), kommersiya krediti (borc alanın öz gəlirlərinin alınması məqsədi ilə götürdüyü istənilən kredit).

Hazırda bir sıra maliyyə təsisatları var ki, onlar birbaşa kredit-maliyyə təsisatlarının tərkibinə daxil olmurlar, amma onlara çox yaxındırlar. *Sığrta müəssisələri* onlara aiddir.

Sığortalanma depozit (borc) və trast üsullarına əlavə olaraq xüsusi şəxslərin vəsaitlərinin səfərbər olunması üsuludur. Sığorta şirkətləri ayrı-ayrı adamlardan sığorta haqlarını (mükafatları) toplayır ki, həmin vəsaitləri müəyyən dövrdən sonra müəyyən şərtlərin başa çatması ilə özlərinə qaytarsınlar. Sığortaların bəzi növləri bank əmanət yatırımlarından fərqlənmir, digərləri isə onunla fərqlənir ki, qaytarılma prinsipi qrupdakı adamların hər birinə ayrılıqda deyil, bütövlükdə insanlar qrupuna aid təmin olunur.

Sığorta əməliyyatları özləri özlüyündə sığorta şirkətlərinə mənfəət gətirmirlər, çünki onlar bunu müştərilərin onların sərəncamlarında olan müvəqqəti üzvlük haqlarının investisiyasından götürürlər. Sığorta şirkətləri faktiki olaraq, kredit üsulları ənənələri olan eyni bazarda əhalinin əmanətlərini cəlb etmək üçün (özəl pensiya fondları, trast şirkətləri, investisiya fondları, sığorta şirkətləri və s. ilə) birbaşa rəqabət aparırlar.

Sığorta şirkətləri aktiv əməliyyatlar üzrə rəqabət aparmalı olurlar ki, bu da onları eyni pul-kredit sırasına daxil edir. Bundan əlavə,

MUHASIBAT.AZ

bankların özləri də valyuta risklərinin sığortası, ixrac kreditlərinin sığortası və s. kimi sığorta əməliyyatları ilə məşğul olurlar. Faktiki olaraq, kommersiya veksellərinin indeksləşdirilməsi, (ödənişli) bank qarantiyalarının göstərilməsi kimi xalis bank əməliyyatları da öz mahiyyəti etibarı ilə sığorta əməliyyatıdır.

Maliyyə şirkətləri qiymətli kağızlar bazarının formalaşması və inkişafına yardım məqsədi ilə əmələ gətirilir, müvəqqəti sərbəst pul vəsaitlərinin onların sonrakı investisiyalaşdırılması və s. məqsədi ilə səfərbərliyə alınması məqsədilə yaradılır. Onlar qiymətli kağızlar üzrə kommersiya və vasitəçilik fəaliyyətini həyata keçirir, pul vəsaitlərini qiymətli kağızlarda yerləşdirir, müxtəlif növ konsaltinqlər keçirir, qiymətli kağızların emissiyası və s. ilə məşğul olurlar. Bəzən də onlar uzunmüddətli istehlak mallarının möhlətlə satışının, eləcə də tərpənməz əmlakla bağlı əməliyyatların kreditləşdirilməsi ilə məşğul olurlar. Maliyyə şirkətlərinin kapitalı təsisçilərin üzvlük haqları, öz fəaliyyətlərindən əldə olunan müxtəlif növ gəlirlər hesabına formalaşır.

Pensiya fondları ayrı-ayrı müəssisələr və ya müəssisələr qrupları (xüsusi pensiya fondları) və dövlət sektoru tərəfindən yaradılmış pensiya kassaları məcmusundan ibarətdir. Pensiya fondları muzdlu işçilərin və sahibkarların üzvlük haqlarını akkumulyasiya edir, həmin pul vəsaitlərini idarə edir, əmanətçi pensiyaya çıxdıqda isə ona ya birdəfəlik məbləğ ödənilir, ya da ömürlük pensiya verilir. Pensiya fondunun müəssisə səviyyəsində daha geniş yayılması ABŞ-da, Yaponiyada, bir çox anqlosaks ölkələrində vüsət tapmışdır. Fransada, Belçikada və digər Qərbi Avropa ölkələrində onlar, bir qayda olaraq, sahə prinsipi üzrə, Skandinaviya ölkələrində isə – ümumdövlət miqyasında yaradılır.

Hazırda pensiya fondları arasında aşağıdakılar daha geniş yayılmışdır:

MUHASIBAT.AZ

- təsbit olunmuş müavinətli fond, bu zaman pensiya sığortası haqqında müqaviləyə uyğun olaraq müntəzəm ödənilən pensiyanın həcmi əvvəlcədən müəyyənləşdirilir;
- təsbit olunmuş üzvlük haqqı ilə fond, bu zaman müqavilə yalnız müştərinin pensiya fonduna üzvlük haqqının həcmini müəyyənləşdirir, onun pensiyasının həcmi isə onun üzvlük haqqının məbləği və pensiya fondunun vəsaitlərinin yerləşdirilməsindən əldə olunan gəlirlərin həcmi ilə müəyyənləşdirilir;
- pay iştirakları fondu, bu zaman işə götürülən öz mədaxilinin bir hissəsini fonda daxil edir, pensiya fondu həmin pul vəsaitlərini investisiya edir və əldə olunan mənfəətdən pensiya ödəyir.

İnvestisiya fondları xırda və orta investorların müvəqqəti sərbəst pul vəsaitlərinin öz qiymətli kağızlarının buraxılması və sonradan həmin pul vəsaitlərinin mədaxil əldə edilməsi məqsədiylə digər hüquqi şəxslərin qiymətli kağızlarında yerləşdirilməsi yolu ilə cəlb olunması üzrə ixtisaslaşır. İnvestisiya fondları faktiki olaraq maliyyə vasitəçisi rolunda çıxış edirlər, borc öhdəlikləri üzrə ikiqat mübadilə isə onları maliyyə münasibətlərinin, pul vəsaitlərinin kreditorlardan borc alanlara yerdəyişməsinə yardım edən digər subyektlərindən (broker və dilerlərdən) fərqləndirir, lakin öz borc öhdəliklərini emitasiy

Azərbaycan etmirlər. İnvestisiya fondlarının sərt iş rejimi vardır, yəni onların fəaliyyətlərində ilk başlanğıcdan əsas məqsədləri səfərbərliyə alınmış pul vəsaitlərinin sərbəst manevri və əldə olunan mənfəət hesabına biznesi genişləndirmək kimi əsas vəzifə deyil. Bu, investisiya fondlarının fəaliyyətində mövcud olan bir sıra məhdudiyyətlərlə izah edilir, məsələn, yalnız qiymətli kağızlarla əməliyyatlara yönəldilmə, bütün gəlirlərin səhmdarlar arasında bölüşdürülməsi və s.

MUHASIBAT.AZ

Hesablaşma-kassa mərkəzlərinin meydana çıxması hüquqi və fiziki şəxslər üçün kompleks bank xidmətlərinin göstərilməsi zərurəti ilə bağlıdır. Hesablaşma-kassa mərkəzləri hesabların (o cümlədən müxbir hesablarının) açılması üzrə əməliyyatlar keçirirlər, pul vəsaitlərinin müvafiq hesablara qəbulunu və daxil edilməsini həyata keçirir, müxtəlif növ ödənişlər aparır, konsaltinqlər verir və s.

Yüksək inkişaf etmiş ölkələrdə hazırda trast-şirkət, trast-bank, investisiya və etimad fondları formasında ixtisaslaşdırılmış bank təsisatları geniş yayılmışdır.

Səhmdar banklarından fərqli olaraq, yuxarıda adı çəkilən təsisatlar öz fəaliyyətləri haqqında və əmanətçilərin cəlb edilmiş əmanətləri haqqında hakimiyyətə və ya hər hansı başqa birinə məlumat verməyə borclu deyil. Belə banklar müştərilərin vəsaitlərini depozitlər və ya ssudalar formasında deyil, məsul saxlama müqaviləsi əsasında cəlb edirlər ki, bu da onlara müştərilərinin işləri haqqında məlumatları yaymağı qanunla qadağan edən özəl hüquqçu statusunu təmin edir. Ona görə də əksər hallarda özəl fəaliyyət göstərən hüquqçular və ya hüquqi və konsaltinq maliyyə şirkətləri belə trast-banklar kimi çıxış edirlər.

Lakin səhmdar banklar müştərilərin vəsaitlərini trast əsasla getdikcə daha fəal şəkildə cəlb edirlər. Belə əməliyyatları Amerika Birləşmiş Ştatları, AFR və İsveçrə bankları xüsusilə geniş aparırlar. İsveçrədə həm də müstəqil özəl banklar (məşhur İsveçrə «cırtan(qnom)»ları) deyilən banklar da mövcuddur ki, onlar öz müştəriləri üçün faktiki olaraq qiymətli kağızlar və pul vəsaitləri portfellərinin sərəncamçısı olan fərdi və birgə (ailəvi) müəssisə formasını saxlayırlar. Belə banklar faiz ödəmirlər, əksinə, müştərilərdən onların vəsaitlərinin saxlanılması və idarə olunması üçün haqq alırlar.

Bu formalarda müştərək və fərdi investisiya bankları və evləri, habelə ssudasaxlayıcı assosiasiya kimi özünəməxsus kredit təsisatları,

MUHASIBAT.AZ

kredit ittifaqları, kredit kooperativləri mövcuddur. Belə təsisatların özəlliyi ondan ibarətdir ki, onlar yalnız öz üzvlərinin əmanətlərini qəbul edə və onlara ssuda verə bilər, hərçənd onlar öz ehtiyat vəsaitlərinin bir qismini hökumətin məsləhət bildiyi (təklif etdiyi) «birinci dərəcəli qiymətli kağızlarda» yerləşdirə bilərlər, ona görə də onların bütün mədaxil və məsrəfləri belə təsisatın hər bir iştirakçısına avtomatik olaraq bölüşdürülür.

Pul-kredit münasibətləri sferası fond və sığorta (lloyd) birjalarını, pul(inhisar növü nəzərdə tutulur – tərcüməçi)ları (qızıl, almaz), valyuta bazarlarını, bank-kredit klublarını özündə birləşdirən mütəşəkkil bazarlar kimi özünəməxsus təsisatları özündə birləşdirir. Öz mütəşəkkillik və uzunömürlülük səviyyəsinə görə onların bir çoxu adi maliyyə-kredit təsisatlarına tam bərabər tutula bilər, öz rollarına görə isə onlar ən iri bank təsisatlarından geri qalmırlar. Ona görə də müasir kredit-pul münasibətləri ixtisaslaşdırılmış kredit təsisatlarının (ssudasaxlayıcı assosiasiyalar, kredit ittifaqları, kredit kooperativləri və s.), habelə kredit-maliyyə təsisatlarının tərkibinə daxil olan sığorta təsisatları və mütəşəkkil maliyyə bazarlarının fəaliyyəti olmadan təsəvvür edilməzdir.

Özünü yoxlama üçün suallar

1. Kredit sistemi nədir və hansı həlqələrdən ibarətdir?
2. Nə üçün bank sistemi kredit sistemində aparıcı rol oynayır?
3. Bank sistemi hansı əlamətinə görə parabank sistemindən fərqlənir?
4. Bank sisteminin hansı modelləri olur?
5. Mərkəzi bankın kommersiya bankından fərqi nədən ibarətdir?

MUHASIBAT.AZ

6. İxtisaslaşdırılmış kredit-maliyyə təsisatları üçün səciyyəvi olan nədir?
7. Parabank sisteminin əsas həlqələrinin fəaliyyəti nədən ibarətdir?

MUHASIBAT.AZ

14. MƏRKƏZİ BANK VƏ ONUN FƏALİYYƏT MEXANİZMİ

14.1. MƏRKƏZİ BANKIN, ONUN MƏQSƏDLƏRİ, VƏZİFƏLƏRİ, FUNKSİYALARI VƏ ƏMƏLİYYATLARININ XARAKTERİSTİKASI

İstənilən inkişaf etmiş dövlətin müasir bank sisteminin əsas elementi mərkəzi bankdır. O rəsmi pul-kredit siyasətinin daşıyıcısıdır və büdcə-vergi və pul siyasəti ilə birgə faktiki olaraq bütünlüklə iqtisadiyyatın dövlət tənzimləməsinin əsasını təşkil edir.

Mərkəzi bankların meydana çıxması banknot emissiyasının daha etibarlı, kommersiya banklarının ümumi etimadını qazanmış az sayda əldə cəmlənməsinin mərkəzləşdirilməsi ilə bağlıdır və onların banknotları uğurla kredit vəsaitləri dövriyyəsi funksiyasını yerinə yetirə bilərdi. Belə banklar emissiya bankları adlanmağa başlandı. Müvafiq qanun çıxaran dövlət bu prosesə fəal şəkildə yardım göstərdi, belə ki, ssuda verilməsi üçün çoxsaylı xırda banklar tərəfindən buraxılmış banknotlar emitentin bankrot olduğu hallarda dövriyyə qabiliyyətindən məhrum olurdular.

Tarixən mərkəzi bankla hökumət arasında sıx əlaqələr yaranmışdır. Lakin bu, o demək deyil ki, dövlət məhdudsuz olaraq mərkəzi bankın siyasətinə təsir göstərə bilər. Məsələn, qızıl standartın mövcud olduğu dövrdə mərkəzi bank hökumətə münasibətdə xüsusi mövqeyə o səbəbdən malik idi ki, o özünün diskont siyasəti və onunla bağlı kredit həcminə, qızıl ehtiyatları və banknot emissiyasına təsir etməklə pulun alıcılıq qabiliyyyətinə nəzarət edə bilirdi və bununla da qanun tərəfindən müəyyən edilmiş pul staandartının qorunması üçün məsul idi. Ona görə də hətta o müasir dövlətlər ki, iqtisadiyyatın bazar sektorunun fəaliyyətinə minimum qarışmaq prinsipinə üstünlük verirlər, emissiya prosesinin bir çox bank təsisatları arasında

MUHASIBAT.AZ

xırdalanmasını mümkünsüz hesab edirlər. Bu, onunla şərtlənir ki, pul emissiyasının mərkəzi bankda təmərküzləşməsinin bütün iqtisadiyyatın səmərəli fəaliyyət göstərməsi üçün mühüm əhəmiyyəti vardır.

Ona görə də pul tədavülünün tənzimlənilməsinin bazar metodlarının üstünlüyü emissiya prosesinin mərkəzləşdirilməsindən, pul kütləsi həcminin səmərəli idarə olunmasından, dövlət büdcəsinin inflyasiyasız kreditləşdirilməsindən ibarətdir. Bazar iqtisadiyyatlı ölkələrdə pul tədavülünün həcminə bərk nəzarət edilməsi yalnız ona görə mümkündür ki, mərkəzi bankın pul-kredit siyasəti, milli məhsulun fiziki həcmi və artım tempi, qiymətlərin səviyyəsi, faiz stavkalarının həcmi, işsizlik səviyyəsi də daxil olmaqla, mühüm makroiqtisadi göstəricilərə bilavasitə təsir göstərir. Pul tədavülünün sabitliyinin mühafizə edilməsi dövlət siyasətinin başlıca məqsədidir və buna görə də iqtisadiyyatın maddi-maliyyə tarazlaşdırılmasına çox hallarda başqa, daha qısamüddətli məqsədlərə (iqtisadi artımın cari tempi də daxil olmaqla) xələl sayəsində nail olunur.

İqtisadiyyatın inzibati idarəetmə sistemi şəraitinndə iqtisadiyyatın – qiymətlərin səviyyəsi, faiz stavkaları və istehsalın fiziki həcmi kimi mühüm göstəriciləri mərkəzləşdirilmiş qaydada müəyyənləşdirilirdi, onların planlaşdırılmış səviyyədə saxlanılmasına çox hallarda pul tədavülünə xələl gətirilməsi sayəsində mümkün olurdu. Mühüm makroiqtisadi göstəricilərə mərkəzi bankın pul-kredit siyasətinin birbaşa təsirinin olmaması səmərəsizlikdən xəbər verir, iqtisadiyyatın inzibati-amirlik idarəetmə metodlarına əsaslanan balanslaşdırılmaması isə labüd hala çevrilir.

Keçmiş SSRİ-də sözün geniş mənasında faktiki olaraq pul kütləsi anlayışı istifadə olunmurdu, bir qayda olaraq, tədavüldə pul kimi yalnız nəqd formada pul başa düşülürdü. Müvafiq olaraq tədavüldə olan pul kredit-pul tənzimləməsinin iki başlıca obyektlərindən biri idi. İkinci obyekt rolunu SSRİ banklarının kredit yatırımlarının həcmi

MUHASIBAT.AZ

oynayırdı. Xarakterik haldır ki, sadalanan hər iki göstərici ilə idarəetmə prosesi bir birindən kifayət qədər təcrid olunmuş şəkildə həm planlaşdırılma mərhələsində, həm də operativ tənzimləmə mərhələsində mövcud idilər. Tədavüldəki nəqd pulların planlaşdırılmış həcmi SSRİ Dövlət Bankının kassa planı ilə təyin edilirdi, kredit yatırımlarının həcmi isə ümumi kredit planında müəyyən edilirdi. Ümumi kredit planının korrektəsi və ya onun faktiki icrasının xüsusiyyətləri, bir qayda olaraq, kassa planının icrası üzrə əməliyyatlarla uzlaşdırılmırdı.

Ona görə də keçmiş SSRİ-də pul tədavülünün tənzimlənilməsini sırf inzibati, iqtisadiyyatdankənar kimi xarakterizə etmək olar. Tədavüldəki nəqd pulların miqdarı və kredit yatırımlarının həcmi SSRİ Dövlət Bankı tərəfindən (digər dövlət orqanları ilə birlikdə) təyin olunmuş ümumi plan üzrə kreditləşdirmənin limitləşdirilməsi və kassa planı üzrə nəqd pulların tədavülə buraxılışının limitləşdirilməsi ilə tənzimlənilirdi. SSRİ-nin digər ixtisaslaşdırılmış bankları üçün nəzərdə tutulan limitlər rəsmi «kredit resursları limitləri» adını daşıyırdı, hərçənd iqtisadi mahiyyətinə görə həmin limitlər əslində kredit yatırımları limitləri kimi, yəni aktiv kredit əməliyyatlarının aparılması üçün limitlər kimi dəyərləndirilməli idi.

Müasir mərkəzi banklar nəinki inzibati metodlardan (kommersiya banklarının fəaliyyətinə birbaşa məhdudiyyətlərin qoyulması, yoxlama və təftişlərin aparılması, təlimatların nəşr olunması, hesabatların toplanılması və ümumiləşdirilməsi və s.-dən) istifadə edirlər, həm də bank sisteminin fəaliyyətinin tənzimlənilməsi üçün iqtisadi instrumentlərə (minimal rezerv tələbləri siyasətinə, uçot stavkasının tənzimlənilməsinə, açıq bazarda əməliyyatlara) malikdirlər. Nəzərə almaq lazımdır ki, xarici təcrübənin mexaniki əxz olunması nəinki milli iqtisadiyyatın inkişafına kömək etməyəcək, eyni zamanda ona xələl də gətirə bilər. Xarici bank sistemindən ayrı-ayrı elementlərin «çıxarılıb gətirilməsi» və onların digər elementlərdən təcrid olunmuş halda milli

MUHASIBAT.AZ


xüsusiyyətlər nəzərə alınmadan milli praktikaya tətbiq olunması xüsusilə təhlükəlidir. Ona görə də mərkəzi bankın iqtisadiyyatda rolu, fəaliyyət məqsədi və funksiyalarının aydınlaşdırılması zamanı ilk növbədə onun dövlətdən bağımsızlıq dərəcəsi məsələsi ortaya çıxır. Bu çox mühümdür, belə ki, bir sıra ölkələrdə qanunvericilik dövlətin mərkəzi bankın pul-kredit siyasətinə ciddi müdaxiləsinə yol verir.

Mərkəzi bankların öz müstəqilliklərini qorumalarında aşağıdakılardan ibarət olan bir sıra ənənələrdə müşahidə olunur:

- dövlətdə mərkəzi bankın vəziyyətinə cəmiyyətin siyasi strukturu, onun pul-kredit siyasətinin yeridilməsi zamanı mərkəzi bankın öz məqsədləri və vəzifələrinin olmasına yardım edən siyasi ənənələri, qərarların qəbul olunması zamanı muxtariyyətliyin olub-olmaması hədsiz təsir göstərir;
- pul-kredit siyasətinin yeridilməsi zamanı mərkəzi bankla hökumət arasında sıx əlaqələndirmənin mövcudluğu yüksək dərəcədə bağımsız mərkəzi banklar üçün xarakterikdir ki, bu da bütövlükdə iqtisadi siyasətin səmərəliliyinə kömək edir;
- mərkəzi bank pul-kredit siyasətinin (ilk öncə qiymət sabitliyi, inflyasiya, xarici borclara, büdcə defisitinə xidmət) işlənilib hazırlanması və həyata keçirilməsi zamanı xüsusi statusa nail olmağa çalışır və eyni zamanda icraedici hakimiyyətin siyasi və iqtisadi qərarlarından təcrid olunmuş şəkildə fəaliyyət göstərə bilməz ki, bu da mərkəzi bankın iqtisadiyyatda optimal duruma nail olunma prosesində ziddiyyətlərə və çətinliklərə gətirib çıxarır.

Faktiki olaraq mərkəzi bankın bağımsızlığını onun statusu mövqeyindən və pul-kredit siyasətinin 14.1 şəklində göstərilən müstəqillik kimi nəzərdən keçirilə bilər.

MUHASIBAT.AZ



Şəkil 14.1. Mərkəzi bankın statusu və pul-kredit bağımsızlığı

14.1 şəkildə mərkəzi bankın bağımsızlığının anlaşılmasına ikili yanaşmanın verilməsi bu problemin durumu haqqında daha dolğun mənzərə yaradır. Lakin nəzərə almaq lazımdır ki, mərkəzi bankın mövcud bağımsızlıq dərəcəsi onun fəaliyyətinin səmərəliliyinin zəruri şərti olmaqla çox hallarda hökumətin qısamüddətli məqsədləri ilə qarşı-qarşıya durur. Bu, büdcə kəsirlərini qapatmaq üçün mərkəzi bankın resurslarından istifadə etməsi zamanı hökumətin imkanlarının məhdudlaşdırılması planında xüsusilə vacibdir. Eyni zamanda mərkəzi bankın hökumətdən bağımsızlığı nisbi xarakterə malikdir. Uzunmüddətli planda mərkəzi bankın siyasəti hökumətin iqtisadi kursunun prioritetləri ilə birbaşa müəyyənləşdirilir. Son hesabda istənilən mərkəzi bank bu və ya digər dərəcədə bankın dövlətdən nisbi müstəqilliyi və dövlət orqanı olmasını uzlaşdırır.

Bir çox ölkələr mərkəzi bankın kapitalı bütünlüklə dövlətə məxsusdur (İngiltərə, Fransa), amma kommersiya bankları və digər maliyyə təsisatları da səhmdar ola bilərlər. Əksər hallarda mərkəzi

MUHASIBAT.AZ

bank bilavasitə parlament, yaxud da xüsusi bank komissiyası qarşısında təhtəlhesabdır. Mərkəzi bankın müdiri hökumətə daxil olmur, onun təyinatı yeni hökumətin təşkili ilə və dövlətin başçısının vəzifəsində olması ilə bağlı deyil.

Mərkəzi bankın nisbi bağımsızlığı onun, adətən antiinflyasion iqtisadi artımın təmin olunması məqsədilə pul-kredit və valyuta sabitliynin dəstəklənməsi zərurəti kimi ilə şərtlənir. Lakin həmişə mərkəzi bankın bağımsızlığının obyektiv hüdudları olur, çünki hökumətlə yaranan ziddiyyətlər sonuncunun apardığı iqtisadi siyasətin səmərəliliyini sıfıra endirə bilər. Ona görə də bir sıra dövlətlərdə maliyyə nazirinin simasında hökumətin təsirinin gücləndirilməsi tendensiyası mövcuddur.

Avropada ən nüfuzlu və bağımsız Almaniyada Bundesbankdır, Fransa Bankı bütünlüklə hökumətdən asılıdır, İngiltərə Bankı onların arasında ortaq bir mövqe tutur. İtaliyada mərkəzi bankın rəhbərliyi, hökumətin mütəmadi olaraq dəyişməsinə baxmayaraq, kifayət qədər sabitdir.

Bir sıra dövlətlərdə mərkəzi bankın yüksək rəhbərliyinin vəzifədə qalma müddəti məhdudlaşdırılmamışdır (Danimarka, Finlandiya, Norveç) və ya uzun müddətə (İrlandiyada, Avstriya, Kanada, Niderlandda yeddi il, AFR-da səkkiz il) təyin olunur. Bu, onunla şərtlənir ki, bir qayda olaraq, qısamüddətli və ortamüddətli iqtisadi məqsədləri, nəyin dövlətin strateji, uzunmüddətli maraqlarına zidd ola biləcəyini hökumət qərara alır. Belə situasiyada nisbətən bağımsız mərkəzi bank bir növü əks çəki rolunda çıxış edir.

Qeyd etmək lazımdır ki, mərkəzi bank tərəfindən hökumətin birbaşa kreditləşdirilməsi yoxdur (Amerika Birləşmiş Ştatları, Kanada, Yaponiya, İngiltərə, İsveçrə) və ya bu qanunvericiliklə məhdudlaşdırılmışdır (Almaniya, Fransa, Hollandiya). Məsələn, Avstriya Mərkəzi bankının haqqında qanunda (1984) yazılmışdır ki,

MUHASIBAT.AZ

hakimiyyət orqanları mərkəzi bankdan yalnız qızıl və xarici valyuta ilə yüzfaizli təminatlı borc götürə bilər və götürülən hər borc əməliyyatı ayrıca sazişlə təsbit olunur. Bu halda mərkəzi bank dövlət borclarının ödənilməsi üçün kredit verərkən dövlət öhdəliklərinin satın alınmasına qarşı əlavə pul vəsaitlərini, müvafiq məbləğin maliyyə nazirliyinin hesablaşma hesabına köçürməsi yolu ilə tədavülə buraxır.

Dövlət ilə ölkənin bank sistemi arasında vasitəçi rolunu oynayan mərkəzi bankın məramı müəyyən instrumentlərin köməkliyi ilə pul və kredit axınını tənzimləməkdən ibarətdir. Kredit sisteminin və ssuda kapitalları bazarlarının inkişaf etməsi ilə bağlı olaraq mərkəzi bankın pul kütləsinə tələb və təklifə birbaşa təsir göstərə bilmək imkanları azalmışdı, amma bununla belə, pul-kredit tənzimlənilməsinin arsenalı genişlənmiş və bazar instrumentlərinin səmərəliliyi artmışdır.

Mərkəzi bank tərəfindən həyata keçirilən *pul-kredit tənzimləməsi* dövlətin iqtisadi siyasətinin elementlərindən biridir və tədavüldə pul kütləsi həcminin, kreditlərin həcminin, faiz stavkalarının səviyyəsinin və ssuda kapitalları bazarının dəyişdirilməsinə yönəldilmiş tədbirlər məcmusundan ibarətdir. O sabit iqtisadi inkişafa, aşağı səviyyəli inflyasiya və işsizliyə nail olunmasına istiqamətlənmişdir. Mərkəzi bank haqqında qanunlarda pul tədavülünün və milli valyuta kursunun sabitliyi barədə onun məsuliyyəti xüsusi qeyd olunur.

Mərkəzi bankın göstərilən tədbirləri realizə edə bilmə qabiliyyəti yüksək səviyyədə təşkil olunmuş və səmərəli fəaliyyət göstərən pul-kredit bazarına, habelə iqtisadiyyatın müxtəlif sektorlarında və dövlətin bütün regionlarında faiz stavkalarının nisbi sabitliyinə əsaslanır. Amma iqtisadi münasibətlərin aşağı səviyyədə olduğu ölkələrdə pul-kredit siyasətinin iqtisadiyyatın qısamüddətli sabitləşməsi üçün («incə tənzimləmə») istifadə olunması imkanları kifayət qədər məhduddur.

MUHASIBAT.AZ

İqtisadi tənzimləmənin digər dövlət metodları ilə qarşılıqlı əlaqədə ixrac-idxal və valyuta əməliyyatları bölümündə vergi siyasəti və gömrük qanunvericiliyin bir hissəsi sayılan mərkəzi bankların tənzimləyici tədbirləri investisiya prosesinə təsir edir, işgüzar aktivliyin inkişafını stimullaşdırır və ya qabağını alır və son hesabda iqtisadi tsiklin mürəkkəb fazalarının keçilməsini yumşaldır və öz ölkəsinin və həmin ölkənin daxil olduğu dövlətlərarası iqtisadi birliyin təsərrüfat mexanizminin balanslaşdırılmış inkişafını təmin edir.

İnkişaf etmiş ölkələrdə mərkəzi bankların əməliyyat apardıqları əsas göstəricilər – istehsalın ümumi artımı (və ya milli gəlir), qiymətlərin və inflyasiyanın indeksləri, məşğulluq əmsalı (işsizlik səviyyəsi), ölkənin ödəməqabillik balans durumu və onun dünya təsərrüfat sistemində yeri rol oynayır. Ona görə də pul-kredit siyasətinin işlənilib hazırlanılmasına iqtisadi inkişafın müəyyən nəticələrinə nail olunması üzrə məsələlərin formalaşması, yəni milli gəlirin artımı və ÜDM (ümumi daxili məhsul), həyat səviyyəsi və əhalinin məşğulluğu, qiymətlərin müəyyən səviyyəsi və inflyasiya, ödəniş balansının balanslaşdırılması, qarşıya qoyulmuş vəzifələrə nail olunması metodlarının əsaslandırılması (əldə olunmuş sosial-iqtisadi inkişaf və investisiya prosesində kredit-pul tənzimləməsi imkanlarından çıxış edərək) daxildir.

Oxşar halda bir neçə alternativ variant hazırlanır ki, onlardan da ən optimalı, dövlətin iqtisadi inkişafının əsasına qoyulan konsepsiya seçilir. Konsepsiyaya uyğun olaraq milli pul vahidinin sabitliyinin və kredit bazarında faiz stavkalarının müəyyən səviyyəsinin saxlanılması üzrə pul kütləsinin optimal həcmi və strukturu, kreditləşdirmənin və digər məqsədlərin prioritet istiqamətlərinin dəstəklənməsi üçün *mərkəzi bankın konkret məqsəd və vəzifələri* müəyyənləşdirilir.

Müasir şəraitdə istənilən mərkəzi bankın əsas məqsədi milli pul vahidinin dayanıqlığını dəstəkləməkdən və məqbul həddədək (ildə 3-

MUHASIBAT.AZ

5%) inflyasiyanı məhdudlaşdırmaqdan ibarətdir. Mərkəzi bankın belə məqsədləri dünya praktikasında ümumməqbul sayılır. Bəzən mərkəzi bankların fəaliyyət göstərmə məqsədləri daha geniş şərh olunur:

- ölkə daxilində və dünya bazarında milli pul vahidinin dayanıqlığının və alıcılıq qabiliyyətinin təmin olunması, iqtisadi artım üçün əlverişli şəraitin yaradılmasından ötrü inflyasiyanın minimallaşdırılması;
- iqtisadiyyatda hesablanma mexanizminin fəaliyyət göstərməsinin təşkili də daxil olmaqla, ölkənin kredit-bank sisteminin səmərəli inkişafının təmin olunması.

Mərkəzi bankın əsas məqsədinin realizasiyasının çətinliyi adətən ondan ibarət olur ki, müəyyən göstəricilər üzrə yaxşı nəticələrin əldə olunması, bir qayda olaraq, digər göstəricilərin pisləşməsinə səbəb olur. Məsələn, investisiyanın stimullaşdırılması inflyasiyanı sürətləndirir, gəlirlərin artırılması hesabınaişgüzar fəallığın yüksəlməsi, adətən qiymətlərin artması ilə müşayiət olunur. Eyni zamanda inflyasiyaya qarşı mübarizəyə və ödəmə balansının yaxşılaşdırılmasına yönəldilmiş tədbirlər iqtisadi inkişafı zəiflədir və əhalinin məşğulluq göstəricisini pisləşdirir. Ona görə də mərkəzi bank ardıcıl olaraq, konkret iqtisadi situasiyadan asılı olaraq gah bu, gah da o birlərinə üstünlük verməklə tənzimləyici tədbirlər görməlidir.

Mərkəzi bankın pul-kredit siyasəti iqtisadiyyatın tənzimlənilməsinin ən mühüm instrumentidir. Xüsusən də pul-kredit mexanizminin pozulması bütün təsərrüfat həyatının vəziyyətinə çox pis təsir göstərir, belə ki, məsələn, pul kütləsinin çoxluğu inflyasiyaya, pul vahidinin alıcılıq qabiliyyətinin aşağı düşməsinə, kapitalın ucuzlaşmasına, və, əksinə ödəniş vəsaitlərinin çatışmazlığı iqtisadi inkişafın imkanlarını məhdudlaşdırır, ödəməmə adlandırılan böhranın meydana çıxmasına gətirib çıxarır. Buna görə də tamamilə qanunauyğundur ki, müasir bazar iqtisadiyyatı şəraitində kredit

MUHASIBAT.AZ

münasibətləri daha çox geniş yayılır, nəqdsiz hesablaşma praktikası genişlənir, mərkəzi bankın nəzarətedici və tənzimləyici funksiyası artır.

Pul-kredit siyasətinin ümumi məqsədləri mərkəzi bank tərəfindən pul tədavülünün cari vəziyyətinin və bütövlükdə bank sisteminin xüsusiyyətləri nəzərə alınmaqla müəyyənləşdirilir. Pul tədavülünün sabitləşdirilməsi məqsədi (məsələn, XX əsrin 70-ci illərində bir sıra kapitalist ölkələrində sürətli inflyasiya şəraitində, indi isə keçmiş SSRİ-nin dövlətləri üçün xarakterik olan), milli valyutanın sabitləşməsinə nail olunması (ənənəvi olaraq, məsələn, AFR-in mərkəzi bankı tərəfindən, indi isə MDB ölkələri üçün tamamilə aktual olan), dövlət borcunun tənzimlənilməsi və ya bank sisteminin sabitliyinin təmin olunması mərkəzi bankın pul-kredit siyasətinin başlıca məqsədi sayıla bilər.

Pul-kredit siyasətini işləyib hazırlayan və realizə edən *mərkəzi bank aşağıdakılardan ibarət olan bir sıra mühüm funksiyaları yerinə yetirir*:

- kredit pulların emissiyası;
- bank təsisatlarının fəaliyyətinə nəzarət və onu yoxlama;
- dövlət borcunun idarə olunması və dövlət büdcəsinin idarə olunması;
- «son instansiya kreditor» və «banklar bankı» rolunun icra olunması;
- hökumətin kredit-hesablaşma xidmətinin göstərilməsi;
- mərkəzi bankın kreditlər üzrə rəsmi uçot stavkası da daxil olmaqla, bankların fəaliyyətində iqtisadi cəhətdən əsaslandırılmış limit və normativlərin müəyyənləşdirilməsi;
- kommersiya banklarının mütləq rezervlərinin saxlanılması;
- onların realizasiyasında pul-kredit və valyuta siyasətinin prioritet məqsədlərinin müəyyənləşdirilməsi;

MUHASIBAT.AZ

- kommersiya banklarının kreditləşdirilməsi (yenidən maliyyələşdirilməsi);
- iqtisadiyyatın pul-kredit tənzimləməsinin səmərəli mexanizminin formalaşdırılması;
- k-redit-maliyyə institutlarının hüquqi əsasları və fəaliyyət prinsiplərinin, qısamüddətli və uzunmüddətli kredit əməliyyatları bazarlarının, habelə ölkədə tədavüldə olanö sənədləri növlərinin müəyyənləşdirilməsi;
- rəsmi qızıl-valyuta rezervlərinin saxlanılması;
- elmi tədqiqatların aparılması və s.

Yuxarıda sadalanan funksiyaların mərkəzi banka həvalə edilməsi bank sisteminin səmərəli fəaliyyət göstərməsinin təmin olunmasına imkan verir. Mərkəzi bankın sadalanan funksiyaların həyata keçirilməsi üçün geniş regional təsisatlar və mərkəzi aparat şəbəkəsi vardır.

Həmin funksiyalara uyğun olaraq *mərkəzi bankın aktiv-passiv əməliyyatları* qurulur. Onun resurslarının mühüm mənbəyi balans passivindəki əsas maddələrdən birini təşkil edən pul nişanlarının emissiyasıdır. Mərkəzi bankın passiv əməliyyatlarının formalaşdırılmasında bankların rezerv-müxbir hesablarındakı vəsait qalıqları, hökumət strukturları və təşkilatların hesablarındakı vəsait qalıqları, bankın kapitalı (fondlar) və rezervləri, digər passivlər əhəmiyyətli rol oynayır. Aktiv əməliyyatlar arasında daha əhəmiyyətli olan əməliyyatlar dövlət qiymətli kağızları ilə olan əməliyyatlar, qızıl-valyuta dəyərlərinə yatırımlar, kassa nəqdiyyatı ilə olan əməliyyatlar, ssuda və təkrar hesablama əməliyyatlarıdır.

Mərkəzi bank tərəfindən həyata keçirilən əməliyyatlara aşağıdakıları aid etmək olar:

- təkrar maliyyələşdirmə qaydası ilə kommersiya banklarının kreditləşdirilməsi;

MUHASIBAT.AZ

- hökumətə və digər dövlət orqanlara hesablaşma və kassa xidmətinin göstərilməsi;
- veksellərin və digər pul öhdəliklərinin təkrar uçotu;
- qiymətli kağızlarla əməliyyatlar;
- inkassasiya, pul nəqdiyyatının, valyuta və digər dəyərlərin daşınması;
- qızıl-valyuta rezervləri, xarici valyutanın idarə olunması, qiymətli metallar və bahalı daş-qaşlar üzrə əməliyyatlar;
- qiymətli metalların külçə, təbii tapıntı, sikkə şəklində, eləcə də qiymətli daşların alınması, satışı və dəyişdirilməsi;
- banklararası hesablaşmalar;
- dəyərlərin saxlanılmaya qəbul olunması;
- pul köçürmələri və digər hesablaşma əməliyyatları;
- valyuta əməliyyatları;
- xarici dövlətlərin hökumətlərinə, mərkəzi banklarına və həmin ölkələrin maliyyə orqanlarına, habelə beynəlxalq təşkilatlara bank xidmətlərinin göstərilməsi;
- dövlət qiymətli kağızlarının yayılması üzrə hökumətin maliyyə agenti kimi vasitəçilik xidmətlərinin göstərilməsi;
- dövlət borcu və s. üzrə xidmətlərin göstərilməsi üzrə əməliyyatlar.

Mərkəzi banklar nə kommersiya təşkilatlarıdır, nə də bu sözün ənənəvi anlamında dövlət idarəetmə orqanı deyil. Xarakterik haldır ki, dövlət, bir qayda olaraq, emissiya hüququnu yalnız bir banka həvalə edir, belə ki, bütün banklara emissiya hüququnun verilməsəi ölkədə pul tədavülünü poza bilərdi. Emissiya bankının, heç bir bankın malik olmadığı iri vəsaitləri vardır, çünki onun passivləri büdcə vəsaitləri və tədavüldə olan pul nəqdiyyatıdır. Bu mərkəzi banka imkan verir ki, bütün başqa banklara köməklik göstərsin və onların fəaliyyətinə rəhbərlik etsin. Ona görə də emissiya bankı ölkədə bank işinin təşkili

MUHASIBAT.AZ

üzrə mərkəzə çevrilir və bütün digər banklar və sairə kredit təsisatları onun ətrafında cəmləşirlər.

Mərkəzi bankın *emissiya fəaliyyəti* onunla bağlıdır ki, o ölkədə banknot buraxılışı üzrə inhisarçı hüquqa malikdir. Banknotlar yeganə qanuni ödəniş vasitəsidir və borcların ödənilməsi üçün qəbulu mütləqdir. Banknot «özülü» bank hesablarında qalıqlar şəklində saxlanılan və çeklərin, tədiyə tapşırıqlarının, jirobiletlərin və s. köməkliyi ilə hərəkətə gətirilən nəhəng nəqdsiz pul üstqurumunu saxlayır.

Hərçənd banknot «özülü» pul kütləsinin nisbətən kiçik hissəsini təşkil edir, bununla belə, iqtisadiyyatda pul ehtiyatının müstəsna dərəcədə mühüm hissəsini təşkil edir. Banknot buraxılışını tənzimləməklə və kommersiya banklarının mərkəzi bankdakı hesabda öz depozitlərinə qarşı öhdəliklə saxlamalı olduqları mütləq rezervlərin məbləğini müəyyənləşdirməklə mərkəzi bank iqtisadiyyatda kreditlərin dinamikası və dəyərinə nəzarəti həyata keçiririr.

Banklar və digər kredit təsisatları üçün müxtəlif növ xidmətlərin göstərilməsi onu bildirir ki, mərkəzi bank «banklar bankıdır». O öz fəaliyyətində mənfəət əldə etmək məqsədi güdür, habelə maliyyə bazarlarında kommersiya bankları və digər kredit təsisatları ilə rəqabət aparmır. Mərkəzi bank iqtisadiyyatı fasiləsiz olaraq ödəniş vasitələri ilə təchiz etməlidir və ya zəruri likvidlik səviyyəsini təmin etməli və hesablaşma sistemini sahmana salmalıdır.

Mərkəzi bank *kommersiya bankları və digər kredit təsisatları üçün «son instansiyada kreditor»* rolunu icra edir. Bu onu bildirir ki, omüvəqqəti çatışmayan likvid vəsaitlərinin yerinin doldurulması üçün borc alanlardan uçot stavkası tutmaqla qısamüddətli kreditlər verir. Bu kreditlər bir qayda olaraq, ticarət vekselləri, dövlət qiymətli kağızları və ya bankların özəl borc öhdəlikləri ilə təmin olunmalıdır.

MUHASIBAT.AZ

Mərkəzi bank *ümumi pul dövriyyəsində nəqdsiz hesablaşmaların payını artırmaq* siyasəti yeritməyə çalışır. O sui-istifadələrin qarşısını almaq, sabit işi təmin etmək və müflislik riskini azaltmaq məqsədilə kredit təsisatlarının fəaliyyətinə nəzarəti həyata keçirir. Bunun üçün mərkəzi bank digər dövlət nəzarət orqanları ilə sıx təmasda işləyir. O hökumətin baş bankiri və maliyyə məsləhətçisidir və buna görə də hökumət idarə və təsisatlarının hesablarını idarə edir, vergiləri və digər daxilolmaları akkumulyasiya (cəmləşdirir) edir, xəzinədarlığın tapşırığı ilə ödənişləri həyata keçirir, bazarda yeni dövlət qiymətli istiqrazlarının emissiyası və yerləşdirilməsi üzrə əməliyyatlar aparır, hökumətin xahişi ilə kredit verir, öz portfeli üçün dövlət qiymətli kağızlarını satın alır, maliyyə və ümumiqtisadi məsələlər üzrə hökumətin və digər dövlət orqanlarının məsləhətçisi kimi çıxış edir.

Mərkəzi bank *ölkənin qızıl-valyuta rezervlərini saxlayır*. Bir çox ölkələr tərəfindən XX əsrin 20-30-cu illərində qızıl standartın ləğv edilməsindən sonra metal (qızıl) ehtiyatı emissiyanın məhdudlaşdırıcısı rolunu oynamaqdan kənarlaşdırıldı və beynəlxalq ödənişlərdə zəmanət-sığorta fondu kimi istifadə olunmağa başladı. Mərkəzi bank qiymətli metallardan başqa iri miqyasda xarici valyuta ehtiyatı saxlayır ki, valyuta bazarına müdaxilə yolu ilə öz valyutasının mübadilə kursunu saxlaya bilsin.

MUHASIBAT.AZ

14.2. MƏRKƏZİ BANK TƏRƏFİNDƏN PUL TƏDAVÜLÜNÜN TƏNZİMLƏNİLMƏSİ

Nəqd və nəqdsiz formada pul tədavülü və ya pulun hərəkəti aktiv şəkildə təkrar istehsal prosesinin axınına təsir göstərir. Ona görə də pul sferasının parametrlərinə onların tənzimlənilməsi yolu ilə şüurlu şəkildə təsir göstərmək nəinki təkcə pul və ssuda kapitallarının fəaliyyət göstərməsi üçün təsir üsulu deyil, həm də bütövlükdə iqtisadiyyatın tənzimlənilməsi üsulu kimi vacibdir. Bu təsirin makrosəviyyədə baş verməsindən tənzimləmənin əsas subyekti onun mərkəzi bankının simasında dövlətin özüdür.

Pul-kredit tənzimləməsinin (PKT) böyük əhəmiyyəti vardır, çünki tətbiq olunan üsullar eyni dərəcədə səmərəlilik səviyyəsinə malik deyil. Onların bəziləri tam muxtar olur, digərləri isə bir sıra instrumentlərlə mütləq təchizata möhtac olurlar. Pul-kredit tənzimləməsi instrumentlərinin seçilməsi müəyyən dərəcədə onların tənzimləməli olduqları kredit sisteminin tərkibi və struktur xarakteristikası ilə müəyyən edilir, ona görə də *pul-kredit tənzimləməsi* üsulları ayrı-ayrı ölkələr üzrə fərqlənir.

Pul-kredit tənzimləməsi sistemində təkrar maliyyələşdirməyə kəmiyyət və dəyər səmərəsinə malik siyasət kimi baxılır, həm də kəmiyyət səmərəsi təkrarmaliyyələşdirmə ölçüsündə və pul kütləsinin dəyişməsi həcmində, dəyər səmərəsi isə təkrarmaliyyələşdirmə kəmiyyətinə və bank likvidliyinə təsirdə və ifadə olunur, belə ki, təkrarmaliyyələşdirmə dəyərinin dəyişməsi kommersiya bankları tərəfindən resurslara olan tələbatın səviyyəsinə təsir edir. Təkrarmaliyyələşdirmənin son məqsədi bankların likvidliyi üzərində nəzarətdən ibarətdir.

Ümumi halda *təkrarmaliyyələşdirmənin* özü iqtisadiyyatın maliyyələşdirilməsi sahəsində bank siyasətidir. Təkrarmaliyyələşdirmə dedikdə daha konkret olaraq mərkəzi bankın kommersiya banklarına

MUHASIBAT.AZ

kredit tənzimlənilməsinə göstərdiyi yardım başa düşülür. Bu, onunla əlaqədardır ki, kommersiya bankları müstəqil şəkildə iqtisadiyyatın kreditə olan tələbatını tam ödəməyə qadir deyillər. Təkrarmaliyyələşdirmə konyunktura, nəzərdə tutulmuş məqsəd, bankların funksional strukturu, kommersiya banklarının mərkəzi bankdan asılılıq səviyyəsindən asılı olaraq müxtəlif üsüllarla həyata keçirilə bilər.

Təkrarmaliyyələşdirmə zamanı mütləq rezervlər normasının uçot stavkası, açıq bazar əməliyyatları, mərkəzi bankın pul bazarında ya alternativ, ya da birdəfəlik istifadə olunan müxtəlif müdaxilə növləri üsulu daha tez-tez tətbiq olunur. Müxtəlif ölkələrdə təkrarmaliyyələşdirmə metodlarının nisbəti müxtəlifdir ki, bu da bir çox amillərlə öncədən müəyyənləşdirilir. Lakin bu metodların istifadə olunmasının ümumi şərti kommersiya banklarının öz resurslarını «qidalandırma» ehtiyaclarında olmalarından ibarətdir.

Pul tədavülünün tənzimlənilməsi mərkəzi bankın fəaliyyətində mühüm istiqamətlərdən birini təşkil edir. Bu, onunla əlaqədardır ki, bir tərəfdən məhdud istiqamətləndirilmiş, konkret və kəmiyyətcə asan ifadə oluna bilən, pul tədavülünə təsir edən tənzimləmə metodları sanballı makroiqtisadi nəticələr əldə etməyə imkan verir. Makroiqtisadi nəticələr isə bütövlükdə iqtisadiyyatın fəaliyyət göstərməsinin maliyyə şərtlərini formalaşdırır, iqtisadiyyatın dövlət tərəfindən istifadə olunan digər tənzimləmə üsullarının kəsərliliyini müəyyənləşdirir. Bu zaman pul tədavülünün tənzimlənilməsi sferasında dövlət tənzimləyicisi orqanı və bank sisteminin aparıcı elementi kimi onun sabitliyində maraqlı olanmərkəzi bankın və nəinki maraqlarının üst-üstə düşməsi baş verməlidir, həm də mərkəzi bankın bazar mexanizminin müxtəlif elementlərinə məqsədyönlü və kompleks təsiri realizə olunmalıdır. İndiki halda pul-kredit tənzimləməsində istifadə olunan metodların nəinki təkcə konkret pul-kredit məqsədlərinə və iqtisadi

MUHASIBAT.AZ

konyunkturanın durumuna, həm də daha spesifik vəzifələrə, yəni mövcud milli maliyyə sisteminin xüsusiyyətlərinə, bank sisteminin inkişaf səviyyəsinə və pul bazarı instrumentlərinə, pul bazarının bazar mexanizminin digər seqmentləri ilə və ya blokları ilə uyğun gəlməsi mühüm şərtdir.

İqtisadiyyatın həm makroiqtisadi tənzimlənilməsi sahəsindəki uğurları və ya uğursuzluqları, həm də xalqın rifahı istənilən dövlətin mərkəzi bankının apardığı pul-kredit siyasətindən asılıdır. Buradan aydındır ki, pul-kredit tənzimləməsi dövlətin iqtisadi həyatına təsirin ən mühüm instrumentidir, elə buna görə də pul-kredit mexanizminin pozulması bütün təsərrüfat həyatının durumuna fəlakətli təsirini göstərir. Məsələn, pul kütləsinin həddən ziyadə çoxluğu inflyasiyaya, pul vahidinin alıcılıq qabiliyyətinin aşağı düşməsinə, kapitalın qiymətdən düşməsinə səbəb olur və ya, əksinə, ödəniş vəsaitlərinin çatışmazlığı iqtisadi yüksəlişin imkanlarını məhdudlaşdırır, ödənişsizlik böhranı deyilən vəziyyətin meydana çıxmasına səbəb olur. Ona görə də müasir bazar iqtisadiyyatı şəraitində mərkəzi bankların nəzarətedici və tənzimləyici funksiyalarının artması tamamilə qanunauyğundur.

Pul-kredit siyasəti instrumentlərinin seçimi kifayət qədər genişdir. İnstrumentlərin müxtəlif növlərinin istifadə olunması ölkənin iqtisadi siyasətinin yönümündən, onun iqtisadiyyatının açıqlığı səviyyəsindən, təşəkkül tapmış ənənədən və konkret şəraitdən asılı olaraq dəyişir. Xarici iqtisadi ədəbiyyatda pul-kredit siyasəti valyuta müdaxilələrinin, uçot stavkalarının dəyişilməsinin aparılması yolu ilə, habelə milli pul vahidinin durumuna təsir göstərən digər instrumentlərlə milli valyutanın sabitliyini təmin edən «dar» və tədavüldəki pul kütləsinin həcminə bilavasitə təsir edən «geniş» siyasətə bölünür. Bu təsir tədbirləri bir-birləri ilə bağlıdır və bir-birlərini qarşılıqlı şəkildə şərtləndirirlər. Son hesabda istənilən mərkəzi bankın milli pul vahidinin sabitliyinin qorunması və inflyasiya səviyyəsinin məhdudlaşdırılması ilə

MUHASIBAT.AZ

bağlı əsas məqsədinin həyata keçirilməsinə yönəldilir. Bu məqsədin realizasiyası ümumdövlət iqtisadi siyasətinin prioritetlərindən təcrid olunmadan həyata keçirilir. Bu prioritetlərdən ən başlıcası iqtisadi yüksəlişin iqtisadiyyatın maliyyə (pul) resurslarına olan tələbatının ödənilməsi ilə əlaqəli dəstəklənməsidir.

Postsovet dövlətlərində pul-kredit siyasətinin aparılmasına iki cür yanaşma mövcuddur. Birinci yanaşmanın tərəfdarları hesab edirlər ki, pul-kredit siyasəti sərt olmalıdır, belə ki, yalnız bu halda inflyasiyanı cilovlamaq və iqtisadiyyatın tənzimlənilməsinə monetarist yanaşmanı realizə etmək mümkündür. İkinci yanaşmaya görə istehsalın sabitləşdirilməsi və canlandırılması məqsədi ilə kredit emissiyasından fəal istifadə olunmalıdır. Bu, onunla əsaslandırılır ki, transformasiya olunan iqtisadiyyat inflyasiya şəraitinə kifayət qədər tez uyğunlaşır. Belə nöqteyi-nəzər mövcuddur ki, ölkədə yaranmış təsərrüfat şəraitinə uyğun olaraq iqtisadi inkişafın hər bir konkret mərhələsində mərkəzi bank tərəfindən bu mərhələyə xas olan pul-kredit tənzimləməsi konsepsiyası işlənilib hazırlanmalıdır. Birinci nöqteyi-nəzərin tərəfdarları pul kütləsinin sıxılması və yalnız yüksək effektli istehsalın kreditləşdirilməsi zərurətindən çıxış edirlər. İkinci nöqteyi-nəzərin tərəfdarları hesab edirlər ki, bu, iqtisadiyyatın real və maliyyə sektorlarının gəlirliliyndəki fərqləri aradan qaldırmır.

Xarakterik haldır ki, pul kütləsi barədə məsələ pula olan tələb və təklif arasında makroiqtisadi müvazinətin saxlanılması problemi ilə bağlıdır. Monetarist və keynsian məktəbləri buna müxtəlif cür şərh verirlər, lakin monetaristlərlə keynsiançılara arasındakı makroiqtisadi müvazinətin saxlanılması problemi haqqındakı mübahisəyə baxarkən o faktı qeyd etmək lazım gəlir ki, onların diskussiyası real təsərrüfatda nisbi qiymətlərin mütləq çevik olub-olmamasına gəlib çıxır. Lakin, qiymət amilini bir kənara qoyaraq və yalnız pul amilinə əsaslanmaqla monetaristlər məktəbinin əsas nümayəndəsi M.Fridmen hesab edir ki,

MUHASIBAT.AZ

iqtisadiyyatda pulun təklifi ekzogen xarakter daşıyır, yəni iqtisadi sistemin hüdudlarından xaricdəki (hökumət nəzərdə tutulur) qüvvələrlə müəyyənləşir və güman edir ki, pul təklifindəki dəyişikliklər bilavasitə onlara olan tələblərin dəyişilməsi ardınca baş vermir, sərbəst baş verir.

Neokeynsiançılar monetaristlərin pulun ekzogen təklifi barədə iddialarına qarşı çıxış edirlər, belə ki, onların fikrincə bu, praktika ilə təsdiq olunmur (C.M.Keynsin əsərlərində pulun təklifinin ekzogen xarakteri haqqında fikirə yer verilirdi). Onlar hesab edirlər ki, pulun təklif olunması bilavasitə ona olan tələbdən asılıdır və endogen xarakter daşıyır. Bununla belə, monetaristlərlə digər cərəyanlar arasında müasir mübahisələrin mahiyyəti ondan ibarətdir ki, bu, istehsalın neoklassik nəzəriyyəsi ilə pulun kəmiyyət nəzəriyyəsinin analizi aparılmadan başa düşüləsi deyil.

Bu məsələnin nəzəriyyəsindəki fərqin praktiki xarakteri vardır. Monetaristlərin ideyasına inanıb, güman etsək ki, pula olan tələb sabitdir və əvvəlcədən müəyyənləşdirilə biləndir, pulun təklifi isə ekzogendir, onda mərkəzi bank dövlətin iqtisadi inkişafının effektiv tənzimlənilməsini həyata keçirməyə qabildir. Əgər o nöqteyi-nəzərdən çıxış etsək ki, pula olan tələb sabit deyil, təklif isə daxili xarakter daşıyır, onda mərkəzi bankın pul-kredit siyasəti az effektli olar və buna görə də iqtisadiyyatı fiskal (büdcə-vergi) üsulla tənzimləmək daha etibarlıdır.

Pul-kredit və büdcə-vergi siyasətinin əlaqələndirilməsi mütləq olmalıdır. Bu zaman pul-kredit siyasəti müəyyənedici olur, çünki o ÜDM-un formalaşması ilə, onun dinamikası və strukturu ilə, əmtəə-mal dəyərlərinin dövranı ilə bağlıdır. Büdcə-vergi siyasəti dolayısı yolla ÜDM ilə onun bölüşdürülməsi vasitəsi ilə bağlıdır, lakin birbaşa isə vergi qoyulması vasitəsilə investisiyalaşdırma ilə, deməli, beləliklə də ÜDM ilə bağlıdır. Eyni zamanda barter əməliyyatların mövcudluğu və hətta artımı, ödəniş sisteminin böhranı pul-kredit və fiskal siyasətin

MUHASIBAT.AZ

əlaqəsizliyindən xəbər verir. Əgər pul-kredit siyasəti özü özlüyündə fəaliyyət göstərirsə ya da, obrazlı desək, bank sisteminin «daxilinə» yönəlibsə, onda onun iqtisadiyyata təsiri cüzidir, bəzən isə neqativdir. Bu, ayrı-ayrı hallarda bəzən hətta iqtisadi siyasətin digər bloklarının «günahı» üzündən onların fəaliyyətinin pul-kredit siyasəti ilə əlaqələndirilmədiyi halda da baş verə bilər.

Mərkəzi bankın pul-kredit siyasəti iqtisadiyyatın tənzimlənilməsində monetarist və keynsiançı baxışları nəzərə almalıdır. Bunu XX əsrin 90-cı illərində bir sıra dövlətlərin pul-kredit siyasətinin inkişafı təcrübəsi də sübut edir, belə ki, o zaman mötədil inflyasiyalı pul-kredit siyasətinə əsaslanılaraq iqtisadiyyatın real sektorunun güclü investisiyalaşdırılması üzrə tədbirlər həyata keçirilirdi. Dünya təcrübəsi sübut edir ki, pul-kredit siyasəti də dövlətin ümumi iqtisadi siyasətindən təcrid olunmuş şəkildə inkişaf etməməlidir. Ona görə də məsələn, maliyyə sabitləşməsi üzrə tədbirlər iqtisadi yüksəlişin təmin olunması vəzifələrinə zidd olmamalıdır ki, bu da iqtisadiyyatın zəruri pul vəsaitləri ilə doydurulması vasitəsilə realizə oluna bilər. Bu halda maliyyə sabitliyinə pul kütləsinin artımının inzibati qaydada qarşısının alınması və kommersiya banklarının kredit emissiyasının məhdudlaşdırılması yolu ilə nail olmaq mümkündür. Lakin, bunun nəticəsində pul vəsaitlərinin çatışmazlığı üzündən istehsalat korluq çəkəcək ki, bu da xeyli maliyyə itkilərinə səbəb olacaq.

Kredit emissiyasının həcmi ilə əmtəə istehsalı və xidmətlərin artımı arasında cari nisbətin dəstəklənilməsi üçün məcmu tələbə təsir göstərən pul tənzimləyicilərindən istifadə etmək lazımdır. Mərkəzi bankın ssuda kapitalları bazarındakı situasiyaya təsir edə bilməsinin mümkünlüyü xüsusi rol oynaya bilər. Bu pul-kredit mexanizmləri investisiya tələbatı həcmini və əhalinin əmanətlərinin səviyyəsini tənzimləməyə imkan verir, özü də dövlətin iqtisadi siyasətində əsas yeri əhalinin daxili tələbatını təmin etmək problemi tutmalıdır.

MUHASIBAT.AZ

Xarakterikdir ki, inkişaf etmiş ölkələrdə daxili məcmu tələbatın stimullaşdırılması pul-kredit siyasətinin vergi və büdcə ilə sıx qarşılıqlı olduğu halda dövlətin nəzarəti altında məqsədyönlü şəkildə aparılır. Məsələn, ABŞ-da «reyqanomika» dövründə tələbatın stimullaşdırılması üçün verginin azaldılması baş verdi, avadanlığın amortizasiyası dövrü azaldıldı, НИОКР-a çəkilən xərclər və elmtutumlu sahələrin investisiyalaşdırılması üçün vergi kreditləri tətbiq edildi. XX əsrin 80-ci illərinin sonlarında Yaponiyada gəlir vergisinin və müəssisələrdən mənfəət vergisinin azaldılması nəticəsində vergilərin ümumi azalması və daxili ödəməqabillik tələbatının artması baş verdi. Ona görə də belə siyasətin həyata keçirilməsi mərkəzi banklardan inflyasiya tendensiyalarının qarşısını almaq üzrə tədbirlər görülməsini tələb edir. İndiki halda mərkəzi bankın kommersiya banklarında depozitlər üzrə əmanət və faiz normalarının cari tənzimlənilməsi üçün faiz stavkaları sahəsində rolu artırılmalıdır.

Lakin, mərkəzi bankın pul-kredit siyasətinin vəzifələri pul əmanətlərinin stimullaşdırılması və onların investisiya məqsədlərinə ötürülməsi mexanizminin inkişafı ilə məhdudlaşmır. Ümumiqtisadi inkişafın sabitləşdirilməsində pul-kredit siyasəti kifayət qədər böyük rola malikdir, hərçənd nəzərə almaq lazımdır ki, pul-kredit sisteminin zəif inkişaf etdiyi ölkələrdə bu rol inkişaf etmiş dövlətlərdəkindən fərqli şəkildə həyata keçirilir. Sənayecə inkişaf etmiş ölkələrdə pul-kredit siyasəti ənənəvi olaraq antitsiklik tənzimləmənin mühüm instrumentlərindən biri rolunu oynayır. Bu sayaq tənzimləmənin əsasında mərkəzi bankın pul kütləsinin artmasını sürətləndirmək və ya ləngitmək və kreditin qiymətini artırmaq və ya azaltmaq (heç də məhdud olamayan) bacarığı durur.

Bazar münasibətlərinə keçid mərhələsində iqtisadiyyatın dövlət tənzimləməsi daimi dəyişikliklərə məruz qala bilər və qalmalıdır da. Bütövlükdə iqtisadiyyatın və onun ayrı-ayrı sferalarının, o cümlədən

MUHASIBAT.AZ

pul-kredit sferasının ümumdünya dövlət tənzimləməsi təcrübəsi bunu sübut edir. Bu zaman pul sferasının tənzimləməsinin tarixən ilkin mexanizmi tələb və təklif nisbəti vasitəsilə (qiymətlərin səviyyəsi və əmtəənin həcmini) tədavüldəki pulun həcmini, onun dövriyyə sürətini, kreditin qiymətini, pul ilə müxtəlif funksiyaların yerinə yetirilməsi şərtlərini və s. müəyyənləşdirən bazar mexanizmidir.[13]

Pul tədavülünün mərkəzi bank tərəfindən tənzimlənilməsi pul bazarının istənilən elementinə: nəqd və nəqdsiz formada təklif olunan pulun həcminə, kreditə olan tələbatın həcminə və onun qiymətinə, qiymətli kağızların alınması və sonradan satılması ilə bağlı açıq (təkrar) bazardakı əməliyyatlara istiqamətləndirilə bilər. Təklif olunan pula təsir imkanı özünün nəqd və nəqdsiz formasında pul emissiyası subyektini və tənzimləmə subyektini mərkəzi bankın simasında birləşdirməklə təmin olunur. Bu zaman banknot emissiyasına inhisar pul tədavülünü təşkil edən nəqdiyyat üzərində nəzarət üçün baza yaradır, bütövlükdə bank sisteminin kredit resurslarının formalaşmasında mərkəzi bankın xüsusi rolu isə – bank kreditinin mümkün həcminin müəyyənləşdirilməsi üçün zəmin yaradır.

Pul tədavülünün depozit hissəsinin çoxalması ilə xarakterizə olunan müasir şəraitdə mərkəzi bankın məhz bank kreditlərinin təklif olunan həcmini tənzimləməsinin əhəmiyyəti artır. Pula olan tələbatın tənzimlənilməsi bu səbəbdən ilk növbədə bütövlükdə bank sistemi ilə kreditlərin verilməsi şərtlərini müəyyənləşdirən mərkəzi bankın kredit verməsi şərtlərinin tənzimlənilməsi vasitəsilə həyata keçirilir, hərçənd bank sisteminin özü də mərkəzi bankın kredit siyasətinə təsir göstərir. Eyni zamanda mərkəzi bankın tənzimləyici rolu pul tədavülünün şərtlərinə müəyyən məhdudiyyətlər qoyur və nəticədə bazarın, bir tərəfdən nəinki təkcə pul tədavülünün təkrar orientasiyasında, həm də

[13] *Bazar mexanizmi* dedikdə, bu halda depozit-ssuda əməliyyatlarının və ya pul bazarının məcmusu deyil, əmtəə pul münasibətlərinin əsasında iqtisadiyyatın fəaliyyət göstərməsini təmin edən əlaqələr sistemi başa düşülür.

MUHASIBAT.AZ

bütünlükdə bazar sisteminin bazar müvazinətinə nail olunması yönümündə baş verməsində təzahür edən cavab reaksiyasına səbəb olur, digər tərəfdən isə mərkəzi bankın simasında dövlət tərəfindən həddən ziyadə tənzimləmə tədbirlərinin müəyyən dərəcədə aradan qaldırılması məqsədilə bazar fəaliyyəti formalarının transformasiyası və ya uyğunlaşması baş verir.

Ona görə də bazar iqtisadiyyatlı müasir dövlət məsələn, pul tədavülünə, ssuda faizinin hərəkətinə, təkrar bazarda əməliyyatların baş verməsinə nəzarət edərək, praktiki olaraq ictimai istehsalın bütün parametrlərinə təsir edə bilər. Məsələn, bu metodlardan istifadə edən dövlət mərkəzi bankın vasitəsilə pul yığımlarına, qiymətlərin aşağı düşməsinə və əmək haqqının sabitləşməsinə, istehsalın effektliliyinin artmasına, müflisləşmənin və işsizliyin artmasına, milli valyutanın kursunun artmasına və öz mallarının rəqabətlilik qabiliyyətinin azalmasına, ixracın bahalaşmasına və mal idxalının ucuzlaşmasına, kapital idxalının artmasına və onun ixracının azalmasına və s. kömək edir.

Pul-kredit tənzimləməsi metodlarının effektivliyi bütövlükdə iqtisadiyyatın tənzimlənilməsi mexanizminin dəyişilməsi ilə, onda özünütənzimləmə və şüurlu tənzimləmə elementlərinin insbəti ilə bağlı olaraq onların daimi təkamülü ilə təmin olunur. Ona görə də mərkəzi bankın pul-kredit tənzimləməsi metodları, bazar münasibətləri prioritetinin saxlanılması zamanı pul-kredit tənzimləməsinin rolundan daha çox onun keyfiyyət xarakteristikasının dəyişmələrinin baş verməsi ilə bağlı olan tənzimsizləşdirmə ənənələrinin təsiri altındadır. Bu dəyişikliklər xalis bazar instrumentlərinin istifadə olunması hesabına tənzimləmədə böyük çevikliyin əldə olunması, istifadə olunan tənzimləmə metodlarına bazar parametrlərinin daxil edilməsi və ya bazarın durumu uçotu və s. ilə bağlıdır.

MUHASIBAT.AZ

Pul tədavülünün dünya praktikasında qəbul olunmuş metodlarına *mütləq rezervlər norması* və ya minimal rezerv tələbləri norması, mərkəzi bankın *uçot stavkasının tənzimlənməsi*, *açıq və ya təkrar bazarda əməliyyatlar* aiddir. Bundan əlavə mərkəzi banklar pul tədavülünün durumuna investisiya tələbləri və kredit «tavanları» vasitəsilə təsir göstərirlər.

Pul tədavülünə təsir etmənin son iki metodu minimal rezerv tələblər siyasətinə yaxındır. Belə ki, *investisiya tələbləri* kredit müəssisəsinin mərkəzi bankdakı hesabda aktivlər məbləğinin bir hissəsini və ya müəyyən müddət ərzində onların artımının bir hissəsini xüsusi kredit təsisatları (institutları) tərəfindən buraxılan dövlət istiqrazları və ya qiymətli kağızları şəklində saxlamaq barədə öhdəliyindən ibarətdir. Xarakterik haldır ki, bir sıra ölkələrdə (Fransa, Belçika) investisiya tələblərinin tətbiqindən əvvəl rezerv tələblərin tətbiqi olmuş və ya sonuncunun variantı kimi nəzərdən keçirilmişdir. XX əsrin 60-cı illərində İtaliyada rezerv tələblər ya mərkəzi bankın hesabındakı depozitlər formasında, ya da dövlət qiymətli kağızları formasında yerinə yetirə bilərdi.

Kredit «tavanları» kreditlərin ümumi məbləğinin və ya onların artımının banklar üçün müəyyən edilən (bəzən fərdi qaydada) yuxarı həddi səviyyəsini, ya da bir müştəriyə verilən məbləğ və ya kreditlərin sayının limitini bildirir. Bu o zaman tətbiq olunur ki, ayrı-ayrı hallarda mütləq rezervlər norması pul kütləsinin sabitləşməsinə və kredit yatırımlarının azalmasına gətirib çıxarmır. Bu zaman mərkəzi banklar kreditlərin birbaşa limitləşdirilməsini tətbiq edirlər ki, onun da mahiyyəti pul kütləsinin nəzərdə tutulan artım tempinə müvafiq olaraq kredit tavanının müəyyənləşdirilməsindən ibarətdir. Mərkəzi bank pul kütləsinin maksimal artımını müəyyənləşdirmək üçün ümumdaxili məhsulun həcminin artması proqnozlarına və qiymətlərin dəyişməsi indeksinə əsaslanır. Pul kütləsinin artım normasii iqtisadiyyatın

MUHASIBAT.AZ

likvidlik əmsalının tədricən azalması və qiymət artımının ləngidilməsinin təmin olunması üçün dəyər üzrə ÜDM-un gözlənilən artım əmsalından bir qədər aşağı qəbul olunur.

Ona görə də kreditlərin limitləşdirilməsi pul kütləsinin artımını ləngitməyi nəzərdə tutur və eyni zamanda iqtisadiyyatın bazar stavkasına nisbətən tarazlı faizin süni şəkildə azaldılmış faiz stavkaları üzrə prioritet sektorlarının (istehsalın) maliyyələşdirilməsi üçün imkan verir. Kreditin limitləşdirilməsi siyasətinin praktikada qarşılaşdığı əsas problem kreditlərin heç də həmişə limitləşdirməyə düşməyən subyektlərə kredit verilməsindən ibarətdir. Kreditlərin limitləşdirilməsi sistemi bank fəaliyyətinin transformasiyası tendensiyasını aşkar etdi, belə ki, o bank kapitalının yatırılmasının daha effektli sahələrinin axtarılmasına deyil, resursların adicə paylaşdırılmasına çevrilməyə başlayır. Kredit məhdudlaşdırmalarının seçimli və ya selektiv xarakteri tez-tez maliyyə köməyi və iqtisadiyyatın müəyyən sektorlarına imtiyazlarla, məsələn, kredit təsisatları, energetika və ixracyönümlü istehsal dəstəklənilir.

İnvestisiya tələbləri və kredit «tavanları» pul tədavülünün tənzimlənilməsinə inzibati müdaxilədən ibarətdir. Bu sayaq müdaxilə kredit sistemi müəssisələrinin tənzimləmə tədbirlərindən yan keçməyə yönəldilmiş hədsiz əks reaksiyasına səbəb olur. Bu, mərkəzi bank tərəfindən pul tədavülünün tənzimlənilməsi metodlarının ümumi sistemində investisiya tələblərinin və kredit məhdudiyyətlərinin azalmasını şərtləndirir.

Beləliklə, mərkəzi bankın sərəncamında pul-kredit siyasətinin məzmununu təşkil edən kompleks pul-kredit tənzimləməsi üsulları vardır. Bu üsullar təsir formalarına (birbaşa və dolayısı), təsir obyektlərinə (pulun təklif olunması və pula olan tələb), tənzimləmə parametrlərinə (kəmiyyət və keyfiyyət) görə fərqlənə bilərlər. Bu

MUHASIBAT.AZ

üsulların xarakterik xüsusiyyəti ondan ibarətdir ki, onlar vahid pul-kredit tənzimləməsi sistemində istifadə olunur və fəaliyyət göstərirlər.

Lakin, konkret məqsədlərindən asılı olaraq mərkəzi bankın pul-kredit tənzimləməsi ya kredit emissiyasının stimullaşdırılmasına (kredit ekspansiyası), ya da onun məhdudlaşdırılmasına (kredit restriksiyası) yönəldilə bilər. Mərkəzi banklar kredit ekspansiyasının keçirilməsi yolu ilə istehsalın yüksəldilməsi və konyunkturanın canlandırılması məqsədini güdürlər, kredit restriksiyasının köməkliyi ilə isə onlar konyukturanın iqtisadi yüksəlişlər zamanı müşahidə olunan «həddsiz qızışması»nın qarşısını almağa cəhd göstərirlər.

Pul-kredit tənzimləməsinin instrumentləri formalarına görə inzibati (birbaşa) və bazar (dolayısı) instrumentlərinə bölünürlər. İnzibati instrumentlər – mərkəzi bank tərəfindən göndərilən və kredit institutunun fəaliyyət sferasının məhdudlaşdırılmasına yönəlmiş direktiv, sərəncam, təlimat formasına malik olan instrumentlərdir. Bu instrumentlər inkişaf etmiş ölkələrin mərkəzi banklarının praktikasında əhəmiyyətli yer tuturlar, həm də inkişaf etməkdə olan dövlətlərdə geniş tətbiq olunur. Bank sisteminin fəaliyyətinə birbaşa rəsmi müdaxilə metodlarından biri bəzi ölkələrdə kontingentləşdirmənin təkrar uçotu siyasətidir, yəni kredit müəssisələrinin veksellərinin təkrar uçotu həcminin mərkəzi bank tərəfindən bankların likvidlik durumu və kredit potensialının tənzimləşdirilməsi məqsədilə limitləşdirilməsidir. Kreditin ümumi ölçüsü də tənzimləndirilə bilər. Məsələn, AFR-də İqtisadiyyat Nazirliyi yanında Kredit müəssisələrinə federal nəzarət bürosunun 16 yanvar 1980-ci il tarixli qərarı ilə bankların öz kapitalları ilə ümumi likvidlik məbləği arasında nisbət müəyyənləşdirilmişdir. Bu sənədə görə kreditlər və bankların iştirakı onların öz kapitallarından 18 dəfədən artıq çox ola bilməz.

Bazar xarakterli instrument dedikdə mərkəzi bankın müəyyən şəraitin formalaşdırılması vasitəsilə pul bazarında və kapital bazarında

MUHASIBAT.AZ

pul-kredit sferasına təsir üsulu nəzərdə tutulur. Bazar (dolayı) instrumentlər inzibati instrumentlərdən öz çevikliyi ilə fərqlənir, lakin onların tətbiqolunma nəticələri heç də həmişə nəzərdə tutulmuş məqsədə adekvat olmur. Bununla belə, inkişaf etmiş ölkələrin mərkəzi banklarında pul-kredit tənzimləməsinin bazar metodlarına birbaşa təsir göstərilməsi praktikasından qaçılması müşahidə olunur.

Mərkəzi bankın pul sferasına təsiri prosesində müəyyənləşdirilən parametrlərin xarakterinə görə pul-kredit tənzimləməsi instrumentləri kəmiyyət və keyfiyyət instrumentlərinə bölünür. Kəmiyyət metodlarının istifadə olunması vasitəsilə bankların kredit imkanlarının vəziyyətinə və deməli, bütövlükdə pul tədavülünə təsir göstərilir. Keyfiyyət instrumentləri bazarın keyfiyyət parametrlərinin birbaşa tənzimlənilməsi variantından, yəni bank kreditlərinin dəyərindən ibarətdir.

Pul-kredit tənzimləməsi instrumentləri təsiretmə müddətinə görə pul-kredit siyasətinin yaxın və gələcək realizasiya məqsədlərinə uyğun olaraq uzunmüddətli və qısamüddətli instrumentlərə bölünür. Pul-kredit tənzimləməsinin uzunmüddətli (son həd) məqsədləri dedikdə mərkəzi bankın, icrası bir ildən bir neçə onilliyədək həyata keçirilə bilən vəzifələri nəzərdə tutulur. Qısamüddətli məqsədlərə isə pul-kredit tənzimləməsinin ara məqsədlərinə nail olunmasına imkan verən təsir instrumentləri nəzərdə tutulur.

Lakin pul-kredit tənzimləməsinin instrumentlər arsenalı bununla başa çatmır. Bir sıra ölkələrdə mərkəzi banklar kredit məhdudlaşdırmalarının qoyulması, kommersiya banklarının depozitləri və kreditləri üzrə faiz stavkaları səviyyəsində limitləşdirmə, portfel məhdudlaşdırmaları və s. kimi üsullara əl atırlar. Pul-kredit tənzimləməsi instrumentlərinin seçilməsi və uzlaşdırılması ilk növbədə mərkəzi bankın ölkədə iqtisadi inkişafın bu və ya digər mərhələsində həll etdiyi vəzifələrdən asılıdır.

MUHASIBAT.AZ

MUHASIBAT.AZ

14.3. MƏRKƏZİ BANK TƏRƏFİNDƏN MİNİMAL REZERVLƏR TƏLƏBİ SİYASƏTİNİN YERİDİLMƏSİ XÜSUSİYYƏTLƏRİ

Müasir dövlətlərin əksəriyyətində pul-kredit tənzimləməsinin (pul dövriyyəsinin depozit hissəsinin tənzimlənilməsi metodunun) *minimal rezerv tələblərinin müəyyənləşdirilməsi* kimi metodundan istifadə olunur. Bu metodun mahiyyəti ondan ibarətdir ki, mərkəzi bank kommersiya bankları üçün passiv kimi belə bank resurs göstəricilərinin məbləği ilə banklarınehtiyat kimi saxlamağa öhdəlikli olduqları yüksəklikvidli vəsaitlərin həmin məbləği arasında mütləq nisbət (faizlə) təyin edir. Keyfiyyətcə bu vəsaitlərin tərkibi tədavüldəki pul kütləsinə maksimum yaxınlıqla xarakterizə olunur. Bu, pul tədavülünə təsir edən instrument kimi ehtiyat tələblərin istifadə olunmasının mümkünlüyünü təmin edir.

Mütləq ehtiyatlar siyasətinin məqsədi ondan kommersiya banklarının mərkəzi bank tərəfindən yenidən maliyyələşdirilməsinin gücləndirilməsindən və bununla da onlarının likvidliyi üzərində nəzarətin sərtləşdirilməsindən ibarətdir. Müəyyən olunmuş normalara uyğun şəkildə ehtiyatların ciddi blokirovkası mütləq xarakter daşıyır və buna görə də mütləq ehtiyatlar norması siyasəti kommersiya banklarının durumuna təsir göstərilməsinin daha inzibati metodu sayılır. Eyni zamanda ehtiyatların həcmi kommersiya banklarının depozitlər üzrə öhdəliklərini təmin edir və ya əmanətçinin maraqlarının qarantı kimi çıxış edir. Bu siyasət mərkəzi banklar tərəfindən kommersiya banklarının pul kütləsində veksellərin payının ixtisarı zamanı əldə etdikləri son dərəcə sərbəstliyə – muxtariyyətə meyl etmələrinə qarşı tətbiq edilir.

Mütləq ehtiyatlar kommersiya banklarının sərənqcamında olan pul kütləsinin bir hissəsini oradan götürmək yolu ilə onların kredit imkanlarını məhdudlaşdırmaq məqsədi ilə müəyyən edilir. Bunun nəticəsində bütün bank sisteminin likvidliyinin azalması baş verir.

MUHASIBAT.AZ

Mütləq ehtiyatlar normasının tətbiq olunması dövlətin bank işinə müdaxiləsinin ilk formalarından biridir. Mərkəzi bank və ya kredit sisteminin fəaliyyət göstərməsi üzərində nəzarət orqanları mütləq ehtiyat normaları üzərində bir sıra normalar müəyyən edirlər ki, bunlar da mərkəzi bankda kommersiya banklarılarının (bir qayda olaraq) faizsiz hesablarında bronlaşdırılır. Mütləq ehtiyat normaları mərkəzi bank tərəfindən aparılan pul-kredit siyasətinə uyğun olaraq variasiya edilir. Bankların kredit ekspansiyasını məhdudlaşdırmaq istəyən mərkəzi bank onların aktiv əməliyyatlar aparmaq və deflyasion siyasət yeritməklə, mütləq ehtiyatlar normasını azaltmaqla kreditləşdirmənin genişləndirilməsinə və inflyasiya tendensiyasının güclənməsinə aparan kredit imkanlarını məhdudlaşdırmaq məqsədi ilə mütləq ehtiyatlar normasını artırır.

Ona görə də mərkəzi bank mütləq ehtiyatlar normasını dəyişdirmək yolu ilə iqtisadi situasiyaya ona lazım olan istiqamətdə təsir edə bilir. Təsir effektliliyinə görə mütləq ehtiyatlar norması siyasəti açıq bazardakı əməliyyatlardan geri qalır, lakin onun kommersiya banklarına təsir göstərməsi daha hiss olunandır. Bu zaman depozitlərin həcmindən asılı olaraq mərkəzi bank mütləq ehtiyatlar normasının dəyişdirilməsinin son həddini hesablayır ki, bundan aşağı normada bank likvidliyi artır, yuxarı normada isə – azalır.

Minimal ehtiyat tələbləri siyasətinin köməkliyi ilə mərkəzi bank kommersiya banklarının kredit imkanlarını tənzimləməyə çalışır. Bu, kommersiya banklarının, onların əlavə ödəniş vasitələri yarada bilmək imkanları ilə müəyyənləşən kredit təklifini genişləndirə bilmək qabiliyyəti ilə şərtlənir. Məsələn, əgər bankın müştərisi özünün kontokorrent hesabına (bank müəssisəsində fiziki şəxsin hesabına) müəyyən məbləğdə nəqd pul köçürürsə, onda onun üçün belə əməliyyat onun aktivlərinin yalnız formasının dəyişilməsi sayılır. Faktiki olaraq müştəri özünün nəqd pullarını bankdakı əmanətə dəyişdirir və onunla

MUHASIBAT.AZ

(əmanətlə) istədiyi anda və tam məbləğində istədiyi kimi hərəkət edə bilər. Belə əməliyyat nəticəsində qeyri-bank sektorunda (iqtisadiyyatda və ya əhalidə) pul kütləsi əvvəlki kimi qalacaq. Lakin eyni zamanda kommersiya bankları sistemində «mühasibat pulları» deyilən pulların yaradılması baş verir ki, bunun da nəticəsində həmin müştərinin hesabını aparan bankın balansı artır. Bank təcrübəsində bu praktika «*hesablaşma pullarının passiv yaradılması*» adını almışdır. Nəqd pulların hesabdan götürülməsinin müvafiq olaraq əks təsiri mövcuddur.

Bank təcrübəsindən bəllidir ki, müştərilər qoyduqları əmanətlərdəki pullarının hamısını eyni vaxtda götürmürlər. Ona görə də bankda nəqd pulların ehtiyatları nisbətən o qədər də çox olmur və ona çox da böyük olmayan kassa nəqdiyyatını saxlamaq lazımdır. Amma müştərilərin daim əmanətləri üzərinə nəqd pul artırmaları etmələri səbəbindən bankın likvidliyi (bankın öz öhdəliklərini pul formasında vaxtlı-vaxtında yerinə yetirə bilmək qabiliyyəti) artır və müvafiq olaraq, bank öz kreditinin həcmini genişləndirmək imkanına malik olur.

Kommersiya banklarının öz aktivlərinin bir hissəsini mərkəzi bankın faizsiz hesablarında mütləq ehtiyatlar şəklində saxlaması mərkəzi bankın kommersiya banklarının öz müştərilərini kreditləşdirə bilmək qabiliyyətinə nəzarət etmək zərurəti ilə izah olunur. Bu halda mərkəzi bank kreditinin bolluğu və ya çatışmazlığının qarşısını almağa çalışır və bununla da işgüzar fəallığın dəyişkənliyinə lazımi təsir göstərməyə çalışır. Kommersiya bankları üçün aktiv hesab olunan mütləq ehtiyatlar mərkəzi bankın passivində əks etdirilir. Əgər mərkəzi bank pul kütləsini artırmaq istəyindədirsə, onun üçün mütləq ehtiyatlar normasını azaltmaq labüddür. Bu, kommersiya banklarının öz müştərilərinin kreditləşdirmək yolu ilə yeni pullar yarada bilmək imkanlarını genişləndirər.

MUHASIBAT.AZ

Mütləq ehtiyatlar norması cəlb olunmuş və yerləşdirilmiş vəsaitlərin müxtəlif kateqoriyaları üzrə müəyyənləşdirilir. Cəlb olunmuş resurslara minimal ehtiyat tələbləri müəyyən edən mərkəzi bank kommersiya banklarını pulları seçərək, ilk növbədə də ehtiyatlar üzrə ölçünün az olduğu və ya tamam müəyyən edilmədiyi vəsaitləri cəlb etməyə məcbur etmək məqsədi güdür. Bir qayda olaraq, cəlb olunmuş qısamüddətli resurslar üzrə mütləq ehtiyatlar norması, tələb olunanadək vəsaitlər üzrə olduğundan aşağıdır, ortamüddətli və uzunmüddətli resurslar isə ayırmalardan azad edilir. Passiv əməliyyatlar üzrə mütləq ehtiyatların müəyyənləşdirilməsi bankın verdiyi kreditlərin azalmasına səbəb olur və bu səbəbdən də, əgər bank əməliyyatların ümumi həcmini azaltmaq istəməzsə, onda resurslar bahalaşır. Bunun nəticəsi olaraq aktiv əməliyyatlar üzrə faiz stavkalarının tutulması artır, kreditlər isə azalır. Öz növbəsində bir sıra aktiv əməliyyat növləri üzrə mütləq ehtiyatlar onlar üzrə faiz stavkalarının bilavasitə artmasına və buna uyğun olaraq onların həcminin azalmasına kömək edir. Buradan aydın olur ki, cəlb olunmuş vəsaitlər və ya verilmiş kreditlər üzrə mütləq ehtiyatlar norması bankın gəlirinin azalmasına səbəb olur, o isə öz növbəsində həmin halda əldən çıxmış faydanın, cəlb olunmuş vəsaitlər üzrə ödənilən faizlərin azaldılması, ya da kreditlər üzrə faizlərin artırılması yolu ilə kompensasiya olunmasına cəhd edəcək.

Mütləq ehtiyatların ölçüsü dövlətin iqtisadi siyasətindən asılı olaraq dəyişkəndir. Məsələn, ABŞ-da kommersiya bankları Federal ehtiyat bankında tələb olunanadək və müddətli cəlb olunan depozitlər üzrə vəsaitləri proporsional şəkildə depozitə qoymağa borcludur. Mütləq ehtiyatların müəyyənləşdirilməsi üzrə baza rolunu tələb olunanadək depozitlərin inkassaya qoyuluş çıxılmaqla və yerli banklarda tələb olunanadək təkrar yerləşdirilmiş məbləği oynayır. Bu fərq tələb olunanadək xalis depozitlər adlanır. Mütləq ehtiyatlar

MUHASIBAT.AZ

norması bankın dərəcəsindən, depozitlərin həcmi və növlərindən asılıdır. Bu norma Konqresin təyin etdiyi limitlər həddində Federal ehtiyat sisteminin İdarə Şurası tərəfindən müəyyən edilir. Fransada mərkəzi bank Milli kredit şurasının təyin etdiyi əməliyyatlar üzrə və ölçülərdə mütləq ehtiyatların ölçüsünü müəyyən edir.

Minimal ehtiyat tələblər pul tənzimləməsinin metodu kimi ilk dəfə 1913-cü ildə ABŞ-da Federal ehtiyat sistemin (FES) yaradılması zamanı tətbiq olunmuşdu. Hazırda bu metod xeyli geniş yayılmışdır ki, bu da, əvvəla, rahat manevr etməyin mümkünlüyü ilə əlaqədardır, çünki tənzimlənəcək obyektə təsirin məhdudlaşdırılması və ya genişləndirilməsi imkanına yol verilir, ikincisi də, dolayı tənzimləmə metodlarına yaxınlığı ilə müəyyən olunan pul tədavülünə «nisbətən» yumşaq təsiri ilə əlaqədardır.

Ehtiyat tələblərin «klassik» sistemi orta hesabla müəyyən müddətə müxtəlif növ bank öhdəliklərinə müəyyən kəmiyyət nisbətində depozitlərin mərkəzi bankda yerləşdirilməsini nəzərdə tutur. Məsələn, bu sayaq sistem Amerika Birləşmiş Ştatları, Yaponiya, Fransa və Kanada üçün xarakterikdir. Başqa ölkələrdə, o cümlədən Hollandiyada və İngiltərədə ortaqlaşdırma (ortaq məxrəc) proseduru yoxdur. İnkişaf etmiş dövlətlərin əksəriyyətində ehtiyat tələblərin hesablanılmış icrası müddəti bir ay təşkil edir, hərçənd istisnalar da mövcuddur, məsələn, ABŞ-da bu müddət iki həftə təşkil edir, Kanadada hesabnma müddəti iki yarımaylıq müddətə bölünüb.

İlkin başlanğıcda minimal ehtiyat tələblər cəlb olunmuş vəsaitlərlə öz xüsusi vəsaitləri arasında proporsiyanı saxlamaq üçün tələb olunurdu. Ayrı-ayrı dövlətlərdə (AFR və Yaponiyada XX əsrin 70-ci illərinin əvvəllərindən, İspaniyada 70-ci illərin sonlarından) ehtiyat tələblər ilk növbədə bank sisteminin likvidliyinə təsir metodu kimi nəzərdən keçirilirdi. Hazırda ehtiyat tələblərdən strateji pul-kredit vəzifələrini həll etməyə və pul tədavülünün tənzimlənilməsində daha

MUHASIBAT.AZ

incə instrumentlərdən istifadə olunması üçün şərait yaradılmasına imkan verən tendensiyalardan yararlanmaq diqqəti cəlb edir. Məsələn, Yaponiyada qeyri-rezidentlərin depozitləri üzrə ehtiyat tələblər norması ilə manevr etmək imkanlarının mövcudluğu onlardan valyuta kursuna təsir instrumenti kimi istifadə etməyə imkan verir. Hərçənd bütövlükdə ehtiyat tələbləri getdikcə daha çox uzunmüddətli strategiya metodu kimi qəbul olunur, bununla belə, onlar mərkəzi bankın ümumi tənzimləmə sistemində əsas tədbirlərdən biri kimi qalmaqdadırlar.

Kommersiya banklarının öz öhdəliklərinə qarantiya kimi mərkəzi bankda yerləşdirməyə borclu olduqları mütləq ehtiyatlar həm mərkəzi bankın faizsiz hesablarında saxlanıla bilər, həm də onlar üzrə müəyyən faizlər ödənilə bilər. Bu ondan asılıdır ki, mərkəzi bank ayrı-ayrı zaman kəsiyində hansı pul-kredit siyasətini yeridir. Ehtiyat tələblərin icra olunması kommersiya banklarının sərəncamında olan resursları azaldır, tələb olunan həcmdə kreditin verilməsi üçün cəlb olunan zəruri vəsaitlərin dəyərini artırır, bank vəsaitlərinin real istifadə olunan və ehtiyat üzrə bölüşdürülməsini müəyyənləşdirir və ya bank resurslarının strukturunun dəyişilməsinə aparır.

Minimal ehtiyat tələblər öz xarakterinə görə nisbətən sərt metoddur, hərçənd təsir səviyyəsinə görə onlar bazar mexanizminin fəaliyyətinə əsaslanmış dolayı müdaxilə formalarına yaxındırlar. Pul tədavülünü həmin tənzimləmə metodu real istifadə olunan bank kreditləri ilə və tədavüldəki pul kütləsinin həcminin və ya artım tempinin dəyişilməsi üzrə mərkəzi bankın tədbirləri ilə bağlı olan pulun öz funksiyalarını yerinə yetirmə xarakterinə təsir edir. Özü də minimal ehtiyat tələblərin tətbiq olunmasına pul tədavülünün cavab reaksiyası kredit resurslarına olan tələb və təklifin nisbətindən asılıdır. Məsələn, minimal ehtiyat tələblərin artırılması zamanı pul tədavülünün depozit hissəsinin real şəkildə azalması yalnız sərbəst kredit resurslarının

MUHASIBAT.AZ

olmadığı halda baş verə bilər. Əks halda ehtiyat tələblərin artırılması bank kreditlərinin potensial həcminin daralmasına aparır.

Sabit iqtisadiyyatda mütləq ehtiyatlar normasının dəyişilməsi bank likvidliyinə və onun da vasitəsilə bütövlükdə bankın fəallığına potensial kredit yatırımları kütləsinin azaldılması və ya artırılması yolu ilə kəmiyyət effekti verir. Mütləq ehtiyatlar qoyuluşu (stavkası) ilə variasiya etmək təkrar maliyyələşdirmənin həcminin dəyişdirilməsinə təsir göstərir. Bu dəyişiklik də öz növbəsində pul-kredit bazarının faiz stavkalarının hərəkətini şərtləndirir və bununla da borc alanlar üçün kreditin qiymətini müəyyən edir. Eyni zamanda mütləq ehtiyatlar normasının dəyişdirilməsi müxtəlif zaman kəsiklərində baş verir ki, bu da kommersiya banklarının davranışını proqnozlaşdırmağı xeyli çətinləşdirir. Bu çətinləşmə həm də üstəlik ölkələrin əksəriyyətində mütləq ehtiyatlar normasının depozitlərin (tələb olunanadək və ya müddətli) növündən asılı olaraq diferensiallaşması ilə tamamlanır. Ona görə də tələb olunanadək və müddətli depozitlərin norma fərqi kommersiya bankı üçün əlverişli, amma bütövlükdə iqtisadiyyat üçün əlverişsiz yönümdə depozitlərin bir kateqoriyasının digəri ilə əvəzlənməsi tendensiyasını yaradır. Müəyyən olunmuş müddət ərzində minimal mütləq ehtiyatlar məbləğini təqdim etməmiş istənilən kommersiya bankı mərkəzi banka vaxtın ötürülməsi üçün faiz ödəməlidir, hərçənd mərkəzi bankın cari hesablarında blokirovka olunmuş mütləq ehtiyatlar norması, bir qayda olaraq, kommersiya banklarının aktivlərinin mükafatlandırılmayan hissəsini əmələ gətirir.

Minimal ehtiyat tələblər praktikasında mütləq ehtiyatların bolluğu və ya kəsirinin cari dövrdən növbəti dövrə hesablanılması (köçürülməsi) imkanının böyük əhəmiyyəti vardır. Bu tədbir mərkəzi bank tərəfindən pul tədavülünün vəziyyətinə göstərilən təsirin çevikliyini artırır. Məsələn, belə şərt ABŞ-ın və Fransanın ehtiyat tələblər sxeminə daxil edilib.

MUHASIBAT.AZ

Minimal ehtiyat tələblər metodunun istifadə olunması zamanı həmişə hesablaşma dövrü ilə saxlama dövrü arasındakı nisbət fərqini nəzərə alırlar, çünki ehtiyat tələblər, bir qayda olaraq, ötən hesablaşma dövrü əsasında yerinə yetirilir; problem hesablaşma dövrü ilə saxlama dövrü arasındakı istifadə olunan interval müddətindədir. Eyni zamanda bu interval nə qədər çox olarsa, mütləq ehtiyatların real həcmi ilə həmin məqamda kredit sferasının vəziyyəti ilə əlaqə o qədər azdır və bu səbəbdən də tənzimləmə tədbirlərinin və onun tətbiqi nəticələrinin (xüsusilə də qısamüddətli dövrdə) effekti daha az olacaq. Təsadüfi deyildir ki, dövlətlərin əksəriyyətində hesablaşma dövrü ilə saxlama dövrü arasındakı interval iki həftə təşkil edir.

Minimal ehtiyat tələblər metodundan uzun müddətə istifadə olunmanın bank sistemi üçün, onun istənilən xarici təsirə reaksiya verə bilməklə şərtlənən bir sıra nəticələri vardır.

Belə nəticələr sırasına, əvvəla, elə bank müəssisələrinin rəqabətqabilliyini daxil etmək olar ki, bu və ya digər səbəbdən onlara münasibətdə müəyyən müddət ərzində ehtiyat tələblər tətbiq olunmur, ikincisi, həmin ənənəvi əməliyyatların və lazımi ehtiyatların həcminin artırılmasına səbəb olmayan meydana gələn yenilərinin inkişaf etməsidir. Bu nəticələrin bank sisteminin perspektiv inkişafı üçün çox böyük əhəmiyyəti vardır. Belə ki, əksər ölkələrin bank sistemi üçün ümumi reaksiyası mərkəzi bankların ehtiyat tələbləri tətbiq etməsinə banklar tərəfindən qiymətli kağızlardan istifadənin artması olmuşdur. ABŞ-da ehtiyat tələblər metodunun tətbiq olunması, bu metodun təsiri altına düşməyən avrodollar əməliyyatlarının artmasını stimullaşdırmışdır.

Mərkəzi banklar *minimal ehtiyat tələblərin istifadə olunmasının əlavə nəticələrinin* təsirini azaltmağa çalışırlar. Onlar buna daha universal ehtiyat tələblərin tətbiqi, ehtiyat tələblərin səviyyəsinin azaldılması və onların saxlanılması üçün kompensasiya tədbirlərinin

MUHASIBAT.AZ

tətbiq edilməsi, ehtiyat tələblərdən yan keçmək üçün şəraitin aradan qaldırılması, yaxud da onlardan kredit təsisatlarının şamil olduqları kateqoriyalarının genişləndirilməsi ilə yan keçməyə marağın azaldılması, passivlərin ayrı-ayrı maddələri üzrə mütləq ehtiyatlar normalarının unifikasiyası yolu ilə nail ola bilirlər.

Mütləq ehtiyatlar normaları bank resurslarının tərkibindən (cari depozitlər, müddətli depozitlər) asılı olaraq *diferensiya olunur* və banklara onların resurslarını cari əmanətlərə (tələb olunanadək) tətbiq olunan normaların, müddətli depozitlərə tətbiq edildiyindən nisbətən daha yüksək olduğu dərəcədə konsolidasiya etməyə meylləndirmək vasitəsi rolunu oynayır. Mərkəzi bank tərəfindən mütləq ehtiyatlarla manipulyasiyadan faiz stavkalarının səviyyəsinin dəyişdirilməsinə təsir etmək üçün, xüsusilə də daxili pul-kredit siyasətinin vəzifələri ilə xarici pul-kredit siyasətinin vəzifələri üst-üstə düşmədikdə istifadə edilir. Məsələn, xarici valyutanın ölkədən kənara axınını məhdudlaşdıran və milli valyutanı müdafiə edən pul bazarı stavkasının artırılması effektini, iqtisadi fəallığın dəstəklənməsi siyasətinin məqsədlərinə uyğun səviyyədə kreditlərin qiymətinin dəstəklənilməsinə yönəldilmiş mütləq ehtiyat tələblərin yumşaldılması ilə kompensasiya etmək olar. Kütləvi şəkildə kapitalın ölkəyə axınına əks təsir göstərmək məqsədilə pul bazarında faiz stavkalarının azaldılması və banklar tərəfindən kreditlərin verilməsi şərtlərinin sərtləşdirilməsi isə mütləq ehtiyatlar normasının artırılması ilə bağlı ola bilər. Əgər xarici kapitalın ölkəyə axınına və bununla da valyuta kursunu artırmağa səbəb olmamaq ehtiyatı üzündən pul-kredit bazarında kəmiyyəti əhəmiyyətli dərəcədə artmayan bank kreditlərinə olan faiz stavkalarının artırılması zərurəti yaranırsa, mütləq ehtiyatlar normasını eyni vaxtda birdəfəlik artırmaq, zərurət yarandıqda isə qeyri-rezidentlərin əmanətlərinə son dərəcə yüksək mütləq ehtiyatlar norması təyin etmək kifayətdir.

MUHASIBAT.AZ

Minimal ehtiyat tələblərin təsirliliyini artırmaq üçün *hansı növ bank resurslarının ehtiyatlar (rezervlər) anlayışına daxil olmasının həlli məsələsinin* böyük əhəmiyyəti vardır. Məsələn, ilk başlanğıcda ehtiyat tələblərin icrasına bank resurslarının likvidlərə aid edilən daha geniş hissəsi ilə nail olunurdu. Belə ki, pul-kredit bazarının inkişaf səviyyəsinə uyğun olaraq likvidliyin saxlanılmasının modifikasiyası baş vermişdirsə, bu likvidlik təkcə tələblərin və öhdəliklərin müddəti ilə deyil, əsasən də bazarda bazar konyunkturasının durumundan asılı olan realizasiya imkanları ilə mümkün olmuşdur. Bu şəraitdə ehtayt tələblər ilk növbədə mərkəzi banka münasibətdə tələblərlə (mərkəzi bankın hesablarındakı ehtiyat depozitlərlə, mərkəzi bankın qiymətli kağızları ilə) icra olunmağa başlandı. Mütləq ehtiyatlar norması anlayışının traktovkasının dəyişdirilməsinə, əsasında, bir qayda olaraq, mərkəzi bankın ehtiyat depozitlər göstəricisinin durduğu pul kütləsinin dinamikasının tənzimlənilməsi təcrübəsinin genişlənməsi yardım etmişdir. Bu, onunla əlaqədardır ki, mərkəzi bankın pul kütləsi ilə ehtiyat depozitləri arasında, pul kütləsi ilə pul aqreqatları arasındakından daha sıx əlaqə vardır.

Dünyanın əksər ölkələrində kommersiya bankları mərkəzi bankda öz depozit öhdəliklərinə qarşı ehtiyat saxlamağa borcludurlar. Bu zaman bank qanunvericiliyi ehtiyat tələblərin yuxarı və aşağı hədlərini müəyyənləşdirir ki, mərkəzi bank da həmin hədlər daxilində kredit bazarının durumuna və cari pul-kredit siyasətinin vəzifələrinə uyğun şəkildə müəyyənləşdirir. Ehtiyat tələblərin ən yüksək məbləği ABŞ və Almaniyanın bankları üçün müəyyən edilib. Belə ki, XX əsrin sonlarında ABŞ-da Federal Ehtiyyat Sitstemi tərəfindən müəyyən olunmuş mütləq ehtiyatların minimal norması tələb olunanadək hesablar üzrə 3%, digər transsəhmlər üzrə (41,5 mln. dollaradək), daha yüksək məbləğli hesablar üzrə – 12%; 1,5 illik müddətədək müddətli qeyri-fərdi hesablar üzrə 3% təşkil edirdi. Bu zaman mərkəzi bankda

MUHASIBAT.AZ

ehtiyat bank hesablarında kassa nəqdiyyatı və qalıqların kommersiya banklarının aktivlərinin məbləğinə nisbəti 7,28% olmuşdur. Almaniyada mərkəzi bankın təyin etdiyi minimal mütləq ehtiyatlar norması tələb olunanadək depozitlər üzrə 6,6% – 10 mln. markadək olmuşdur; 9,9% - 10 mln. markdan 100 mln. markadək; 12,1% – 103 mln. markdan yuxarı; əmanətlər üzrə – 4,14%, müddətli əmanətlər üzrə 4 ilədək – 4,95%. Müvafiq olaraq, mərkəzi bankda ehtiyat bank hesablarında kassa nəqdiyyatı və qalıqların kommersiya banklarının aktivlərinin məbləğinə nisbəti 4,02%-ə bərabərdir.

Dünya bank praktikasında *ehtiyat tələblər mexanizminin fəaliyyət göstərməsinin təkmilləşdirilməsi üzrə* daim iş aparılır ki, onların köməkliyi ilə pul tədavülünün tənzimlənilməsi sahəsində daha əhəmiyyətli nəticələr əldə edilsin, o cümlədən:

- ehtiyat tələblərlə əhatə olunan müəssisələrin dairəsi genişlənir;
- ehtiyat tələblər sxeminin çevikliyi və manevrliyi artır;
- ehtiyat tələblərin icrası gedişində pul-kredit bazarının hər hansı bir iştirakçısının bir tərəfli şəkildə üstünlük əldə etmək imkanını aradan qaldıran ehtiyat tələblər sxeminin universallaşdırılması üçün tendensiya formalaşır;
- ehtiyat tələblərin orta səviyyəsi aşağı düşür və qismən (cəlb olunmuş mütləq ehtiyatlar üzrə faizlərin ödənilməsi vasitəsilə) kompensasiya həyata keçirilir;
- mərkəzi bank tərəfindən müasir tənzimləmə tədbirləri spesifikası yolunda ehtiyat tələblərin tətbiqinin texniki şərtlərinin fəaliyyətliliyi artır.

Laki son zamanlarda mərkəzi banklar tərəfindən e*htiyat tələblərdən tənzimləyici instrument kimi fəal istifadə olunmasından uzaqlaşmanın ümumi tendensiyası* müşahidə olunur. Makroiqtisadi tənzimləmədə bu instrumentin sərtliyi barədə müddəa şübhəsizdir, belə ki, mütləq ehtiyatlandırma mexanizmi yayınmalara yol vermir və

MUHASIBAT.AZ

müəyyən olunmuş normalar ciddi əməl olunmasını nəzərdə tutur. Bu mexanizmin pul tədavülünə təsiri birbaşa, bilvasitə xarakter daşıyır. Birbaşa pul-kredit tənzimləməsi mexanizminin təsiri isə özlüyündə sabitliyi pozan amilə malikdir. Ona görə də minimal ehtiyat tələblər instrumenti pul-kredit münasibətlərinin tənzimlənilməsində əsas həlledici ola bilməz və onun tətbiqi böyük ehtiyatlılıq tələb edir.

Minimal ehtiyat tələblər siyasətindən fəal istifadə olunmasından imtina edilməsi onlarda ssuda kapitalları bazarına operativ təsirə özünün sabitliyi pozucu kimi qeyri-çevik və qabiliyyətsiz spesifik xüsusiyyətlərinin olması ilə şərtlənir. Ehtiyat tələblərin ssuda kapitalları bazarına operativ şəkildə təsir göstərə bilmək qabiliyyətinə malik olmaması bankın «işləyən» aktivləri həcmindəki kəskin dəyişikliklərlə şərtlənir. Bu, mütləq ehtiyatyaratma dinamikası ilə şərtlənir ki, bu da kommersiya bankının fəaliyyətinin genişlənməsi imkanlarını və eləcə də onun maliyyə durumunu müəyyənləşdirir. Ehtiyat tələblərin ssuda kapitalları bazarına yuxarıda göstərilən fövri təsir edə bilmə qabilsizliyi də bir sıra ölkələrdə pul-kredit tənzimləməsində həmin instrumentdən mərkəzi bankın öz bildiyi kimi istifadə etmək imkanlarını məhdudlaşdırıcıların olması və hökumətin razılığının alınmasının zəruriliyi ilə bağlıdır. Bu, qərarın qəbul olunmasını ləngidir. Məsələn, belə məhdudlaşdırmalar İngiltərədə, Yaponiyada, Hollandiyada və Fransada mövcuddur. Rusiya, Amerika Birləşmiş Ştatları, Almaniya, Belarusiya kimi bir sıra ölkələrdə mütləq ehtiyatlandırma normasının dəyişdirilməsi üçün hökumətin razılığı tələb olunmur.

Pul tənzimlənilməsinin, ilk növbədə özünün birbaşa fəaliyyət xarakteri olan güclü amili kimi, kommersiya banklarının minimal ehtiyat tələbləri uzunmüddətli təsir göstərən tədbirlərə aiddir, yəni tez-tez dəyişkən olmayan tədbirlərə aiddir. Hərçənd minimal ehtiyat tələblər təbiətən pul kütləsinə operativ təsir göstərilməsi üçün nəzərdə tutulmayıb, bununla belə, onlar bütövlükdə pul təklifinin

MUHASIBAT.AZ

tənzimlənilməsinin mühüm amilləridir, çünki onlar öz xüsusiyyətləri sayəsində (təsir sərtliyinə görə) kifayət qədər qısa müddət ərzində nəticə göstərməyə müqabildir. Minimal ehtiyat tələblərin pul kütləsinin dəyişilməsinə fövri təsir göstərməsi barədə M.Fridmenin, A.Şvartsın və F.Keygenin əsərlərində nəticəyə gəlinib və həmin əsərlərdə müəlliflər pul təklifinin gücləndirilmiş qüvvəyə malik pulun kəmiyyətindən («gücləndirilmiş qüvvəyə malik pullar» termini M.Fridmen tərəfindən pul kütləsinin müxtəlif komponentlərinin rolunu aydınlaşdırmaq məqsədi ilə daxil edilmişdir – müəllif), özəl sektorda olan nəqd pulların, ümumi pul kütləsinin nisbətindən, habelə pul-kredit sisteminin ehtiyatlarının əmanətlərin ümumi kütləsinə nisbətindən asılılığı tədqiq olunub.

Minimal ehtiyat tələblər və ya mütləq ehtiyatlar normaları öz-özlüklərində pul kütləsinə əhəmiyyətli şəkildə təsir göstərmirlər, amma ikinci bazar (qiymətli kağızlar bazarı) inkişaf etmədikdə, eləcə də mərkəzi bankın uçot stavkasından istifadə olunması məhdud olduqda, onda mərkəzi bank əsasən ehtiyat tələblərin səviyyəsinin artırılması hesabına pul kütləsinin azalmasına təsir göstərə bilər. Başqa sözlə desək, açıq bazarda əməliyyatların zəif istifadə olunması və yenidən maliyyələşdirmə zamanı (mərkəzi bankın uçot stavkası) pul-kredit tənzimləməsində əsas dayanış minimal ehtiyat tələblər siyasətinə söykənişə edilir. Sonuncuların öz təbiətlərinə görə pul kütləsinə operativ təsir üçün nəzərdə tutulmamasına baxmayaraq, bunlardan istifadə olunur. Minimal ehtiyat tələblər hər şeydən öncə kredit təklifinin tənzimlənilməsinin mühüm instrumenti sayılır, belə ki, özünün nisbətən sərt təsirinə görə fövri nəticələr göstərməyə müqabildir. Lakin pul təklifinin tənzimlənilməsinin güclü amili kimi birbaşa təsir xarakterinə malik olan minimal ehtiyat tələblər uzunmüddətli təsir tədbirləridir və bu səbəbdən də tez-tez dəyişmələrə məruz qalmamalıdırlar.

MUHASIBAT.AZ

14.4. UÇOT STAVKASI PUL TƏDAVÜLÜNÜN TƏNZİMLƏNİLMƏSİ İNSTRUMENTİ KİMİ

Pul tədavülünün tənzimlənilməsinin mühüm metodu mərkəzi bankın birbaşa tənzimləmə metoduna aid edilən uçot (faiz) siyasətidir. Bu onunla şərtlənir ki, o, ehtiyat tələblərindən fərqli olaraq, bank kreditlərinin qiymətinin birbaşa tənzimlənilməsi variantından ibarətdir. Bunun nəticəsində uçot stavkalarının tənzimlənilməsi pul tədavülünə daha tez və bilavasitə təsir göstərir. Mərkəzi bankın kreditin qiymətinə təsir göstərə bilmək qabiliyyəti onun kreditin emissiyası subyekti kimi rolu ilə, habelə bank stavkalarının bir çox növlərinin çox hallarda mərkəzi bankın müxtəlif növ banklararası razılaşmalarla və ya ali idarəetmə orqanlarının qərarları ilə təsdiqlənən təsbit olunmuş stavkalarına nisbəti ilə müəyyənləşdirilir.

Bir çox ölkələrdə uçot stavkası mərkəzi bankın rəsmi stavkası sayılır. O *diskont siyasətinin* aparılması üçün əsas kimi çıxış edir və faiz normalarının dəyişdirilməsi yolu ilə pul bazarının tənzimlənilməsi kimi başa düşülür. Faiz norması vasitəsilə veksellərin bank kreditlərinə çevrilməsi zərurəti zamanı onların təkrar uçotu baş verir. Bu yolla kommersiya kreditinin bank kreditinə transformasiyası baş verir. Lakin bu instrument kommersiya bankları tərəfindən pul təklifinə tam bütünlüyü ilə nəzarət etməyə imkan vermir, çünki indiki dövrdə onun əsas təyinatı güclü şəkildə dəyişilmişdir.

Veksellərin təkrar uçotu ABŞ-da əmanətçilərin öz depozitlərini bank təsisatlarının etibarlılığna ümidlərini itirmələri nəticəsində nəqd pula çevirmək cəhdlərini aradan qaldırılması məqsədi ilə yaradılmışdır. Ona görə də veksellərin təkrar uçotu depozit pulların yenidən pul bazarına daxil edilməsi və ardınca oradan götürülməsi metodu kimi yaradılmışdır. Bu halda kommersiya bankları aktivlərin təkrar uçotu yolu ilə əmanətçilərin sorğularını vaxtında təmin etmək məqsədilə

MUHASIBAT.AZ

kreditlər ala bilərlər və buna uyğun olaraq mərkəzi banka münasibətdə tətbiq olunan «son kreditor instansiyası» ifadəsi öz mənasını kəsb edir. Böhran dövründə depozitlərin konversiyası üçün zəruri olan ilkin likvidlik kimi sonuncu banklar tərəfindən ödənişlərin müvəqqəti kəsilməsi və ya pulun miqdarının xeyli azaldılmasından yan keçilməsi üçün çıxış edə bilir.

Faizin uçot stavkası mərkəzi bank tərəfindən onun kommersiya banklarına verdiyi kreditlər üzrə tutulan faizlərdən ibarətdir. Sonuncuların mövqeyindən baxıldıqda, uçot stavkasının həcmi ehtiyatların artırılması ilə bağlı olan qaçılmaz məsrəflərdən ibarətdir. Əgər uçot stavkasının səviyyəsi aşağı düşürsə, onda kommersiya bankları tərəfindən mərkəzi bankın kreditlərinə olan tələbin həcmi artır, onların kredit imkanları isə çoxalır və buna uyğun olaraq da pul kütləsi də artır. Mərkəzi bank uçot stavkasının artırdığı zaman isə əks nəticə alınır.

Faiz stavkalarının tənzimlənilməsi tarixi aspektdə kredit sferasına (hesab olunur ki, ondan ilk dəfə sələmçiliyin təşkili üçün istifadə olunmuşdur) ilk təsir instrumentlərindən biridir. Bank stavkalarından mərkəzi bank tərəfindən pul tədavülünün tənzimlənilməsi metodu kimi istifadə olunmasının ən qızğın çağı XX yüzilliyin 50-60-cı illərinə təsadüf edir ki, o zaman nəzarətdən bu və ya digər variantda bazar iqtisadiyyatlı dövlətlərdə istifadə olunurdu. XX yüzilliyin 70-ci illərində faiz siyasətinə böyük əhəmiyyət verilirdi, belə ki, o zaman kapitalların beynəlxalq hərəkatının genişlənməsi şəraitində yalnız faiz stavkaları valyuta kursuna, onun da vasitəsilə daxili pul tədavülünə təsir etməyə imkan verirdi. Bu onunla bağlı idi ki, inkişaf etmiş ölkələrin əksəriyyətinin mərkəzi banklarının ehtiyatları çox cüzi halda aqlmışdı, açıq bazardakı əməliyyatlar isə o qədər də inkişaf etməmişdi. Lakin hazırda bu sayaq tənzimləmə metodunun həmiyyəti tədricən azalır.

MUHASIBAT.AZ

Faiz siyasətindən, pul-kredit tənzimləməsi metodu kimi tam imtina edilməsi, bu metodun bir sıra makroiqtisadi effektlərə malik olması səbəbindən – bank sisteminin, faiz siyasətinin bəzən ləngiyən, bəzən də artan qeyri-sabitliyi ayrı-ayrı sosial təbəqələrin və qrupların mənafelərinə toxunduğundan, kifayət qədər mürəkkəbdir. Pul-kredit tənzimləməsinin bu metodunun saxlanılması məqsədilə mərkəzi banklar onun mərkəzi bankın və pul bazarının stavkalarının dəyişdirilməsi yolu ilə saxlanılmasını, mərkəzi bankınmüxtəlif növ stavkalarının miqdarının dəyişdirilməsini, onların dəyişdirilməsi diapozonunda eyni zamanda stavkaların dinamikliyinin artırılmasını, əsasən də stavkalara dolayısı metodlardan istifadə olunmasını nəzərdən keçirirlər.

Bu sayaq yeni baxışın zəruriliyi pul bazarının daim inkişaf etməsi ilə, eləcə də həm də inflyasiya səviyyəsinin dəyişilməsi ilə bağlıdır. Sonuncu faiz stavkasını tez-tez o həddə çatdırır ki, onların tənzimləyici funksiyasını yerinə yetirmək qabiliyyəti itir.

Mərkəzi bankların uçot əməliyyatlarından kommersiya banklarına maliyyə yardımı göstərilməsi üçün mühüm instrument kimi istifadə olunur. Məsələn, uçot stavkasının artırılması kommersiya bankları tərəfindən əlavə alınan ehtiyat pul vəsaitlərinin qiymətini artırır ki, bu da öz növbəsində müştərilərə verilən kreditlərin bahalaşmasına səbəb olur. Nəticədə bazar konyunkturasının müəyyən qədər durdurulması və iqtisadiyyatda işgüzar fəallığın aşağı düşməsi baş verir. Amma hiperinflyasiya şəraitində uçot stavkası iqtisadi baxımdan haqlı olaraq inflyasiya səviyyəsi ilə bağlandırılır. Məsələ burasındadır ki, uçot stavkasının azaldılmış səviyyəsi inflyasiyanın səviyyəsi ilə müqayisədə pul resurslarının iqtisadiyyatdankənar bölüşdürülməsi formasından, müəssisələrin kommersiya banklarının resursları hesabına (kreditlər üzrə faizin uçot stavkasına bağlanılmasından imtina olunması zamanı) dotasiyalaşdırılması üçün əlavə mənbədən ibarətdir.

MUHASIBAT.AZ

Uçot stavkası nəzəri baxımdan banklararası kredit faizi normasına (bir kommersiya bankları tərəfindən digərinə verilən ssuda) və ya hökumətin xəzinə vekselinin kursuna (dövlət büdcəsinin emissiyasız maliyyələşdirilməsi üçün istifadə olunur) uyğun olmalıdır. Sabit iqtisadiyyatda uçot stavkasının səviyyəsi iqtisadi yüksəliş dövründə artır və tənəzzül dövründə azalır, lakin bu qanunauyğa yüksək inflyasiya tempi şəraitində əməl olunmur. Depozit faizinin uçot stavkası ilə uzlaşdırılması inflyasiyanın güman olunan həddə aşağı salınması nəzərə alınmaqla müddətli depozitlərin kifayət qədər yüksək cəlbediciliyini saxlamağa və kommersiya banklarının kredit stavkalarının nominal faizlərinin azaldılmasını, eyni zamanda onların (inflyasiya tempinin nəzərə alınması ilə hesablanılmış) real müsbət əhəmiyyətini saxlamaqla stimullaşdırmağa imkan verir.

Mərkəzi banklar faiz stavkalarının səviyyəsi və strukturunu bazar stavkaları üçün özlərinin müəyyən orientir rolunu oynayan kreditləri üzrə stavkaların təsbit olunması, habelə kredit müəssisələrinin stavkaları üzərində nəzarət etmək vasitəsilə tənzimləyirlər. Birinci halda mərkəzi bankın təsiri daha ümumi xarakter daşıyr, çünki mərkəzi bank müəyyən olunmuş rəsmi uçot stavkası ilə bank tərəfindən cəlb edilən resursların qiymətini müəyyənləşdirir, uçot stavkası artması ilə bank əməliyyatlarının təkrar maliyyələşdirilməsinin qiyməti artır və əksinə. İkinci halda mərkəzi bankın tənzimləyici təsiri kifayət qədər məhdud xarakter daşıyır, çünki kredit müəssisələrinin stavkaları üzərində nəzarət vasitəsilə kreditlərin ayrı-ayrı növlərinə və ya ayrı-ayrı kredit müəssisələrinin əməliyyatlarına qiymət qoyulur. Stavkaların bu sayaq (daha az təsirli və daha çox inzibati) tənzimlənilməsi variantı hazırda, məsələn, əhaliyə verilən kreditlər üzrə yuxarı həd stavkası qoyulması kimi tətbiqini tapır.

Mərkəzi bankın faiz stavkalarının təsiri bütün iqtisadiyyatı əhatə edir, belə ki, bu və ya digər dərəcədə kommersiya bankları kredit

MUHASIBAT.AZ

resursları üçün mərkəzi banka müraciət edirlər. Fərqli olaraq, mərkəzi bankın faiz stavkaları kredit resurslarına olan tələbatın tənzimlənməsi instrumentidir. Xarakterikdir ki, praktikada mərkəzi bankın kreditləri üzrə stavkalarla kreditlər üzrə bank stavkaları arasındakı asılılıq sabit xarakterlidir. Dövlətlərin əksəriyyəti üçün mərkəzi bankın onun kreditlərinə müraciət olunmasını stimullaşdırmaq məqsədilə daha aşağı stavka səviyyəsi tipikdir, hərçənd XX yüzillin 60-cı illərində Fransa və İtaliyada onların mərkəzi banklarının stavkaları kreditlər üzrə bank stavkalarının aşağı, AFR-də isə əksinə, yuxarı həddini müəyyənləşdirmişdilər. Mərkəzi bankın depozitlər üzrə bank stavkaları ilə qarşılıqlı əlaqələrinin böyük əhəmiyyəti vardır, belə ki, o mərkəzi bankın faiz siyasətinin kapital bazarındakı stavkaların dinamikasına təsiri üçün baza yaradır.

Bir çox ölkələr rəsmi və lombard stavkası müəyyən edilir və o uçot stavkasının səviyyəsindən bir faiz bəndi artıq olmaqla, onun ardınca dəyişir (Almaniya Federativ Respublikası, İtaliya, ABŞ). Bu nisbət uçot və lombard kreditlərinin xarakterindəki (qiymətli kağızların girov qoyulması ilə götürülən ssudalar), habelə onların istifadə olunması miqyasındakı fərqi əks etdirir. Müasir dövr üçün xarakterik olan lombard kreditlərindən istifadə olunmanın genişlənməsi mərkəzi bankın lombard kreditləri üzrə uçot stavkasının müstəqil (sərbəst) dəyərinin qüvvətlənməsinə səbəb olur. Lakin hazırda selektiv (seçmə) tənzimləmənin dəyəri faiz stavkalarının köməkliyi ilə azalır, üstünlük isə faiz siyasətinin ümumiqtisadi təsirinə verilir.

Sənayecə inkişaf etmiş bütün dövlətlərdə faiz siyasətinin əsas obyekti qısamüddətli stavkalardır ki, onların da çevikliyi təkcə pul tədavülünün sabitliyinin uzunmüddətli təmin olunmasına orientasiyasına yardım etməklə deyil, həm də müxtəlif növ iqtisadi şokların, valyuta bazarının və digər hadisələrin ona təsirinin kompensasiyası kimi götürülür. *Faiz stavkalarının tənzimlənilməsi*

MUHASIBAT.AZ

şərtlərinin mövcudluğu kifayət qədər rəngarəngdir ki, onlardan da aşağıdakıları:

- pul bazarının nisbətən qısamüddətli stavkalarının sabitləşməsini və qəbul olunmuş tənzimləmə metodlarına onların müvafiq reaksiyasının təmin olunmasını (inkişaf etmiş dövlətlərdə mərkəzi bankların fəaliyyətinə daha çox diqqət bu şərtə yönəldilir);
- pul bazarının (bir həftədən iki ayadək) daha uzunmüddətli stavkalarının, artıq qəbul olunmuş investisiya qərarları ilə bağlı sabitləşməsini;
- stavkalar səviyyəsində pul bazarının nəzərdə tutulacaq dəyişikliklərə reaksiyasının müəyyənləşdirilməsini göstərmək olar.

Müasir şəraitdə birbaşa bank stavkalarının müəyyənləşdirilməsindən imtina edilməsi (çəkinilməsi) tədricən və qeyri-bərabər şəkildə həyata keçirilir. Bu sayaq yanaşmanın mümkün variantları həm ciddi nəzarətə məruz qalmayan bazar iqtisadiyyatının və bazar seqmentlərinin yeni instrumentlərinin yaranması prosesində davamlı liberallaşma, həm də faiz stavkalarının tənzimlənilməsinin birbaşa ləğvi ilə bağlıdır. Hərçənd birbaşa stavkaların müəyyənləşdirilməsindən imtina olunma dərəcəsindəki diferensiallıq (fərqlilik) kifayət qədər nəzərə çarpandır (AFR, ABŞ, İngiltərə və İsveçrə istisna olmaqla), bununla belə, ciddi nəzarətlə – topdan pul bazarının stavkaları, praktiki olaraq bütün dövlətlərdə banklararası kreditlər üzrə stavkalara nəzarət olunmur. Bununla belə, bir çox hallarda faiz stavkalarının dolayısı yolla tənzimlənilməsi faiz stavkalarının birbaşa müəyyənləşdirilməsini bank ehtiyatlarının həcminə və dinamikasına təsir göstərən metodlarla əvəz olunmasını nəzərdə tutur.

MUHASIBAT.AZ

Mərkəzi bankın bank stavkalarına münasibətdə siyasətinin dəyişdirilməsi tənzim olunanlarla bazar stavkaları arasında qarşılıqlı münasibətlərin dəyişilməsinə gətirib çıxarır.

Mərkəzi bankın kreditləri üzrə uçot stavkalarının nisbi artımı bazar kreditlərinin istifadə olunmasını stimullaşdırdığı kimi, stavkaların səviyyəsi üzərində birbaşa nəzarət rolunu da azaldır. Ona görə də mərkəzi bankın kreditlərindən istifadə olunmanın stimulsuzlaşdırılmasına uçot stavkasının səviyyəsinin artırılması hesabına (uçot və ya lombard kvotalarının) kəmiyyət məhdudiyyətinin tətbiqi yolu, bu məhdudiyyətlərin artırılması zamanı cərimə səviyyəsi adlandırılan uçot stavkalarının müəyyənləşdirilməsi vasitəsi ilə nail olunur. Məsələn, ABŞ-da uçot kreditlərinin tənzimlənilməsi üçün inzibati məhdudlaşdırmalarla yanaşı, əl çatan əsas instrument həm də açıq bazarda Federal ehtiyatlar sisteminin əməliyyatları olmuşdur.

Müxtəlif dövlətlərdə uçot stavkalarının tənzimlənilməsi mexanizmindəki kəmiyyət məhdudiyyətlərinin rolunun müxtəlifliyi əsasən iqtisadiyyatın kreditləşdirilməsinin spesifikası və mərkəzi bankın kreditlərinin rolu ilə müəyyənləşdirilir. Bununla belə, uçot stavkalarının təyin olunmuş uçot stavkalarının kəmiyyət məhdudiyyətləri ilə tamamlanması mərkəzi bankların faiz siyasətində, müəyyən dərəcədə uçot stavkasının praktiki olaraq bank kreditlərinin səviyyəsi və dəyər dinamikasına təsirinin azalmasını kompensasiya edən mütləq şərtdir. Məsələn, XX əsrin 80-ci illərində İngiltərə və Yaponiyada mərkəzi banklara bankların kreditləşdirilməsi şərtlərini kifayət qədər sərbəst dəyişdirməyə imkan verən model işlənilib hazırlanmışdı. Fransada mərkəzi bankın kreditlərinə qoyulan kvotanı artırmaq (həddini aşmaq) bazar stavkaları üzrə təmin olunurdu, bu, onunla şərtlənirdi ki, diskont kreditlərin geniş yayıldığı ölkələrdə uçot kvotalarının əhəmiyyəti kifayət qədər böyükdür və bununla da, bank sistemi kreditlərinin daha

MUHASIBAT.AZ

böyük hissəsinin veksel uçotu vasitəsilə təmsil olunmasından daha əhəmiyyətlidir.

Kvotalar, bir qayda olaraq, hər bir bank üçün fərdi qaydada müəyyənləşdirilir. Sərbəst (müstəqil) lombard kvotalarının müəyyənləşdirilməsi də mümkündür, hərçənd bunlar kifayət qədər çox hallarda qanunvericiliklə müəyyənləşdirilmir, yalnız uçot kvotalarına münasibətdə ənənəvi praktika ilə təsbit olunur. Məsələn, AFR-da formal lombard kvotasının olmadığı şəraitdə mərkəzi bank lombard krediti kimi 30%-dən artıq uçot kvotası vermir, 1979-1980-ci illərdə mərkəzi bankın kreditlərə qoyduğu daha sərt məhdudiyyətlər pul tədavülünün durumu ilə bağlı diktə olunduğu bir vaxtda isə lombard kvotaları rəsmi olaraq uçot kvotasının 15%-i səviyyəsində müəyyənləşdirilmişdir. Mərkəzi bankın uçot kreditlərinin kvotalarının müəyyənləşdirilməsi variantlarından biriuçota müqabil veksellərin müəyyənləşdirilməsi və ya yenidən uçot kontingentinin müəyyənləşdirilməsidir ki, bu da fərdi qaydada həyata keçirilə bilər və müvafiq olaraq tənzimləmənin selektiv və ya seçilmiş xarakterini təmin edə bilər.

Müasir şəraitdə faiz siyasətinin nəticələri əsas etibarilə stavkaların mütləq səviyyəsinin tənzimlənilməssindən deyil, sonuncunun bazar stavkaları səviyyəsinə nisbətdən asılıdır. Mərkəzi bankın uçot stavkalarının bazarın durumuna uyğunlaşdırılması avtomatik olmadığından, həmin mexanizmin çevikliyinin artması faiz siyasətinin səmərəliliyinin artırılmasının mühüm şərtləri kimi nəzərdən keçirilməlidir.

MUHASIBAT.AZ

14.5. MƏRKƏZİ BANKIN AÇIQ BAZARDA ƏMƏLİYYAT APARMASI

İnkişaf etmiş bazar iqtisadiyyatında dövlət (əksər hallarda xəzinədarlıq simasında) qiymətli kağızların əsas emitentlərindən birinə çevrilir. Bütün dünyada qiymətli kağızların mərkəzləşdirilmiş buraxılışı iqtisadiyyatın dövlət tərəfindən tənzimlənilməsində instrument (geniş anlamda dövlət qiymətli kağızları) kimi və pul kütləsinin həcminin tənzimlənilməsi yolu ilə pul tədavülünə təsir rıçaqı kimi, dövlət büdcəsi kəsirinin qeyri-emission ödənilməsi, konkret dövlət məsələlərinin (məhdud mənada mahiyyətcə dövlət qiymətli kağızlarının) yerinə yetirilməsi üçün hüquqi və fiziki şəxslərin pul vəsaitlərinin cəlb olunması kimi istifadə olunur. Mərkəzi bankın açıq bazarda əməliyyatları bu məsələlərin yerinə yetirilməsi üçün xüsusi yer tutur.

Açıq bazarda əməliyyatların mahiyyəti mərkəzi bank tərəfindən qiymətli kağızların, əsasən xəzinədarlıq öhdəliklərinin, bankların və sənaye firmalarının istiqrazlarının, habelə mərkəzi banklar tərəfindən nəzərə alınan kommersiya veksellərinin alqı-satqısından ibarətdir. Açıq bazarda əməliyyatların əhəmiyyətinin artmasının ilkin şərti onların ənənəvi tənzimləmə üsullarına yaxın olmasıdır. Qiymətli kağızların sonradan təkrar satılması üçün alınmasının əks əməliyyatı qiymətli kağızların girov qoyulması əvəzində kredit götürülməsindən çox az fərqlənir.

Dövlət qiymətli kağızlarının yayılması və dövriyyəsində, onları fond bazarında alan və satan kommersiya bankları mühüm rol oynayırlar. Belə ki, kommersiya bankları özlərinin mərkəzi bankın, onların ehtiyat öhdəlikləri hesabına yaradılmış resurslarının cəlb olunmasına olan tələbatlarını azaltmağa çalışdıqlarından, onlar buna yalnız özlərinin pul passivlərini azaltmaq yolu ilə nail ola bilərlər. Bunun üçün onlara lazımdır ki, özlərinin depozitlərini qiymətli

MUHASIBAT.AZ

kağızların buraxılması yolu ilə aktivə çevirsinlər, amma aktivləri, məsələn, banklararası kredit bazarında satmaq da mümkündür. Bu əməliyyatları həyata keçirmək üçün bütün iştirakçıların əli çata bilən qiymətli kağızlar bazarının olması vacibdir. Mərkəzi bank həmin bazarda qiymətli kağızlar alınması və ya satılması yolu ilə açıq bazar adlanan siyasəti həyata keçirir. İstənilən digər bank həmin bazarda mərkəzi bankın resurslarını təklif etməklə və ya yığışdırmaqla bunu edə bilər.

Açıq bazar siyasətinin fəaliyyət göstərməsinin *əsas şərti* dövlətdə qiymətli kağızlar bazarının mövcudluğudur ki, onların da alqı-satqısı mərkəzi banka imkan verir ki, pul-kredit bazarına və kommersiya banklarının borc alanlara kredit verilməsi sahəsindəki potensial imkanlarına təsir edə bilsin. Hazırda açıq bazarda sövdə obyekti kimi əsasən dövlət qiymətli kağızları çıxış edir. Qiymətli kağızların satılması zamanı pul-kredit bazarının sərbəst kapitalı istifadə olunur, bankların kreditqabilliyi azalır və kredit restrikasiyası imkanları yaranır, qiymətli kağızların alınması zamanı isə əlavə resursların axını baş verir, kommersiya banklarının kredit imkanları genişlənir və kredit ekspansiyası üçün əlverişli şəraitlər yaranır.

Dünya praktikasında qəbul olunmuş *dövlət qiymətli kağızlarına* aşağıdakılar aid edilir:

- xəzinədarlıq vekçelləri – adətən bir il ərzində ödənilən və diskontla relizə olunan, yəni ödənildiyi nominaldan aşağı dəyərlə (bəzən nominalı üzrə satılan, fəqət nominaldan yuxarı qiymətlə buraxılan) satılan qısamüddətli dövlət öhdəlikləri;
- bir ildən beş ilədək ödənilmə müddəti olan və adətən təsbit olunmuş faiz şərti ilə ödənilən ortamüddətli xəzinə vekselləri, xəzinə bonları – xəzinə öhdəlikləri;
- uzunmüddətli xəzinə öhdəlikləri – xəzinədarlığın on il və daha çox ödənilmə müddətli öhdəlik növüdür ki, onun vasitəsilə də

MUHASIBAT.AZ

kupon faizləri ödənilir (müddətin keçməsi üzrə belə dövlət qiymətli kağızlarının sahibləri onların əvəzində nəqdiyyat ala bilər və ya onları hər hansı digər qiymətli kağızların təkrar maliyyələşdirilməsində istifadə edə bilər, bir sıra hallarda isə uzunmüddətli öhdəliklər nəzərdə tutulan tarixin başa çatmasından əvvəl, yəni rəsmi ödəniş müddətinin başa çatmasından bir neçə il əvvəl ödənilə bilər);

- öz təbiəti və təyinatına görə orta- və uzunmüddətli xəzinədarlıq öhdəliklərinə yaxın olan, bəzən isə onlardan fərqlənməyən dövlət (xəzinədarlıq) istiqrazları – öhdəlikləri (dövlət istiqrazlarının ayrı-ayrı növləri, o cümlədən, əmanət istiqrazları qeyri-bazar əsasda da yayıla bilər).

Dövlət qiymətli kağızlarının *etibarlılıq, likvidlik, mədaxillilik* kimi meyarları vardır. Əgər qiymətli kağızların etibarlığı və likvidliyi yüksəkdirsə, onda onun mədaxilliliyi adı çəkilən meyarlara malik olmayan bazar instrumentlərinin mədaxillilindən aşağıdır. Pul vəsaitlərinin dövlət qiymətli kağızlarına yatırılması onların bank depozitlərində yerləşdirilməsindən faydalılığı ilə fərqlənir, belə ki, belə investisiyalaşdırmanın etibarlılığı tamamilə yüksəkdir. Məhz elə bu da investorları cəlb edir.

Beləliklə, açıq bazardakı əməliyyatlar mərkəzi bank tərəfindən kommersiya bankları, müəssisə və təşkilatlardan dövlət qısamüddətli öhdəliklərinin (dövlət istiqrazlarının) alınıb-satılmasına gətirib çıxarır. Əgər mərkəzi bank dövlət istiqrazlarının alqısını həyata keçirirsə, onda belə əməliyyatın nəticəsində kommersiya banklarının resursları artır. Bu resursların onların öz müştərilərinə kreditə verilməsi yolu ilə kommersiya bankları tərəfindən istifadə olunmasından sonra multiplikasiya effektinə uyğun olaraq depozitlərin artımı baş verir. Ona görə də mərkəzi bank tərəfindən qiymətli kağızların satın alınması

MUHASIBAT.AZ

nəticəsində pul bazası və pul kütləsi artır. Onun əks effekti mərkəzi bank tərəfindən dövlət istiqrazlarının satılması zamanı baş verir.

Açıq bazarda əməliyyatlar XX əsrin 20-ci illərində ABŞ-da keçirilməyə başlandı. Yüksək konyunktura dövründə mərkəzi bank kommersiya banklarına onların kredit imkanlarını məhdudlaşdırmaq məqsədilə təklif edir ki, onlara sərfəli stavkalarla qiymətli kağızları satın alsınlar; böhran dövründə isə mərkəzi bank, əksinə, kommersiya bankları üçün təkrar maliyyələşdirmə imkanları yaradır və onlar üçün elə şərtlər yaradır ki, öz qiymətli kağızlarını mərkəzi banka satmaq onlar üçün daha faydalı olur. Qiymətli kağızların alqı-satqısının həcminin və qiymətli kağızların alınıb-satıldığı faiz stavkalarının səviyyəsinin dəyişdirilməsi yolu ilə mərkəzi bank kommersiya banklarının kredit aktivliyinəçevik və kifayət qədər cəld təsir göstərə bilər.

Açıq bazar siyasəti bank sistemində real sayımda kapitalın həcmini dəyişmir, yalnız onun pulla və ya qiymətli kağızlarla olan tərkibini dəyişir. Açıq bazarda əməliyyatların aparılması kommersiya bankları tərəfindən təklif olunan pullar üzərində nəzarəti asanlaşdırır. Ona görə də mərkəzi bank tərəfindən qiymətli kağızların sərbəst alınması və satılması bank ehtiyatlarının formalaşması və buna uyğun olaraq ümumi pul kütləsinin tənzimlənilməsi prosesini asanlaşdırır. Hazırda açıq bazarda əməliyyatlar mərkəzi bankın pul-kredit sferasına müəyyənləşdirici təsir rıçaqıa çevrilmişdir. Ona görə də açıq bazarda əməliyyatlardan bacarıqla istifadə olunması zamanı həmin əməliyyatlar pul-kredit siyasətinin çevik və kifayət qədər güclü instrumenti ola bilər.

Açıq bazarda əməliyyatlardan istifadə olunması inkişaf etmiş dövlətlərin əksəriyyətinin mərkəzi bankları üçün xarakterikdir. Avropa dövlətlərindən ilk dəfə olaraq bunlardan AFR və Hollandiyada istifadə olunmasına başlanılmışdır. Bu zaman açıq bazarda mərkəzi bankın əməliyyatlarının təsirliliyinin əsası onun, bütövlükdə bank sistemi üçün

MUHASIBAT.AZ

kredit resurslarının yaradıcısı kimi inhisarçı vəziyyətidir. Mərkəzi bankın resurslarına olan tələbin mövcud səviyyəsində onun açıq bazarda kreditlərin verilməsinə və əməliyyatlara dair şərtlərinə münasibətdə siyasəti təklif olunan bank resurslarının real həcmini müəyyənləşdirir. Açıq bazardakı əməliyyatlar (qiymətli kağızların satılması zaman) bankların öz resurslarını və bütövlükdə bank sisteminin həcmini artırır. Bu, kreditin qiymətində və nəticə kimi həm də pul kütləsinin həcmində öz əksini tapır.

Kredit təsisatları üçün əməliyyatların açıq bazarda xüsusi cəlbediciliyi *onun instrumentlərinin yüksək likvidliyi* ilə bağlıdır. Məsələn, üstünlüyü təşkil edən daha çox xəzinədarlığın qısamüddətli öhdəlikləridir (məsələn, üç ay müddətində ödənilməli olan xəzinədarlıq vekselləri ilə əməliyyatlar), hərçənd özəl maliyyə instrumentləri ilə və hətta valyuta ilə də əməliyyatlar aparıla bilər. Birbaşa tənzimləmə formalarından fərqli olaraq, mərkəzi bankın açıq bazardakı əməliyyatları tənzimləmə subyektinin bilavasitə pul bazarına çıxmasını nəzərdə tutur, çünki, əvvəla, bu əməliyyatlar elə məqamda və elə kəmiyyətdə aparıla bilər ki, bunlar bazarın tələb olunan reaksiyasına səbəb olsun, ikincisi, açıq bazardakı əməliyyatlar daha öngörülən və daha qısamüddətlidir. Bu iki moment pul tədavülünə həmin təsir metodundan istifadə olunmasının üstünlüyünü müəyyən edir.

Açıq bazardakı əməliyyatlar müxtəlif dövlətlərin mərkəzi bankları tərəfindən fərqli miqyasda istifadə olunur. Onların intensiv istifadə olunmasında əsas maneələr qiymətli kağızların təkrar bazarının inkişaf etməməsindən və əməliyyatların aparılması üçün lazımi miqyasda vəsaitin olmamasından ibarətdir. Lakin bilavasitə qərarın qəbul olunmasından və sonra və sərbəst həcmdə açıq bazarda əməliyyatların aparılmasının mümkünlüyü pul-kredit tənzimləməsinin bu üsulunu izafi pul kütləsinin kiçik həcmlərinin udulmasını əlverişli edir. Açıq bazarda əməliyyatlardan məhz belə istifadə olunması bir sıra

MUHASIBAT.AZ

dövlətlərdə üstünlük təşkil edir. Digər ölkələrdə açıq bazarda əməliyyatlar əsas etibarilə uzunmüddətli dövlət öhdəliklərinin sabitləşdirilməsi üçün aparılır. Bu strategiyaya daha çox qiymətli kağızlarla əməliyyatların aparılması deyil, mərkəzi bankın həmin əməliyyatları aparmağa razı olduğu şəraitin tənzimlənilməsi uyğun gəlir.

Mərkəzi bankın açıq bazardakı əməliyyatları bir neçə əlamətləri ilə fərqlənən *rəngarəng formalardan istifadə olunmasının* mümkünlüyünü nəzərdə tutur: sövdə şərtləri (əvvəlcədən müəyyən olunmuş kursla geriyə müddətli satqı-alqı öhdəliyi ilə birbaşa alqı-satqı və ya əks əməliyyat adlandırılan alqı-satqı); sövdə obyektləri (dövlət və ya özəl qiymətli kağızları); sövdə obyektinin müddətliliyi (qısamüddətli – üç Abşeron yarımadası qədər, uzunmüddətliliyi – bir ilə qədər); əməliyyatın istiqaməti (alqı əməliyyatının başlanğıcı zamanı bank sisteminin resurslarının genişlənməsi baş verir, satış əməliyyatının başlanğıcı zamanı bank sisteminin resurslarının məhdudlaşması (daralmasfı) baş verir); əməliyyatların aparılması sferası (yalnız qiymətli kağızlar bazarının bank sektoru və ya həm də qeyri-bank sektoru daxil edilir); əməliyyatların stavkası (mərkəzi bank tərəfindən təyin edilir və ya bazar tərəfindən müəyyənləşdirilir); əməliyyatların aparılmasının təşəbbüskarı (mərkəzi bank və ya pul bazarının iştirakçıları).

Açıq bazarda əməliyyatlar daha çox pul bazarının müxtəlif seqmentlərinin maksimum inkişaf etdiyi ölkələrdə geniş yayılmışdır. Əgər mərkəzi banklar pul-kredit tənzimləməsinin bu metodundan istifadə olunmasına orientasiya edirlərsə, onda hökumət də qısamüddətli qiymətli kağızlar bazarının inkişafını stimullaşdırır. Belə tədbir mərkəzi bankın açıq bazarda əməliyyatlarının miqyası və effektivliyinin artmasının mühüm müqəddəm şərti kimi nəzərdən keçirilir.

MUHASIBAT.AZ

Qiymətli kağızlarla *birbaşa əməliyyatlar*[14] tarixən pul-kredit tənzimləməsi üçün mərkəzi banklar tərəfindən istifadə olunan bu sayaq əməliyyatların ilkin formasıdır. Hazırda bir çox dövlətlərdə uzunmüddətli dövlət qiymətli kağızları ilə birbaşa əməliyyatlar inkişaf edir. Onlar ABŞ-da daha çox həcmdə Federal ehtiyat sistemi orqanlarının xüsusi açıq bazar üzrə əməliyyatlar Komitəsi tərəfindən həyata keçirilir. Bu əməliyyatlar əsas etibarilə qısamüddətli dövlət qiymətli kağızları bazarında (xəzinədarlıq vekselləri) təmərküzləşir. Əməliyyatların keçirilməsi üçün sifarişlərin əsas kütləsi dövlət qiymətli kağızlarının tipi və müddəti göstərilməklə dilerlərdə yerləşdirilir, şərtləri isə (daha əlverişli təklif qiyməti ilə) bazar əsasında müəyyənləşdirilir.

Açıq bazarda *əks əməliyyatlar*[15] pul bazarına daha yumşaq təsir kimi xarakterizə olunur. Çünki belə əməliyyatlar pul-kredit tənzimləməsinin daha çevik metodu sayıldığından, onların mərkəzi banklar tərəfindən istifadə olunması hazırda artmaqdadır.

Açıq bazarda əməliyyatların cüzi mütləq və nisbi həcmləri zamanı bunlar bank sisteminin likvidliyinə ilk növbədə daha çox keyfiyyət təsiri göstərirlər, nəinki kəmiyyət təsiri. Lakin pul-kredit tənzimləməsinin bu metodunun inkişaf etməsi və təkmilləşməsi ilə bağlı olaraq pul bazarının struktur xarakteristikasına təsirdən onun kəmiyyət parametrlərinə təsirə keçid imkanları yaranır. Mərkəzi bankın açıq bazarda əməliyyatlarının son dərəcə mühüm xüsusiyyəti onların bazarın qısamüddətli inkişaf tendensiyyasına nisbətən daha tez reaksiya verməsi, habelə pul tədavülünün durumuna və bütövlükdə iqtisadiyyatın vəziyyətinə tənzimləyici təsir göstərməkdən ibarətdir.

Özünü yoxlama üçün suallar

1. Mərkəzi bankın hökumətdən nisbi müstəqilliyi nədir?

[14] Qiymətli kağızların alınması və ya satılması birbaşa əməliyyatlara aiddir.
[15] Əks əməliyyatlara əvvəldən müəyyən olunmuş kursla əks satqı-alqı öhdəliyi ilə müddətli alqı-satqı aid edilir.

MUHASIBAT.AZ

2. Mərkəzi bankın ümumi və konkret məqsədlərinədən ibarətdir?
3. Pul-kredit siyasətinin aparılması zamanı mərkəzi bank hansı məsələləri həll edir?
4. Mərkəzi bankın funksiyası və əməliyyatları nədən ibarətdir?
5. Pul-kredit tənzimləməsinin bu və ya digər instrumentinin seçilməsi nə ilə bağlıdır?
6. Pul-kredit tənzimləməsi instrumentlərini hansı meyarlara görə fərqləndirmək olar?
7. Minimal ehtiyatlar tələbləri metodunun tətbiq edilməsinin mahiyyəti nədən ibarətdir?
8. Bank təsisatlarının passiv və ya aktivlərinə münasibətdə mütləq ehtiyatlar normasının çatışmazlıqları və üstünlükləri nədə təzahür edir?
9. Minimal ehtiyatlar tələbləri metodunun istifadə olunması nəyə yönəldilib?
10. Mütləq ehtiyatlar normasından uzun müddət istifadə olunması hansı nəticələrə gətirir?
11. Mütləq ehtiyatlar normasından istifadə olunmasının təkmilləşdirilməsi üzrə hansı istiqamətlərdə iş aparılır?
12. Mərkəzi bank uçot stavkası nədir və onun səviyyəsini hansı amillər müəyyənləşdirir?
13. Mərkəzi bankın kreditlərindən istifadə olunması hansı yollarla destimulyasiya edilir?
14. Açıq bazardakı əməliyyatlar nədən ibarətdir?
15. Mərkəzi bank hansı yollarla açıq bazarda əməliyyatlar vasitəsilə kommersiya banklarının kredit aktivliyinə təsir göstərə bilər?
16. Açıq bazarda geniş əməliyyatlar aparılmasına nə mane olur?
17. Mərkəzi bankın açıq bazarda əməliyyatlarının hansı formaları mövcuddur?

MUHASIBAT.AZ

15. KOMMERSİYA BANKLARININ FƏALİYYƏTİNİN ƏSASLARI

15.1. KOMMERSİYA BANKI TƏSƏRRÜFATÇILIĞIN SUBYEKTİ KİMİ

Bank sisteminin ikinci mərhələsini kommersiya bankları təşkil edir ki, onlar da universal və ixtisaslaşdırılmış banklara bölünürlər. *Universal banklar* bütün və ya demək olar ki, bütün bank əməliyyatları növlərini (bütün növlərdən olan əmanətlərin qəbulu, qısa- və uzunmüddətli kreditlərin verilməsini, qiymətli kağızlarla əməliyyatları və s.), mülkiyyətin istənilən formasında təsərrüfatçılıq subyektinə və istənilən sahəsinə və əhaliyə xidmət göstərilməsini həyata keçirir. *İxtisaslaşdırılmış banklar* bir və ya çox da geniş olmayan bank əməliyyatlarına həyata keçirir. Lakin müasir bank fəaliyyəti getdikcə daha universallaşır. Bu, bank işinin elə inkişaf səviyyəsi ilə bağlıdır ki, bu zaman kredit, pul və hesablaşma əməliyyatları bir mərkəzdə təmərküzləşir.

Xarakterik haldır ki, «kommersiya bankı» termini bank işinin erkən inkişaf mərhələlərində – hələ banklər əsasən ticarətə, əmtəə mübadiləsi əməliyyatlarına və ödənişlərə xidmət göstərərkən meydana çıxmışdır. Müştərilərin əksəriyyətini tacirlər təşkil etdiyindən, onlar kommersiya bankları adlanmağa başlamışdı.

Hazırda «kommersiya» termini özünün bank adında ilkin mənasını itirmişdir. O bankın «işgüzar» xarakterini, növü və fəaliyyətlərindən asılı olmayaraq təsərrüfatçılığın bütün subyektlərinə xidmət göstərməyini bildirir. Kommersiya banklarının fəaliyyətinin dayanıqlığı üçün onun likvidlik balansının olması zəruridir, yəni onun kifayət qədər kapitalı olmalıdır, ödəməqabilli olmalıdır, onun kapitallarının keyfiyyətinə qarşı irəli sürülən tələbləri təmin etməlidir.

MUHASIBAT.AZ

Kommersiya banklarına bənzər təsisatlar hələ lap qədimlərdə mövcud olmuşdur. Qədim Misirdə bank əməliyyatları hələ b.e.ə. 2700-cü ildə həyata keçirilirdi. Hammurapinin (b.e.ə. 1704-1662-ci illər) Qanunnaməsi sübut edir ki, hələ o zamanlar Babilistanda və Assuriyada vəsaitlərin saxlanılması forması və ssuda əməliyyatları qanunlarla tənzimlənirdi (vəsaitin saxlanılmasından ötrü qanun ödəniş verilməsini nəzərdə tututurdu). Ssudalar təkcə pulla deyil, mal (taxıl, yun, xurma, toxum, yağ və s.) ilə də verilirdi. Ssudalar üzərinə faizlər hesablanırdı, malların saxlanılması yerləri ehramlar idi, belə ki, orada təhlükəsizlik daha çox təmin olunurdu. Lakin müasir anlamda kredit-hesablaşma institutu kimi ilk bank İtaliyada 1407-ci ildə Genuyada (Banka di San Corco) yaranmışdı, ilk bankirlər isə sərraflar (pul dəyişənlər) idilər. Ona görə də «bank» sözünün özü italyanca «banko» (sərraf masası, pul stolu) sözündən əmələ gəlmişdir.

Fəqət müasir bankların erkən nümunələri müxtəlif dövlətlərdə sənayeləşdirmə prosesinin nəticəsi olaraq yaradılmışdır. Onların erkənləri XVIII əsrdə, qalanları isə XX əsrdə meydana çıxmışdır. İlk vaxtlar onların müştəriləri əsasən müəssisələr və həmin müəssisələrin sahibləri idi. Kommersiya banklarından bəziləri elə həmin məqamdan pay iştirakı ilə, müəssisələrin buraxdığı istiqrazların satın alınması və ya uzunmüddətli kreditlərin verilməsi üzrə ixtisaslaşmağa başladı. Digərləri qısamüddətli kreditlər üzrə, o cümlədən veksellərin uçotu, depozit vəsaitlərdən maliyyələşdirilən bank aksepti və qısamüddətli kreditlərin verilməsi üzrə ixtisaslaşmağa başladılar. Başqaları isə eyni zamanda hər iki fəaliyyətlə məşğul olurdular ki, bu da onların çoxunun XIX-XX əsrlərin dövri böhranları zamanı müflisləşməsinə gətirib çıxardı.

Kommersiya banklarının xarakterik xüsusiyyəti onların ikili ixtisaslaşmasından ibarətdir, yəni təsərrüfatçılıq subyektləri ilə iş və ayrı-ayrı şəxslərin depozitlərinin qəbul olunması zamanı

MUHASIBAT.AZ

ixtisaslaşmasından ibarətdir. Sonuncular kommersiya banklarına imkan verir ki, təsərrüfatçılıq subyektlərinin fəaliyyətini maliyyələşdirsinlər və habelə özlərinin investisiyalarını maliyyələşdirsinlər. Bu əlamətlərinə görə onlar xaricdə qarşılıqlı kreditlər üzrə cəmiyyətlərə, kooperativlərə (müəyyən fəaliyyətlə məşğul olurlar), özəl müştərilərlə işləyə və mənzil inşası (və ya alınması) üçün kreditlər verən əmanət banklarına bölünürlər.

Kommersiya bankları arasında bütün ölkə ərazisində şöbələri və regional kommersiya bankları olan iri banklar fərqlənir. Qarşılıqlı kredit və kooperativlər cəmiyyəti şəbəkəsinin mövcud olduğu və əmanət banklarının yaradılmadığı bir sıra ölkələrdə kommersiya bankları xəzinədarlıq bonları, dövlət istiqrazları ilə əsas əməliyyatları həyata keçirirlər. Bundan əlavə, bir çox hallarda onlar dövlət qiymətli kağızlarınamütləq vəsait yatırımları aparmalıdırlar. Kommersiya bankları ənənəvi olaraq həm də bankda hesabları olan özəl (xüsusi) şəxslərə onların qiymətli kağızlar portfelinin idarə olunması şəklində xidmətlər də təklif edirdilər. Bununla da onlar birja vasitəçilərinə rəqabət təşkil edirdilər ki, bu da onları bu sahədə xidmətlər sferasında fəal olmayan qarşılıqlı kredit, kooperativ cəmiyyətləri şəbəkəsi və əmanət banklarından fərqləndirirdi.

Müasir şəraitdə kommersiy*a bankının təsərrüfat subyekti kimi anlaşılmasına* kifayət qədər tez-tez təşkilati-funksional, texnoloji, vasitəçi mövqeyindən yanaşırlar. Bununla da onun güclü idarəetmə alətlərindən biri kimi pul tədavülü və kredit münasibətlərinə xidmət göstərən ictimai inkişaf və təsərrüfat subyekti instrumenti kimi rolu azalır. Bankların mahiyyətinin təhrif olunmuş şəkildə anlaşılması və onların rolunun kiçildilməsi həmin bank təsisatlarının funksiyalarının əsassız şəkildə məhdudlaşdırılmasına gətirib çıxarır. Məsələn, kifayət qədər tez-tez əsassız olaraq paylaşdırma (bölüşdürmə) funksiyası – daha çox mənfəət alınması məqsədilə kapitalın yerdəyişməsi birinci yerə

MUHASIBAT.AZ

irəli çəkilir. Bankların ictimai funksiyası – maddi nemətlərin təkrar istehsalını stimullaşdırmaq və iqtisadi tərəqqinin hərəkətverici qüvvəsi olması – isə kənarda qalır. Bununla belə, müasir kommersiya bankı pul tədavülünün və bütün formalarda kreditin fəaliyyət göstərməsi qaydalarının yaradıcısı kimi çıxış edən təşkilatdır. Ona görə də banklar ölkənin milli sərvətlərinin toplayıcısı rolunda çıxış edir, istehsal və tədavül strukturuna iqtisadi təsir orqanı sayılır. Hazırda daha çox mənfəət götürmək banklar və bank fəaliyyəti haqqında qanunvericilikdə kommersiya bankının orientasiyasında başlıcasıdır.

Bank təsisatlarının fəaliyyəti çox rəngarəngdir, ona görə də onların mahiyyyəti kifayət qədər qeyri-müəyyən olur. Müasir cəmiyyətdə banklar əməliyyatların ən rəngarəng növləri ilə məşğul olurlar. Onlar təkcə pul dövriyyələri və kredit münasibətlərini təşkil etmir, həm də onların vasitəsi ilə iqtisadiyyatın maliyyələşdirilməsi həyata keçirilir, sığorta əməliyyatları, qiymətli kağızların alqı-satqısı aparılır, bəzi hallarda isə vasitəçilik sövdələri və əmlakın idarə olunması həyata keçirilir. Bank təsisatları məsləhətçilər (konsaltinqlər) rolunda çıxış edir, xalq təsərrüfatı proqramlarının müzakirəsində iştirak edir, statistika aparır, özlərinin yardımçı təsərrüfatlarına malik olurlar.

Kommersiya bankı *təsərrüfatçılığın müstəqil subyektidir*, hüquqi şəxs hüququna malikdir, bank məhsulunu itsehsal və realizə edir, xidmətlər göstərir, kommersiya hesablaşması prinsipləri üzrə fəaliyyət göstərir. Bankın vəzifəsi müəssisələrin vəzifəsindən az fərqlənir, belə ki, o öz xidmətləri və məhsulları ilə ictimai tələbatın təmin olunması, əldə olunmuş mənfəət əsasında həm öz kollektivinin üzvlərinin, həm də bankın əmlakının sahibçisnin maraqlarının realizasiyası ilə ilə bağlı məsələləri həll edir. Bank onun nizamnaməsi ilə müəyyən olunmuş istənilən təsərrüfat fəaliyyəti növünü həyata keçirilə bilər.

Bank da istənilən müəssisə kimi xüsusi icazəyə (lisenziyaya) malik olmalıdır. Sənaye, kənd təsərrüfatı, inşaat, nəqliyyat və rabitədən fərqli

MUHASIBAT.AZ

olaraq banklar istehsal sferasında deyil, mübadilə sferasında fəaliyyət göstərirlər, onlar da resursları «satın alır», aldıqlarını «satır», təkrarbölüşdürmə sferasında fəaliyyət göstərir, əmtəə mübadiləsinə yardım edirlər. Bankların öz «satıcıları», ambarları, xüsusi «məhsul ehtiyatı» vardır, onların fəaliyyəti əksəriyyətlə pulların dövranlığından asılıdır. Bununla da banklarla ticarət sferası arasındakı oxşarlıq əsasən sona çatır.

Kommersiya bankı *təsərrüfat hesablı müəssisə* sayılır. Bu onu bildirir ki, kommersiya bankının fəaliyyətində başlıcası iqtisadi maraqların realizə olunmasıdır. Bankın işinin bütünlüklə öz iqtisadi maraqlarının realizasiyasına tabe etdirilməsi bütün digər motivlərin və məqsədlərin tabe etdirilməli olduqları ali prinsip sayılır. Bunsuz bank iqtisadi müəssisə kimi baş tutmaya bilər. Məsələn, onun fəaliyyətinin iqtisadi maraqlarla ziddiyyət təşkil edən hər cür ideologiyalaşdırılması mütləq şəkildə bankı əsl mahiyyətini itirən aparata çevirir. Bu, təkcə kommersiya banklarına deyil, onun müştərilərinə də aiddir. Bank əsasən özünün deyil, özgənin resursları hesabına işlədiyindən, özü üçün deyil, bütün təsərrüfatçılıq subyektləri üçün və bütün vətəndaşlar üçün borc götürdüyündən, israfçılıq həm bank üçün, həm də ondan resursları borc götürən və onları qaytarmalı olanlar üçün də fəlakətlidir.

Bank müəssisə kimi öz dəyər forması olan məhsul istehsal edir. Bankın məhsulu rolunu kreditlə birlikdə pul dövriyyəsində olan ödəniş (tədiyyə) vəsaitləri oynayır. Müəyyən mənada xidmətlər də bankın məhsulu kimi çıxış edir. Onlara ənənəvi xidmət növləri ilə yanaşı – hesablaşmaların təşkili (nəqd və nəqdsiz formada), əmanətlər, kreditləşdirmə ilə yanaşı qeyri-ənənəvi olan qarantiyaların (zəmanətlərin), zaminliyin, məsləhətlərin (konsaltinq) verilməsi və s. də daxildir. Bank xidmətlərinin xüsusiyyəti ondan ibarətdir ki, onlar nəinki təkcə pul əsasına malikdirlər, həm də özüartan dəyər səciyyəsinə

MUHASIBAT.AZ

malikdirlər. Məsələn, əmanətçilərdən alınmış resurslar kredit müəssisələri üçün pulsuz deyil. Ona görə də resurslar elə istifadə olunmalıdır ki, onlar nəinki təkcə sahiblərinə qaytarıla bilsin, həm də əmanətlər üzrə faizlərin verilməsi, məsrəflərin kompensasiyası və heç olmazsa, minimal mənfəət əldə edilməsi üçün kifayət qədər artım almağa imkan versin. Bank akkumulyasiya olunan resurslardan istifadə etməyə və onları kredit şəklində ehtiyacı olan borc alanlara sarı elə yönəltməlidir ki, onun xidməti hər hansı bir halda bank fəaliyyəti vasitəsilə dövriyyəyə buraxılmış dəyərin özəl artımına imkan versin.

Kommersiya banklarınınmübadilə sferasında fəaliyyət göstərməsi onun mahiyyəti haqqında düzgün olmayan (yanlış) təsəvvür yaradır. Bir çox hallarda bank vasitəçi təşkilat kimi xarakterizə olunur. Belə söyləməyə resursların xüsusi axını, onların müvəqqəti olaraq bəzilərində yığılıb qalması, başqalarında isə tətbiqinə ehtiyac yaranması əsas verir. Bu zaman situasiyanın xüsusiyyəti ondan ibarət olur ki, resursların müəyyən hissəsinə malik olan kreditor müəyyən zəmanətlərin olduğu hallarda konkret müddət üçün və faizlə onları digər kontragentlərə – borc alanlara vermək istəyir. Bank – kreditordur, borc alandır və onların arasında vasitəçidir, habelə pul hesablaşmalarında vasitəçidir. Ona görə də o bu funksiyalarda özünün təsərrüfat subyekti kimi mahiyyətini bütünlüklə nümayiş etdirir.

Bankın tədavül sferasında fəaliyyəti onun haqqında birja agenti kimi təsəvvür yaradır. Banklar birjaların mütləq iştirakçıları sayılır. Onlar müstəqil şəkildə qiymətli kağızlarla ticarət üzrə birja əməliyyatları təşkil edə bilərlər. Lakin bank tədricən getdikcə daha çox kredit mərkəzinə çevrildi ki, bu da onu kredit müəssisənin növü kimi müəyyənləşdirməyə imkan verdi. Banklar öz təbiətlərinə görə ilk növbədə kredit və pul münasibətləri ilə bağlıdırlar, hərçənd nəinki kreditləşdirmə ilə məşğul olmuş və olurlar, həm də fəaliyyətin bir çox başqa növləri ilə məşğul olurlar. Onların fəaliyyətinin əsas məhsulu pul

MUHASIBAT.AZ

və kredit işidir. Kommersiya banklarının fəaliyyətində ən başlıcası iqtisadiyyatda normal təkrar istehsal prosesi mühiti yaratmaq üçün pul-kredit siyasətinin təşkil edilməsi sayılır. Kommersiya banklarının maddi nemətlər istehsalçısı olmamasına baxmayaraq, istənilən müəssisənin olduğu kimi, onun da öz məhsulu da vardır ki, bu da ilk növbədə ödəniş vəsaitlərinin (pul kütləsinin) formalaşdırılması, habelə kreditlərin, qarantiyaların, zəmanətlərin, konsaltinqlərin (məsləhətlərin) verilməsi, əmlakın idarə olunması şəklində müxtəlif xidmətlərin göstərilməsidir.


Kommersiya bankının fəaliyyət göstərməsi *müəyyən məqsədlərin* əldə olunmasına əsaslanır ki, onlardan da ən başlıcası mənfəət təsərrüfatçılığının aparılmasına, daha çox mümkün mənfəətin əldə olunmasına nail olunsun, yəni bank fəaliyyətinin hərəkətverici motivi mənfəət əldə etməkdir. Lakin kommersiya bankı üçün mənfəətin hansı yolla əldə olunmasının fərqi vardır. Bank kommersiyası prinsipi daha az investisiya ilə daha çox mənfəət əldə etməyi nəzərdə tutur. Gəlirin formalaşdaralmasına yardım edən ümumi resurslarda bankın öz payının miqdarının böyüklüyü onun üçün əhəmiyyətsiz deyil. Hər bir banka aydındır ki, əgər onun passivlərdə payınınaz olduğu məqamda daha çox mənfəət əldə olunmuşsa, bunun effekti daha hiss olunandır.

Ona görə də kommersiya bankının fəaliyyəti aşağıdakı tələblərin yerinə yetirilməsi üzərində qurulmalıdır:

- kapitalı daha ucuz almalı (mümkün qədər daha az faiz stavkası ödəməli);
- kapital və xidmətləri daha baha satmalı (mümkün qədər daha çox faiz stavkası əldə etməli);
- etibarlı partnyorların seçilməsi və qarantiyaların alınması, habelə əməliyyatların rəngarəngliyi və ssuda kapitalının müxtəlif bazarlarının mənimsənilməsi yolu ilə itki riskini azaltmalı.

MUHASIBAT.AZ

Kommersiya banklarının yuxarıda təsvir olunmuş fəaliyyət strategiyası aşağıdakı sxem üzrə ifadə oluna bilər (*şəkil 15.1*).



Şəkil 15.1. Kommersiya bankının strateji fəaliyyət modeli

Əməliyyatın məzmunu: 1 – pul-maliyyə bazarında bank tərəfindən kapitalın (resursların) alınması; 2 – bank tərəfindən müxtəlif növ müştərilərə (borc alanlara) kapitalın (resursların) satılması; 3 – bank tərəfindən ssuda kapitalının (F_1) alınması; 4 – pul-maliyyə bazarında alınmış kapital üçün bank tərəfindən faizlərin (F_2) ödənilməsi.

Kommersiya bankının fəaliyyətinin sadələşdirilmiş modelindən görünür ki, həmin bank mümkün qədər daha çox faiz gəliri əldə etməyə çalışır. Amma kommersiya bankları qeyri-faiz gəliri adlandırılan mədaxil, yəni kreditlərin verilməsi hesabına olmayan gəlir də əldə edə bilər. Qeyri-faiz gəlirlərinin əldə edilməsi ilə bağlı əsas fəaliyyət növlərinə məsləhət (konsaltinq) yardımlarını, qarantiya və zəmanətlərin verilməsini, mədaxillərdə iştirak etməyi, öz müştərilərinin qiymətli kağızlarının yerləşdirilməsində vasitəçilik etməyi aid etmək olar.

Sonuncu halda kommersiya bankları qiymətli kağızların alqı-satqısı üzrə həm özlərinin vəsaitləri hesabına, həm də müştərilərin tapşırığı ilə əməliyyatlar aparır, həm də digər təsərrüfatçılıq subyektlərinin emissiyasına və qiymətli kağızların realizasiyasına

MUHASIBAT.AZ

rəhbərlik edir. Xarakterik haldır ki, kvaziinvestisiya istisna olmaqla, kommersiya bankı tərəfindən üzərinə dividendlərin hesablanılmadığı öz səhmlərini almaqla bağlı bütün digər əməliyyatlar (qiymətli kağızlarla ticarət-komisssion əməliyyatlar) gəlirlərin (mənfəətlərin) əldə olunmasına yönəlmişdir. Bankların belə əməliyyatlardan əldə etdikləri gəlirləri qiymətli kağızlar, komissionlar və spred üzrə alınan faizlərin məbləğindən ibarətdir. Hazırda kommersiya banklarının əksəriyyəti investisiya əməliyyatlarından məhz qiymətli kağızların satış qiymətinin onların alınma qiymətlərinə nisbətən artırılması yolu ilə mənfəət götürürlər.

Kommersiya bankları ənənəvi olaraq daxili və xarici əmanətləri səfərbər edən, habelə onların müxtəlif borc alanlar arasında bölüşdürülməsini həyata keçirən yeganə təsisat idilər. Son illərdə bank fəaliyyətində köklü dəyişiklikləri şərtləndirən qanunverici və normativ tənzimləmələrdə dəyişikliklər baş vermişdir. Bank (depozit) təsisatları yeni xidmətlər təklif edən rəqiblər tərəfindən getdikcə daha çox təzyiqə məruz qalırlar. Bunun nəticəsində onlar maliyyə və qeyri-maliyyə şirkətlərinin rəqabətinin güclənməsi səbəbindən öz ənəvi funksiyalarına münasibətdə inhisarçı mövqelərini itirirlər.

Bank fəaliyyətinin tənzimlənilməməsi maliyyə bazarlarının qloballaşması və ya artımı ilə bağlı səbəb və nəticədir. Məsələn, inkişaf etmiş ölkələrdə maliyyə bazarlarının möhtəşəm artımı vardır və aktivlərin seqmentlərinin sekyuterləşməsi, beynəlmiləlləşməsi və azalması kimi ənənələrlə şərtlənən dərin struktur dəyişiklikləri ilə xarakterizə olunur. Bank sektorunun tənzimlənilməməsinə olan tendensiya və onun innovasion fəaliyyəti bankları ənənəvi olaraq rəqabətdən qoruyan maneələrin azaldılması və aradan qaldırılması amilləridir. Ona görə də əhəmiyyətli fond bazarları olan dövlətlərdə qeyri-maliyyə borc alanları üçün vəsait mənbəyi olan kommersiya banklarının rolunun kəskin azalması müşahidə olunur. Lakin məhdud

MUHASIBAT.AZ

fond bazarları olan ölkələrdə də kommersiya bankları tərəfindən aparılan kredit əməliyyatlarının azalması müşahidə olunur. Bu onunla bağlıdır ki, kommersiya banklarının müştəriləri kapitalın getdikcə daha geniş xarici və offşor bazarlarına, məsələn, Avroistiqrazlarına çıxış əldə edirlər.

Bunun nəticəsində bank xidmətlərini digər maliyyə və qeyri-maliyyə şirkətlərinin həyata keçirdikləri xidmətlərdən fərqləndirmək daha da çətinləşir. Ona görə də bank işinin bir çox mütəxəssisləri hesab edirlər ki, gələcəkdə:

- bank sistemi daha çox universal Avropa bank modelinə oxşar olacaq, nəinki yüksək səviyyəli seqmentasiya səviyyəsi ilə xarakterizə olunanAmerika və ya Yaponiya modelinə;
- depozitlərin yerləşdirilməsi və qısamüddətli kreditlərin verilməsi üzrə funksiyaları yerinə yetirən müəssisələr kimi bankların rolunun hər yerdə azalması müşahidə olunacaq;
- kapital bazarında xidmət göstərmək üzrə ixtisaslaşan dolayısı vasitəçilər kimi onların fəallığının yüksəlməsi gözlənilir, yəni onların funksiyaları əsas etibarilə informasiyanın işlənilməsinə yönələcək;
- o hallarda bank fəaliyyətinin genişlənməsi baş verəcək ki, kommersiya bankları birgə əsasda informasiya xidmətlərinin göstərilməsi ilə bağlı üstünlüklərdən istifadə edə bilsinlər və bunu da kredit kartları, trast əməliyyatları, sığortalama və s. sistemlərəaid etmək olar;
- kommersiya bankları əvvəlki kimi ödəniş sistemində əhəmiyyətli rol oynayacaq.

Lakin hazırda bank və kommersiya və ya sənaye fəaliyyəti arasında aydın həddin mövcudluğu şəraiti əvvəlki təki Fransa, Almaniya və İsveçrə kimi bəzi ölkələr istisna, olmaqla ümumi qəbul olunmuş norma halında qalmaqdadır. Kommersiya bankları *fəaliyyət*

MUHASIBAT.AZ

göstərmə xarakterinə görə ən rəngarəng ola bilərlər. Onlar apardıqları əməliyyatların növlərinə və fəaliyyət sferasına (universal, ixtisaslaşmış və sahə), mülkiyyət formasına (dövlət, özəl, kooperativ, səhmdar, qarışıq), bank kapitalının ölkə mənsubiyyətinə (milli, xarici, müştərək), fəaliyyət ərazisinə (ümumdövlət, regional, regionlararası, beynəlxalq, xarici), təşkilati-hüquqi əsasına (pay, səhmdar), kreditlərin verilməsi müddətinə (uzunmüddətli və qısamüddətli kreditləşdirmə bankları), kommersiya bankının xarici bölmələrinin formalarına (müstəqil hüquqi şəxs, bütün kommersiya bankları üçün müəyyən olunmuş qaydada qeydə alınan törəmə bank, filial, bölmə, şöbə, nümayəndəlik) görə fərqlənirlər.

Kommersiya bankının effektiv fəaliyyəti *bank tənzimləməsi* ilə bağlıdır və bu, mərkəzi bankın sabit, təhlükəsiz fəaliyyət göstərən kommersiya banklarının təmin olunması ilə məşğul olduğu tədbirlər sistemi kimi anlaşılır. Kommersiya banklarının fəaliyyəti onların müflisləşməsinə, müştərilərini itirməsinə gətirə bilməz və bu, bütövlükdə iqtisadiyyata neqativ təsir göstərə bilər. Bank tənzimləməsinin və nəzarətinin əsasında «dəvə» (ingiliscə «CAMEL» akronimi bank nəzarətinin əsas meyarlarının baş hərfləri ilə tərtib olunub) adlandırılan prinsip durur və ona aşağıdakılar daxildir:

- kapitalın kifayət qədər olması (öz vəsaitlərinin yekun aktivlərə nisbəti);
- risk, likvidlik və s. nöqteyi-nəzərindən aktivlərin keyfiyyəti;
- menecmentin keyfiyyəti (idarə edənlərin ixtisaslaşması);
- likvidlik və ya bankın tez və ağrısız öz öhdəliklərini yerinə yetirə bilmək qabiliyyəti (likvid aktivlərin və digərlərinin nisbəti);
- gəlirlilik (bir səhmə və ya bir məşğul olana gələn gəlirin səviyyəsi).

Tənzimləmə sistemi qarşısında bütün banklar, onların nə ilə məşğul olmaları və kimə məxsus olmalarından asılı olmayaraq,

MUHASIBAT.AZ

bərabərdirlər. Lakin bütün ölkələrdə müxtəlif banklar – kommersiya, investisiya, əmanət, kooperativ, səhmdar, ümumxalq və özəl banklar olduğundan, bu, tənzimləmə sisteminin korrektə olunmasını tələb edir. İnkişaf etmiş ölkələrdə bank fəaliyyəti və pul-kredit siyasətinin qanunvericiliklə tənzimlənilməsi adətən müəyyən miqdarda xüsusi qanunvericilik aktlarına əsaslanır ki, onların da arasında ən əsasları mərkəzi bank haqqında qanun və bank fəaliyyəti haqqında ümumi qanundur.

Müasir kommersiya bankları *müxtəlif hüquqi formalarda* yaradıla bilər. Onlar nisbətən daha tez-tez fərdi və ya müştərək (ailəvi) banklar, qeyri-məhdud məsuliyyətli birliklər (yaxud da ümumi partnyorlar) (yoldaşlıqlar), məhdud məsuliyyətli birliklər (yaxud da məhdud partnyorlar, səhmdar işrkətləri və s.)) (yoldaşlıqlar), trastlar şəklində yaradılırlar.

İlk iki hüquqi forma sonuncu iki formadan onunla fərqlənir ki, müəssisələrin (bankların) sahibləri tamamilə, hər hansı məhdudiyyət olmadan öz müəssisələrinin (filiallarının) öhdəlikləri üzrə cavabdehdirlər. Məhdud məsuliyyətli yoldaşlıq (birlik) şəklində yaradılmış bankların sahibləri öz təsisatçılarının öhdəlikləri üzrə yalnız öz pay üzvlük haqları və ya səhmdar kapitaldakı payları həddində cavabdehdilrlər. Müştərilərin vəsaitlərini trast (etimad) əsasında cəlb edən banklar (və onların sahibləri) müştərilər qarşısında onların əmanətlərinin toxunulmazlığı haqqında, əgər vəsaitlərin yerləşdirilməsi zamanı «adi sayıqlıq» normalarını pozmayıblarsa, cavabdehlik daşımırlar.

İlk iki hüquqi formada yaradılmış banklara (fərdi və ya müştərək banklara), habelə qeyri-məhdud məsuliyyətli yoldaşlıqlara adətən geniş ictimaiyyətdən (onların məsuliyyətinin hüdudlarının müəyyənləşdirilməsinin çətinlikləri üzündən) depozitlər qəbul etmək qadağan olunur, lakin onlar bütün qalan bank funksiyalarını yerinə

MUHASIBAT.AZ

yetirə bilərlər, məsələn, borc almaq barədə adi özəl (xüsusi) müqavilə əsasında vəsait cəlb edə bilərlər ki, sornadan bunları daha yüksək faizlə ssuda şəklində verə bilsinlər.

Bank müəssisəsininən geniş yayılmış hüquqi forması müxtəlif yönümləri ilə mövcud olan məhdud məsuliyyətli yoldaşlıqlar formasıdır: Böyük Britaniyada yerli, özəl və ümumi (ictimai) şirkətlər; ABŞ-da korporasiyalar; AFR-da, Yaponiyada, Fransada və başqa ölkələrdə səhmdar cəmiyyətləri.

Adətən ən iri bankların baş (ana) şirkətinin, bir çox ayrı-ayrı banklara və firmalara nəzarət edən maliyyə sistemində iştiraklar vasitəsilə strukturu olur. ABŞ-da belə konsernlərin başında adətən holdinq korporasiyası durur ki, konsernin aparıcı bankı da ona tabe olur. Qərbi Avropa dövlətlərində və Yaponiyada belə holdinqin funksiyasını bilavasitə aparıcı bank həyata keçirir. Belə konsernlərdə cəlb olunmuş depozitlərin məbləği çox hallarda on və hətta yüz dəfələrlə konsernin öz kapitalını üstələyir. Ona görə də, bir qayda olaraq, belə banklar üçün müvafiq dövlət idarəsində depozitlərin sığortalanması üçün öhdəlik mövcuddur.

Kommersiya bankları müvafiq *prinsiplə* işləməli və müəyyən funksiyaları yerinə yetirməlidirlər. İndiki halda kommersiya bankının *ilkin* müqəddəm prinsipi real mövcud olan resurslar həddində işləməkdir. Real mövcud olan resurslar həddində işləmək onu bildirir ki, kommersiya bankı təkcə öz resursları ilə kapital yatırımları arasındakı kəmiyyət uyğunluqlarını təmin etməli deyil, həm də bank aktivlərinin xarakterinin onun tərəfindən cəlb olunmuş resurslarıns pesifikasına uyğunluğuna nail olmalıdır. Bu, ilk növbədə onların hər ikisinin müddətinə aiddir. Məsələn, əgər bank vəsaitləri başlıca olaraq qısa müddət üçün qəbul edir, onları isə əsas etibarilə uzunmüddətli ssudalara yatırırsa, onda onun likvidliyi təhlükə altında qalır. Bankın aktivlərində böyük miqdarda yüksək riskli ssudaların olması bankdan

MUHASIBAT.AZ

onun resurslarının ümumi həcmində öz vəsaitlərinin xüsusi çəkisini artırmağı tələb edir.

Kommersiya banklarının fəaliyyətinin əsaslandığı *ikinci* ən mühüm prinsip iqtisadi müstəqillikdir və bu zaman bankların öz fəaliyyətlərinin nəticələri üçün iqtisadi müstəqilliyi anlaşılır. İqtisadi müstəqillik bankın öz vəsaitləri və cəlb olunmuş resurslar, müştərilərin və əmanətçilərin seçilməsi, bankın gəlirləri barədə sərbəst qərar qəbul olunmasını nəzərdə tutur. Məsələn, mövcud qanunvericilik bütün kommersiya banklarına öz fondları və gəlirləri ilə sərbəst rəftar etmək üçün iqtisadi müstəqillik verir. Vergilərin ödənilməsindən sonra bankın öz sərəncamında qalan mədaxili onun təsisat sənədlərinə uyğun olaraq bölüşdürülür. Səhmdarların ümumi yığıncağı və ya digər səlahiyyətli orqan bankın müxtəlif fondlarına ayırmaların normalarını və həcmini, habelə səhmlər üzrə dividendlərin həcmini müəyyənləşdirir. Kommersiya bankı öz öhdəliklərinə görə, mövcud qanunvericiliyə görə üzərinə cərimə təyin oluna bilən ona məxsus olan bütün vəsaitlərlə və əmlakla cavab verir. Kommersiya bankı əməliyyatlardan irəli gələn bütün riski öz üzərinə götürür.

Üçüncü prinsip ondan ibarətdir ki, kommersiya bankının öz müştəriləri ilə qarşılıqlı münasibətləri adi bazar münasibətləri kimi qurulur. Kommersiya bankı ssuda verərkən ilk növbədə gəlirliliyin, risk və likvidliyin bazar meyarlarından çıxış edir.

Kommersiya banklarının işinin *dördüncü* prinsipi ondan ibarətdir ki, onun fəaliyyətinin tənzimlənilməsi yalnız dolayısı, (inzibati deyil) iqtisadi metodlarla həyata keçirilməlidir. Dövlət yalnız kommersiya bankları üçün «oyun qaydalarını» müəyyən edir, amma onlara əmr vermir.

Kommersiya bankları özləri özlüklərində mövcud olmurlar: onlar iqtisadiyyatın və sosial sferanın tələblərinə xidmət edirlər. Ona görə də sonuncuların durumu kommersiya banklarının inkişafındakı tendensiyanı adekvat əks etdirir. Məsələn, iqtisadi artım şəraitində bank xidmətlərinə olan tələbat artır, və əksinə, iqtisadi tənəzzül və

MUHASIBAT.AZ

əhalinin əksər hissəsinin aşağı həyat səviyyəsi bank xidmətinə olan tələbatı məhdudlaşdırır. Kommersiya banklarına qeyri-effktiv iqtisadiyyatda, ödəməqabilli ssuda alanın olmadığı, kreditləşdirmə üçün elmi cəhətdən əsaslandırılmış investisiya layihələrinin olmadığı, habelə bank fəaliyyətini tənzimləyəcək mükəmməl qanunvericilik bazasının olmadığı şəraitində işləmək çətindir. Bu səbəbdən də kommersiya bankları artımın intensiv amillərindən istifadə olunmasına yönəldilməlidirlər.

MUHASIBAT.AZ

15.2. KOMMERSİYA BANKININ FUNKSİYASI VƏ ƏMƏLİYYATLARININ XARAKTERİSTİKASI

Kommersiya bankları bir çox müxtəlif funksiyalar yerinə yetirir. Sərbəst pul resurslarının *səfərbərliyə alınması və təmərküzləşdirilməsi* funksiyasını onların əsaslarından birinə aid etmək olar. Bu, kommersiya banklarının prioritet funksiyası və iqtisadi bazisidir. Kredit, habelə digər aktiv əməliyyatların yolu ilə təkrar istehsal prosesinə daxil edilən vəsaitlərin kəmiyyəti pul vəsaitlərinin səfərbərliyə alınması və bankda təmərküzləşdirilməsindən asılıdır. Müştərilərdən sərbəst pulları borc alan kommersiya bankı həmin andaca bu vəsaitlərin vaxtında qaytarılması öhdəliyini öz üzərinə götürür. Kredit təsisatlarına yatırılani pul məbləğləri əmanətçilərə faiz şəklində gəlir gətirir.

Pul vəsaitlərinin yığılması və qorunması stimulları kommersiya banklarının çevik depozit siyasəti əsasında formalaşır. Əmanətçilərə ödənilən yüksək faizlərdən əlavə bank kreditorlarına yığılmış resursların bankda yerləşdirilməsinin etibarlılığı üçün bank kreditorlarına yüksək qarantiya da lazımdır. Belə qarantiyaların yaradılmasına bank təsisatlarının aktivlərinin, depozitlərin kommersiya banklarında sığorta fondunun formalaşdırılması xidmət edir. Depozitlərin sığorta olunması ilə yanaşı kommersiya banklarının fəaliyyəti haqqında və onların verə biləcəkləri digər qarantiyalar haqqında informasiya əlçatarlığı əmanətçilər üçün mühüm əhəmiyyət kəsb edir. Kreditorda olan vəsaitlərin istifadə olunması haqqında məsələni həll edərkən o bankın maliyyə durumu haqqında kifayət qədər informasiyaya malik olmalıdır ki, özü gələcək yatırımların riskini qiymətləndirə bilsin.

Kreditin verilməsi əhəmiyyətli bank funksiyasıdır. O ənənəvi bank xidmətləri növünə aid edilir. Bank krediti banklar tərəfindən haqqı

MUHASIBAT.AZ

ödənilməklə müəyyən təminatlılıq, qaytarabilmə, müddətlilik və s. bu kimi şərtlərlə borc verilən ssuda kapitalının hərəkətindən ibarətdir. O kreditorla (banklarla) kredit subyektləri (borc alanlar) arasındakı iqtisadi münasibətləri ifadə edir. Bank krediti müvəqqəti sərbəst pul vəsaitlərinin akkumulyasiyası və onların qaytarılmaqlıq şərtləri ilə paylaşdırılması, habelə kreditləşdirmə sistemi vasitəsilə pul nişanlarının tədavülə emissiyası ilə bağlıdır. Pul resurslarının qaytarılma forması onları dəfələrlə yenidən bölüşdürməyə imkan verir. Bank kreditindən istifadə olunmanın zəruriyyəti müəssisələrin kapitalının təkrar istehsal prosesində dövranı ilə, dövriyyə kapitalı və əsas kapitalın təşkilinin xüsusiyyətləri ilə, kreditor və borc alanınhesablaşma maraqları ilə şərtlənir. Digər tərəfdən kredit bankların mənfəət əldə etmələrinin əsas mənbəyidir.

Müəssisələrin fondlarının və xüsusi şəxslərin pul gəlirlərinin dövranı prosesində müvəqqəti azad olan *pul vəsaitlərinin təkrar bölüşdürülməsi* funksiyası kredit verilməsi funksiyası ilə bağlıdır. Kommersiya banklarının vasitəçilik funksiyasının xüsusiyyəti ondan ibarətdir ki, resursların yenidən bölüşdürülməsinin əsas meyarı rolunda onların borc alan tərəfindən istifadə olunmasının mədaxilliyi çıxış edir. Resursların təkrar bölüşdürülməsi kreditordan borc alana təsərrüfat əlaqələri, yuxarı bank strukturlarının ara vasitəçilik həlqələrinin iştirakı olmadan, bank krediti prinsipi əsasında üfqi xətt üzrə həyata keçirilir. Borc alınmış və verilmiş vəsaitlər üzrə ödəniş borc vəsaitlərinə olan tələb və təklifin təsiri altında formalaşır. Nəticədə iqtisadiyyatda münasibətlərin bazar tipinə uyğun gələn maliyyə resurslarının sərbəst hərəkətinə nail olunur.

Bazar iqtisadiyyatının uğurla inkişaf etməsi üçün kommersiya banklarının vasitəçilik funksiyasının əhəmiyyəti ondan ibarətdir ki, onlar öz fəaliyyətləri ilə iqtisadi sistemdə risk və qeyri müəyyənlik səviyyəsini azaldır. Pul vəsaitləri kreditorlardan borc alanlara tərəf

MUHASIBAT.AZ

bankların vasitəçiliyi olmadan da yerdəyişə bilər. Lakin bu zaman ssudaya verilən pul vəsaitlərinin itirilməsi riski kəskin şəkildə artır və onların yerdəyişməsi üzrə ümumi xərclər artır, belə ki, kreditorlar və borc alanlar bir-birlərinin ödəməqabilliklərı barədə məlumatlandırılmayıblar, təklif olunan pul vəsaitlərinin həcmi və müddəti onlara olan tələbatın həcmi və müddəti ilə üst-üstə düşmür. Kommersiya bankları borc alanın tələblərinə uyğun olaraq ssuda verilə biləcək vəsaitləri cəlb edir və öz aktivlərinin geniş diversifikasiyası əsasında bankda pulları yerləşdirilmiş sahiblərin məcmu riskini azalda bilərlər.

Təsərrüfat sövdələri üzrə pul hesablaşmaları və ödənişlərinin aparılması funksiyası onun realizasiyasının bank personalının xeyli əməliyyat vaxtını aldığını və bank sistemində əhəmiyyətli yer aldığını nəzərdə tutur. Təsərrüfatçılıq subyektləri arasında hesablaşmaların aparılmasının iqtisadiyyatın fəaliyyət göstərməsi üçün çox böyük əhəmiyyəti vardır. Hesablaşma əməliyyatlarının vaxtında aparılması genişləndirilmiş təkrar istehsal prosesinin fasiləsiz həyata keçirilməsinə imkan verir. Bu, ödənişlərin vaxtında aparılması üçün kommersiya banklarının üzərinə çox böyük məsuliyyət qoyur.

Sənayecə inkişaf etmiş ölkələrin kommersiya bankları müştəriləri təkcə müvəqqəti sərbəst kapitalın akkumulyasiyası hesabına deyil, həm də depozit-çek emissiyası yolu ilə kreditləşdirdikdə, *tədavül kredit vəsaitlərinin buraxılışı* funksiyasını yerinə yetirir. Bankların özləri ssudaların verilməsi prosesində yatırım (əmanət) yaradırlar. Kredit açarkən bank hesabdakı qalıq həddində çek yazmaq hüququ ilə pulu yatırıma (əmanətə) köçürür. Bu zaman kredit verilməzdən əvvəl əmanətin açılması aparılır. Əmanətin əsasında çek meydana çıxır, müştərinin tələbi ilə ona nəqd pullar ödənilə bilər. Bankın müştərinin cari hesabına ilkin pul ödənişi aparılmadan kredit yazısı gerçək pul ödənişindən (üzvlük haqqından) əmələ gələn real əmanətdən fərqli

MUHASIBAT.AZ

olaraq, *xəyali əmanət* adlanır. Müasir dövrdə real və xəyali əmanətlər arasındakı fərq tədricən silinir. Banka nəqd pulun ödənilməsi ayrı bankda xəyali əmanətin yaradılmasına əsaslana bilər. Xəyali əmanətləri real əmanətlərdən ayırmaq praktiki olaraq mümkün deyil.

Kommersiya bankları öz fəaliyyətləri prosesində *konsaltinq (məsləhət) və iqtisadi və maliyyə informasiyasının verilməsi* funksiyasını yerinə yetirirlər. Bu, onunla şərtlənir ki, müasir kommersiya bankları təsərrüfatçılıq subyektləri üçün maraq kəsb edən ümumiqtisadi və maliyyə xarakterli məlumatları özündə cəmləşdirir. Onlar, ilk növbədə özləri ilə ümumi maraqlarla birləşən təsərrüfat orqanlarına, bəzən də konfidensial xarakterli, rəngarəng kommersiya məlumatlarını təqdim edirlər.

Milli pul vahidlərinin xarici valyutaya mübadiləsi ilə bağlı olan kommersiya banklarının funksiyası aşağıdakıları nəzərdə tutur:

- hüquqi şəxslərin, rezidentlərin və qeyri-rezidentlərin (o cümlədən «loro» tipli bankların müxbir hesablarının), dövlət hakimiyyəti orqanları və idarələrinin, ictimai təşkilatların və sahibkarların hüquqi şəxs yaradılmadan hesablarının açılması və aparılması;
- valyuta əməliyyatlarının aparılması hüququna müvafiq lisenziyası olan xarici və ölkə banklarında müxbir hesablarının («nostro» hesablarının) açılması və aparılması;
- qeyri-ticarət əməliyyatlarının və bankın müştərilərinin kapitalının hərəkəti ilə bağlı olan əməliyyatların həyata keçirilməsi;
- bankın müştərilərinin ixrac-idxal əməliyyatları ilə bağlı olan hesabların aparılması;
- xarici valyutada alqı-satqı sövdələrinin, habelə ölkə və dünya valyuta bazarlarında konversion əməliyyatların, eləcə də müştərilərin – hüquqi şəxslərin, dövlət hakimiyyəti orqanları və

MUHASIBAT.AZ

idarələrinin, ictimai təşkilatların və sahibkarların hüquqi şəxs yaradılmadan adından və hesabına əməliyyatların aparılması;

- fiziki şəxslərin xarici valyuta, habelə beynəlxalq bank praktikasında qəbul olunmuş başqa formalarda vəsaitlərinin əmanətlərə və depozitlərə cəlb olunması.

Fond bazarının formalaşdırılması ilə əlaqədar olaraq kommersiya banklarının *qiymətli kağızlarla əməliyyatda vasitəçilik* kimi funksiyası inkişaf etməyə başlayır. Banklar, qiymətli kağızlar bazarında vasitəçi, investisiya məsləhətçisi (konsaltinqi), investisiya şikrəti və investisiya fondu simasında investisiya institutları kimi çıxış etmək hüququna malikdirlər. Maliyyə brokeri simasında çıxış edən banklar müştərinin hesabına və tapşırığı ilə komissiya və tapşırıq müqaviləsi əsasında qiymətli kağızlarla alqı-satqı zamanı vasitəçilik funksiyasını yerinə yetirirlər.

Bank investisiya konsaltinqi kimi qiymətli kağızların buraxılması və dövriyyə ilə bağlı öz müştərilərinə konsaltinq xidməti göstərir. Əgər bank investisiya şirkəti rolunu öz üzərinə götürürsə, onda o qiymətli kağızların buraxılmasının təşkili və üçüncü şəxsin xeyrinə onların yerləşdirilməsi üzrə zəmanətlərin verilməsi, habelə öz adından və öz hesabına, o cümlədən qiymətli kağızların kotirovkası hesabına, yəni alış və satışını öz üzərinə götürdüyü müəyyən qiymətli kağızlara «satıcının qiyməti» ilə «alıcının qiyməti»ni elan etməklə qiymətli kağızların alqı-satqısı ilə məşğul olur. Bank o halda kommersiya fəaliyyəti həyata keçirir ki, bu zaman resurslarını öz adından qiymətli kağızlarda yerləşdirmiş olsun və bu sayaq yerləşdirmə ilə bağlı olan bütün risklər, alınmış qiymətli kağızların bazar qiymətlərinin dəyişməsi ilə bağlı bütün gəlirlər və itkilər səhmdarların hesabına aid edilir. Fond bazarında investorun, brokerin rolunun icrasının labüd şərti kommersiya bankının ştatında qiymətli kağızlarla iş üzrə ixtisaslı mütəxəssilərin olmasıdır.

MUHASIBAT.AZ

Kommersiya bankları digər rəngarəng əməliyyatları da həyata keçirirlər. Hazırda kommersiya banklarının əməliyyatlarının dairəsi xeyli genişlənərək, ənənəvi bank əməliyyatları ilə yenilərinin arasındakı fərq daha çox silinməkdədir. Mübahisəsiz demək olar ki, heç də bütün bank əməliyyatları konkret konkret bank təsisatlarının gündəlik həyatında var və istifadə olunur (məsələn, beynəlxalq hesablaşmaların və trast əməliyyatlarının aparılması). Lakin müəyyən əməliyyatlar siyahısı vardır ki, bank onlarsız mövcud ola və fəaliyyət göstərə bilməz. Bunlara *depozitlərin qəbulu, pul hesablaşmaları və ödənişlərin aparılması, kreditlərin verilməsi* aiddir.

Banklar baza əməliyyatlarının yerinə yetirilməsindən əlavə, müştərilərə bir çox digər maliyyə xidmətləri təklif edirlər. Sənayecə inkişaf etmiş ayrı-ayrı ölkələrin milli-tarixi təsərrüfat xüsusiyyətlərinin inkişafı ilə şərtlənən fərqlərlə yanaşı, dövlət mənsubiyyəti və yerləşdirilmə ərazisindən asılı olmayaraq bütün banklara xas olan (onların araşdırılan kredit-maliyyə altsistemindəki immanent mənsubiyyətləri səbəbindən) bank fəaliyyətinin (bank əməliyyatlarının) bir sıra aparıcı istiqamətlərini göstərmək olar.

Ümumi baxışdan passiv və aktiv əməliyyatlar onlara aiddir. Kommersiya banklarının iş praktikasında onların yerinə yetirdikləri əməliyyatları (iş növlərini) passiv əməliyyatlar, aktiv əməliyyatlar, bank xidmətləri, banklarının özlərinin əməliyyatlarını bu sayaq qruplarda birləşdirmək olar.

İlk iki qrup kommersiya banklarının əməliyyatları arasında daha çox xüsusi çəki yaradırlar. Məsələn, vəsaitlərin cəlb olunması və kredit resurslarının əlavə mənbələrinin formalaşdırılması üçün kommersiya banklarının *passiv əməliyyatları* xidmət edir. Onlar aktiv əməliyyatların maliyyələşdirilməsi üçün istifadə olunur və depozit əməliyyatları çərçivəsində müxtəlif növ əmanətlərin cəlb olunmasından, banklararası

MUHASIBAT.AZ

kreditlərin istifadə olunmasından, qiymətli kağızların emissiyasından, bankların öz resurslarının səfərbər olunmasından və s. ibarətdirlər.

Depozitlər bankın müştərilərinin hər cür müddətli və müddətsiz əmanətlərindən ibarətdir. Bu növ əməliyyatların xüsusiyyəti ondan ibarətdir ki, banklara pul vəsaitlərini müştəri təklif etmir, bankın özü öz təşəbbüsü ilə pulları cəlb edir. Ona görə də bank praktikasında bu məbləğlər «cəlb olunmuş» adlandırılır. Bank belə vəsaitlər üçün faiz ödəyir. Faiz stavkaları depozitlərin müddəti və həcmindən asılı olaraq dəyişir. Rəqabətin inkişaf etdiyi şəraitdə kommersiya bankları müştərilərin hesablaşma hesablarında olan orta illik qalıqlar üzrə əvvəllər edilməyən faiz artırmaları da aparırlar. Bankın belə siyasəti müştərilərin sərbəst vəsaitlərini öz hesablarında toplamalarına maraqlarını artırır.

Kommersiya banklarının *aktiv əməliyyatları* əsas etibarilə müddətlərinə, həcmlərinəkredit resurslarının istifadəçilərinin tiplərinə, təminat xarakterinə, pul vəsaitlərinin ödəniş formalarına görə fərqlənən kreditlərin verilməsi (aktiv əməliyyatların xüsusi növü kimi zəmanətli əmanətlər istisna təşkil edə bilər) ilə bağlıdır.

Kreditlərin müxtəlif növlərinin təsnifatını vermək çox çətindir. Ona görə də indiyədək istər ölkə, istərsə də xarici ədəbiyyatda kreditlərin vahid təsnifatı yoxdur. Lakin hazırda onların spesifik xüsusiyyəti ondan ibarətdir ki, keçid iqtisadiyyatı kommersiya banklarını qısa müddətə kredit verməyə məcbur edir. Bu, kreditlərin çox sürətlə qiymətdən düşməsi prosesi ilə şərtlənir. Mövcud şərait uzunmüddətli istehsal dövrlü müəssisələri çox ağır vəziyyətə qoymuşdur, belə ki, bu məqsədlər üçün alınmış kreditlərin dövranı daha qısa zaman kəsiyini əhatə etdiyindən və ölçüyə gəlməyən dərəcədə böyük gəlir gətirdiyindən, ticarət-vasitəçilik fəaliyyəti ilə məşğul olmaq daha əlverişlidir.

MUHASIBAT.AZ

Kommersiya bankları özlərinin sərəncamlarında olan həm özlərinin, həm də cəlb olunmuş vəsaitləri ssuda verməklə, faiz alırlar. Faiz kreditora ssuda kapitalı əvəzinə ödənilən qiymət şəklində çıxış edir. Onun həcmi kredit resurslarına olan tələb və təklifdən asılıdır.

Bank xidmətləri – müştərinin tapşırığı üzrə sonuncunun xeyrinə müəyyən ödənişlə bank əməliyyatlarının aparılmasıdır. Praktikada bank xidmətləri üç qrupa bölünür:

- tədiyə dövriyyəsinə şəraitin yaradılması (kommersiya bankları tərəfindən müştərilərin vəsaitləri hesabına nəqd və nəqdsiz ödənişlərin aparılması), valyuta və qiymətli metallarla, veksellərin və çeklərin inkassasiyası və s. yolu ilə əməliyyatların həyata keçirilməsi;
- müştərilərin qiymətli kağızlarının emissiyası, yerləşdirilməsi və saxlanılması, habelə onların idarə olunması üzrə əməliyyatların aparılması;
- dünyanın aparıcı ölkələrində geniş inkişaf etmiş əmlakın (etibar olunmuş və ya trast əməliyyatlar) idarə olunması.

Bəzən «bank xidməti» anlayışı ilə «bank məhsulu» anlayışını bir-biri ilə bağlayırlar və sonuncudan söhbət açıldıqda aşağıdakılar nəzərdə tutulur:

- maddi xidmətlər, yəni banklar tərəfindən maddi nemətlərin müştərilərə çatdırılması məqsədilə göstərilən xidmətlər. Bu halda əlavə dəyər yaradılır ki, o da əmtəənin (malın) dəyəri (qiyməti) üzərinə artırılır;
- kadrların hazırlanması və yenidən hazırlanması, müştərilərin məlumatlandırılması və onlara konsaltinq keçirilməsi, analitik tədqiqatların aparılması və onların nəticələri üzrə ictimaiyyətin məlumatlandırılması, bank işçilərinin etika normalarının yaradılması.

MUHASIBAT.AZ

Kommersiya banklarının öz əməliyyatları ikinci dərəcəli rol oynayır. Məsələn, bank digər hüquqi şəxslərin təsisçisi kimi çıxış edə, hər hansı istehsal və ya sosial-mədəni təyinatlı obyektin tikintisində iştirak edə bilər. Kommersiya bankları zəmanət verə bilər. Onlar öz şəxsi hesablarına müxtəlif avadanlıq və əsas vəsaitlər ala bilərlər. Bankın öz şəxsi əməliyyatlarına aşağıdakılar da aiddir: öz əməkdaşlarının əmək haqlarının ödənilməsi, istehsalat və sosial-inkişaf fondlarının və maddi həvəsləndirmənin bölüşdürülməsi, öz təsisçilərinə dividendlər ödəmək və s.

Son vaxtlar banklar daha çox onlar üçün xarakterik olmayan əməliyyatları daha aktiv həyata keçirməklə, özləri üçün qeyri-ənənəvi maliyyə sahibkarlığı sferasına daxil olaraq, daim göstərdikləri xidmətlərin dairəsini genişləndirərək və keyfiyyətini yüksəldərək, yeni perspektiv müştərilərin cəlb edilməsi uğrunda rəqabət aparırlar. Faktiki olaraq kommersiya bankları təsisatları o qədər rəngarəngdir ki, onların dəqiq fərqləndirilməsi doğrudan da qeyri-müəyyəndir. Bu onunla bağlıdır ki, «müasir» banklar ən rəngarəng əməliyyat növləri ilə məşğul olurlar.

Şərti olaraq bankın öz hesabına əməliyyatlarını (onlar da bank əməliyyatları kimi aktiv və passiv ola bilər, amma daxili bütövlük növü olması üzündən struktur əlahiddəliyinə iddialıdır) da fərqləndirmək olar ki, bunlara da müxtəlif müddətlilik və tələbetmə şərtlərinə (ssudanın ödənilməsi) görə əməliyyatlar aiddir: veksellərin verilməsi, xarici valyuta, qiymətli kağızlar və əlvan metallarla və s. ilə ticarət.

Hazırda bankların fəaliyyətində getdikcə daha çox universallaşma baş verir ki, bu da nəinki təkcə pul vəsaitləri və maliyyə resurslarının bütün mərhələləri və dövriyyə sferalarını əhatə etməyi deyil, həm də məsləhətvermə (konsaltinq), ayrı-ayrı şəxslər və təşkilatların (hətta dövlətlərin) vəsaitlərinin idarə olunmasında pul və maliyyə prosesləri

MUHASIBAT.AZ

barədə informasiyanı, pul əməliyyatlarının texniki təmin olunmasını, pul dəyərlərinin və istehsalat sirlərinin mühafizəsi və s. genişləndirir.

Belə bir qayda yaranır ki, müştəri lazımi xidmətlər siyahısını elə öz bankında ala bilər. Öz ənənəvi fəaliyyətlərindən imtina etməyən banklar, fəaliyyətin digər sferalarına daha aktiv şəkildə müdaxilə edirlər, müştərilərə bütün maliyyə xidmətləri kompleksi üzrə qulluq etməyi öz üzərlərinə götürürlər. Banklar birbaşa kreditləşdirmə formalarını özlərinə tabe etməyə çalışaraq, şirkətlərin vekselləri ilə ticarətə girir, səhmlərlə birja əməliyyatları aparır, ayrı-ayrı şəxslərə məxsus olan qiymətli kağızlar paketinin idarə olunmasına və s. girişirlər.

Əgər bank yuxarıda sadalanan xidmətləri tam həcmdə yerinə yetirə bilmirlərsə, onda o müştərini itirməkdə risk edir. Banka bu xidmət forması da əlverişlidir, belə ki, müştərilərin dosyesinin tərtib olunması üçünvaxta və məsrəflərə qənaət edilir (çünki bir dosyedən bank bir neçə bölməsi istifadə edilə bilər), bankın əməliyyatlara və müştərilərin fəaliyyətinə nəzarət imkanları artır (o mütəmadi olaraq müştərinin bütün fəaliyyəti haqqında, onun kommersiya və şəxsi işləri və əlaqələri barəsində müntəzəm və bitkin məlumat alır).

Belə şəraitdə kommersiya bankları fəaliyyətlərini genişləndirmək yolu ilə, yeni, bank bazarının daha yüksək riskli seqmentləri üzrə xidmət göstərməklə bağlı öz iqtisadi durumlarını qorumağa çalışırlar ki, bunlara da aşağıdakılar aiddir:

- tərpənməz kommersiya əmlakı üzrə sövdələr və borc vəsaitlərinin yüksək payı üzrə əməliyyatlar (bir çox hallarda bu, kredit risklərinin çoxalması ilə bağlıdır);
- öz kapitallarının kifayətliliyinə dair tələblərin daha da unifikasiyası və sərtləşdirilməsi ilə bağlı kommersiya bankları üçün daha böyük əhəmiyyət kəsb edən daha gəlirli, amma yüksək risklə bağlı balansı ötmüş əməliyyatlar (faiz və valyuta

MUHASIBAT.AZ

svopları, rezerv akkreditivləri, ssudalar üzrə öhdəliklər, onların satılması və ötürülməsi, habelə zəmanət verilməsi);

- kommersiya banklarının diler əməliyyatlarda törəmə instrumentlərlə iştirak etmələri; bu, onlar üçün yeni fəaliyyət növlərindən biri sayılır. Bu halda kommersiya bankları nəinki öz müştərilərinin tapşırığı ilə, həm də əməliyyatlarının gəlirliliyini artırmaq məqsədilə özləri müstəqil şəkildə törəmə instrumentləri əldə edirlər;
- sığortalama, trast (vəkalətli) əməliyyatlar kimi qeyri-bank sektorlarında xidmətlər göstərmək.

Trast (vəkalət) əsasında müştərilərin vəsaitlərini cəlb edən banklar (onların sahibləri) müştəri qarşısında, əgər onlar bu vəsaitlərin yerləşdirilməsi zamanı «adi ehtiyatlılığı» pozmayıblarsa, onda onların əmanətlərinin toxunulmazlığına cavabdeh deyillər. Trast işi anqlo-saks dövlətlərin mülki hüququnda mövcud olmuş bir sıra spesifik institutlar əsasında ABŞ-da meydana çıxmış və inkişaf etmişdir. Vaxtilə amerikanın bankirlər assosiasiyası trast işinə belə tərif vermişdilər: «Bu, vəsiyyətlərin icrası, əmlakın vəkalətnamə üzrə idarə olunması və fiziki şəxslər, yoldaşlıqlar (birliklər), assosiasiyalar, təsərrüfat korporasiyaları, habelə açıq ictimai, tədris, mədəni və xeyriyyə təsisatları və hökumət orqanları üçün mümkün sayılan bütün hallarda agent tapşırıqlarının yerinə yetirilməsidir». Trast işi XIX əsrin ortalarından daha çox kommersiya banklarının əllərində cəmləşir və hətta, məsələn, etimadlı şəxs hüquqi firma və ya fərdi şəxs olduqda belə, faktiki olaraq əməliyyatları, agent kimi fəaliyyət göstərən bank aparır.

Qiymətli kağızlara yatırılmış varidatın idarə olunması, faktiki olaraq kommersiya banklarının əsas trast əməliyyatlarından ibarətdir. Bu halda bank müştərinin varidatını birbaşa idarə etmir, yalnız agent, mühafiz funksiyasını həyata keçirir, bir qayda olaraq, investisiyalar

MUHASIBAT.AZ

üzrə məsləhətçi kimi çıxış edir və bu yolla da müştərinin müxtəlif qiymətli kağızlara yatırımlar yapmasına əsas təsir göstərir. Bununla da trast əməliyyatlar vasitəsilə bankın qiymətli kağızlar bazarına, ilk növbədə fond birjasına təsiri artır. Hazırda kommersiya bankları korporasiyaların istiqrazları üzrə etimadlı nümayəndəsi kimi çıxış edir, qiymətli kağızların emissiyasına texniki xidmət göstərir, qiymətli kağızların emissiyasına, alqı-satqı zamanı səhmlərə verilən hüququn ötürülməsini həyata keçirir, səhmlərin emissiya məbləğinin şirkətin (korporasiyanın) nizamnaməsində təsbit olunmuş həddən yuxarı olmamasına nəzarət edir və s.

XX əsrin ikinci yarısında ABŞ-da fərdi fondlardan fərqli olaraq, idarə edilməsi onlara etibar olunmuş nisbətən kiçik (50 min dollardan az) pul vəsaitlərini toplayan kollektiv trast fondlar adlanan əməliyyatlar yayılmağa başlandı. Bu halda toplanılmış pul vəsaitlərinin idarə olunması vahid trast kimi həyata keçirilir. Digər forması isə sənaye, ticarət və nəqliyyat korporasiyalarının pensiya fondlarının banklar tərəfindən idarə olunmasıdır. ABŞ-da banklar tərəfindən idarə olunan pensiya fondlarının 60%-ə qədəri tam investisiya müstəqilliyi şərti ilə onlara verilmişdir. Xarakterik haldır ki, ABŞ-da banklar tərəfindən idarə olunan özəl trast hesablarının 40%-dən 50%-ə qədərini elə yatırımlar təşkil edirdi ki, onlar üzrə banklar heç nə ilə məhdudlaşmayan hüquqa malik idilər (məsələn, alqı və satqı, səhmdarların iclaslarında səsvermə). Yerdə qalan 50-60% səhmlər üzrə vəsiyyətçilər, etimad göstərənlər və məhkəmələr tərəfindən məhdudiyyətlər qoyulurdu.

MUHASIBAT.AZ

15.3. KOMMERSİYA BANKININ BALANSI, ONUN ANALİZİNİN MƏQSƏD VƏ VƏZİFƏLƏRİ

Kommersiya bankının balansı mühasibat balansıdır və burada bankın özünün və cəlb etdiyi vəsaitlərinin, habelə onların kredit və digər əməliyyatlara yatırılmasının vəziyyəti əks etdirilir. Kommersiya bankının balansı faktiki olaraq müvafiq tarixə bankın maliyyə durumu, xarakteri, əməliyyatlarının strukturu və həcmi barəsində təsəvvür yaradan cədvəl toplusudur.

İqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə bank hesabatlığının milli sistemi formalaşmışdır. Onlar bununla çoxcəhətlidir ki, kredit və bank sistemi, habelə pul-kredit nəzarəti sistemi daha çox inkişaf etmişdir. Hər bir kommersiya bankında mövcud olan hesabat sistemi üç *əsas məqsədə* xidmət etməlidir:

- bankın rəhbərliyinə öz əməliyyatlarını, onların son nəticələrini və ümumi effektivliyini, eləcə də bank əməliyyatlarının bu və ya digər növlərinin inkişafı məsələlərindəki sonrakı siyasəti müəyyənləşdirməyə imkan verməli;
- öz bankının fəaliyyətinin müxtəlif aspektlərinə nəzarət (resursların formalaşdırılması və yerləşdirilməsinə nəzarət, kredit, hesablaşma, kassa və digər bank əməliyyatlarına, o cümlədən qiymətli kağızlarla əməliyyatlara nəzarət) vasitəsi rolunu oynamalı, kommersiya banklarının maliyyə durumlarına bank orqanlarının nəzarət etmələrinə şərait yaratmalı, habelə ölkədəki pul-kredit situasiyası barədə mərkəzi banka informasiya verməli;
- bankın rəhbərliyi tərəfindən onun inkişaf etdirilməsi üçün aparılan siyasətin gedişində onların bankın səhmdarlarına (ilk növbədə auditor analizi yolu ilə) maraqlarına əməl olunmasına nəzarəti təmin etməli.

MUHASIBAT.AZ

Bu məqsədlərə nail olunması üçün ilk növbədə auditor firmalarından istifadə olunur ki, onlarla, habelə öz strukturuna görə çoxpilləli bank nəzarəti və vergi orqanları aparatı daimi ünsiyyətin olması bütün banklar üçün mütləqdir, belə ki, onlar da öz kanalları vasitəsilə etibarlı və mükəmməl bank hesabatının formalaşması və təqdim olunmasının doğruluğuna nəzarət edirlər. Qüsurlu (qeyri-düzgün) mühasibat hesabatının təqdim olunmasına yol verən banklar üçün cinayət məsuliyyəti də daxil olmaqla, bir sıra sanksiyalar tətbiq edilə bilər. Bununla belə, təsərrüfatın aparılmasında bazar sisteminin təbiəti və məntiqinin özü də ayrı-ayrı kommersiya banklarını və onların rəhbərlərini birbaşa və ya dolayısı yolla özlərinin gerçək maliyyə durumları və apardıqları əməliyyatların nəticələri haqqında təhrif olunmuş məlumatlar verməyə vadar edir. Bankların etibarlı və mükəmməl maliyyə durumlarının əldə olunması probleminin aktuallığı kommersiya banklarında digər bankların balanslarının analizi üzrə məqsədyönlü işin inkişafı ilə təsdiq olunur.

Kommersiya banklarının balanslarının analizinə yüksək diqqət yetirilməsi həm müvafiq ölkələrin iqtisadiyyatında mövcud olan pul-kredit situasiyasına nəzarət nöqteyi-nəzərindən, həm də əmanətçilərin banklara inamlarının saxlanılması aspektində banklar tərəfindən mütəmadi olaraq mühasibat hesabatlarını təqdim etmələri və balanslarının açıqlanması zərurətini şərtləndirir. Bir çox inkişaf etmiş ölkələrdə və inkişaf etməkdə olan ölkələrin böyük əksəriyyətində kommersiya bankları növbəti maliyyə ilinin başa çatmasından sonra çox ciddi müəyyənləşdirilmiş zaman kəsiyində öz balanslarını açıqlamağa borcludurlar. Mövcud bank və ya digər qanunvericiliyin tələblərindən asılı olaraq belə açıqlama ya rəsmi nəşrlərdən birində, ya da nümunəvi kütləvi nəşrdə həyata keçirilir. Kommersiya banklarının balanslarının açıqlanması müvafiq ölkənin mərkəzi bank tərəfindən və ya digər bank nəzarət orqanı tərəfindən çox ciddi şəkildə hazırlanılmış

MUHASIBAT.AZ

sənəd əsasında balans maddələrinin nomenklaturasına uyğun şəkildə həyata keçirilir ki, bu da onlar tərəfindən vaxtaşırı yenidən nəzərdən keçirilə bilər. Rəsmi açıqlama artıq auditorlar tərəfindən göstərilən məlumatların səhihliyini təsdiqləyən yoxlanılmış və təsdiqlənmiş bank balansının dərc olunmasından ibarətdir.

Bir sıra iri kommersiya bankları əsas balansın rəsmi dərc olunması ilə yanaşı ara balansları (kvartallıq və yarımillik) adlandırılan məlumatları da dərc edirlər, fəqət bunlar yalnız informasiya xarakteri daşıdığından auditorlar tərəfindən yoxlanılmır və təsdiqlənilmir. Lakin hər bir halda bütün balans məlumatları kommersiya banklarının direktorları və baş mühasiblərinin imzaları ilə dərc olunur və onlar dərc olunmuş məlumatların səhihliyi üçün şəxsi məsuliyyət daşıyırlar.

Kommersiya bankları balans məlumatlarını açıqlamalarından əlavə müntəzəm olaraq (inkişaf etmiş ölkələrin əksəriyyətində və inkişaf etməkdə olan ölkələrin bir çoxunda – hər ay) öz cari balanslarını nəzarət orqanlarına təqdim etməyə borcludurlar. Belə informasiyanın təqdim olunması direktiv orqanların məxsusən təqdim etdikləri banklar üçün məcburi xarakter daşıyan göstərişlərdəki həcmdə və formada həyata keçirilməlidir. Adətən belə göstərişlər «hesabatların nomenklaturası» şəklində tərtib olunur və orada əsasən təkcə balansların bölmələrinin və ayrı-ayrı hesabların adları deyil, həm də onların iqtisadi məzmunu verilir.

Hesabların nomenklaturası, onların bank nəzarəti orqanlarına verilməsinin qaydası və müntəzəmliyi ölkələr üzrə əhəmiyyətli dərəcədə fərqlənə və hətta eyniadlı hesabların iqtisadi məzmunları tamamilə uyğunsuz da ola bilər. Cəlb olunmuş vəsaitlərin, likvid aktivlərin və bir sıra başqa qısamüddətli mənbələr anlayışının şərhində çox ciddi fərqlər mövcuddur. Bununla belə, müxtəlif ölkələrin kommersiya banklarının balanslarının məzmununda bir çox oxşar cəhətlər vardır ki, bu da ilk növbədə onların əməliyyatlarının analoji xarakteri (bu sfera əsas

MUHASIBAT.AZ

etibarilə qısamüddətli kreditləşdirmədir) və cəlb olunmuş vəsaitlərin mənbəyi ilə şərtlənir (müştərilərin qısamüddətli depozitləri). Kommersiya banklarının balanslarında yüksək dərəcədə likvidliyə malik asan realizə oluna biləcək aktivlərin də mütləq mövcudluğunu qeyd etmək lazımdır. Kommersiya banklarının nisbətən daha likvidli aktivlərinə (azalan proporsiyada) kassadakı nəqdiyyat və mərkəzi bankdakı müxbir hesabda olan vəsaitlər, bank tərəfindən yerləşdirilmiş onkol (tələb olunanadək) və qısamüddətli (götürülməsi barədə əvvəlcədən xəbərdarlıq edilən) depozitlər, qısamüddətli dövlət qiymətli kağızları, banklar tərəfindən nəzərə alınan kommersiya veksellərinin bəzi növləri aiddir.

Kommersiya banklarının cəlb olunmuş vəsaitlərinin əsas mənbəyi öz təbiətinə görə müştərilərinin (həm hüquqi, həm də fiziki şəxslərin) qısamüddətli depozitləri olduğundan, onların aktivlərində isə daha əhəmiyyətli yeri şirkətlərin, firma və özəl şəxslərin qısa və ortamüddətli kreditləşdirmələri tutduğundan, ona görə də kommersiya bankları üçün balanslarda likvid vəsaitlərinin mövcudluğu həm onların cəlb etdikləri resursların həcmində baş verən mümkün dəyişkənliyin kompensasiyası nöqteyi-nəzərindən, həm də müştərilər tərəfindən bazar iqtisadiyyatı şəraitində kreditə olan tələbatın daim baş verən dəyişkənliyinin təmin olunması üçün obyektiv olaraq labüddür. Banklar üçün likvidliyin müəyyən səviyyədə saxlanılması zərurəti hazırda hamı tərəfindən qəbul olunandır və praktiki olaraq bütün ölkələrdə bank likvidliyi əmsallarının geniş tətbiq olunmasında öz ifadəsini tapır.

Ölkənin mərkəzi bankının həmin sahədə müəyyən tədbirləri və ya müvafiq siyasətindən sonra baş verən dəyişikliklər pul-kredit siyasətinin mühüm alətlərindən biri sayılır. Bir sıra amillərdən asılı olaraq konkret ölkənin bankı üçün normal hesab olunan likvidlik səviyyəsinin göstəricisi kifayət qədər çox dəyişkən ola bilər. Adətən bu,

MUHASIBAT.AZ

ayrı-ayrı ölkələr üzrə kommersiya banklarının cari öhdəliklərinin 20%-dən 30%-dək həddində dəyişkən ola bilər.

Bankların balanslarının digər xüsusiyyətləri ondan ibarətdir ki, bunlarda şirkətlərin, firma və özəl şəxslərin qısamüddətli kreditləri böyük payı vardır və müvafiq ölkələrin pul-kredit sistemində tutduqları yerlə şərtlənir. Göstərilən kreditlərin məcmu payı, bir qayda olaraq, kommersiya banklarının bütün aktiv əməliyyatlarının 30-40%-dən artığını təşkil edir.

Son illərdə kommersiya banklarının kredit yatırımlarında istiqraz və digər borclar şəklində dövlət borcu öhdəliklərinə investisiyalar getdikcə daha artıq rol oynamağa başlayır. Büdcə kəsirlərinin kreditləşdirilməsində iştirak edən kommersiya bankları çalışırlar ki, belə yatırımların müddətini beş illə məhdudlaşdırsınlar. Belə investisiyaların onlar üçün cəlbediciliyi öz ölkələrinin səviyyəsini əlavə imkanlarla yüksəltmək şərtləndirir və başqa ölkələrdə bunları nisbətən asanlıqla və tez nəqd vəsaitlərə çevirmək mümkündür. Bank resurslarının ortamüddətli yerləşdirilmələri və xüsusilə də onların ipoteka və kənd təsərrüfatı kreditlərinə verilməsi kommersiya banklarının balanslarında əhəmiyyətli yer tutmur.

Kommersiya banklarının passiv əməliyyatlarında fərqləndirici əlamət ondan ibarətdir ki, bunlarda cəlb olunmuş vəsaitlərin qısamüddətli mənbələrinin, əsasən də müştərilərin vəsaitlərinin, eləcə də banklararası əsaslarla cəlb olunmuş depozitlərin üstünlük təşkil etməsidir.

Kommersiya banklarının *balanslarının* mövcud *növləri* onların tərtib olunmasının detalları üzrə də fərqləndirilir. Bankın daxili balansı müfəssəl mühasibat hesabatından ibarətdir ki, burada müvafiq ölkənin bank tənzimləməsinin təlimatı üzrə bütün hesabatlara dair məlumatlar olur. Balansın konfidensial xarakter daşıyan və müntəzəm olaraq bank nəzarəti orqanlarına təqdim olunan, bankın əməli rəhbərliyi

MUHASIBAT.AZ

fəaliyyətinin həyata keçirilməsi məqsədlərinə və onun bütün müvafiq əməliyyatlarının uçotuna xidmət edən bu növündən fərqli olaraq, kommersiya bankının dərc olunan illik və aralıq balansları iriləşdirilmiş toplu hesabatı, bütövlükdə bank nəzarəti orqanlarının göstərişlərində nəzərdə tutulan tələblərinə cavab verən sxemində tərtib olunur. Lakin zərurət yarandıqda bank nəzarəti orqanları, demək olar ki, bütün bank hesabatına giriş əldə edə bilərlər. Eyni zamanda bu qaydada bir sıra istisnalar da mövcuddur. Belə ki, İsveçrənin kommersiya banklarında açılmış gizli hesabların rekvizitləri və dinamikası haqqında müfəssəl məlumat almaq üçün məhkəmə orqanlarının fəal müdaxiləsi tələb olunur.

Nisbətən ümumi forma daşıyan balans kommersiya banklarının səhmdarlarının ümumi iclasının müzakirəsinə təqdim olunan və müvafiq nəşrlərdə açıqlanan balansdır. Kommersiya banklarının balanslarının təqdim olunmasının ümumi qəbul olunmuş forması aktiv və passivə bölünməklə, ilk növbədə aktivin daha likvid (səfərbər olunan) maddələrinin fərqləndirilməsi ilə üfqi (şirkət və firmaların bir sıra ölkələrdə qəbul olunmuş şaquli balans formasından fərqli olaraq) formadır və əmanətçilər tərəfindən nisbətən daha asan tələb olunan passiv maddələridir. Bütövlükdə aktiv və passiv maddələrinin strukturu, belə maddələrin dinamikliyinin azalmasını göstərir, balans aktivi üzrə tərpənməz əmlaka və digər şirkət və firmaların kapitalına investisiyalarla tamamlanır, passivlər üzrə isə kommersiya bankının, onların əldə etdikləri mənfəəti də daxil etməklə, öz vəsaitləri üzrə investisiyalarla tamamlanır.

Müstəqil hüquqi şəxs kimi bankın özünün balansı ilə, bankın təkcə özünün əməliyyatlarını deyil, həm də onun şöbələrinin, habelə filial təşkilatlarının əməliyyatlarının da daxil olduğu *birləşdirilmiş* (*konsolidasiya olunmuş*) *balans* arasındakı fərqi nəzərə almaq lazımdır. Məsələn, iri kommersiya bankları banklarla yanaşı digər iri kredit-

MUHASIBAT.AZ

maliyyə təşkilatlarını da birləşdirən bütöv bir maliyyə qruplarına başçılıq edə bilər. Buradan belə nəticə çıxarmaq olar ki, birləşdirilmiş balansların açıqlanması müəyyən qədər bank qrupunun ayrı-ayrı üzvlərinin gerçək maliyyə durumunu geniş kütlədən gizlətmək məqsədinə xidmət edir. Bununla belə, bu sayaq balansları açıqlayan banklar əlavə müştərilər cəlb etmək məqsədi güdürlər, güman edirlər ki, potensial müştəri qrupun ayrı-ayrı üzvlərinin maddi durumundan baş açmayacaq. Banklar güman edirlər ki, müştərilər yalnız bütün qrupun bütövlükdə yekun balansına diqqət yetirməklə, ayrılıqda kredit müəssisəsinin inkişafındakı çatışmazlığı nəzərdən qaçırarlar. Bunu da nəzərə almaq lazımdır ki, hətta geniş şöbələr şəbəkəsinə şaxələnmiş iri kommersiya bankının müstəqil balansı birləşdirilmiş sayılır, belə ki, eyni bankın ayrı-ayrı müəssisələrinin hər birinin adətən özlərinin malik olduqları daxili balansları şəraitində belə, onların arasındakı qarşılıqlı hesablaşmalar və digər kredit-maliyyə münasibətləri tam istisna edilir.

Son vaxtlar kommersiya banklarının balanslarının müxtəlif aspektlərinin analizinə marağın xeyli artıdığı müşahidə olunur. Bu, həm tamamilə böyük bankların maliyyə çətinliklərinin və hətta müflisləşmələrinin çoxalması ilə, eləcə də beynəlxalq kredit bazarlarında inkişaf etməkdə olan ölkələrin, kredit və bank sistemi az öyrənilmiş və əksər hallarda zəif inkişaf səviyyəsi və güclü sabitsizliyi ilə fərqlənən çoxsaylı banklarının meydana çıxması ilə şərtlənir. Ona görə də kommersiya banklarının balanslarının analizi ilk növbədə müəyyən bankın nə dərəcədə etibarlı olması suallarına cavab verməkdir, onun maliyyə dayanıqlığının vəziyyətinin necəliyi və bankın öz vəsaitləri ilə resurslarının yerləşdirilməsi riskini bağlamaq səviyyəsini müəyyənləşdirmək məqsədi güdür.

Lakin bu məsələlərin həlli yalnız bank balanslarının göstəricilərinin analizi ilə bağlı deyil, həm də xeyli mənada hər bir konkret ölkədə pul bazarının inkişaf səviyyəsi, onun bank

MUHASIBAT.AZ

tənzimlənilməsi xüsusiyyətləri, milli bank sisteminin inkişaf səviyyəsi və banklar tərəfindən maliyyə çətinliklərinin hiss olunduğu dövrdə ölkənin mərkəzi bankının göstərdiyi pul-kredit təsiri ilə şərtlənir. Kommersiya banklarının balanslarının analizi öyrənilən bankın yerləşdiyi ölkənin spesifikasının şərtsiz nəzərə alınmasını, onun bank və maliyyə qanunvericiliyi barədə yaxşı biliyin olmasını, kommersiya banklarının bank nəzarəti orqanları tərəfindən müəyyənləşdirilmiş hesablar nomenklaturasını, kredit-bank sisteminin özünün strukturunu və bir sıra digər məsələləri yaxşı bilməyi tələb edir.

Bütövlükdə kommersiya bankının balansının analizi iki əsas mərhələyə malikdir:

- mövcud nomnklatura hesablarının nəzərə alınması ilə balans maddələrinin, zərurət yaranan hallarda qəbul olunmuş analiz sxemi üzrə araşdırılan balansın yenidən tərtib olunması ilə məzmununun öyrənilməsi. İşin göstərilən mərhələsi daha mürəkkəb sayılır və yüksək səviyyədə sırf peşəkar hazırlıq tələb edir, çünki, bir qayda olaraq, banklarda balansların analizi məsələləri ilə ixtisaslı mütəxəssislər məşğul olurlar. Bu, onunla şərtlənir ki, balans maddələri üzrə səhih məlumatlar öyrənilən bankın həqiqi maliyyə durumu barəsində düzgün təsəvvür əldə edilməsinin müqəddəm şərtidir;
- kommersiya bankının analiz olunan balansının digər kommersiya banklarının balansları ilə (analoji tarix üzrə) və həmin bankın bir neçə il üzrə balansları ilə, bankın fəaliyyətinin mühüm cəhətlərini və maliyyə durumunu xarakterizə edən əmsalların hesablanması və fərqləndirilməsi ilə müqayisə olunması. Digər bankların balanslarının tutuşdurulması bütövlükdə bank sisteminin ümumi inkişaf tendensiyası fonunda öyrənilən bankın həqiqi maliyyə durumunun müəyyənləşdirilməsi üçün zəruridir, öyrənilən bankın bir sıra

MUHASIBAT.AZ

illər üzrə balanslarının tutuşdurulmasının kommersiya bankının fəaliyyətinin xarakterik inkişaf tendensiyalarının aydınlaşdırılması üçün prinsipial əhəmiyyəti vardır.

Kommersiya banklarının balanslarının analiz edilməsinin əsas vəzifəsi bu və ya digər bankın etibarlılığı, mümkün itkilərə görə öz vəsaitləri hesabına ödəməqabilliyi barədə, cəlb olun resursların axıb getməsi şəraitində dözəbilmə səviyyəsi barədə suallara birmənalı cavab almaqdır. Bundan əlavə, bütün əsas xarakteristikalar həm də dinamika nöqteyi-nəzərindən analiz edilməlidir. Bu halda labüd olaraq digər kommersiya banklarındakı müvafiq göstəricilərin ümumi tendensiyası ilə tutuşdurulmasında baş verən dəyişikliklərin spesifikası haqqında məsələ ortaya çıxır.

Bank balanslarının onların tutuşdurulması məqsədi ilə analizi zamanı ən müxtəlif əmsallardan istifadə olunur. Kommersiya banklarının balanslarının analizi üçün indiyədək ümumi qəbul olunmuş dayanıqlı əmsallar yoxdur, ona görə də bankların özləri bank fəaliyyətinin analizi üçün daha məqbul əmsallar sistemini işləyib hazırlayırlar. Hal-hazırda kommersiya bankları tərəfindən tətbiq olunan əmsallar sistemi (bank balanslarının müxtəlif göstəricilərinin nisbəti) ilk növbədə balansların məzmununa keyfiyyətcə yanaşma imkanı verir və yalnız onların kəmiyyət (rəqəmsal) göstəriciləri ilə məcmu halda nəzərdən keçirilə bilər. Həmin əmsalların analizi üç əsas məsələyə cavab verməlidir:

- kommersiya bankının öz vəsaitləri ilə öz əməliyyatlarında («kapitalizasiya – kapitallaşdırma əmsalı») iştirak etməsi səviyyəsi;
- bankın likvidlik səviyyəsi və ya onun cəlb olunmuş vəsaitlərin axınına qarşı itkisiz tab gətirə bilmə qabiliyyəti («likvidlik əmsalı»);

MUHASIBAT.AZ

- bankın resurslarının yüksək risk səviyyəli əməliyyatlara yatırılması səviyyəsi («risk əmsalı»).

Göstərilən əmsalların hesablanması üçün banklar ən müxtəlif üsullardan istifadə edirlər. Lakin istənilən halda bu əmsallar qarşıya qoyulmuş suallara ətraflı cavab verməyə xidmət edir ki, bu da analiz olunan bankın fəaliyyətinin təkamülü haqqında nəticələr əldə etmək üçün çox vacibdir. Beynəlxalq bank praktikasında bu məqsədlərlə hər şeydən əvvəl likvidlik əmsallarından istifadə olunur.

MUHASIBAT.AZ

15.4. LİKVİDLİK VƏ KOMMERSİYA BANKININ KAPİTALININ KAFİLİYİ

«Likvidlik» termini (latınca – liquidus – axan, duru) sözün hərfi mənasında realizə olunması asan olan, maddi dəyərlərin pul vəsaitlərinə çevrilmənin asanlığını bildirir. Bank fəaliyyətinə tətbiq olunarkən, *likvidlik* dedikdə, bankların vaxtında təkcə kreditin nəzərə alınması ilə deyil, həm də kommersiya banklarının kassa imkanları nəzərə alınmaqla, öz öhdəliklərini pul formasında ödəyə bilmək qabiliyyəti başa düşülür. *Bank likvidliyi* depozitlərin xarakteri və həcmindən, bankın kredit bazarında təcili ssuda almaq imkanlarından, aktivlərin strukturunun (kredit yatırımlarının) passivlərin (resursların) strukturunun müddəti və xarakteri üzrə uyğunluğundan asılıdır, belə ki, məsələn, bankın aktivlərində daimi büdcə kəsirlərində dövlət qiymətli kağızlarının (istiqraz, xəzinə öhdəlikləri) xüsusi çəkisinin artması bank sisteminin likvidliyini xeyli çətinləşdirir. Likvidlik iqtisadi konyunkturadan asılıdır, çünki, məsələn, iqtisadiyyatda durğunluq müştəriləri vadar edir ki, banklardakı əmanətlərini oradan götürsünlər, bu da nəinki onların likvidliyini pisləşdirir, həm də çox hallarda onların müflisləşməsinə səbəb olur. Likvidlik, iqtisadiyyatda dayanıqlı disproporsiya üzündən yaranmış pozuntu, bankın pul ehtiyatlarının artması ilə bağlı nəqd pulların dövranın pozulmasından asılıdır, belə ki, o bank maksimal likvidliyə malik olur ki, onun depozitlərinin məbləği verilən kreditlərin həcmindən artıq olsun (bu halda bankın mədaxili azalır).

Kommersiya banklarının likvidliyi mərkəzi bank tərəfindən əsasən təkrarmaliyyələşdirmə yolu ilə (borc vəsaitlərinə tələb və təklifə təsir göstərmək) və onların kreditqabilliliyinə təsirlə (kreditlərin təklifinə təsir göstərmək) tənzimlənilir. Bankların likvidliyinin dəyişilməsi mərkəzi bank tərəfindən aparılan pul-kredit siyasətinin məğzi kimi çıxış

MUHASIBAT.AZ

edir. Sonuncu bütövlükdə bank sisteminin likvidliyini dəstəkləməlidir. *Bank sisteminin likvidliyinin tənzimlənilməsi dedikdə*, mərkəzi bank tərəfindən müxtəlif pul-kredit siyasəti instrumentlərinin köməkliyi ilə kommersiya banklarındakı əlavə pul vəsaitlərinin götürülməsi və ya təqdim olunması başa düşülür. Bank sisteminin likvidliyini xarakterizə edən göstəricilərindən biri kommersiya banklarının müxbir hesablarında qalan vəsaitlərinin qalıqlarının durumudur. Məsələn, mərkəzi bank hər gün kommersiya banklarının müxbir hesablarının durumuna nəzarət edir və çalışır ki, öz fəaliyyəti ilə bu hesablardakı optimal həcmi dəstəkləyə bilsin.

Bankın balansına tətbiqən likvidlik sonuncunun aktivlərinin pul vəsaitlərinə çevrilə bilmə qabiliyyətini bildirir. Əgər onun nəqd vəsaitlərinin və digər likvid aktivlərinin məbləği, eləcə də digər mənbələrdən qısa müddət ərzində vəsaitləri səfərbər edə bilmək imkanları borcları və pul öhdəliklərini vaxtında ödəməyə kifayətdirsə, onda bank likvid hesab olunur. İstənilən kommersiya bankının aktivlərinin maddələri balansda likvidliyin azalması qaydası ilə, yəni ödənişlərin aparılması üçün onların nəqdiyyata tədavülü imkanları şəklində yerləşdirilir.

Likvidlik səviyyəsinə görə tez və ləng realizə olunan aktivlər fərqləndirilir. Birinci dərəcəli likvid vəsaitlərə (tez realizə olunan) aşağıdakılar daxildir: kassa nəqdiyyatı, bankların digər kredit müəssisələrindəki hesablaşmalar üzrə haqq-hesab hesablarındakı pul vəsaitləri, bankın sertifikatları. Tələb olunanadək ssudalar da nisbətən likvid sayılır, belə ki, bank istənilən vaxt vəsaitləri borc alandan geri istəyə bilər. Qiymətli kağızlara bank investisiyası nisbətən az likvid sayılır, çünki onları nəqd vəsaitlərə çevirmək daha çətindir. Uzunmüddətli ssudalar və tərpənməz əmlaka yatırımlar kimi bank aktivləri çətin likvidli xarakterə malik olur. Likvid sayılan aktivlərin strukturu, onların ödəməli olduqları öhdəliklərin müddətinin təmin

MUHASIBAT.AZ

olunmasından asılı olaraq dəyişir. Məhz buna görə aktivin maddələri arasında ilk növbədə nəqd aktiv adlandırılanların, sonra isə – tez realizə olunan yatırımların və s. fərqləndirilməsi qəbul olunmuşdur.

Ayrı-ayrı bankların əməliyyatlarının likvidliyi, onların tələb olunanadək öhdəliklər üzrə və tarixinin başa çatdığı müddətli öhdəliklər üzrə ödənişlərin vaxtında aparıla bilməsi qabiliyyətindən ibarətdir. Bu, müvafiq aktiv və passiv əməliyyatların təşkil olunması sayəsində təmin olunur. Öhdəliklərin ödənilməsi bankın mənfəəti üçün zərərsiz həyata keçirilməlidir.

Balansın müqayisəli (dinamikada) analizi zamanı müəyyən müddət ərzində aktiv maddələr üzrə bankın likvidliyinə və əməliyyatlar riskində baş verən dəyişikliklərin səbəbləri və təzyiq səviyyəsi aşkar edilə bilər. Bu zaman aktivlərin ümumi likvidliyi *daxili likvidlik və bazar realizəqabilliyi* deyilənlə müəyyən edilir. Birinci ödəniş müddətinin başa çatmasından sonra aktivin nəqdiyyata çevrilə bilməsi ilə əlaqələndirilir, ikinci isə vaxtın istənilən anında realizəqabilliyi nəzərdə tutur.

Likvidlik passivlərin strukturundan asılıdır. Əgər tələb olunanadək əmanətlər üzrə əmanətçilər pullarını istədikləri anda tələb etmək hüququna malikdirlərsə, müddətli əmanətlər isə az və ya çox müddət ərzində bankın sərəncamında qalır. Ona görə də tələb olunanadək əmanətlər üzrə xüsusi çəkinin artması və müddətli əmanətlərin payının azalması bank likvidliyini aşağı salır. Bankın digər kredit müəssisələrindən aldığı depozitlərin və kreditlərin etibarlılığı da bankın balansının likvidliyinə təsir göstərir.

Bankın likvidliyi ayrı-ayrı kredit əməliyyatlarının risk səviyyəsindən asılıdır: balansda yüksəkriskli aktivlərin payı nə qədər çoxdursa, bankın likvidliyi də o qədər aşağıdır. Praktikada etibarlı aktivlərə nəqd pul vəsaitlərini, yüksək risklilərə isə – bankların uzunmüddətli yatırımlarını aid etmək qəbul olunub. Bankın borc

MUHASIBAT.AZ

alanlarının kreditqabillik səviyyəsi ssudaların vaxtında qaytarıla bilməsinə və bununla da bankın balansının likvidliyinə əhəmiyyətli təsir göstərir: verilən kreditlərin ümumi məbləğində yüksək riskli kreditlərin xüsusi çəkisi nə qədər çox olarsa, bankın likvidliyi o qədər aşağı olar. Balans o vaxt likvid sayılır ki, onun durumu aktivlər üzrə vəsaitlərin asan realizə olunması hesabına passivlər üzrə müddətli öhdəlikləri ödəməyə imkan versin. Bankın aktivlərinin onun öhdəliklərinin yerinə yetirilməsi üçün tezliklə pul formasına keçməsinin mümkünlüyü bir sıra amillərlə müəyyən olunur ki, bunlardan da həlledicisi yerləşdirilmiş vəsaitlərin müddətinin resursların cəlb olunma müddətinə uyğun gəlməsidir, yəni müddət üzrə passiv necədirsə, aktiv də o cür olmalıdır. Bu halda balansda aktivlər üzrə azad olan vəsaitlərin məbləğ və müddətinin pul forması və məbləğlə bankın öhdəlikləri üzrə qarşıdakı ödəniş müddəti arasında müvazinət təmin olunur. Deməli, əgər bankındigər mənbələrdən qısa müddət ərzində səfərbər etmək imkanına malik olduğu pul vəsaitlərinin məbləği passivlər üzrə öhdəliklərin vaxtında ödənilməsinə imkan verirsə, onda bank likvid sayılır.

Bank öz sabitliyini mühafizə edib saxlamaq məqsədilə pul bazarının vəziyyətinin, müştərinin və ya partnyor bankın maliyyə durumunun dəyişməsi ilə bağlı təzahür edə biləcək nəzərdə tutulmayan öhdəliklərin icra olunması üçün müəyyən likvid ehtiyatlara malik olmalıdır. Bankların likvidliyinin ölçülərinə təsir edən amillərə tədavüldə olan nəqd pulların kəmiyyəti (artması bankların likvidliyini azaldır və əksinə), ölkənin qızıl-valyuta ehtiyatlarının dəyişilməsi (xarici valyutanın ölkəyə axını bankların likvidliyini artırır və əksinə), mərkəzi bankın milli xəzinədarlıq qarşısında kredit öhdəliklərinin həcminin dəyişməsi (mərkəzi bankın xəzinədarlıqdan aldığı yardımın həcminin artması bank sisteminin likvidliyini artırır və əksinə), mərkəzi bankın kortəbii amillərin nəticələrini dərinləşdirə biləcək və ya onların onların təsirini məhdudlaşdıra biləcək emissiya siyasəti.

MUHASIBAT.AZ

Bankların real likvidlik səviyyəsinə təsir göstərilməsi o dərəcədə pul-kredit siyasətinin əsas məqsədlərindən biridir ki, həmin siyasət kreditin artmasına nəzarətə yönəlmiş olsun. Başqa sözlə desək, likvidliyə münasibətdə restrikasiyalar eyni zamanda kredit əməliyyatlarının inkişafının imkanlarını məhdudlaşdırır. Bu məqsəd əsasən kommersiya banklarının mərkəzi bankla qarşılıqlı münasibətlərindəki nəqdiyyatın həcminin reqlamentasiyası – mərkəzi bankda mütləq ehtiyatların həcminin və uçot qaydaları modifikasiyasının dəyişilməsi ilə (təkrar uçotun stavkası, təkrar uçotun «tavana»ları), habelə faiz stavkalarının artması və ya azalması hesabına kredit verilməsinin məhdudlaşdırılması və ya genişləndirilməsi üzündən pul bazarına müdaxilə ilə əldə edilə bilər.

Bankın likvidliyinin idarə olunması müvafiq nəzəri bazaya əsaslanır. Xarakterik haldır ki, likvidliyin idarə olunması nəzəriyyələri praktiki olaraq kommersiya banklarının yaranması ilə eyni vaxtda meydana çıxmışdır. Hazırda dörd nəzəriyyə – kommersiya ssudaları, yerdəyişmə, gözlənilən gəlir və passivlərin idarə olunması – göstərilir.

Kommersiya ssudaları nəzəriyyəsi öz kökləri ilə XVIII əsrin İngiltərə bank praktikasına gedir. Bu nəzəriyyənin tərəfdarları iddia edirlər ki, kommersiya bankı, onun aktivləri nə qədər ki, işgüzar fəallığın normal durumu zamanı vaxtında ödəniləbiləcək qısamüddətli ssudalara yerləşdirilib, öz likvidliyini saxlayır. Başqa sözlə desək, banklar istehsaldan istehlaka qədər malların hərəkətinin ardıcıl mərhələlərini maliyyələşdirməlidirlər. Bu ssudalar müasir şəraitdə mal ehtiyatı və ya dövriyyə kapitalının doldurulması əsasında ssudalar adını almışdır. Bank işinin demək olar ki, bütün tarixi ərzində hesab olunurdu ki, banklar qiymətli kağızların, tərpənməz əmlakın, istehlak mallarının alınmasını kreditləşdirməməli və ya kənd təsərrüfatına uzunmüddətli kreditlər verməməlidir. Hərçənd kommersiya ssudaları nəzəriyyəsi iqtisadiyyatçılar, nəzarət və tənzimləmə orqanları, eləcə də

MUHASIBAT.AZ

banklar tərəfindən geniş təbliğ olunurdu, onun praktikada tətbiqi o qədər də geniş deyildi.

Kommersiya ssudaları nəzəriyyəsinin əsas çatışmazlığı ondan ibarətdir ki, o inkişaf edən iqtisadiyyatın kredit tələbatlarını nəzərə almırdı, çünki nəzəriyyəyə ciddi əməl olunması banklara müəssisələrin və avadanlığın genişlənməsini, evlərin, torpaqların alınmasını maliyyələşdirməyi qadağan edirdi. Bu nəzəriyyə bank əmanətlərinin nisbi sabitliyini nəzərə ala bilmədi. Bank əmanətləri ilk tələblə geriyə alına bilər, lakin çətin ki, əmanətçilərin hamısı əmanətlərini eyni vaxtda götürsünlər. Əmanətlərin sabitliyi banka imkan verir ki, likvidliyə xələl gətirmədən vəsaitlərini mötədil uzun müddətə yerləşdirə bilsin. Nəzəriyyə ona əsaslanırdı ki, normal iqtisadi proses zamanı bütün ssudalar öz vaxtında ödənilə bilər. Doğrudan da yüksək işgüzar fəallığı şəraitində sənaye və ticarət şirkətləri öz öhdəliklərinin ödənilməsi zamanı çətinliklərlə qarşılaşmırlar. Lakin, iqtisadi tənəzzül dövrlərində və ya maliyyə çaxnaşması zamanı «nəqdiyyat – əmtəə ehtiyatları – realizasiya – hesablaşmalar üzrə debitorlar – nəqdiyyat» zənciri pozulur. Ona görə də firma və ya şirkətlər üçün bank ssudalarını ödəmək çətinləşir, bəzən isə qeyri-mümkün olur. Bu nəzəriyyənin çatışmazlığı ondan ibarətdir ki, normal iqtisadi inkişaf şəraitində qısamüddətli özünüləğvedən ssuda likvidliyi təmin edir.

Yerdəyişmə nəzəriyyəsi ona əsaslanır ki, bank likvid ola bilər, əgər onun aktivlərinin yerini dəyişmək və ya nəqd şəkildə kreditorlara, yaxud da investorlara satmaq mümkün olsun. Əgər kreditlər vaxtında ödənilmirsə, onda ssudanın təminatı üçün verilmiş əmtəə-mal dəyərləri bazarda nəqdinə satıla bilər, vəsaitlərə ehtiyac olduğu hallarda isə mərkəzi bank tərəfindən təkrar maliyyələşdirməyə müraciət etmək olar. Bu halda ayrıca kommersiya bankının likvid resurslara tələbatının ödənilməsinin şərti daimi nəqd aktivlərin olmasıdır ki, onları satmaq mümkündür. Buna uyğun olaraq, əgər mərkəzi bank təkrar uçota təklif

MUHASIBAT.AZ

olunan aktivləri sərbəst şəkildə alacaqsa, onda bank sistemi likvid olacaq. Asan realizə oluna bilər bazar qiymətli kağızları uzun müddət likvid ehtiyatların gözəl mənbəyi kimi hesab olunurdu, çünki bu sayaq qiymətli kağızları nəqd pula çevirmək mümkündür. Ona görə də tez-tez hallarda onlara ikinci növbə ehtiyatları kimi müraciət edirlər. Yubadılmadan və itkisiz konvertasiyanı təmin etmək üçün törəmə ehtiyatlar üç tələbə cavab verməlidirlər: ödənişin qısa müddəti, yüksək keyfiyyət və realizəqabillik. Bunlar kredit riskindən və bazar faiz stavkalarının dəyişməsi riskindən mühafizə olunmalı, habelə qısamüddətli xəbərdarlıqla bazarda satılmalıdırlar.

Likvidlik ehtiyatı kimi istifadə olunan aktivlərin ödənilmə müddətinə münasibətdə müəyyən tələblər irəli sürülmür, amma ümum qayda budur ki, müddət nə qədər qısa olsa, o qədər yaxşıdır. Keyfiyyət və realizasiyqabillik şərtlərinə qiymətli kağızların bir sıra növləri cavab verir. Törəmə ehtiyatlar üçün daha uyğun gələnləri xəzinə vekselləri, habelə hökumətin və onun orqanlarının digər qiymətli kağızlarıdır. Açıq bazarda realizə olunan akseptlər və kommersiya kağızları da istifadə oluna bilər. Bank aksepti bank tərəfindən adətən 180 günədək ödəniş müddəti ilə akseptə olunmuş trattadır. Kommersiya kağızları korporasiyalar tərəfindən nisbətən qısa müddətə, adətən 4-6 ayadək buraxılan veksellərdən ibarətdir. Bu qayda ilə pul əldə etmək üçün korporasiya çox yüksək kreditqabilliyə malik olmalıdır.

Hərçənd yerdəyişmə nəzəriyyəsi müəyyən dərəcədə əsaslandırılıb, bununla belə, onun göstərişlərinə əməl edən yüzlərlə bank XX yüzilliyin 20-30-cu illərində likvidlik problemindən yan keçə bilməmişdir. Bankın öz portfelində birinci dərəcəli qiymətli kağızlar ola bilər, lakin istehsalın staqnasiyası dövründə, xüsusilə də böhranlar zamanı, likvidliyin ümumi çatışmazlığına ehtiyac olanda, aktivlərin bir hissəsini realizə etmək mümkün olmur. Ona görə də iqtisadi böhranlar birja böhranları

MUHASIBAT.AZ

ilə müşayiət olunur. Qiymətli kağızların kursu kəskin şəkildə aşağı düşür və maliyyə bazarında təkrarmaliyyələşdirmə imkanlarını pozur.

Gözlənilən gəlir nəzəriyyəsinə görə, əgər kreditlərin qapanılması üçün ödənişlər qrafikinin əsasına borc alanın gələcək mədaxili qoyularsa, bank likvidliyini planlaşdırmaq olar. O yuxarıda nəzərdən keçirilən nəzəriyyələri inkar etmir, amma göstərir ki, borc alanın gəliri ilə sssudaların ödənilməsinin uzlaşdırılması (əlaqələndirilməsi), kreditin təmin olunması üçün akseptdən daha məqsədəuyğundur. Bu nəzəriyyə iddia edir ki, bank likvidliyinə kreditlərin və investisiyaların ödəniş müddəti strukturunu dəyişməklə təsir göstərmək olar. Sənayenin qısamüddətli kreditləri daha likvidlidir, nəinki orta və uzunmüddətli ssudalar, istehlakçılara möhlətlə ödəmə ilə alqı üçün kreditlər isə mənzil və ya tikinti üçün ssudalardan daha likvidlidir. Nəzəriyyə hazırda kommersiya banklarının kredit portfelinin xeyli hissəsini təşkil edən kreditlərin ayrı-ayrı növlərinin inkişafı və sürətlə artımını qəbul edir: işgüzar firmalara müddətli kreditlər, möhlətli ödəmə ilə istehlakçı kreditləri. Xeyli hissəsini aylıq və kvartallıq ödəmələrin nəzərdə tutduğu kreditlərin təşkil etdiyi kredit portfeli əsas borcun və ya faizlərin ödənilməsi hesabına likviddir, belə ki, nəqd vəsaitlərin müntəzəm axınını planlaşdırmaq asandır.

Gözlənilən gəlir nəzəriyyəsi ona təsir göstərmişdir ki, bir çox banklar investisiya portfelinin formalaşmasının özülünə pilləlilik (mərhələlilik) effektini qoymuşlar: qiymətli kağızlar ödənmə müddəti üzrə elə seçilir ki, daxilolmalar müntəzəm və idarəolunabiləcək olsun. Bu halda nəqdiyyatla müntəzəm ödəniş göstəricisi üzrə investisiya portfeli borcun və faizlərin müntəzəm ödənilməsi üzrə kreditlər portfelinə yaxınlaşır.

Passivlərin idarəolunması nəzəriyyəsinin tərəfdarları hesab edirlər ki, banklar bazardan əlavə vəsaitlərin cəlb olunması yolu ilə likvidlik problemini həll edə bilərlər. İlk vaxtlar aparıcı maliyyə mərkəzlərinin iri

MUHASIBAT.AZ

bankları bu nəzəriyyənin müdafiəsinə çıxış edirdilər, az sonra isə onu hər yerdə qəbul etdilər. Likvid resursların artırılması üçün banklar mərkəzi bankdan da vəsait götürürlər. Borc vəsaitlərin istifadə olunması miqyasının genişləndirilməsi bank kreditlərinə tələbin artması və tələb olunanadək əmanətlərin nisbətən ləng artımı ilə şərtlənir. İqtisadi fəallığın güclənməsi və inflyasiya tempinin artması təsərrüfat subyektlərinin kredit istehlakının artmasını bildirirdi. Xərclərin artması bankları öz resurslarını daha dolğun istifadə etməyə yönəldir.

Praktikada bu və ya digər dərəcədə bütün nəzəriyyələrdən istifadə olunur, amma müxtəlif banklarda bunlardan birinə daha çox üstünlük verilir. Likvidlik durumunun idarə olunmasında iki ifrat cəhəti göstərmək olar. Bunlardan biri – ehtiyatlara ciddi nəzarət siyasətidir. Bu, ondan ibarətdir ki, bankda gəlir gətirməyən vəsaitin mövcudluğuna yol verilməsin, yəni faktiki olaraq vəsaitin istehlakına nisbətdə istənilən bolluğun mövcudluğuna yol verilməsin. Digər əks cəhət – ehtiyatların daim mütləq ehtiyatlar norması üzrə tələblərin ödənilməsi üçün kifayət edəcək səviyyədə dayanıqlığının təmin olunması və qızğın çağlarda depozitlərin artması siyasətidir. Ona görə də bankın likvidliyinin qiymətləndirilməsi zamanı bankın kassasında qalan nəqd pulların həcmini, müştərilərin tələblərinin ödənilməsi üçün nəqd pulların verilməsi üzrə dövriyyənin həcmini, vəsaitlərin kassada dövranlılığını, eləcə də kassadan verilən pulların bankın öhdəliklərinin əks etdirildiyi hesablar üzrə debet dövriyyəsi məbləğinə nisbətini nəzərdən qaçırmaq olmaz. İri banklar nəqd vəsaitlərə ciddi nəzarət etməyi sərfəli hesab edirlər, xırda banklar isə əməliyyatların ümumi gəlirliliyinin təmin olunmasında kassa idarəolunmasını bacarıqla həyata keçirilə bilən bu effektliliyi daha çox dərk edirlər.

Müxtəlif hesablaşma əməliyyatlarının aparılması yolu ilə müştərilər qarşısında öhdəliklərin yerinə yetirilməsi zamanı bankın likvidliyi ilə alayı durum yaranır. Belə hallarda bankın kassasında

MUHASIBAT.AZ

müştərilərin tələblərinin ödənilməsi üçün nəqd pul qalıqlarının yaradılmasına ehtiyac yoxdur. Lakin müxtəlif nəqdsiz hesablaşma əməliyyatları bankın likvidliyinə fərqli təsir göstərir.

Nəqdsiz hesablaşmaların bir qismi vəsaitlərin müştərilərin hesabları üzrə köçürmələr yolu ilə aparılır. Əgər belə əməliyyatlar bir bankın müştəriləri arasında aparılırsa, onda bu, likvidliyə təsir göstərmir, belə ki, bankın öhdəliklərinin məcmu həcmi dəyişmir, yalnız vəsaitlərin müştərilərin hesabları üzrə yerdəyişməsi baş verir. Ona görə də likvidliyin dəstəklənməsinə bir bank çərçivəsində aralarında hesablaşma əməliyyatlarının həyata keçirilməsinin mümkünlüyü nəzərə alınmaqla bankın müştərilər tərkibinin formalaşdırılması yardım edə bilər.

Müxtəlif bankların müştərilərinin iştirak etdikləri hesablaşma əməliyyatları da ssudaların verilməsi və ödənilməsi ilə bağlı bankların likvidlik durumuna fərqli təsir göstərir. Bir bankın müştərisinin vəsaitinin nəqdsiz köçürmə yolu ilə digər bankın müştərisinin xeyrinə keçirilməsi bir bankdakı müştərinin hesabında olan qalığı azaldır və həmin bankda digər bankın müxbir hesabı üzrə qalığın müvafiq dərəcədə artmasına səbəb olur. Nəticədə həmin bankın öhdəlikləri əvəzinə müştəriyə digər banka köçürülən məbləğ həcmində öhdəlik yaranır. Digər bankda vəsaitlərin köçürülməsi nəticəsində müştərinin hesabında onun qarşısında öhdəliyin müvafiq artımı ilə köçürülən məbləğ həcmində qalığın artımı baş verir. Bununla belə, müxbir hesab üzrə bankın aktivləri debet qalığının artması məbləğində çoxalır. Lakin bankın öhdəlik strukturu həcminin bu sayaq dəyiqşməsi hər iki bankın likvidliyinə əhəmiyyətli təsir göstərmir.

Kommersiya bankları praktiki fəaliyyətlərində likvidliyin yerinə yetirilməsində çətinliklərlə qarşılaşırlar. Bununla əlaqədar olaraq *bankların likvidliyinin pozulması səbəblərinin üç qrupunu göstərmək olar. Səbəblərin birinci qrupu* bankların fəaliyyətində buraxılmış səhvlərlə,

MUHASIBAT.AZ

onların mümkün risk dərəcəsini nəzərə almamaları ilə bağlıdır. *İkinci qrupa* nə borc alanlardan, nə də banklardan asılı olmayan səbəblər aiddir ki, onların ucbatından kreditor ona ssuda verilmiş kapitalı geriyə ala bilmir. *Üçüncü qrup* səbəblər – bankın zamanla bağlı balansının pozulması üzündən öz öhdəlikləri üzrə bankın qeyri-ödəməqabilliyinin mümkünlüyüdür, yəni aktiv və passivlərin strukturunun zamanla uyğunsuzluğudur (daxilolma müddəti ilə ödəniş arasında müvazinət yoxdur).

Zəruri likvidliyin qorunub-saxlanılması üçün banklar passiv və aktiv əməliyyatlar sahəsində məqsədyönlü siyasət aparmalıdırlar. Likvidliyin yüksək səviyyəsi nisbətən daha effektiv işləyən banklara imkan verir ki, tələb və təklifin konyunktur enib-qalxmasını dəf etsin, tezliklə öz vəsaitlərini daha perspektivli fəaliyyət sferasına yönəltsin. Likvidlik kredit təsisatlarının maliyyə durumunun mühüm xarakteristikası rolunu oynayır və bankın maliyyə durumunu qiymətləndirmək üçün isə müxtəlif əmsallar (göstəricilər) və normativlər tətbiq olunur.

Likvidlik göstəricilərinin müxtəlif ölkələrdə fərqli adları və eyni olmayan hesablanma üsulları vardır. Bu, təşəkkül tapmış praktika və ənənə ilə bağlıdır, həmin göstəricilər bankların ixtisaslaşması və böyüklüyündən, kredit sahəsində aparılan siyasətdən və bir sıra digər şərtlərdən asılıdır. Kommersiya banklarının likvidliyi səviyyəsinin ətraflı xarakteristikasını müəyyənləşdirmək üçün istifadə olunan bir neçə göstərici vardır.

Qısamüddətli öhdəliklərin ödənilməsi əmsalı bankın, onun qısamüddətli öhdəlikləri üzrə daha likvid aktivlərinin ödənilməsi dərəcəsini göstərir və aşağıdakı kimi ifadə olunur:

$$K_{п} = \frac{A_{н.л.}}{O_{кр.}}, \qquad (15.1)$$

MUHASIBAT.AZ

burada $К_{п}$ – ödəmə əmsalı; $А_{п.л.}$ – daha likvid aktivlər; $О_{кр.}$ – qısamüddətli öhdəliklərdir.

Bu əmsal likvidliyin mütləq meyarı hesab oluna bilməz, belə ki, bəzi banklarda nəqdiyyat daha yüksək gəlir gətirən dövlət qiymətli kağızlarına maksimum mütləq yatırımların həyata keçirilməsi məqsədilə nisbətən aşağı həddə qorunub-saxlanılır. Daha tez realizə olunan aktivlərin cəmi nəqdiyyat, mərkəzi bankdakı hesabda olan vəsaitlərin qalıqları, milli və xarici müxbir banklardakı vəsait qalıqları, qızıl və tez realizə oluna bilən aktivlər, məsələn, bankların öz aktivlərinin bir hissəsini yerləşdirməyə borclu olduqları dövlət qiymətli kağızlardan ibarətdir. Əgər bu göstəricinin həcmi analiz olunan bankda 15% təşkil edirsə, onda bu özünə, xüsusilə də qeyri-sabit iqtisadi şəraitə malik ölkələrdə çox ciddi diqqət göstərilməsini tələb edir. İnkişaf etmiş bank sisteminə malik ölkələrdə nisbətən aşağı ölçüdə əmsaldan – 5-10% – istifadə olunur.

Bankda müvəqqəti çətinliklərin meydana gəlməsi başqa göstəricini – *depozitlərə nisbətdə kredit və uçot veksellərini* xarakterizə edə bilər, yəni

$$К_{э} = \frac{К_{в}}{Д}, \qquad (15.2)$$

burada $К_{э}$ – depozitlərdən istifadə olunmasının effektivlik əmsalı; $К_{в}$ – kreditlər və bank tərəfindən uçota alınan veksellər; Д – depozitlər.

Əgər bir sıra illər ərzində bu göstəricinin aşağı düşmüş dinamikası müşahidə olunursa, onda bunu digər bankların analoji göstəriciləri ilə tutuşdurmaq lazımdır ki, həmin prosesin bütün bank sistemi dəstəsi üçün ümumi olub-olmadığı və ya onun yalnız analiz olunan bankın durumunun zəifləməsini sübut etdiyi müəyyən edilsin.

Asan realizə olunan aktivlərin cari öhdəliklərə nisbətinin əmsalı aşağıdakı kimidir:

MUHASIBAT.AZ

$$К_н = \frac{А_{н.л.}}{О_т}, \quad (15.3)$$

burada $К_н$ – depozitlərin istifadə olunmasının «gərginlik» əmsalı; $О_т$ – mütləq ehtiyatlar normasına və depozitlərin sabitliyinə korrektə edilmiş qısamüddətli öhdəlikdir.

Bu əmsal, müştərilərin əmanətlərinin sabitliyindən, ölkənin mərkəzi bankının kommersiya bankının cəlb olunmuş depozitlər üzrə mütləq ehtiyatlarına nisbətdə siyasətinin likvidlik göstəricisidir. Həmin göstərici həm də mərkəzi bankların cəlb olunmuş vəsaitlərinin kütləvi axınına məruz qalmış kommersiya banklarına köməklik göstərmək imkanlarından da asılıdır. Bütün sadalanan amillərin həmin əmsalın məqbul ölçülərinin müəyyənləşdirilməsi üçün əhəmiyyəti vardır, çünki hələlik onun ümumi qəbul olunmuş səviyyəsi yoxdur. Lakin istənilən halda 50% səviyyəsində göstərici həddi məqbul (kafi) sayıla bilər.

Bank kreditlərinin depozitlərə nisbətinin əmsalı daha mühümlərə aid edilə bilər, belə ki, bank işinin özülünü cəlb olunmuş vəsaitlər hesabına alınan və ödənilən faizlər arasındakı fərqlə mənfəət götürmək məqsədilə kreditlər vermək təşkil edir. O aşağıdakı düsturla ifadə edilə bilər:

$$К_о = \frac{Б_к}{Д}, \quad (15.4)$$

burada $К_о$ – kredit əməliyyatlarının risk əmsalı; $Б_к$ – bank kreditidir.

Bu göstərici nə qədər çox olarsa, bankın riski də o qədər çox olar, lakin onun mədaxili də artıq olur (əgər yalnız əldə olunmuş mənfəət cəlb olunmuş resurslar üzrə faizlərə və qiymətli kağızlarla əməliyyatlar üzrə və valyuta əməliyyatları üzrə itkilərin ödənilməsinə israf olunmursa). Bankların özləri əmanətçilərin və səhmdarların

MUHASIBAT.AZ

narahatçılığına səbəb olmayan, bank nəzarəti orqanlarının tələblərinə cavab verən və mənfəətin labüd səviyyəsini təmin edə biləcək kifayət qədər yüksək olan əmsal səviyyəsini müəyyən edirlər. Lakin əmsalın həcmi bankın tipindən, onun vəzifələrindən, müştərilərin strukturundan, onun orientasiyası və siyasətindən, ölkədə milli iqtisadiyyatın və siyasi vəziyyətin ümumi durumundan asılıdır. Belə düşünmək qəbul olunub ki, bu göstəricilərin 75% və daha çox olduğu banklar kredit əməliyyatlarına həddən ziyadə aludə olurlar, hərçənd daha mötəbər və dayanıqlı bankların bəzilərinin məhz belə göstəriciləri vardır, maliyyə baxımından daha az dayanıqlı banklar 45-65% göstəricilərlə xüsusi etimad qazana bilmirlər. Əmsal resursların cəlb edilməsinin və onların kredit əməliyyatlarına yönəldilməsinin nisbətini göstərir, fəqət borc alanların bankdan götürdükləri, müddəti və risk keyfiyyəti araşdırılan göstəricinin mühüm tərkib hissələri sayılan kreditlərin ödənilməsi etibarlılığını əks etdirmir.

Kredit bazarında fəal əməliyyatlar aparan banklar üçün aşağıdakı əmsallar hesablanıla bilər. *Banklardan cəlb olunmuş vəsaitlərin banklarda yerləşdirilməsi əmsalı* pul bazarından vəsaitlər cəlb edən bankın bunları yenidən yerləşdirmə yolu ilə bazar dövranına nə dərəcədə qaytardığını göstərir, yəni

$$K_p = \frac{C_п}{C_p}, \qquad (15.5)$$

burada K_p – yerləşdirmə əmsalı; $C_п$ – digər banklardan cəlb olunmuş resurslar; C_p – digər banklarda yerləşdirilmiş resurslar.

Göstəricinin yüksək səviyyəsi onu sübut edir ki, cəlb olunmuş vəsaitlərlə yerləşdirilmiş vəsaitlərin balanslaşdırılması banklara imkan verir ki, cəlb olunmuş banklararası depozitlərin (kreditlərin) vaxtında qaytarılması üzrə öz öhdəliklərini nisbətən asanlıqla ödəyə bilsinlər. Amma bu əmsal nə valyuta barəsində, nə də sövdələrin müddəti

MUHASIBAT.AZ

haqqında heç bir informasiyaya malik olmurlar, hərçənd banklar rahatlıqla qısamüddətli resursları cəlb edə, eyni zamanda onları daha uzunmüddətli yerləşdirə bilərlər. Bu, əməliyyatların mədaxilliliyini artırır, fəqət bankların mövqelərini ciddi şəkildə zəiflədir.

Bank balansının aktiv və passivlər üzrə bu əməliyyatlarının həcmi arasında böyük fərqin olduğu halda (aktivlərin məbləği passivlərin məbləğindən xeyli azdır) aydın olur ki, bank kreditlərin çox hissəsini öz müxbirlərindən cəlb etdiyi vəsaitlər hesabına təqdim edir. Bu halda vəsaitlərin cəlb edilməsi və yerləşdirilməsi müddətləri haqqında sual yaranır. Cəlb olunmuş vəsaitlərin qiyməti yüksək olduğu zaman banklar birinci dərəcəli müştəriləri müvafiq depozitlərin müddətinə uyğun gələndən artıq müddətə kreditləşdirməyə cəhd göstərmirlər. Bu, ona görə edilir ki, cəlb olunmuş resurslar üzrə ödənilən faizlərlə verilən kreditlər üzrə stavka arasında kifayət qədər fərqin yaradılması təmin olunsun.

Banklardan cəlb olunmuş resursların səhmdar kapitala olan əmsalı aşağıdakı kimi müəyyənləşdirilir:

$$К_{з} = \frac{С_{п}}{К_{а}}, \qquad (15.6)$$

Burada $К_з$ – digər banklardan resursların cəlb olunması əmsalı; $К_а$ – bankın səhmdar kapitalı.

Bu əmsal ssuda bazarında fəal işləyən banklar üçün vəsaitlərin cəlb olunmasının indikatoru rolunu oynayır. Bir qayda olaraq, belə resursların məbləği səhmdar kapitalından xüsusilə o zaman dəfələrlə artıq olur ki, cəlb olunmuş depozitlər üzrə öhdəliklər digər banklarda yenidən yerləşdirilməmiş olsun və müştərilərin ortamüddətli kreditləşdirilməsinə sərf olunmuş olsun.

«Riskli» aktivlərin səviyyəsinin potensial əmsalının əsas məqsədi riskli aktivlərin həcminin, banka öz tələblərinin ödənilməsində

MUHASIBAT.AZ

üstünlüyə malik olan əmanətçilər və digər kreditorlar qarşısında öhdəliklərini ödəmək imkanı verən, lazımi qədər azaldılmasını müəyyənləşdirməkdir, yəni

$$К_с = \frac{А_р}{О_{кп.}}, \qquad (15.7)$$

burada $К_с$ – «riskli» aktivlərin səviyyəsinin azaldılması əmsalı; $А_р$ – riskli aktivlərdir.

Bu əmsalın hesablanılması zamanı bank aktivləri əsas etibarilə ehtiyat aktivlərə və ya bankın likvidliyinin təmini ilə tam bağlı aktivlərə, minimal riskli aktivlərə və ya likvidliyin təmin olunmasına xidmət edən aktivlərə, riskli aktivlərə və ya bankın normal fəaliyyəti üçün zəruri olan və kifayət qədər mənfəət almağa orientasiya olunmuş aktivlərə paylaşdırıla bilər. Həcmi əvvəlcədən müəyyənləşdirilə bilən göstərilən göstəricinin hesablanılması üçün əksər hallarda minimal riskli yeganə aktiv hökumətin qiymətli kağızlarına investisiyalar ola bilər (beş il müddətinədək). «Riskli» aktivlərin əsas hissəsinin bankların kredit əməliyyatlarına və veksellərin uçotuna düşməsindən, bu göstəricinin əsasında belə əməliyyatlar portfelinin keyfiyyəti haqqında informasiya əldə etmək olar. Belə məlumatlar yalnız analiz edilən bankın, auditorların məruzələri hesaba alınmaqla, kredit siyasəti və kredit portfelinin diqqətlə öyrənilməsi nəticəsində əldə etmək olar.

Depozitlərin götürülməsi (çıxarılması) əmsalı depozitlərin və qısamüddətli kreditlərin ümumi məbləğinin əsasən likvid aktivlərin və minimal risk dərəcəli aktivlərin ödənilmə səviyyəsinin təyin olunması məqsədilə müəyyənləşdirilir. Həmin əmsalı belə ifadə etmək olar:

$$К_и = \frac{А_{п.л.}}{Д_с}, \qquad (15.4)$$

MUHASIBAT.AZ

burada $К_{и}$ – depozitlərin çıxarılması əmsalı; $А_{п.л.}$ – əsas etibarilə likvid aktivlər (qanunvericiliklə müəyyənləşdirilmiş ehtiyatların tutulmasından sonra nəqdiyyatın və minimal risk səviyyəli aktivlərin məbləği); $Д_{с}$ – bankın öhdəlikləri (depozitlərin axının ödənilməsi üçün qanunvericilik tərəfindən müəyyənləşdirilmiş ehtiyatların çıxarılmasından sonra depozitlərin və digər kreditorların qısamüddətli ssudalarının məbləği).

Bu düsturla müəyyənləşdirilmiş və faizlə ifadə olunmuş əmsal, həmin likvidlik səviyyəsində bank üçün mümkün olacaq depozitlərin çıxarılması və qısamüddətli kreditlərin tam ödənilməsi səviyyəsini əks etdirir.


Müəyyən dövr üzrə əvvəllər nəzərdən keçirilmiş bütün göstəricilərin eyni bank sisteminin digər banklarının analoji göstəriciləri ilə müqayisə edilməsi zamanı öyrənilən bankın likvidliyinin səviyyəsi və meyarları barədə kifayət qədər etibarlı təsəvvür əldə etmək olar. Bir sıra inkişaf etmiş iqtisadiyyatlı ölkələrdə banklar borcludurlar ki, likvidlik əmsalını *likvidlik norması* adlandırılan müəyyən səviyyədən aşağı salmasınlar. Bəzi ölkələrdə likvidlik norması bank nəzarəti orqanları tərəfindən, digərlərində isə bank qanunvericiliyi tərəfindən təyin edilir. Onların həcmi yığılmış iş təcrübəsi və konkret yerli şəraitin nəzərə alınması ilə müəyyənləşdirilir.

Bankın likvidlik səviyyəsinin qiymətləndirilməsi konkret bankın likvidlik əmsalının qiymətinin müəyyən olunmuş normalarla (likvidliyin minimal yol verilən normativ qiymətlərinin müxtəlif qiymətləri vardır) tutuşdurulması yolu ilə nail olunur. Likvidliyin tələb olunan lazımi səviyyədə saxlanılması bank tərəfindən passiv və aktiv əməliyyatlar sahəsində yeridilən maliyyə-pul bazarının konkret şəraitinin, müştərinin spesifikasının, yeni bazarlara çıxa bilmək imkanlarının və bank xidmətlərinin inkişafının nəzərə alınması ilə işlənilib hazırlanmış müəyyən siyasətin köməkliyi ilə əldə edilir.

MUHASIBAT.AZ

Bank işlərinin təhlükəsiz və likvidli aparılması məqsədilə mərkəzi banklar likvidlik, öz kapitalının kafiliyi və Bazel sazişinin standartlarına yaxın olan böyük risklər, habelə bu göstəricildərin hesablanması üçün hesabat formaları sahəsində kommersiya banklarının fəaliyyətini tənzimləyən qaydalar tətbiq edirlər.

MUHASIBAT.AZ



Şəkil 15.2. Kapitalın və likvidliyin kafiliyinin qarşılıqlı təsiri

Göründüyü kimi, bankın risk dərəcəsinə çəkilmiş öz aktivlərinə nisbətdə onun *öz kapitalının kafiliyi* (şəkil 15.2) kimi anlayış likvidliklə bağlıdır. Xarakterik haldır ki, əvvəllər bank nəzəriyyəsində və

MUHASIBAT.AZ

praktikada kapitalın kafiliyi əvəzinə kommersiya bankının ödəməqabilliyi anlayışından istifadə olunurdu və bu zaman kommersiya bankının lazımi müddətdə və tam həcmilə öz öhdəlikləri üzrə bütünlüklə hesablaşması qabiliyyəti başa düşülürdü. Bu zaman likvidlik bankın ödəməqabilliyinin əsasında durur, belə ki, onun planlaşdırılmamış öhdəliyi təmin etmək qabiliyyəti bilavasitə bankın nə dərəcədə tezliklə öz aktivlərini pula çevirə bilməsindən asılıdır.

Lakin kapitalın kafiliyi təkcə bankın balansının likvidliyindən deyil, həm də bir sıra digər amillərdən asılıdır ki, onlara da aşağıdakıları aid etmək olar: ölkədəki siyasi və iqtisadi vəziyyət, maliyyə-pul bazarının durumu, mərkəzi bankda təkrarmaliyyələşdirmənin mümkünlüyü, bank və girov qanunvericiliyinin mövcudluğu və təkmilləşdirilməsi, kommersiya bankının öz kapitalı ilə təminatlılığı, müştərilərin və partnyor bankların etibarlılığı, bankda menecmentin səviyyəsi, kommersiya bankının ixtisaslaşması və rəngarəngliyi.

Yuxarıda adları çəkilən amillər birbaşa və ya dolayısı yolla bankın öz kapitalı ilə təminatlılığına təsir göstərir, eləcə də bir-birləri ilə müəyyən qarşılıqlı əlaqədə olurlar. Mərkəzi banklar da öz növbəsində kommersiya banklarının öz kapitallları ilə təminatlılığını

- kommersiya bankının öhdəliklərinin məhdudlaşdırılmasının təyin olunması;
- bir borc alanın borcu həddinin müəyyənləşdirilməsi;
- iri kreditlərin verilməsinə xüsusi nəzarətin tətbiq edilməsi;
- kommersiya bankının təkrarmaliyyələşdirmə və cəlb olunmuş vəsaitlərin bir hissəsinin mütləq ehtiyatlandırılması sisteminin yaradılması;
- əsaslandırılmış faiz siyasətinin aparılması;
- açıq bazarda qiymətli kağızlarla əməliyyatların həyata keçirilməsi yolu ilə tənzimləyirlər.

MUHASIBAT.AZ

Kapitalın kafiliyinin müəyyənləşdirilməsinin zəruriliyi onunla bağlıdır ki, müasir kommersiya bankları öz passivlərində nəinki təkcə öz kapitallarına, həm də xeyli borc vəsaitlərə malik olurlar. Bundan əlavə, onların maliyyə hesabatında təqdim olunmayan və balanlaşdırılmış öhdəlik adlandırılan kifayət qədər böyük potensial öhdəlikləri olur. Sonunculara akkreditivlər və «svoplar», «tavanalar» və «döşəmələr» haqqında sazişlər üzrə öhdəliklər aiddir. Bu halda bankın potensial ödəməqabiliyyətsizliyi mümkünlüyünün aradan qaldırılması zərurəti ilə bağlı öz kapitalının kafiliyi problemi meydana çıxır.

Xarakterik haldır ki, 1981-ci ilə kimi dünya bank praktikasında kapitalın kafiliyinə dair vahid siyasət yox idi. 1988-ci ilin iyulunda əsasına risk və kapital haqqında müddəaların qoyulduğu risk kapitalı haqqında Bazel sazişi işlənilib hazırlanmış və qəbul olunmuşdu.

Bazel sazişi ona əsaslanır ki, bazar qüvvələri kapitalın kafiliyi əmsalını optimal səviyyəyə çatdırmağa qadir deyil və buna görə də onun tənzimlənilməsi labüddür. Bankın öz kapitalı, bankın investisiya portfeli və ya onun balanlaşdırılmış fəaliyyəti ilə bağlı meydana çıxmış (xüsusilə də əvvəlcədən proqnozlaşdırılmayan) məsrəfləri ödəməlidir. Bazel sazişində kredit riski nəzərə alınır, amma faiz stavkaları riski və valyuta riski nəzərə alınmır. Bazel sazişi riskin beş kateqoriyasını müəyyənləşdirir: 0, 10, 20, 50 və 100%. 100% kateqoriya riskin standart kateqoriyası sayılır. Kapitalın kafiliyi riskin qarşısının alınması məqsədilə bank fəaliyyətinin tənzimlənilməsində və bank sisteminin dayanıqlığının təmin olunmasında ilkin müqəddəm məqamdır. *Öz kapitalının kafiliyi normativi* aşağıdakı qaydada müəyyən edilir:

$$Н_{д.к.} = \frac{К_{с}}{А_{с.р.}}, \qquad (15.9)$$

MUHASIBAT.AZ

burada $Н_{д.к.}$ – öz kapitalının kafiliyi normativi; $К_с$ – öz kapitalı; $А_{с.р.}$ – risk dərəcəsinə görə dəyərləndirilmiş aktivlər (bankın aktivlərinin ümumi məbləğinə bərabərdir ki, onların da dəyəri bu və ya digər risk kateqoriyasına və bütün balanlaşdırılmış əməliyyatların kredit konversiya ekvivalenti məbləğinə aid edilir ki, burada hər bir kredit ekvivalentin məbləği bu və ya digər risk kateqoriyasına aid edilir).

Kapitalın kafiliyi normativinin mühümlüyünü nəzərə alaraq və kapitalın kifayət qədər miqdarda olmadığı halda və ya onun ümumiyyətlə olmadığı halda (əgər risk normaları buna imkan verirsə) bankların əməliyyat aparmalarına yol verməmək məqsədilə ABŞ-ın bank fəaliyyətini tənzimləyən orqanları 3% həddində *leverje* əmsalı kimi adlandırılan mütləq minimal normativ tətbiq etmişdir ki, o da aşağıdakı qaydada müəyyən olunur:

$$К_{л} = \frac{К_{п}}{А_{с.н.}}, \qquad (15.10)$$

burada $К_{л}$ – leverja əmsalı; $К_{п}$ – birinci səviyyə kapitalı (baza kapitalı); $А_{с.в.}$ – qeyri-maddi aktivlərin çıxılmasından sonra qalan yekun aktivlər.

ABŞ-da normativ tələblərə uyğun olaraq aktivlər ən az risklidən ən çox riskliyədək dörd kateqoriya üzrə təsnif olunur:

- ABŞ hökumətinin və onun təsisatlarının nəqdiyyatı və birbaşa borcları – 0 risk faizi;
- daxili depozit müəssisələrinin iddiası və ABŞ hökuməti tərəfindən şərti qarantiya olunmuş borclar – 20%;
- 1-4 ailə evi ilə girovla yığılmış və ilk və adi girov kağızı və qiymətli kağızlarla, habelə maliyyələşdirilən layihələrdən gələn gəlirlə təmin edilən istiqrazlarla təmin olunmuş ssudalar – 50% risk;
- digər aktivlər – 100% risk.

MUHASIBAT.AZ

Risk dərəcəsi faizlə ifadə olunan və balansda olan hər bir aktivin tam dəyərinə nisbətdə, eləcə də balanlaşdırılmış əməliyyatların kredit ekvivalentinə tətbiq edilən həcmdən ibarətdir. Öz növbəsində ABŞ-da 1989-cu ildə qeydiyyata alınmış kapitalın kafiliyinə normativ tələblər aşağıdakılardan ibarət idi:

- baza kapitalının (adi səhmləri, müddətsiz imtiyazlı səhmləri və konsolidasiya olunmuş törəmə şirkətlərin qeyri-maddi aktivlər istisna edilməklə nəzarət olunmayan səhmlər paketinin daxil olduğu birinci dərəcə kapitalı) və yardımçı kapitalın (birinci dərəcə kapitalın 100% həcmini və digər imtiyazlı səhmlərin, investisiya xarakterli hibrid instrumentlərin və subordinasiya borcunun da daxil olduğu həddi keçməyən (məhdudlaşdırılmış) ikinci dərəcə kapitalın) tərkibi müəyyən edilir;
- balans aktivləri risk dərəcəsinə görə təsnif olunur (risk dərəcəsinə görə çəkilmiş bütün balans aktivlərinin məbləğindən və balanslaşdırılmış əməliyyatlar üzrə risk dərəcəsinə görə çəkilmiş kredit ekvivalenti məbləği;
- risk dərəcəsi üzrə balanslaşdırılmış maddələr təsnif edilir (balanslaşdırılmış risklər reqresslə satılmış akkreditivlərlə, aktivlərlə, ssudaların verilməsi haqqında formal öhdəliklərlə bağlıdır və onlar kredit ekvivalentləri üzrə aktivlərə daxil edilirlər və bunun üçün balanslaşdırılmış risklərin hər biri (0, 20, 50 və ya 100%) borclunun, qarantın nəzərə alınması ilə çəkilir və təminolunma növünə görə müvafiq risk kateqoriyasına aid edilir);
- kapitalın kafiliyini müəyyənləşdirmək üçün əmsallar təyin olunur.

Öz kapitalının likvidliyi və kafiliyi əmsalı kommersiya bankının maliyyə dayanıqlığının və öz itkilərini azaltmaq və mədaxilini artırmaq məqsədilə iqtisadiyyat və qanunvericilikdə baş verən bütün

MUHASIBAT.AZ

dəyişikliklərə həssaslıqla reaksiya vermək imkanlarının müəyyənləşdirilməsində mühüm rol oynayır. Ona görə də kommersiya bankının likvidliyi və öz kapitalının kafiliyinin idarə olunması üzrə işi bankın özünü saxlamasına yönəldilibdir ki, onun da şərtləri həmin əmsallar sahəsində normativ tələblərin yerinə yetirilməsidir.

Özünü yoxlama üçün suallar

1. Kommersiya bankı nə deməkdir?
2. Kommersiya bankının fəaliyyətinin əsas məqsədi nədir və buna hansı yolla nail olunur?
3. Kommersiya bankının fəaliyyəti hansı prinsiplərə əsaslanır?
4. Müasir kommersiya bankı hansı funksiyaları yerinə yetirir?
5. Kommersiya bankı hansı əməliyyatları yerinə yetirir və bunlar nədən ibarətdir?
6. Müasir kommersiya bankının əməliyyatlarında yeni nə baş verir?
7. Kommersiya bankının balansı nədir?
8. Kommersiya bankının balansının analizi nə üçün lazımdır?
9. Kommersiya bankının likvidliyi nədən ibarətdir?
10. Hansı likvidlik nəzəriyyələri mövcuddur və onlar nədən ibarətdir?
11. Bankın likvidliyini hansı əsas əmsallar xarakterizə edir?
12. Kommersiya bankının öz kapitalının kifayətliyinin müəyyənləşdirilməsi nə üçün lazımdır?
13. Aktivlərin risklər dərəcəsi üzrə ölçülməsi nə ilə şərtlənir?
14. Kommersiya bankının öz kapitalının kifayətliyinə hansı makroiqtisadi amillər təsir edir?

MUHASIBAT.AZ

15. Mərkəzi bank hansı yolla kommersiya bankının öz kapitalının kifayətliyinə təsir edə bilər?

MUHASIBAT.AZ

16. BANK FAİZİ

16.1. Faizin, onun mahiyyətinin və növlərinin xüsusiyyətləri

Faiz borc alanın borc gütürdüyü pul kapitalına görə kreditora ödədiyi mənfəətin bir hissəsidir. Faiz ssuda kapitalının «qiymətinin irrasional forması» kimi müəyyən olunur və onun mənbəyi kimi ssuda kapitalının səmərəli istifadəsi prosesində yaranan izafi dəyər çıxış edir. Ssuda kapitalının istifadəsi zamanı əldə edilən mənfəətin ssuda kapitalı tərəfindən mənimsənilən faizə və məxsusi olaraq borc alanın əldə etdiyi mənfəətə – sahibkar gəlirinə bölünməsi ssuda kapitalları bazarındakı tələb və təklifin təsiri altında baş verir. Beləliklə, faiz kreditorla borc alan arasındakı münasibətləri ifadə edir və müəyyən faiz dərəcəsi kimi çıxış edir.

Faiz iqtisadi kateqoriya kimi öz fəaliyyət sahəsinə malikdir və müvafiq funksiyalar yerinə yetirir. Yenidən bölüşdürmə funksiyası – bank idarələrinin faiz gəlirlərinin formalaşdırılmasının əsasını təşkil edən faiz vasitəsilə gəlirlərin bir hissəsinin təsərrüfat subyektləri və əhali arasında birincilərin yaxud ikincilərin xeyrinə yenidən bölüşdürülməsidir. Faizin tənzimləyici funksiyası ssuda fondunun sahələr, təsərrüfat subyektləri və əhali arasında bölüşdürülməsi yolu ilə istehsalata tənzimləyici təsir göstərir, habelə pul-kredit siyasəti vasitələri sistemində istifadə olunur. Faizin üçüncü funksiyası ssuda fondunun saxlanılması ilə bağlıdır. Bu zaman kredit ehtiyatlarının ilkin həcmi saxlanılmaqla yanaşı, onun yerləşdirilmiş və cəlb edilmiş resurslara görə faizlər arasındakı fərq hesabına artması da baş verir.

Faiz dərəcəsi ssuda kapitalından istifadənin konkret şərtlərinə müvafiq müəyyən edilir və mərkəzi bank tərəfindən pul və kredit tənzimlənməsinin obyekti kimi çıxış edir. Faiz dərəcələrinin miqdarı pul kapitalının digər ölkələrin pul bazarlarından daxili bazara axmasına, yaxud daxili bazarı tərk etməsinə səbəb olur. Ona görə də belə bazarlarda pul kapitalının sürətlə hərəkət etmə qabiliyyəti çox yüksəkdir, onun müxtəlif milli pul bazarları

MUHASIBAT.AZ

arasındakı hərəkəti isə faiz dərəcələrində əks olunur. Faiz arbitrajı müxtəlif milli faiz dərəcələrinin bərabərləşdirilməsi üçün texniki vasitə kimi çıxış edir. Lakin pul vəsaitlərinin hərəkəti yalnız faiz arbitrajı ilə deyil, əsasən valyuta kurslarının dəyişməsi ilə müəyyən olunur.

Klassik təsəvvürlərə uyğun olaraq, faiz dərəcələrinin dəyişməsi mənfəət normasının təsiri altında baş verir. Faktiki olaraq isə dərəcələrin səviyyəsi ssuda kapitalına olan tələb və təklifdən asılı olaraq müəyyən edilir. Öz növbəsində, tələb və təklif bir çox amillə müəyyən edilir: iqtisadiyyatın inkişaf fazası, dövlətin iqtisadiyyata təsirinin dərəcəsi, mərkəzi bankların siyasəti, xarici amillər və s.

Bəzi amillər də tələb və təklifdən daha çox faiz dərəcələrini miqdarına təsir göstərir. Onlara inflyasiyanın gözlənilən templərini, kredit risklərini, vergiləri, valyuta kursunun hərəkətini və s. aid etmək olar.

İnkişaf etmiş bazar iqtisadiyyatına malik dövlətin təcrübəsi göstərir ki, müasir şəraitdə faiz dərəcələrinin hərəkəti birmənalı səciyyə daşımır. Ona görə də faiz dərəcələrinin qeyd edilən iqtisadi amillərlə əlaqəsi haqqında artıq formalaşmış təsəvvürlər sistemli şəkilə təsdiq olunmur. Belə ki, Qərbi Avropa ölkələrinin müasir pul-kredit sisteminin xüsusiyyəti ondadır ki, faiz dərəcələrinin əmanətçilərin əmanətlərinin real dəyərini saxlamaq məqsədi ilə inflyasiyanın səviyyəsinə müvafiq tənzimlənməsi orta mənfəət normasının azalma tendensiyasına qarşı çıxır, həmçinin faiz dərəcəsi maliyyə əməliyyatının gəlirlilik səviyyəsinin göstəricisi kimi çıxış edir.

Mərkəzi banklar tərəfindən müəyyən edilən faiz (uçot) dərəcələri daxili və xarici iqtisadi siyasətin həyata keçirilməsində istifadə edilən ən mühüm vasitələrdən biridir. Ona görə də pul bazarındakı dərəcələrin əsasını rəsmi (qeyd edilən) uçot dərəcəsi və ya mərkəzi bankın əməliyyatları üzrə cari dərəcələr təşkil edir. Bu dərəcələr pul bazarının digər dərəcələrindən demək olar ki, hər zaman aşağıdır. Çünki mərkəzi bank tərəfindən kommersiya veksellərinin uçotu üzrə əməliyyatlar risklə əlaqədar deyil.

MUHASIBAT.AZ

Kommersiya bankları öz ölkələrinin mərkəzi banklarında qəbul edilmiş uçot dərəcələrinə əsaslanaraq, faiz dərəcələrini müəyyən edir. İri banklar birinci dərəcəli borc alanlara təqdim edilən ssudalar üzrə minimal və ya ən yaxşı dərəcələri müəyyən edir. Bank müştərilərinin əmanətləri üzrə faizlər faiz dərəcələri strukturunda mühüm əhəmiyyət kəsb edir. Bankların öz müştərilərinə ödədiyi faizlər kreditlər üzrə ödənilən faizlərdən xeyli aşağıdır (bu fərq hesabına bank mənfəətinin ən başlıca mənbələrindən biri – faiz marjası formalaşır).

Kredit bazarının kifayət qədər inkişaf etməməsi kommersiya banklarının faiz siyasətinin açıq ifadə olunmuş fərdi xarakter alması ilə nəticələnir. Bu o deməkdir ki, bankların növündən və ölçüsündən, yerləşdiyi ərazidən, müştərilərindən və digər subyektiv səbəblərdən asılı olaraq, banklar üzrə faiz dərəcələri bir-birindən kəskin şəkildə fərqlənir.

Xarici və daxili amillər də faiz dərəcəsinə təsir edir. Kredit bazarının vəziyyəti, vergiqoyma mexanizmi də daxil olmaqla, kommersiya banklarının fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsi xarici amillərə aiddir. Ssuda alanın xarakterindən, ssudanın növündən, istifadə müddətindən və həcmindən asılı olaraq, resursların yerləşdirilməsi üzrə risk dərəcəsinin bank tərəfindən müəyyən edilməsi başlıca daxili amildir.

Kommersiya banklarının faiz siyasətinin əsasını mərkəzi bankın pul-kredit siyasəti təşkil edir. Mərkəzi bank birbaşa (direktiv) və vasitəli tənzimləmə üsullarından istifadə etməklə, kommersiya banklarının faiz dərəcələrinin səviyyəsinə təsir edir.

Birbaşa tənzimləmə üsullarına faiz dərəcələrinin yuxarı həddinin məhdudlaşdırılmasını, ssuda və depozit faizləri arasında fərqin müəyyən edilməsini və s. aid etmək mümkündür. kommersiya banklarının aktiv (passiv) əməliyyatları üzrə faiz dərəcələrinin həddinin mərkəzi bank tərəfindən birbaşa tənzimlənməsi (müəyyən edilməsi) kredit resursları bazarında rəqabətin güclənməsinə, onların cəlb edilmə imkanının məhdudlaşdırılmasına, nizamnamə kapitalının artmasına, riskli kreditlərin azalması hesabına verilən

MUHASIBAT.AZ

kreditlərin həcminin azalmasına, birinci dərəcəli borc alanlara verilən kreditlər üzrə faiz dərəcələrinin artmasına gətirib çıxara bilər.

Faiz dərəcələrinin səviyyəsinə vasitəli təsirin ən kəsərli vasitələri aşağıdakılardır: mərkəzi bankın minimal ehtiyat tələblərinin həcmi, kommersiya banklarına təqdim olunan kreditlərin həcmi, şərtləri və bazar qiyməti, likvidlik normativləri, kommersiya banklarından vergitutma mexanizmi. Vergitutma dərəcələrinin dəyişdirilməsi faiz dərəcələrinin səviyyəsinə bilavasitə təsir edir, yəni dvergi dərəcələri artdıqca, kreditə görə faiz dərəcələri də artır və əksinə. Mərkəzi bankın mütləq ehtiyatlarının normalarının artması kreditə görə faiz dərəcələrinin artmasına gətirib çıxarır.

Faiz pul ödənişi şəklində çıxış edir və pul dövriyyəsinin, kommersiya hesablaşmanın inkişafının tənzimlənməsi vasitəsi kimi istifadə olununr və borc alana və kreditora iqtisadi təsir vasitəsi kimi çıxış edir. Bu zaman kreditə görə faizin aşağıdakı əsas növlərini göstərmək olar (cədvəl 16.1).

Müasir pul nəzəriyyələri real və nominal faiz dərəcələrini fərqləndirirlər. İnflyasiya templəri üzrə təshih edilmiş nominal dərəcələr real faiz dərəcələri hesa olunur.

Cədvəl 16.1

Kredit faizlərinin əsas növləri

Məzmununa görə	Faiz dərəcələrinin təyin olunması üsuluna görə	Alınma üsullarına görə
Hesabaalma	Təsbit edilmiş	Birdəfəlik
Depozit	Üzən	Dövri
Ssuda	Bazis	
	Diskont	

İnkişaf etmiş bazar iqtisadiyyatına malik ölkələr üçün faiz dərəcələrinin çoxluğu xasdır. Həmin faiz dərəcələrinin əsasını kommersiya banklarının yenidən maliyyələşdirmə məqsədi ilə istifadə etdiyi, ən yayılmış və likvid olan qısamüddətli əməliyyatlar üzrə dərəcələr təşkil edir. Faiz dərəcələrinin miqdarı

MUHASIBAT.AZ

və sabitliyi kredit idarəsinin maliyyə vəziyyətindən, pul kapitalları bazarının vəziyyətinə təsir edən konyunktur dəyişikliklərindən və s. asılıdır. Şəraitdən asılı olaraq, faiz dərəcələri hətta il ərzində belə dəfələrlə dəyişir (azalır və ya artır). Belə ki, inkişaf etmiş dövlətlərdə yay mövsümündə faiz dərəcələrinin azalması tendensiyası kreditə olan tələbin bu dövrdə azalması ilə bağlıdır. Eyni zamanda faiz dərəcələrinin ilin sonuna yaxın dəyişmədən artması milad şənliklərinin yaxınlaşmasından, hədiyyə almaq zərurətindən xəbər verir, nəticədə kreditə olan tələb artır.

Faiz dərəcəsi faiz dərəcələrinin səviyyəsinin və dinamikasının tənzimlənməsi ilə ifadə olunur. Açıq iqtisadiyyat şəraitində faiz dərəcələrinin səviyyəsi və dinamikası ölkədəki işgüzar fəallığın dərəcəsini, inflyasiya templərini, kredit bazarındakı gərginliyi və xarici amillərin təsirini əks etdirir.

Faiz siyasəti bank fəaliyyətinin tənzimlənməsinin ən mühüm və eyni zamanda kifayət qədər mürəkkəb vasitələrindən biridir. Faiz dərəcələri şkalasının qurulmasının əsas prinsipləri kredit ehtiyatlarına olan tələb və təklifin vəziyyətindən, depozitlərin saxlanılma müddətindən və miqdarından, habelə inflyasiya templərindən və s. irəli gəlməlidir.

Demək olar ki, bütün dövlətlərdə faiz siyasəti dövlət tərəfindən tənzimlənir. Bazar iqtisadiyyatına malik olan əksər ölkələrdə əmanətlər üzrə faizlərin müəyyən edilməsi prosesinin «sərbəst buraxılmasına» baxmayaraq (banklar faizlərin formalaşdırılmasında sərbəstdirlər), rəsmi, uçot dərəcəsinin, kəmiyyət məhdudiyyətlərinin (dərəcələrin yuxarı həddinin müəyyən edilməsi, kredit verənin birbaşa məhdudlaşdırılması, faiz dərəcələrinin vaxtaşırı «dondurulması») faizlərdən gələn gəlirlərdən vergitutmanın və s. müəyyən edilməsi yolu ilə vasitəli tənzimləmə baş verir.

Faiz dərəcələrinin formalaşdırılmasının bazar prosesi kifayət qədər mürəkkəbdir. Bazar kəmiyyəti kimi, faizin orta səviyyəsi də pula olan tələb və təklifdən, pul bazarının inkişafından, azad pul mənbələrindən (onların azad olma müddəti baxımından), vəsaitləri borc alanlardan (onların krediti ödəmə

MUHASIBAT.AZ

qabiliyyətindən, borc götürülmüş vəsaitləri qaytarma baxımından etibarlılığından) və digər amillərdən asılıdır.

Faiz dərəcələri siyasəti nəticəsində üç əsas məqsədə nail olmaq mümkündür:

- kreditlərə mötədil aşağı faiz dərəcələrini müəyyən etməkləiqtisadiyyatın inkişafına yardım etmək;
- inflyasiyanı dayandırmaq;
- mötədil şəkildə artırılmış faiz dərəcələrini müəyyən etməklə valyuta bazarlarında milli valyutanın sabitliyini təmin etmək.

Birinci məqsəd pul bazarında faiz dərəcələrinin azaldılmasını, ikinci və üçüncü məqsədlər isə onların artırılmasını ödəyir. Bu ziddiyyət iqtisadiyyatın prioritet istehsal sahələri və sektorları xeyrinə seçmə siyasətin aparılması hesabına qismən həll edilir. Bu halda faiz dərəcələri siyasətinin tənzimləyici funksiyaları əmanət və investisiyaların, habelə işgüzar fəallığın səviyyəsinin tənzimlənməsi və inflyasiyanın səviyyəsinə təsir şəklində təzahür edir.

Hal-hazırda kreditin xarakteri və müddətindən, kredit vermə obyektindən, borc alanın ödəmə qabiliyyətindən və s. asılı olaraq, faiz dərəcələrinin bir çox növü mövcuddur. Məsələn, rəsmi uçot (diskont) dərəcəsini, pul və maliyyə bazarlarının dərəcəsini, bank kreditiv ə qiymətli kağızlara üzrə faizi, debitor və kreditor dərəcələrini göstərmək mümkündür.

Faiz dərəcələrinin müxtəlif növləri arasında müəyyən əlaqə və qarşılıqlı əlaqə mövcuddur. Belə ki, pul bazarının qısamüddətli kreditlərlə bağlı dərəcələri əsas bank dərəcəsində bilavasitə əks olunur. Banklar qeyd edilən bank dərəcəsi əsasında təqdim edilən ssudaların qiymətini müəyyən edir. Həmin ssudalar borc alanların növləri üzrə fərqləndirilir. Bununla belə qısamüddətli və uzunmüddətli kreditlər arasındakı asılılıq iri və orta müəssisələr şərtləndirdiyindən üçün daha böyük əhəmiyyət kəsb edir, çünki onların investisiya siyasətinə səbəb olur. Pul bazarında dərəcələrin dəyişdirilməsi hökumətin iqtisadi siyasətindən asılı olduğundan, mərkəzi bank həmin bazarda həm kreditor, həm də kredit ehtiyatlarının borc alanı kimi çıxış

MUHASIBAT.AZ

edir. Bununla mərkəzi bank kredit ehtiyatlarına olan tələb və təklifin nisbətinə və müvafiq olaraq pul bazarının faiz dərəcələrinin səviyyəsinə təzyiq göstərə bilər.

Faiz dərəcəsinin formalaşmasına müasir yanaşmalar faktiki olaraq dörd klassik faiz nəzəriyyəsinə əsaslanır. Həmin nəzəriyyələrin əsası K. Viksel, İ. Fişer, C.M. Keyns və D. Hiks tərəfindən qoyulmuşdur.

K. Vikselin fikrincə, faiz dərəcələrinin iki növü mövcuddur. Onlar faizin təbii və pul normaları ilə müəyyən olunur.

Faizin təbii norması kapitalın proqnozlaşdırılan son səmərəliliyinə bərabərdir. Qeyd edilən səmərəlilik kredit şəklində cəlb edilmiş kapitalın əlavə vahidlərinin tətbiqindən əldə edilən gəlirin artması ilə müəyyən edilir. Faizin pul norması (faizin bazar dərəcəsi) ssuda kapitalına olan tələb və təklifin qarşılıqlı əlaqəsinin nəticəsi kimi müəyyən edilir. Faizin qeyd edilən normalarının qarşılıqlı əlaqə mexanizmi belədir: pul dərəcəsi təbii dərəcədən uzaqlaşmağa başlayan kimi faiz kapitalın həcminin və hərəkət istiqamətinin dəyişməsinə səbəb olmaqla, öz fəal rolunu oynamağa başlayır. Lakin bu faiz nəzəriyyəsinin nöqsan cəhəti ondadır ki, burada faizin təbii normasını müəyyən etmək və onu pul dərəcəsi ilə əlaqələndirmək çətindir.

İ. Fişer faiz dərəcəsi nəzəriyyəsini aşağıdakıların istifadə edilməsi ilə əsaslandırırdı:

- birincisi, iqtisadi subyektlərə «zaman etibarilə üstünlük verilməsi», bu, kreditlərlə bağlı həyata keçirilən əməliyyatlar zamanı təzahür edir, çünki bəziləri yığımla, digərləri isə ssudaların götürülməsi ilə məşğuldur;

- ikincisi, ssudaların müxtəlif növ investisiyalara yerləşdirilməsinin faydası. Bu fayda «dəyərə nisbətən gəlirlilikdən asılıdır» (real dəyərə çatdırma normasına bərabərdir). İ. Fişer faizin real və nominal dərəcələrini bir-birindən fərqləndirməklə, qiymət və faiz arasında asılılığı ilk dəfə izaş etmişdir.

Real faiz zamanla dəyişikliyə məruz qaldığı üçün (yəni pulun alıcılıq qabiliyyəti dəyişdiyi üçün), nominal faizdən fərqlənir. Bu, qiymətlərin artması və pulun alıcılıq qabiliyyətinin azalması arasında asılılığın yaranmasını,

MUHASIBAT.AZ

həmçinin pulun gözlənilən qiymətdən düşməsi (proqnozlaşdırılan inflyasiya) nəzərə alınmaqla, nominal faizin təshih edilməsini nəzərdə tutur. Deməli, faizin pul (bazar) dərəcəsi bir-birinə bərabər olan iki vuran ədədə bölünməlidir, yəni

$$(1+P_n)=(1+P_r)Ç(1+İ_o), \qquad (16.1)$$

burada P_n faizin pul norması (nominal faiz), P_r faizin real norması (real faiz), $İ_o$ isə inflyasiyanın gözlənilən (proqnozlaşdırılan) səviyyəsidir.

C.M. Keyns isə hesab edirdi ki, faiz dərəcəsi yalnız pul bazarında müəyyən olunur, yəni yalnız pul amillərindən asılıdır. Ona görə də sərbəst pulun miqdarı ssuda kapitalının təklifinə uyğundur və ona mərkəzi bank, eləcə də pul siyasəti tərəfindən nəzarət olunur. Eyni zamanda iqtisadi subyektlərin likvidliyinin «üstün tutulması»nı əks etdirən pula olan tələbat iqtisadi fəaliyyət və faiz səviyyəsinin proqnozu kimi iki fundamental dəyişən kəmiyyəti özündə birləşdirir.

C.M. Keynsin modelində pul iqtisadi fəallığa münasibətdə neytral deyil, çünki faiz dərəcəsi investisiyaların əsas dəyişən kəmiyyətidir. Bu zaman faizin səviyyəsi pula olan tələbatla müəyyən edilir. Öz növbəsində, nağd pula olan tələbat motivlərini aşağıdakı kimi təsəvvür etmək mümkündür:

- sövdələşmə motivi, yəni pula olan tələbat müxtəlif kommersiya sövdələşmələri zamanı pulun ödəniş vasitəsi kimi rolu ilə müəyyən olunur;
- ehtiyat motivi, yəni xərclərin əvvəlcədən müəyyən edilməsinin qeyri-mümkünlüyü pulun qorunub saxlanılmasına səbəb olmuşdur;
- spekulyasiya motivi, yəni pulun qorunub saxlanılması ilə maliyyə aktivlərinə yatırılması arasındakı seçim, bu zaman subyektlər faizin həqiqi səviyyəsi tərəfindən deyil, onun qiymətli kağızlar bazarında gözlənilən dəyişməsi tərəfindən idarə olunur.

MUHASIBAT.AZ

D. Xiksin faiz nəzəriyyəsində faiz dərəcəsini pulun aşağıdakı funksiyaları (xüsusiyyətləri) formalaşdırır: dəyər ölçüsü, tədavül və yığım (dəyərin qorunub saxlanılması) vasitəsi. Pul həqiqətən likvid olduğundan, D. Xiks sövdələşmələrin üç mərhələsini qeyd edir: nağd pulla aparılan sövdələşmələr, müddətli sövdələşmələr və ssudalar üzrə sövdələşmələr. Xiksin gəldiyi nəticəyə görə, faizin bir neçə növü mövcuddur, onlar ssudaların müddətindən, ödəniş növlərindən və borc alanın müflislik risklərindən asılı olaraq dəyişir. Müəllif faizin yığım səviyyəsinə bilavasitə təsir etməsini mümkün hesab etsə də, faiz səviyyəsinə təsir dərəcəsinə görə real və pul amillərini bir-birindən ayırmamışdır. Ssuda kapitalı nəzəriyyəsində (C. Tobin, R. Mandell, U. Şarp və b.) qeyd edilən amilləri bir-birindən ayıraraq göstərməyə cəhd edilmişdir. Bu nəzəriyyənin müddəaları aşağıdakılardır:

- ssuda kapitalı təklifinə bank kreditləri və yığımları (maliyyə aktivləri və pul əmanətləri) daxildir;

- ssuda kapitalına olan tələb likvid vəsait və investisiyalardan asılıdır;

- ssuda kapitalına olan tələb və təklif öz aralarında faiz vasitəsilə tənzimlənir;

- pul amilləri ssuda kapitalının həcminə təsir edir, çünki sonuncu pul şəklində ifadə olunmuşdur;

- real amillər öz təsirini yalnız o zaman göstərir ki, iqtisadi subyektlərin pul yığımları maksimal mənfəət əldə etmək məqsədi ilə təşkil edilsin;

- kapitalın maksimum səmərəliliyinə meyllilik toplanılmış vəsaitlə faiz arasındakı əlaqəni izah edir.

Ssuda kapitalları nəzəriyyəsinə əsasən, iqtisadi münasibətlərin hər bir subyekti (fiziki yaxud hüquqi şəxs) aşağıda qeyd edilənlərdən hansının onun üçün daha mühüm olduğuna dair qərar verməlidir: zəruri olan əşyaya indi malik olmaq, lakin onun əldə edilməsi üçün götürülmüş kreditə görə faiz ödəmək, yaxud tələb olunan mal satın alınanadək əmanətlərdən faiz almaq. Deməli, faiz dərəcələrinin səviyyəsi zəruri qərarın qəbul edilməsinə əhəmiyyətli dərəcədə təsir edir. Odur ki, ssuda kapitalları nəzəriyyəsinin mahiyyəti ən sadə

MUHASIBAT.AZ

şəkildə belə ifadə olunur: faizin qüvvədə olan dərəcələri istənilən anda eyni qiymət kimi ifadə olunur. Bu zaman mala hal-hazırda malik olmaq istəyənlərin kreditə olan tələbatı faiz almaq istəyənin ssuda kapitalları təklifi ilə tarazlaşdırılacaq. Bu, faktiki olaraq faiz dərəcələrinin ümumi səviyyəsinin müəyyən olunmasına «klassik» yanaşmadır. Ssuda kapitallarının tələb və təklifi konkret səviyyədə olarkən bunun necə baş verdiyi şəkil 16.1-də göstərilmişdir. Bu zaman borc alınan vəsaitlərin eyni qiyməti (faiz dərəcəsi) 7□% bərabərdir. Tələb AA əyrisi, təklif isə BB əyrisi ilə göstərilmişdir.

Şəkil 16.1. Ssuda kapitalları nəzəriyyəsinə əsasən eyni qiyməti (tarazlaşdırılmış faiz dərəcəsinin) müəyyən edilməsi.

Şəkil 16.1-dən göründüyü kimi, faiz dərəcələri 5□% səviyyəsində olduqda tələb artır və faiz dərəcələri də artmağa başlayır. Faiz dərəcələrinin artması əhalini öz pullarını qənaət edib toplamağa sövq edir. Belə bir vəziyyət tələb və təklif 7% səviyyəsində bərabər vəziyyətə çatanadək davam edir. Faiz dərəcələri 9% səviyyəsində qaldıqda təklif artır və kreditorlar borc almanı təşviq etmək məqsədi ilə faiz dərəcələrini aşağı salmalı olur. Faiz dərəcələrinin aşağı salınması əhalinin ayrı-ayrı qruplarını bank idarələrindəki əmanətlərini ləğv etməyə vadar edir, nəticədə ssuda kapitallarının təklifi azalır.

Faiz dərəcəsi ssuda kapitallarının tələb və təklif səviyyələrini müəyyən edən yeganə amil deyil. Digər amillər ssuda kapitallarının tələb və təklif

MUHASIBAT.AZ

səviyyələrinə təsir göstərdikdə tarazlaşdırılmış faiz dərəcəsi dinamikasında dəyişikliklər baş verir. (şəkil 16.2).

Şəkil 16.2-dən göründüyü kimi, kredit ehtiyatlarına olan tələbatın artmasına digər amillər təsir etmişdir. Buna müvafiq olaraq tələb əvvəlki səviyyədən (AA əyrisi) daha yüksək səviyyəyə (A_1A_1 əyrisi) qalxmışdır. Bu, tarazlaşdırılmış faiz dərəcəsinin C nöqtəsindən C_1 nöqtəsinədək artmasına səbəb olmuşdur. Eyni zamanda ssuda kapitalları nəzəriyyəsi aşağıdakı sualı heç də hər zaman tam cavablandırmır: faiz dərəcələrindən başqa hansı amillər kapitala olan tələb və təklifin səviyyəsində dəyişikliklərin baş verməsinə səbəb ola bilər? Hər halda belə amillərə aşağıdakıları aid etmək olar:

1. Kredit təklifləri. Bu kreditin mənbəyi kimi sahibləri və ya bank idarələri tərəfindən bilavasitə təqdim edilən vəsaitlər çıxış edir.
2. Ölkədəki iqtisadi və ya siyasi sabitlik. Çünki pul sisteminin dağılması, yüksək inflyasiyanın meydana gəlməsi və s. səbəblərdən pul öz alıcılıq qabiliyyətini itirə bilər.
3. Kreditə olan tələb. Bu tələb faiz dərəcəsi ilə birlikdə dəyişsə də, daha az dəyişikliyə məruz qalı

Şəkil 16.2. Ssuda kapitalları nəzəriyyəsində tələbin dəyişməsi

Ssuda kapitalları nəzəriyyəsini bəzən «real» faiz dərəcələri nəzəriyyəsi adlandırırlar. Bununla nəzərdə tutulur ki, faiz dərəcələri «real» amillərlə,

MUHASIBAT.AZ

kredit vermə və ya borc alma haqqında qərar isə tamamilə məqsədəuyğundur. Bu isə hər zaman belə olmur. Bu nəzəriyyənin ən zəif cəhəti qənaət edilib toplanmış vəsaitlərin və investisiyaların səviyyələri arasında olduqca açıq və sadə əlaqənin olmasıdır. Baxmayaraq ki, ssuda kapitalları nəzəriyyəsi konkret bazarda dərəcələrin müəyyən vaxt ərzində qısamüddətli dəyişmələrinin sadə və effektiv izahını təklif edir. Ssuda kapitalları nəzəriyyəsi ilə bağlı həmçinin tənqidi iradlar mövcuddur: birincisi, faizə təsir edən amillərlə ssuda kapitalının miqdarı arasında kifayət qədər dəqiq hədd qoyulmur, ikincisi, iqtisadiyyat subyektlərinin ssuda kapitalı nəzəriyyəsindən irəli gələn davranışı yalnız maksimum mənfəətin əldə edilməsinə yönəlmişdir, üçüncüsü, ssuda kapitalları nəzəriyyəsi dövlət tənzimləməsini tamamilə istisna edir, lakin hal-hazırda mərkəzi banklar iqtisadiyyatda fəal rol oynayır.

Ssuda kapitalları nəzəriyyəsinin əksinə olaraq likvidliyə üstünlük verilməsi nəzəriyyəsi (C. Keyns və başqaları) faiz dərəcələrinin səviyyəsini iki əsas amil əsasında izah edir – pul kütləsi və pul sahiblərinin öz pullarını nağd və demək olar ki, nağd formada (likvidliyə üstünlük verilməsi) saxlamaq arzusu. Başqa sözlə, faizlər hesablanmadığı təqdirdə pul sahibləri öz vəsaitlərini nağd formada saxlayardı, çünki onların başqa cür istifadəsi üçün stimul olmazdı. Təxmin etmək olar ki, faiz dərəcələri artdıqca daha çox insan likvidlikdən imtina edərdi və ssuda fondunun həcmi daha çox olardı.

Hər halda faiz dərəcələrinin səviyyəsindən asılı olmayaraq, insanlar hər zaman pulun müəyyən hissəsinə nağd formada malikdir olmuşlar. Əməliyyat və sığorta motivlərinə malik olan pul tələbi qısamüddətli dövr ərzində əsasən sabit qaldığından likvidliyə üstünlük verilməsində əsas dəyişən kəmiyyət kimi spekulyativ motiv çıxış edir. Bütün bu amilləri nəzərə alaraq, şəkil □ 16.3-də təsvir olunmuş likvidliyə üstünlük verilməsi əyrisini çəkmək mümkündür.

Likvidliyə üstünlük verilməsi əyrisi göstərir ki, faiz dərəcələri artdıqca likvid vəsaitlərin həcmi azalır, dərəcələr azaldıqda isə likvid vəsaitlər artır. DD əyrisi cədvəlin oxlarına toxunmur, çünki pul vəsaitləri heç vaxt sıfır səviyyəsinə enməyəcək. Hətta faiz dərəcələri olduqca yüksək olduqda, kreditlər isə sıfır

MUHASIBAT.AZ

səviyyəsinə endikdə belə (faiz dərəcəsi sıfır göstəricisinə enməzdən bir qədər əvvəl).

İstənilən likvidliyə üstünlük verilməsi əyrisi konkret zaman kəsiyi üçün etibarlıdır. Çünki iqtisadi həyatada baş verən dəyişikliklər likvidliyə də təsir edə bilər. Məsələn, istehlakçıların zövqü, gələcəklə bağlı proqnozlar, habelə gəlirlərin səviyyəsi dəyişə bilər. Lakin eyni zamanda iqtisadiyyatda pul kütləsinin ümumi həcmi mühüm rol oynayır. Çünki insanlar və bütövlükdə cəmiyyət varlandıqca onların toplanmış vəsaitləri də artır və insanların öz vəsaitlərinin bir hissəsinin likvidliyindən imtina etməyə marağı azalır. Odur ki, pul kütləsi çoxaldıqca faiz dərəcələrinin azalması ehtimalı bir o qədər artır (şəkil 16.4.).

Şəkil 16.4-dən göründüyü kimi, likvidliyə üstünlük verilməsi əyrisi E və E_1 xətləri ilə kəsişir. Pul kütləsinin həcmi daha az olduqda (E xətti) faiz dərəcələri 7% səviyyəsində qalır. Pul kütləsi E_1-dək artarsa, bu zaman faiz dərəcələrinin 5%-dək azalması effekti yaranır. Pul kütləsinin bu həcmindən və likvidliyə üstünlük verilməsinin müəyyən edilmiş səviyyəsindən çıxış edərərək, tarazlaşdırılmış faiz dərəcəsini müəyyən etmək mümkündür.

Şəkil 16.3. Likvidliyə üstünlük verilməsi əyrisi

Şəkil 16.4. Likvidliyə üstünlük verilməsi əyrisi və pul kütləsi

MUHASIBAT.AZ

Ssuda kapitalları və likvidliyə üstünlük verilməsi nəzəriyyələrinin təhlili göstərir ki, faiz dərəcələri, toplanan vəsaitlərin və investisiyaların həcmi bir-birindən birbaşa asılı deyil, lakin tam müstəqil də deyil. Onlar uzunmüddətli planda bir-biri ilə qarşılıqlı əlaqədədir. Döariyyədə olan pul kütləsi də mühüm amildir, onun dəyişməsi isə dövlətin (mərkəzi bankın simasında) nəzarəti altındadır. Həqiqətdə üstün olan faiz dərəcələri bir-birinə əks olan bir neçə amilin qarşılıqlı təsirinin nəticəsidir. Bu amillər aşağıdakılardır: dövlət borcları, dövriyyədə olan pul kütləsinin dövlət tərəfindən tənzimlənməsi, likvidliyə üstünlük verilməsi, kommersiya proqnozları və inflyasiyanın templəri.

Faiz dərəcələri iqtisadi fəallığın inkişafına və genişlənməsinə təkan verməklə, iqtisadiyyata əhəmiyyətli dərəcədə təsir göstərir. İnflyasiya tendensiyalarının olmamasını nəzərdə tutan sabit iqtisadi şəraitdə faiz dərəcələri pul-kredit siyasətinin oriyentasiyasının ümumi indikatoru, kredit bazarındakı gərgindiyin göstəricisi və onun tənzimlənmə vasitəsi, makroiqtisadi parametrlərin (iqtisadi artım templəri, inflyasiya, toplanmış vəsaitlər, investisiyalar) tənzimlənməsi vasitəsi, valyuta kursunun müdafiəsi vasitəsi (beynəlxalq kapitalların və kreditlərin axınına təsir, habelə ödəniş balansının kəsirinin tənzimlənməsi) kimi öz əhəmiyyətini qoruyur.

Müxtəlif iqtisadi məktəblər faiz dərəcələri siyasətinə fərqli yanaşır. Belə ki, XX əsrin 70-ci illərinədək keynsçilər iqtisadi artımın təmin edilməsində, həbelə toplanmış vəsaitlərin və investisiyaların tənzimlənməsində faiz dərəcələrinin həlledici rolunu ön plana çəkirdilər. Belə bir vəziyyətdə mərkəzi bank ən təsmirli vasitə kimi faiz dərəcəsinə əsaslanır. Çünki pul bazarına müdaxilə etmək yolu ilə faiz dərəcəsini nisbətən asan tənzimləmək və ona nəzarət etmək mümkündür. Odur ki, uzun müddət faiz dərəcəsinin səviyyəsi və norması pul-kredit siyasətinin və onun tənzimlənməsinin əsas aralıq məqsədi kimi qiymətləndirilirdi. Lakin 70-ci illərin əvvəllərindən etibarən inflyasiyanın templərinin artması ilə əlaqədar faiz norması pul-kredit siyasətinin fundamental vasitəsi kimi nəzəriyyə və təcrübə tərəfindən tədricən rədd

MUHASIBAT.AZ

edilirdi. Mərkəzi və müvafiq olaraq kommersiya bankları faizi təsərrüfat subyektlərinin iqtisadi fəallığını stimullaşdırmayan səviyyədə müəyyən etməyə məcbur idi. Faiz normasının artırılması heç də hər zaman kreditə olan tələbatın azalmasına gətirib çıxarmır, lakin qiymətlərin artmasını uzunmüddətli edir.

MUHASIBAT.AZ

16.2. KOMMERSİYA BANKININ DEPOZİT SİYASƏTİ VƏ DEPOZİT FAİZİ

Hüquqi və fiziki şəxslərə, habelə əmanətlər (depozitlər) şəklində dövlət büdcəsinə məxsus olan pul vəsaitlərini gələcəkdə qarşılıqlı surətdə faydalı şəkildə istifadə etmək məqsədi ilə onların banklar tərəfindən səfərbər edilməsinə yönəlmiş tədbirlər kompleksi *depozit siyasəti* adlanır. Depozit siyasəti hüquqi, fiziki şəxslərin və dövlətin müvəqqəti sərbəst pul vəsaitlərinin cəlb edilməsi ilə bağlı kommersiya banklarının onlarla münasibətlərinin təşkilinə elmi cəhətdən əsaslandırılmış yanaşmaların işlənib hazırlanmasını, habelə bu sahədə məqsəd və vəzifələrin müəyyən edilməsini və onların həyata keçməsi üçün əməli tədbirlərin görülməsini nəzərdə tutur. Depozit siyasəti həyata keçirilərkən depozit əməliyyatlarının təşkili prinsipləri və onların ümumi pul dövriyyəsi ilə qarşılıqlı əlaqəsi, depozit əməliyyatlarının idarə edilməsində iqtisadi və təşkilati üsulların nisbəti, depozit hesablarının formaları və onların tətbiqi sahəsi, depozit hesablarının açılması və bağlanması qaydası, müştərilərin pul vəsaitlərinin hesaba daxil edilməsi və müsadirəsi qaydaları, pul vəsaitlərinin bir depozit hesabından digərinə köçürülməsi qaydası, pul vəsaitlərinin depozit hesablarında saxlanılmasının son müddəti nəzərə alınır.

Qeyd edilən tədbirləri yalnız müştərilərə göstərilən xidmətlər diapazonunu daim genişləndirən, məsrəfləri azaldan, kredit-hesablaşma və kassa xidmətinin keyfiyyətini yaxşılaşdıran, müştərilərə xidmət xamanı müxtəlif güzəştlər edən, onlara müxtəlif məsləhətlər verən kommersiya bankı həyata keçirə bilər. Bankın kredit və depozit əməliyyatları üzrə faiz dərəcələrinin səviyyələri arasında nisbətin müəyyən olunmasında bu cür kompleks xidmət mühüm rol oynayır. Depozit faizinin səviyyəsi, yəni kommersiya bankının müştərisinə cəlb edilmiş vəsaitlər (depozitlər) üzrə ödənilən faiz xüsusi əhəmiyyət daşıyır. Çünki kommersiya banklarının depozit

MUHASIBAT.AZ

fəaliyyətinin əsasını onların pul vəsaitlərinin cəlb edilməsi üzrə əməliyyatları təşkil edir.

Dünya bank təcrübəsində depozit dedikdə müştərilərin banka irəli sürülən müəyyən tələblərin mövcudluğunu təsdiqləyən qeydlər (bank kitablarında) və ya qoyulmaya dair qanunla nəzərdə tutulmuş saziş, müqavilə və öhdəliklər əsasında müştərilərin bankda depozitə qoyduğu pul vəsaitləri nəzərdə tutulur. Ona görə də depozit əməliyyatları dedikdə pul əmanətlərinin banklar tərəfindən toplanması və müvafiq depozit hesablarında yerləşdirilməsi ilə bağlı əməliyyatlar nəzərdə tutulur. Kommersiya banklarının depozit əməliyyatları əsasında bank ehtiyatlarının böyük hissəsi formalaşaraq, təsərrüfat subyektləri və əhaliyə qısa və uzunmüddətli kreditlərin verilməsinə sərf edilir. Depozit əməliyyatları yaxşı işlənib hazırlanmış depozit siyasəti nəzəriyyəsinə əsaslanarsa, o zaman onlar kifayət qədər sanballı rol oynayacaq.

Sənaye baxımından inkişaf etmiş xarici dövlətlərdə depozit siyasəti bir sıra ümumi cəhətlərə malikdir. Bu, bazar iqtisadiyyatına malik ölkələrdə depozit bank əməliyyatlarının vahid təbiəti ilə əlaqədardır. Həmin ölkələrdə depozitlər kommersiya banklarının passivlərinin əsas hissəsini təşkil edir, məxsusi kapital, ehtiyatlar və digər borc götürülmüş vəsait və öhdəliklər isə cüzi yerə malikdir. *Depozit əməliyyatlarının təşkili* aşağıdakılardan ibarətdir:

- əksər ölkələrdə bankların depozit əməliyyatları qanunvericiliklə tənzimlənir. Vəsaitlərin depozitə qoyulmasının ən ümumi şərtləri bir çox hallarda mərkəzi banklar haqqında qanunlarda təsbit edilir (İngiltərə, AFR). Faiz dərəcələrinin unifikasiyası həyata keçirilir, AFR-də isə fərdi vəsaitlərin əmanətçilər tərəfindən əmanət hesablarından götürülməsi barədə bildirişin müddəti qanunvericiliklə müəyyən olunmuşdur. Böyük Britaniyada bank idarəsi İngiltərə Bankından depozitləri cəlb etməyə icazə verən lisenziya almalıdır, bu qayda pozulduqda qaydanı pozan şəxs böyük məbləğdə cərimə ödəməli olur və ya iki il müddətinə azadlıqdan məhrum edilir;

- kommersiya bankları həm firma və korporasiyaların, həm də qeyri-kommersiya təşkilatları və qeyri-rəsmi şəxslərin böyük həcmdə depozitlərini

MUHASIBAT.AZ

cəlb edir. Bu, bankların kredit fəaliyyətinin genişlənməsi və onların balansının likvidliyinin artırılması üçün imkan yaradır;

- depozit əməliyyatları geniş spektrli və yüksək keyfiyyətli əlavə xidmətlərin göstərilməsi ilə müşayiət olunur. Bu, faktiki olaraq müştəriyə kompleks xidmətlərin göstərilməsi deməkdir (xırda əmanətçiyə maliyyə aktivlərinin idarə olunması, kommunal hesabların, istehlak krediti üzrə hesablaşmaların və s. aparılması, iri əmanətçilərə isə lizinq və faktorinq əməliyyatları üzrə xidmətlər, investisiya məsələləri ilə bağlı məsləhətlər, aksiyaların emissiyasında yardım və s. təklif edilir);

- kommersiya bankları depozit əməliyyatlarını apararkən vəsaitlərin depozitə qoyulmasına dair müxtəlif saziş, müqavilə və ya öhdəliklərdən istifadə edir. Bankla deponentin münasibətləri qeyd edilən saziş, müqavilə və ya öhdəliklər əsasında tənzimlənir (belə müqavilə və ya sazişlərdə vəsaitlərin depozitə qoyulmasının, qaytarılmasının və ya bank tərəfindən istifadə edilməsinin xüsusi şərtləri əks oluna bilər);

Depozit siyasəti hüquqi və fiziki şəxslərin, həmçinin dövlətin pul gəlirlərinin və yığımlarının formalaşmasının və istifadəsinin obyektiv qanunauyğunluqlarına əsaslanmalıdır. Eyni zamanda hüquqi və fiziki şəxslərin depozitlərinin ən mühüm xüsusiyyətləri nəzərə alınmalıdır. Məsələn, xüsusiyyətlərdən biri odur ki, dövlət orqanları və hüquqi şəxslərin banklarda yerləşdirilən sayca nisbətən az olan əmanətləri məbləğin böyüklüyü və nisbətən sürətli dövriyyə qabiliyyəti ilə fərqlənir. Fiziki şəxslərin depozitləri isə, əksinə, çoxluq təşkil edir, lakin onların miqdarı kiçikdir və olduqca zəif dövriyyə qabiliyyətinə malikdir. Əhalinin depozitlərinin cəlb edilməsi ilə bağlı əməliyyatlar həmçinin zəhmətli olması ilə fərqlənir.

Depozit siyasətini həyata keçirərkən bir sıra şərtləri nəzərə almaq lazımdır. Onlardan aşağıdakıları qeyd etmək olar: bank əmanətlərinin mənbəyinin və bank passivlərinin və aktivlərinin strukturunun müəyyən edilməsi, əmanətçilərin pul vəsaitlərinin son saxlanılma tarixinin müəyyən edilməsi, aparılan əməliyyatlardan maksimum gəlir əldə edilməsi, ssuda

MUHASIBAT.AZ

kapitalları bazarında mərkəzləşdirilmiş qaydada müəyyən edilən normativlərin və «oyun qaydaları»nın nəzərə alınması, depozit əməliyyatlarında iştirak edən tərəflərin tam müstəqilliyinin və məsuliyyətinin təmin edilməsi və s.

Depozit siyasəti bank passivləri və aktivlərinin tarixən formalaşmış strukturunu, onların nisbət dinamikasını nəzərə almalıdır. Bu, kommersiya banklarının balanslarının likvidliyinin təhlili üçün mühüm əhəmiyyət kəsb edir. Müxtəlif növ əməliyyatların optimal uyğunluğu da buna şərait yaradacaqdır. Müxtəlif depozitlərin istifadə edilməsi banka onların ən optimal strukturunu təmin etməyə və bu əsasda kredit resurslarını məqsədli təyinatına və dövriyyə sürətinə görə dəqiq fərqləndirməyə imkan verir. Bu, bankın likvidlik səviyyəsinin artırılması və bütövlükdə pul dövriyyəsinin möhkəmlənməsi üçün çox önəmlidir. Depozit siyasəti həyata keçirilərkən hüquqi və fiziki şəxslərin əmanətlərinin növlərin müəyyən edilməsi, depozit hesablarının formaları, bu hesabların açılması, fəaliyyət rejimi və bağlanması qaydası, məqsədli və müddətli əmanətlərin saxlanma müddəti, depozit əməliyyatları üzrə faiz dərəcələrinin ən yüksək məbləği mühüm əhəmiyyət kəsb edir.

Kommersiya banklarının depozit əməliyyatları hüquqi və fiziki şəxslərin pul vəsaitlərinin əmanətlərə daxil edilməsi ilə yanaşı müştərilərə müvafiq depozit hesablarından nağd pulların verilməsi (ayrı-ayrı hallarda pul vəsaitləri bir hesabdan digərinə köçürülür) ilə də bağlıdır. Ona görə də depozit hesablarının müxtəlif növlərinin fəaliyyət rejiminə bank müştərilərinin öz pul əmanətlərindən istifadəsi qaydası da daxil edilməlidir.

Belə ki, tələbli və ya cari əmanətlər gündəlik ödəniş vasitəsi kimi müştərilərin istifadəsi üçün nəzərdə tutulmuşdur. Bu əmanətlər müddət göstərilmədən daxil edilir və götürülür və əmanətçinin arzusu ilə istənilən vaxt tam və ya qismən istifadə edilə bilər. Likvid formada vəsaitlərə malik olmaq istəyən müştərilər tələbli əmanətlərə üstünlük verir, belə əmanətlər üzrə hesablaşmalar isə nağd pulla, çeklərlə, köçürmə yolu ilə və ya veksellərlə

MUHASIBAT.AZ

həyata keçirilir. Eyni zamanda tələbli əmanətləri «birgünlük pullar»dan fərqləndirmək lazımdır (əgər söhbət birgünlük depozitdən gedirsə).

Lakin kommersiya bankları müddətli depozitlərin tətbiq sahəsinin genişləndirilməsində daha çox maraqlıdır, çünki bu, bankın kredit ehtiyatlarının daha sabit hissəsinin artmasına səbəb olur. Qısamüddətli cari əmanətlərlə müqayisədə müddətli depozitlər daha uzun müddətə yerləşdirilir və müəyyən olunmuş vaxt başa çatdıqda əmanətçilər tərəfindən geri götürülə bilər. Müvəqqəti sərbəst pul vəsaitlərinin uzun müddətə yerləşdirilməsi əmanətçi üçün onunla əhəmiyyətlidir ki, o daha yüksək faiz əldə edə bilər. Bank da belə depozitlərə maraq göstərir, çünki onları kredit şəklində daha uzun müddətə yerləşdirə və faizlərdən gələn gəlirləri müvafiq olaraq artıra bilər. Müştəri zərurət yarandıqda müddətli əmanəti vaxtından əvvəl götürə bilər (tam və ya qismən), lakin bu zaman banka əmanətçiyə ödənilməli olan faizin miqdarını əhəmiyyətli dərəcədə azaltmaq hüququ verilir. Bu şərt müddtəli depozit əmanəti haqqında müqavilədə xüsusi olaraq qeyd edilir. Qeyd edilən müqavilə iki bərabərhüquqlu partnyor kimi bank və əmanətçinin hüquqlarını, qarşılıqlı öhdəliklərini və iqtisadi məsuliyyətini müəyyən edən əsas sənəddir.

Elmi cəhətdən əsaslandırılmış depozit siyasətinin həyata keçirilməsi qüvvədə olan əmanətlər sisteminin təsərrüfat subyektlərinin pul vəsaitlərinin akkumulyasiyası forması kimi təkmilləşdirilməsi ilə yanaşı iqtisadi stimulların xüsusi sisteminin yaradılmasını da nəzərdə tutur. Qeyd edilən stimullar müəssisələri, təşkilatları və əhalini öz cari pul gəlirlərini və yığımlarını bu və ya digər depozit hesabında saxlamağa sövq etməli, bankları müxtəlif növ əmanətlərin inkişaf etdirilməsinə, depozit hesablarının yeni, daha mütərəqqi və qənaətli formalarının tətbiqinə həvəsləndirməlidir.

Depozit əməliyyatlarının məqsədi bankın kommersiya maraqlarının qorunması və onun balansının likvidliyinin yaxşılaşdırılmasıdır. Bu, *depozit əməliyyatlarının əsasını təşkil edən başlıca qaydalara* dair biliklərin olmasını nəzərdə tutur:

MUHASIBAT.AZ

- depozit əməliyyatları elə təşkil edilməlidir ki, bank mənfəətinin əldə edilməsinə və gələcəkdə mənfəət qazanmaq üçün şəraitin yaradılmasına yardım etsin;

- depozit əməliyyatlarını təşkil edərkən depozit əməliyyatları subyektlərinin müxtəlifliyini təmin etmək və depozitlərin müxtəlif formalarını uyğunlaşdırmaq lazımdır;

- bank əməliyyatlarını həyata keçirərkən depozit əməliyyatları və depozitlərin və kredit qoyuluşlarının müddəti və məbləği üzrə ssudaların verilməsi ilə bağlı əməliyyatlar arasında qarşılıqlı əlaqəni və uyğunluğu təmin etmək zəruridir;

- depozit əməliyyatlarını təşkil edərkən bankın balans likvidliyinin saxlanmasını daha çox təmin edən müddətli depozitlərə xüsusi diqqət yetirilməlidir;

- depozit əməliyyatlarını təşkil edərkən bank çalışmalıdır ki, depozit hesablarındakı sərbəst (fəal əməliyyatlara cəlb olunmayan) vəsaitlər ehtiyatı minimum səviyyədə olsun (sərbəst bank resurslarının ehtiyatları haqq-hesab, cari və digər depozit hesablarındakı vəsaitlərin qalığı ilə ssuda borcunun miqdarı arasındakı fərq kimi müəyyən olunur);

- bank xidmətlərinin inkişaf etdirilməsi və xidmətin keyfiyyətinin və xidmət mədəniyyətinin artırılması üçün tədbirlər görmək lazımdır. Qeyd edilənlər depozitlərin cəlb edilməsi üçün şərait yaradır.

Depozitlər üzrə faizin səviyyəsi əmanətçilər üçün ən mühüm stimullardan biridir. Depozit əməliyyatları sahəsində faiz siyasəti əmanətlərin bütün növləri üzrə faizlərin müəyyən edilməsi şərtlərinin obyektivliyini, müvafiq faiz dərəcələrinin iqtisadi baxımdan əsaslandırılmasını, habelə depozit faizlərinin fəal bank əməliyyatları üzrə faiz dərəcələri ilə uyğunlaşdırılmasının zəruriliyini nəzərə almalıdır.

Ona görə də bankların depozit əməliyyatları üzrə faiz dərəcələri nağd dövriyyədə və nağdsız ödəniş dövriyyəsində baş verən real iqtisadi prosesləri nəzərə almalı, pul kütləsinin dəyişməsi meyllərinə reaksiya etməli, müvafiq

MUHASIBAT.AZ

sürətə malik olmalıdır. Eyni zamanda depozit faizi aşağıdakılar kimi çıxış edə bilər:

- bank idarəsinin gəlirli fəaliyyətinin göstəricisi;
- pulun alıcılıq qüvvəsinin saxlanılması vasitəsi, xüsusilə yüksək inflyasiya şəraitində;
- pul vəsaitlərinin qiymətdən düşməsindən əmanətçilərin müdafiəsinin sosial-iqtisadi forması;
- banklar arasındakı rəqabət vasitəsi (makroiqtisadi xarakterə malik rəqabət);
- mikrosəviyyədə həyata keçirilən lokal pul bazarının tarazlığının saxlanılması vəsitəsi;
- fiziki və hüquqi şəxslərin əmanətlərinin (depozitlərinin) yaradılması üçün stimul.

Yuxarıda qeyd edilən yanaşma əsasında depozit faizini aşağıdakı kimi təsəvvür etmək mümkündür:

$$P_d=P_b+İ_o+ED_s+ED_k \qquad (16.2)$$

Burada P_d – depozit faizi, P_b – fəal əməliyyatlardan əldə edilməsi guman edilən gəlirlər nəzərə alınmaqda hesablanan baza faiz dərəcəsi, $İ_o$ – inflyasiyanın gözlənilən (proqnozlaşdırılan) səviyyəsi, ED_s – müddətliliyə görə mümkün əlavə ödənişlərin faiz məbləği, ED_k – bankın rəqabətə davamlılığının təmin və depozitlərin təşviq edilməsi üçün mümkün əlavə ödənişlərə görə faiz məbləğidir.

16.2-ci düstur depozit faizinin formalaşdırılmasına bazar yanaşmasını əks etdirir. Lakin fəal və passiv əməliyyatlar üzrə faiz dərəcələrinin bazar şəraitində müəyyən edilməsi zamanı onların elə bir nisbəti yarana bilər ki, nəticədə mənfəət qazanmaq mümkün olmayacaq. Belə nisbətin aradan qaldırılması üçün depozitlər üzrə faiz dərəcələrinin kəskin surətdə azaldılması və ya kreditlər üzrə faizin müvafiq olaraq artırılması bank üçün hər zaman

MUHASIBAT.AZ

mümkün olan və ya arzu edilən hal deyil. Odur ki, passiv və fəal əməliyyatlar üzrə faiz dərəcələrinin sabitləşməsi üçün xüsusi ehtiyat və ya sığorta fondlarının mövcudluğu zəruridir, həmin fondlar əlverişsiz iqtisadi vəziyyət yarandıqda bankların öhdəliklər və mənfəətlə bağlı ehtiyaclarını ödəməyə imkan verir. Belə fondları təşkil etmədən bankın sabit işləməsini təmin etmək qeyri-mümkündür. Həmin fondların təyinatlarından biri də depozitorların tələbləri artıqda və ya gəlirlər azaldıqda faizlərin ödənilməsi ilə bağlı məsrəflərin kompensasiya edilməsidir.

Müddətli pul əmanətlərinin məbləğinin yenidən hesablanması depozit faizi ilə bağlıdır. Əgər əmanətin əsas məbləği və ona hesablanan faizlər inflyasiya yenidən dəyərləndirməsinə məruz qalarsa, o zaman *inflyasiya nəzərə alınmaqla əmanətin məbləğinin müəyyən edilməsi* üçün aşağıdakı düsturdan istifadə edilməlidir:

$$S_n=S_p\ (1+P_d)(1+İ_o) \qquad (16.3)$$

Burada S_n – toplanmış pulun məbləği (ilin sonunda), S_p – pul əmanətinin ilkin miqdarı (ilin əvvəlində), P_d – depozit faizi (inflyasiyanın illik səviyyəsinə uyğun olaraq təshih edilmədən), $İ_o$ – illik inflyasiyanın faktik səviyyəsidir.

Əmanətin yalnız əsas məbləği yenidən hesablanarsa, 16.3-cü düstur aşağıdakı kimi ifadə edilə bilər:

$$S_n=S_p\ (1+P_d+İ_o) \qquad (16.4)$$

İnflyasiyanın səviyyəsi hesab açıldığı andan onun bağlanacağı gündən əvvəlki tarixədək artan nəticə ilə hesablanmalıdır. İnflyasiya və bazar konyunkturunun digər amillərinin uzun müddətə (bir ildən artıq) dəqiq nəzərə alınması mümkün olmadığından faiz dərəcələri cədvəli də ciddi şəkildə təsbit edilə bilməz. Yalnız baza faiz dərəcəsi və ona müddətliliyə görə edilən əlavələr

MUHASIBAT.AZ

ciddi surətdə təsbit edilə bilər. Depozit faizinin digər tərkib hissələri isə bank tərəfindən vaxtaşırı hesablanmalıdır.

Depozitlər üzrə faiz dərəcələrinin səviyyəsinin artması iqtisadi və sosial baxımdan obyektivdir. Çünki inflyasiya şəraitində əmanətçilərin maraqlarını qorumaq, həmçinin onları banklara uzun müddətə əmanət qoymağa həvəsləndirmək qeyri-mümkündür. Belə bir şəraitdə banklar öz depozit siyasətini fəallaşdırmalı və təsərrüfat subyektlərinin «passivləri», habelə əhalinin əmanətləri uğrunda rəqabət aparmalıdırlar. Yalnız müştərilərə göstərilən xidmətlər diapazonunu daim genişləndirən, xidmətlərin qiymətini aşağı salan, kredit-hesablaşma və kassa xidmətlərinin keyfiyyətini yaxşılaşdıran, kreditləri verərkən hər hansı güzəştlər edən, müştərilərə müxtəlif məsləhətlər verən bank rəqabətə davam gətirə bilər. Ona görə də müştərilə kompleks xidmətləin göstərilməsi banklar arasındakı rəqabətdə həlledici əhəmiyyət kəsb edir.

Bankların depozit siyasətinin tənzimlənməsi vasitəsi kimi əmanətlər üzrə depozit faizi çıxış edir. Həmin depozit faizi müəyyən edilərkən xidmətlərin unikallığı və sözügedən bank idarəsində pul vəsaitlərinin saxlanılması şərtlərinin orijinallığı, xidmətlərin göstərilməsi sahəsində bankın bazarda lider olması, bazardakı mövqelərin bank tərəfindən qorunub saxlanmasının zəruriliyi, rəqib bankların faiz siyasəti, depozitlərə görə ödənişin (əlavə ödənişlərin, güzəştlərin, uduşların) müəyyən edilməsi üsulları və s. nəzərə alınır. Depozit əməliyyatları üzrə faizin məbləği bir çox amilin təsiri ilə formalaşır. Həmin amillərə aşağıdakıları aid etmək olar: ehtiyatların cəlb edilmə müddəti, kreditə olan tələbatın vəziyyəti, kredit ehtiyatlarının təklifinin yaranmış şəraiti, müştərinin etibarlılığının dərəcəsi, bankın gəlirlərindən tutulan vergi dərəcələrinin səviyyəsi, xarakter (fiziki yaxud hüquqi şəxs, dövlət və ya özəl müəssisə və s.), inflyasiyanın səviyyəsi, cəlb edilən depozitin məbləği, bankın əməliyyatın aparılmasına sərf etdiyi məbləğ və s.

Depozit faizi və depozit əməliyyatına görə ödəniş bir-birinə uyğun deyil, çünki sonuncu əməliyyatın aparılmasına görə bankın aldığı komisyon

MUHASIBAT.AZ

haqqıdır. Depozit əməliyyatına görə ödəniş müəyyən edilərkən kredit qiymətinin gizli elementləri, məsələn, depozitlərin mütləq sığortalanmasına dair mərkəzi bankın tələbləri, hesabların açılmasına görə bankın komisyon haqqı və s. nəzərə alına bilər. Əmanətlər üzrə ödənilən gəlirlər pul vəsaitlərinin saxlanılması və toplanması üsullarının seçilməsində əhali və təsərrüfat subyektləri üçün ciddi stimul rolunu oynayır.

Hal-hazırda əmanətlərin ən yayılmış növləri (o cümlədən xaricdə) aşağıdakılardır:

- vəsaitlərin müəyyən olunmuş müddətdən əvvəl götürülməsi mümkün olmayan müddətli əmanətlər;

- mənzil təkintisi və ya satın alınması üçün nəzərdə tutulan məqsədli mənzil əmanətləri (belə əmanətlərin sahiblərinə mənzil kreditindən birinci olaraq istifadə hüququ verilmişdir);

- əvvəlcədən müəyyən edilmiş müddət ərzində depozitə aylıq müntəzəm əmanətlər yatırmağı müqaviləyə əsasən öhdəsinə götürən gənclər üçün açılan gənc əmanətləri;

- uduşlu əmanətlər; bu əmanətlərə vəsaitlərin cəlb edilməsi onların pul, avtomobil, qeyri-ərzaq malları, tikinti materiallarının və s. uduşlarının keçirilməsində iştirakı nəticəsində baş verir;

- pensiya əmanət qoyuluşları.

Bəzi ölkələrdə depozitlər üzrə faiz dərəcələri əmanətlərin məbləğindən asılıdır: onlar artdıqca əmanət üzrə gəlir də artır. Əmanətləri təşviq etmək məqsədi ilə (xüsusən də uzun müddətə) xarici dövlətlərin kredit idarələri əmanətçilərə kifayət qədər yüksək faizlər ödəyir (inflyasiyanın səviyyəsinin aşağı olması nəzərə alınmaqla).

Müxtəlif ölkələrdə cari əmanətlər (tələbli əmanətlər) və ya cari hesablar üzrə xüsusiyyətlər mövcuddur. Əksər ölkələrdə banklar bu hesablardakı əmanətlər üzrə faiz ödəmir, lakin onların sahiblərinə xeyli xidmət təklif edir. Bəzi Qərbi Avropa ölkələrində (İtaliya, Böyük Britaniya, İspaniya) cari hesablar üzrə kifayət qədər yüksək faizlər ödənilir, həmin idarənin növündən

MUHASIBAT.AZ

və müştərilərinin kateqoriyalarından asılı olaraq bir-birindən fərqlənir. Elə ölkələr də var ki, orada cari hesablar üzrə ödəniş sırf rəmzi xarakter daşıyır, məsələn AFR, Hollandiya, Belçika kimi dövlətlərdə bu ödəniş 0,5% təşkil edir. Fransada bankın müştərilərin əmanətləri üzrə ödədiyi faiz müqavilədən asılıdır, eyni zamanda müqavilə azadlığı bəzi hallarda məhdudlaşdırılmışdır. Məsələn, bəzi əmanət hesabları istisna edilməklə tələbli əmanətlərin mükafatlandırılması qadağandır. Yalnız 500 min frankdan artıq olan və 6 aydan artıq müddətə yerləşdirilən əmanətlər üçün sərbəst faiz dərəcələri tətbiq olunur. Digər növ əmanətlər üçün yuxarı həddi müəyyən edilir.

Əksər Qərbi Avropa ölkələrində müddətli əmanətlər üzrə faiz depozitlərin müddətindən və miqdarından asılıdır. Məsələn, İngiltərədə klassik depozit hesabı mövcuddur. Bu hesaba vəsaitlərin hesabdan götürülməsi barədə müştərinin mütləq qabaqcadan (7 ay əvvəl) xəbərdar edilməsi daxildir. Eyni zamanca faiz illik 5% həcmində müəyyən edilir. Belçika və İtaliyada depozitlərin minimal məbləği müəyyən edilir, həmin məbləğə müddətdən asılı olaraq artan faiz əlavə edilir.

Depozit əməliyyatları üzrə faiz dərəcələrinin düşünülmüş şəkildə fərqləndirilməməsi müddətli depozit hesablarına iri məbləğdə və uzunmüddətli resursların cəlb edilməsini kifayət qədər stimullaşdırmır.

MUHASIBAT.AZ

16.3. SSUDA FAİZİ, ONUN FUNKSİYALARI VƏ ROLU

Ssuda faizi kredit münasibətləri əsasında fəaliyyət göstərən iqtisadi kateqoriyadır. Ssuda faizi kredit alınarkən və faiz ödənilərkən öz spesifik maraqları olan kreditorun və borc alanın münasibətlərini ifadə edir. Kreditdən fərqli olaraq, ssuda faizi istehsal edilmiş məhsulun qaytarılan deyil, qaytarılmayan dəyər bölgüsünü nəzərdə tutur. Söhbət büsbütün dəyərdən deyil, əlavə məhsulun çevrilmiş forması olan mənfəətin dəyərindən gedir. Faiz borc alanın sərəncamında qalan mənfəətin birbaşa çıxılan məbləğdir. Faizin miqdarı faiz dərəcəsinin səviyyəsindən və borc alana verilən kreditin məbləğindən asılıdır.

Kreditə görə faiz elə hesablanır ki, borc alandan alınan minimum faiz məbləği tələb olunan kreditin verilməsi üçün (marja əlavə edilməklə) zəruri olan resursların cəlb edilməsi ilə bağlı bankın çəkdiyi xərcləri ödəmiş olsun. Ən ümumi şəkildə marja ssuda və depozit faizinin dərəcələri arasındakı fərqdir. Faktik olaraq formalaşmış faiz marjasının məbləği faizlərdən əldə edilən xalis gəlirin (hesablanmış faiz çıxılsın ödənilmiş faiz) kredit əmanətlərinin orta həcminə nisbəti kimi müəyyən edilir.

Faiz marjasının məbləğinə təsir edən başlıca amillər kredit əmanətləri və onların mənbələrinin (kredit resurslarının) həcmi, tərkibi və strukturudur. Kreditlərin müddət, riskin təmin edilməsi üsulları, borc alanlar (dövlət və kommersiya müəssisələri, əhali), kreditin məqsədləri üzrə bölüşdürülməsi kredit əmanətlərinin gəlirliliyinin müxtəlifliyini müəyyən edir. Eyni zamanda depozitlərin həcmi, növləri, müddəti və s. mühüm əhəmiyyət kəsb edir. Faiz marjasının dəyişməsi bankın fəal əməliyyatları üzrə dərəcələrin, cəlb edilmiş ödənişli resurslar (passiv əməliyyatlar) üzrə faiz dərəcələrinin və kredit əmanətlərinin ümumi həcmində ödənişli resursların payının artması və ya azalması nəticəsində baş verir. Ona görə də faiz marjasının məbləği ödəniş vaxtının yaxınlaşması və faiz dərəcələrinə yenidən baxılma müddəti ilə bağlı

MUHASIBAT.AZ

olan kredit əmanətləri və onların mənbələrinin qarşılıqlı əlaqəsinin təsiri altındadır. Faiz marjasının məbləği aşağıdakı kimi müəyyən edilir:

$$M=P_{kr}-P_r \qquad (16.5)$$

Burada M faktiki faiz marjası, P_{kr} kreditlər üzrə aylıq faiz dərəcəsi, P_r isə cəlb edilmiş kreditlər üzrə aylıq faiz dərəcəsidir.

(16,6)

$$П_{кр} = \frac{H_n}{O_{c.k}} * 100\%$$

Burada N_p banklararası kreditlər də daxil olmaqla kreditlər üzrə hesablanmış faiz, O_{ok} banklararası kreditlər də daxil olmaqla gündəlik orta qalıqlardır.

(16.7)

$$П_p = \frac{H_p}{O_{c.p} - O_{c.p}} * 100\%$$

Burada N_r banklararası kreditlər də daxil olmaqla cəlb olunmuş kreditlərə görə bank tərəfindən hesablanmış faiz, O_{or} alınmış banklararası kreditlər də daxil olmaqla cəlb olunmuş resursların gündəlik orta qalıqları, O_{of} mütləq ehtiyatlar fondunda vəsaitlərin gündəlik orta qalıqlarıdır.

Ssuda faizinin dərəcəsi borc alanın borcunu ödəyə bilməməsi riskinin səviyyəsindən, təqdim olunmuş təminatın xarakterindən, qaytarılma təminatından, kredit verilən layihənin məzmunundan, rəqib bankların dərəcələrindən və digər amillərdən asılıdır. Kreditə görə faiz dərəcələri təsbit edilmiş (möhkəm), üzən və bazisli (bazalı) ola bilər. Kreditlər təsbit edilmiş dərəcə əsasında verildikdə onların qaytarılması adətən təqdim olunmuş faizlər (ssuda dövrü ərzində dəyişməz qalan faizlər) üzrə qabaqcadan müəyyən

MUHASIBAT.AZ

edilmiş ödənişlərlə müşayiət olunur. Təsbit edilmiş faiz dərəcələri adətən istifadə müddəti az olan (30 günədək) kreditlər üzrə müəyyən edilir.

Üzən faiz dərəcələri ölkədə bazar münasibətlərinin inkişaf dərəcəsindən, depozitlər (əmanətlər) üzrə faiz miqdarının dəyişməsindən, kredit ehtiyatlarına olan tələb və təklifdən, həmçinin iqtisadiyyatın və borc alanın vəziyyətindən asılı olaraq dəyişir. Kommersiya bankı üzən faiz dərəcəsini yenidən nəzərdən keçirə bilər, lakin bu barədə n borc alana qabaqcadan məlumat verilməlidir. Bir sıra hallarda kommersiya bankı mərkəzi bankın faiz siyasətinə uyğun olaraq ssuda faizinin dərəcəsini (o cümlədən təsbit edilmiş dərəcəni) dəyişdirə bilər.

Üzən faizli ssudalar üzrə faiz dərəcələri adətən təsbit edilmiş faizli ssudalar üzrə dərəcələrdən aşağı olur, çünki bu halda borc alanın riski daha böyükdür (faiz dərəcəsi arta bilər və buna müvafiq olaraq borc alanın aylıq ödənişləri də artacaq). Üzən faiz dərəcəli kreditlər kommersiya bankları üçün daha sərfəlidir, çünki onları mərkəzi bankın depozit və uçot faizinin mümkün artmasından qorumağa imkan verir. Üzən faiz dərəcələrindən istifadə edərkən faiz riskinə borc alan məruz qalır.

Ssuda faizi müəyyən edilərkən banklar adətən mərkəzi bankın uçot dərəcəsinin səviyyəsi ilə yanaşı baza dərəcəsinin həcmini (amillərin faiz dərəcələrinə orta və ya neytral təsirindən ibarətdir), həmçinin digər bankların faiz dərəcələrini nəzərə alır. Baza faiz dərəcəsi özü-özlüyündə başlanğıc nöqtəsidir, xırda banklar iri bankların baza dərəcəsindən asılı olaraq ssuda faizini dəyişdirə bilər.

Səciyyəvidir ki, qısa müddətli dövlət öhdəlikləri (QDÖ) bazarında gəlirlərin sabitləşməsi banklararası rublluq kreditlər üzrə faiz dərəcələrinin orta səviyyəsinin artmasına səbəb ola bilər. Bu, QDÖ-yə olan marağı artırdığından kommersiya bankları zəruri ehtiyatları banklararası kredit bazarından almağa can atırlar. Kreditlərə olan tələbin artması orta faiz dərəcələrinin artmasına gətirib çıxarır. Valyuta bazarındakı fəallığın kifayət qədər aşağı olması faiz dərəcələrinin artmasına səbəb ola bilər.

MUHASIBAT.AZ

Müasir bank təcrübəsində kreditin verilməsi məqamında faizin avans şəklində alınmasına yol verilmir, çünki borc alan hələ öz fəaliyyətindən gəlir qazanmamışdır. Səciyyəvidir ki, qısamüddətli ssudalar üzrə faizlər, bir qayda olaraq, ayda bir dəfə hesablanır və bankın sərəncamı (xairə orderi) ilə borc alanın haqq-hesab hesabından tutulur. Hesablanmış faiz uzunmüddətli kreditlər üzrə əsas borc üzrə hər bir ödəniş zamanı ödənilə bilər. İlk ödənişə ilk ssudanın verildiyi gündən ilk ödənişin həyata keçirildiyi günədək hesablanan faiz daxildir. Faizin ödənilməsi adətən borc alanın haqq-hesab (cari) hesabından onun öz vəsaitləri hesabına həyata keçirilir. Kreditlər və hesablanmış faiz üzrə borcun ödənilməsi vəsaitlərin ödəniş tələbi, tələb-tapşırıq, rabitə müəssisələri vasitəsilə hesabdan köçürülməsi, haqq-hesab çekinin təqdim olunması, nağd pulla ödəmə yolu ilə və bankın tapşırığına (kredit müqaviləsində nəzərdə tutulduğu və ya müddətli öhdəliyə uyğun olaraq ödəniş vaxtı çatdığı təqdirdə) əsasən həyata keçirilə bilər.

Banka olan borcun ödənilməsi üçün haqq-hesab (cari) hesabında kifayət qədər vəsait olmadıqda əvvəlcə kreditlər üzrə borc, daha sonra isə həmin kreditlər üzrə faiz ödənilir. Borc alanın haqq-hesab hesabında vəsaitlərin olmaması səbəbindən kreditə görə faiz vaxtında ödənilmədikdə bank ödənişin gecikdirildiyi hər gün üçün kredit müqaviləsində müəyyən edilmiş məbləğdə penya ala bilər.

Ssuda faizinin iqtisadi rolu avtomatik olaraq deyil, müəyyən faiz siyasətini tətbiq etməklə həyata keçirilir və ssuda faizinin konkret idarəetmə sisteminin nəticəsidir. Ssuda faizinin idarəetmə sistemi dedikdə ssuda faizinin fəaliyyət mexanizminin bütün elementlərinin təşkili, yəni faiz dərəcələri sistemi, faiz səviyyəsinin fərqləndirmə meyarları, faiz dərəcələri sistemini tənzimləmə üsulları, faizin ödənildiyi mənbə nəzərdə tutulur. Bank öz faiz siyasətini formalaşdırarkən faiz dərəcələrini elə planlaşdırmalıdır ki, bankın alacağı faizlər xərclərin ödənilməsini (o cümlədən bankın passiv əməliyyatları üzrə faizlərin ödənilməsi üçün) və zəruri mənfəətin əldə edilməsini təmin etsin.

MUHASIBAT.AZ

Ssuda kapitalları bazarının faiz dərəcələri sisteminin qurulmasının ən mühüm qanunauyğunluqları aşağıdakılardır:

- sərbəst tədavül edilən pul vasitələri (sərbəst tədavül edilən qiymətli kağızlar) üzrə dərəcələr adətən məhdud dövriyyəyə malik vasitələr üzrə dərəcələrdən aşağıdır;

- bankların passiv əməliyyatları üzrə dərəcələr aktiv əməliyyatlar üzər dərəcələrdən aşağıdır;

- banklararası bazardakı dərəcələr (topdan satış dərəcələri) müştərilərlə aparılan kredit əməliyyatları üzrə dərəcələrdən (pərakəndə dərəcələri) orta hesabla aşağıdır;

- birinci dərəcəli borc alanların kreditləri üzrə dərəcələr daha az etibarlı borcluların kreditləri üzrə dərəcələrdən aşağıdır;

- qısamüddətli dərəcələrə nisbətən uzunmüddətli dərəcələr daha rəvan dəyişir;

- uzunmüddətli kreditlər üzrə dərəcələr adətən qısamüddətli ssudalar üzrə dərəcələrdən yuxarıdır;

- təminatlı kreditlər üzrə dərəcələr təminatsız ssudalar üzrə dərəcələrdən aşağıdır.

Ssuda faizi diskont ssudaların verilməsi ilə bağlıdır. Belə ssudaların nominal məbləği bankın borc alanın sərəncamına verdiyi ssudanın məbləğindən azdır. Ssudanın nominal məbləği ilə borc alana verilən vəsait arasındakı fərq ssudanın təqdim edildiyi an sonuncudan tutulur və ssuda faizinin bir növünü (diskont) təşkil edir. Diskont ssudalar kreditə görə ödəniş kimi faizin alınmasının digər mexanizminə malikdir. Məsələn, illik 30%-lə 100 000 000 rubl məbləğində adi bank kredit aldıqda borc alan 100 000 000 rubl əldə etsə də, 130 000 000 rubl qaytarır. Diskont faizindən istifadə etdikdə (illik 30%) borc alan 70 000 000 rubl (100 000 000–70 000 000) əldə edir, lakin 100 000 000 rubl ödəməli olur. Bu halda borc alan sadə bank ssudasından fərqli olaraq, bir qədər artıq faiz ödəyir. Bu, onunla bağlıdır ki, diskont faizi kreditin verilməsi ilə bağlı olan riski nəzərə alır.

MUHASIBAT.AZ

Bazar iqtisadiyyatına malik olan müasir dövlət ssuda faizinin hərəkətinə nəzarət etməklə ictimai istehsalın demək olar ki, bütün parametrlərinə təsir edə bilər. Məsələn, dövlət ssuda faizi dərəcəsini tənzimləməklə mərkəzi bank vasitəsilə vəsait yığımı, qiymətlərin aşağı düşməsi və əmək haqqının sabitləşməsi, istehsalın səmərəliliyinin artırılması və milli valyuta kursunun artması, öz mallarının rəqabətədavamlılığının aşağı düşməsi, mal ixracının bahalaşması, idxalın isə ucuzlaşması, kapital idxalının artması, onun ixracının isə dayandırılmasına və s. üçün şərait yarada bilər.

Yoxlama sualları

1. Faizin mahiyyəti nədən ibarətdir?
2. Faiz dərəcələrinin hansı növləri mövcuddur?
3. Faiz dərəcələri siyasəti vasitəsilə hansı məqsədlərə çatmaq lazımdır?
4. Sabit iqtisadiyyatda faiz dərəcələrinin əhəmiyyəti nədədir?
5. Depozit faizi və depozit siyasəti nə deməkdir?
6. Depozit əməliyyatlarının əsasını hansı qaydalar təşkil edir?
7. Hal-hazırda ən yayılmış əmanət növləri hansılardır?
8. Ssuda faizi nə deməkdir və onun idarə edilməsi sisteminin əsasını hansı elementlər təşkil edir?
9. Kommersiya banklarının ssuda siyasəti hansı amillər əsasında formalaşır?
10. Ssuda kapitalları bazarının faiz dərəcələrinin formalaşdırılmasının ən mühüm qanunauyğunluqları hansılardır?

MUHASIBAT.AZ

17. BANK RİSKLƏRİ

17.1. BANK RİSKLƏRİ ANLAYIŞI VƏ ONLARIN TƏSNİFATI

Bank fəaliyyəti biznesin spesifik sahəsidir. Onun əsasını başlıca olaraq pul vəsaitlərinin cəlb edilməsi və kredit şəklində yerləşdirilməsi təşkil edir. Hər bir təsərrüfat subyektində olduğu kimi, kommersiya bankının fəaliyyəti müştərilərə bank məhsulu təqdim etmək yolu ilə mənfəətin qazanılmasına yönəlmişdir. Eyni zamanda bank fəaliyyəti hər zaman olduqca riskli sahə olmuş və olmaqdadır. Ona görə də bank sisteminin effektiv fəaliyyətinin şərtlərindən biri kimi bank risklərinin idarə olunmasının etibarlı sisteminin qurulmasıdır. Bu, onunla əsaslanır ki, riskin mövcudluğu kommersiya bankının iqtisadi itikilər verməsi ehtimalını hər zaman nəzərdə tutur. Yəni ən yaxşı halda bank mənfəətdən məhrum ola, ən pis halda isə ziyanla işləyə bilər. Ona görə də kommersiya banklarının fəaliyyətində bank riskləri probleminə hər zaman xüsusi diqqət yetirilir.

Bank biznesini risksiz təsəvvür etmək mümkün deyil. İstənilən əməliyyatda mövcud olan risk müxtəlif miqyaslara malik ola və müxtəlif cür kompensasiya edilə bilər. Ona görə də bank fəaliyyəti üçün ümumiyyətlə riskdən yaxa qurtarmaq deyil, onun qabaqcadan müəyyən edilib minimal səviyyəyədək azaldılması əsasdır. Bank risklərini təsnif və müəyyən etməmişdən öncə risk anlayışının (bankın öz resurslarının bir hissəsini itirməsi ehtimalı (təhlükəsi), müəyyən bank əməliyyatlarının aparılması zamanı gəlir əldə edilməməsi və ya əlavə xərclərin çəkilməsi kimi) tərifini vermək lazımdır.

Bankların məsrəfləri aşağıdakılarla bağlıdır: əmanətçiyə faizlərin ödənilməsi, digər maliyyə-kredit institutlarından alınan kredit ehtiyatlarına görə ödəniş, bank işçilərinin əmək haqlarının ödənilməsi üçün vəsait ayrılması və digər əməliyyat xərcləri. Məsrəflər anlayışına münasib olaraq risk, məsələn, aşağıdakı formalarda təzahür edə bilər: bazardakı vəziyyətin dəyişməsi əmanətlər üzrə ödənilən faizlərin artırılmasına gətirib gətirib çıxarır; kredit

MUHASIBAT.AZ

ehtiyatlarının ümumi defisiti onların əldə edildiyi qiymətin artmasına təsir edəcək, digər kredit institutlarında personalın əmək haqqının artırılması bankı zəruri tədbirləri görməyə vadar edir və s.

Banklar həmçinin ziyanla da işləyir. Sonuncu gələcək əməliyya kifayət qədər təhlil edilmədikdə, səhv hesablama aparıldıqda, əlverişsiz şəraitdə və ya vəziyyət sadəcə olaraq proqnozlaşdırılmadıqda baş verir və gəlirlərin əldə edilməməsi və ya nəzərdə tutulduğundan artıq məsrəflər şəklində təzahür edir.

Vəsaitlərin səmərəsiz yerləşdirilməsi, bazar imkanlarının və təhlükəsinin dəqiq qiymətləndirilməməsi ilə bağlı olan bu cür ziyanla işləmə riski banka hər zaman ciddi problemlər törədə bilər.

Bank fəaliyyəti itkilərlə bağlıdır. Bank mənfəətinin gözlənilməyən azalması kimi başa düşülən itkilər bank fəaliyyəti üçün xas olan riski xarakterizə edən ümumiləşdirici göstərici kimi çıxış edir. Bu göstərici yuxarıda təsvir olunmuş dərəcələrin bütün xüsusiyyətlərini özündə birləşdirir və ona görə də risk dərəcəsini daha yaxşı xarakterizə edir.

Bank risklərini minimum səviyyəyə endirmək üçün onları təsnif etmək, habelə onların dəyərləndirilməsi və hesablanması üsulları ilə bağlı iş aparmaq lazımdır. Hesab olunur ki, bank risklərinin təsnifatının əsasını təşkil edən ən mühüm elementlər aşağıdakılardır:

- kommersiya bankının (universal, xüsusi və ya müəyyən sahəyə aid olan bank) tipi və ya növü;
- bank riskinin təsir və ya baş vermə dairəsi (daxili və xarici);
- bank müştərilərinin tərkibi (iri və xırda borc alanlar);
- riskin hesablanması üsulu (bank likvidliyinin iqtisadi normativlərinin seçilməsi və onlara əməl edilməsi, bank, ayrıca müştərinin və ya regionun yol verilən ümumi riskinin həcminin müəyyən edilməsi, riskin kompleks və xüsusi hesablama üsulları);
- bank riskinin dərəcəsi və ya riskin ölçülüb-biçilməsi (tam, mötədil və aşağı dərəcəli risk);
- riskin zaman içərisində bölüşdürülməsi (keçmiş, cari və gələcək risk);

MUHASIBAT.AZ

- risk uçotunun xarakteri (balans və balansdan sonrakı əməliyyatlar üzrə risklər);

- bank risklərinin idarə edilməsi imkanı (açıq – tənzimlənməyən və bağlı – tənzimlənən risklər);

- risklərin idarə olunması vasitələri (risklərin ölçülüb-biçilməsi prinsipindən istifadə; xarici risklərin – müəyyən sahəyə, ölkəyə (regiona), aid olan risklərin uçotu; bank müştərisinin maliyyə vəziyyətinin, onun ödəmə qabiliyyətinin, krediti ödəmə qabiliyyətinin, reytinqinin və s. mütəmadi olaraq təhlil edilməsi; diversifikasiya siyasətindən istifadə – bank əməliyyatlarının ümumi həcmi saxlanılmaqla kreditlərin az miqdarda çoxlu sayda müştəri arasında bölüşdürülməsi; iri kreditlərin yalnız risklərin banklararası sazişlər üzrə bölüşdürülməsini nəzərdə tutan konsorsional əsasda verilməsi; inflyasiyanın mənfi nəticələrini aradan qaldırmaq məqsədi ilə üzən faiz dərəcələrinin tətbiqi; kredit və depozitlərin sığortalanması; girov hüququnun tətbiqi və s.).

Kommersiya banklarının mənfəəti maksimum səviyyəyə çatdırmaq cəhdi ziyanla (itkilərlə) işləmək imkanı ilə məhdudlaşır. Bank riski ziyanla (itkilərlə) nəticələnə biləcək ehtimal edilən hadisənin dəyər ifadəsidir. Təcrübə göstərir ki, mənfəət əldə etmək imkanı artdıqca risk də artır. Faktiki olaraq risklər həqiqi məlumatların indiki vəziyyətin və gələcək inkişafın qiymətləndirilməsindən fərqlənməsi nəticəsində meydana gəlir. Bank əməliyyatlarının gəlirliliyi ilə risk arasındakı əlaqə sadə şəkildə birbaşa asılılıqla ifadə oluna bilər (şəkil 17.1).

Göründüyü kimi, bank riski heç vaxt sıfra bərabər ola bilməz, lakin bank hər zaman onun həcm xüsusiyyətlərini müəyyən etməlidir. Bu zaman riskin müəyyəən həddinin aşmamaq lazımdır. Bu həddi keçdikdə riskin və gəlirin birbaşa asılılığı pozulur. Bu vəziyyətdə düz xətt parabola şəklini alır və yalnız ziyanla işləmək, habelə yol vrilən risk zonasından kənara çıxmamaq təhlükəsi yaranır. Səciyyəvidir ki, riskin həcmi aşağıdakı hallarda artır:

MUHASIBAT.AZ

- güman edilənlərin əksinə olaraq gözlənilmədən bu və ya digər bank problemləri yaranır;

- bank qarşısında onun keçmişdəki təcrübəsinə uyğun olmayan yeni vəzifələr qoyulmuşdur;

- bank menecerləri vəziyyəti yaxşılaşdıra biləcək zəruri və təcili tədbirləri görmək iqtidarında deyil;

- bank fəaliyyətinin mövcud qaydası və ya qanunvericiliyin və normativ bazanın mükəmməl olmaması konkret vəziyyət üçün optimal olan tədbirlərin görülməsinə mane olur.

Riskin itkilərlə (onların miqdarı gələcək əməliyyatın risk səviyyəsinin göstəricisidir) nəticələnə biləcək təhlükə kimi müəyyən edilməsindən sonra həmin riskin ehtmal dərəcəsi barədə nəticə çıxarılır. Odur ki, itkiləri təhlil etməklə riski kifayət qədər dəqiqliklə müəyyən etmək mümkündür. Riskin kəmiyyət miqdarı mütləq və nisbi göstəricilərlə ifadə oluna bilər. Lakin bu itkiləri kafi dəqiqliklə mütləq dəyərləndirmək hər zaman mümkün olmur. Əgər ehtimal olunan itkilərin miqdarını bank fəaliyyətini xarakterizə edən hər hansı göstəriciyə (məsələn, kredit ehtiyatlarının həcmi, konkret əməliyyatın aparılması ilə əlaqədar bankın məsrəf və gəlirlərinin məbləği) aid etsək, o zaman nisbi ifadə olunmuş risk kəmiyyəti meydana gələcək. Müxtəlif əməliyyatlar aparılarkən yol verilən səviyyənin müəyyən edilməsi şəklində riskin nisbi ifadəsi bank siyasətinin işlənib hazırlanması zamanı tətbiq edilir. Bu, riskin dəyərləndirilməsinə, onun yol verilən səviyyəsinin müəyyən olunmasına yanaşmanın işlənib hazırlanması ilə bağlı mürəkkəb işin aşkar son nəticəsidir. Risk strategiyası anlayışı da məhz bundan ibarətdir. Risk strategiyasının işlənib hazırlanması bir neçə mərhələdən keçir:

- müəyyən bank əməliyyatları həyata keçirilərkən konkret risk növünü artıran və ya azaldan amillərin aşkar edilməsi;

- aşkar edilmiş amillərin riskə təsiri baxımından onların təhlili;

- konkret risk növünün dəyərləndirilməsi;

MUHASIBAT.AZ

- məqbul risk səviyyəsinə uyğunluq nöqteyi-nəzərindən ayrı-ayrı əməliyyatların təhlili;

- riskin azaldılması üzrə tədbirlərin işlənib hazırlanması.

Riskin konkret növünün dəyərləndirilməsi göstərir ki, bank müəyyən itkilər verəcək, habelə itkilərin həcmi və onların yaranması ehtimalı arasında asılılıq mövcuddur. Həmin asılılıq qrafik şəkildə risk əyrisi kimi verilmişdir (şəkil 17.2). Bu əyri xətt şəkil 17.1-də verilmiş birbaşa asılılıqdan daha mürəkkəbdir.

Şəkil 17.2. Risk əyrisi

İtkilərin yaranması tezliyi (ehtimalı)

Mümkün itkilər

Risk əyrisi dörd risk sahəsinə bölünür:

- risksiz sahə üçün bank əməliyyatları aparılarkən heç bir itkinin olmaması və ən azı hesablanmış mənfəətin əldə olunması səciyyəvidir. Şəkil 17.2-də risksiz sahənin aşağı sərhədi A nöqtəsindən keçir, yuxarı sərhədi isə müəyyən olunmamışdır, çünki bankın nəzəri mənfəəti məhdudlaşdırılmır;

- yol verilən risk sahəsində (şəkil 17.2-dəki AB sahəsi) mümkün itkilərin səviyyəsi hesablanmış mənfəətin həcmindən artıq deyil. Bu sahədə əməliyyatlar apararkən bankın riski yalnız ondan ibarətdir ki, ən pis halda bank mənfəət əldə etməyəcək, lakin çəkilmiş məsrəflər ödəniləcəkdir. Xırda itkilər baş verdikdə isə bank hesablanmış mənfəətdən az mənfəət qazana bilər;

- yol verilməyən risk sahəsində (şəkil 17.2-dəki BC sahəsi) hesablanmış mənfəətdən artıq, lakin gəlirin (hesablanmış mədaxil) ümumi məbləğindən az itkilər ola bilər. Bu halda bank həyata keçirəcəyi əməliyyatdan əldə edilməsi gözlənilən mədaxili tamamilə itirmək təhlükəsi ilə üzləşir;

- kritik risk sahəsi (şəkil 17.2-dəki CD sahəsi) bankın öz vəsaitlərinin həcminə bərabər olan itkilər ehtimalını nəzərdə tutur. Belə bir vəziyyət bankın müflisləşməsi ilə eyniləşdirilir, odur ki, bank təcrübəsində onu istisna etmək

MUHASIBAT.AZ

lazımdır. Burada D_1 nöqtəsi bankın öz vəsaitlərinə bərabər olan mümkün itkilərin həcmini göstərir.

Risk əyrisinin qurulması üçün stastik üsuldan, ekspert dəyərləndirmələri üsulundan və analitik üsuldan istifadə edirlər.

Statistik üsuldan istifadə edərkən itkilərin müəyyən səviyyəsinin yaranması tezliyi müəyyən olunur (itkilərin konkret səviyyəsinin baş vermə halların sayı statistik seçimdəki halların ümumi sayına bölünür). Daha sonra itkilərin yaranma tezliyi ilə onların mümkün həcmi arasındakı asılılığın qrafiki qurulur.

Ekspert dəyərləndirmələri üsulu risk əyrisinin ekspertlərin məlumatları əsasında qurulmasını nəzərdə tutur. Bu üsuldan istifadə zamanı mütəxəssislər tərəfindən dəyərləndirmələrin toplanıb öyrənilməsi bütün risk amilləri və statistik məlumatlar nəzərə alınmaqla gerçəkləşdirilir. Mümkün itkilər və ekspert dəyərləndirmələrinin orta qiymətləri (itki ehtimalları) arasında asılılıq qrafikinin qurulması üçün mümkün qədər çox ilkin məlumat (başlanğıc nöqtələri) toplamaq lazımdır. Ekspert dəyərləndirmələrinin sayı az olduqda obyektiv risk əyrisinin qurulması çətinləşir.

Analitik üsul oyun nəzəriyyəsinə əsaslanır və hal-hazırda demək olar ki, tətbiq edilmir.

İtikilərin müəyyən səviyyəsinin yaranması ehtimalları əyrisinin qurulmasının qeyd edilən üsulları eyni əhəmiyyətə malik olmasa da, istənilən bank əməliyyatının aparılması riskini təxmini dəyərləndirməyə imkan verir. Lakin istənilən halda bank riski müəyyən edilməli və hesablanmalıdır. Hesab olunur ki, aşağıdakı düstur bank riskinin ümumi həcminin yol verilmə dərəcəsini daha düzgün müəyyən edir:

Düstur (17.1)

MUHASIBAT.AZ

Burada C_r bank riskinin ümumi həcminin yol verilmə dərəcəsi, P bütün əməliyyatlar üzrə bank riskləri və ya risk nəzərə alınmaqla ölçülüb-biçilmiş aktivlər, K bankın kapitalı, P_x isə bankın xarici risklərdir.

Bu düstur müəyyən dövr ərzində bank riskinin maksimum mümkün dərəcəsini əks etdirir, həmin müddətdən sonra bank iflasa uğrayır. Hesab olunur ki, 17.1 düsturunun maksimum yol verilən qiyməti 10-dan artıq olmamalıdır. Səciyyəvidir ki, hal-hazırda bank risklərinin müxtəlif təsnifatları da mövcuddur. Həmin riskləri aşağıdakı kimi təqdim etmək olar (şəkil 17.3).

Şəkil 17.3. Bank riskləri

Bank rskləri öyrənilərkən aşağıdakılar nəzərə alınmalıdır:

- ölkə iqtisadiyyatının vəziyyəti: böhran şəraitində bu vəziyyət ümumi daxili məhsulun həcminin azalması, inflyasiyanın artması, əksər müəssisə və təşkilatların maliyyə sgbatsızlığı ilə səciyyələnə bilər;
- bank sisteminin inkişaf dərəcəsi;
- bank işinə dair əsas qanunvericilik aktlarının olmaması və ya natamam olması, hüquqi baza ilə real vəziyyət arasındakı uyğunsuzluq;
- ölkədəki sosial-siyasi vəziyyətin sabit olmaması.

Ona görə də bank risklərinin müxtəlifliyinin öyrənilməsində yalnız kompleks şəkildə, hərtərəfli yanaşma müsbət nəticə verə bilər. Bu problemi çətinləşdirən odur ki, bank riskinin bu və ya digər növünün azalması bank fəaliyyətində ziddiyyətli nəticələrə gətirib çıxara bilər. Bu mənfi halın azaldılması üçün konkret bank riskinin xarakteristikasına tam aydınlıq gətirilməlidir. Əks təqdirdə bank təcrübəsi xeyli dərəcədə qeyri-müəyyənliyə malik olacaq.

MUHASIBAT.AZ

17.2. BANK RİSKLƏRİNİN ƏSAS NÖVLƏRİNİN XARAKTERİSTİKASI

Risklərin idarə etmə sistemini qurmağa başlayan istənilən bankın qarşılaşdığı əsas problemlərdən biri bank risklərini xarakterizə edən göstəricilərin optimallaşdırılmasıdır. Məsələ bundadır ki, böyük sayda göstəricilər üzərində nəzarəti ilkin mərhələdə dərhal müəyyənləşdirmək, demək olar ki, mümkün deyil. Ona görə də göstəricilərin məhdud sayı seçilir və onları tədqiq edən bank rəhbərliyi minimal risklə keçirilən bank əməliyyatlarının qanunauyğunluğunu daha effektiv şəkildə izləmək iqtidarında olur. Bank risklərini xarakterizə edən göstəricilərin optimallaşdırma probleminin həlli onların ölçmə üsullarının bircinslik əlamətinə görə aparıla bilər. Məsələn, kredit riskini, valyuta riskini, faiz riskini, bazar riskini, depozit riskini, likvidlik riskini göstərmək olar. Bank risklərinin prioritet seçimində digər kriteriyalar da mövcud ola bilər. Bununla belə, adətən, əvvəlcə daxili riskləri analiz edirlər, çünki daxili risklər bank fəaliyyətinin effektivliyi ilə birbaşa əlaqədardır.

Kredit riski – müştərilər, kontraqentlər və ya emitentlər tərəfindən bank qarşısındakı öhdəliklərin yerinə yetirilməməsi (və ya qeyri- dəqiq yerinə yetirilməsi) nəticəsində, yaxud bankın qarant verdiyi sövdələşmələr üzrə öhdəliklərin yerinə yetirlməməsi nəticəsində bankın pul axını strukturunun əlverişsiz şəkildə dəyişməsindən yaranan potensial itkilərdir. Bu kateqoriyaya borcalanların birbaşa kreditləşməsi ilə və onlara kredit xarakterli xidmətlərin göstərilməsi ilə bağlı risklər, həmçinin bankın açıq bazardakı sövdələşmələrində hesablaşma şərtlərinin pozulması ilə bağlı risklər də daxildir.

Kredit riski, faktiki olaraq, borcalan tərəfindən əsas borcun və ona hesablanmış faizlərin vaxtında qaytarılmaması ilə bağlı itkilərin ehtimalını ifadə edir. Kredit riski bir sıra başqa riskləri (strateji risk, innovasiya riski, əməliyyat riski, texnoloji risk, qeyri balanslı likvidlik riski, ehtiyat bazasının

MUHASIBAT.AZ

formalaşdırılması riski, faiz riski, valyuta riski, bazar riski) özündə birləşdirən geniş anlayışdır. Kredit əməliyyatlarının risk dərəcəsinin ifadəsi kredit təbiətli əməliyyatların (kreditlər, faktorinq, veksel uçotu, qarantların təqdim edilməsi) digər aktivlərlə müqayisədə daha yüksək faiz stavkasından ibarətdir. Kredit stavkaları müddətli vəsaitlərin dəyərini, təminat dəyərinin dəyişmə riskini və borcalan tərəfindən öhdəliklərin yerinə yetirilməməsi riskini banka kompensasiya etməlidir. Borcalan tərəfindən öhdəliklərin yerinə yetirilməməsi riski müştərinin kredit qabiliyyəti adlanan anlayışda birləşmiş böyük sayda faktorlarla müəyyənləşir: hüquqi səlahiyyət, maliyyə vəziyyəti, müştərinin nüfuzu, təqdim olunan təminatın keyfiyyəti, şirkətin inkişaf proqnozu, bazar riski və başqaları. Qiymətləndirmənin düzgünlüyü qiymətləndirmə üsulunun seçiminin əsaslandırılmasından, müştərinin maliyyə vəziyyətinin dəyişməsinə vaxtında göstərilmiş reaksiyadan asılıdır. Kredit risklərinin idarə edilməsi aşağıdakı üsullarla həyata keçirilir:

- borc portfelinin və bank investisiyalarının diversifikasiyası;
- borcalanın kredit qabiliyyətinin ilkin analizi;
- verilən kreditlərin dəyərinin qiymətləndirilməsi və sonradan müşayiət edilməsi;
- kreditlərin sığortalanması;
- kifayət qədər təminatın cəlb olunması.

Kredit riskinin diversifikasiyası bankın kreditləşmə və kapital qoyma imkanlarının yerləşdirilməsini nəzərdə tutur. Məhdud sayda borcalanlar arasında kreditlərin sıxlıq dərəcəsinin və kreditləşmənin ümumi həcminin artması nəticəsində kredit riski də artır. Bundan başqa, kreditlərin müddətlər üzrə, təyinat üzrə, təminat növü üzrə, kredit normalarının müəyyənləşdirmə üsuluna görə, sahələrə görə yerləşdirilməsi baş verir. Diversifikasiya məqsədilə kreditin rasionallaşdırılmasını həyata keçirmək, kreditləşmənin üzən limitlərini daxil etmək lazımdır. Faiz stavkasının səviyyəsindən asılı olmayaraq, kreditlərin bu limitdən artıq dərəcələ təqdim edilməsi mümkün deyil.

MUHASIBAT.AZ

Kreditləşmə riskinin aşağı salınma üsullarından ən effektlisi kredit qabiliyyətinin ilkin analizidir. Riskin məqbulluq nöqteyi nəzərincə personalın peşəkarlığına verilmiş yüksək tələblər təmin edilirsə və təsərrüfat subyektinin qurulma mərhələsindən, əməliyyatların həcmindən asılı olaraq müştərilərin kredit qabiliyyətlərinin qiymətləndirilmə üsullarının düzgün seçimi təmin edilərsə, nəticə daha çox nəzərə çarpacaq.

Verilən kreditlərin dəyərinin qiymətləndirilməsi və sonrakı müşayiəti kreditlərin risk qrupları üzrə təsnifatalanması ilə və risk qrupundan asılı olaraq şübhəli borclar üzrə ehtiyatın yaradılması ilə ifadə olunur. Ehtiyatın yaradılması bankın xərclərinə aid edilən məbləğlər hesabına baş verdiyinə görə bu həm də bank üçün kredit dəyəri anlayışının müəyyən hissəsini təşkil edir.

Kreditin sığortalanması sığorta ilə məşğul olan təşkilata onun qaytarılmama riskinin bütövlükdə ötürülməsini nəzərdə tutur. Hal hazırda kreditlərin sığortalanması ilə bağlı müxtəlif variantlar mövcuddur. Lakin onların həyata keçirilməsi ilə bağlı bütün xərclər, bir qayda olaraq, borc götürənlərin üzərinə qoyulur.

Kifayət qədər təminatın cəlb edilməsi o deməkdir ki, bank verilən kreditin və onun faizlərinin bütünlüklə qaytarlıması barədə qaranta malik olur. Mühüm fakt ondan ibarətdir ki, borcun təminat ölçüsü təkcə verilən kreditin məbləğini yox, həm də onun faiz məbləğini ödəyir. Bununla belə, kredit riskindən müdafiə zamanı üstünlük itkilərin örtülməsi üçün nəzərdə tutulmuş kifayət qədər təminatın cəlb edilməsinə yox, bu itkilərin yol verilməməsinə və borcalanın kredit qabiliyyətinin analizinə verilməlidir. Məsələ bundadır ki, borc verilərkən onun ödənilməsi üçün təminat rolunu oynayan aktivlərin satılacağı nəzərdə tutulmur, borcun vaxtında və kredit müqaviləsindəki həcmə uyğun şəkildə qaytarılacağı nəzərdə tutulur.

Müasir bank təcrübəsi göstərir ki, kredit riski bankın malik olduğu bütün balans aktivlərində və hətta bankın iştirak etdiyi balansdankənar əməliyyatlarda da mövcud olur (şəkil 17.4).

MUHASIBAT.AZ

Potensial kredit risklərinin xarakteri əməliyyatlardan, bir çox hallarda isə əməliyyatın mərhələsindən asılı olaraq dəyişilir. Bəzi əməliyyatlarda sövdələşmənin bütün məbləği (faizin nəzərə alınması ilə) mümkün tikilər riskinə məruz qalır. Digər hallarda (məsələn, forvard sövdələşmələrdə) mümkün risk, adətən, sövdələşmə anında şərtləşdirilmiş qiymət və cari bazar qiyməti arasındakı fərqlə məhdudlaşır. Bununla belə, forvard valyuta əməliyyatında kreditin ödəniş mərhələsindəki kredit riski sövdələşmənin bütün məbləğinə aid olur. Bu zaman kredit riskini iki növə ayırmaq olar:

1) borcalanla əlaqədar olan və potensial itkilərin ehtimalını nəzərdə tutan risk;

2) müştəri tərəfindən sövdələşmə şərtlərinin yerinə yetirilməməsi zamanı pul itkilərinin ölçülərini qiymətləndirən daxili kredit riski (17.5).

Krdit risklərinin idarə edilməsi zamanı ən məsuliyyətli mərhələ kreditin verilmə anında , yəni riskin gizli faza dövründə onun qiymətləndirilməsidir. Bu məqsədlə də potensial borcalan tərəfindən təqdim olunmuş kredit təklifini qiymətləndirmək lazımdır.

Kredit riski

Pul bazarındakı fəaliyyət
Komissiyaya görə yerinə yetirilən başqa əməliyyatlar
İnvestisiyalar və qreydinq
Nağd hesablaşmalar
Köçürmələr
Fidusiar (etibarlı) xidmətlər
Ticarətin maliyyələşdirilməsi
Qeyri- nağd hesablaşmalar
Müştərilərin əmanətləri
Kreditlər və kredit öhdəlikləri

Şəkil 17.4. Kredit riski ilə bağlı olan əsas bank əməliyyatları

MUHASIBAT.AZ

Valyuta riski valyuta kurslarının dəyişmələri ilə əlaqədardır. Xarici valyuta ilə həyata keçirilən müxtəlif əməliyyatlarda bank bu riskə məruz qalır. Riskin bu növü xarici valyutanın real qiymətinin dəyişməsi ilə və xüsusən üzən valyuta kurslarına keçid zamanı onların dayanıqsızlığı ilə əlaqədardır. Valyuta riski kurs riskinə və inflyasiya riskinə ayrılır. Valyuta riski milli valyuta qiymətinin xarici valyutaya nəzərən gələcək hərəkətinin qeyri müəyyənliyi ilə əlaqədardır. Bu risk xarici valyutada sövdələşmə aparan kreditorlara, borcalanlara, investorlara və alverçilərə təsir edir. Valyuta riski özündə iqtisadi riski, köçürmə riskini, sövdələşmə riskini birləşdirir.

Borcalan üzrə risk

Ölkənin (reqionun) riski

Borcalan tərəfindən öz öhdəliklərinin yerinə yetirilməməsi riski

Köçürmələrin məhdudluq riski

Sıxlıq riski

KREDİT RİSKİ

Əsas borc məbləğinin ödənilməməsi

Faizlərin ödənilməməsi riski

Daxili risk

Borcalanın əvəzlənmə riski

Əməliyyatın yekunlaşma riski

Kreditin təminat riski

Şəkil 17.5. Kredit riskinin differensiallaşdırılması

MUHASIBAT.AZ

Şirkət üçün iqtisadi risk ondan ibarətdir ki, onun aktivlərinin və passivlərinin dəyəri (qiyməti) valyuta kursunun gələcək dəyişmələrinə görə çox və ya az tərəfə (milli valyutada) dəyişə bilər.

Köçürmə riski mühasibat təbiətlidir və aktivlərin, passivlərin xarici valyuta uçotundakı fərqləri ilə əlaqədardır. Belə ki, məsələn, aktivlərin ifadə edildiyi xarici valyuta kursu aşağı düşürsə, onların dəyəri də aşağı düşür.

Sövdələşmə riskinin yaranma səbəbi xarici valyuta sövdələşməsinin milli valyutadakı dəyərinin gələcəkdəki qeyri müəyyənliyidir. Ona görə də bank üçün müştərilərinin valyuta sövdələşmələrindən xəbərdar olmaq çox vacibdir.

Müxtəlif üsulları tətbiq etmək yolu ilə valyuta riskini azaltmaq olar. Müdafiə düzəlişləri, valyuta düzəlişləri, həcləmə və başqaları bu qəbildəndir.

Müdafiə düzəlişləri tərəflərin razılığı ilə dövlətlərarası iqtisadi razılaşmalara daxil edilən elə müqavilə şərtləridir ki, müqavilənin icra prosesində onun ilkin şərtlərinin dəyişdirilməsi (yenidən nəzərdən keçirilməsi) imkanını nəzərdə tutur.

Valyuta düzəlişi – ödəniş valyutası ilə düzəliş valyutası qismində müəyyənləşdirilmiş daha dayanıqlı başqa bir valyuta (valyuta qrupu) arasındakı kurs münasibətlərindən asılı olaraq dəyişilən pul öhdəliklərinin məbləğidir.

Həcləmə (çəpərləmə) xarici valyutada qarşılıqlı tələblərin və öhdəliklərin yaradılmasını nəzərdə tutur. Həcləmənin daha çox yayılmış növü təcili valyuta sövdələşmələrinin bağlanmasıdır. Məsələn, 6 aydan sonra ABŞ dollarlarının daxil olacağını gözləyən ingilis ticarət şirkəti bu gələcək daxilolmaları funt sterlinqlərə təcili kursla 6 aylığa satmaq yolu ilə həcləməni həyata keçirir. Təcili valyuta razılaşmasını həyata keçirən şirkət mövcud dollar tələblərinin balanslaşdırılması üçün dollar öhdəliyi yaradır. Dollar kursunun funt sterlinqə qarşı aşağı düşməsi baş verərsə, ticarət müqaviləsindəki itkilər təcili valyuta sövdələşməsinin gəlirləri hesabına kompensasiya ediləcək.

Banklar valyuta riskini azaltmaq məqsədilə aşağıdakıları həyata keçirir:

MUHASIBAT.AZ

- borcun bir valyutada verilməsi və kredit müqaviləsində qeyd edilmiş forvard kursunun nəzərə alınması ilə digər valyutada ödənmə şərtinin irəli sürülməsi;
- bankla müştəri arasında xarici valyutanın alqı satqısı barədə təcili razılaşmanın bağlanmasını, razılaşmada sövdələşmə məbləğinin və forvard dəyişmə kursunun qeyd olunmasını nəzərdə tutan forvard valyuta müqavilələri;
- gələcəkdə müəyyən gündə xarici valyutanını müəyyən miqdarını almaq və ya satmaq barədə razılaşmanı nəzərdə tutan valyuta fyuçers müqavilələri;
- sahibinə məhdud zaman dövründə və ya bu dövrün sonunda xarici valyutanın müəyyən miqdarını müəyyən kursla almaq hüququnu (lakin almaq öhdəliyini yox) verən valyuta opsionları. «Koll» tipli valyuta opsionu onun alıcısına müqavilədə göstərilmiş valyutanı qeyd olunmuş kursla almaq hüququnu verir (opsionun satıcısı uyğun valyutanı qeyd olunmuş kursla satmaq məcburiyyətindədir). «Put» tipli valyuta opsionu onun alıcısına müqavilədə göstərilmiş valyutanı qeyd olunmuş kursla satmaq hüququ verir (opsionun satıcısı uyğun valyutanı verilmiş kursla almaq məcburiyyətindədir);
- ödəniş seriyalarının gələcəkdə müxtəlif valyutalarda mübadiləsi barədə iki tərəf arasındakı razılaşmanı nəzərdə tutan valyuta svopları. Passivlərin valyuta svopları faizlərin və əsas borcun bir valyutadakı ödəniş öhdəliklərinin digər valyutadakı uyğun öhdəliklərlə mübadiləsini nəzərdə tutur. Bu isə uzunmüddətli valyuta riskinin azaldılması ilə yanaşı, həm də vəsaitlərin cəlb edilməsi ilə bağlı xərclərin azaldılmasına imkan yaradır. Aktivlərin valyuta svopları tərəflərə hər hansı bir aktivin bir valyutadakı pul gəlirlərini digər valyutadakı analogi gəlirlərlə mübadilə etmək imkanı verir. Bu isə uzunmüddətli valyuta riskini azaltmağa və aktivlərin gəlirliliyini artırmağa imkan verir;

MUHASIBAT.AZ

- xarici valyuta ilə həyata keçirilən əməliyyatlarda istifadə olunan ödənişlərin sürətləndirilməsi və ya ləngidilməsi. Valyuta riskindən müdafiə olunmaq üçün və ya valyuta kurslarının dəyişmələrindən mənfəət almaq üçün bu üsuldan istifadə olunur. Bununla belə, itkilərlə bağlı riskin olması yenə də mümkündür, çünki valyuta kursunun dəyişmə istiqamətinin əvvəlcədən düzgün şəkildə duyulmaması tamamilə mümkündür;
- bankın xarici valyutada olan valyuta vəsaitlərinin diversifikasiyası. Bu, valyutanın kurs dəyişmələrinin daima müşahidə edilməsini nəzərdə tutur;
- valyuta riskinin sığortalanması bütün riskin sığorta şirkətinə ötürülməsini nəzərdə tutur.

Faiz riski bazarın faiz stavkalarının dəyişmələri, enib-qalxmaları ilə bağlıdır. Risk onunla əlaqədardır ki, kreditin verilməsi ilə şərtlənən bankın cəlb edilmiş vəsaitlərinin orta dəyəri kreditin fəaliyyət dövrü ərzində kreditlər üzrə orta faiz stavkasını ötüb keçə bilər. Faiz riskinin idarəetməsi həm aktivlərin (kreditlərin və investisiyaların) idarəetməsini, həm də öhdəliklərin (borc vəsaitlərinin) idarəetməsini ehtiva edir. Bu idarəetmənin özünəməxsus xüsusiyyəti onun sərhədlərə malik olmasıdır. Aktivlərin icarəetməsi likvidliyin tələbləri ilə və kredit riski ilə, digər bankların qiymət rəqabəti ilə məhdudlaşır. Belə qiymət rəqabəti kredit qiymətinin seçimində bankın azadlığını məhdudlaşdırır. Bank öhdəliklərinin (borc vəsaitlərinin) idarəetməsi məhdud seçimlə, bankın öz əmanətçiləri və digər kreditorları arasında istənilən zaman anında səmərəli şəkildə yerləşdiyə bildiyi borc alətlərinin ölçüsü ilə (kreditin verilməsi üçün lazım olan vəsaitlərin mümkünlüyü məhduddur), həmçinin digər bankların və qeyri bank kredit müəssisələrinin qiymət rəqabəti ilə çətinləşir.

Faiz riski ilə idarəetmənin vəzifəsi bankın gəlirliliyi və likvildik məqsədləri çərçivəsində bu riskin minimallaşdırılmasıdır. Faiz riskinin mövqe növü və struktur növü mövcuddur.

MUHASIBAT.AZ

Mövqe riski – konkret anda hər hansı bir mövqedə faiz riskidir. Məsələn, bank üzən faiz stavkası ilə kredit vermişdir. Riskin qabağını almaq üçün əmanətlərin faizlərini dəyişdirmək və bank balansının aktivləri və passivləri üzrə faizləri bərabərləşdirmək lazımdır.

Struktur riski – faiz stavkalarının enib-qalxmaları ilə əlaqədar olaraq pul bazarındakı dəyişikliklər nəticəsində bütövlükdə bank balansında olan riskdir.

Ona görə də faiz riski həm faizlərdən alınan gəlirə, həm də bütövlükdə bank balansına təsir edir. Faiz riskinin səbəbləri faiz normasının (stavka) müxtəlif növləri arasında (sabit, qeyd olunmuş, üzən, azalan və başqaları) düzgün seçimin olmaması, kredit müqaviləsində faiz stavkalarının mümkün dəyişikliklərinin nəzərə alınmaması, mərkəzi bankın faiz siyasətindəki dəyişikliklər, kreditin bütün istifadə müddəti üçün vahid faizin müəyyənləşdirilməsi, bankda faiz siyasətinin hazır strategiyasının olmaması, kredit qiymətinin, yəni faiz stavkasının düzgün müəyyənləşdirilməməsidir.

Əgər balansın aktivində faiz riski əmələ gəlirsə, passivdə onun kompensasiyası nəzərdə tutulmalıdır. Elə bu məqsədlə də müştəri ilə maksimal və minimal faiz haqqında razılaşma bağlamaq olar. Faiz riski, faktiki olaraq, bankın cəlb olunmuş və yerləşdirilmiş vəsaitləri üzrə qiymət şərtlərinin yenidən baxılma müddətlərinin uyğunsuzluğu nəticəsində bazar faiz stavkalarının dəyişmələrindən yarana bilən potensial itkiləri ifadə edir. Adətən, faiz riskini bazar riski kateqoriyasına aid edirlər. Lakin riskin bu növünün müstəqil ölçü metodikasına malik olduğunu nəzərə alaraq onu ayrı bir kateqoriyaya aid edirlər.

Faiz riskinin aşağı düşməsini aşağı yollarla həyata keçirmək olar:

- faiz riskinin sığortalanması uyğun riskin bütünlüklə sığorta müəssisəsinə verilməsini nəzərdə tutur;
- üzən faiz stavkalı kreditlərin verilməsi. Bu isə bazar faiz stavkalarının enib-qalxmalarına uyğun olaraq, verilən kreditin faiz stavkasında uyğun dəyişikliklər etmək imkanını banka verir;

MUHASIBAT.AZ

- bankla müştəri arasında kreditin şərtləşdirilmiş gündə, müəyyən ölçüdə və müəyyənləşdirilmiş faizlə verilməsi barədə xüsusi forvard müqaviləsinin bağlanmasını nəzərdə tutan təcili razılaşmaların istifadə olunması. Bu halda gələcək kreditin ölçüsü və tarixi, o cümlədən kreditdən istifadə haqqı əvvəlcədən qeyd olunur. Belə həcləmə üsulu faiz stavkalarının enib-qalxmaları ilə əlaqədar olan riskin bank və borcalan arasında bölüşdürülməsinə imkan verir;
- faiz fyuçers müqavilələrinin tətbiqi. Bu müqavilələr faiz stavkaları ilə oynamaq üçün təcili müqavilələri təmsil edir. Onlar bazar faiz stavkalarının enib-qalxmalarından öz xeyri üçün istifadə etmək və faiz riskini örtmək üçün lazımdır;
- faiz opsionlarının keçirilməsi. Bu, opsion sahibinə gələcəkdə müəyyən tarixə qədər və ya müəyyən tarixdən başlayaraq müəyyən maliyyə alətini (qısamüddətli borc və ya depozit) qeyd olunmuş qiymətlə almaq və ya satmaq hüququnu (lakin öhdəliyini yox) verən razılaşmanı nəzərdə tutur;
- faiz svoplarının istifadəsi. Müxtəlif şərtlər daxilində eyni bir məbləğə bağlanmış kredit öhdəlikləri üzrə faiz ödənişlərinin mübadiləsini (lakin əsas borcun ödənişləri üzrə yox) nəzərdə tutur. Bu halda faiz stavkası üzən, qeyd olunmuş olmaqla yanaşı, həm də borc kapitallarının müxtəlif bazarlarındakı stavkalara istiqamətlənmiş ola bilər.

Bazar riski bazarda alqı-satqı əşyası rolunu oynayan pul-maliyyə alətlərinin yenidən qiymətləndirilməsi nəticəsində yarana bilən mümkün itkilərlə bağlıdır. Bununla belə, bu kateqoriyaya valyuta və faiz riski, qiymətli kağızların, törəmə maliyyə alətlərinin bazar qiymətinin dəyişmə riski, faktorinq və lizinq əməliyyatlarının həyata keçirilmə riski və başqaları da daxildir. Qiymətli kağızlara qoyulan pullar bazar riskinə daha çox məruz qalır. Bu qiymətli kağızların bazar qiyməti tələb və təklifin təsiri ilə formalaşır, yəni kotirovka olunur. Qiymətli kağızların kotirovkasına borc faizi normasının enib-qalxmaları (faiz stavkalarının artımı qiymətli kağızların qiymətdən

MUHASIBAT.AZ

düşməsinə gətirib çıxarır), emitent şirkətlərin gəlirliliyinin və maliyyə vəziyyətinin dəyişməsi, pulların qiymətdən düşməsi təsir göstərə bilər. Bazar riskinin aşağı salınması məqsədilə banklar aşağıdakıları həyata keçirir:

*qiymətli kağızların alqı satqısı ilə bağlı fyuçers müqavilələri. Bu müqavilələr onların sahibinə uyğun qiymətli kağızları əvvəlcədən müəyyənləşdirilmiş kursla almaq və satmaq hüququ verir. Belə fyeçerslər qiymətli kağızların bazar qiymətinin enib –qalxmalarında «oynamaq» imkanı və ya enib-qalxmalardan yaranan itkilər riskini azaltmaq imkanı verir;

- fond opsionları, yəni səhmləri (fond birjasında dövr edən digər qiymətli kağızları) şərtləşdirilmiş müddət ərzində almaq və yə satmaq hüququ;
- investisiya portfelinin diversifikasiyası. Belə diversifikasiya qiymətli kağızların qiymətdən düşməsinə qarşı ən mühüm müdafiə vasitəsidir.

Depozit riski əmanətlərin əmanətçilər tərəfindən vaxtından əvvəl götürülməsi ilə bağlıdır. Ona görə də öz ehtiyat bazasını formalaşdıran bank pul-maliyyə bazarında vəziyyətin dəyişməsi zamanı vəsaitlərin cəlb edilməsi ilə bağlı xərclərin artma ehtimalını nəzərə almalıdır. Depozit siyasətin məqsədi müəyyən aktiv əməliyyatları həyata keçirmək üçün bankı müəyyən vaxt çərçivəsində və müəyyən qiymətə malik vəsaitlərlə təmin etməkdir. Bu siyasətin həyata keçirilməsi iki əks məsələnin yerinə yetirilməsi deməkdir: ehtiyat bazasının stabilliyi və onun formalaşdırılma xərclərinin minimallaşdırılması.

Uzunmüddətli əmanətlərin həcmə və müddətə görə uzunmüddətli depozitlərlə balanslaşdırılması ən optimal variantdır. Əks halda elə bir risk yarana bilər ki, depozit müddəti sona çatan zaman bank vəsaitlərin bahalaşma problemi qarşısında qalar və vəsaitlərin uzunmüddətli qoyuluşları nəticəsində itkilərlə üzləşər. Müştərilərinin sayı çox olmayan banklar buna xüsusi diqqət yetirməlidirlər. Belə banklarda 10-larla müştərinin ödənişləri müxbir hesabının vəziyyətini müəyyənləşdirir. Daha iri banklar aktiv və passiv əməliyyatların müddətləri üzrə uyğunluğun kiçik faizini özlərinə rəva görə bilərlər. Buna

MUHASIBAT.AZ

səbəb hesablar üzrə orta qalıqların böyük stabilliyi və vəsaitlərin borc götürülməsində xarici bazara sürətli çıxışın olmasıdır.

Depozit bazasının formalaşdırılmasında riskin daha bir təzahür forması əldə edilməmiş gəlirlər şəklində itkilərdir. Buna səbəb hesablaşma-kassa xidmətini həyata keçirmək üçün (ezamiyyətlər və əmək haqqı avanslarının verilməsi, depozitin nağd pulla çıxarılması və s.) ehtiyat bazası həcminin müəyyən faizinin nağd pul şəklində saxlanması zərurətidir. Bank üçün bunlar gəlir gətirməyən aktivlərdir. Onların ölçüsü xarici şəraitdən (banka, dövlətə etibarlılq səviyyəsi) və bank müştərilərinin strukturundan asılıdır. Belə ki, ticarət müəssisələrinin yüksək faizi nağd pul inkassasiyasının böyük həcmi deməkdir. Ona görə də əhali depozitlərinin nağd pulla qaytarılması üzrə öhdəliklərin təmin edilməsi üçün nağd pulun xüsusi olaraq ehtiyatda saxlanmasına ehtiyac qalmır. Nağd pul axınlarının mövsümi, aylıq dəyişmələrinin nəzərə alınması da çox vacibdir. Məsələn, əhalinin əmanətləri ilə işləyən, kommunal ödənişləri və əmək haqqının verilməsini həyata keçirən kommersiya bankı müqavilələri elə dövr üçün tərtib etməlidir ki, ödənişlər kütləvi kommunal ödənişlərin dövrü ilə üst - üstə düşsün, lakin əmək haqqının verilməsi ilə üsi üstə düşməsin.

Ehtiyat bazasının yerləşdirilməsi faktoru da mühüm əhəmiyyət kəsb edir. Hesab olunur ki, kredit əməliyyatlarına depozit məbləğinin 85% -ni və daha artıq qoyan bank riskli depozit siyasəti yürüdür. Məsələ ondadır ki, kredit əməliyyatları ehtiyat bazası ilə müqayisədə pulun vaxtında və xüsusilə də vaxtından tex çıxardılması məsələsində daha az elastikliyə malikdirlər. Bu, qismən daha yüksək faiz stavkası ilə kompensasiya olunur və onun da bir hissəsi itkilərlə bağlı riskdir. Qismən daha likvid, lakin gəlirliliyi az olan aktivlərə yerləşdirilməklə kompensasiya olunur. Mərkəzi bank müqavilənin bağlandığı müddətdən asılı olaraq cəlb edilmiş vəsaitlərin müəyyən hissəsinin mütləq şəkildə ehtiyatda saxlanması yolu ilə bu riskin təsirini azaldır.

Likvidlik riski bank tərəfindən öz öhdəliklərinə cavab vermək qabiliyyətinin müvəqqəti şəkildə itirilməsi nəticəsində yarana bilən potensial

MUHASIBAT.AZ

itkiləri ifadə edir. Likvidlik riskinin yaranma səbəbi bank tərəfindən onun əsas funksiyalarından birinin – cəlb edilən və yerləşdirilən vəsaitlər arasında müddətlərin transformasiya (dəyişmə) funksiyasının həyata keçirilməsidir. Ona görə də likvidlik riski maliyyə aktivlərinin ödəniş vasitələrinə itkisiz və sürətli konversiyasınını mümkünsüzlüyü ilə əlaqədardır.

Banklar likvidliyin iki təminat mənbəyinə – daxili və xarici mənbəyə malikdirlər. Daxili likvidlik tez reallaşan aktivlərin müəyyən növlərində təmsil olunmuşdur. Belə aktivlər üçün dayanıqlı bazar var və onlar investorun gözündə pul yatırımlarının etibarlı obyekti rolunu oynayırlar. Xarici likvidliyin təmin edilməsi bank tərəfindən bazarda elə öhdəliklərin əldə edilməsi yolu ilə baş verir ki, bu öhdəliklər onun likvid vəsaitlər ehtiyatını artırsın. Məsələn, digər bankdan ehtiyat qalıqların alınması, ötürülən əmanət sertifikatlarının əldə edilməsi bu qəbildəndir. «Öhdəliklərin idarəetmə» siyasətini yürüdən bank təkcə öz likvidliyini yüksəltmir, həm də əldə edilmiş vəsaitlərdən xeyirlə istifadə edərək özünü əlavə gəlirlə təmin edə bilir.

Əgər əvvəllər banklar əsasən daxili likvidliyin təmin edilməsinə diqqət yönəldir və asanlıqla reallaşan (lakin gəlirliliyi az olan) aktivlərin ehtiyatını yaratmağa çalışardılarsa, indi iri bankların strategiyası əhəmiyyətli şəkildə dəyişmişdir. Onlar ümumi likvidlik balansını həm aktivlərin, həm də passivlərin uzlaşdırılmış idarəetməsi hesabına təmin etməyə çalışırlar. Belə əməliyyatlar üçün kifayət qədər vəsaitə və təcrübəli personala malik olmayan xırda banklar əvvəlki kimi yenə də likvid aktivlər ehtiyatının yaradılmasına ümid edirlər. İri müəssisələr isə passivlərin idarəetməsi ilə bağlı aqressiv siyasət yürüdür və likvidliyi balansın aktivində toplamağa cəhd göstərmirlər. İri müəssisələr yüksək nüfuza və sambala malik olduqlarına görə likvidliyin istənilən anda əldə edilməsi üçün müxtəlif növ razılaşmaların və əməliyyatların köməyi ilə maliyyə bazarları mexanizmindən istifadə edirlər. Məsələn, sonradan geri almaq yolu ilə qiymətli kağızların satışı barədə, bank akseptlərinin alqı satqısı barədə razılaşmalar bu qəbildəndir. Bir çox hallarda belə razılaşmaların uğuru onlar haqqında informasıyanın müəyyən mərhələdə

MUHASIBAT.AZ

gizli qalmasından asılıdır. Xarici mühitdə kimsə tərəfindən bank üçün əlverişsiz informasıyanın yayılması da likvidlik riskinin reallaşdırılmasında neqativ rol oynaya bilər. Bank tarixində belə hallar az olmamışdır. Şayiələrdən həyəcanlanmış əmanətçilər öz pullarını qısa zaman ərzində götürməyə çalışır, bu pulları etibarlı əməliyyatlara yatıran bank isə böyük tikilərlə üzləşərək bir çox hallarda müflis olurdu.

Likvidlik riskinin tənzimlənmə üsulu kredit alanın maliyyə vəziyyətinin qiymətləndirilməsinə yox, verilən kredit məbləğləri ilə bankın xüsusi vəsaitləri arasında müəyyən nisbətin qurulmasına əsaslanır. Bu isə müştərilərin müflisləşəcəyi halda mümkün itkilərin örtülməsi üçün bankda ehtiyat potensialının yaradılmasını nəzərdə tutur. Lakin bu yanaşma da risk problemini azaltmır. İqtisadi böhran şəraitində bir bankın müştəriləri olan müəssisələrin elə sayı müflisləşə bilər ki, bu, hər bir müştəriyə ayrıca verilmiş kredit təlimatına riayət edilməsinə baxmayaraq, bankın özünün də müflisləşməsinə gətirib çıxarar. Riskin bu tənzimlənmə üsulu banklarla müştərilər arasında kredit münasibətlərinin qurulmasındakı əsassızlığı azaltmır. Belə kredit münasibətləri bank müəssisələrinin maksimal gəlir götürmək və rəqibləri sıxışdırmaq cəhdi ilə müəyyənləşir.

Kommersiya bankları likvidliyin zəruri səviyyəsini təmin etmək məqsədilə aşağıdakılardan istifadə edirlər:

- kreditlərin konversiyası;
- passivlərin bütün hesab cədvəllərinin tərtib edilməsi yolu ilə aktivlərin və passivlərin yerləşdirilməsi. Məqsəd verilmiş likvidlik əmsallarının saxlanması üçün aktivlərin likvidlik maddələrinə hər bir passiv növün hansı hissəsinin yerləşdiriləcəyini üzə çıxarmaqdır;
- müştəri vəsaitlərinin cəlb edilməsi üzrə passiv əməliyyatların genişləndirilməsi;
- geri almaq şərti ilə qiymətli kağızların satışı;
- pul maliyyə bazarına kommersiya kağızlarının (sertifikatlar, istiqrazlar, veksellər) çıxarılması;

MUHASIBAT.AZ

- müxtəlif kreditlərin əldə edilməsi.

Kapital strukturunun riski ondan ibarətdir ki, əsas vəsaitlərin yenidən qiymətləndirilmə maddələrinin xüsusi çəkisi böyük olan kapital strukturunda müştərilərinin əsas vəsaitlərini kredit əməliyyatlarına qoyan bankda kreditin ödəniş müddəti cəlb edilmiş vəsaitlərin müddətindən çoxdursa, bazarda vəziyyətin dəyişilməsi aşağıdakılara gətirib çıxıra bilər. Bank əlavə itkilərlə üzləşə bildiyi kimi (vəsaitlərin bahalaşması zamanı), borcunu ödəyə bilməyən kimi qəbul edildiyindən müflisləşə (vəsaitlərin kütləvi şəkildə çıxarılması) bilər. Göstəriləndən başqa, bankın xüsusi kapital strukturunu təşkil edən bir çox müxtəlif kombinasiyalar mövcuddur. Riskin bu növünün aradan qaldırılma üsullarından biri xüsusi kapitalın real tərkibinin xüsusi çəkisinin yüksək səviyyədə saxlanmasıdır (immobilizasiya məbləği qədər, əsas vəsaitlərin köhnəlməsi, kapitalın uzunmüddətli qoyuluşları, şübhəli borclar üzrə və öz səhmdarlarından alınan səhmlər üzrə mümkün itkilərlə bağlı hesablanmamış ehtiyat məbləği qədər azaldılmış fondların, gəlirlərin, əsas vəsaitlərin yenidən qitymətləndirilmə fondunun, reallaşdırılmamış kurs fərqlərinin(nizamnamə fonduna daxil edilmiş valyuta istisna olmaqla) yekun cəmi).

Balans riskləri də daxili bank riskləri qrupunu təmsil edir. Bu, ümumiyyətlə balansın, valyuta kəsiyində balansın və mədaxil, məxaric balansının qeyri likvid strukturu üzündən əlavə xərclərlə və itkilərlə üzləşmək ehtimalıdır. Maliyyə xidmətləri riski daxili risklərə aid edilir. O, strateji riskdən, innovasiya riskindən, texnoloji və əməliyyat riskindən ibarətdir.

Strateji risk obyektiv şəkildə mövcud olan əsas riskdir. Bu riskdən qaçmaq olmaz, onun yalnız mümkünlük sərhədlərini müəyyənləşdirmək olar. Belə ki, kredit əməliyyatlarına borcun müxtəlif səbəblər üzündən (maliyyə vəziyyətinin pisləşməsi, təminatın keyfiyyəti, verilmiş sektorun iqtisadi vəziyyəti, kreditləşmənin xarakteri) qaytarılmaması riski xasdır. Bu faktorların obyektiv reallıq kimi qəbul edilməsi onların təsir səviyyəsinin qiymətləndirilməsini və ehtiyat tədbirlərinin görülməsini tələb edir (risk

MUHASIBAT.AZ

qrupundan asılı olaraq, şübhəli borclar üzrə mümkün itkilərlə bağlı ehtiyatın yaradılması və s).

İnnovasiya riskinin marketinq sahəsi ilə güclü əlaqəsi var. İnnovasiya riski bir tərəfdən yeni məhsulun, o cümlədən bank məhsulunun irəliləyişi prosesində çəkilmiş xərclərin özünü ödəyə bilməməsi ilə bağlı təhlükəni, digər tərəfdən personalın, texniki təminatın kifayət qədər peşəkar olmaması ilə bağlı təhlükəni göstərir. Məsələn, ticarət müəssisələrinin kreditləşməsində ixtitsaslaşan banka tikinti sahəsində investisiya layihəsi olan müştəri müraciət etmişdir. Belə halda layihənin müşayiəti ilə bağlı xərclərin özünü ödəyə bilməməsi problemi, həmçinin normativ və qanunverici bazaya yiyələnməklə bağlı problemlər yaranır. Yeni bank məhsullarının irəliləyişində riskin bu növünün aradan qaldırılma tədbirləri qismində ilkin tədrisə xüsusi diqqət göstərmək lazımdır. Əməliyyatların müəyyən növlərinin lisenziyalaşma mərhələsində mərkəzi bank tərəfindən nəzarətin olması zəruridir. Bu nəzarət bankda yeni xidmətlərin həyata keçirilməsi prosesinə bankın hazırlıq səviyyəsinin qiymətləndirilməsi şəklindədir.

Texnoloji risk mahiyyətcə əməliyyat riskinə yaxındır. Bu risk rabitə sistemlərinin pozulması ilə, proqram təminatında və texniki təminatda olan qüsurlarla bağlı itkilərin olma ehtimalını göstərir. Lakin riskin bu növü texnokratik tərkiblə məhdudlaşmır. Maliyyə xidmətlərinin təqdim edilmə texnologiyasının zamana və qanunvericiliyə görə qeyri adekvat olması ilə bağlı risk də bu anlayışa daxildir. Belə ki, borcun verilməsində uzlaşma sisteminin mürəkkəbliyi müştəriləri qorxuda bilər (əldə edilməmiş gəlirlər). Texnoloji riskin inkişaf tendensiyalarını üzə çıxarmaq üçün xüsusi hesabat sisteminin köməyindən istifadə etmək lazımdır. Belə hesabat sistemi real vəziyyəti qeyd etməyə və gələcəyi proqnozlaşdırmağa imkan verir.

Əməliyyat riski – müəyyən xidmətlərin göstərilməsində müxtəlif şöbələrin bir biri ilə uzlaşmaması səbəbindən və xidmətin həyata keçirilməsində hər hansı bir mərhələnin buraxılma səbəbindən yaranan mümkün itkilərdən ibarətdir. Belə ki, əlavə edilmiş və ödənmiş faizlərin uçotu

MUHASIBAT.AZ

məsələsində mühasibat şöbəsi ilə kredit şöbəsi arasında uyğunluğun olmaması əlavə edilmiş və faktiki şəkildə əldə edilmiş gəlirlərin təhrif olunmasına gətirib çıxara bilər. Bu riski azaltmaq üçün müəyyən maliyyə xidmətinin müşayiəti ilə, şöbələrin qarşılıqlı təsir sxemləri ilə və vəzifəli şəxslərin səlahiyyətləri ilə bağlı daxili təlimatlarda nizamlanma qaydalarını ətraflı şəkildə göstərmək lazımdır.

Bank risklərinin əsas daxili növləri təkcə bank biznesinə deyil, istənilən biznesə aiddir. Ona görə də bu risklərin konkretləşməsi zamanı ümumiyyətlə biznesin tövsiyələrindən istifadə etmək olar.

Bir sıra iri riskləri də ayrıca olaraq göstərmək lazımdır. Bu, hər şeydən əvvəl, xüsusilə iqtisadiyyatın transformasiyası dövründə üzə çıxan hüquqi riskdir. Hüquqi risk bank qanunvericiliyi və digər qanunvericiliyi inkişaf etməmiş ölkələrə xasdır. Bank fəaliyyəti ilə bağlı normativ aktların və qanunların tez- tez dəyişməsi, onların birmənalı şəkildə şərh olunmaması bir çox hallarda onunla nəticələnir ki, bankın həyata keçirdiyi maliyyə əməliyyatı əvvəlcə gəlir gətirdiyi halda, növbəti normativ aktın çıxmasından sonra ziyanlı olur. Riskin bu növünü aradan qaldırmaq üçün təkcə ən son təlimatlardan istifadə etmək yox, həm də yaxın dəyişikliklərdən xəbərdar olmaq lazımdır.

Maliyyə xidmətləri risklərinin xarakterik xüsusiyyəti ondan ibarətdir ki, məsələn, əməliyyat riskləri və başqaları kəmiyyət parametrlərinin köməyi ilə nəzarət oluna bilmirlər. Ona görə də risklərin bu növünün idarəetməsi bankda hərtərəfli daxili nəzarət sisteminin qurulmasını tələb edir. Bank fəaliyyəti xarici risklərələ də məruz qalır.

Ölkə (xarici) riski – ölkədə cari və ya gələcək siyasi və ya iqtisadi şəraitin elə səviyyədə dəyişilməsi ilə bağlı riskdir ki, bu dəyişikliklər ölkənin, şirkətlərin və başqa borcalanların xarici borc öhdəliklərinə cavab vermək qabiliyyətinə təsir edə bilir. Xarici iqtisadi münasibətləri inkişaf etmiş, müştəriləri isə öz məhsullarını aktiv şəkildə ixrac edən banklar üçün ölkə riskinin xüsusi əhəmiyyəti var. Ölkə riskinə əsasən siyasi risk, iqtisadi risk və köçürmə riski daxildir.

MUHASIBAT.AZ

Siyasi riskin reytinqi hökumətin xarici öhdəlikləri ödəməklə bağlı arzusunu və siyasi qabiliyyətini göstərir.

İqtisadi riskin reytinqi ölkənin uzunmüddətli ümumi iqtisadi inkişafını göstərir və verilmiş xarici borca ölkənin xidmət göstərmək qabiliyyətinin qiymətləndirmə vasitəsi kimi potensialını ifadə edir.

Köçürmə riski – xarici ticarətlə və investisiyalarla bağlı likvidlik problemi üzündən borcun xidmət göstərilmə prosesinin dayandırılma imkanıdır.

Sahə riski sahənin iqtisadi vəziyyətindəki dəyişikliklərlə və onların həm sahə daxilində, həm də digər sahələrlə müqayisədə səviyyəsi ilə əlaqədardır. Sahə riskinin qiymətləndirilmə prosesində həmin sahənin müəyyən (seçilmiş) zaman müddəti ərzində fəaliyyətini, o cümlədən qonşu sahələrin fəaliyyətini nəzərə almaq lazımdır. Həmçinin ölkə iqtisadiyyatı ilə müqayisədə sahə fəaliyyətinin nə dərəcədə dayanıqlı olmasını, eyni bir sahə daxilində müxtəlif şirkətlərin fəaliyyət nəticələrini və onların fəaliyyət nəticələrində əhəmiyyətli fərqlərin olub -olmamasını nəzərə almaq lazımdır.

Bank risklərini xarakterizə edən, həmçinin onların ölçülməsinə yardım edən göstəricilərin optimallaşdırılma probleminin həlli kommersiya bankında risklərin idarəetmə sisteminin tərkib hissələrindən yalnız biridir. Digər mühüm faktor bankda uyğun təşkilat strukturunun qurulmasıdır. Bu struktur risklərin idarəetmə sahəsində qərarların qəbul edilmə prosesində yüksək idarəedici heyətin daimi iştirakını və qəbul olunan qərarların icrasına sərt nəzarəti təmin edir. Bu o deməkdir ki, metodoloji, texnoloji və təşkilati məsələlərin birgə həlli banka risklərin müasir idarəetmə sistemini qurmaq imkanı verir.

Yoxlama sualları

1.Bank riskləri təsnifatının əsasında hansı mühüm elementlər mövcuddur?

2. Bankın gəlirliliyi ilə risk arasında hansı qarşılıqlı əlaqə var?

3.Risk strategiyasının hazırlanması hansı mərhələlərdən ibarətdir?

MUHASIBAT.AZ

4.Risk əyrisi nə şəkildədir və onun qurulması üçün hansı üsullardan istifadə olunur?

5. Bank risklərinin tədqiq edilmə prosesində nəyi nəzərə almaq lazımdır?

6.Bank risklərinin hansı əsas növləri var və onları necə minimallaşdırmaq olar?

7.Müdafiə və valyuta təshihləri, həmçinin həcləmə nə deməkdir?

MUHASIBAT.AZ

18. BANK İŞİNDƏ MARKETİNQ VƏ MENECMENT

18.1. BANKDA MARKETİNQ

Marketinq, geniş mənada bazarın tədqiq edilməsi üzrə şirkətin (kompaniyanın) fəaliyyətini təmsil edir. Bu tədqiqat təkcə məhsul satışında şirkətin bilavasitə maraqlarının olduğu bazar seqmentinə yox, həm də yeni məhsul bazarının mümkün davranış proqnozuna aiddir. Şirkətin marketinq xidməti yeni məhsul istehsalının məqsədəuyğunluğu haqqında məsələni, o cümlədən yeni bazarın yaradılma perspektivləri haqqında məsələni həll etməlidir. Bu zaman şirkətin bu bazardakı yeri mühüm bir məsələ olaraq qalır.

Şübhəsiz, məhsulların bölüşdürülmə strukturları və üsulları yoxdursa, həm də bu məhsulları özlərinə lazım bilən istehlakçılar yoxdursa, istehsalın özünün heç bir mənası yoxdur. Bu məsələlərlə məhz marketinq məşğul olur. Marketinq bu və ya digər məhsulların vaxtında və münasib şəkildə üzə çıxma problemini həll edir, onların faydalılığını və son istehlakçıya zəruri olacağını əsaslandırır. Marketinq yanaşmasının əsas şüarı aşağıdakı kimidir: «Şərtsiz halda satılacaq məhsulları istehsal edin və satın, istehsal etməyə müvəffəq olduğunuz məhsulları sırımağa çalışmayın».

Məşhur alim F.Kotler marketinq idarəetməsinin beş konsepsiyasını göstərmişdir:

- istehsalın təkmilləşdirilmə konsepsiyası. Bu konsepsiya istehlakçının geniş yayılmış və qiymətləri münasib olan məhsullara meylliliyinə əsaslanır və menecmentdən istehsalın təkmilləşdirilməsini tələb edir;
- məhsulların təkmilləşdirilmə konsepsiyası. Bu konsepsiya istehlakçının yüksək keyfiyyətli məhsullara meyl göstərməsini nəzərdə tutur. Ona görə də şirkətin rəhbərliyi daima məhsulların təkmilləşdirilməsinə diqqət göstərməlidir;
- kommersiya cəhdlərinin intensifikasiya konsepsiyası. Bu konsepsiyaya görə stimullaşdırma və satış sahəsində intensiv tədbirlər keçirmədən məhsulların reallaşdırılmasında arzuolunan səviyyəyə çatmaq olmaz;

MUHASIBAT.AZ

- marketinq konsepsiyası. Bu konsepsiya məqsədli bazarların mövcud ehtiyac və tələbatlarının üzə çıxarılmasından və rəqiblərlə müqayisədə daha effektiv üsullarla təmin edilməsindən ibarətdir;
- sosial-etik marketinq konsepsiyası. Bu konsepsiya şirkət üçün məqsədli bazarların ehtiyac və tələbatlarının rəqiblərlə müqayisədə daha effektiv üsullarla təmin edilməsini nəzərdə tutur. Lakin eyni zamanda bütövlükdə cəmiyyətin maraqları da nəzərə alınmalıdır.

Tarixi inkişaf dövründə bir konsepsiya digəri ilə əvəz olunurdu. İndi isə bütün dünyada hamı tərəfindən qəbul edilən və tanınan konsepsiya sosial-etik marketinq konsepsiyasıdır. Bu konsepsiyada şirkətin gəlirini, alıcıların tələbatlarını və ümumilikdə cəmiyyətin maraqlarını balanslaşdırmaq lazımdır.

Sənaye marketinqindən fərqli olaraq, bank marketinqi özünəməxsus xüsusiyyətlərə malikdir. Bu xüsusiyyətlər bank fəaliyyəti məhsulunun spesifikliyi ilə şərtlənir. Məsələ ondadır ki, birincisi, bank məhsulları öz əsasları etibarilə abstrakdırlar, yəni (bir qayda olaraq) maddi sustansiyaya malik deyillər, lakin malın xüsusiyyətlərini müqavilə münasibətlərinin köməyi ilə qazanırlar. İkincisi, bank xidmətləri həmişə pul vəsaitlərinin istifadəsi ilə bağlıdır və bir çox hallarda bank məhsulunun alqı satqısı zaman müddətinin davamlılığı ilə xarakterizə olunur. Bu xüsusiyyətlər bank fəaliyyətində əks olunur. Xüsusi halda, bank məhsulunun abstraktlığı və müqavilə xarakteri potensial müştəriyə onun mahiyyətinin izah edilməsini tələb edir. Bu, bankın müştərilərlə gərgin iş aparılmasını tələb etməklə yanaşı, həm də müştərinin müəyyən iqtisadi hazırlığını da nəzərdə tutur. Bundan başqa, pullarla sıx əlaqənin olması və bank məhsulunun alqı satqı aktının davamlılığı müştəri tərəfindən banka olan etimad problemini aktuallaşdırır.

Marketinq, ilkin olaraq, istehsal olunmuş bank məhsullarının və xidmətlərinin reallaşdırılması ilə məhdudlaşırdı. İndi isə marketinq bankın bütün istehsal-satış fəaliyyətinin idarəetmə nəzəriyyəsinə və təcrübəsinə çevrilmişdir. Ona görə də bank marketinqinin məqsədi bankda zərurri şəraitin yaradılmasından ibarətdir. Bu zəruri şərait bankın kapital bazarının

MUHASIBAT.AZ

tələblərinə uyğunlaşdırılmasını, bazarın öyrənilməsi üzrə tədbirlər sisteminin hazırlanmasını, rəqabətədavamlılığın və gəlirliliyin artırılmasını, əlavə xidmətlər sisteminin yaradılması yolu ilə bank fəaliyyətinin intensifikasiyasını, müştərilərə müxtəlif güzəştlərin və mükafatların verilməsini, bank və onun fəaliyyəti haqqında xoş təsəvvür yaratmaq imkanı verən reklamı nəzərdə tutur. Bazar iqtisadiyyatına keçid, konkret xidmətlərlə bağlı tələblərin formalaşdırılma prosesində istehlakçının rolunun həm kəmiyyətcə, həm də keyfiyyətcə artması bankın idarəetmə sisteminə qarşı, bank məhsullarının satış həcminin artırılmasına qarşı, mövcud xidmətlərin təkmilləşməsinə qarşı, hesablama və digər informasiyanın müştərilərə ötürülməsində yeni texnologiyanın tətbiqinə qarşı yeni tələblər qoyur.

Özünün fəaliyyət konsepsiyasından çıxış edən bank ümumi məqsədləri formalaşdırır və müəyyənləşdirir. Bu məqsədlər isə gələcək konkretləşmədə marketinqin konkret məqsədlərinə çevrilir. Öz növbəsində, marketinqin məqsədlərindən çıxış edərək, marketiniqin kifayət qədər konkret strategiyaları formalaşır. Bunlar isə köhnə müştərilərə mənimsənilmiş xidmətlərin satılmasından, nüfuz etmə strategiyasından (yeni müştərilərə əvvəlki xidmətlərin satışı), inkişaf strategiyasından (yeni bazarda köhnə xidmətlərin satışı), yeni xidmətlərin köhnə bazarda satış strategiyasından, diversifikasiya strategiyasından (yeni bazarda yeni xidmətlərin satışı) ibarətdir.

Ona görə də bank marketinqi (geniş mənada) ictimai– siyasi və iqtisadi faktorlardan asılı olaraq bank fəaliyyətinin xarici və daxili ideoloqiyası, strategiyası, taktikası və siyasətidir. Bank sferasında marketinqin xüsusiyyətləri, hər şeydən əvvəl, bank məhsulunun spesifikliyi ilə şərtlənir. İqtisadi ədəbiyyatda və təcrübədə «bank məhsulu» termini bazar iqtisadiyyatına keçid prosesində yaranmışdır. «Bank məhsulu» bank tərəfindən həyata keçirilən istənilən xidmət və ya əməliyyatdır. Marketinq fəaliyyəti sistemində malın (xidmətin) dörd əsas səviyyəsi mövcuddur:

- niyyətə görə mal (xidmət). Tələbatı təmin etməli, hər hansı bir fayda verməli, müəyyən növlü və (və ya) keyfiyyətl xidmət göstərməli (bankın

MUHASIBAT.AZ

həm öz müştərilərinə, həm də özünə xeyir verməklə reallaşdıra biləcəyi xidmətlər dairəsi);

- real icrada olan mal. Belə mal mövcud olan əsas xüsusiyyətlər və keyfiyyətin müəyyən real səviyyəsi, markanın mövcud olması və (və ya) olmaması kimi göstəricilərlə və faktorlarla müəyyənləşir (bankın öz müştərilərinə təklif etdiyi və satdığı real xidmətlər toplusu);
- gücləndirilmiş mal (özündə servis xidmətinin əlavə kreditləşmə kimi bütün növlərini birləşdirir, lizinq, faktorinq, trast əməliyyatları kimi bəzi qeyri ənənəvi bank xidmətlərinin rəsmiləşdirilməsində xüsusi şərtləri nəzərə alır);
- istənilən malın uğurlu rəqabət mübarizəsini şərtləndirən ictimai etiraf, istehsalçı bankın nüfuzunu yaradır, xidmətin özü isə inkişaf etmək və gəlir gətirmək imkanına malik olur.

Malı istehsal etmək və onunla bazara çıxmaq üçün malın (xidmətin) yaranma mərhələlərini nəzərə almaq lazımdır. Əsas mərhələlər aşağıdakılardır:

- yeni xidmətin yaranma ideyası (bu mərhələdə uğurun ehtimalı reallaşan maldan asılı olaraq müəyyənləşir, həmçinin xərclərin miqdarı və təzəlikcə təklif olunan bank xidmətlərinin müştəriyə çatdırılma müddəti müəyyənləşdirilir);
- malın yaradılması (müştərilərə və kontraqentlərə malın təqdim olunma imkanının ilkin analizi keçirilir, onlar arasında balansın, elastikliyin əldə olunması və bu prosesin operativliyi müəyyənləşdirilir);
- malın (xidmətin) bank fəaliyyəti bazarına daxil edilməsi;
- təqdim olunan bank xidmətləri toplusunun genişləndirilməsi, müxtəlif seqmentlər üçün konkret istehlakçının spesifikliyindən asılı olaraq müxtəlif modifikasiyaların yaradılması.

Spesifik bank malının yaradılma və bazara daxil edilmə prosesinin effektivliyi bank müəssisəsinin əmtəə siyasətini müəyyənləşdirir. Əmtəə siyasətinin mahiyyəti təqdim edilən xidmətlər toplusunun optimal strukturunun müəyyənləşdirilməsindən və saxlanılmasından ibarətdir. Bu

MUHASIBAT.AZ

xidmətlərin satışı isə bankın öz məqsədləri nöqteyi nəzərindən həyata keçməlidir. Əmtəə siyasətinin əsas vəzifələri istehlakçı müştərilərin tələblərinin müəyyənləşdirilməsi və təmin olunması, texnoloji biliklərdən və bankın öz təcrübəsindən optimal şəkildə istifadə olunması, maliyyə nəticələrinin optimallaşdırılması, müxtəlif potensial bank xidmətlərinin real xidmətlərə çevrilməsi, xidmətlərin göstərilmə prosesində elastiklik prinsipinə riayət olunması, kadrların optimal peşəkarlığı və başqalarıdır.

Artıq mənimsənilmiş bazarlarda mövcud xidmətlərin satış həcminin artırılması «xərclərin qənaəti», «kiçik gəmi» və ya «bizim elədiklərimizi yaxşılaşdır» strategiyası ilə əlaqədardır. Bu strategiyanın həyata keçirilməsi üçün bankın aşağıdakı imkanları var:

- rəqiblərin təqdim etdiyi malların (xidmətlərin) zəif tərəflərini tapmaq və onlardan istifadə etmək;
- potensial istehlakçıları məhz bu bankın və ya bank müəssisəsinin xidmətlərindən istifadə etməyə inandırmaq və yeni müştəriləri cəlb etmək;
- xidmətlərin əldə olunması, təqdim edilməsi və servisi ilə əlaqədar olan əlavə xidmətləri təklif etmək.

Bank özünün çeşidli strategiyasını hazırlayır. Bu strategiya onun inkişafının aşağı istiqamətlərində ifadə oluna bilir:

- əmtəə differensiasiyası (bank tərəfindən rəqiblərin mal və xidmətlərindən fərqlənən özünəməxsus malların və xidmətlərin seçilməsi və onlar üçün tələbatın ayrıca hissələrinin təmin edilməsi);
- dar çərçivəli əmtəə ixtisaslaşması (müəyyən bank xidmətlərinin təqdim olunma prosesində bank fəaliyyətinin konsentrasiyası);
- əmtəə diversifikasiyası (əsasən universal banklara aiddir) ;
- əmtəənin şaquli inteqrasiyası (sinerqizm prinsipinin istehsalçı təcəssümü ilə ifadə olunur).

Xarakterik haldır ki, «lider» və ya «ulduz» banklar diversifikasiya prinsipini özlərinə rəva görə bilirlər. Onlar zəruri maliyyə, maddi və əmək

MUHASIBAT.AZ

resurslarına malikdirlər, yüksək nüfuzları var. Belə bankların təqdim etdikləri xidmətlər yüksək keyfiyyəti və rəqabətədavamlılığı ilə fərqlənir. Diversifikasiya strategiyası yeni bank xidmətləri qrupunun tətbiq edilməsi ilə və yeni bazarların mənimsənilməsi ilə ifadə olunur. Amerikanın bəzi bank rəhbərlərinin fikrincə, bank uğurunun yarısı cəlbediciliyi olmayan sahələr çərçivəsində iqtisadi effektivliyin əldə olunmasına çalışmaqdan yox, fəaliyyətin maraqlı sahələrinə nüfuz etməkdən ibarətdir. Bu isə o deməkdir ki, uğur müştərinin optimal seçimindən asılıdır.

Bank marketinqi, faktiki olaraq, müştərilərin real ehtiyaclarının təmin edilməsinin nəzərə alınması ilə bank tərəfindən bank məhsullarının daha əlverişli bazarlarının axtarışı və istifadəsidir. Bank fəaliyyətində marketiniqin aktiv şəkildə tətbiq edilməsi XX yüzilliyin 70-ci illərində başlamışdır. Bank marketinqi prinsipcə sənaye marketinqindən fərqlənməsə də, yuxarıda göstərdiyimiz bəzi xüsusiyyətlərə malikdir. Bu xüsusiyyətlər isə bank fəaliyyətinin spesifikliyi ilə əlaqədardır (şəkil 18.1).

Bankın vəzifələri
Bankın məqsədləri
Bankın imkanları (resurslar) Marketinq imkanları
Bazar imkanlarının analizi
Məqsədli bazarların seçimi
Strateji planlaşdırma
Marketinq planlarının hazırlanması
Marketinq kompleksinin planlaşdırılması
Risk strategiyası
Təşkilati struktur
Marketinq nəzarəti sistemi

Şəkil 18.1. Bankda marketinq fəaliyyəti

MUHASIBAT.AZ

Bank öz marketinq fəaliyyətini yuxarıdakı sxemə uyğun olaraq qurmalıdır. Bank öz vəzifəsini (proqram təminatını) rəsmi proqram ərizəsində göstərir. Bu ərizələr gələcəkdə konkretləşdirilir və bank vəzifələrinin reallaşdırılması üzrə marketiniqin vəzifələrinə çevrilir. Bank vəzifələrinin müəyyənləşdirilməsi – marketinq fəaliyyətinin məsuliyyətli mərhələsidir. Hər bir bankın bu tip vəzifələri var və ya bankın mövcudluğunun mənası müəyyənləşdirilmişdir. Bankın vəzifələri bankın tarixindən, daxili mədəniyyətindən, daxili mədəniyyət strukturundan, qərarları qəbul edən əsas şəxslərin xarakteristikasından doğur. Bankın keçmişi onun fəaliyyətinə əhəmiyyətli dərəcədə təsir göstərir. Bankın mənşəyi də konkret istehlakçılar, təsir zonaları baxımından bankın mövqeyni müəyyənləşdirir.

Yuxarı menecmentin və bütün qalan işçilərin fəaliyyət xarakteri bankın mədəni inkişaf səviyyəsindən asılıdır. Daxili mədəniyəti yüksək səviyyədə olan müəssisələrdə direktiv göstərişlərin, bu və ya digər fəaliyyət sferalarını nizamlayan qaydaların sayı az olur. Əksər hallarda personal nə etmək lazım olduğunu bilir. Bankın mədəniyyəti işçilər arasındakı fərqlərin (etnik, sinfi və s.), işçi kateqoriyalarının əmək təminatındakı fərqlərin, bir çox mənalarda işçilərin davranışını müəyyənləşdirən mükafat və həvəsləndirmə sisteminin təsiri ilə formalaşır. Personalın peşəkarlıq səviyyəsi bankın daxili mədəniyyətinin tərkib hissəsidir. Ona görə də mədəniyyətdəki dəyişikliklər də işçilərin peşəkarlıq səviyyəsinin yeni tələblərə uyğun olması üçün kadrların yenidən hazırlanmasını nəzərdə tutur.

Daxili mədəniyyət strukturu bankın formal və qeyri formal təşkilati strukturunu əks etdirir. Bank əməkdaşlarına uyğun hüquqlar və öhdəliklər verilir, direktiv şəkildə rəsmiləşdirilir. Bütün bank əməliyyatları işçilər arasında bölüşdürülür və onlar bu əməliyyatları sərəncamlara uyğun şəkildə yerinə yetirirlər. Bu, formal strukturdur.

Bankın qeyri formal təşkilati strukturu formal strukturla yanaşı mövcud olur və bank üçün mühüm olan münasibətləri tənzimləyən gündəlik fəaliyyət sistemini ifadə edir. Qeyri rəsmi qaydalar, dəyərlər, normalar, etiqadlar

MUHASIBAT.AZ

kompleksi, o cümlədən bank daxilində ayrı - ayrı işçi kateqoriyalar arasında təşəkkül tapmış münasibətlər və əlaqələr də qeyri formal strukturu təşkil edir. Qeyri formal struktur formal strukturu tamamlayır və formal strukturun qaydaları ilə tənzimlənməyən münasibətlərə toxunur. Bank qarşısında duran vəzifələrin müvəffəqiyyətlə həll olunması üçün formal və qeyri formal strukturun maksimal şəkildə yaxınlaşması tələb olunur.

Qərarları qəbul edən əsas şəxslərin xarakteristikası, yəni onların üslubu, meylləri və dəyərləri bankın əsas vəzifələrinə böyük təsir göstərir. Rəhbərlikdə əhəmiyyətli dəyişikliklər olmadan bankın strategiyasında və ya təşkilatın özündə əsaslı dəyişikliklər baş vermir.

Bankın vəzifələrini müəyyənləşdirəndən sonra onun məqsədlərini göstərmək lazımdır. Bankın zamana və ölçüyə görə konkretləşdirilən vəzifələri onun məqsədləri adlanır. Bankın məqsədlərini bankın yüksək rəhbərliyi müəyyənləşdirir. Bank məqsədlərinin formalaşdırılma prosesində, birinci növbədə, qoyulan vəzifələrin konkretləşdirilmə zəruriliyindən çıxış etmək lazımdır. Qlobal, strateji və taktiki və ya müvəqqəti məqsədləri fərqləndirmək lazımdır. Bank rəhbərliyinin və bütün işçilərin ümumi məqsədi müştəriləri cəlb etmək, xidmətlərin satış sferasını genişləndirmək, bazarı ələ almaqdır. Bütün bunlar bank gəlirlərinin artmasına kömək etməlidir. Ona görə də marketinq, faktiki olaraq, yüksək rəhbərlikdən başlayaraq aşağılara qədər bütün şöbələrin aktiv işini, hərtərəfli ilkin hazırlığını, düşüncəsini və analizini tələb edən bank strategiyası və fəlsəfəsidir. Bu proses bank məqsədlərinin dəqiq müəyyənləşdirilməsini, məqsədlərə çatmaq yolllarının və üsullarının düzgün formalaşdırılmasını, planların reallaşdırılması üçün konkret tədbirlərin hazırlanmasını nəzərdə tutur.

Marketinq strategiyası bankın öz məhsuluna yox, müştərilərin real tələbatlarına ilkin istiqaməti nəzərdə tutur. Bu isə o deməkdir ki, bank marketinqi – bazarın hərtərəfli öyrənilməsidir, o cümlədən bank xidmətləri istehlakçılarının dəyişən zövqlərinin, meyllərinin analizidir. Müştərinin ehtiyac hiss etdiyi maliyyə xidmətlərinin konkret formalarını müəyyənləşdirmək

MUHASIBAT.AZ

lazımdır. Həmçinin maliyyə xidmətinin konkret formasının əldə edilməsinin zəruriliyini və xeyrini müştəriyə başa salmaq lazımdır.

Marketinq fəlsəfəsi bank və müştərinin münasibətini keyfiyyətcə dəyişdirir. Müştərilərin real tələbatları həmişə bankın diqqət mərkəzində olmalıdır. Əgər verilmiş məhsula real tələbat yoxdursa, onu istehlakçılara təklif etmək və xüsusən də sırımaq lazım deyil. «Güc vasitəsilə təsir göstərmə» taktikası müvəqqəti effekt verərək bank dövriyyələrinin artmasına gətirib çıxara bilər, lakin sonda bank uduzar və müştərilərini itirər. Bank fəaliyyəti təkrarlanan əməliyyatlara əsaslandığına görə onun bütün cəhdləri müştərilərin çoxaldılmasına və itirilməməsinə yönəlməlidir. Bank insanlara uzunmüddətli maliyyə xidməti göstərən mərkəzə çevrilməlidir. Ona görə də bank müştərinin həqiqi tələbatlarının təmin edilməsinə istiqamətlənməli, müştəriyə onun istədiyini verməlidir. Yalnız bu halda bank sferasındakı rəqabət şəraitində müştəriləri itirməmək mümkündür.

Bank strategiyasının formalaşdırılma prosesində ikiölçülü matrislərin qurulmasına əsaslanan yanaşmalardan istifadə olunur. Bu matrislərdə hər bir matris sektoruna müəyyən tip strategiya uyğun gəlir. Məsələn, İ.Ansoffun «mallar və bazarlar» matrisi satışın saxlanması və ya artırılması üçün dörd alternativ strategiyanın istifadəsini nəzərdə tutur. Bunlar bazara nüfuz etmə, bazarın inkişafı, malın hazırlanması və diversifikasiyadır (cədvəl 18.1.).

İ.Ansoff matrisi

Mallar **	Bazarlar ** Köhnə	** Təzə
Köhnə **	** Bazara nüfuz etmə	** Bazarın inkişafı
Təzə **	** Malın hazırlanması	** Diversifikasiya

MUHASIBAT.AZ

Bazara nüfuz etmə strategiyası bankın artıq təşəkkül tapmış bazara nüfuz etməsini və həmin bazarda rəqiblərin təklif etdikləri məhsulu (xidməti) təklif etdiyini nəzərdə tutur. Bu strategiya məqsədli bazarın hələ inkişaf etdiyi və tam doymadığı halda yaxşı hesab olunur.

Bazarın inkişaf strategiyası o deməkdir ki, bank öz məhsullarının satış bazarını genişləndirməyə çalışır. Lakin bu proses artıq mövcud bazarlara nüfuz etmək hesabına deyil, yeni bazarların və ya bazar seqmentlərinin yaradılması hesabına baş verir.

Malın hazırlanma strategiyası prinsipcə yeni, lakin bir çox hallarda mövcud bank məhsullarının modifikasiyası və onların köhnə bazarlarda reallaşdırılması yolu ilə həyata keçir. Strategiyanın bu növü qeyri - qiymət rəqabətinin üstünlük şəraitində, keyfiyyət parametrlərinin ön plana çıxdığı zaman (məsələn, banklar tərəfindən əhalinin yeni əmanət növləri hazırlanan zaman) banklar tərəfindən xüsusilə aktiv şəkildə istifadə olunur.

Diversifikasiya strategiyası o deməkdir ki, bank özü üçün yeni olan bazarlara çıxmağa çalışır və bu məqsədlə də öz çeşidinə yeni bank məhsulları daxil edir.

Strategiyanın seçimi bazarın bank məhsulları ilə təchizat dərəcəsindən və bankın öz çeşidini təzələmək imkanından asılıdır. Xarakterik cəhət ondan ibarətdir ki, «mallar və bazarlar» matrisi eyni zamanda bir neçə strategiyanın tətbiq edilməsinə imkan verir.

İ.Ansoff matrisindən fərqli olaraq Boston məsləhət qrupunun mütəxəssisləri tərəfindən hazırlanmış model bazarda reallaşan bütün məhsulları aşağıdakı hissələrə bölür: «ulduz», «sağmal inək», «çətin uşaq» və «it» (cədvəl 18.2.). Bu halda məhsulların tipi sahənin inkişaf tempindən (bu və ya digər məhsulun satış bazarının həcmindən) və şirkətin bu bazardakı nisbi payından (əsas rəqiblərlə müqayisədə şirkətin payı) asılı olaraq müəyyənləşir. Məhsulların hər bir tipinə bu və ya digər strategiya uyğun gəlir.

MUHASIBAT.AZ

Boston qrupunun matrisi

Bazarda risbi pay	** Yüksək	** Alçaq
Sahənin inkişaf templəri **	**	**
Yüksək **	** «Ulduz»	** «Çətin uşaq»
Alçaq **	** «Sağmal inək»	** «İt»

«Ulduz» məhsul tipi bank məhsulunun inkişaf etməkdə olan sahəsində onun liderliyi ilə xarakterizə olunur. Bu səbəbə görə də, bankın ona nisbətdə tipik bazar strategiyası öz payının bazarda saxlanması və ya artırılması üçün marketinq cəhdlərinin intensifikasiyasından ibarətdir. Bank məhsulunun verilmiş sahəsində inkişaf ləngidikcə, «ulduz» «sağmal inəyə» çevrilir.

«Sağmal inək» məhsul tipi nisbətən yetkin və ya ixtisar olunma tendensiyası olan sahədə liderlik edir. Ona görə də bu halda strategiyanın mahiyəti gəlirdən bank məhsulunun bazarda saxlanması üçün və inkişaf etməkdə olan şöbələrin müdafiəsi üçün (konsolidasiya strategiyası) istifadə etməkdir. Bu halda məhsulun satışı nisbətən stabil hesab olunur və marketinqə əhəmiyyətli xərclərin yönəldilməsini tələb etmir. Ona görə də «sağmal inəyin» gətirdiyi gəlir onun bazardakı payının saxlanması üçün lazım olan məbləğdən çox olur. Belə halda əlavə gəlir inkişafın maliyyələşdirilməsi üçün, məsələn «ulduz» tipli məhsulun maliyyələşdirilməsi üçün istifadə oluna bilir.

«Çətin uşaq» məhsul tipi («buzov» və ya «sual işarəsi») inkişaf etməkdə olan sahə bazarında əhəmiyyətsiz yer tutur. Çeşidində belə məhsul olan bank iki alternativ strategiyadan birini seçməlidir. Bunlar investisiyaların genişləndirilməsi və marketinq cəhdlərinin intensifikasiyası (mütərəqqi strategiya), yaxud investisiyaların azaldılması və bazarı tərk etməkdir (dezinvestisiya strategiyası). Optimal həllin qəbul edilməsi bank üçün rəqib mövqelərini yaxşılaşdırmaq şansının çoxluğundan və məhsulun «ulduz»a

MUHASIBAT.AZ

çevrilməsindən, həmçinin, məsələn «sağmal inəyin» şəxsində maliyyə vəsaitlərinin kifayət qədər olmasından asılıdlır.

«İt» məhsul tipi bank məhsulunun az perspektivli sahəsində bazarın əhəmiyyətsiz hissəsini tutur. Ona görə də bu malla bağlı strategiya yeganədir: perspektivi olmayan bazarı tərk etmək (dezinvestisiya strategiysı).

Bank marketinqinin məqsədlərindən biri bu vaxta qədər bank xidmətlərindən istifadə etməmiş müştərilərin cəlb edilməsidir. Artıq bank xidmətlərindən istifadə edən müştərilər üçün isə yeni xidmət növlərinin təklif edilməsinə üçütünlük verilməlidir. Satışın bu çarpaz üsulu müasir marketiniq təcrübəsində tətbiq olunur və bankın imkanlarını qiymətləndirməyə, nəticədə imkanların bazar sifarişləri ilə balanslaşdırılmasına, bankın inkişafı və davranışı ilə bağlı əsaslandırılmış proqramların hazırlanmasına, düzgün idarə qərarlarının qəbul edilməsi üçün uyğun əsasın yaradılmasına imkan verir.

Bank imkanlarının analizi də, öz növbəsində, bank fəaliyyətinin xarici və daxili şərtlərinin tədqiqi nöqteyi nəzərindən aparılmalıdır. Xarici şərtlərin spektri çox genişdir və dövlətin təsərrüfat strukturunun istiqaməti ilə, iqtisadiyyatın idarə edilmə və tənzimlənmə tədbirləri ilə, mərkəzi bankın nəzarətedici rolu ilə müəyyənləşir. Bank fəaliyyətinin daxili şərtlərinin analizi iqtisadi maliyyə vəziyyətinin qiymətləndirilməsi, təklif olunan xidmətlər siyahısının analizi, bankın bazardakı strateji davranışının qiymətləndirilməsi, planlaşdırmanın vəziyyəti, texniki təminatın səviyyəsi, personalın peşəkarlığı, marketinq fəaliyyətinin informasiya təminatının və keyfiyyətinin öyrənilməsi, bankın təşkilati strukturunun analizi əsasında qurulur.

Bank balansı bankın mövcud imkanlarının üzə çıxarılma mərhələsində analiz olunur. Bank balansının analizi funksional, struktur və əməliyyat şəklində ola bilər.

Funksional analiz ümumilikdə bankın fəaliyyətini, onun rəqiblərlə münasibətlərini (daha doğrusu, digər kredit institutları, dövlət təşkilatları və başqa təşkilatlarla, əhali ilə) qiymətləndirməyə imkan verir. Məsələ ondadır ki,

MUHASIBAT.AZ

bank sistemi daxilindəki qarşılıqlı münasibətlər kompleksi yalnız rəqabət münasibətlərindən ibarət olmur.

Struktur analizi əməliyyatların növlərini, bankın mədaxil, məxaric və gəlir strukturunu əhatə edir.

Əməliyyat analizi bank fəaliyyətində gəlirliliyin dərin tədqiqatına yönəlmişdir və hər bir əməliyyatı bankın ümumi gəlirinin formalaşmasında daha əhəmiyyətli əməliyyatların üzə çıxarılma nöqteyi nəzərindən qiymətləndirməyə imkan verir. Əməliyyat analizi həm də rentabellik səviyyəsi kifayət qədər olan əməliyyatların həyata keçirilməsində bank imkanlarının üzə çıxarılması məqsədilə aparılmalıdır.

Bazar imkanlarının analizi onun marketinq imkanlarının üzə çıxarılmasına imkan verir və bununla da məqsədli bazarların seçimi üçün əsas rolunu oynayır. Məqsədli bazarların seçimi marketinq fəaliyyətinin mühüm mərhələsidir və yalnız seçilmiş müştəri qruplarının tələbatlarının təmin edilməsi üçün cəhdlərin mərkəzləşdirilməsi məqsədilə aparılır. Məqsədli bazarların seçiminə tələbatın öyrənilməsi, bazarın seqmentləşdirilməsi, məqsədli seqmentlərin seçilməsi, bazardakı məhsulların mövqeləşdirilməsi daxildir.

Tələbatın öyrənilmə prosesi tələbatın cari səviyyəsinin öyrənilməsindən və tələbatın proqnozlaşdırılmasından ibarətdir.

Bazarın seqmentləşdirilməsi bank bazarının qeyri- bircins olması, seqmentlərə bölünməsi və hər bir seqmentdə bank tərəfindən öz məhsullarının satmaq məsələsinin həll edilməsidir. Seqmentləşmə prosesi istehlakçı qrupları və təklif olunan xidmətlərin xarakteristikaları üzrə baş verir.

İstehlakçı qrupları üzrə seqmentləşmədə aşağıdakıları fərqləndirirlər:

- korporativ bazar. Bu halda bazar çox sayda dar seqmentlərə bölünür;
- pərakəndə bazar. Bu halda pərakəndə müştərilərin seqmentasiyasının əsasında duran əsas meyar onların gəlir səviyyəsi və bank məhsullarına qarşı qoyulan tələblərdir;

MUHASIBAT.AZ

- kredit - maliyyə bazarının seqmentləşməsi müxbir münasibətləri ilə əlaqədardır (müxbir münasibətləri banklar arasında olan elə əməkdaşlıq formasıdır ki, bu zaman banklar bir birlərinin tapşırıqlarını qarşılıqlı fayda əsasında yerinə yetirirlər);
- hökumət bazarı. Bu halda hökumət bazarının nümayəndələri ilə işləyən banklar tələbli depozitlər, təcili depozitlər, xəzinə depozitləri kimi əmanət növlərini qəbul edirlər.

Bazarın məhsul əlamətinə görə seqmentləşməsində kredit xidmətlərini, əmanət əməliyyatlarını, investisiya əməliyatlarını (qiymətli kağızlarla əməliyyatlar), sair xidmətləri (hesablaşma-kassa xidməti üzrə əməliyyatlar, valyuta əməliyyatları, lizinq və s.) fərqləndirirlər.

Məqsədli seqmentlərin seçimi bu və ya digər bazar seqmentinin cəlbedicilik səviyyəsinin qiymətləndirilməsi ilə əlaqədardır. Bu məsələnin həllində bütün cəhdləri tələbatların bir bazar seqmenti tərəfindən təmin edilməsinə, bütün istehlakçı qrupların bir tələbatının təmin edilməsinə və ya bir istehlakçı qrupunun bütün tələbatlarının təmin edilməsinə, bazarın müxtəlif seqmentlərinin seçmə ixtisaslaşmasına, bütün bazarın xidmətinə yönəltmək olar.

Bazarda malın mövqeləşməsi onun bazarda istehlakçı nöqteyi nəzərindən analoji mallarla bir sırada olan yerinin müəyyənləşdirilməsi ilə əlaqədardır. Bu halda rəqabəti başlamaq və ya bazara yeni malla çıxmaq olar. Ona görə də konkret istehlakçı sifarişlərinin nəzərə alınması şərti ilə malın konkret bazar seqmentindəki mövqeyinin möhkəmləndirilməsi üçün mövqeləşmənin rolu zəruridir.

Strateji planlaşdırma, marketinq planlarının hazırlanması və marketinq kompleksinin planlaşdırılması bank fəaliyyətinin strateji idarəetmə prosesinin tərkib hissələridir. Nəticə uzunmüddətli məqsədlərin müəyyənləşdirilməsi və onların reallaşdırılmasında cari fəaliyyət planlarının hazırlanması ola bilər. Strateji planlaşdırmanı aşağıdakı mərhələlər şəklində göstərmək olar:

MUHASIBAT.AZ

- bank vəzifələrinin təşkili (bu prosesə bankın tarixi, bankın mədəniyyəti, təşkilat strukturu, həmçinin rəhbərliyin keyfiyyəti və dəyərlər yönümü təsir edir);
- bank vəzifələrinin bank məqsədlərində konkretləşdirilməsi, ona qarşı konkretlik, ölçülmək qabiliyyəti, zaman istiqaməti, mümkünlük, uyğunluq kimi tələblərin qoyulması (bu tələblərə riayət olunmasa, bankın məqsədləri dəqiq ifadə olunmayacaq);
- bankın ilkin vəziyyətinin analizi xidmət bazarının müəyyənləşdirilməsini, seqmentlərin bazar-istehsal xarakteristikalarının qiymətləndirilməsini, bazarın cəlbediciliyinin qiymətləndirilməsini nəzərdə tutur. Xidmət bazarının müəyyənləşdirilməsi seqmentasiya prosesini və bank müştərilərinin, onların tələbatlarının üzə çıxarılmasını, bank məhsullarının müəyyənləşdirilməsini, müştərilərin tələbatlarının təmin edilməsində bank üçün məqsədəuyğunluğun və imkanların qiymətləndirilməsini, istehlakçı ehtiyaclarının təmin edilməsi üçün banka lazım olan vəsaitlərin müəyyənləşdirilməsini, bu vəsaitlərin axtarılmasını nəzərdə tutur. Seqmentlərin bazar- istehsal xarakteristikalarının qiymətləndirilməsi bazar xarakteristikalarının, xidmət göstəricilərinin, rəqabət göstəricilərinin qiymətləndirilməsini və mühit xarakteristikalarının analizini tələb edir. Bankın cəlbediciliyinin qiymətləndirilməsi zamanı bazarın ölçüsü, müştərilərin ümumi sayı, müştəri üçün xidmətin vacibliyi, xidmətlərin əldə edilmə tezliyi və başqaları nəzərdən keçirilir:
- bankın strategiyasına təsir edən faktorların qiymətləndirilməsi. Bu sırada mikromühit faktorlarını və makromühit faktorlarını fərqləndirirlər. Mikromühit faktorlarına bankdaxili münasibətlər, təchizatçılarla münasibətlər, vasitəçilərlə münasibətlər, rəqiblərlə münasibətlər, müştərilərlə münasibətlər, əlaqə auditorları ilə münasibətlər aiddir. Makromühit faktorları sırasında demoqrafik,

texnoloji, siyasi, iqtisadi faktorları, mədəni quruluşlu faktorları və təbii faktorları fərqləndirmək lazımdır;

- təhlükələrin və imkanların qiymətləndirilməsi təhlükələrin və imkanların üzə çıxarılmasını, bankın güclü və zəif tərəflərinin üzə çıxarılmasını, bankın güclü və zəif tərəflərinin çarpaz təsirinin analizini, onun imkanlarının və təhlükələrinin analizini nəzərdə tutur;
- təsərrüfat portfelinin inkişaf strategiyası özündə məhdud inkişaf, inkişaf, hər üç alternativin ixtisarı və uyğunluğu kimi strateji alternativləri birləşdirir;
- tənzimləyici faktorlarda strateji dəyişikliklər. Bu proses dəyişən bazar şəraitinin təsiri altında strategiyadakı düzəlişlərin zəruriliyini və fəaliyyət planlarının təsiri altında strateji planların konkretləşdirilməsini nəzərdə tutur. Tənzimləyici faktorlar sırasında, məsələn, bazarın seqmentasiyasını, məhsulların keyfiyyətinin dəyişilməsini, satış səviyyəsinin dəyişilməsini və başqalarını göstərmək olar;
- gözlənilən maliyyə nəticələri.

Marketinq planlarının hazırlanması zamanı bank fəaliyyətinin əsas istiqamətləri çərçivəsində konkret vəzifələr göstərilir. Bir qayda olaraq, bölmələrin (şöbələrin və bankın digər struktur bölmələrinin) planları, müştərilərin (korporasiyaların) planları, ayrı ayrı bank məhsullarının planları hazırlanır. Bu planların hər biri marketinq planı adını daşıyır.

Marketinq kompleksinin planlaşdırılması dəyişən faktorların birləşməsi ilə əlaqədardır. Bank bu faktorların köməyi ilə öz müştəriləri tərəfindən arzuolunan cavab reaksiyasının təmin edilməsi məqsədilə onlara təsir göstərə bilir. Dəyişən faktorlar məhsul, qiymət, yayılma üsulları, stimullaşdırma kompleksi kimi dörd qrupa bölünür.

Risk strategiyası bank vəsaitlərinin müəyən hissəsinin itirilmə təhlükəsinin aradan qaldırılması ilə, gəlirlərin əldə edilməməsi ilə və ya müəyyən maliyyə əməliyyatlarının həyata keçirilməsi nəticəsində əlavə xərclərin yaranması ilə əlaqədardır. Risk strategiyasının hazırlanması bir sıra

MUHASIBAT.AZ

ardıcıl mərhələlərdən ibarətdir. Bunlar müəyyən bank əməliyyatlarının həyata keçmə prosesində riskin konkret növünü artıran və ya azaldan faktorların üzə çıxarılması, riskə təsir göstərmək nöqteyi nəzərindən üzə çıxarılmış faktorların analizi, riskin konkret növünün qiymətləndirilməsi, riskin optimal səviyyəsinin müəyyənləşdirilməsi, riskin məqbul səviyyəsinə uyğunluq nöqteyi nəzərindən ayrı- ayrı əməliyyatların analizi, riskin azaldılma tədbirlərinin hazırlanmasıdır.

Bankın təşkilati strukturu seçilmiş strategiya məqsədlərinə uğurla çatmağın mühüm tərkib hissəsidir. Bankın bütün fəaliyyəti onun necə təşkil olunmasından, rəhbərliklə tabelikdə olanlar arasındakı münasibətlərin necə qurulmasından asılıdır. Bürokratik prinsiplərlə işləyən təşkilati strukturlar, adaptiv təşkilati strukturlar, mərkəzləşmə dərəcəsi ilə fərqlənən təşkilati strukturlar mövcuddur.

Bürokratik prinsiplərlə işləyən təşkilati strukturlar üç əsas varianta malikdirlər:

- funksional təşkilati struktur bank fəaliyyətinin ayrı ayrı hissələrə bölünməsini nəzərdə tutur. Bu hissələr fəaliyyətin və ya funksiyanın müəyyən mənada xüsusiləşmiş sahələrini təmsil edir və onların həyata keçməsi bank qarşısında duran məqsədlərə çatmağa xidmət edir (marketinqin, mühasibat uçotunun və hesabatın idarə edilməsi, təsərrüfat edarəetməsi);
- divizional təşkilati struktur bankın funksional əlamətə görə yox, təklif olunan bank məhsulunun növlərinə görə, istehlakçı qruplarına görə və ya reqional əlamətə görə bölünməsini nəzərdə tutur (bank məhsullarının müxtəlif növlərinin təmsil edilməsinə istiqamətlənmiş strukturlar, istehlakçıların müxtəlif qruplarına istiqamətlənmiş strukturlar, reqional təşkilati strukturlar);
- beynəlxalq bazarlarda fəaliyyət göstərən bankların təşkilati strukturları şöbələr, nümayəndəliklər, filiallar və konsorsial iştirak kimi təşkilati formalarla təmsil oluna bilər.

MUHASIBAT.AZ

Adaptiv təşkilati strukturlar qeyri bank institutları tərəfindən rəqabətin kəskin artdığı dövrdə banklar vasitəsilə tətbiq olunmağa başlamışdır. Dünya təcrübəsində adaptiv strukturların üç əsas növü məlumdur:

- layihə strukturları – bank qarşısında duran geniş miqyaslı məsələləri həll etmək üçün təşkilatları təmsil edir (məsələn, evlərdə bank xidmətləri sistemi), müvəqqəti təşkilati qurum olub, layihənin həyata keçməsinə rəhbərlik nöqteyi nəzərindən avtonomdur;
- funksional və divizional strukturların üstünlüklərini birləşdirməyə imkan verən matris strukturlar (matris strukturlar genişmiqyaslı layihələrin reallaşdırılması üçün yaradılır);
- bir neçə strukturun birləşməsini nəzərdə tutan konqlomeratlar banka imkan verir ki, bazar şəraitinin cüzi dəyişikliklərinə belə reaksiya göstərə bilsinlər (konqlomerat rəhbərliyin vahid mərkəzdən idarə olunmasını nəzərdə tutur, lakin bank şöbələri də müəyyən müstəqilliyini saxlayır və xüsusən də cari fəaliyyətlə bağlı qərarların qəbul edilməsində müstəqil olurlar).

Mərkəzləşdirmə dərəcəsi ilə fərqlənən təşkilati strukturlar mərkəzin funksiyaları ilə aşağı təbəqələrin funksiyaları arasında dəqiq sərhədin olmasını nəzərdə tutur. Bu isə ayrı - ayrı struktur şöbələrinin və ümumilikdə bankın maraqlarını balanslaşdırmağa imkan verir.

Marketinq nəzarət sistemi tərtib edilmiş marketinq planlarında düzəlişlərin zəruriliyi ilə əlaqədardır. Bu düzəlişlərin zəruriliyi marketinq nəzarəti sisteminin köməyi ilə müəyyənləşdirilir. Marketinq nəzarətinin tərkib hissələri standartların müəyyənləşdirilməsi, faktiki əldə edilmiş nəticələrin ölçülməsi, zəruri fəaliyyətin həyata keçməsidir.

Standartların müəyyənləşdirilməsi – bəzi istiqamətləri müəyyənləşdirməyə imkan verən nəzarət prosesinin birinci mərhələsidir (kəmiyyət dəyişmələri, keyfiyyət dəyişmələri, müvəqqəti çərçivələr). Bankın fəaliyyəti məhz bu istiqamətlərə nəzərən qiymətləndiriləcək.

MUHASIBAT.AZ

Faktiki əldə olunmuş nəticələrin ölçülməsi nəzarət prosesinin əsas halqası olub, əldə edilmiş nəticələrlə əvvəlki mərhələdə müəyyənləşdirilmiş standartları müqayisə etməyə imkan verir. Bir çox hallarda mümkün kənara çıxmaların dəqiq müəyyənləşdirilməsi məsələsi bir sıra əvvəlki dövrlərdə faktiki və nəzarətedici göstəricilərin ayrılma dinamikasının analizi vasitəsilə həll olunur.

Zəruri fəaliyyətin həyata keçməsi müəyyən təshihlərlə əlaqədardır. Həllin aşağıdakı variantı da ola bilər. Heç bir fəaliyyət göstərməmək, faktiki nəticələri standartların səviyyəsinə çatdırmaq və standartların özlərini təshih etmək olar.

18.2.BANK MENECMENTİ

Menecment təşkil etmənin və idarəetmənin daha rasional sistemi haqqında elmdir. XX əsrin 30-cu illərində sənaye cəhətdən inkişaf etmiş ölkələrdə menecmentin əhəmiyyəti artıq dərk edilmişdir. Məhz həmin dövrdə bu fəaliyyət peşəyə, bilik sahəsinə və müstəqil fənnə çevrilmiş, idarəedicilərin sosial təbəqəsi isə çox nüfuzlu ictimai qüvvə olmuşdur. Bu sosial təbəqənin daim artan rolu «menecerlərin inqilabı» haqqında söz söhbətin yayılmasına səbəb olmuşdur.

XX əsrin başlanğıcında idarəçilik təfəkküründə baş vermiş ilk çevriliş F.Teylorun adı ilə bağlıdır («teylorizm» nəzəriyyəsi idarəçiliyin «elmi» yolla həyata keçməsinə əsaslanır). İdarəçilik təfəkküründün inkişafındakı növbəti iri addım «idarəetmə prinsiplərinin» genişləndirilməsindən ibarət idi. Bu prinsiplər A.Fayol tərəfindən «inzibati idarəetmə elmi» çərçivəsində müəyyənləşdirilmişdir. A.Fayola görə, menecment prosesi planlaşdırma, təşkilat, əmr, koordinasiya, nəzarət funksiyalarından ibarətdir.

Müasir ədəbiyyatda idarəetməyə planlaşdırma, təşkiletmə, əsaslandırma və nəzarət funksiyalarının reallaşdırılması kimi baxırlar. İdarəetmə nəzəriyyəsinin böyük mütəxəssisi Piter Veyll idarəetməni səriştəliliyin əsası

MUHASIBAT.AZ

hesab edir. Onun fikrincə, idarəetmənin bir birindən asılı olmayan müxtəlif səriştəlilik növləri var. Ona görə də menecerin işindəki ən əhəmiyyətli nəticələr səriştəliliyin bu və ya digər səviyyəsi hesabına əldə edilir. Menecerin İdarəetmə effektivliyinin əldə olunmasındakı səriştəliliyi yüksək tərtibli dəyişənlə ifadə olunur. Ümumiyyətlə, menecment elmini bütün fəaliyyət sferaları üçün ümumi olan aşağıdakı prinsiplərlə xarakterizə edirlər:

- idarəetmə subyekti fəaliyyətinin konkret məqsədlərin əldə olunmasına istiqamətlənməsi;
- məqsədin, nəticənin və əldə edilmə vasitəsinin vahidliyi;
- özündə planlaşdırmanı, analizi, tənzimlənməni və nəzarəti birləşdirən idarəetmə prosesinin kompleksliyi;
- kəsilməzliyi təmin edən perspektiv və cari planlaşdırmanın vahidliyi;
- reallaşdırmanın əsas faktoru kimi qəbul edilən idarəetmə qərarlarına nəzarət;
- bütün kollektivin və onun hər bir üzvünün yaradıcılıq aktivliyinin, uğur və müvəffəqiyyətlərinin maddi və mənəvi stimullaşdırılması;
- kollektivin hər bir üzvünün potensialından maksimal şəkildə istifadə etməyə imkan verən fərdi yanaşma;
- hər bir işçinin öz peşəkarlığını artırmaqda, yeni bilikləri və fəaliyyət sferalarını mənimsəməkdə maraqlı olması;
- kollektivdə sağlam psixoloji mühitə istiqamətlənmə;
- funksional və idarəetmə məsələlərini həll etməyə imkan verən idarəetmənin təşkilat strukturunun elastikliyi.

Bank menecmenti olmadan bazar iqtisadiyyatı mümkün deyil. Bank menecmenti pul-maliyyə bazarında kredit müəssisələri arasındakı real rəqabətə, təsərrüfat subektlərinin dövlət maliyyələşməsinin bazar mexanizmi ilə, konkret investisiya layihələri və biznes planlarla əvəzlənməsinə əsaslanır. Bank menecmenti bu və ya digər proqramın sadəcə kreditləşməsini deyil, həm də kreditlərin effektiv şəktldə istifadə olunmasına nəzarəti həyata keçirir. Ona

MUHASIBAT.AZ

görə də idarəetmənin xüsusi sferası olan bank menecmenti yalnız inkişaf etmiş bazar iqtisadiyatı şəraitində yaranır və bir neçə mərhələdən keçir:

- birinci mərhələ (XX yüzilliyin 50-ci illərinin axırı) –ümumi bank menecmentinin yaranması və inkişafı;
- ikinci mərhələ (XX yüzillikdə 50-ci illərin axırı, 60-cı illərin əvvəlləri) – menecmentin hesablaşma klirinq xidmətləri şöbəsi ilə ənənəvi bank xidmətlərinin (pul əmanətlərinin qəbulu və kreditləşmə) ayrılması;
- üçüncü mərhələ (XX yüzillikdə 60-cı illərin əvvəli və axırları) – sığorta xidmətləri sferasında, hər şeydən əvvəl sığorta şirkətlərinin fəaliyyətində menecmentin inkişafı;
- dördüncü mərhələ (XX yüziilikdə 80-ci illərin ortaları) – menecmentin və marketinqin investisiya-fond xidmətləri sferasına daxil olması;
- beşinci mərhələ (XX yüzilliyin 80-ci illərinin ortaları və əvvəli) bank maliyyə xidmətlərinin universal formalı menecment və marketinqinə sinerqiya konsepsiyasının tətbiqi.

Xarakterik haldır ki, hər bir növbəti mərhələ pul-maliyyə bazarının bir seqmentindən digərinə keçərək özündən əvvəlki mərhələlərin təcrübəsini saxlayır və inkişaf etdirir. Sinerqetik marketinq konsepsiyasının reallaşdırılması zamanı şöbələrin (filialların, törəmə şirkətlərin və s.) yaradılması və bank maliyyə xidmətlərinin universal formalarının müəyyənləşdirilməsi yolu ilə bu təcrübədən daha tam şəkildə istifadə olunmuşdur. Bank marketinqi maliyyə xidmətləri bazarının yaranma əsasına çevrildi. XX əsr 70-ci illərin ortalarına qədərki dövrdə bank maliyyə xidmətlərinin əksəriyyətini məhz kommersiya bankları yerinə yetirirdi. Bununla belə, bank menecmenti peşəkar idarəçilik fəaliyyətinin müstəqil növüdür və xüsusi prinsiplərin, funksiyaların və üsulların tətbiqi, bank və əmək resurslarının rasional şəkildə istifadəsi vasitəsilə konkret məqsədlərin əldə edilməsinə yönəlir. Bank menecmenti və ya bazar iqtisadiyyatı şəraitində bank idarəetməsi aşağıdakı əsas prinsiplər əsasında qurulur:

MUHASIBAT.AZ

- istənilən bankın bazarı tələblərinə, müştəri sifarişlərinə istiqamətlənməsi, həmçinin tələbata cavab verən, banka planlaşdırılmış gəlir verən bank məhsullarının və xidmətlərinin təşkilinə istiqamətlənməsi;
- xərclərin azaldılması və optimal nəticələrin əldə edilməsi məqsədilə bank fəaliyyətinin effektivliyinin yüksəldilməsinə yönəlmiş daimi cəhd;
- bazarın vəziyyətindən asılı olaraq bankın məqsədlərində, vəzifələrində və proqramlarında təshihlərin olması;
- bazardakı fəaliyyət prrosesində bankın və onun filiallarının (şöbələrinin) işinin yekun nəticəsinin uçotu;
- optimal qərarların qəbul edilməsi məqsədilə müasir informasiya bazasının (kompüter şəbəkələri və valyuta, fond birjaları, digər kredit maliyyə institutları ilə rabitə) mütləq istifadəsi;
- personalın rasioanl seçimi və effektiv istifadəsi.

Bank və əmək resurslarının istifadəsi məqsədə çatmaq üçün xərclərin minimallaşdırılmasını, bank personalının fəaliyyətinin maksimal effektivliyini nəzərdə tutur. Ona görə də bank menecmenti bir - biri ilə qarşılıqlı əlaqəsi olan üç hissədən ibarətdir: bankdaxili idarəetmə, əməliyyatların idarə edilməsi, personalın idarə edilməsi. Bank menecmentinin istifadəsi təsərrüfat fəaliyyəti prosesində üzə çıxan və gəlirin əldə edilməsinə yönələn konkret bank, maliyyə və sosial-psixoloji məsələlərin həllini nəzərdə tutur. Bank menecmenti bankın bazar şəraitindəki fəaliyyəti ilə şərtlənir. Bu halda idarəetmə və bank fəaliyyətinin nəticəsi öz qiymətini müxtəlif bank əməliyyatlarının həyata keçirilmə prosesində alır.

Bank menecmenti müəyyən spesifikliyə malikdir. Bu spesifiklik iqtisadi münasibətlərin verilmiş subyektinin fəaliyyət xarakteri ilə şərtlənir. Qeyd edildiyi kimi, bank – bank əməliyyatlarının köməyi ilə bizneslə məşğul olan özünəməxsus müəssisə kimi çıxış edir. O, öz sərəncamında olan kredit vəsaitlərini müəyyən haqla müəssisələrə, təşkilatlara, kooperativlərə, əhaliyə, dövlətə təqdim edir və onların əlavə pul vəsaitlərinə olan ehtiyaclarını təmin edir. Bununla belə, bank özgə pullarla «işləyir». Müxtəlif mülkiyyətçilərin:

MUHASIBAT.AZ

dövlət müəssisələrinin və təşkilatlarının, səhmdar müəssisələrinin və cəmiyyətlərin, kooperativlərin, şəxsi adamların dövriyyədən çıxmış pul vəsaitləri bankda birləşir. Beləliklə, bank ictimai kapitalın bölüşdürücüsü və qoruyucusu kimi çıxış edir. Bu isə müştərilərin bank hesablarında olan pul vəsaitlərinin saxlanması üçün bankın pul sahibləri qarşısındakı məsuliyyətini nəzərdə tutur. Ona görə də bank təkcə öz şəxsi maraqlarının yox, həm də ictimai maraqların ifadəçisi kimi çıxış edir. Maraqların belə uyğunluğu banka həmişə xas olmuşdur. Bunsuz bankın likvidliyini və deməli, bankın pul-maliyyə bazarındakı dayanıqlılığını təmin etmək mümkün deyil.

Bank siyasətinin hazırlanması bankın potensial imkanlarından və vəsaitlərindən çıxış edərək həm yaxın gələcək, həm də perspektiv üçün bankın fəaliyyət məqsədlərinin və inkişaf strategiyasının müəyyənləşdirilməsini nəzərdə tutur. Bankın məqsədləri onun inkişaf konsepsiyasını və fəaliyyət aktivliyinin əsas istiqamətlərini müəyyənləşdirir. Bank siyasətinin –bankın məqsəd və strategiyasının hazırlanması üçün baza rolunu tam informasiya təminatı oynayır. Tam informasiya təminatı bankın həm cari dövrdəki, həm də perspektivdəki fəaliyyəti nəticəsində əldə olunur. Bankın strateji mövqelərinin hazırlanması prosesində müəyyən kəmiyyət və keyfiyyət göstəricilərindən, yəni istiqamət və tapşırıqlardan istifadə olunur. İstiqamət – bankın strategiya hazırlamaq yolu ilə əldə etmək istədiyi daha uzaq məqsəddir. Məqsədin müəyyənləşdirilməsi – qərarların qəbul edilməsi üçün daha konkret səviyyədir və uyğun strateji məsələlərin hazırlanmasını tələb edir. Bir məqsədin strategiyasından digər məqsədin əldə olunması üçün istifadə oluna bilməz.

Ümumi (qlobal) məqsədlər bütövlükdə bank üçün hazırlanırsa, spesifik məqsədlər əsasən müxtəlif bank şöbələri üçün hazırlanır. Ümumi məqsədlər bankın inkişaf konsepsiyasını əks etdirir və uzaq perspektiv üçün nəzərdə tutulur. Onlar bankın inkişaf proqramlarının əsas istiqamətlərini müəyyənləşdirirlər. Bu isə məqsədlərin dəqiq ifadəsini və resurslarla uyğunlaşdırılmasını tələb edir. Məqsədlərin formalaşdırılması ilə eyni zamanda üstünlüklərin qiymətləndirilməsi və ya sıralanması da baş verir.

MUHASIBAT.AZ

Kəmiyyət göstəriciləri ilə və ya ümumi istiqamətlərin müəyyənləşdirilməsi yolu ilə ifadə olunmuş ümumi məqsədlərin üstünlüyü aşağıdakı şəkildə göstərilə bilər:

- optimal gəlirliliyin təmin edilməsi (depozit əməliyyatların həcmi, gəlirin ölçüsü və norması, bazardakı pay, kapitalın strukturu, ilkin və təkrar bazarda səhmlərin qiyməti, dividendin səviyyəsi, ödənilmiş əmək haqqının məbləği, bank məhsullarının keyfiyyət səviyyəsi);
- bankın dayanıqlığının təmin edilməsi (yeni məhsulların tədqiqatı və hazırlanması ilə bağlı xərclər, rəqabətədavamlılıq potensialı, yeni bazarların proqnozlaşdırılması, xarici fəaliyyətin təşkili, investisiya və kredit siyasəti, kadr siyasəti);
- bank fəaliyyətinin yeni növlərinin, yeni inkişaf istiqamətlərinin hazırlanması (fəaliyyətin diversifikasiyası, əldə etmələr və birləşmələr, informasiya sistemlərinin inkişafı, konkret şirkətlərin və kompaniyaların, o cümlədən səhmləri satışa qoyulmuş kredit-maliyə institutlarının müəyyənləşdirilməsi, bank fəaliyyətinin yeni sektorlarının hazırlanması).

Spesifik məqsədlər hər bir şöbədə fəaliyyətin əsas növləri üzrə ümumi məqsədlər çərçivəsində hazırlanır və keyfiyyət, kəmiyyət göstəriciləri ilə ifadə oluna bilir. Spesifik məqsədlər arasında əsas yeri aşağıdakılar tutur:

- bankın hər bir şöbəsi üzrə gəlirliliyin müəyyənləşdirilməsi (gəlirin ölçüsü və norması, dividendin səhmə nəzərən artımı);
- marketinq sahəsindəki nailiyyətlər (bir və ya bir neçə bazarda reallaşdırmanın səviyyəsi, yeni məhsulların tətbiqi, xidmətlərin genişləndirilməsi), yeni layihələr və işləmələr sahəsində nailiyyətlər, bank resurslarının daha effektiv istifadəsi üçün normativ göstəricilərin müəyyənləşdirilməsi (xərclərin azaldılması, məhsulların keyfiyyətinin yüksəldilməsi, yeni xidmətlərin hazırlanması), maliyyə sahəsindəki nailiyyətlər (maliyyə mənbələri strukturunun müəyyənləşdirilməsi, vergilərin minimallaşdırılması);

MUHASIBAT.AZ

- əməliyyatların artırılması, bankın bazardakı payının yüksəldilməsi, gəlirin və xüsusilə gəlir normasının artımı, filialın xarici fəaliyyətinin genişləndirilməsi.

Bütun bu məqsədlər, bir qayda olaraq, bu və ya digər məsələlər və problemlər üzrə qərarların qəbul edilməsi yolu ilə, aşağıdakı strategiyaların tətbiqi vasitəsilə əldə edilir:

- məhsul – bazar strategiyası (bank məhsullarının və xidmətlərin konkret növlərinin, onların reallaşdırılma üsullarının, rəqabətədavamlılığın yüksəldilməsi üsulunun müəyyənləşdirilməsi);
- marketinq strategiyası (bankın bazar şəraitinə uyğunlaşdırılması);
- investisiya strategiyası (bank gəlirlərinin artırılması məqsədilə qiymətli kağızlar bazarına qoyuluşların genişləndirilməsi);
- xarici iqtisadi ekspansiya strategiyası (xaricdəki fəaliyyətin genişləndirilməsi ilə əlaqədardır);
- yeniliklər strategiyası (yeni texnologiyaların və məhsul növlərinin tətbiqi);
- inkişaf strategiyası (həm passiv, həm də aktiv əməliyyatlar sferasında kapitalın yığım sürətinin dayanıqlığı da daxil olmaqla, bank inkişafının sabit sürətinin təmin edilməsini nəzərdə tutur);
- udulma strategiyası (digər bankların və kredit maliyyə institutlarının səhmlərinin əldə edilməsi ilə əlaqədardır).

Bank fəaliyyətinin idarəetmə məqsədləri gəlirliliyin və səhmdarların banka qoyduqları yatırım dəyərlərinin maksimallaşdırılmasına istiqamətlənmişdir. Bir çox bank müəssisələri öz əməliyyatlarının effektivliyini artırmağı zəruri hesab edirlər. Adətən, bu, əməliyyat xərclərinin azaldılması ilə və əməyin avtomatlaşdırılması, əməkdaşların peşəkarlıqlarının artırılması nəticəsində əmək məhsuldarlığının yüksəldilməsi ilə əlaqədardır. Qeyri - tənzimlənmə prosesi bankları cəlb edilmiş vəsaitlər üzrə daha yüksək faiz xərcləri tətbiq etməyə və xüsusən əmək haqqı, mükafat və əlavə xərc hissəsindəki faiz xərclərini azaltmağa məcbur edir.

MUHASIBAT.AZ

Qeyd etmək lazımdır ki, kommersiya bankının menecmenti mərkəzi bankın menecmentindən fərqli olaraq, özünəməxsus spesifikliyə malikdir. Bu spesifiklik pul bazarı şəraitində bir təsərrüfat subyekti kimi bankın gəlirli işinin təmin edilməsini, bankın etibarlılıq qarantı kimi bank balansının likvidliyinin təmin edilməsini (kreditorun və əmanətçinin maraqlarının gözlənilməsi), xidmətlərin həcmində, strukturunda və keyfiyyətində müştəri tələbatlarının maksimal şəkildə təmin edilməsini, kollektivin istehsal, kommersiya və sosial problemlərinin uğurlu həllinin uyğunlaşdırılmasını, mütəxəssislərin hazırlanması, yenidən hazırlanması və yerləşdirilməsi ilə bağlı effektiv sistemin yaradılmasını nəzərdə tutur.

Hərçənd, kommersiya bankı menecmentinin əsas məqsədi idarəetmənin daha rasional sisteminin tətbiq edilməsi yolu ilə daha çox gəlir əldə etməkdən ibarətdir. Bununla belə, müasir menecmentdə sosial etikanın da rolu artır. Bu isə menecmentin fəaliyyətində ictimai tələbatın təmin edilməsinə, kollektivin sosial problemlərinin həllinə yönəlmiş istiqaməti nəzərdə tutur. Sosial problemləri həll olunmayan insan öz potensialını tam şəkildə reallaşdırmaq imkanına malik olmur və var qüvvəsi ilə işləyə bilmir. Ona görə də bank menecmentinin məqsədi gəlirliliyin təmin edilməsi, ictimai tələbatın ödənilməsi və ya bank sahibkarlığının sosial etikasının inkişafı, kollektivin sosial problemlərinin həllidir.

Göstərilən məqsədlərə uyğun olaraq, bank menecmenti bir sıra kəmiyyət, keyfiyyət və sosial göstəricilərin yerinə yetirilməsinə istiqamətlənir. Kəmiyyət göstəriciləri bank müştərilərinin və onların hesablarının sayı, depozitlərin həcmi, kredit yatırımlarının və investisiyaların həcmi, bank fəaliyyətinin ümumi nəticələrinin analizi və qiymətləndirilməsi üçün istifadə olunan əməliyat və xidmətlərin həcmi ilə əlaqədardır.

Keyfiyyət göstəriciləri bir neçə qrupa bölünür. Onların bəziləri aşağıdakılardır:

- bankın mədaxil və məxaric göstəriciləri. Bank rentabelliyinin (gəlirliliyin) idarəetməsi onların köməyi ilə baş verir;

MUHASIBAT.AZ

- vəsaitlərin dövriyyə sürətlərinin, əməliyyatların həyata keçirilmə xərclərinin, sənədlərin hazırlanma sürətinin göstəriciləri;
- bank xidmətlərinin həcmi, strukturu və keyfiyyəti üzrə müştərilərin tələbatlarının təmin edilmə səviyyəsinin göstəriciləri, o cümlədən işçi danışıqların məxfiliyini təmin etmək və məlumatları saxlamaq barədə bankın qabiliyyəti.

Sosial göstəricilər kollektiv üzvlərinin peşəkar hazırlığını, onların əməyə münasibətini, sosial problemlərin həll səviyyəsini xarakterizə edir.

Bank menecmentinin özünəməxsus xüsusiyyəti həm də ondan ibarətdir ki, pul əmanətləri və depozit sahiblərinin maraqlarının müdafiəsi məqsədilə bank fəaliyyəti dövlət tərəfindən daha çox tənzimlənən hesab olunur. Bu halda kommersiya bankları üçün qərarların müstəqil şəkildə qəbul edilməsi ilə bağlı müəyyən sərhədlər mövcuddur. Bu isə mütləq normativlərə, təlimatlara riayət edilməsini, həmçinin menecerlər tərəfindən bank likvidliyinin təmin edilmə yollarının axtarılmasını (müəyyənləşdirilmiş normativlərdən çıxış edərək) nəzərdə tutur.

Bank fəaliyyətində idarəetmənin xüsusiyyəti idarəetmə sferasının genişliyi və pul əməliyyatlarının yerinə yetirilməsində böyük riskin olmasıdır. Ona görə də bankda daha məsuliyyətli qərarların kollektiv şəkildə qəbul edilmə prinsipi tətbiq olunur, kreditorun mümkün risklərdən müdafiə üsullarından istifadə olunur, kredit əməliyyatlarının yerinə yetirilməsi sahəsində hüquqlar əsas bankla onun filialları arasında bölüşdürülür. Bu halda bank menecmentinin istiqamətlərini iki böyük sferaya ayırmaq olar:

- bankın səlahiyyətində olan iqtisadi proseslərin təşkili və idarəsi;
- bank kollektivinin təşkili və idarəsi.

İqtisadi proseslərin təşkili və idarəsi bank siyasətinin müəyyənləşdirilməsi məsələlərinin həlli ilə sıx şəkildə əlaqədardır. Bank siyasətinin hazırlanması özündə kredit siyasətini, depozit siyasətini, investisiya siyasətini, faiz siyasətini birləşdirən perspektiv fəaliyyətin müəyyənləşdirilməsini nəzərdə tutur. Kommersiya banklarının iqtisadi

MUHASIBAT.AZ

cəhətdən əsaslandırılmış bank siyasətinə keçidi ən azı üç məsələnin aydınlaşdırılmasını tələb edir:

- təşkilati məsələ planlaşdırma ilə məşğul olan şöbənin müəyyənləşdirilməsini nəzərdə tutur (məxsusi bu məqsədlə təşkil olunmuş plan şöbəsi və ya beyin mərkəzi adlanan müvəqqəti kollektiv);
- iqtisadi məsələ kredit vəsaitlərinin həcmi və strukturu, balansın likvidliyi, uyğun əməliyyatların həyata keçirilməsi ilə bağlı xərclərin səviyyəsi, bankın texniki təminatı, kadrların peşəkarlığı nöqteyi nəzərindən bankın öz imkanlarının öyrənilməsini nəzərdə tutur;
- informasiya məsələsi informasiya xidmətinin şaxələnmiş sisteminin yaradılmasını, bazar konyunkturasının analizi və proqnozlaşdırılması prosesində elektron texnikadan istifadə etməyə imkan verən yüksək texniki təminatı, reklamın təşkilini nəzərdə tutur.

Bu məsələlər aktivlərin idarəetməsi ilə bağlıdır və bank işində gəlirliliyin təmin edilməsini, bank balansının likvidliyini nəzərdə tutur. Məsələnin həlli yalnız yaranmış vəziyyətin sistematik analizi əsasında mümkündür. Bu analizi isə aktivlərin struktur dəyişikliklərinə məqsədəuyğun təsirlər yolu ilə həyata keçirmək olar. Məsələ bundadır ki, müxtəlif aktivlər banka müxtəlif gəlirlər gətirir və müxtəlif risk dərəcələrinə malik olurlar. Pul bazarı inkişaf etmiş ölkələrdə aktivlərin idarəetməsi iqtisadi -riyazi model əsasında həata keçirilir. Bu model isə verilmiş rentabellik (gəlir norması) və likvidlik normativində aktivlərin yerləşdirilməsi ilə passivlərin vəziyyəti arasındakı asılılığın müəyyənləşdirilməsini nəzərdə tutur.

Passivlərin idarəetməsi də mühüm məsələdir. Bu prosesin gedişində bankda gəlir gətirməyən vəsaitlərin olmasına imkan vermək olmaz (istisna mütləq ehtiyatların formalaşdırılmasını təmin edən hissədir). Həmçinin bank tərəfindən müştərilər qarşısındakı uyğun öhdəliklərin yerinə yetirilməsi və aktiv əməliyyatların inkişaf etdirilməsi üçün zəruri kredit vəsaitlərinin axtarılmasını, «ucuz» vəsaitlərin cəlb edilməsi hesabına bankın gəlir əldə etməyini təmin etmək olmaz.

MUHASIBAT.AZ

Bankın xüsusi vəsaitlərinin idarəetməsi kapitalın kifayət qədər olması və gəlirliliyin təmin edilməsi üçün mühüm əhəmiyyətə malikdir. Belə ki, bankın aktiv əməliyyatlarının genişləndirilməsi və depozitlərin həcminin artımı xüsusi kapitalın çoxalma zərurətini yaradır. Xüsusi kapitalın idarəetməsi isə onun kafilik (kifayət qədər olmaq) meyarının əsaslandırlımasını, o cümlədən bu kafiliyi qiymətləndirməyə imkan verən göstəricilərin seçimini nəzərdə tutur. Xüsusi kapitalın effektiv idarəetmə aləti rolunda bankın buraxdığı səhmlər üzrə dividend sahəsindəki siyasəti çıxış edir. Məsələ bundadır ki, dividendlərin artımı səhmlərin qiymətlərinin yüksəldilməsinə səbəb olur. Bu isə əlavə səhmlərin satış imkanı və xüsusi kapitalın artımı deməkdir.

Bank işində gəlirliliyin idarəetməsi onun mədaxil və məxaricinə nəzarəti, cəlb olunmuş vəsaitlər üzrə xərclərin son həddinə nəzarəti, kreditləşmə və investisiya gəlirlərinin son həddinə nəzarəti, maliyyə nəticələrində stabilliyin təmin edilməsini və itkilərlə bağlı riskin azaldılmasını nəzərdə tutur. Şübhəli və ziyanlı əməliyyatların analizinə, bank fəaliyyətində gəlir artımına təsir edən möhtəkir əməliyyatların çoxaldılma səbəblərinə xüsusi diqqət göstərmək lazımdır.

Bank fəaliyyətində risklərin idarəetməsi də mühüm əhəmiyyət kəsb edir. Risklərin idarəetməsi prosesində həll ediləsi əsas məsələlər riskin mümkün yaranma hallarını müəyyənləşdirmək, ehtimal edilən ziyanın miqyasını qiymətləndirmək və ehtimal edilən ziyanın xəbərdarlıq üsullarını və ya ödənilmə mənbələrini axtarıb tapmaqdır.

Bank kollektivinin təşkili və idarəsi aşağıdakılarla əlaqədardır:

- əmək kollektivinin idarəetmə konsepsiyasının hazırlanması. Dünya nəzəriyyəsində və təcrübəsində menecmentin yapon modelindən və Amerika modelindən istifadə olunur. Yapon modeli bank fəaliyyətində yüksək nəticələrin əldə edilməsində kollektivin rolunu qəbul edir. Amerika modeli isə kollektivin bütün fəaliyyətində şəxsiyyətin həlledici roluna istiqamətlənir. Bütün idarəetmə sistemi, yəni qərarların qəbul edilməsi, məsuliyyət, nəzarətin təşkili, rəhbərliyin tabelikdə olanlarla

MUHASIBAT.AZ

münasibəti, əmək haqqının ödənilmə sistemi, idarəetmə keyfiyyətinin qiymətləndirilməsi, menecerlərin hazırlanması və başqaları bu modellərə uyğun olaraq qurulur;

- kollektivin hər bir üzvü tərəfindən öz potensial imkanlarının reallaşdırılması üçün şəraitin yaradılması;
- menecerin kollektiv əməyi təşkil etmək bacarığı. O, vəzifələri kollektiv üzvləri arasında dəqiq bölüşdürmək bacarığına, konkret məsələlər qoymaq və onları göstəricilərlə ifadə etməyə, məsələlərin yerinə yetirilmə müddətini müəyyənləşdirməyə, onların informasiya bazasını və texniki vasitələrini təmin etməyə, tapşırıqların yerinə yetirilmə ardıcıllığını müəyyənləşdirməyə əsaslanır;
- menecerin kollektivin hər bir üzvü ilə davranmaq bacarığı. Bu bacarıq əsasən menecerin şəxsi keyfiyyətlərindən, onda hər bir əməkdaşın fərdi xüsusiyyətləri barədə məlumatın olmasından asılıdır. Rəhbərliyin tabelikdə olanlarla davranış tərzi izahatlarla müşayiət olunan direktiv göstərişlərə, qərarların qəbul edilməsində geniş hüquqların verilməsinə, şəxsi təşəbbüsün təzahürünə əsaslana bilər. Davranışın uyğun növünün seçimi əməkdaşın səriştəlilik səviyyəsindən və öz əmək nəticələrinin yüksəldilməsində maraqlı olmasından asılıdır.

Yoxlama sualları

1.Marketinq nəyi ifadə edir?

2.F.Kotler marketinq idarəetməsinin hansı beş konsepsiyasını göstərmişdir?

3.Bank marketinqinin sənaye marketinqindən fərqi nədir?

4.Marketinq fəaliyyəti sistemində məhsulun (xidmətin) hansı dörd əsas səviyyəsi mövcuddur?

5.Bank öz marketinq fəaliyyətini necə qurur?

6.İ.Ansoff və Boston qrupu matrislərinin xüsusiyyətləri nədən ibarətdir?

MUHASIBAT.AZ

7.Bir elm kimi menecmentin əsaslandığı prinsiplər hansılardır?

8.Bank menecmenti nəyi təmsil edir və öz inkişafında hansı mərhələlərdən keçmişdir?

9.Bazar iqtisadiyyatı şəraitində bank menecmenti hansı prinsiplər əsasında qurulur?

10.Bank menecmentinin üstün və spesifik məqsədlərinin mahiyyəti nədən ibarətdir?

11.Kommersiya bankı menecmentinin spesifikliyi nədən ibarətdir?

12.Bank menecmentinin kəmiyyət, keyfiyyət və sosial göstəriciləri nəyi təmsil edir?

13.Bank menecmenti hansı iki böyük sferaya bölünür və onların spesifikliyi nədən ibarətdir?

14.Menecmentin yapon və Amerika modellərinin xüsusiyyətləri nədən ibarətdir?

MUHASIBAT.AZ

19.BANK AUDİTİ

Bank auditi bank fəaliyyətinin maliyyə – təsərrüfat vəziyyətinin yoxlanmasını ifadə edir. Bank auditinin əsas məqsədi yoxlanılan bankın maliyyə vəziyyəti, gəlirliliyi, likvidliyi, bank əməliyyatlarının risk səviyyəsi haqqında rəyin əldə edilməsidir. Auditor rəyi illik hesabat, rəsmi balans, gəlir və itki hesabı ilə birlikdə nəşr olunur. Demək olar ki, bütün ölkələrdə banklar müstəqil auditorlar tərəfindən yoxlanmaya məruz qalırlar. Bu yoxlama özündə, bir qayda olaraq, yoxlamanın iki növünü birləşdirir:

- hesabatların milli qanunlara, normativ aktlara və müddəalara uyğun olaraq düzgün tərtib olunması yoxlanılır;
- maliyyə hesabatlarında bank işinin real və cari vəziyyətinin, əməliyyatların nəticələrinin əks etdirilməsi üçün kommersiya və fərdi sövdələşmələrin ciddi təftişi və analizi aparılır.

Bankın auditor yoxlamasının məqsədi maliyyə müflisləşməsinin xəbərdarlığı yox, birinc növbədə maliyyə hesabatlarının qiymətləndirilməsidir. Öz funksiyalarını yerinə yetirən müstəqil auditorlar bank sektoruna toxunan risklərlə bağlı faktorları nəzərə almalı, həmçinin bank fəaliyyətinin bəzi xüsusiyyətlərini nəzərə almalıdırlar:

*mühasibat hesablarında əks oluna bilməyən və «auditor izinə» gətirib çıxarmayan balansdankənar əməliyyatların banklar tərəfindən həyata keçirilməsi;

*bank fəaliyyətinin dövlət orqanları ilə və normativ tələblərlə (sənədlərlə) nizama salınması. Bu normativ tələblər bir çox hallarda mühasibat uçotu və auditor nəzarəti ilə bağlı təcrübəyə təsir edirlər;

*bank əməliyyatlarında dövr edən böyük həcmli vəsaitlərdən və nağd pullardan maneəsiz istifadə səbəbindən, qarşılıqlı əlaqəli tərəflərin həyata keçirdiyi əməliyyatlarda sui istifadələrin mümkünlüyü baxımından bankın zəif olması. Kommersiya bankları çox tez- tez, xüsusi halda beynəlxalq əməliyyatların həyata keçmə prosesində əlaqəli tərəflərlə işləyirlər.

MUHASIBAT.AZ

Auditor yoxlamalarında auditor aşağıdakıları nəzərə almalıdır:

*banklar pul vəsaitlərinin və digər yüksək likvidli alətlərin böyük həcmini qoruyub saxlayırlar. Onların fiziki təhlükəsizliyi lazımi şəkildə təmin edilməlidir (pulların qorunub saxlanması və ötürülməsi). Bu, pul vəsaitlərinin mənimsənilməsi və dələduzluq kimi təzahürlərdə bankları həssas edir. Ona görə də banklar daxili nəzarətin və əməliyyat prosedurlarının sərt sistemini tətbiq etməli və ona riayət olunmasını təmin etməlidirlər;

*banklar həm kəmiyyətinə, həm də qiymətinə görə müxtəlif əməliyyatların (sövdələşmələrin) böyük həcmində iştirak edirlər. Bunun üçün uçotun və daxili nəzarətin aparılması ilə bağlı mürəkkəb sistem, həmçinin məlumatların hazırlanması üçün kompüter sisteminin geniş istifadəsi tələb olunur;

*auditorlar maliyyə aktivlərinin «zəif» ola bilməsinə xüsusi diqqət yönəltməlidirlər;

*banklar, bir qayda olaraq, geniş coğrafi şəbəkəyə malikdirlər. Bu isə səlahiyyətlərin və uçot –nəzarət funksiyalarının mərkəzdən uzaqlaşmasına gətirib çıxarır, nəticədə təşkilati prinsiplərin və əməliyyat nəzarəti üsullarının gözlənilməsində yeknəsəkliyin təmin edilməsi məsələsi çətinləşir.

Bank auditorları bir çox auditor riskləri ilə rastlaşırlar. Onların bəziləri aşağıdakılardır:

*daxili risklər onunla əlaqədardır ki, onlar bircins olmayan işçi mühitlə təmasda olurlar. Bu işçi mühit isə güclü rəqabətlə, daima yeni bank məhsullarının hazırlanması ilə və risk səviyyəsinin yüksəlməsi ilə xarakterizə olunur;

*nəzarət riski onunla əlaqədardır ki, bankda mövcud olan daxili nəzarət və bank məlumatlarının müdafiə mexanizmləri auditor yoxlamalarını mürəkkəbləşdirirlər. Bank əməliyyatlarında kompüterləşmənin genişləndirilməsi real zaman miqyasında işləmək imkanı verir. Bu, bir tərəfdən nəzarətin aparılma imkanlarını artırır, digər tərəfdən kompüter texnikasındakı

MUHASIBAT.AZ

nasazlıqlarla və ya kompüter dələduzluğu ilə bağlı əlavə risklərin yaranmasına səbəb olur;

*səhvlərin üzə çıxarılması ilə bağlı risklər. Bu halda bank fəaliyyətinin mürəkkəb xarakteri, o cümlədən daima yeni bank məhsullarının hazırlanması auditorların peşəkar bilikləri qarşısında (bank işinin və onunla bağlı risklərin dərk edilməsi) yeni tələblər qoyur. Auditorlar öz vəzifələrini yerinə yetirən zaman peşəkar hazırlığın çatışmazlığı problemi liə rastlaşa bilərlər.

Xarakterik haldır ki, son illər auditor risklərinin və bank auditorlarının məsuliyyətlərinin artımı müşahidə olunur. İqtisadiyyatın başqa sektorlarındakı risklərlə və auditor məsuliyyəti ilə müqayisədə bu, daha böyük miqyaslarda baş verir.

Auditor yoxlamaları bank rəhbərliyi ilə müstəqil auditor şirkəti arasında bağlanmış müqaviləyə əsasən həyata keçirilir, həmçinin mərkəzi bankın tarşırığı ilə də aparıla bilir. Beynəlxalq audit də mövcuddur. Yuxarı təşkilatların adi təftişlərindən fərqli olaraq auditor yoxlamaları kompleksliyi, müstəqilliyi, ocümlədən bank təsisçilərinin maraqları çərçivəsində verdiyi tövsiyələrlə xarakterizə olunur. Audit üsullarına mühasibat sənədlərinin təftişi, əməliyyatların və mühasibat uçotunun yoxlanması, uçot qeydlərinin sənədlərlə tutuşdurulması, qarşılıqlı əlaqədar əməliyyatlar üzrə sənədlərin və faktiki məlumatların yoxlanması, qarşılıqlı yoxlamaların aparılması daxildir.

Mühasibat sənədlərinin öyrənilməsi prosesində əməliyyatların yerinə yetirilməsinin qanuniliyi və düzgünlüyü müəyyənləşdirilir, sənədlərin əsliliyi, sənədlərdəki hesablamaların doğruluğu, bank kotirovkalarının əsaslandırılması tutuşdurulur. Sui istifadələrin mümkün ola bildiyi daha çətin və məsuliyyətli əməliyyat sənədlərinin başdan ayağa qədər yoxlanması da istisna edilmir (məsələn, kassa, valyuta, depozit, faiz, komisyon və zəmanət əməliyyatları). Müştəri sifarişlərinin yerinə yetirlməsi ilə əlaqədar olmayan və bu səbəbə görə də onlar tərəfindən nəzarət olunmayan əməliyyat sənədlərini də başdan ayağa qədər yoxlamaq məqsədəuyğundur (bankdaxili əməliyyatlar üzrə sənədlər, bankın mədaxil və məxaric sənədləri, nizamnamə fondunun

MUHASIBAT.AZ

formalaşdırılma sənədləri). Bütün digər hallarda sənədlərin yoxlanmasında seçmə üsulundan istifadə etmək lazımdır.

Sənədlər həm orada əks olunmuş əməliyyatların qanuniliyi nöqteyi nəzərindən, həm də tərtibatın düzgünlüyü nöqteyi nəzərindən, yəni blank formalarının tətbiq olunmasına, ödəyicilərin və pul alanların hesab nömrələrinin, əməliyyat tarixlərinin düzgün göstərilməsinə nəzərən yoxlanılır. Məxaric kassa sənədləri daha dəqiq öyrənilir.

Faktiki yoxlamanın məqsədi əməliyyatların həyata keçirilmə reallığını müəyyənləşdirməkdir. Bu yoxlama bankın sənədləri, mühasibat uçotu, müştəriləri və payçıları üzrə aparılır.

Bütün əməliyyatların yoxlama prosesində mütləq şərt analitik hesab dövriyyələrinin hesablanması və onların sintetik uçot məlumatları ilə tutuşdurulmasıdır. Analitik və sintetik uçotun qarşılıqlı yoxlamaları gedişində hesabların düzgün açılması dəqiqləşdirilir və buradakı qalıqlarla müştərilərin və müxbir bankların uçotu arasında uyğunluq aparılır. Saxta hesabların mövcudluğu yoxlanılır. Bu məqsədlə hər bir şəxsi hesabdakı məlumat imza nümunələri və möhür izləri ilə, həmçinin açıq hesabların qeydiyyat kitabı ilə müqayisə olunur. Borc əməliyyatlarının analitik uçotu dəqiq yoxlanılır. Saxta borc hesablarının üzə çıxarılması üçün təcili və vaxtı keçmiş borclar üzrə şəxsi hesabların qalıqları müəssisələrin balans məlumatları ilə, balansdankənar uçot üzrə təcili öhdəliklərlə, müştərilərin təsdiqlədikləri məlumatlarla tutuşdurulur.

Audit yoxlamaların gedişində mühasibat qeydləri sənədlərlə müqayisə edilir və mühasibat uçotunda onların əsaslandırılması müəyyənləşdirilir. Pozulmaların və sui istifadələrin üzə çıxarılması üçün bəzi əməliyyatların mühasibat uçotundakı qeydləri və sənədləri onlarla bağlı olan digər əməliyyatların qeydləri və sənədləri ilə tutuşdurulur. Məsələn, qiymətli kağızların (səhmlərin, istiqrazların) reallaşdırılması balansdankənar uçot üzrə qiymətli kağız blanklarının çıxarı kimi əks olunmalıdır. Qiymətli kağızların reallaşdırılması balans hesablarında da nağd pulların kassaya daxil olması kimi və ya qeyri nağd köçürmələrdə bankın müxbir hesabındakı vəsaitlərin

artımı kimi göstərilir. Nağd pullarla reallaşdırılmış qiymətli kağızların dəyəri kassa mədaxil orderindəki məbləğə uyğun gəlməlidir. Kommersiya banklarının fəaliyyət nəticələrinin audit yoxlaması analitik və sintetik uçotda mədaxilin və məxaricin düzgün əks olunma tədqiqatına əsaslanır. Tamamlayıcı hesabların qurulma sxemi, gəlirin və çıxarın tərkibi, onların uçot qaydası, mənfəətin (gəlirin) hesablanma qaydası mərkəzi bank tərəfindən müəyyənləşdirilir.

Müstəqil auditor şirkətləri tərəfindən mühasibat uçotunun və hesabatın tərtib olunma dürüstlüyünün yoxlanması mənfəətin hesablanmasında və dividentlərin bölüşdürülməsində dürüstlüyə kömək edir. Öz pullarını və digər əmlaklarını səhmdar kommersiya banklarına qoyan payçılar və kreditorlar bunda maraqlıdırlar. Banklar investorları və kreditorları cəlb etmək üçün potensial müştəriləri özlərinin maliyyə dayanıqlığına və etibarlılığına inandırmalı, öz hesabatlarını açıqlamalıdırlar.

Audit tarixi göstərir ki, onun inkişafı səhmdar müəssisələrin inzibati idarəsi ilə mülkiyyətçilər (investorlar) arasındakı maraqların ayrılması, həmçinin auditə ehtiyac doğuran aşağıdakı şərtlərlə əlaqədar idi:

*informasiyanın tərtibatçıları ilə (inzibatçılarla) istifadəçilər (səhm sahibləri, kreditorlar və digər üçüncü tərəflər) arasındakı münaqişə qeyri obyektiv informasiyaya gətirib çıxara bilər;

*müəyyən informasiyaya əsaslanmış qərarların qəbulunda informasiya böyük iqtisadi nəticələrə malik olur;

*informasiyanın hazırlanması və yoxlanması üçün dərin, xüsusi biliklər tələb olunur;

*informasiyanın əldə edilməsində maraqlı olan istifadəçilər bir çox hallarda informasiyanın keyfiyyətini bilavasitə qiymətləndirmək üçün ondan istifadə etmək imkanına malik ola bilmirlər.

İqtisadi informasiyanı keyfiyyətli və peşəkar şəkildə qiymətləndirmək, təsərrüfat və maliyyə qərarlarının düzgün qəbul edilməsini asanlaşdırmaq, mənfi iqtisadi nəticələrdən qaçmaq, auditə məruz qalmış təşkilatın nüfuzunu möhkəmləndirmək üçün auditin olması zəruridir.

MUHASIBAT.AZ

Audit, adətən, öz məzmununa görə maliyyə hesabatlarının auditinə, tələblərə uyğunluq auditinə, təsərrüfat fəaliyyətinin auditinə ayrılır.

Maliyyə hesabatlarının auditi subyektin hesabatlarının yoxlanmasından ibarətdir. Məqsəd onların mühasibat uçotu qaydalarına, müəyyənləşdirilmiş meyarlara uyğun şəkildə tərtib edilməsinin dürüstlüyü barədə rəy verməkdir. Auditin bu növü bankların (hesabatları yoxlanmaya məruz qalan bankların) muzdla tutduğu kənar auditorlar tərəfindən aparılır. Maliyyə hesabatlarının audit nəticələri istifadəçilərin geniş dairəsinə, səhm sahiblərinə, kreditorlara, dövlət tənzimlənmə orqanlarına və əhaliyə çatdırılır. Maliyyə hesabatlarının auditi fond birjalarının fəaliyyəti üçün də zəruridir və üç mərhələdən ibarətdir:

*planlaşdırma mərhələsi təmərrüfat fəaliyyəti və idarəetmə strukturu ilə tanışlığa xidmət edir. Maliyyə hesabatları məhz onların təqdim etdikləri məlumatlar əsasında tərtib olunur;

*maliyyə hesabatlarının dürüstlüyünün qiymətləndirilməsi üçün zəruri olan informasiyanın toplanma və analiz mərhələsi;

*audit nəticələri haqqında məlumat mərhələsi.

Tərtib edilmiş maliyyə sənədlərinə və hesabatlara görə məsuliyyəti bankın inzibati idarəsi daşıyır. Maliyyə hesabatlarının auditi aşağıdakılardan ibarətdir:

*maliyyə hesabatlarında olan məlumatları və məbləğləri təsdiq edən sənədlərin analiz yolu ilə yoxlanması;

*inzibati idarə tərəfindən aparılmış hesabatların və istifadə olunmuş mühasibat uçotu üsullarının qiymətləndirilməsi;

*təqdim edilmiş bütün maliyyə hesabatının qiymətləndirilməsi.

Tələblərə uyğunluq auditi bankın müəyyən maliyyə və ya təsərrüfat fəaliyyətinin analizindən ibarətdir. Məqsəd onun qanunlara və qaydalara uyğun olmasını müəyyənləşdirməkdir. Auditin bu növü üçün müəyyənləşdirilmiş meyarlar müxtəlif mənbələrdən götürülə bilir. Tələblərə uyğunluq auditi bir çox hallarda dövlətin normativ aktlarına əsaslanan meyarlar üzrə aparılır. Bu halda banklar isbat etməlidirlər ki, onların fəaliyyəti

dövlət qanunlarına, qərarlarına və mərkəzi bankın normativ aktlarına cavab verir. Məsələn, bankın nizamnamə fondunun vaxtında və qanuni yolla formalaşdırılması, bankda vergi bazasının və büdcəyə vergi ödənişinin düzgün müəyənləşdirilməsi yoxlanılır. Həmçinin bağlanmış kredit müqavilələri, borcun ödəniş vasitələrinin vaxtında və tam şəkildə qaytarılmasını təmin edən tədbirlərin həmin müqavilələrdə əks olunması, kommersiya hesablama prinsipinin gözlənilməsi, kredit vasitələrinin yerləşdirilməsindən gələn gəlirin xərclərlə uyğunluğu analiz edilir.

Təsərrüfat fəaliyyətinin auditi bankın kommersiya fəaliyyətinin analizindən ibarətdir. Müəyyən məqsədlərlə keçirilən audit bütün bankı və ya onun şöbələrini əhatə edə bilər. Adətən, təsərrüfat fəaliyyətinin auditi aşağıdakı məqsədlərlə aparılır:

*bankın kommersiya fəaliyyətinin effektivliyini qiymətləndirmək;

*bankın kommersiya fəaliyyətinin yaxşılaşdırılma imkanlarını üzə çıxarmaq. Adətən, auditor analiz əsasında xərclərin azaldılması, iqtisadi effektivliyin artırılması imkanlarını müəyyənləşdirir;

*fəaliyyətin yaxşılaşdırılması üçün və ya gələcək fəaliyyətlə bağlı tövsiyələrin verilməsi. Problemin xarakterindən və yaxşılaşdırılma imkanlarından asılı olaraq tövsiyələr də müxtəlif ola bilər.

Audit yoxlamaları təftiş yolu ilə (qeydlər, sənədlər, maddi qiymətlilər yoxlanılır), müşahidə yolu ilə (digər şəxslər tərəfindən bank əməliyyatlarının və prosedurların yerinə yetirlməsi müşahidə olunur və informasiya yalnız o halda doğru hesab olunur ki, bilavasitə müşahidə anında əldə edilsin), sorğu yolu ilə (bank daxilində məlumatlı şəxslər sorğu - sual edilir, bank xaricində - şifahi və yazılı şəkildə), hesablamalar yolu ilə (mühasibat qeydlərinin hesab yoxlaması və auditor tərəfindən müstəqil hesablamaların aparılması), analitik yoxlama yolu ilə (mühüm əmsalların, statistik materialların öyrənilməsi, standartdan gözlənilməz kənaraçıxmaların tədqiq edilməsi) həyata keçirilir.

Bank auditi bank müəssisələrinin bəzi hallarda qeyri effektiv olan fəaliyyətinə birbaşa dövlət müdaxiləsini tamamlamalıdır. Belə olan halda bank

MUHASIBAT.AZ

fəaliyətinin tez- tez üzə çıxan pozulma tendensiyaları cari normativ aktlar və mövcud qanunvericilik çərçivəsində aradan qaldırılacaq.

Yoxlama sualları

1.Bank auditi nədir və yoxlamanın hansı iki növündən ibarətdir?

2.Audit yoxlamada bank fəaliyyətinin hansı özünəməxsus xüsusiyətləri nəzərə alınır?

3.Auditor yoxlamasında auditor nəyi nəzərə almalıdır?

4.Auditor hansı auditor riskləri ilə qarşılaşır?

5.Audit üsulları nədən ibarətdir?

6.Auditə tələbatı hansı şərtlər doğurdu?

7.Bank auditi hansı əsas növlərə bölünür?

8.Auditor yoxlamaları hansı üsullarla həyata keçirilə bilər?

MUHASIBAT.AZ

V FƏSİL. VALYUTA SİSTEMİ VƏ BEYNƏLXALQ VALYUTA – KREDİT MÜNASİBƏTLƏRİ

20. VALYUTA SİSTEMİ

20.1. VALYUTA SİSTEMİNİN VƏ ONUN ELEMENTLƏRİNİN XARAKTERİSTİKASI

Valyuta sistemi istənilən dövlətin ümumi iqtisadi siyasətində əhəmiyyətli yer tutur. Sənaye cəhətdən inkişaf etmiş müasir ölkələrdə valyuta siyasəti, adətən, valyuta kursu siyasəti ilə, mərkəzi bankın intervensiyaları ilə, qızıl – valyuta ehtiyatlarının idarəetməsi ilə, valyuta nəzarəti və valyuta tənzimlənməsi ilə, beynəlxalq valyuta – maliyyə əməkdaşlığındakı iştirakla əlaqələnir. Bütün bu təsirlər əvvəl –axır ölkənin valyuta sisteminin fəaliyyət mexanizmində əks olunur.

Xarakterik haldır ki, təsərrüfat əlaqələrinin beynəlmiləlləşdirilməsi ilə yanaşı milli valyuta sistemi, sonra isə dünya valyuta sistemi formalaşır. Əvvəlcə milli valyuta sistemi – ölkənin valyuta münasibətlərinin təşkilat forması yaranmışdır. Tarixən təşəkkül tapmış bu sistem milli qanunvericiliklə, həmçinin dünya hüquq adətləri ilə möhkəmləndirilmişdir. Milli valyuta sistemi milli pul sisteminin tərkib hissəsidir, hərçənd o nisbətən müstəqildir və milli çərçivədən çıxır. Milli valyuta sisteminə aşağıdakı elementlər daxildir:

*valyutanın adlandırılması və paritetin müəyyənləşdirilməsi (adətən, valyuta metalında);

*valyuta (dəyişmə) kursunun müəyyənləşdirilmə qaydası;

*beynəlxalq ödəniş vasitələri növlərinin müəyyənləşdirilməsi və onların istifadə qaydası;

*nağd və qeyri nağd beynəlxalq hesablaşmaların nizamlanması;

MUHASIBAT.AZ

*beynəlxalq və kredit münasibətlərini tənzimləyən milli institutların statusu (mərkəzi bank, dövlət xəzinəsi, kredit-maliyyə müəssisələri, birja, qızıl bazarı, valyuta bazarı, xüsusi valyuta nəzarəti orqanı və başqaları).

Milli valyuta sistemi dünya valyuta sistemi ilə – beynəlxalq valyuta münasibətlərinin təşkilat forması ilə əlaqədardır. O, dünya bazarının inkişafı əsasında təşəkkül tapır və dövlətlərarası razılaşmalarla möhkəmləndirilir. Beynəlxalq valyuta sisteminə aşağıdakılar daxildir:

*əsas beynəlxalq ödəniş vasitələrinin müəyyənləşdirilməsi;

*valyuta paritetlərinin və kurslarının rejimi;

*valyutanın konversiya olunma şərtləri;

*beynəlxalq dövriyyə kanallarının kifayət qədər etibarlı ödəniş vasitələri ilə doldurulma mexanizmi;

*beynəlxalq hesablaşmaların əsas formalarının unifikasiyası;

*valyuta münasibətlərini tənzimləyən dövlətlərarası institutlar statusu (BVF və başqaları);

*beynəlxalq valuta bazarlarının və qızıl bazarlarının rejimi.

Valyuta sisteminin təkamülü dünya təsərrüfatının və dünya təsərrüfat əlaqələrinin inkişaf səviyyəsi ilə müəyyənləşir. Sənaye inqilabı nəticəsində beynəlxalq ticarətin genişləndirilməsi əsasında dünya valyuta sistemi – qızıl pul standartı formasında monometallizm yaranmışdır. Bu dövrdə həm milli, həm də beynəlxalq pul və valyuta sistemləri bir fərqli cəhətə malik olmaqla eyni idilər. Fərq isə ondan ibarət idi ki, dünya bazarına düşən pullar sanki öz milli libaslarını çıxarır və ödənişə çəki etibarilə başlayırdılar. Bazar iqtisadiyyatının təşəkkülü nəticəsində klassik qızıl – pul standartı təsərrüfat əlaqələrinin miqyaslarına uyğun gəlmədi və iqtisadiyyatın, pul, kredit və valyuta sistemlərinin tənzimlənməsini inhisarların və dövlətin maraqları çərçivəsində ləngitməyə başladı. Ona görə də Birinci dünya müharibəsindən sonra onu qızıldeviz standartı mexanizmi əvəz etdi. Bu mexanizm qızıla və kapitalist dünyasının aparıcı valyutalarına əsaslanmış və 1922-ci il Henuya konfransının qərarları ilə möhkəmləndirilmişdir.

MUHASIBAT.AZ

Henuya konfransı sonralar Bretton-Vudsda qəbul edilmiş qərarları bir çox məsələlərdə qabaqlayan keçid sistemini müəyyənləşdirməyə çalışdı. Valyuta sisteminin normal fəaliyyətinə qayıdış məqsədilə Henuya konfransı aşağıdakıları tövsiyə edirdi:

*milli valyutaların qızıla qismən dönüşünü bərpa etmək, həm də qızılın yalnız külçə şəklində olması şərti ilə. Bu təklifin məqsədi qızılı qorumaq və çox ciddi deflyasionist nəticələrdən qaçmaq idi. Nəticədə qızıl daxili pul dövriyyəsindən yoxa çıxmışdır;

*konfrans müharibə nəticəsində nəcib metal ehtiyatlarının yenidən bölüşdürülməsini nəzərə almış və öz qızıllarından məhrum olmuş ölkələrə öz valyutalarını bərpa etmək imkanı vermək məqsədilə təklif etmişdir ki, ehtiyat avuarlar təkcə qızılla yox, həm də qızıla dönə bilən valyuta ilə ifadə olunsun. «Qızıldeviz standartı sisteminin» rəsmi yaranışı belə baş vermişdir. Bu isə o demək idi ki, qızıldan başqa digər milli valyutalar da yığım funksiyasını və deməli, beynəlxalq ödəniş vasitəsi funksiyasını yerinə yetirə bilərlər. Bu halda xəzinə toplamaq funksiyası ödəniş vasitələri fuksiyası ilə sıx əlaqədardır, çüki gələcək sövdələşmələri aparmaq və onlara zəmanət vermək imkanını məhz o yaradır. Həmin dövrdə otuza qədər ölkənin pul sistemləri qızıldeviz standartı əsasında fəaliyyət göstərirdi.

İkinci dünya müharibəsindən sonra valyuta –kredit sferasının dövlət tənzimlənməsinin tətbiqi ilə bağlı ilk ciddi addım Bretton –Vuds razılaşması olmuşdur. Bu razılaşma valyuta–kredit sisteminin müharibədən sonrakı quruluşunun əsas elementi qismində qızıldeviz standartı prinsiplərini göstərmişdir. Razılaşma aşağıdakılara əsaslanırdı:

*qızıla və iki ehtiyat valyutanın – dolların və funt sterlinqin hökmdarlığına;

*dolların rəsmi qiymətlə qızıla dəyişməsinə (1971-ci il avqustun 15-ə kimi üçqat unsiyaya 35 dollar);

*sənaye cəhətdən inkişaf etmiş kapitalist ölkələri valyutalarının dollar vasitəsilə qarşılıqlı surətdə qızıla dönməsinə;

MUHASIBAT.AZ

*qeyd olunmuş valyuta kurslarına (kurs nisbətlərinin paritetlərdən kənara çıxmaların dar hüdudunda);

*xüsusi olaraq təsdiq edilmiş institutların köməyi ilə kapitalizmin valyuta- kredit münasibətlərinin dövlətlərarası tənzimlənməsinə. Həmin institutlar –Beynəlxalq valyuta fondu (BVF) və Beynəlxalq yenidənqurma və inkişaf bankıdır (BYİB). İstiqamətin lkin planları ilə müqayisədə faktiki fəaliyyəti başqa yönümdə inkişaf edən BVF və BYİB institutlarında hakim mövqe əvvəlcədən ABŞ-a məxsus idi.

Bretton –Vudsda yaradılmış qızıl –dollar standartı, əslində, dollar əsasında fəaliyyət göstərirdi. Məsələ bundadır ki, yalnız ABŞ öz valyutasının qızıla bilavasitə konversiyasını saxlamağa cəhd göstərirdi. Digər ölkələr öz valyutalarının paritetlərini müdafiə edir, onları süni şəkildə dollara bağlayır və sorğu sual etmədən dollarları ehtiyat aktivləri qismində qəbul edirdilər. Səbəb dolların qızıla konversiya edilə bilməsi, həmçinin Nyu Yorkun pul bazarında xarici avuarların sərbəst yerləşdirilməsinə ABŞ-ın imkan yaratması idi. Bununla da, dollar Bretton –Vuds sistemində nadir rol oynayırdı.

ABŞ-a nadir bir imkan verilmişdir. Bu imkan ondan ibarət idi ki, ABŞ xarici partnyorları ilə qızıl və xarici valyuta vasitəsilə yox, öz istehsalı olan kağız pullarla hesablaşırdı. Bu isə mal və xidmət haqqını dollarla alan ölkələrdən faizsiz və müddətsiz kreditin yüksək məbləğdə alınması demək idi. ABŞ digər ölkələrin valyuta kurslarını süni şəkildə yüksəldərək kapitalın ixracını gücləndirirdi. Bu isə Amerika inhisarçılarına digər ölkələrin bütöv iqtisadi sahələrini və müəssisələrini əlverişli qiymətlərlə əldə etmək, həmçinin xaricdə böyük hərbi xərcləri maliyyələşdirmək üçün yaxşı şərait yaradırdı.

Bretton –Vuds razılaşmasının əsas ideyası xüsusən də əmtəə mübadiləsində cari ödənişlərin sərbəstlik qarantından ibarət idi. Bunun üçün aşağıdakılar tələb olunurdu:

*ölkələr arasında normal hesablaşma imkanını məhdudlaşdıran xarici ticarətə nəzarətdən qaçmaq;

MUHASIBAT.AZ

*rəqabəti iflic edən və diskriminasiyaya gətirib çıxaran ikitərəfli tarazlıq prinsipinə əsaslanmış klirinq və buna bənzər razılaşmalardan qaçmaq;

*ödənişləri istənilən inzibati məhdudiyyətlərdən azad etməklə yanaşı, onları bütün dünyada işləyə bilən valyutada həyata keçirmək;

*bütün ölkələr öz valyuta siyasətlərini qayda –qanuna salmalıdırlar. Əgər hər hansı bir ölkə öz rəqabətədavamlılıq qabiliyyətini öz valyutasının qiymətdən düşməsi hesabına gücləndirməyə cəhd göstərsə, onun partyorları da proteksionist tədbirləri tətbiq etməyə məcbur olacaqlar.

Bretton – Vuds sisteminin uğurla fəaliyyət göstərməsi üçün iki şərtin mövcudluğu zəruri idi:

*ticarət və hesablaşma azadlığının saxlanması tələb edirdi ki, rəsmi ehtiyatların həcmi beynəlxalq əməliyyatların həcminə məqbul nisbətdə artsın. Bu şərt qismən ABŞ-ın ödəniş kəsiri hesabına yerinə yetirilirdi. Ödəniş kəsiri isə yeni monetar qızılın cüzi axınının əvəz edilməsi üçün və ehtiyatların artımı üçün dollar mənbəyi rolunu oynayırdı.Ölkələr arasında xarici hesablaşmaların məqbul balansı uğrunda gedən rəqabət mübarizəsi Amerika kəsiri olmadan çox gərgin hala düşərdi. Söhbət eyni zamanda həm qeyd olunmuş kursların, həm də ticarət və hesablaşma azadlığının saxlanmasından, o cümlədən əməliyyatların həcminin genişləndirilməsindən gedir. Digər ölkələr ABŞ- da kəsirin yaranmasına öz paylarını qoyur və müəyyən mənada onun əmələ gəlməsini əvvəlcədən müəyyənləşdiridilər;

*valyuta sisteminin iki əsas ehtiyat aktivi – qızıl və dollar arasında harmoniyanın müdafiəsi. Uyğun valyuta – kredit qaydaları çərçivəçində xarici dollar öhdəliklərinin gücləndirilməsi üçün lazım olan qızıl ehtiyatlarının artımını təmin etmək istəyən ABŞ qızıl hasilatının həcmini şəxsi alıcıların əldə etdiklri metalın həcmindən əhhəmiyyətli dərəcədə yüksəltməli idi.

İkinci şərt yerinə yetirilmədən dolların qızıla konversiya edilməsi əvvəl-axır sual altında qalmalı idi. İkinci dünya müharibəsindəki inflasiyaya görə və bütün keçid dövründə, qızılın bir unsiyasının qiyməti 35 dollar olduğu halda bu şərtin yerinə yetirilməsi mümkün deyildi. Buna baxmayaraq, Bretton –

MUHASIBAT.AZ

Vuds sistemində aparıcı rol ABŞ –a məxsus idi. Məhz ABŞ-ın malik olduğu böyük qızıl ehtiyatları bir neçə il ərzində sistemə normal fəaliyyət göstərmək imkanı vermişdir.

Valyuta sisteminin pis fəaliyyəti əmtəə mübadiləsinin həcminə (ticarət balansına) təsir edir. Bu, likvid vəsaitlərin çatışmazlığı və ya artıqlığı, ödəniş balanslarının məlumat mexanizminin pozulması, verilmiş valyuta kursu ilə bağlı inamsızlıq nəticəsində baş verir. Reallığa uyğun olmayan valyuta kursu digər ölkələri də əmtəə mübadiləsini məhdudlaşdırmağa məcbur edir. Ona görə də Bretton –Vuds razılaşmasının əsas prinsipləri çoxtərəfli beynəlxalq ödbəniş dövriyyələrinin inkişafını (valyuta məhdudiyyətlərinin və gömrük maneələrinin aradan qaldırılması), əsas valyutaların konversiyasının tətbiqini, valyuta kurslarının stabilliyini nəzərdə tuturdu.

Bretton –Vuds sistemi üzərinə düşən funksiyaları müəyyən dövr ərzində uğurla yerinə yetirsə də, onun zəif məqamları da var idi:

*bu sistem dolların digər valyutalar üzərindəki hökmranlığını tamamilə təmin edirdi, hərçənd bu vəziyyət daima davam edə bilməzdi. Dünya təsərrüfatında ABŞ-ın mövqeləri daha çox zəifləyir və eyni zamanda AİB ölkələrinin və Yaponiyanın iqtisadi potensialı artırdı;

*qızılın Bretton –Vuds sistemi çərçivəsindəki rolu təkcə qızıl –pul standartı ilə deyil, həm də qızıl külçə və qızıl deviz standartı ilə müqayisədə əhəmiyyətli dərəcədə məhdud idi;

*Dolların qızılla eyni zamanda dünya pulu funksiyasını yerinə yetirməsi Bretton –Vuds sisteminin əsas prinsiplərindən biri idi. Hərçənd bu qayda elə əvvəlcədən qeyri bərabər tərəfdaşlıq demək idi. Qeyri bərabərlik ondan ibarət idi ki, dövlət –inhisarçı kapitalizmin iqtisadiyyatında qızıl artıq yeni şəraitin tələblərinə cavab vermirdi. Məhz buna görə də o, lap əvvəlcədən Amerika dolları tərəfindən beynəlxalq ödəniş dövriyyəsindən çıxarılmağa məhkum idi. Likvid vasitələrin çatışmazlığı şəraitində qızılın beynəlxalq hesablaşmalar xidmətinin lideri olması mümkün deyildi və buna səbəb onun fiziki həcminin məhdudluğu idi. Belə ki, müharibədən sonrakı illərdə rəsmi qızıl ehtiyatlarının

MUHASIBAT.AZ

dünya idxalının ölçüsünə nisbəti daima aşağı düşürdü. 1950-ci ildə bu rəqəm 53,3% idisə, 1968-ci ildə 15,4%, 1974-cü ildə isə 5,8% idi. Təkcə qızıl ehtiyatlarının deyil, bütün qızıl valyuta ehtiyatlarının xarici ticarət dövriyyəsinə nisbətinin əhəmiyətli dərəcədə aşağı düşməsi müşahidə olunurdu. Əgər 1949-cu ildə bu rəqəm dünya idxalının 76%-ni təşkil edirdisə, 1969-cu ildə yalnız 31%-ni təşkil etmiş, 1979-cu ildə isə təqribən üçaylıq dünya idxalı səviyyəsində stabilləşmişdir;

*dollar dövləti üstələyən bir valyuta olmaq iqtidarında deyil və ola da bilməz. Məsələ bundadır ki, dollar müasir şəraitdə dünya pulları qarşısında qoyulan tələblərə cavab vermir. Əsas səbəb ondan ibarətdir ki, beynəlxalq ehtiyat və ödəniş vasitəsi rolu bir milli valyuta üzərinə qoyulmuşdur. Bu ziddiyyətin əsası dünya pullarının dualizm sistemindədir. Dualizm sistemi aşağıdakılardan ibarətdir:

*ABŞ yeganə ölkə idi ki, dolların qızıla məhdud konversiyası yolu ilə öz valyutasının qızıla sabit nisbətini saxlamaq barədə öhdəlik götürmüşdür (qızıl paritet);

*bütün qalan ölkələr öz valyutalarının Amerika dollarına nəzərən konversiyası yolu ilə onların dollara nəzərən sabit kursunu (dollar pariteti) müdafiə etməyə borclu idilər.

Lakin get - gedə güclənən dövlətlərarası ziddiyyətlər valyuta münasibətləri sferasında da qarşıdurma üçün şərait yaradırdı. Ona görə də 1976-cı ildə Beynəlxalq valyuta fondunun Yamaya sessiyasında Kinqston razılaşması əldə edilmişdir. Bu razılaşma mərkəzi banklara icazə verirdi ki, qızıl əməliyyatları açıq bazarda və orada mövcud olan qiymətlərlə aparılsın. Kinqston razılaşması BVF–in qızıl ehtiyatlarının müəyyən hissəsinin üzv ölkələrə qaytarılmasını və satılmasını nəzərdə tutur, üzən valyuta kursları sistemini rəsmi şəkildə qanuniləşdirir, milli valyutaların hər hansı bir tərzdəki qızıl tərkibinin qeydiyyatından imtinanı rəsmi şəkildə qanuniləşdirirdi.

1979-cu il mayın 13-dən başlayaraq Avropa valyuta sistemi (AVS) fəaliyyət göstərməyə başladı. Ümumi bazarın səkkiz üzv –ölkəsi Avropa

MUHASIBAT.AZ

valyuta sisteminin üzvü oldu. Avropa valyuta sistemi milli valyutaya (ekyü) və özünəməxsus valyuta kurslarının uyğunlaşdırılma mexanizminə malik idi. Başlanğıc anda valyuta kursları üzərində nəzarəti həyata keçirmək üçün uyğun valyutanın ekyüdə mərkəzi kursu elan olunmuşdur. Onun əsasında İkitərəfli kursların paritet cədvəli və onların kənaraçıxma hüdudları qurulurdu. Əgər paritet cədvəldə 1 AFR markasının 2,31 fransız frankına bərabər olduğu qeyd olunmuşdursa, onda kənaraçıxmaların yuxarı və aşağı hüdudları uyğun olaraq 2,25 və 2,36 frank təşkil edir. AVS nizamnaməsində ikitərəfli valyuta kurslarının təshih edilmə imkanı nəzərdə tutulmuşdur. Lakin bunun üçün sistemin bütün iştirakçılarının razılığı tələb olunurdu. Bir valyutanın ekyüdə mərkəzi kursunun dəyişməsi qalan valyutaların mərkəzi kurslarının dəyişməsinə gətirib çıxarır. Bu, AVS –də kurs əlaqələrinin spesifikliyi ilə izah olunur.

Beynəlxalq valyuta sistemi ilə müqayisədə AVS daha bir spesifik elementə – valyuta kursunun «kənaraçıxma indikatoruna» malik idi. O, sistemdə iştirak edən hər hansı bir valyutanın başqa valyutalarla müqayisədə fərqli inkişafa malik olduğu barədə məlumat verməli idi. Səbəb bu valyutanın valyuta kursunun inkişafı üçün mühüm olan faktorların təsiri altında olması, ya da onun xüsusi təsirə məruz qalmasıdır.

İndikator valyutanın səhər kursunun ekyüyə nəzərən mümkün maksimal kənaraçıxmasının 75%-ni təşkil edirdi. Valyutanın bazar kursunun mümkün maksimal kənaraçıxması 2,25%-ə bərabərdir. Mümkün kənara çıxma əhəmiyyətli şəkildə differensiallaşmışdır. «Valyuta zənbilində» çəkisi çox olan valyuta çəkisi az olan valyuta ilə müqayisədə daha az kənaraçıxmaya malikdir. Məsələn, qərbi Almaniya markasının kənaraçıxma hüdudu +-2,25*0,75((100-33)/100) =+-1,13 faiz maddəsi, irland funt sterlinqi üçün kənaraçıxma hüdudu +-2,25*0,75 ((100-1,1)/100)=+-1,67 faiz maddəsi təşkil edir.

AVS –dəki kənaraçıxma indikatorları valyuta münasibətlərinə dayanıqlıq gətirməli, valyuta bazarlarında nizamsızlıq yaradan və ayrı ayrı ölkələr arasında ziddiyyət doğuran intervensionist əməliyyatların miqdarını

MUHASIBAT.AZ

azaltmalıdır. AVS-in ikinci vəzifəsi qısamüddətli kreditlərin tənzimlənməsidir. «İlan» təcrübəsi göstərdi ki, valyuta resursları olmadan valyuta kurslarının dayanıqlığını müdafiə etmək olmaz.

Milli pulların, pul kütləsinin, milli əmək məhsuldarlığının dinamikasındakı qeyri bərabərlik, faiz normalarının müxtəlif səviyyələri birinci növbədə valyuta kurslarının müxtəlif istiqamətli dəyişiklikləri üçün əsas rolunu oynayır, onların qeyd olunmuş kənaraçıxma hüdudlarını sıxlaşdırır. Ona görə də ayrı ayrı valyutaların mərkəzi kurslarının dəyişmə zənciri, məsələn, 1979-cu ildə Danimarka kronunun ikiqat devalvasiyası ilə başlayan bu zəncir təsadüfi deyil. Xarici faktorlar da AVS –də valyuta kurslarının dayanıqsızlığına gətirib çıxarırdı. İkiqat kursun: bir birinin valyutalarına nəzərən qeyd olunmuş kursun və ABŞ dollarına qarşı üzən kursun saxlanma zərurəti bir çox çətinliklər törədirdi. Bu isə onunla əlaqədardır ki, valyuta kurslarının dollara nəzərən dəyişmələri çox qeyri bərabərdir.

MUHASIBAT.AZ

20.2. MÜASİR VALYUTA SİSTEMLƏRİ VƏ VALYUTA İNTEQRASİYASI

Beynəlxalq valyuta sistemlərinin formalaşma prosesi dünya iqtisadiyyatında təşəkkül tapmış vəziyyətə uyğun şəkildə baş verir. Bununla belə, hal hazırda dünya valyuta sisteminin hansı inkişafının daha məqbul olması ilə bağlı məsələdə yekdillik yoxdur:

*tənzimlənməyən beynəlxalq fəaliyyət şəraitində milli valyuta siyasətinin müəyyən qaydalara bağlanmasına istiqamətlənmək;

*kapitalların sərbəst hərəkətinin saxlanma şəraitində valyuta sferası ilə əlaqədar olan bu və ya digər sahələrdə beynəlxalq əməkdaşlığı müəyyənləşdirmək;

*maliyyə bazarlarının qarşılıqlı əlaqəsini zəiflətmək. Bu isə iqtisadi və valyuta siyasətində ölkələrin gücləndirilməsini nəzərdə tutur, həmçinin onlara imkan verir ki, kapitalın hərəkətinin hükmranlığına qarşı dura bilsinlər və bununla da dünya pullarının fəaliyyətinə öz spesifikliklərini daxil etsinlər.

Xarakterik haldır ki, indiki zamanda hətta iqtisadi cəhətdən güclü ölkələr də tez - tez güclənən dövlətlərarası ziddiyyətlər səbəbindən dünya kredit pullarını yaratmaq iqtidarında deyillər. Məhz buna görə də, ABŞ-ın güclü iqtsadi –maliyyə potensialına arxalanan dollar mütləq şəkildə vahid ödəniş və ehtiyat vasitəsi ola bilməz. Xüsusən də digər ölkələrin valyutaları bu rolun iddiasında ola bilməzlər. Bu isə Amerika dollarına qarşı valyuta sistemlərinin (valyuta ittifaqlarının) və reqional kredit pullarının yaranma istiqamətini doğurur. Valyuta ittifaqları ümumi valyutanın olması və ya iştirakçı ölkə valyutalarının qəti qeyd olunmuş dəyişmə kursları ilə, onlar arasında mümkün enib –qalxma hüdudlarının olmaması ilə, həmçinin iştirakçı ölkələrin öz valyutalarının konversiya qabiliyyətini (dönmə) müdaifə etməklə bağlı şərtsiz öhdəliyi ilə xarakterizə olunurlar.

Valyuta ittifaqına keçid tez və kəskin –«böyük sıçrayış» yolu ilə və tədriclə həyata keçə bilər. İkinci halda həm dövlət valyuta tənzimlənməsi, həm

MUHASIBAT.AZ

də bazar qüvvələrinin istifadəsi, məsələn, iqtisadi siyaəstin və valyuta kursunun tənzimlənmə siyasətinin koordinasiyası, paralel valyutanın yaradılması nəzərdə tutulur. Hər iki üsul («böyük sıçrayış» və tədrici) variantların böyük seçiminə imkan yaradır. Lakin bütün alternativlərdə qoyulmuş məqsədlərə yetişmək siyasi öhdəliklərlə rəsmiləşdirilməlidir. «Böyük sıçrayış» üsulu ilə müqayisədə tədrici keçid üsulu daha üstün hesab olunsa da, bu və ya digər maraqlı qüvvələrin müqavimətini qırmaq üçün kifayət qədər effektiv deyil. «Böyük sıçrayış» strategiyasının və paralel valyuta konsepsiyasının üstünlüyü ondan ibarətdir ki, öz dinamikliyi və gözlənilməzlik effekti sayəsində valyuta ittifaqının rəqiblərini güzəştə getməyə məcbur edə bilir. Hərçənd belə güzəştlərin könüllülük prinsipi ilə əldə edilməsi mümkün deyil. Buna baxmayaraq, valyuta inteqrasiyasının bu və ya digər yolunun məqbulluq məsələsinin həlli üçün aşağıdakıları nəzərə almaq lazımdır. Həmin yol suverenitetin məhdudlaşdırılması adlanan məsələnin yumşaldılmasında və ya ötürülməsində hökumətə hansı imkanları verir, ölkədə əks təsir göstərən qrupların müqavimətini qırmaq və görünən perspektivlə inteqrasiyanın məqsədlərini reallaşdırmaq barədə hakimiyyətə hansı imkanlar verilir.

Vahid valyuta sisteminin müvəffəqiyyətlə yaradılması üçün intensiv izahat işinin aparlıması zəruridir. Belə izahat işi rəqibləri inandırmağa kömək edir ki, suverenitetdən imtina daha çox xəyali yox, realdır. Valyuta ittifaqının iştirakçı ölkələrində vəziyyətin iqtisadi –maliyyə cəhətdən tarazlaşdırılması ilə bağlı tədbirlər də keçirilməlidir. Valyuta ittifaqı yalnız geniş siyasi ittifaq çərçivəsində mümkündür. Valyuta inteqrasiyasının ən yaxşı yolu isə elə fəaliyyət üsuludur ki, orada birinci yeri valyuta kurslarının qeydləri tutur. Valyuta inteqrasiyası mahiyyətcə valyuta polisentrizm tendensiyasının əks üzüdür. Bu tendensiya dövlətlərin iqtisadi və siyasi inkişaflarının qeyri bərabərlik qanununa əsaslanır. Valyuta inteqrasiya mexanizmi iştirakçı ölkələrin qarşılıqlı əlaqədar olan, lakin təshih edilə bilən valyuta kursları rejiminin müəyyənləşdirilməsini, iştirakçı ölkələrin valyuta kurslarının müdafiəsi üçün valyuta intervensiya qaydalarının hazırlanmasını, perspektivdə

MUHASIBAT.AZ

beynəlxalq ödəniş və ehtiyat vasitəsi olacaq reqional valyutanın yaradılmasını, üzv ölkələrin qızıl valyuta ehtiyatlarını qismən və ya bütövlükdə ümumiləşdirən və reqional valyutanın emissiyasını həyata keçirən reqinal valyuta fondunun yaradılmasını, həmçinin valyuta münasibətlərinin tənzimlənməsini nəzərdə tutur.

Avropa valyuta sistemi prinsipcə belə mexanizmin yaradılmasına istiqamətlənmişdir. Lakin valyuta ittifaqı iqtisadi ittifaqdan, vahid mal, xidmət, kapital və işçi qüvvəsi bazarının formalaşmasından ayrı yaradıla bilməz. Ona görə də valyuta inteqrasiyası proseslərinin nəticəsi və yekunu iqtisadi və valyuta ittifaqının yaradılması olmalıdır. Valyuta unifikasiya proseslərinin inkişafı bu ittifaqın əldə edilməsi üçün kafi olmasa da, zəruri şərtdir. Valyuta inteqrasiyasına cəhd kimi nəzərdə tutulmuş və yalnız valyuta unifikasiyasının həyata keçirilməsi ilə nəticələnmiş AVS-in daxili ziddiyyəti onun üzvlərinin iqtisadi və valyuta siyasətlərinin koordinasiya səviyyəsinin çatışmazlığında təzahür olunur.

Avropa valyuta sistemi – valyuta münasibətlərində dövlətlərarası tənzimlənməni həyata keçirməklə bağlı AİB ölkələrinin yeni cəhdidir. O, tədriclə reqional valyuta sisteminin cizgilərini mənimsəmişdir. AİB ölkələrinin valyuta münasibətlərinin təşkilat formasını təmsil edən reqional valyuta sistemi reqiondaxili təsərrüfat əlaqələrinə xidmət edir və sənaye cəhətdən inkişaf etmiş müasir ölkələrin polisentrik dünya valyuta sisteminin qütblərindən biridir. AİB mexanizmi üç elementdən təşkil olunmuşdur:

*Avropa valyuta vahidi (ekyü);

*valyuta kurslarının müştərək və qarşılıqlı şəkildə uyğunlaşmış enmə - qalxma rejimi – «superilan»;

*Avropanın valyuta əməkdaşlıq fondu.

Yeni valyuta sisteminin mərkəzi Avropa valyuta vahidi –ekyü oldu. O, 1975-ci ildə başlayaraq Ümumi bazar ölkələrinin istifadə etdikləri Avropa hesablaşma vahidini – ereni əvəz etdi. Ekyü quruluşun «standart zənbil» prinsipini eredən irsən aldı. Valyuta «kokteylində» hər bir milli pul vahidinin

MUHASIBAT.AZ

xüsusi çəkisi ümumi AİB ÜDM-da ölkənin ümumi daxili məhsul payından asılı idi. Nəticədə ekyünü təşkil edən komponentlərin ölçüləri mütləq ifadə ilə müəyyənləşdirilirdi. Valyutaların bazar kurslarının dəyişmələrindən asılı olaraq onların hər birinin faiz ifadəsi ilə payı da daima dəyişirdi.

AVS-in ikinci elementi valyuta kurslarının müştərək dəyişmə sistemi idi. Bu sistem «Avropa valyuta ilanı»nın yerini tutmuşdur. AVS-in fəaliyyətinin əvvəlində Cəmiyyətin üzv ölkələrinin hər bir pul vahidi üçün ekyüyə nəzərən ilkin mərkəzi kurs müəyyənləşdirilmişdir. Sistemdə iştirak edən bütün valyutaların ikitərəfli paritetləri məhz onun əsasında müəyyənləşmişdir. Paritet cədvəli istənilən valyuta cütünün bazar kurslarının qarşılıqlı kənaraçıxmalarının ölçülməsinə xidmət edir. Kursların mərkəzi kursdan mümkün kənaraçıxma həddi +-2,25-dir. İtaliya üçün bu rəqəm +-6%-dir. Paritetlər cədvəli valyuta intervensiyalarının həyata keçirilməsi üçün əsas rolunda çıxış edir.

Avropa valyuta sisteminin əsas vəzifələrindən biri onun çərçivəsi daxilində stabil valyuta kurslarının saxlanmasıdır. Bə məqsəd müəyyən dərəcədə əldə olunmuşdur. AVS –in fəaliyyəti dövründə ona daxil olan valyutaların kurs dəyişmələri əvvəlki dövrlə, Bretton – Vuds sisteminin iflasından sonrakı dövrlə müqayisədə daha az idi. Lakin əldə edilmiş nisbi valyuta stabilliyi təkcə iqtisadi siyasətin koordinasiya ilə deyil (AVS –in yaranış anında nəzərdə tutulduğu kimi), həm də aşağıdakılarla təmin olunurdu:

*irimiqyaslı valyuta intervensiyaları ilə;

*faiz stavkalarının yüksəldilməsi ilə;

*valyuta kurslarının tez tez nəzərdən keçirilməsi ilə.

AİB çərçivəsində paradoksal vəziyyət yaranmışdır. İnflyasiya sürətləri kiçik olan ölkələrin valyutaları daha zəif (AFR, Niderland), inflyasiya sürətləri yüksək olan ölkələrin valyutaları (Fransa, İtaliya) daha dayanıqlı idi. Əslində, AVS-in yaranış dövründə onun təşəbbüskarlarının ən çox ehtiyatlandığı məsələ üzv ölkələr arasında inflyasiyanın sürətinə görə ciddi

MUHASIBAT.AZ

fərqlərin olması idi. Lakin AVS təcrübəsi göstərdi ki, iqtisadi göstəricilərin heç biri özü özlüyündə bu və ya digər valyutanın güman edilən gücünün və ya zəifliyinin yeganə meyarı rolunda çıxış edə bilməz. Qısamüddətli perspektivdə, məsələn, cari ödəniş balansı və ya inflyasiya sürəti kimi göstəricilər üzrə ziddiyyətlər nisbətən stadil valyuta kurslarının saxlanma imkanını istisna etmir. Bu onunla izah olunur ki, verilmiş faktorlar valyuta kursuna qarşılıqlı əks təsirlər göstərə bilir, onların əvəzləyicisi isə valyuta qrupları üçün təqribən eyni olur və valyutalar arasında nisbətən stabil kurs nisbətlərini müdafiə etməyə imkan verir.

AVS çərçivəsində də məhz belə oldu. AVS-in fəaliyət göstərdiyi birinci ildə inflyasiya sürətləri böyük olan ölkələr (Fransa, İtaliya) aktiv ödəniş balansına malik idi. Sonra inflyasiya sürətləri böyük olan ölkələrin valyuta kursları tendensiyasının yüksəlməsinə kömək edən əsas faktor yüksək faiz normaları oldu. AVS –in fəaliyyəti qısamüddətli perspektivdə valyuta kurslarının müəyyən dəyişməzliyinə qarant verdi. Bu isə ona gətirib çıxardı ki, qısamüddətli kapitalların hərəkəti daha çox güclü valyutanın axtarışları ilə deyil, yüksək nominal faiz stavkaları ilə müəyyənləşməyə başladı.

Avropa valyuta sisteminin mərkəzi Avropa valyuta vahididir (ekyü). AVS yaradıcılarının fikrincə, gələcəkdə o, Cəmiyyətin reqional pulları olmalı idi. Hərçənd elə birinci mərhələdə ona milli valyutalarla bərabər səviyyədə fəaliyyət göstərən paralel ödəniş ehtiyat vasitəsi rolu verilmişdir.

AVS-in yaradılması haqqında qərarda nəzərə alınmışdır ki, ekyü aşağıdakı funksiyaları yerinə yetirəcək:

*valyuta kurslarını müəyyənləşdirən mexanizm çərçivəsində hesablaşmalar üçün əsas;

*bu sistemə daxil olan hər hansı bir pul vahidi kursunun AİB üzv ölkələri üzrə orta göstəricildən kənaraçıxmasının müəyyənləşdirilməsi üçün əsas;

*valyuta intervensiyalarının həyata keçirilmə, sövdələşmələrin bağlanma və kreditlərin təqdim edilmə vasitəsi;

MUHASIBAT.AZ

*üzv ölkələrin mərkəzi bankları arasında, həmçinin AİB valyuta orqanları arasında hesablaşma vasitəsi;

*real ehtiyat aktivi.

Lakin adı çəkilən bütün funksiyalarda ekyünün istifadəsi AVS-in ikinci inkişaf mərhələsinə keçiddən sonra nəzərdə tutulmuşdur. Üzv ölkələrin əvvəlcə müəyyən məsələlərdə razılığa gəlməsi zəruri idi. Bu məsələlər ekyü emissiyasının tənzimlənməsi və bölüşdürülməsi, AVS çərçivəsində və üçüncü ölkələrlə münasibətlərdə ekyüdən istifadə, ekyünün xüsusi dövriyyəyə daxil edilməsi idi. Ekyü emissiyasının mövcud mexanizminin təkmilləşdirilməsi ilə bağlı məsələ kəskin fikir ayrılıqlarına səbəb olmuşdur. Bu emissiya əvvəlcə AİB ölkələrinin qızıl valyuta ehtiyatının 20%-i ilə təmin edilirdi. Onlar hər üç aydan bir bərpa edilən svop əməliyyatları formasında AVS ölkələri tərəfindən AVSF hesablarına köçürülürdü. AVS-in ikinci inkişaf mərhələsinə keçməsi ilə ekyü emissiyası milli valyutalarla yarıbayarı təmin olunmalı idi.

AVS sayəsində Qərbi Avropada valyuta kurslarının və qiymətlərin yüksək dayanıqlığı ilə xarakterizə olunan zona yarandı. AVS-in mövcud olduğu müddətdə (1979-cu ildən başlayaraq) iştirakçı ölkələrin valyuta kurslarının dəyişkənliyi bir - birinə nəzərən əhəmiyyətli dərəcədə azalmışdır. AVS-in beynəlxalq valyuta sistemindəki yeri və hər iki sistem arasındakı münasibətlər məsələsinə gəlincə, bu barədə geniş yayılmış fikir ondan ibarətdir ki, AVS-ə institusion inkişaf vermək və ekyünü beynəlxalq ehtiyat vasitəsi səviyyəsinə qaldırmaq lazımdır.

Digər nöqteyi nəzər ondan ibarətdir ki, AVS, dolların da ona daxil edilməsi şərti ilə, dünya valyuta sisteminin miqyaslarına qədər genişləndirilməlidir. Həm də dollar kursunun dəyişmələri müəyyən hüdudlarla məhdudlaşmalıdır («məqsədli zonalarla»). Bu isə qeyd olunmuş kurs ətrafında valyuta kuslarının ölkələr arasında razılaşdırılmış dəyişmə hüdudlarıdır. «Məqsədli zona» sxeminin əsasında «fundamental tarazlığın valyuta kursu» (FTVK) konsepsiyası durur. Bu konsepsiya eyni zamanda daxili və xarici tarazlığı təmin edən real effektiv kursu təmin edir. Daxili tarazlıq dedikdə,

MUHASIBAT.AZ

iqtisadi resursların inflyasiyasız yüksək yüklənməsi başa düşülür. Xarici tarazlıq isə mal və xidmət ticarəti balansının elə saldosudur ki, dəqiqliklə kapitalın «arzuedilən» axınına –dövlət büdcəsi tərəfindən maneəsiz təşəkkül tapan kapital axınına uyğun gəlir. «Məqsədli zona» sisteminin reallaşdırılması üç ardıcıl mərhələdən keçir:

*FTVK-nın müəyyənləşdirilməsi;

*FTVK-nın ikitərəfli əsasda nominal valyuta kurslarına transformasiyası və «məqsədli zonaların» müəyyənləşdirilməsi (kurs dəyişmələrinin hüdudları 10%-dən 20%-ə qədər təşkil edir);

*kurs dəyişmələri «məqsədli zona»nın hüdudundan çıxdığı halda görülən tədbirlərin müəyyənləşdirilməsi.

Buna baxmayaraq, valyuta inteqrasiyasına irəliləyiş məsələsinin həllində bir sıra problemlər mövcud odmuşdur və indi də var. Əsaslı beynəlxalq valyuta əməkdaşlığı yalnız o halda effektiv olur ki, iştirak edən tərəflər qısamüddətli iqtisadiyyatdaxili əlaqələrin nailiyyətlərindən imtina etməyə hazır olaraq, müəyyən qaydalarla əlaqələndirilmiş pul siyasətinə, dövlət büdcəsinin balanslaşdırılmasına keçsinlər. Bu halda inflyasiyanın aşağı sürəti, yüksək məşğulluq və stabil valyuta kursları mümkün olur. Bu cür siyasəti həyata keçirməyə imkan verən əməkdaşlıq valyuta kurslarının stabilləşməsinə də öz təsirini göstərə bilər. Nə qədər ki, müəyyən qaydalarla təşkil olunmuş pul siyasəti barədə beynəlxalq əməkdaşlığı həyata keçirmək və büdcələrin balanslaşdırılmasına nail olmaq mümkün deyil, dünyanın aparıcı valyutalarının hal hazırda mövcud olan çevik kurs sistemi valyuta- siyasi əməkdaşlığın istənilən formasından daha üstündür. Çevik kurslar dünya inflyasiyasının təzyiqini zəiflətməyə imkan verir, valyuta dövriyyəsinin kəsilmə riskini aradan qaldırır, kapitalın hərəkətinə nəzarəti lüzumsuz edir və bununla da beynəlxalq kapital bazarlarına inteqrasiyanı stimullaşdırır.

Avropa valyuta ittifaqının yaradılmasının birinci vacib şərti «iqtisadi inkişaf konverqensiyasının» yüksək səviyyəsidir. Valyuta ittifaqı da öz növbəsində ümumi Avropa valyutasının əsasıdır. Bütün iştirakçı ölkələrin

MUHASIBAT.AZ

hökumətləri inflyasiya sürətinin düşməsini və dövlət büdcə kəsirlərinin azalmasını öz iqtisadi siyasətlərinin əsas vəzifələri elan etdilər. Bu yolla onlar valyuta kurslarının daha böyük stabilliyinə nail olmaq fikrində idilər. Lakin AB ölkələri arasında inflyasiya sürətinə görə böyük fərqlər mövcuddur, onların bəzilərinin büdcə kəsirləri isə ümumi milli məhsulun 10%-nə çatır. İqtisadi inkişafdakı fərqlər valyuta kurslarının dövri dəyişmələrini qaçılmaz edir, lakin bunlar normal proseslərdir və onları şişirtməyə ehtiyac yoxdur.

Valyuta ittifaqının yaradılmasının ikinci mühüm şərti kapitalın inteqrasiya bazarlarının formalaşdırılmasıdır və o, AB çərçivəsində bazarın tərkib hissəsi olmalıdır. AFR hələ 50-ci illərin əvvəllərində digər ölkələrlə kapitalların hərəkətinin liberallaşdırılmasını həyata keçirirdi. Həmin dövrdə Cəmiyyətin bəzi ölkələrində məhdudiyyətlər hələ də saxlanılırdı. O zaman xaricilərin marka ilə istiqraz buraxması üçün heç bir rəsmi icazə tələb olunmurdu. Xarici valyutada olan istiqrazların AFR vətəndaşları tərəfindən alınması ilə bağlı bütün məhdudiyyətlər aradan qaldırılmışdır. AFR hesab edirdi ki, kapitalların hərəkətinə nəzarət valyuta kurslarının stabilləşdirilməsi üçün köməkçi vasitəsi qismində və AB-nin iqtisadi siyasəti çərçivəsində kifayət qədər koordinasiya edilməmiş xarici iqtisadi «sığorta» kimi çıxış etsə də, AB və AVS müqavilələrinin məqsədləri ilə bir araya sığmır. Markanın XX əsrin axırlarındakı beynəlxalq rolu nəzərə alınarsa, kapitalların hərəkətinə inzibati nəzarət AFR üçün qəbuledilməzdir. Bu dövrdə 400 milyard markadan çox məbləğdə yatırım xarici əllərdə idi.

Avropa valyuta inteqrasiyasının inkişafının üçüncü əsas şərti İngiltərənin AVS-də tam iştirakı, onun sistemdəki iştirakını şərtləşdirən xüsusi qaydaların sadələşdirilməsi və Avropada inteqrasiyalaşmış maliyyə bazarının yaradılması idi.

Avropa valyutası emissiya bankının səlahiyyətlərinə malik olan və millidən daha üstün olan müəssisənin mövcudluğunu nəzərdə tutur. Lakin iştirakçı ölkələrin öz milli səlahiyyət paylarından imtina etməsi çox problemli məsələ idi. AVS yaradılan zaman nəzərdə tutulurdu ki, əvvəlcə iştirakçı ölkələr

MUHASIBAT.AZ

öz valyuta ehtiyatlarının müəyyən hissəsini Avropa fonduna verəcəklər. Lakin elə həmin dövrdə məlum oldu ki, iştirakçı ölkələrin parlamentləri bu addımı atmağa hazır deyillər. Əgər valyuta fondu dollar bazarında intervesiyaları həyata keçirmək hüququna malik olsa idi, yeni problemlər yenə də yaranardı. Məsələ bundadır ki, bəzi ölkələr öz maraqlarına uyğun olaraq dollara nisbətdə daha yüksək valyuta kursunun olmasını, digər ölkələr isə daha aşağı valyuta kursunun olmasını təkid edirdilər. Avropa bankının statusunun necə olacağı da aydın deyildi. Avropa bankının Bundesbanka, yoxsa Amerikanın FRS-a bənzəməsi, AB Şurasına tabe olması, yaxud müstəqil olması və başqa məsələlər aydın deyildi.

Avropa valyuta konsepsiyasının AB fəaliyyətinin bugünkü nəticələri ilə heç bir bənzərliyi yox idi. Eyni zamanda ümumi Avropa valyutasının yaranma şərtləri aşağıdakılar idi:

*iştirakçı ölkələrin iqtisadi siyasət konverqensiyalarının güclənməsi;

*AVS-in intervension mexanizmində İspaniyanın, Portuqaliyanın, Yunanıstanın və xüsusən Böyük Britaniyanın iştirakı. Məsələ bundadır ki, London dünyanın mühüm maliyyə mərkəzlərindən biridir. Funt sterlinq isə AVS-in üçüncü əsas valyutasıdır (ekyü zənbilində onun payı 11,9% təşkil edir);

*iştirakçı ölkə valyutalarının kurs dəyişmələrinin hüdudlarını bir birinə nəzərən tənzimləyən ümumi rejimin İtaliyaya yayılması;

*kapitalların hərəkətinə nəzarət tədbirlərinin sadələşdirilməsi yolu ilə AB ökələrinin kapital bazarlarının sonrakı inteqrasiyası;

*Valyuta əməkdaşlığı Avropa fondunun (VƏAF) inkişafı və onun avtonom orqana çevrilməsi;

*AB çərçivəsində faiz stavkaları sahəsində ümumi siyasətə və pul dövriyyəsinə cavabdeh olan AB –nin avtonom mərkəzi bankının təsis edilməsi üçün siyasi şərtlərin yaranması.

Xarakterik haldır ki, Bundesbank ekyünün AFR-də şəxsi biznesdə geniş istifadəsinə qarşı çıxırdı. O bunu belə əsaslandırırdı ki, ekyü sözün həqiqi mənasında valyuta deyil, yalnız hesablaşma vahididir. Ekyünü qeyd –şərtsiz

MUHASIBAT.AZ

olaraq valyutaya eyniləşdirmək olmaz. Bundesbankın müqaviməti onun ehtiyatlanmağı ilə izah olunur. Bundesbankın fikrincə, ekyüdən tez-tez istifadə etmək milli pul vahidinin fəaliyyət dairəsini daraldar və milli emissiya banklarının səlahiyyətlərinin millidən daha üstün –Avropa səviyyəli orqana verilməsini tələb edər.

İnflyasiya səviyyəsi və faiz stavkaları yüksək olan ölkələrdə ekyüyə göstərilən maraq daha böyük idi. Ekyüdən şəxsi sektorda istifadə etmək, təcrübədə olduğu kimi (depozitlərin yaradılması, kredit və istiqrazlrın ekyüdə verilməsi) inflyasiya ilə nəticələnmir. Məsələ bundadır ki, ekyüdən ümumi ödəniş vasitəsi kimi istifadə olunmur. Ekyünü tam mənada pul adlandırmaq olmaz.

İngiltərənin AVS –ə daxil olması ilə bağlı etirazlar ona görə yaranırdı ki, İngiltərənin AVS-ə daxil olmasından sonra funt ilə AFR markası arasındakı münasibətin necə olacağı aydın deyildi. Problemin mahiyyəti aşağıdakıların anlaşılmazlığı ilə əlaqədar idi:

*hər iki valyuta arasında kurs münasibətləri necə olmalıdır və funtun hansı kursunda İngiltərə AVS-ə daxil ola bilər;

*əgər neft şoku –Şimal dəniz neftinin qiymət dəyişməsi (yüksəlməsi və ya enməsi) baş verərsə, valyuta –kurs mexanizminin taleyi necə olacaq;

*əgər AVS çərçivəsində ehtiyat valyuta qismində funt sterlinq və digər valyutalar peyda olarsa, marka özünü necə aparar.

Ekyü potensial olaraq çoxvalyutalı sistemin komponenti ola bilərdi, çünki o, «qurulmuş stabilliyə» malikdir. Doğrudan da, ekyü valyuta zənbili olaraq, əhalisi 320 milyon nəfər və ÜMM -u 2,5 trilyon dollar olan (XX əsrin 90-cı illərinin əvvəli) Avropa bazarına əsaslanır, Avropa bank sistemi vasitəsilə yaradılır və inkişaf etdirilirdi. Ekyünün beynəlxalq əsas və ehtiyat valyutaya çevrilməsinin gücləndirilmə tədbirləri qismində aşağıdakıları göstərə bilərik:

*AB-nin bütün iştirakçıları tərəfindən ekyünün xarici valyuta qismində qəbul olunması;

MUHASIBAT.AZ

*ekyüdən istifadə məhdudiyyətlərinin qadağası yolu ilə onun Cəmiyyət çərçivəsində geniş tətbiqinin stimullaşdırılması;

*ekyü üçün son instansiyalı kreditor ola biləcək müəssisənin yaradılması. Belə müəssisə rolunda VƏAF çıxış edə bilərdi;

*AVS-in valyuta kurslarının tənzimlənmə mexanizminə ekyünü təşkil edən bütün valyutaların və xüsusilə funt sterlinqlərin daxil edilməsi, həmçinin İtaliya liri üçün enmə –qalxmaların sıxlaşdırılması.

AVS komissiyasının hazırladığı plan Ümumi bazarın 10 il ərzində vahid iqtisadi və valyuta zonasına çevrilməsini nəzərdə tuturdu. Bu zona daxilində mal və xidmətlərin, işçi qüvvəsinin və kapitalların hərəkəti sərbəst olmalı idi. Bu isə Roma müqaviləsinin qoyduğu bütün məqsədlərə çatmaq demək idi. Valyuta sahəsində xüsusi olaraq yaradılmışVerner komissiyası aşağıdakıları nəzərdə tuturdu:

*AİB -ə üzv ölkələrin valyutalarının tam qarşılıqlı dövriyyəsinin reallaşdırılması və vahid kapital bazarının yaradılması;

*Cəmiyyətdəki ölkələrin pul vahidləri kurslarının qəti qeyd olunmuş nisbətlərinin əldə edilməsi və sonra vahid valyutanın yaradılması;

*iştirakçı dövlətlərin bütün rəsmi qızıl-valyuta ehtiyatlarının birləşdirilməsi, müəyyənləşdirilmiş qəti kursların müdafiəsi və AİB ölkələrinin ödəniş balanslarının tarazlığı, milli kredit-pul və valyuta siyasətlərinin koordinasiyası məqsədilə kollektiv Valyuta əməkdaşlıq fondunun (VƏF) təsis edilməsi.

Valyuta ittifaqının formalaşdırılmasını 1980-ci ilə qədər yekunlaşdırmaq və üç mərhələdə aparmaq nəzərdə tutulurdu. Verner planının müəllifləri yalnız birinci hazırlıq fazası üçün müyyən mənada konkret fəaliyyət proqramı hazırlamışlar. Bu faza 1971 -1973-cü illəri əhatə edirdi. Birinci mərhələdə əsas məqsəd AİB ölkələrinin valyuta kurslarının qarşılıqlı dəyişmə hüdudlarını sıxlaşdırmaq idi. Bu, onların dəyişməz kurslarının saxlanması istiqamətində birinci addım idi. Məsələnin həlli üçün qısamüddətli qarşılıqlı valyuta köməyi mexanizmini işə salmaq lazım idi. AİB –nin iqtisadi və valyuta ittifaqının

MUHASIBAT.AZ

yaradılmasının ikinci mərhələsi həmin mexanizm əsasında Valyuta əməkdaşlıq fondunun (VƏF) təsis edilməsini nəzərdə tuturdu. Bu məqsədlə də qərara alınmışdır ki, Valyuta əməkdaşlıq fonduna AİB -ə üzv ölkələrin qızıl valyuta ehtiyatlarının müəyyən hissəsi verilsin. Üçüncü mərhələdə bu məsələlər hökumətin səlahiyyətindən çıxarılmağa başlamalı, cəmiyyətin rəhbər orqanlarına ötürülməli, onların mərkəzi bankları ABŞ FRS nümunəsində birləşdirilməli, beynəlxalq valyuta-maliyyə təşkilatlarında vahid valyutaya və müştərək nümayəndəliyə keçilməli idi.

İştirakçı ölkələrin («ilan») mərkəzi bankları öz valyuta kurslarını AMB–də müəyyənləşdirilmiş hüdudlarda saxlamaq üçün bazar çıxışlarına (intervensiyalara) müraciət edirdilər. Milli pul vahidlərinin kursu müəyyənləşdirilmiş səviyyənin aşağı və ya yuxarı hədlərinə çatırdısa, onlar alınır və ya satılırdı. Belə əməliyyatlar üçün xarici valyutanın olması tələb olunduğundan, həmin banklar svop razılaşması çərçivəsində 45 günlük qarşılıqlı kreditlər verməyə razılaşmışlar. Svop razılaşması əks əməliyyatın eyni məbləğdə və analoji kursla mütləq həyata keçirilməsi şərti ilə bir pul vahidinin digər pul vahidi ilə dəyişdirilməsidir. Mərkəzi banklar həddən artıq qısamüddətli kreditlərə əlavə olaraq, qarşılıqlı borclar da təqdim edirdilər. Borcların müddəti iki ildən, xüsusi hallarda isə beş aya kimi nəzərdə tutulurdu. Belə əməliyyatlar qarşılıqlı valyuta köməyi sistemi adlanır.

XX əsrin 70-ci illərində valyuta kurslarının ümumi üzmə şəraitində Kiçik Avropada kırsların qarşılıqlı kənaraçıxma nisbətində bir növ minibretton – vuds var idi. Lakin Bretton-Vuds sistemindən fərqli olaraq, AİB dollar tipli vahid aparıcı valyutaya malik deyildi. O, çoxvalyutalı sistemi qoruyub saxlamışdır. Bu vəziiyyəti yalnız Cəmiyyətin ümumi (kollektiv) pul vahidi kompensasiya edə bilərdi.

Avropa valyuta ittifaqının ikişafındakı yeni mərhələ vahid valyutaya – avroya keçidlə bağlıdır. 1995-ci ilin dekabrında tərkibinə dövlət rəhbərlərinin və ya AB-üzv ölkələrin hökumətləri daxil olan Avropa şurası vahid valutaya keçidin dörd mərhələsini təsdiq etdi.

MUHASIBAT.AZ

I.1998-ci ildə Avropa şurası təsdiq etməli idi ki, üzv ölkələr İqtisadi birlikdə və Pul ittifaqında iştirakın zəruri şərtlərinə riayət edirlər. Bunun üçün əsas meyarlara əməl etmək lazımdır. Əsas meyarlar aşağıdakıları nəzərdə tutur. İnflyasiya səviyyəsi orta inflyasiya səviyyəsindən 1,5% çox olmamalıdır. Orta inflyasiya səviyyəsi infyasiyaları ən az olan üç Avropa dövlətinin orta inflyasiyasıdır. Uzunmüddətli faiz stavkaları orta stavkaları 2%-dən çox aşmamalıdır. Orta stavka dedikdə iflyasiya səviyyələri ən az olan üç dövlətin orta stavkası nəzərdə tutulur. Dəyişmə kursu valyuta dəhlizi çərçivəsində iki il ərzində stabil olmalıdır. Büdcənin illik kəsiri ÜDM –un 3 faizindən çox olmamalıdır, ümumidaxili borcun səviyyəsi isə ÜDM-un 60 faizindən çox olmamalıdır (hesab olunur ki, ən mürəkkəb məsələ məhz bu meyarın uyğunluğudur).

II.İkinci mərhələdə bütün zəruri şərtlərin yerinə yetirilməsindən sonra iştirakçı ölkələr tərəfindən Avropa Mərkəzi bankının İcraiyyə komitəsi formalaşır (AMB). Bu halda Mərkəzi bankların Avropa sistemi (MBAS) bütöv bir sistem kimi Avropa Mərkəzi bankından (AMB) və milli mərkəzi banklardan ibarət olur.

III.Üçüncü mərhələ 1999-cu ildə yanvarın birindən başladı. Bu mərhələ dəyişmə kurslarının və avronun qeydiyyat şərtlərindən asılı olacaq. Həmin dövrdən başlayaraq avro valyuta olur, MBAS isə yeni valyutanın əsasında vahid pul siyasətini həyata keçirməyə başlayır. 2002-ci il yanvarın 1-dən gec olmayaraq avrosikkələr və avrobanknotlar dövriyyəyə buraxılacaq, MBAS isə milli pul vahidlərinin sikkə və banknotlarını avroya dəyişdirməyə başlayacaq.

IV.Dördüncü mərhələdə (2002-ci il ynvarın birindən başlayaraq altı aydan çox olmayaraq) bütün iştirakçı ölkələrdə milli valyutalar avroya dəyişdiriləcək. Nəticədə milli banknotlar və sikkələr öz hüquqi statusunu itirərək qanuni ödəniş vasitəsi ola bilməyəcəklər.

Mərkəzi bankların Avropa sisteminin (MBAS) əsas vəzifələri Birliyin pul siyasətinin müəyyənləşdirilməsi və həyata keçirilməsi, xarici valyuta ilə əməliyyatların aparılması, Avropa birliyinin üzv ölkələrində rəsmi ehtiyatların

MUHASIBAT.AZ

xarici valyutada müdafiəsi və bu ehtiyatların idarə edilməsi, ödəniş sistemlərində işin dəqiqliyi, prudensial nəzarət sferasında planlı siyasətin aparılmasına kömək, banknotların buraxılmasına icazə vermək, statistik məlumatların toplanması kimi digər məsələlərin yerinə yetirilməsi və başqalarıdır.

MBAS və Avropa birliyi dövlətlərinin mərkəzi bankları fiskal aqentlər kimi fəaliyyət göstərə bilərlər. Lakin bütün overdraftlar və ya Birliyin müəssisə və orqanlarının xeyrinə olan kreditlərin digər növləri qadağan olunur. Mərkəzi bankların Avropa sisteminin vəzifəsi pul siyasətini formalaşdırmaq və həyata keçirməkdir. Pul siyasətinin əsas məqsədi isə qiymət stabilliyidir. Vahid pul siyasəti strategiyasının əsas prinsipləri aşağıdakılardır: bazar münasibətləri, sistemin bütün iştirakçılarına eyni münasibət, sadəlik, desentralizasiya, effektivlik (vahid pul siyasəti strategiyası MBAS-nin əsas məqsədinin effektiv şəkildə yerinə yetirilməsinə kömək göstərməlidir), aşkarlıq, şəffaflıq (məqsədlər və qəbul edilən qərarlar ictimaiyyətə aydın olmalıdır), inflyasiya gözləmələri üçün lövbər olan orta müddətlərə istiqamətlənmə, vərəsəlik (MBAS strategiyası sistemin yaranmasının üçüncü mərhələsinə qədər sistemdə iştirak edən milli mərkəzi bankların şüurluluğuna əsaslanmalıdır), sazişdə nəzərdə tutulmuş MBAS –nin müstəqillik siyasətinin həyata keçirilməsində ardıcıllığın gözlənilməsi.

Avropa birliyi üçün vahid və bölünməz pul siyasətini Rəhbər şura müəyyənləşdirir. Rəhbər şura İcraiyyə komitəsinin üzvlərindən (bura MBAS-nin prezidenti, vitse prezidenti və dörd üzvü daxildir. Onların təyinatı dövlət və ya hökumət rəhbərləri səviyyəsində iştirakçı ölkələrin razılığı ilə, həmçinin Birliyin Nazirlər sovetinin tövsiyəsi ilə, Avropa parlamentinin və Rəhbər şuranın məsləhətindən sonra baş verir) və milli mərkəzi bankların rəhbərlərindən ibarətdir. Milli mərkəzi bankların rəhbərləri vahid pul siyasəti strategiyasının kesirilməsində şura üzvləri kimi iştirak edirlər. Onların rəhbərlik etdikləri milli mərkəzi bankların rolu pul siyasətindəki əməliyyatlardan başqa, əsasən qəbul edilmiş qərarların icraiyyəsindən

MUHASIBAT.AZ

ibarətdir. MBAS-nin pul siyasətinin alət toplusu Pul ittifaqının Şurası tərəfindən müəyyənləşdirilir. MBAS-nin əsas etibarilə açıq bazar əməliyyatlarından istifadə edəcəyi nəzərdə tutulur, lakin digər standart alətlərin də istifadə edilmək imkanı, məsələn, minimal ehtiyat saxlama şərtlərinin qorunma imkanı inkar edilmir. MBAS daxili maliyyə bazarlarında intervensiyalar keçirmək imkanından başqa, həm də valyuta bazarında intervensiya keçirmək imkanına, həmçinin milli mərkəzi banklardan Avropa Mərkəzi bankına (AMB) köçürülmüş xarici kapitalların ümumi fondundan istifadə etmək imkanına malikdir. Həm AMB, həm də milli mərkəzi banklar kredit verə bilirlər. AMB isə Birlik çərçivəsində və digər dövlətlərlə effektiv və etibarlı hesablaşma sisteminin və ödəniş sisteminin təmin edilməsi məqsədilə təlimatlar hazırlamaq iqtidarındadır.

Yoxlama sualları

1.Milli valyuta sistemi nədir və hansı elementlərdən ibarətdir?

2.Dünya valyuta sistemi nədir və hansı elementlərdən ibarətdir?

3.Dünya valyuta sisteminin təkamülü necə baş vermişdir?

4.Bretton –Vuds razılaşmasının qızıldeviz standartı hansı prinsiplərə əsaslanırdı?

5.Bretton –Vuds razılaşmasının əsas ideyasında hansı liberal istiqamətlər var idi?

6.Yamaya razılaşmasının əsası nədən ibarət idi?

7.Müasir dünya valyuta sisteminin inkişafında hansı istiqamətlər mümkündür?

8.Valyuta ittifaqı nədir və valyuta ittifaqına keçidi hansı yolla həyata keçirmək olar?

9.Valyuta inteqrasiya mexanizmi nəyi nəzərdə tutur?

10.Avropa valyuta ittifaqının formalaşması necə baş verirdi?

11. «Məqsədli zonalar» sisteminin reallaşması necə baş verir?

12.Avropa valyuta ittifaqının yaradılmasının əsas şərtləri hansılardır?

MUHASIBAT.AZ

13.Avropa valyuta ittifaqı çərçivəsində vahid valyutaya keçid hansı mərhələlərdən ibarətdir?

14.Avropa valyuta ittifaqının yaradılmasında hansı meyarlar əsasdır?

MUHASIBAT.AZ

21.VALYUTA KURSU VƏ VALYUTA TƏNZİMLƏNMƏSİ

21.1. VALYUTA KURSU VƏ ONUN NÖV TƏSNİFATI

Beynəlxalq hesablaşma və ya mübadilə əməliyyatları milli və xarici valyuta qiymətlərinin (dəyərlərinin) öz aralarında mütləq müqayisəsini nəzərdə tutur, çünki alınan və ya satılan hər bir malın arxasında onun pulla ifadə olunmuş qiyməti durur. Bu, valyuta kursunun yaranmasına və onun səviyyəsinin müəyyənləşdirilmə zərurətinə gətirib çıxarır. Valyuta kursu mal və xidmət ticarətində valyutaların qarşılıqlı mübadiləsi üçün, həmçinin kapitalların və kreditin qarşılıqlı hərəkət uçotunda zəruridir. Xarici ölkələrə mal göndərən – eksportçu satışdan əldə etdiyi xarici valyutanı milli valyutaya dəyişir, çünki digər ölkələrin valyutaları bu ölkə ərazisində qanuni ödəniş və alıcılıq vasitəsi kimi dövr edə bilməz. Xaricdən mal gətirən idxalatçı da milli valyutanı xarici valyutaya dəyişir ki, xaricdə aldığı malların pulunu ödəyə bilsin. Borclu şəxs xarici kredit borcunun ödənilməsi və faizlərin verilməsi üçün milli valyutanın əvəzinə xarici valyuta əldə edir. Dünya və milli bazar qiymətlərinin, həmçinin müxtəlif ölkələrin müxtəlif pul vahidlərində ifadə olunmuş dəyər göstəricilərinin müqayisəsi üçün valyuta kursu zəruridir. Bank və şirkətlərdə xarici valyuta hesablarının dövri şəkildə yenidən qiymətləndirilməsi valyuta kursu vasitəsilə baş verir.

Faktiki valyuta kursu – bir ölkə valyutasının digər ölkə valyutasının vahidində ifadə olunmuş müqayisəli qimətidir. İstənilən bazar qiyməti kimi, valyuta kursu da tələb və təklifin təsiri altında formalaşır. Valyuta bazarında tələb və təklifin tarazlaşdırılması valyutanın bazar kursunun tarazlıq səviyyəsinin müəyyənləşdirilməsinə gətirib çıxarır, yəni «fundamental tarazlıq» adlanan hal baş verir.

Xarici valyutaya olan tələbin ölçüsü ölkənin mal və xidmət idxalatına olan ehtiyacları, həmin ölkə turistlərinin xərcləri, xarici maliyyə aktivlərinə olan tələblə və rezidentlərin xaricdəki investisiyaları həyata keçirmək niyyətləri

MUHASIBAT.AZ

ilə bağlı xarici valyutaya olan tələblə müəyyənləşir. Xarici valyutanın kursu nə qədər yüksəkdirsə, ona olan tələb bir o qədər azdır və əksinə.

Xarici valyuta təklifinin ölçüsü xarici dövlət rezidentlərinin bu ölkə valyutasına olan tələbi ilə, xarici turistlərin həmin ölkədəki xidmətlərə olan tələbi ilə, ölkənin milli valyutasında ifadə olunmuş aktivlərə xarici investorların tələbi ilə, qeyri rezidentlərin həmin ölkədə investisiya həyata keçirmək niyyətləri ilə bağlı milli valyutaya olan tələblə müəyyənləşir. Xarici valyutanın kursu yerli valyutaya nisbətdə nə qədər yüksəkdirsə, valyuta bazarının bir o qədər az miqdarda subyekti xarici valyuta əvəzinə yerli valyuta təklif etməyə hazırdır. Əksinə, milli valyutanın kursu xarici valyutaya nisbətdə nə qədər aşağıdırsa, milli bazarın bir o qədər çox miqdarda subyekti valyuta əldə etməyə hazırdır.

Valyuta kursunu və valyuta paritetini fərqləndirmək lazımdır. Valyuta pariteti hər hansı bir ölkə valyutasının qızılla ifadə olunmuş dəyəridir. Məsələn, Bretton –Vuds razılaşmasına uyğun olaraq dolların pariteti qızılın bir unsiyasına görə 35 dollara bərabər idi. Paritetin mövcudluğu və ya etalon rolu oynayan qızıla qarşı müəyyən nisbətin mövcudluğu milli valyutaya dəyər ölçüsü funksiyasını, «ideal qızıl» funksiyasını yerinə yetirməyə imkan verir. Paritet eynilə valyuta kursu demək deyil. Valyuta kursu müəyyən valyutanın digər valyutaya nisbətini və ya onun nisbi dəyərini göstərir. Məsələn, 1 frank qərbi Almaniya markasının 1\2 dəyərinə bərabərdir. Frankın və markanın valyuta kursu elə budur. Valyuta kursu dəyişə bilir, qızıl paritet isə bu halda dəyişməz qalır.

Qızıl standartın fəaliyyət mexanizmini ən yaxşı izah edən məsələ valyuta kursunun formalaşmasıdır. XIX əsrin son rübündən birinci dünya müharibəsinin başlanğıcına qədər xarici ticarətdə qızıl standartı hakim idi. Qızıl standartına keçiddə ilk addımı İngiltərə etdi. İngiltərə 1821-ci ildə buraxdığı banknotların qızıla dəyişdirilməsini müəyyənləşdirdi. XIX əsrin axırında Skandinaviya ölkələri də qızıl standartına keçdi. Almaniya 1875-ci ildə, Fransa 1878-ci ildə, Avstriya –Macarıstan 1892-ci ildə, Yaponiya 1897-ci

MUHASIBAT.AZ

ildə, ABŞ 1900-cü ildə qızıl standartına keçdilər. Qızıl standartı beynəlxalq valyuta münasibətləri üçün əsas yaratdı. O dövrdə beynəlxalq valyuta münasibətləri qızıl paritetlər əsasında müəyyənləşdirilmiş qəti valyuta kursları ilə xarakterizə olunurdu. Qızıl standartı avtomatik şəkildə pul dövriyyəsinə və kapitalın hərəkətinə təsir edirdi. Lakin ödəniş balanslarının zəruri tarazlığı real nisbətləri üstələyəndə, onun heç bir rolu olmurdu. Bu isə ayrı - ayrı dövlətlərin daxilində inflyasiya və deflyasiya proseslərinin inkişafına gətirib çıxarırdı.

Qızıl standartında valyuta kursları qızıl paritetlər şəklində obyektiv əsasa malik idilər. Qızıl paritetlər pul vahidlərinin qarşılıqlı nisbətlərini onların tərkibində olan metalın çəkisinə görə ölçür və buna görə də mübadilə olunan valyutaların bir - birinə nəzərən nisbi dəyərini dəqiq əks etdirirdi. Nə qədər ki valyutaların qızıl tərkibi və qızılın ixrac, idxal sərbəstliyində onların nəcib metala dəyişdirilməsi saxlanılırdı, valyuta kursu da birqiymətli və möhkəm iqtisadi parametr olaraq qalırdı. Dünyada pul nizamının əsası kimi qızılın aradan qaldırılması ilə valyuta kurslarının bu obyektiv bazası da yox oldu. Ona görə də valyutaların qarşılıqlı dəyərlərinin ölçülməsi problemi həddən artıq mürəkkəbləşdi. Buna daha çox uyğun olan meyarların axtarışı isə beynəlxalq valyuta siyasətinin ən çətin həll olunan və daimi məsələləri sırasına daxil oldu.

Buna baxmayaraq, valyuta kursunun buraxılmış milli və xarici pulların miqdarının nisbətindən asılılığı şübhəsizdir. Əgər bir dövlətin pul miqdarı sürətlə artmağa başlasa, bu, mütləq onun pul vahidinin valyuta kursunun dəyişməsinə səbəb olacaq. Ona görə də, məsələn, öz aralarında mübadilə olunan milli və xarici pulların miqdarını nəzərə almadan valyuta kursunu stabilləşdirmək olmaz. Valyuta kursunu stabilləşdirmək üçün müxtəlif ölkələrin mərkəzi banklarının pul siyasətinin koordinasiyasından istifadə etmək lazımdır. Bu koordinasiya isə vahid Dövlətlərarası bankın yaradılması zamanı daha effektiv olur. Avropa Birliyi məhz bu yolla gedir. Dövlətlərarası bank iştirakçı ölkələrin daxili pul siyasətlərinin məqsəd və vasitələrini

MUHASIBAT.AZ

müəyyənləşdirmək iqtidarındadır. Məsələn, pul kütləsinin artma sürəti, faiz stavkaları, mütləq ehtiyat normaları bu qəbildəndir.

Beynəlxalq valyuta münasibətlərinin təcrübəsində (kağız –pul dövriyyəsi şəraitində) valyuta kurslarının iki əsas növünü fərqləndirirlər : qeyd olunmuş valyuta kursları və üzən valyuta kursları.

Qeyd olunmuş valyuta kursları ölkələr arasında müqavilə və ya razılaşma ilə müəyyənləşmiş, dövlət tənzimlənmə tədbirləri ilə müdafiə olunan kurslardır. Qeyd olunmuş valyuta kursları real qeyd olunmuş kurslara (qızıl pul standartı üçün xarakterikdir) və müqavilə ilə qeyd olunmuş (1971 -1973-cü illərə qədər BVF sistemində tətbiq olunurdu) kurslara bölünürlər.

Üzən valyuta kursları – valyutaların tələb və təklifi ilə formalaşan və dövlət tərəfindən təshih olunan kurslardır.

Həmçinin nominal valyuta kursunu və real valyuta kursunu da fərqləndirirlər. Nominal valyuta kursu hal hazırda ölkənin valyuta bazarında fəaliyyət göstərən valyutaların mübadilə kursunu göstərir. Real valyuta kursu isə iki ölkənin konkret tarixdə və uyğun valyutada götürülmüş mallarının qiymət nisbəti kimi müəyyənləşdirilir. Valyuta kursunun müxtəlif variasiyaları mövcuddur. Onlar aşağıdakı 21.1 cədvəlində göstərilmişdir.

Cədvəl 21.1.

Valyuta kursunun növləri

Meyar	Valyuta kursunun növləri
Qeydiyyat üsulu	Üzən, qeyd olunmuş, qarışıq
Hesablaşma üsulu	Paritet, faktiki
Sövdələşmənin növü	Təcili sövdələşmə, spot sövdələşmə, svop sövdələşmə
Müəyyənləşdirmə üsulu	Rəsmi, qeyri rəsmi
Valyutaların alıcılıq qabiliyətləri paritetlərinə münasibəti	yüksəldilmiş, endirilmiş, paritet
Sövdələşmə iştirakçılarına münasibət	real, nominal
	nağd satış kursu, qeyri nağd satış kursu
İnflyasiyanın uçotuna görə	nağd satış kursu, qeyri nağd satış kursu
Satış üsuluna görə	valyuta mübadiləsinin topdan kursu, banknot kursu

MUHASIBAT.AZ

Valyuta kurslarının müasir yaranma təcrübəsi möhkəm və üzən valyuta kurslarının qarışıq formalarını ayırır.

*bir milli valyutaya nəzərən möhkəm valyuta kursları, digər milli valyutaya nəzərən üzən valyuta kursları. Belə ki, bir dövlətin pul vahidi ABŞ dollarına nəzərən möhkəm kursa malik olsa da, avroya və ya ingilis funt sterlinqinə qarşı elə dollar nisbətində üzəcək;

*valyuta qrupuna nəzərən möhkəm valyuta kursları. Ayrı - ayrı dövlətlər digər ölkələrin valyuta qrupuna nəzərən öz valyutalarının möhkəm kurslarını müəyyənləşdirirlər, lakin digər valyutalara nəzərən kurslar qeyd olunmur və buna görə də istənilən zaman tələb və təklifin təsiri ilə dəyişilə bilir. Bu variant çərçivəsində qrup şəklində üzmə adlanan variant də tətbiq olunur. Həmin variantda partnyorlar arasındakı razılaşmaya görə möhkəm kurslar müəyyənləşdirilir və onların hamısı bir yerdə üçüncü valyutaya nəzərən üzürlər (Qərbi Avropa valyuta sistemi). Milli valyutaların XBH -na (xüsusi borc hüquqları) nəzərən möhkəm valyuta kursları da tətbiq olunur. Bu halda milli pul vahidi öz kursunu daima dəyişən XBH-na nəzərən möhkəm valyuta kursuna malik olur. Valyuta zənbilinə nəzərən də möhkəm valyuta kursları tətbiq olunurdu. Bu halda özlərini XBH ilə bağlamaq istəməyən bəzi dövlətlər xüsusi valyuta zənbilləri yaradırdılar. Bütün valyuta zənbillərində aparıcı rol ABŞ dollarına, AFR markasına, ingilis funt sterlinqinə məxsus idi. Bu variantı xarici ticarətdən asılılığı çox olan dövlətlər seçirdilər:

*sərbəst üzən valyutalar, hərçənd indiki zamanda belə üzməni fiksiya adlandırmaq olar. Valyuta kursları dəyişkən olan ölkələrin əksəriyyəti «çirkli» üzmə adlanan variantdan istifadə edirlər. Bu onunla əlaqədardır ki, mərkəzi banklar öz valyutalarının kurslarını müdafiə etmək üçün bu və ya digər ölçüdə valyuta inteqrasiyaları keçirirlər.

Valyuta kursunun aşağıdakı fəaliyyət sistemlərini də ayırmaq olar. Bunlar azad və ya təmiz üzmə (valyuta kursu tələb və təklifin təsiri ilə formalaşır), idarə olunan üzmə (tələb və təklifdən başqa mərkəzi banklar, həmçinin müxtəlif bazar təhrifləri də valyuta kursuna güclü təsir göstərir),

MUHASIBAT.AZ

qeyd olunmuş kurslar (ölkənin mərkəzi bankı tərəfindən və ya beynəlxalq razılaşmalar əsasında müəyyənləşdirilir), məqsədli zonalar (qeyd olunmuş tarazlıq kursu ətrafında valyuta kurslarının ölkələr arasında razılaşdırılmış dəyişmə hüdudları), valyuta kurslarının hibrid sistemi (ölkələrin valyuta ittifaqında həm valyuta kursunun sərbəst üzməsini həyata keçirən dövlətlər var, həm də qeyd olunmuş valyuta kursu zonaları var və s.). Dünya təcrübəsində çoxsaylı valyuta kursları rejiminin istifadə olunma nümunələri də var. Lakin bu tədbiri müvəqqəti bir tədbir kimi nəzərdən keçirilir, çünki o, daxili valyuta bazarının ayrı –ayrı natamamlıqlarını düzəldərək iqtisadiyyatın başqa sferalarında yeni və daha ciddi təhriflər yaradır. Çoxsaylı valyuta kurslarının tətbiqi əvvəl –axır öz qarşısına konkret və çox qısa zaman ərzində vahid kursa keçid vəzifəsini qoyur. Xarakterik haldır ki, keçmiş SSRİ-da sovet rublunun kurs sistemi aşağıdakılardan ibarət idi:

*rublun paritet kursu. Onun qızıl tərkibi 0,987412 qram təmiz qızıla bərabərdir;

*kapitalist, sosialist və inkişaf edən ölkə valyutalarına qarşı rublun rəsmi kursu. Bu kurs XX əsrdə 60-cı illərin əvvəllərində SSRİ Maliyyə nazirliyi tərəfindən müəyyənləşdirilmişdir. Rublun rəsmi kursu SSRİ Dövlət bankı tərəfindən tənzimlənirdi;

*differensiallaşmış valyuta əmsallarının (DVƏ) nəzərə alınması ilə rublun kursu. SSRİ Dövlət planı və SSRİ Maliyyə nazirliyi tərəfindən müəyyənləşdirilmişdir. Avropanın SEV üzv ölkələri üçün, valyutaları sərbəst konversiya edilən ölkələr üçün, o cümlədən Finlandiya, Hindistan, Yuqoslaviya, MƏR, İran və digər ölkələr üçün ayrıca fəaliyyət göstərirdi (DVƏ ixrac və idxal əməliyyatları üçün ayrıca fəaliyyət göstərirdi);

*qeyri ticarət əməliyyatları üzrə sovet rublларına köçürülən rubllarda saldonun yenidən hesablanma əmsalı ilə müəyyənləşdirilən rubl kursu.

Bunun nəticəsi olaraq, SSRİ-də sovet rublunun iqtisadi cəhətdən əsaslandırılmış kursunun tətbiq edilməsinin məqsədəuyğunluğu, sovet və xarici valyuta rublларının dövriyyələrində eyniliyin əldə edilməsi, həmçinin

MUHASIBAT.AZ

müəssisələrə onların ayrılmış valyuta məbləğlərindən (rubl ekvivalentində xarici valyuta vəsaitləri) istifadə etmək icazəsinin verilməsi barədə məsələ daima qaldırılırdı.

Dünya təcrübəsində milli valyutaların xarici valyutalara dəyişdirilməsinin əsas təşkilat modelləri və kağız –kredit pul dövriyyəsi şəraitində onlar arasında valyuta kurslarının müəyyənləşdirilmə modelləri də mövcuddur. Birinci model ona əsaslanır ki, dəyişmə prosesi dövlət müəssisələrində və ya bu məqsədlə vəkil edilmiş bank müəssisələrində mərkəzləşir və dövlət idarəetmə orqanları (mərkəzi banklar) tərəfindən müəyyənləşdirilir. İkinci model ona əsaslanır ki, dövlət milli valyutaların xarici valyutalara bilavasitə dəyişdirilməsində iştirak etməkdən əsasən yayınır və bu əməliyyatları valyuta bazarına ötürür. Valyuta kursu prinsipcə bazar yolu ilə və mübadilə olunan valyutaların tələb və təklifi əsasında müəyyənləşməlidir. Lakin dövlət mərkəzi bankın şəxsində valyutaların alqı- satqı əməliyyatlarının köməyi ilə valyuta kursunun səviyyəsini və onun dəyişmə hüdudlarının tənzimləyir. Üçüncü model nəzərdə tutur ki, dövlət valyuta əməliyyatlarında, ümumiyyətlə, iştirak etmir və bütün əməliyyatları valyuta bazarına ötürür. Bu halda valyuta bazarı pul vahidlərinin mübadilə nisbətlərini müstəqil şəkildə formalaşdırır. Bu zaman valyuta kursları mərkəzi bankın heç bir müdaxiləsi olmadan bazar qüvvələrinin təsiri altında dəyişir.

Birinci model qapalı valyutalı ölkələrdə istifadə olunur. İkinci və üçüncü model isə milli pul vahidlərinin konversiya edilməsini müəyyənləşdirən və müdafiə edən dövlətlər üçün xarakterikdir.

Həm üzən, həm də qeyd olunmuş mübadilə kursunun məziyyətləri və çatışmazlıqları var. Belə ki, inkişaf etmiş bazar iqtisadiyyatları olan dövlətlər öz valyutalarının qeyd olunmuş paritetlərindən tədriclə imtina etdilər və dəyişmə hüdudları ilə məhdudlaşdırılmış üzən kurslar sisteminə keçdilər. Mübadilə kursunun yalnız kortəbii bazar qüvvələrinin fəaliyyətinə əsaslanan «təmiz» dəyişmələrindən istifadə etmək isə ona gətirib çıxarır ki, tez tez baş verən valyuta devalvasiyaları yaranır, güclü qısamüddətli valyuta –kurs

MUHASIBAT.AZ

dəyişmələri müşahidə olunur, real kursların «tarazlıq kurslarından» böyük uzunmüddətli kənaraçıxmaları baş verir, inflyasiya və büdcələrin optimallaşdırılmasına nəzərən dövlətin «intizam» çatışmazlığı saxlanılır.

Bununla belə, bazar iqtisadiyyatına keçidi həyata keçirən ölkələr islahatların birinci mərhələsində hər şeydən əvvəl inflyasiya ilə mübarizə məqsədilə mübadilə kursunu qeyd etməyə çalışırlar. Milli pul vahidinin mübadilə kursunun stadilləşdirilməsi paritet (alıcılıq qabiliyyəti) və mübadilə kurslarını yaxınlaşdırmağa imkan verir. Bu isə açıq iqtisadiyyatda stabilləşmənin və kapitalın xarici ticarət əməliyyatları sferasına axınının dayandırılmasının vacib şərtidir. Milli pul vahidinin mübadilə kursunun stabilləşməsi kapitalın möhtəkir valyuta dəyişmə əməliyyatları sferasına axınını dayandırmağa imkan verir, çünki dayanıqlı iqtisadiyyatda bank əməliyyatlarında və gəlirlərində dempinq əməliyyatlarının yeri əhəmiyyətli dərəcədə olmur. Mübadilə kursunun stabilləşməsi həmçinin zərərli eksportu azaltmağa və tamamilə dayandırmağa, əhali və təsərrüfat subyektləri tərəfindən milli pul vahidinə olan inamı möhkəmləndirməyə, bankın SKV ilə ifadə olunmuş xüsusi kapitalını artırmağa imkan verir.

Lakin valyuta kursunu stabilləşdirmək cəhdi xeyli valyuta ehtiyatlarının mövcudluğunu tələb etməklə yanaşı, həmçinin bütövlükdə pul-kredit siyasətinin sərtliyinə və kompleksliyinə də yüksək tələblərin verilməsini nəzərdə tutur. Buna baxmayaraq, valyuta kursunun qeydiyyatı və ya stabilliyi eyni zamanda dövlət rəhbərliyinə də böyük siyasi dividentlər gətirə bilər. Bu, hər şeydən əvvəl onunla əlaqədardır ki, müəyyən zaman müddəti üçün inflyasiyanın dayandırılması və ya tamamilə yox olması baş verir. Lakin valyuta kursunun uzunmüddətli stabilliyinə bir sıra faktorlar mane olur. Bunlar valyuta ehtiyatlarının olmaması, valyuta bazarının məhdudluğu və dağınıqlığı, hətta «kölgə» sektorunda da vahid mübadilə kursunun olmaması, möhtəkirlik səbəbləri üzündən milli valyuta kursunun həddən artıq aşağı düşməsidir.

MUHASIBAT.AZ

Valyuta kursu milli müəssisələrin və ya ayrıca dövlətin istehsal xərcləri (qiymətləri) ilə dünya bazar qiymətlərinin dəyər müqayisələri üçün alət rolu oynayır. Valyuta kursu xarici iqtisadi əməliyyatların nəticəsini kəmiyyət baxımından ölçməyə və üzə çıxarmağa imkan verir. Ona görə də müxtəlif ölkə valyutalarının dəyər nisbətini əks etdirən valyuta kursu ekvivalent mübadilə üçün mühüm əhəmiyyət kəsb edir, digər faktorlarla yanaşı ixrac və idxal qiymətlərinin nisbətinə, birliklərin, müəssisə və şirkətlərin rəqabətədavamlılığına və gəlirinə təsir göstərir. Valyuta kursunun dəyər əsası onunla şərtlənir ki, istehsalın beynəlmiləl qiyməti dünya bazarını mallarla təchiz edən əsas ölkələrdə istehsalın milli qiymətlərinə əsaslanır.

Qeyd olunmuş valyuta kursu dövləti məcbur edir ki, nə olursa olsun, bu kursu müəyyən səviyyədə saxlasın. Qeyd olunmuş valyuta kursu istehsal və mübadilədə dəyişikliyə uğramış beynəlxalq şərtlərə uyğun gəlməyən strukturları və tənasübləri konservləşdirir və nəticədə xarici faktorların daxili iqtisadiyyata bilavasitə təsirinə mane olur. Bununla belə, stabil valyuta kursuna (qeyd olunmuş hüdudlar çərçivəsindəki dəyişmələrlə) həmişə üstünlük verilir. Bu isə xarici iqtisadi fəaliyyətin həyata keçirilməsi və nəticələrin qiymətləndirilməsi üçün onun tətbiqinin sadəliyi və rahatlığı ilə əlaqədardır. Valyuta kurslarının dayanıqlığı iki əsas şərtdən asılıdır:

*dövlətlər arasında ödənişlərin balanslaşdırılması;

*ödəniş tarazlığının pozulma hallarında bazardakı mübadilə kursunun saxlanması üçün valyuta ehtiyatlarının kifayət qədər olması.

Ona görə də ölkənin ödəniş balansının vəziyyəti, hər şeydən əvvəl, cari əməliyyatlar üzrə milli pul vahidinin valyuta kursuna bilavasitə təsir göstərir. Xroniki passiv ödəniş balansında milli valyutanın mübadilə kursu aşağı düşür, aktiv ödəniş balansında isə valyuta kursu yüksəlir. Xarakterik haldır ki, valyuta kursunun dinamikası üçün əsas əhəmiyyət kəsb edən, iki ölkə arasındakı cari əməliyyatlar üzrə ödəniş balansının saldosu yox, bu balansın həmin ölkə ilə beynəlxalq hesablaşmalarda iştirak edən bütün dövlətlər üzrə ümumi saldosudur.

MUHASIBAT.AZ

Öz növbəsində, beynəlxalq hesablaşmalar balans sistemi ilə əlaqədardır. Balans sisteminə ticarət balansı, cari əməliyyatlar üzrə ödəniş balansı, kapital və kreditlərin hərəkət balansı, ümumi ödəniş balansı, müəyyən tarix üzrə hesablaşma balansı, müəyyən dövr üçün hesablaşma balansı daxildir.

Ticarət balansı ödəniş balansının əsas tərkib hissəsi olub, müəyyən zaman dövrü üçün (ay, rüb, il) həmin ölkə mallarının ixrac və idxal dəyərlərinin nisbətini göstərir. Ticarət balansında malların nə vaxt alınıb və ya satılmasından asılı olmayaraq ixrac və idxal dəyəri əks olunur. Belə ki, ixracat malları ölkədən çıxarılsa da, satılmaya da bilər. Onlar hesabat dövründə reallaşdırılsa da, kreditə satıla bilər, yəni faktiki olaraq hələ ödənməyə bilər. Ticarət balansında satış üçün yox, məsələn, hədiyyə qismində ölkədən çıxarılan mallar, həmçinin əvəzində eksportçunun pul ekvivalenti almadığı mallar də nəzərə alına bilər. Ona görə də ticarət balansı xarici ticarətlə əlaqədar olan bütün daxilolmaları və ödənişləri əks etdirmir.

Cari əməliyyatlar üzrə ödəniş balansına xarici ticarət dəyərindən başqa, nəqliyyat xərcləri, turizm xərcləri, investisiya gəlirləri (görünməyən ixracatdan gələn gəlirlər), o cümlədən transfertlər – şəxsi və rəsmi köçürmələr daxildir. Cari əməliyyatlar üzrə ödəniş balansının aktiv saldosu kapitalın ölkədən çıxarılması üçün zəmin yaradır. Passiv saldo isə kapital və kreditlərin hərəkət balansında əks olunan kapitalların uyğun axını ilə ödənilməsini tələb edir. Ona görə də cari əməliyyatlar üzrə ödəniş balansı malların ixrac və idxal nisbətini, nəqliyyat, sığorta, komissiya əməliyyatları, turizm, istehlak köçürmələri üzrə ödənişləri və daxilolmaları, kapital qoyuluşlarının faiz və dividendlərini, lisenziyala ödənişlərini, kəşflərin istifadəsi üzrə ödənişləri ifadə edir. Ölkənin xaricdəki hərbi xərcləri də burada əks olunur.

Kapitalların və kreditlərin hərəkət balansına ehtiyatların nəzərə alınmama şərti ilə kapitalların hərəkəti, birbaşa investisiyalar, portfel investisiyaları, gəlirin yenidən investisiya edilməsi, qısamüddətdi və uzunmüddətli kapitallar, kreditlər üzrə köçürmələr və ödənişlər daxildir.

MUHASIBAT.AZ

Ümumi ödəniş balansına cari əməliyatlar üzrə ödəniş balansı, kapital və kreditlərin hərəkət balansı, həmçinin qızıl və valyuta ehtiyatlarının hərəkəti daxildir.

Hesablama balansı verilmiş ölkənin başqa dövlətlərə nəzərən tələb və öhdəliklərini ifadə edir. Bu tələblərə və öhdəliklərə dövlət aktivləri (qızıl valyuta və başqaları) və şəxsi aktivlər, birbaşa investisiyalar, alınmış və verilmiş kreditlər, maliyyə və qeyri maliyyə korporasiyalarının digər öhdəlikləri daxildir. Ödəniş balansından fərqli olaraq, hesablama balansına digər ölkələrə nəzərən ödənişlərin aparılmadığı bütün tələblər və öhdəliklər daxildir.

Bazar iqtisdiyyatı inkişaf etmiş ölkələrdə hesabat ödəniş balansı tərtib olunur və burada keçən ildə xarici dövlətlərə aparılan ödənişlər, xaricdən gələn vəsaitlərin daxilolmaları, həmçinin beşillik dövr üçün ödəniş balansı əks olunur. Beşillik ödəniş balansına əvvəlki iki il ərzində ödəniş balansının icrası, cari ildə ödəniş balansının ilkin icrası və yaxın iki il üçün inkişaf proqnozu daxildir.

Uzunmüddətli kapitalların və cari öhdəliklərin hərəkətindən asılı olmayaraq, ödəniş balansının tarazlığı valyuta kursunun səviyyəsinə təsir edə bilər. Buna baxmayaraq, belə tarazlıq valyuta kursunun qısamüddətli stabilliyini avtomatik təmin etmir, hərçənd ortamüddətli kursa nəzərən bir çox hallarda vahid effektiv vasitə kimi təsir göstərir. Ona görə də kapital axını nəticəsində ödəniş balansının qeyri müvazinətliliyi valyuta kursunun artımı ilə və ödəniş balansının tərkib hissəsi kimi ticarət balansının müsbət saldosu ilə yanaşı mövcud ola bilər.

İndiki zamanda valyuta kurslarının kəsilməz enmə-qalxmalarının və valyutaların nisbi qiymət dəyişmələrinin köməyi ilə qarşılıqlı beynəlxalq tələblərin və öhdəliklərin tənzimlənməsi ilə bağlı nəzəri imkan real həqiqətə çevrilmiş, müasir konversiya edilmə mexanizminin ayrılmaz hissəsi olmuşdur. Təcrübə üzən (müəyyən hüdudlarda), lakin dövri şəkildə tənzimlənən valyuta kurslarının müsbət nəticələrini təsdiq etdi. Bu tipli kursyaradıcı mexanizm

MUHASIBAT.AZ

milli iqtisadiyyatın «açıqlıq» prinsiplərinə və onların düya təsərrüfatına inteqrasiyasına daha yüksək səviyyədə cavab verir.

Üzən (şərtləşdirilmiş hüdudlarda) valyuta kursları iqtisadiyyatın struktur və tənasüblərinin konservasiya problemini aradan qaldırır. Məsələ ondadır ki, azad bazar şəraitində valyuta mövqelərinin pisləşməsi xalq təsərrüfatının bu və ya digər sektorunda vəziyyətin uğursuzluğundan xəbər verir. Bu isə milli və beynəlxalq səviyyədə iqtisadi siyasət vasitələrinin köməyi ilə təshihedici tədbirlərin zəruriliyini göstərir. Nəzərdə tutmaq lazımdır ki, valyutanın «təmiz» üzməyi (mərkəzi bankın şəxsində dövlətin müdaxiləsi olmadan) bu problemi həll etmir. Belə ki, 1973-cü ildə sənaye cəhətdən inkişaf etmiş ölkələrdə üzən valyuta kursları mexanizminin tətbiqi taraz valyuta kurslarının müəyyənləşdirilmə funksiyalarının bazara ötürülməsini nəzərdə tuturdu. Lakin valyuta kurslarının bu tənzimlənmə mexaniziminin nəticələri onların enmə-qalxmalarının çoxalmasında üzə çıxdı. Bu isə beynəlxalq ticarətin stabilliyini pozmaqla yanaşı, həm də ticarət və ödəniş balanslarının qeyri tarazlığına gətirib çıxardı.

Məhz buna görə də valyuta kurslarının tənzimlənməsini nəzərdə tutan və mərkəzi banklar tərəfindən həyata keçirilən aktiv və elastiki valyuta siyasəti tələb olunur. Valyuta kursu vasitəsilə milli pul vahidinin məhdudluğu aradan qaldırılır və onun lokal dəyərinin beynəlmiləl dəyərə çevrilməsi baş verir. Nəticədə özünəməxsus dəyər meyarı formalaşır və bu dəyər meyarı valyutaların bir birləri ilə nizamlı və müntəzəm şəkildə dəyişdirilməsinə imkan yaradır. Təsərrüfat əlaqələrinin bütün beynəlmiləlləşdirilmə mexanizmində valyuta kursuna xüsusi yer ayrılır. Onun köməyi ilə milli qiymətlərin, əmək haqlarının və bir çox başqa dəyər göstəricilərinin səviyyələri xarici ölkələrin analoji göstəriciləri ilə tutuşdurulur. İxrac-idxal əməliyyatlarının effektivliyi, bu və ya digər malların istehsal məqsədəuyğunluğu, iqtisadiyyatın bu və ya digər sahələrində inişafın nisbi gəlirliliyi, nəticədə ölkənin beynəlxalq əmək bölgüsündəki iştirak səviyyəsi bu əsasla müəyyənləşir.

MUHASIBAT.AZ

21.2. VALYUTA KURSUNUN MÜƏYYƏNLƏŞDİRİLMƏ ÜSULLARININ XARAKTERİSTİKASI

İndiki zamanda valyuta kursunun hamı tərəfindən qəbul olunmuş müəyyənləşdirilmə üsulu yoxdur. Bu, əsasən çoxfaktorluluqla -faktorların mürəkkəb şəbəkəsində bu və ya başqa, yaxud bir qrup faktorun həlledici faktor qismində çıxış etməsi ilə əlaqədardır.

Valyuta kursunun ölçüsünə təsir edən faktorlar struktur faktorlara (uzunmüddətli dövrdə fəaliyyət göstərən) və konyunktur faktorlara (valyuta kursunun qısamüddətli dəyişmələrini yaradan faktorlar) ayrılırlar. Struktur faktorlara ölkə mallarının dünya bazarındakı rəqabətədavamlılığı və onun dəyişməsi, dövlətin ödəniş balansının vəziyyəti, pul vahidinin alıcılıq qabiliyyəti və inflyasiya sürəti, müxtəlif ölkələrdə faiz stavkalarının fərqi, valyuta kursunun dövlət tənzimlənməsi, iqtisadiyyatın açıqlıq səviyyəsi aiddir. Konyunktur faktorlara valyuta bazarlarının fəaliyyəti, möhtəkirçi valyuta əməliyyatları, proqnozlar, ölkədə işgüzar aktivliyin dövriliyi, böhranlar, müharibələr, təbii fəlakətlər və s. aiddir.

Valyuta kursunun ölçüsünə bəzi faktorların təsiri ümumi şəkildə aşağıdakılardan ibarətdir:

1.İnflyasiya sürəti və valyuta kursu. Başqa faktorlar əks təsir göstərmədiyi halda, ölkədə inflyasiya sürəti nə qədər yüksəkdirsə, onun valyuta kursu bir o qədər aşağıdır. Ölkədə pulların inflyasiya ilə qiymətdən düşməsi onların alıcılıq qabiliyyətinin düşməsinə və inflyasiya sürəti aşağı olan ölkələrin valyuta kursuna qədər enmə tendensiyasına səbəb olur. Belə tendensiya, adətən, ortamüddətli və uzunmüddətli planlarda izlənilir. Valyuta kursunun tarazlaşdırılması, alıcılıq qabiliyyətinin pariteti ilə uyğunlaşdırılması orta hesabla iki il ərzində baş verir. Beynəlxalq mal, xidmət və kapital mübadiləsi böyük həcmdə olan ölkələrdə valyuta kursunun inflyasiya sürətindən asılılığı daha çoxdur.

MUHASIBAT.AZ

2.Ödəniş balansının vəziyyəti. Ödəniş balansı valyuta kursunun ölçüsünə bilavasitə təsir göstərir. Aktiv ödəniş balansı milli valyuta kursunun yüksəlməsinə səbəb olur, çünki xarici borclular tərəfindən ona olan tələb artır. Passiv ödəniş balansı milli valyuta kursunun azalma tendensiyasını yaradır, çünki borclular özlərinin xarici öhdəliklərini ödəmək üçün milli valyutanı xarici valyutaya satırlar. Ödəniş balansının valyuta kursuna təsir ölçüsü ölkə iqtisadiyyatının açıqlıq səviyyəsi ilə müəyyənləşir. İxracatın ÜMM –da payı nə qədər yüksəkdirsə (iqtisadiyyatın açıqlığı nə qədər yüksəkdirsə), ödəniş balansının dəyişməsinə nəzərən valyuta kursunun elastikliyi də bir o qədər yüksəkdir. Ödəniş balansının qeyri stabilliyi uyğun valyutalara və onların təklifinə nəzərən tələbin sıçrayış şəkilli dəyişikliklərinə səbəb olur.

Bundan başqa, ödəniş balansının tərkib hissələrinin tənzimlənməsi sahəsində dövlətin iqtisadi siyasəti də valyuta kursuna təsir göstərir. Bu tərkib hissələr cari hesablar və kapitalların hərəkət hesablarıdır. Ticarət balansının müsbət saldosunun artması nəticəsində həmin ölkə valyutasına olan tələb artır. Mənfi saldo isə əks prosesə gətirib çıxarır. Kapitalların hərəkət balansının saldosunun dəyişməsi milli valyutanın kursuna müəyyən təsir göstərir. Bu təsir öz işarəsi ilə («müsbət» və ya «mənfi») ticarət balansına analojidir. Lakin qısamüddətli kapitalın ölkəyə hədsiz axını ölkə valyutasının kursuna neqativ təsir də göstərir. Belə təsir ifrat pul kütləsi yaradaraq, qiymətlərin artmasına və valyutanın qiymətdən düşməsinə səbəb ola bilir.

3.Milli gəlir və valyuta kursu. Milli gəlir öz –özünə dəyişilə bilən sərbəst bir tərkib hissə deyil. Lakin ümumiyətlə, milli gəliri dəyişdirməyə məcbur edən faktorlar valyuta kursuna da böyük təsir göstərirlər. Belə ki, məhsulların təklifinin artması valyuta kursunu qaldırır, daxili tələbatın artması isə valyuta kursunu aşağı salır. Uzunmüddətli dövrdə daha yüksək milli gəlir ölkə valyutasının daha yüksək dəyəri deməkdir. Qısamüddətli zaman dövründə isə əhalinin artan gəlirlərinin valyuta kursunun ölçüsünə təsiri əks tendensiya ilə ifadə olunur.

MUHASIBAT.AZ

4.Müxtəlif ölkələrdə faiz stavkalarının fərqi. Bu faktorun valyuta kursuna təsiri iki əsas səbəblə izah olunur. Birincisi, ölkədə faiz stavkalarının dəyişməsi digər bərabər şərtlərdə kapitalların beynəlxalq hərəkətinə, hər şeydən əvvəl qısamüddətli kapitalların hərəkətinə təsir göstərir. Prinsipcə, faiz stavkasının artımı xarici kapitalların ölkəyə axınını stimullaşdırır. Faiz stavkasının düşməsi isə kapitalların, o cümlədən milli kapitalların ölkədən çıxmasını şirnikləndirir. İkincisi, faiz stavkaları valyuta bazarlarının və borc kapitalları bazarlarının əməliyyatlarına təsir göstərir. Əməliyyatları həyata keçirən banklar gəlir götürmək üçün milli və dünya kapital bazarında faiz stavkalarının fərqini nəzərə alırlar. Onlar borc kapitallarının xarici bazarında, stavkaların aşağı olduğu yerdə ucuz kredit almağa və xarici valyutanı milli kredit bazarında (əgər burada faiz stavkaları aşağıdırsa) yerləşdirməyə üstünlük verirlər.

5.Valyuta bazarlarının fəaliyyəti və möhtəkirçi valyuta əməliyyatları. Əgər hər hansı bir valyutanın kursu azalmağa meyllidirsə, şirkətlər və banklar əvvəlcədən onu daha dayanıqlı valyutaya satırlar. Bu isə zəifləmiş valyutanın mövqelərini pisləşdirir. Valyuta bazarları iqtisadiyyatda və siyasətdə olan dəyişikliklərə, kurs nisbətlərinin enib-qalxmalarına tez reaksiya göstərirlər. Bununla da onlar valyuta möhtəkirliyi və «isti» pulların kortəbii axını imkanlarını genişləndirirlər.

6.Müəyyən valyutanın Avropa bazarında və beynəlxalq hesablaşmalarda istifadə olunma səviyyəsi. Avropa banklarında əməliyyatların 60-70%-nin dollarlarla həyata keçməsi faktı bu valyutanın tələb və təklif miqyaslarını müəyyənləşdirir. Ona görə də valyuta kursuna həm də valyutanın beynəlxalq hesablaşmalarda istifadə olunma səviyyəsi təsir edir.

7.Beynəlxalq ödənişlərin sürətlənməsi və ya ləngidilməsi. Milli valyuta kursunun aşağı düşməsinə ümid edən idxalatçılar kontraqentlərə xarici valyuta ilə verilən ödənişləri sürətləndirməyə çalışırlar ki, valyuta kursunun qalxmasından ziyan çəkməsinlər. Milli valyutanın möhkəmlənməsi şəraitində isə, əksinə, xarici valyuta ödənişlərinin ləngidilmə meyli üstünlük təşkil edir.

MUHASIBAT.AZ

«Lidz ənd leqz» adlanan bu taktika ödəniş balansına və valyuta kursuna təsir göstərir.

8.Milli və dünya bazarında valyutaya olan inamın səviyyəsi. Bu səviyyə ölkədə iqtisadi və siyasi vəziyyətlə, həmçinin yuxarıda nəzərdən keçirdiyimiz və valyuta kursuna təsir edən faktorlarla müəyyənləşir. Dilerlər təkcə iqtisadi inkişafın, inflyasiyanın sürətini, valyutanın alıcılıq qabiliyyətinin səviyyəsini yox, həm də onların dinamikasının perspektivlərini nəzərə alırlar. Bəzən ticarət və ödəniş balansları haqqında və ya seçkilərin nəticələri barədə rəsmi məlumatların gözlənilən nəşri də tələb və təklifin nisbətinə və valyuta kursuna öz təsirini göstərir.

9.Valyuta siyasəti. Valyuta kursunun bazar və dövlət tənzimlənməsinin nisbəti onun dinamikasına təsir göstərir. Valyuta bazarlarında valyuta kursunun valyutanın tələb və təklif mexanizmi vasitəsilə formalaşması, adətən, kurs nisbətlərinin kəskin dəyişmələri ilə müşayiət olunur. Bazarda real valyuta kursu təşəkkül tapır. O, iqtisadiyyatın, pul dövriyəsinin, maliyyənin, kreditin vəziyyətinin göstəricisi və müəyyən valyutaya olan etibarın səviyyəsinin göstəricisidir. Valyuta kursunun dövlət tənzimlənməsi valyuta-iqtisadi siyasəti nəticəsində onun qalxmasına və ya enməsinə istiqamətlənmişdir. Bu məqsədlə müəyyən valyuta siyasəti yeridilir.

Milli valyutanın kursuna mövsümün qızğın dövrü və ölkədə işgüzar aktivliyin enməsi də əhəmiyyətli dərəcədə təsir göstərir. Bunu bir çox misallarla göstərmək olar. 1996-cı ildə dekabrın axırında Moskva banklararası valyuta birjasında ticarətin həcmi hər bir birja günündə artırdı. Aktiv alışın səbəbi valyuta bazarındakı hərracda yeni il bayramı ilə əlaqədar olan uzunmüddətli fasilə idi.

Beləliklə, valyuta kursunun formalaşması mürəkkəb və çoxfaktorlu prosesdir. Bu proses milli və dünya iqtisadiyyatının və siyasətinin qarşılıqlı əlaqəsi ilə şərtlənir. Ona görə də valyuta kursunun proqnozlaşdırılması və müəyyənləşdirilməsi zamanı kursyaradıcı faktorların çoxnövlüyü, onların

MUHASIBAT.AZ

konkret vəziyyətdən asılı olaraq valyuta nisbətinə çoxmənalı təsiri nəzərə alınır.

Valyuta kursunun çoxfaktorluluğu onun digər iqtisadi meyarlarla da – dəyər, qiymət, pul və başqaları ilə əlaqəsini əks etdirir. Ona görə də möhtəkirçi və konyunktur faktorlardan təmizlənmiş valyutaların kurs nisbətləri dəyər qanununa, pul vahidlərinin alıcılıq qabiliyyətinin dəyişməsinə uyğun olaraq dəyişilir. Bu, valyuta kursunun inflyasiya sürətindən (ölkələr üzrə qeyri müntəzəm inkişaf edən inflyasiya), həmçinin ödəniş balansının vəziyyətindən uzunmüddətli asılılığında büruzə olunur.

Valyuta kursunun dəyişməsi ümumi ictimai məhsulun xarici bazarlarda reallaşan hissəsinin ölkələr arasında yenidən bölüşdürülməsinə təsir edir. Valyuta kursunun dəyişmələrinin iqtisadi, sosial və siyasi nəticələri ölkənin valyuta –iqtisadi potensialından, onun ixrac kvotasından, dünya iqtisadi birliyindəki mövqeyindən asılıdır. Ona görə də xarici ödəniş vasitələrində pul vahidinin qiyməti kimi müasir valyuta kursunun əsasını kursyaradıcı faktorların bütöv kompleksi formalaşdırır. Bu faktorlar özlərini, hər şeydən əvvəl, həmin valyutanın pul bazarındakı tələbi və təklifi vasitəsilə büruzə etdirirlər. Həmin faktorların əvəzləyici qüvvəsi (ödəniş balansının vəziyyəti, qiymətlərin səviyyəsi, faiz siyasəti, kapitalın miqrasiya miqyasları, iqtisadi inkişaf sürəti, siyasi inkişaf perspektivləri və s.) hər bir an valyuta kursunun konkret ölçüsünü müəyyən edir. Bununla belə, real valyuta kurslarının əsasında valyutaların alıcılıq qabiliyyətinin pariteti durur.

Valyuta kursları haqqında məlumat daima kütləvi informasiya vasitələri ilə (nəşriyyat, radio, televiziya və s.) əhaliyə çatdırılır. Xarici valyuta kursunun müəyyənləşdirilmə və nəşr üsulu valyutanın kotirovkası adlanır. Xərclərin azaldılması üçün banklararası (topdan) bazarda pul vahidlərinin əksəriyyəti bir valyutaya qarşı –ABŞ dollarına qarşı kotirovka olunurlar.

Xarici valyutanın milli valyutaya qarşı iki kotirovka üsulu –birbaşa və dolayısı (əks) üsul mövcuddur. Valyuta kursunun birbaşa kotirovkasında xarici valyuta vahidi milli valyuta ilə ifadə olunur. Dolayısı kotirovkada isə

MUHASIBAT.AZ

milli valyuta vahid qəbul olunur və onun kursu xarici pul vahidinin müəyyən miqdarı ilə ifadə olunur.

Dünya təcrübəsində milli pul vahidinin valyuta kursunun müxtəlif müəyyənləşdirilmə üsulları mövcuddur. Onların əsasları sırasında aşağıdakıları göstərə bilərik: valyuta zənbili əsasında, alıcılıq qabiliyyətinin nisbi pariteti (AQP) bazasında, valyutaların tələb və təklifi əsasında və ya bazar əsasında, valyutaların «kross –kurs» vasitəsilə.

Valyuta zənbili – bir valyutanın orta ölçülü kursunun digər valyutaların müəyyən toplusuna nəzərən ölçülmə üsuludur. Bu üsul valyuta kursunun müəyyənləşdirilməsi üçün, beynəlxalq hesablama pul vahidinin yaradılması və s. üçün müxtəlif ölkələr tərəfindən və beynəlxalq valyuta –kredit və maliyyə təşkilatları tərəfindən valyutaların müxtəlif toplularının istifadəsi ilə tətbiq olunur. Valyuta zənbili bazasında kursun müəyyənləşdirilməsi aşağıdakı əsas mərhələlərdən ibarətdir:

*zənbilin tərkibinin müəyyənləşdirilməsi. Söhbət o valyutalardan gedir ki, onalara nəzərən paritet hesablanmalıdır;

*zənbildə olan hər bir valyutanın xüsusi çəkisinin müəyyənləşdirilməsi (onların ixrac və ya idxal həcmindəki xüsusi çəkisinə uyğun olaraq);

*valyuta ünsürlərinin uyğun valyutanın vahidində müəyyənləşdirilməsi (onun valyuta zənbilindəki xüsusi çəkisinin və son 3 ayda dollara nəzərən (və ya başqa ehtiyat valyutaya nəzərən) orta bazar kursunun hasili);

*dollara nəzərən (və ya başqa ehtiyat valyutaya nəzərən)valyutanın bazar kursunun müəyyənləşdirilməsi;

*valyuta ünsürlərinin dollar ekvivalentlərinin hesablanması (maddə 3 və maddə 4 –ün hasilinin cəmi) (cədvəl 21.2.).

MUHASIBAT.AZ

Cədvəl 21.1.

Beynəlxalq hesablama pul vahidinin (SDR) ABŞ dollarına nəzərən hesablanması (avronun tətbiqinə qədər)

Valyuta zənbilinin ünsürlərinin tərkibi	Valyuta ünsürləri	1 valyutanın dollarla qursu	Valyuta dollar ekvivalenti
ABŞ dolları	0,452	1,000000	0,452000
AFR markası	0,527	0,403893	0,212929
Fransız frankı	1,02	0,131787	0,134423
Yapon ienası	33,4	0,004932	0,164729
Funt sterlinq	0,089	0,436700	0,12866
Yekun:	1 SDR	-	1,09

Valyuta zənbili əsasında valyuta kursunun müəyyənləşdirilməsi çox mürəkkəb üsuldur və bəzən bu sahənin böyük mütəxəssislərini də çətinliyə salır. Valyuta kursunun daha sadə hesablama üsulu valyutaların alıcılıq qabiliyyətinin nisbi paritetidir (AQP). Öz növbəsində, valutaların alıcılıq qabiliyyətinin nisbi paritetinin hesablanması üçün daha məqbul üsul uyğun ölkələrin ixracat və daxili qiymətləridir. İxracat qiymətləri (dünya bazarının qiymətləri) beynəlmiləl dəyərin ifadəsini təmsil edir. Valyutaların alıcılıq qabiliyyətinin nisbi paritet bazasında milli valyuta kursunun ABŞ dollarına nəzərən müəyyənləşdirilməsi üçün aşağıdakılar zəruridir:

*ölkənin ixracat məhsullarının bir il ərzindəki həcmini dünya bazarının qiymətləri ilə (dollarla) və aşağıdakı düstürla müəyyənləşdirmək:

MUHASIBAT.AZ

$$A= m1s1 + m2s2 + \ldots + m(n)s(n) \qquad (21.1)$$

Burada A –ixracat məhsullarının dünya bazar qiymətləri ilə (ABŞ dollarları ilə) həcmi; m(1,2,…,n) –ixracat məhsullarının ayrı –ayrı növlərinin miqdarı; s(1,2,…,n) –ixracat məhsullarının ayrı –ayrı növlərinin vahid dünya qiyməti (dollarla);

*ölkənin ixracat məhsulunun bir il ərzindəki həcmini daxili qiymətlərlə (rublda) və aşağıdakı düsturla müəyyənləşdirmək:

$$B=m1p1 + m2p2 + \ldots + m(n)p(n) \qquad (21.2)$$

Burada B – ixracat məhsulunun daxili qiymətlərlə (rublla) həcmi; p(1,2,…,n) –ixrac məhsullarının ayrı ayrı növlərinin vahid daxili qiyməti (rublla);

*ABŞ dollarına nəzərən rublun valyuta kursunu aşağıdakı düsturla hesablamaq:

$$K(b) = B\backslash A \qquad (21.3)$$

K(b) – milli pul vahidinin valyuta kursudur.

Valyutanın dəyişmə kursunun hesablamaları dövlətin xarici ticarət balansı əsasında, ölkənin xarici hesablaşmalarında istifadə olunan əsas xarici valyuta kursları əsasında, ixrac məhsulunun həcmi barədə statistik məlumatlar əsasında, dünya bazarının qiymətləri (dollarla) və daxili topdan qiymətlər (rublla) əsasında yerinə yetirilir. Hesablamalarda valyutaların birbaşa kotirovkasının mümkünlüyü barədə dövlətlərarası razılaşmalar əldə edilərsə, kursların müəyyənləşdirilməsi alıcılıq qabiliyyətinin pariteti əsasında (qiymət paritetinə görə) və qeyd olunmuş bazar kursu əsasında mümkündür.

Alıcılıq qabiliyyətinin paritet nəzəriyyəsi rasional məqamlara da malikdir. Ona görə də onu valyuta kurslarının dəyər əsaslarından biri hesab

MUHASIBAT.AZ

etmək olar. Lakin bu konsepsiya çərçivəsində həll olunmayan problemlər də məlumdur:

*valyutanın alıcılıq qabiliyyətinin paritetinin (AQP) hesablanması üçün hansı qiymətlərin – topdan daxili, topdan sənaye, ixrac, idxal və ya orta (ÜDM deflyatoru) qiymət nisbətlərinin götürüləcəyi aydın deyil;

*valyuta kurslarının və AQP –nin sıx korrelyasion asılılığı səbəb –nəticə əlaqələrinin cari və ortamüddətli istiqamətləri barədə heç bir şey demir;

*AQP nəzəriyyəsi çərçivəsində baza (təməl) dövrü (il, rüb) məsələsi öz həllini tapmamışdır. Əslində, valyuta kursunun «artırılmış və ya endirilmiş» səviyyəsi bu dövrlə müqayisədə hesablanmalı idi. Hərçənd, aydındır ki, baza dövrü elə bir dövrdür ki, burada valyutaların dəyişmə nisbətləri özlərinin əsas kursyaradıcı faktorları ilə tarazlıqda qalmalıdırlar.

Alıcılıq qabiliyyətinin pariteti nəzəri olaraq, iki ölkədə və ya ölkələr qrupunda qiymətlərin milli səviyyələrinin nisbəti kimi mövcuddur və onu kəmiyyət etibarilə qiymətləndirmək mümkündür. Bunun üçün istehsal olunan və reallaşdırılan mal və xidmətlərin uyğun kütlələrini müqayisə olunan pul vahidlərində əskik vermək lazımdır. Lakin təcrübədə alıcılıq qabiliyyətinin pariteti valyuta kurslarının formalaşdırılmasının və müdafiəsinin həqiqi əsası ola bilməz, çünki ona xas olan qeyri stabillik və qeyri bircinslik (inflyasiya proseslərinin inkişafından, subyektiv yanaşmalardan birbaşa asılılığına görə) bu imkanı faktiki olaraq aradan qaldırır. Yaxşı məlumdur ki, bir çox hallarda məhz valyuta dəyişmələrinin nisbəti bu və ya digər ölkədəki qiymətləri alıcılıq qabiliyyətinin uyğun paritet səviyyəsinə «çatdırır».

Ona görə də təqribən Q.Kassel konsepsiası ilə eyni dövrdə yaranmış İ.Fişer nəzəriyyəsi – valyuta kursunu valyuta paritetinin manipulyasiyası vasitəsilə müəyyənləşdirməyi tövsiyə edən bu nəzəriyyə əks əlaqəyə, yəni valyuta kursu –qiymət əlaqəsinə əsaslanır. Təsadüfi deyil ki, kapitalizmin müasir valyuta sistemində mərkəzi kurs nisbətləri aşağıdakı dəyişmə kurslarıdır: ABŞ dolları – avro və ABŞ dolları – yapon ienası. Məsələ bundadır ki, bu dəyişmə kursları daha güclü üç dövlət arasında mal, xidmət və

MUHASIBAT.AZ

kapital mübadiləsinin müqayisəli üstünlüyünün və qiymət tənasüblərinin özünəməxsus «güzgüsüdür».

Təcrübədə əsas üstünlük valyuta kursunun formalaşmasının bazar üsuluna verilir. Bazar üsulu valyutaların nisbəti haqqında daha doğru təsəvvür yaradır. Dəyişmə kurslarının qiymət pariteti əsasında müəyyənləşdirilməsi yalnız dövri şəkildə baş verə bilər (daha çox ehtimal olunan hal rübdə bir dəfədir, ən yaxşı halda isə 15-20 gün gecikməklə ayda bir dəfə). Bu isə, məsələn, nəzərəçarpacaq inflyasiya şəraitində neqativ nəticələrə gətirib çıxarır. Onlardan yayınmaq üçün ticarət zənbilinə daxil olan malların qiymətlərini daima informasiya vasitəsilə müşahidə etmək lazımdır. Bu isə böyük xərclər tələb edir. Göstərilən problem mərkəzi bank tərəfindən həll oluna bilməz və mübadilə kurslarını tənzimləyən bir orqan kimi onun rolu itirilmişdir.

Kurs nisbətlərinin qiymət pariteti əsasında müəyyənləşdirilməsi zamanı çətinliklər yaranır və buna səbəb dövlətlərdə istehlakın müxtəlif strukturlarıdır. Bundan başqa, qiymət pariteti ilə müəyyənləşdirilmiş mübadilə kursu mərkəzi bank tərəfindən intervensiyalar yolu ilə gah milli, gah da xarici valyutada müdafiə olunmalıdır. Buna isə onun maliyyə vasitələri çatmaya da bilər. İstehsal və yekun istehlakın struktur müxtəlifliyi də bir neçə kursun tətbiq olunma zərurətini yarada bilər. Bu isə arzuolunmaz məsələdir.

Əgər göstərdiyimiz faktorlardan heç olmasa biri nəzərə alınmazsa, qiymət pariteti ilə müəyyənləşən kurs bazar kursundan fərqlənəcək və onun səviyyəsini süni şəkildə formalaşdıracaq. Lakin, məsələn, real gömrük sərhədlərinin olmaması valyuta kursunun formalaşma prosesində bazarın hökmünü birmənalı edir.

Bazar mübadilə kurslarının qeyd edilmə mexanizmi aşağıdakı kimi görünə bilər:

*öz aralarında razılaşmış dövlətlərin mərkəzi bankları bir birlərinə milli valyutalarda müxbir hesabları açırlar;

*ölkələr daxilindəki hesablaşmalar milli valyutada aparılır və ona görə də hər bir əməliyyat, o cümlədən xarici valyutanın alqı satqısı ilə bağlı

MUHASIBAT.AZ

əməliyyatlar da mərkəzi bankın nəzarəti ilə həyata keçir və bu da banka göstərilən kursu qeyd etmək imkanı verir;

*hər bir ölkədə mövcud olan daha az və ya daha çox dayanıqlı ticarət əlaqələrinin mövcudluğu valyuta dəyişmə bazarının seqmentliliyini yox, sabitliyini müəyyənləşdirir.

Göstərilən əməliyyatlar sırasında kontraqent ölkə valyutasının alqı-satqısı ilə bağlı bankdaxili sövdələşmələrə mərkəzi bankın nəzarəti ortadan çıxarılır. Bu məsələnin həlli aparılmış sövdələşmələr barədə mərkəzi bankın teleks və ya faks əlaqəsi ilə operativ şəkildə məlumatlandırılması yolu ilə mümkündür. Valyuta bazarında formalaşan kurs münasibətlərinin reallığını obyektiv qiymətləndirən uyğun meyarlar mövcud deyil. Buna baxmayaraq, valyuta bazarında təşəkkül tapan valyuta münasibətləri qarşılıqlı valyuta mübadiləsini təmin edən yeganə reallıqdır və dünya təsərrüfat əlaqələrində iştirak edən ölkələr onunla hesablaşmalıdırlar.

Bazar kursunun müəyyənləşməsi yalnız o şərtlə mümkündür ki, banklara və müəssisələrə öz sərəncamlarında başqa dövlətin valyutasına malik olmaq imkanı verilsin. Əgər xarici valyutaya yalnız mərkəzi bank malik olarsa, valyuta kursu bazar əsasında formalaşa bilməyəcək. Bu halda valyuta kursu iradə yolu ilə müəyyənləşəcək və buna görə də mərkəzi bank ya alıcılıq qabiliyyətinin paritet prinsipindən, ya da kross –kurs prinsipindən istifadə etmək məcburiyyətində qalacaq. Bu, qarşılıqlı hesablaşma barədə razılaşmaların şərtlərindən asılıdır. Hərçənd indiki zamanda alıcılıq qabiliyyəti üzrə kursun hesaba alınması az ehtimal olunandır. Bundan başqa, kotirovkanın israrlı zərurəti də (məsələn, Rusiya milli valyutasının ukrayna milli valyutasına) yarana bilər. Bu isə həm bazar kurslarının birbaşa müəyyənləşməsi ilə, həm də kross-kurslar vasitəsilə (üçüncü valyuta) əldə edilə bilər. Ona görə də alıcılıq qabiliyyətinin paritetinə görə və kross-kurs vasitəsilə müəyyənləşən kursların müqayisə üsullarının uyğunlaşdırılması müəyyən maraq kəsb edir. Məqsəd xarici valyutanın mümkün devalvasiyasını əvvəlcədən duymaqdır.

MUHASIBAT.AZ

Hal hazırda bu məsələyə yalnız nəzəri cəhətdən baxmaq olar. Səbəb isə odur ki, konversiya edilmə qaydası dövlətlər və ya mərkəzi banklar arasında hesablaşmaların aparılma qaydası barədə müqavilə ilə müəyyənləşəcək. Bu halda daha rahat üsul valyuta nisbətinin kross-kurs vasitəsilə – hesablaşmaların aparıla biləcəyi valyutanın kross –kursu ilə müəyyənləşdirilməsidir. Bu variant bir dövlətin banklarında başqa dövlətin şəxsləri tərəfindən milli valyuta hesablarının açılmasına yol verilən halda milli valyuta kursunun müəyyənləşdirilməsinin eyni üsulunu nəzərdə tutur.

Sistem, hər şeydən əvvəl, hesablaşmaların klirinq forması ilə aparılma qaydasının müəyyənləşməsi zamanı məqbul ola bilər. Bu isə çatışmazlıqdır. Klirinq hesablaşmalarının müəyyənləşdirilməsi zamanı milli valyutanın klirinq formasına nəzərən kursu daxili bazarda qeyd olunmuş bazar kursu əsasında müəyyənləşdirilə bilər. Bu isə əks mövqedə dayanan ölkənin – pul kredit siyasəti sahəsindəki hesablaşma iştirakçısının təsirindən qurtulmaq imkanı verər. Əslində, belə pul –kredit siyasəti kross-kurs əsasında müəyyənləşmiş kursların istifadəsindən mənfəət əldə etməyə yönəlmişdir. Məsələn, sərbəst konversiya edilən əsas valyuta kursunun azaldılma siyasətini həyata keçirərkən avtomatik olaraq, digər ölkənin milli valyuta kursunun azaldılma siyasətini aparmaq olar və bu, real vəziyyəti əks etdirməyə də bilər.

Müasir şəraitdə valyuta kursunun statistik proqnozlaşdırma üsulları daha böyük əhəmiyyət kəsb edir. Onlar parametrik və qeyri parametrik üsullara ayrılırlar. Parametrik üsulların əsasında valyuta kursunun onu formalaşdıran faktorlardan asılılıq modeli haqqında fərziyyə durur. Bu asılılıqlar həm xətti, həm də qeyri xətti modelləri təmsil edir. Parametrik üsulların mahiyyəti isə həmin asılılıqların əmsallarının müəyyənləşdirilməsindən ibarətdir. Parametrik qiymətləndirmənin müxtəlif üsullarından istifadə etmək olar: maksimal həqiqətə uyğunluq üsulu, ən kiçik kvadratlar üsulu və ya sürüşkən orta inteqrallama üsulu. Proqnozlaşdırmaya bayesov yanaşmaları da mümkündür. Bu halda tənəzzül parametrləri haqqında müəyyən aprior məlumat məlum olur.

MUHASIBAT.AZ

Proqnozlaşdırmanın qeyri parametrik üsullarından istifadə etmək məqsədəuyğundur, çünki valyuta kursuna təsir edən faktorların sayı çoxdur və bu

faktorlarla valyuta kursu arasındakı asılılıq həmişə aydın olmur. Parametrik üsullardan fərqli olaraq, bu halda asılılıq modeli haqqında heç bir mülahizə irəli sürülmür. Qeyri parametrik proqnozun nüvə qiymətləndirməsi və splaynlar kimi məşhur üsulları ilə yanaşı son zamanlar neyron şəbəkələr də məşhurlaşmışlar.

Bununla belə, valyuta kursuna qiymət faktoru da böyük təsir göstərir. Bu asılılığın aydınlaşdırılması üçün istinad nöqtəsi kimi «qiymətlərin bərabərləşdirilməsi qanunu» adlanan fundamental iqtisadi qanundan istifadə olunur. Qanunun beynəlxalq iqtisadi mübadilələrə tətbiqi aşağıdakı kimi şərh olunur: «Birinci ölkə valyutasının ikinci ölkə valyutasına nəzərən qiymətdən düşmə ölçüsü nəzərə alınmaqla, birinci ölkədə qiymətlərin dəyişmə sürətləri (qiymətlərin milli valyutada ifadə olunduğu ölkə) digər ölkədə qiymətlərin dəyişmə sürətinə bərabər olacaq (qiymətlər digər ölkənin valyuta vahidlərində ifadə olunmuşlar)». Deyilənləri aşağıdakı düstur şəklində göstərmək olar:

$$T(q) = T(xar.q) + T(i.q.d) \qquad (21.4)$$

Burada T(q) –inflyasiyanın idxalı nəticəsində ölkədə qiymətlərin dəyişmə sürəti; T(xar.q) –xarici sektorda qiymətlərin dəyişmə sürəti; T(i.q.d.) -idxalatçı ölkənin milli valyutasının qiymətdən duşmə sürətidir.

İqtisadi nəzəriyyə nöqteyi nəzərində, «qiymətlərin bərabərləşdirilmə qanunu» analoji malların konkret qiymətlərindəki fərqi aradan qaldırmağa yönəlmişdir. Əgər orta sinifdən olan kompütur ABŞ-da 500 min dollaradırsa, 2 dollara1 funt sterlinq kimi qeyd olunmuş valyuta kursunda analoji malın Böyük Britaniyadakı qiyməti 250 min funt sterlinq olmalıdır. Fərz edək ki, ABŞ kompüteri 5% ücüzlaşdı və onun bazar qiyməti 475 min dollara düşdü. Funtun dollara nəzərən dəyişməz valyuta kursunda kompüterin Böyük

MUHASIBAT.AZ

Britaniyadakı qiyməti 237,5 min funt sterlinqə düşəcək. Əgər funt sterlinqin dollara nəzərən 50% qiymətdən düşməsini fərz etsək (1f.st. = 1,9 dollar), kompüterin qiyməti dəyişməz qalacaq. Beləliklə, Böyük Britaniyadakı kompüterlərin qiymət dinamikası Amerika bazarının qiymətləri ilə və valyuta paritetlərinin dəyişmələrinə uyğun olan təshihlərlə müəyyənləşəcək.

Məlumdur ki, milli iqtisadiyyatda qiymətlərin dəyişməsini dövriyyədəki pul təklifinin (M) artım sürəti ilə ümumi istehsalın (P) artım sürəti arasındakı fərq kimi göstərmək olar. Onda (21.4) düsturunun sol tərəfi M - R şəklini alacaq. Düsturun sağ tərəfindəki T(xar.q) əvəzinə M(xar.q) –P(xar.q) qoymaq olar. Bu fərq qiymətlərin xarici sektorda dəyişmə sürətini əks etdirəcək. Onda (21.4) düsturu aşağıdakı şəkildə olacaq:

$$M - P = M(xar.q) - P(xar.q) + T(i.q.d.); \qquad (21.5)$$

$$T(i.q.d.) = (M - M(xar.q)) - (P - P(xar.q)). \qquad (21.6)$$

21.6 düsturundan göründüyü kimi, valyuta kursunun dəyişməsi milli iqtisadiyyatda və xaricdə pul təklifinin dəyişmə sürətinin fərqi ilə, həmçinin istehsalın dəyişmə sürətindəki fərqlə müəyyənləşir. Buradan aşağıdakı nəticələrə gəlmək olar:

*milli iqtisadiyyatda pul kütləsinin artım sürəti nə qədər yüksəkdirsə, yerli valyuta bir o qədər sürətlə qiymətdən düşür;

*xaricdəki pul kütləsinin inkişaf sürəti nə qədər yüksəkdirsə, xarici valyutaya nəzərən milli valyutanın kursu bir o qədər sürətlə qalxır;

*ölkə daxilində istehsalın artım sürəti nə qədər yüksəkdirsə, milli valyuta bir o qədər dayanıqlıdır;

*xaricdə istehsalın artım sürəti nə qədər yüksəkdirsə, milli valyuta bir o qədər zəifdir.

MUHASIBAT.AZ

Lakin xarici iqtisadi sferada malların qiyməti valyuta kursundan asılıdır. Ona görə də valyutaların istənilən enib-qalxmaları daxili qiymətlərin dəyişməsində əks olunur. Xarici bazara nəzərən milli iqtisadiyyatın «açıqlığı» nə qədər böyükdürsə, bu təsir bir o qədər güclüdür. Ona görə də qərbin iqtisadi ədəbiyyatında müəyyən nöqteyi nəzər geniş yayılmışdır. Bu nöqteyi nəzərə görə, milli valyutanın qiymətdən düşməsi daxili qiymətlərin artım səbəbidir. Bu o deməkdir ki, dolların aşağı düşməsi ABŞ-da inflyasiyanın güclənməsinə və valyutaları bahalaşan digər ölkələrdə inflyasiyanın düşməsinə gətirib çıxarır. Nəticədə digər ölkələrlə müqayisədə ABŞ-da inflyasiya proseslərinin kəskin güclənməsi baş verir. Həmin ölkələr isə öz valyuta ehtiyatlarında dolların xüsusi çəkisini azaltmağa çalışırlar.

Bu fenomeni izah etmək üçün valyuta kursunun dinamikası ilə qiymət artımı arasındakı səbəb –nəticə əlaqələrini düzgün qiymətləndirmək lazımdır. Qiymət artımının sürət tezliyinin əsas (baza) səbəblərindən asılı olmayaraq, inflyasiyanın zəruri şərti pul təklfinin artmasıdır. Dövriyyədəki pul kütləsinin artım sürəti nə qədər yüksəkdirsə, qiymətlər daha sürətlə artmağa başlayacaq (istehsalın dəyişməz səviyyəsində). Aydındır ki, valyuta kursu milli valyutanın xarici valyuta ilə ifadə olunmuş «qiymətidir» və həm də milli iqtisadiyyatda və xaricdə olan pul kütləsinin artım sürətinin nisbətindən asılıdır. Beləliklə, milli valyuta inflyasiyasının və devalvasiyasının əsas bazis səbəbləri bir müstəvidə yerləşir.

Əgər ölkə valyuta kursunu nisbətən stabil səviyyədə saxlamaq istəyirsə, milli iqtisadiyyatdakı pul kütləsinin artımı xaricdəki pul həcminin dəyişməsinə uyğun gəlməlidir. Bu isə daxili və xarici bazarlarda pul tələbinin fərqini kompensasiya edə bilərdi. Valyuta kursunun nisbi sabitliyini bu yolla saxlayan ölkə inflyasiyanı idxal etmək məcburiyyətindədir. Əgər hökumətin məqsədi qiymətlərin nisbətən dayanıqlı səviyyəsini saxlamaqdırsa, mərkəzi bank pul emissiyasının iqtisadi artıma uyğun gələn artım dinamikasını saxlamalıdır. Bu, əlbəttə, valyuta kursunun stabilliyinə kömək etməyəcək, çünki valyuta kursu ölkə daxilində və xaricdə pul kütləsinin artım sürətinin nisbəti ilə

MUHASIBAT.AZ

müəyyənləşir. Əgər dünya bazarında qiymətlər qalxır, milli təsərrüfatda isə qiymətlər stabil qalırsa, yerli valyutanın kursu yüksələcək. Əksinə, xarici bazarlarda qiymətlər düşürsə, ölkə daxilində isə qiymətlər nisbi tarazlıq vəziyyətində qalırsa, milli valyuta devalvasiyaya uğrayır.

Yuxarıda deyilənlərdən aydındır ki, makrosəviyyədə eyni zamanda həm valyuta kursunun stabilliyini, həm də daxili qiymətlərin aşağı artım sürətini saxlamaq mümkün deyil. Üstünlük ya qiymətlərin nisbi stabilliyinə (valyuta kursunun daima dəyişərək ölkə daxilində və xaricdə olan müxtəlif inflyasiyaları əks etdirməsi şərtilə), ya da valyuta kursunun dayanıqlığına verilə bilər. Axırıncı halda idxal olunan inflyasiya bütünlükdə daxili qiymətlərə keçəcək və inflyasiya proseslərinin dərinləşməsini stimullaşdıracaq.

İnflyasiya prosesləri ilə valyuta kursunun dinamikası arasındakı səbəb – nəticə əlaqələrini izah edən təsvir olunmuş ideal model real iqtisadiyyatda daha çətin yolla reallaşır. Daxili qiymətlər dövriyyədəki pul kütləsi həcminin dəyişməsinə kifayət qədər həssas reaksiya göstərirlər. Valyuta kursu tərəfindən pul təklifinin artım sürətinin dəyşməsinə göstərilən reaksiya üçünsə çox uzun zaman lazımdır. Daxili qiymətlərin dəyişməsi müəyyən müddətdən sonra ixrac və idxal axınlarının nisbətində müəyyən irəliləyişlərə səbəb olur. Bu irəliləyişlər də, öz növbəsində, ölkənin ödəniş balansının öhdəlikləri ilə aktivləri arasında nisbət dəyişmələrinə gətrib çıxarır. Ödəniş balansının aktiv və ya passivinin artması (ekzoqen faktorların kompleksi ilə yanaşı) milli valyutaya olan tələbin qalxmasına və ya düşməsinə gətirib çıxarır. Bu isə nəticədə milli valyutanı revalvasiya və ya devalvasiya edir.

Valyuta kursu ilə ixrac –idxal qiymətlərinin dinamikası arasındakı əks əlaqə mexanizmi də analojidir. Valyuta kursunun aşağı düşməsi o deməkdir ki, digər bərabər şərtlər daxilində milli valyutanın dünya bazarlarındakı dəyişməz miqdarı müqabilində xarici valyutanın az miqdarını əldə etmək olar. İxrac malları idxalatçı ölkələrin daxili bazarlarında satılan zaman onların xarici valyutadakı qiyməti devalvasiyaya qədərki qiymətə nisbətən aşağı olacaq. Beləliklə, ixrac mallarının xarici bazarlardakı qiymət rəqabətədavamlılığı

MUHASIBAT.AZ

yüksəlir və nəticədə ödəniş balansının kəsiri azalır. Əgər malın qiymət rəqabətədavamlılığı əhəmiyyətli dərəcə qalxmışdırsa, həmin malın istehsalçıları ixrac qiymətlərini qaldırmağı özlərinə rəva görə bilərlər.

Çevik valyuta kursları sistemində tərəfdaş ölkələrin ödəniş balanslarının bərabərləşdirilmə prosesi valyuta bazarlarının köməyi ilə baş verir. Mərkəzi banklar valyuta intervensiyalarını həyata keçirmək zərurətindən əsasən azad olur və bununla da daha sərbəst pul siyasətinin reallaşdırılması üçün daha çox imkan qazanırlar. Digər səbəblərlə yanaşı, bu həm də onunla əlaqədardır ki, valyuta kursları daxili və xarici bazarlardakı qiymət müxtəlifliyi ilə uyğunlaşdığı halda dəyişmə kurslarının enib-qalxmaları xarici ticarət əlaqələrinə ziyan gətirmir. Bununla belə, hətta çevik valyuta kurslarının tətbiqindən sonra da onlar uzun müddət ərzində valyutaların alıcılıq qabiliyyətinin paritetlərindən kənara çıxa bilirlər. Bu isə effektiv milli pul siyasətinin aparılmasına neqativ təzahürlər daxil edir. Valyuta kurslarının alıcılıq qabiliyyəti paritetlərindən böyük kənara çıxmalarının səbəbi onların bərabərləşdirilməsinə qarşı ticarət balanslarının zəif reaksiyasıdır. Məsələ ondadır ki, xarici ticarət əlaqələrində valyuta kurslarının dəyişmələrindən yaranan real effekt gecikmiş halda büruzə olunur. Bunun isə səbəbi qiymətyaradıcı mexanizmin, müqavilə öhdəliklərinin və digcər faktorların çevik olmamasıdır.

Dünya bazarında dövr edən müxtəlif malların qiyməti valyutaların müxtəlif səviyyəli kurs dəyişmələrinin təsirinə məruz qalır. Maşınqayırma məhsullarının, emaledici sənaye sahələrinin, kimyəvi malların qiymətləri valyuta kurslarının dəyişmələrinə qarşı daha həssasdırlar. Neft və digər enerjidaşıyıcıları qısamüddətli planda daha aşağı qiymət elastikliyinə malikdirlər. Şübhəsiz, valyuta kurslarının ixrac və idxal qiymətlərinə dinamik təsiri uzunmüddətli xarakter daşıya bilməz. İxrac və idxal qiymətlərinin hərəkəti daha çox daxili bazarların qiymət səviyyəsindən asılıdır və hər şeydən əvvəl istehsal xarakterli səbəblərlə müəyyənləşir. Milli iqtisadiyyatda tənasübsüzlüyün səviyyəsi nə qədər yüksəkdirsə, dövriyyədəki mal və pul

MUHASIBAT.AZ

kütlələrinin həcmləri arasındakı fərqlər bir o qədər çoxdur, daxili və xarici ticarət qiymətləri bir o qədər sürətlə artır.

21.3.VALYUTA TƏNZİMLƏNMƏSİ VƏ ONUN ALƏTLƏRİ

Hər bir dövlətin valyuta tənzimlənməsi, hər şeydən əvvəl, valyuta kurslarının hansı sisteminin –möhkəm kurslar, yoxsa üzən kurslar sisteminin istifadə olunmasından asılıdır. Ona görə də milli valyutanın valyuta (dəyişmə) kursu valyuta kurslarının mexanizminə istinad edən iqtisadi islahatlar prosesində əsas məqamlardan biridir.

Möhkəm kurs sistemi qeyd olunmuş sərt paritetlərə və valyutanın tam dövriliyinə əsaslanan sistemi ifadə edir. Söhbət elə valyuta sistemindən gedir ki, bu sistemdə valyutaların nisbi qiymətləri müəyyənləşsə də, qiymətlərin mütləq səviyyəsi qeyd olunmamışdır. Belə sistemdə «n» -ci valyuta problemi yaranır. Məsələ bundadır ki, kurs iki valyutanın nisbi qiymətidir, «n» sayda valyutası olan sistemdə isə «n-1» sayda valyuta kursu ola bilər. Bu o deməkdir ki, «n» sayda valyatalardan birinin ölkəsi öz valyutasının müəyyən kursunu müəyyənləşdirməyə cəhd g.stərməyə də bilər və yalnız qiymətlərin bu və ya başqa səviyyəsini saxlamaqla kifayətlənər.

Bretton - Vuds sistemində qiymətlərin səviyyə etalonu qismində əsas valyuta rolunu ABŞ dolları oynayırdı. ABŞ dolları sistemin iqtisadi baxımdan daha güclü iştirakçısının pul vahidi idi. ABŞ bütün sistem çərçivəsində inflyasiyanın səviyyəsini müəyyənləşdirmək «imtiyazına» malik idi. Əgər sistemin bütün iştirakçıları eyni gücə malikdirlərsə, «n»-ci valyuta problemini həll etmək çətin məsələdir. Mümkün həll variantı aşağıdakı şəkildə ola bilərdi: sistemdəki ölkələrdən biri öz valyutasının lider rolu oynamasına icazə verər və həmin ölkənin pul siyasətinə nəzarət edilərdi. Lakin elə bir ölkə tapılmaz ki, valyuta kartelinin digər iştirakçıları tərəfindən özünün qiymət səviyyəsinin müəyyənləşdirilməsinə icazə versin, çünki bu, dövlətin ödəniş balansının

MUHASIBAT.AZ

vəziyyətinə təsir göstərir. Məhz buna görə də möhkəm valyuta kursları daxili iqtisadi və xarici iqtisadi məqsədlər arasındakı daimi münaqişələrlə xarakterizə olunurlar.

Çevik valyuta kursları sistemində ödəniş balanslarının bərabərləşdirilməsi deviz bazarlarının köməyi ilə baş verir. Ona görə də mərkəzi banklar valyuta bazarlarına müdaxilə etmək vəzifəsindən azad olur və avtonom pul siyasəti yeritmək imkanı qazanırlar. Əgər valyuta kursları daxili və xarici bazarlardakı qiymət müxtəlifliyinə uyğunlaşırlarsa, onda valyuta kurslarının enib –qalxmaları xarici ticarət münasibətlərinə ziyan gətirmir. Lakin təcrübə göstərir ki, üzən valyuta kurslarının tətbiqindən sonra da valyuta kursları uzun müddət ərzində alıcılıq qabiliyyətinin paritetindən kənara çıxa bilirlər. Bu isə milli pul siyasətini pozur.

Üzən valyuta kursları Avropa iqtisadi birliyi dövlətlərinin xarici ticarət müəssisələrinin qiymətyaratma və kredit əməliyyatları mexanizminə çox neqativ təsir göstərirdi. AFR və Fransa hökumətlərinin təşəbbüsü ilə 1979-cu il martın 13-də Avropa valyuta sistemi yaradılmışdır. Bu tarixdən başlayaraq, AFR markası, italyan lirası, fransız frankı, holland quldeni, Belçika frankı, Daniya kronu və irland funtu üçün möhkəm valyuta kursları müəyyənləşdirilmişdir. Eyni zamanda bütün valyutalar üçün +-2,5% dəyişmə hüdudları müəyyənləşdirilmişdir. İstisna təşkil edən italiya valyutası idi. İtaliya valyutası üçün bu çərçivələr +-6% -qədər genişləndirilmişdir. Əgər ayrı - ayrı valyuta kurslarının müəyyən olunmuş çərçivələrdən çıxma təhlükəsi yaranırdısa, AİB-ə üzv ölkələrin mərkəzi bankları həmin pul vahidi ilə valyuta intervensiyaları keçirirdilər. Mərkəzi bank həm öz valyutalarını, həm də xarici valyutaları o vaxta qədər alıb satmalı idi ki, özünün milli valyuta kursu müəyyən edilmiş hüdudlarda stabilləşsin. AİB-ə üzv ölkənin müvəqqəti çətinliklərinin aradan qaldırılması məqsədilə valyuta –siyasi əməkdaşlıq üçün Avropa fondu (VƏAF) yaradılmışdır. Mərkəzi banklar bu fonda öz qızıl və dollar ehtiyatlarının 20%-ni daxil etmişlər. Bu vəsaitlər əmanətçi ölkələrin mülkiyyətində qalır, fond isə müxtəlif növ kreditlər verə bilir. Avropa valyuta

MUHASIBAT.AZ

sisteminin hərəkət mexanizminin təmin olunması üçün valyuta vahidi (ekyü) yaradılmışdır. Bu valyuta vahidi valyuta zənbilinə əsaslanırdı.

Üzən valyuta kursundan istifadə təcrübəsi göstərir ki, o, ödəniş balansının uzunmüddətli tarazlığına gətirib çıxarmır, valyuta bazarlarının qeyri stabilliyini gücləndirir və inflyasiyanın əsas faktoru olur. Ona görə də bir çox dövlətlər tənzimlənən və möhkəm (sərt) valyuta kurslarından istifadə edir, həm də üzən kursun «sərt» tənzimlənməsini tətbiq edirlər.

Bu halda ondan çıxış edirlər ki, valyuta kurslarının nisbi möhkəmliyi daxili və xarici iqtisadi tarazlığa yaxşı təsir göstərir. Möhkəm dəyişmə kursu (digər bərabər şərtlər daxilində) mübadilə şərtlərinin yaxşılaşmasına kömək edir, çünki idxal qiymətini «yatırtmağa» və inflyasiya ilə mübarizəni gücləndirməyə imkan verir. Bir çox mütəxəssislər valyuta kurslarının alıcılıq qabiliyyəti paritetindən güclü kənara çıxma səbəbləri kim aşağıdakıları göstərirlər:

*mal qiymətlərinin qeyri çevikliyinə görə ticarət balanslarının yavaş reaksiyası;

*müqavilə öhdəliklərinin olması və digər səbəblər.

Təsadüfi deyil ki, adətən nəzəri diskusiyalarda istifadə olunan sərbəst üzən valyuta kursları modelinin məhdudluğunu məhz dollar kursunun dəyişmələri daha əyani şəkildə göstərir. Xarici təcrübə möhkəm və ya üzən valyuta kursundan istifadənin effektivliyini təsdiq edir. Belə ki, AVS sayəsində valyuta kursları və qiymətlərin nisbətən yüksək dayanıqlığı ilə xarakterizə olunan zona yaranmışdır. AVS-in mövcud olduğu müddətdə iştirakçı ölkələrin valyuta kurslarının dəyişkənliyi bir birlərinə nəzərən nəzərəçarpacaq dərəcədə azalmışdır. Bundan fərqli olaraq, digər mühüm «üzən» valyutaların –dolların və funt sterlinqin kurs dəyişmələri çox güclü idi. AVS-in əsasında yerləşən möhkəm, lakin dövrü olaraq uyğunlaşan (dövri olaraq dəyişən) valyuta kurslarının konsepsiyası özünü doğrultdu və bu konsepsiya gələcəkdə də qalacaq, çünki büsbütün möhkəm (qeyd olunmuş) kurs sisteminin formalaşdırılması üçün ilkin şərait yoxdur.

MUHASIBAT.AZ

Sovei İttifaqı şəraitində valyuta rejimi mövcud idi. Bu rejimin spesifik xüsusiyyətləri aşağıdakılardan ibarət idi:

*sovet rublunun xarici ölkə valyutalarına nəzərən dəyişmə kursu möhkəm qeyd olunmuş idi;

*planlı konversiya edilmə fəaliyyət göstərirdi. Bu isə o demək idi ki, bütün müəssisələr müəyyənləşdirilmiş sərt plan çərçivəsində sovet rublunu xarici valyutaya dəyişə bilərdilər;

*rubl o mənada qapalı valyuta idi ki, kontrakt müqavilələrdə qiymətlər sovet rublu ilə ifadə olunmurdu;

*sovet rublları və valyuta qiymətliləri sovet və xarici vətəndaşlar tərəfindən, həmçinin hüquqi şəxslər tərəfindən iri ölçülərdə ölkədən çıxarıla bilməzdi;

*xaricilərə SSRİ-də müəssisələr, torpaq mülkiyyəti və başqa daşınmaz əmlak əldə etmək qadağan olunurdu;

*dünya sosialist bazarında Sovet İttifaqının xarici iqtisadi əlaqələrinin əsasını keçici rubl təşkil edirdi. Keçici rubl sənaye cəhətdən inkişaf etmiş ölkələrin milli valyutasından fərqli olaraq SSRİ-nin xarici ticarət dövriyyəsinin xidməti üzrə əsas yükü daşıyırdı.

Eyni zamanda, möhkəm kurslar sistemi (AVS-də olduğu kimi, kurs dəyişmələrinin dar hüdudlarında) müxtəlif dövlət iqtisadiyyatlarının iki konverqensiya (yaxınlaşma) effektini yaradır. Birincisi ondan ibarətdir ki, möhkəm kurslar qiymətlərin və konyunkturanın sıx beynəlxalq əlaqəsini yaradır, nəticədə inflyasiya sürətlərinin yaxınlaşması və konyunkturanın sinxronlaşması baş verir. Bu halda ödəniş balanslarının bərabərləşdirilmə mexanizmi pul kütləsinin mal vahidinə nəzərən dəyişmə sürətlərinin yaxınlaşmasına gətirib çıxarır. Bunun sayəsində isə inflyasiya sürətlərinin gələcək dəyişiklikləri baş verir. Bu effekti iqtisadi konverqensiya effekti adlandırmaq olar. Lakin o, əsasən pul miqdarı ilə məhdudlaşdığına görə real təsərrüfat həcmlərinin (ND, SOP və s.) konverqensiyasını törətmək iqtidarında deyil. Möhkəm valyuta kurslarının törətdiyi konverqensiyanın

MUHASIBAT.AZ

ikinci dolayı effekti iqtisadi siyasətin konverqensiyasından ibarətdir. Məsələ bundadır ki, bu sistem daxilində valyuta kurslarının uzunmüddətli müdafiə olunma zərurəti mövcuddur.

Valyuta kurslarının stabilləşməsi müxtəlif ölkələrdə qiymətlərin böyük konverqensiyasına gətirib çıxarır. Ona görə də, nəticə çıxarmaq olar ki, AVS valyuta kurslarının xeyli stabilləşməsinə səbəb oldu, reqionda qiymət dinamikasının konverqensiyasını zənginləşdirdi, hərçənd bunu statistik olaraq sübut etmək mümkün deyil. Buna baxmayaraq, 1973-cü ildə sənaye cəhətdən inkişaf etmiş ölkələrdə üzən kurslar mexanizminin tətbiqi taraz valyuta kurslarının müəyyənləşdirilmə funksiyalarının bazara ötürülməsi demək idi. Lakin bunun nəticəsi olaraq, valyuta kurslarının enib-qalxma artımı beynəlxalq ticarətin stabilliyini pozdu, ticarət və ödəniş balanslarının qeyri tarazlığına gətirib çıxardı. Bütün bunlar mərkəzi banklar tərəfindən aktiv və çevik valyuta siyasətinin yeridilməsini tələb edir. Başqa sözlə, valyuta kurslarının tənzimlənməsi böyük əhəmiyyət kəsb edir.

Valyuta kursunun bazar və dövlət tənzimlənməsi mövcuddur. Rəqabətə və dəyər qanunlarının fəaliyyətinə, həmçinin tələb və təklifə əsaslanan bazar tənzimlənməsi nisbətən kortəbii şəkildə həyata keçir. Dövlət tənzimlənməsi valyuta münasibətlərində bazar tənzimlənməsinin neqativ nəticələrinin aradan qaldırılmasına, dayanıqlı iqtisadi artımın əldə olunmasına, ödəniş balansının tarazlığına, işsizlik və inflyasiya artımının azalmasına yönəlmişdir. Dövlət tənzimlənməsi valyuta siyasətinin köməyi ilə həyata keçir. Valyuta siyasəti – beynəlxalq valyuta münasibətləri sferasında ölkənin cari və strateji məqsədlərinə uyğun şəkildə reallaşdırılan tədbirlər kompleksidir. Valyuta siyasəti hüquqi cəhətdən valyuta qanunvericiliyi ilə və dövlətlər arasındakı valyuta razılaşmaları ilə rəsmiləşdirilir. Valyuta kursunun ölçüsünə dövlətin təsir tədbirləri sırasında valyuta intervensiyaları, diskont siyasət, proteksionist tədbirlər var.

Dövlətlərin valyuta siyasətlərinin mühüm aləti valyuta intervensiyalarıdır. Valyuta intervensiyaları valyuta bazarlarında aparıcı xarici

MUHASIBAT.AZ

valyutalara qarşı milli pul vahidinin alqı satqısı üzrə mərkəzi banklar tərəfindən aparılan əməliyyatlardır. Valyuta intervensiyalarının məqsədi – uyğun valyuta kursu səviyyəsinin, müxtəlif valyutalar üzrə aktiv və passiv balanslarının və ya valyuta bazarı iştirakçılarının ümidlərinin, gözləmələrinin dəyişilməsidir. Valyuta intervensiyaları mexanizminin fəaliyyəti ticarət intervensiyalarının yerinə yetirilməsinə analojidir. Mərkəzi bank milli valyutanın kursunu artırmaq üçün milli valyutanı alıb, xarici valyutanı satmalıdır. Bununla da xarici valyutaya olan tələbat azalır və deməli, milli valyutanın kursu artır. Milli bank milli valyutanın kursunu azaltmaq üçün xarici valyutanı alaraq milli valyutanı satır. Bu isə xarici valyuta kursunun yüksəlməsinə, milli valyuta kursunun aşağı düşməsinə səbəb olur.

İntervensiyalar üçün, bir qayda olaraq, rəsmi valyuta ehtiyatlarından istifadə olunur. Onların səviyyəsinin dəyişilməsi valyuta kurslarının formalaşma proseslərinə dövlət müdaxiləsinin göstəricisi ola bilər. Rəsmi intervensiyalar müxtəlif üsullarla – birjada (açıq şəkildə) və ya banklararası bazarda (məxfi), brokerlər vasitəsilə və ya bilavasitə banklarla əməliyyatlar vasitəsilə, müddətli və ya təcili icra ilə keçirilə bilir. Bundan başqa, rəsmi valyuta intervensiyaları «sterilləşdirilmiş» və «sterilləşdirilməmiş» olurlar. «Sterilləşdirilmiş» intervensiyaların gedişində rəsmi xarici netto –aktivlərin dəyişmələri daxili aktivlərin uyğun dəyişiklikləri ilə kompensasiya olunur, yəni rəsmi «pul bazasının» ölçüsünə heç bir təsir mövcud olmur. Əgər intervensiyaların gedişində rəsmi valyuta ehtiyatlarının dəyişiklikləri pul bazasının dəyişməsinə səbəb olursa, intervensiya «sterilləşdirilməmiş» olur.

Uzunmüddətli perspektivdə milli valyuta kursunun dəyişmələri üzrə valyuta intervensiyalarının arzuedilən nəticələrə gətirib çıxarması üçün müəyyən şərtlərin olması zəruridir. Bunlar mərkəzi bankda valyuta intervensiyalarının keçirilməsi üçün kifayət qədər ehtiyatların olması, mərkəzi bankın uzunmüddətli siyasətinə bazar iştirakçılarının inamı, iqtisadi inkişaf sürəti, inflyasiya sürəti, pul kütləsinin dəyişmə sürəti (artması və ya azalması) kimi fundamental iqtisadi göstəricilərin dəyişməsidir.

MUHASIBAT.AZ

Deviz bazarında «idarə olunan üzmə» adlanan çərçivədə mərkəzi bankın valyuta intervensiyaları ilə əlaqədar olaraq belə sual yaranır. Mərkəzi bankın pul miqdarını dəyişməyən intervensiyalar yolu ilə və ya sterilləşdirilmiş intervensiyalar yolu ilə valyuta kursuna təsir göstərmək mümkündürmü? Nəzəri baxımdan bu suala qəti cavab vermək olmaz. Lakin tədqiqatların nəticələri göstərir ki, sterilləşdirilmiş intervensiyaların köməyi ilə valyuta kurslarına təsir göstərmək mümkün deyil. Bu isə o deməkdir ki, valyuta –kurs siyasətini həyata keçirmək üçün dövlətin sərəncamında yalnız pul və fiskal siyasətin «klassik» alətləri var.

Valyuta intervensiyalarının həyata keçirilməsi ilə bağlı təhlükə ondan ibarətdir ki, valyuta kurslarının uzunmüddətli hərəkətinin əsas səbəbləri gözdən qaça bilər. Bu onunla bağlıdır ki, ayrı - ayrı sahələrə onların müdafiəsi məqsədilə göstərilən idxal məhdudiyyətləri və maliyyə köməyi müdafiə olunmayan sahələr, o cümlədən beynəlxalq mübadiləyə inteqrallaşmış mal və xidmətlər üçün valyuta risklərini gücləndirir. Bu sahələr pul siyasəti tədbirləri və əmək haqqının ləngidilməsi yolu ilə öz müdafiələrini tələb edəcəklər.

Lakin pul siyasəti və əmək haqqı sahəsindəki siyasət bu məqsəd üçün yararlı deyil. Yalnız proteksionist tədbirlərin demontajı kursun yüksəldilməsi istiqamətində milli valyutaya təzyiqin azaldılmasına kömək edə bilər.

Diskont və ya uçot siyasəti – mərkəzi bank tərəfindən uçot stavkasının dəyişdirilməsi, o cümlədən daxili bazarda kredit dəyərinə və bununla da kapitalın beynəlxalq hərəkətinə təsir etmək yolu ilə valyuta kursunun tənzimlənməsidir.

Uçot siyasəti -valyuta kursunun ənənəvi tənzimlənmə üsuludur. Lakin müasir şəraitdə valyuta kursuna bu təsir üsulunun effektivliyi əhəmiyyətli dərəcədə azalmışdır. Bu, təsərrüfat əlaqələrinin beynəlmiləlləşdirilməsi, kapitalların hərəkətinin və kreditin dövlət tərəfindən tənzimlənməsi, kreditin bahalaşmasının milli iqtisadiyyatın inkişafına mənfi təsiri ilə əlaqədardır. Ona görə də müasir şəraitdə dövlətin valyuta kursuna əsas təsir aləti valyuta intervensiyasıdır. Valyuta intervensiyası valyuta bazarının fəaliyyətinə mərkəzi

MUHASIBAT.AZ

bankın birbaşa müdaxiləsidir. Onun məqsədi xarici valyutanın alqı satqı yolu ilə milli valyuta kursuna təsir göstərməkdir.

Proteksionist tədbirlər – xüsusi iqtisadiyyatın, indiki halda milli valyutanın müdfiəsinə yönəlmiş tədbirlərdir. Bu tədbirlərə, birinci növbələ, valyuta məhdudiyyətləri aid edilir. Valyuta məhdudiyyətləri rezidentlərin və qeyri rezidentlərin valyuta ilə və digər valyuta qiymətliləri ilə apardığı əməliyyatların qanunverici və ya inzibati qadağası və ya nizamlanmasıdır. Valyuta məhdudiyyətlərinin növləri valyuta blokadası, xarici valyutanın sərbəst alqı satqısına qadağa, beynəlxalq ödənişlərin və kapital hərəkətinin tənzimlənməsi, gəlirin, qızılın hərəkətinin və qiymətli kağızların repatriasiyası, xarici valyutanın və digər valyuta qiymətlilərinin dövlətin əlində mərkəzləşməsidir. Dövlət ölkənin xarici ticarət şərtlərinin dəyişdrilməsi məqsədilə tez - tez valyuta kursu ilə manipulyasiyalar edir və valyuta tənzimlənməsinin ikiqat valyuta bazarı, devalvasiya və revalvasiya kimi üsullarından istifadə edir.

İnkişaf etməkdə olan ölkələr ödəniş balanslarının xroniki passivliyi səbəbindən qısamüddətli kapitallar üçün cəlbedici deyillər və müxtəlif növ valyuta məhdudiyyətlərinə əl atmaq məcburiyyətindədirlər (milli valyuta dövriyyəsinin dövlətin əlində mərkəzləşməsi, çox sayda valyuta kurslarının tətbiq edilməsi, xüsusi icazə olmadan valyuta qiymətlilərinin daxil edilməsinə və çıxardılmasına qadağa, xarici valyuta vəsaitlərinin əldə edilməsi və xaricə keçirilməsi üzrə fiziki şəxslərin hüquqlarının məhdudlaşdırılması, xaricə səyahət zamanı milli valyutanın xarici valyutaya dəyişdirilməsində limitləşmə, valyuta klirinqləri və s.).

Valyuta məhdudiyyətləri olan ölkələrdə xarici banknot tələbinin formalaşdığı əsas məqam həmin banknotlara inflyasiya nəticəsində qiymətdən düşmüş yerli pulları yatırtmaq cəhdidir. Bu halda valyuta sövdələşmələrinin əsas hissəsi banklar tərəfindən və bankların valyuta bazarlarında tələb və təklifin təsiri ilə müəyyənləşdirdyi kursla həyata keçirilir.

MUHASIBAT.AZ

Valyutanın tənzimlənmə tədbirlərinin keçirilməsi zamanı aşağıdakılar da nəzərə alınır:

*ticarət balansının vəziyyəti. Ticarət balansının kəsiri idxalın ödənilməsi üçün dövləti xarici valyuta almaq məcburiyyətində qoyur və valyuta kursunun aşağı düşməsinə gətirib çıxarır. Müsbət saldo isə, əksinə, milli valyuta kursunun qalxmasına səbəb olur;

*kapital hərəkətinin saldosu. Bu onunla əlaqədardır ki, xarici kapitalların ölkəyə axını onun valyuta kursunu qaldırır. Lakin faiz ödənişlərinin əks axını ilə əlaqədar olaraq, bu faktor perspektivdə əks tendensiyaya gətirib çıxara bilər;

*inflyasiya səviyyəsi və inflyasiya gözləmələri. Ölkədə inflyasiya səviyyəsinin digər ölkələrə nəzərən qalxması onun valyuta kursunu aşağı salır və əksinə.

Ticarət balansı ödəniş balansında əsas yer tutur. Ona görə də ödəniş balansının cari əməliyyatları əks etdirən maddələri milli pul vahidinin valyuta kursuna daha çox təsir edirlər. Cari ödəniş balansının kəsiri dünya bazarında yerli mal və xidmətlərin aşağı rəqabətədavamlılığını və həmin ölkənin vətəndaşları üçün xarici malların daha cəlbedici olduğunu göstərir. Bu isə dövlətin xarici borcunun artımına və milli pul vahidinin dəyişmə kursunun azalma tendensiyasına gətirib çıxarır. Lakin burada əsas rol ixrac və idxal mallarının qiymətlərinin elastikliyinə məxsusdur. Bu isə o deməkdir ki, idxal mallarına tələb qeyri elastiki olarsa, milli valyutanın dəyişmə kursunun düşməsi ölkənin ticarət balansını kəskinləşdirə bilər. Ticarət balansının saldosu ilə milli pul vahidinin valyuta kursunun enməsi və ya qalxması arasındakı asılılıq şəkil 21.1. –də göstərilmişdir.

MUHASIBAT.AZ

Şəkil 21.1. Ticarət balansı saldosunun (T) və valyuta kursunun (S) qarşılıqlı asılılığı.

Əgər idxal olunan mallara tələb ixrac mallarının təklifindən daha sürətlə artarsa, milli valyutanın qiymətdən düşməsi məyyən dövr üçün ticarət balansının kəskinləşməsinə səbəb olacaq (a əyrisi). Ticarət balansının saldosunun dəyişməsi göstərir ki, milli pul vahidinin valyuta kursunun enməsi 0 nöqtəsində baş vermişdir. Lakin istehlakçılar idxal mallarını almaqda davam edir, milli mal istehsalçıları isə ixracı hələ artırmırlar. Bu səbəbdən də ticarət balansı pisləşir. Milli pul vahidinin valyuta kursunun artması və idxal mallarına qeyri elastiki tələbin saxlandığı (b əyrisi) zaman idxal xərclərinin azalması baş verəcək. Əgər bu halda idxal kimi ixrac da sürətlə azalmasa, ölkənin ticarət balansı yaxşılaşacaq. Lakin ixrac və idxalın qeyri elastikliyi zaman da valyuta bazarı stabil qala bilər, çünki milli pul vahidinin tələb və təklifini formalaşdıran bir çox başqa faktorlar mövcuddur.

Ölkənin ticarət balansının aktiv saldosu o deməkdir ki, xarici borclular tərəfindən milli valyutaya olan tələbat artır və deməli, milli valyutanın dəyişmə kursu da artır. Belə vəziyyət ilk baxışdan xarici valyutanın ölkəyə fasiləsiz axınını və onun vasitəsilə xaricdən gələn malların alınmasını göstərir. Lakin təcrübədə aktiv saldo heç də həmişə ölkənin sözsüz rifahı demək deyil. Məsələn, A ölkəsində valyuta kursunun artımı nəticəsində ölkə malları idxalatçılar üçün baha olur. Həmin malların rəqabətədavamlılığı digər ölkələrin analoji malları ilə müqayisədə aşağı düşür. A ölkəsinin ticarət partnyorları bu ölkənin valyutasını qazanmaqda çətinlik çəkir və ona görə də həmin ölkədən malların idxalını məhdudlaşdırmağa çalışırlar. Əgər A ölkəsi daha çox ixraca istiqamətlənmişdirsə, bu vəziyyət bütövlükdə onun iqtisadiyyatına pis təsir göstərir və öz valyutasının dəyişmə kursunun azaldılmasının başqa yollarını axtarmağa məcbur edir.

Ödəniş balansının valyuta kursuna təsir ölçüsü milli iqtisadiyyatın açıqlıq səviyyəsi ilə müəyyənləşir. Ümumi daxili məhsulda ixracın payı nə

MUHASIBAT.AZ

qədər yüksəkdirsə (iqtisadiyyatın açıqlığı çoxdursa), ödəniş balansının dəyişməsinə nəzərən valyuta kursunun elastikliyi bir o qədər yuxarıdır. Ödəniş balansının cari hesab və kapitalların hərəkət hesabı kimi tərkib hissələrinin tənzimlənməsi sahəsində dövlətin iqtisadi siyasəti də vayluta kursuna təsir edir. Cari hesabın vəziyyətinə, məsələn, rüsumun dəyişməsi, idxalın məhdudlaşdırılması, ticarət kvotaları, ixrac subsidiyaları və s. təsir göstərir. Qısamüddətli və uzunmüddətli kapitalların hərəkəti milli faiz stavkalarının səviyyəsindən, kapitalın daxil edilməsi və çıxardılması ilə bağlı məhdudiyyətlərdən və ya həvəsləndirmələrdən asılıdır. Lakin qısamüddətli kapitalın ölkəyə hədsiz axını pul kütləsinin artmasına səbəb ola bilər. Bu isə istehlak qiymətlərinin artımını və milli pul vahidinin qiymətdən düşməsini stimullaşdıracaq.

Mərkəzi banklar valyuta siyasətini milli pul vahidlərinin bazar (tarazlıq) kursunun müdafiəsi üzrə həyata keçirirlər. Onların valyuta bazarındakı əsas rolu milli pulların kəskin kurs dəyişmələrinə yol verməməkdən, kursları bu və ya başqa sərhədlərdə saxlamaqdan ibarətdir. Mərkəzi banklar kommersiya banklarının valyuta əməliyyatları ilə bağlı fəaliyyətini nizamlayır, valyuta bazarlarında ifrat möhtəkirliyə qarşı tədbirlər keçirirlər. Bir çox ölkələrdə kommesiya banklarının valyuta əməliyyatlarının həcmi onların aktivlərinin 20%-i ilə tənzimlənir. Şəxsi adamların və bankdan kənar şirkətlərin valyuta əməliyyatları daha sərt yoxlamaya məruz qalır. Dövlət mərkəzi banklar vasitəsilə valyutaların satış və alış normalarını müəyyənləşdirir, xarici valyutada olan istiqrazları tənzimləyir və bankların valyuta əməliyyatlarına müdaxilənin digər növlərini həyata keçirirlər.

Valyuta tənzimlənməsi daima təkmilləşən valyuta qanunvericiliyinə əsaslanır. Valyuta qanunvericiliyi axır nəticədə valyuta kurslarının formalaşma probleminin həllinə və onların tənzimlənmə prinsiplərinin əsaslandırılmasına istiqamətlənmişdir. Valyuta qanunvericiliyində üç əsas istiqamət nəzərə alınır.

MUHASIBAT.AZ

I.Valyuta əməliyyatlarının qızıl standartında mövcud olan formaları kağız –pul dövriyyəsi şəraitində də mövcuddur. Lakin müasir şəraitdə valyuta kursları tənzimləyicinin olmaması səbəbindən ölkədə hansı valyuta rejiminin müəyyənləşdirilməsindən asılı olaraq dəyişirlər. Tənzimləyici isə kağız pulların qızıla qeyri məhdud mübadiləsinə əsaslanır. Məsələn, Latın Amerikasının ayrı ayrı ölkələrinin valyuta kursları həmin ölkələrin ixracatında aktiv yer tutan müəyyən malın dünya qiymətləri ilə sıx əlaqədardır. Belə ki, Meksika dollarına gümüşün və neftin qiyməti güclü təsir göstərir. Venesuela valyutasının – bolivarın kursu neftin qiymətindən asılıdır. Boliviya valyutasının – bolivianonun kursu isə qalayın qiymətindən asılıdır.

Valyuta kursu və ya müəyyən valyutanın digər xarici valyutaya (yaxud valyutalara) mübadilə olunduğu şərait ayrıca bir ölkənin mövqeyi etibarilə onun ixracı və idxalı üçün, kapitalın ölkədən çıxması və girməsi üçün, onun xarici hesablaşmalarının bütün strukturu üçün böyük əhəmiyyət kəsb edir. Ona görə təsadüfi deyil ki, valyuta kurslarına təsir və onların formalaşdırılma mexanizmi beynəlxalq valyuta sisteminin tənzimlənməsində əsas istiqamətlərdən biridir. Bretton –Vuds sisteminin iflasından sonra Qərbdə valyuta mexanizminin fəaliyyətinin ən mühüm problemlərindən biri valyuta kurslarının və onların tənzimlənmə prinsiplərinin problemi oldu.

Bir çox milli valyutaların mübadilə kursunun dollara nəzərən sürətlə dəyişməsi beynəlxalq hesablaşmaların bütün sisteminin dayanıqsızlığını kəskin şəkildə gücləndirdi, ayrı ayrı ölkələrin ticarət və ödəniş balanslarının proqnozlaşdırılmasında böyük çətinliklər yaratdı. XX əsrin 70-ci illərində dollar kursunun kəskin sıçrayışları PRS valyutaların üzmə şəraitində Qərbin bütün beynəlxalq hesablaşmalar mexanizminin qeyri stabilliyinin əsas təzahürlərindən biri oldu.

Ayrı ayrı ölkələr qiymətdən düşən dollar axınının törətdiyi inflyasiyadan müdafiə olunmaq məqsədilə üzən kurslar sisteminə müraciət etməyə başladılar. Bu isə müəyyən dövr üçün ölkənin öz valyutalarının dollara nəzərən qeyd olunmuş sərt paritetini saxlamaqdan imtina etməsi demək idi.

MUHASIBAT.AZ

Lakin sərbəst dəyişən kurs sistemi xarici ticarət sahəsində, xüsusilə uzunmüddətli sazişlərin bağlanmasında özünün müəyən zəifliyini büruzə etdirdi. Valuta kurslarının üzməsi xarici iqtisadi əməliyyatlarda valyuta risklərindən sığortalanma problemini əhmiyyətli şəkildə kəskinləşdirdi.

İqtisadiyyatın süst vəziyyətində, işsizliyin geniş miqyaslarında və yığımın aşağı sürət şəraitində üzən valyuta kursları problemi, xüsusən də ənənəvi olaraq ixracata istiqamətlənmiş sahələrdə çox ciddi olur. Ona görə də ölkələr arasında valyuta kurslarının tənzimlənmə mexanizminin təkmilləşməsi sahəsində aydın və razılaşdırılmış fəaliyyət proqramının olmaması öz ifadəsini sırf praqmatik xassəli müxtəlif tövsiyələrin bol axarında tapır. Belə ki, 1971-ci ildə valyuta qarışıqlığı dövründə AFR, Kanada və Yaponiya kimi dövlətlər öz valyutalarının rəsmi revalvasiyasını aparmadan eyni zamanda Amerika dollarına nəzərən sərbəst üzmə rejimini tətbiq etmək məcburiyyətində qalırdılar. Bu ölkələrin mərkəzi bankları artıq miqdarda dolların alınmasını müvəqqəti dayandırır, nəticədə onların milli valyutalarının bazar kursu dollara nəzərən qalxırdı.

II.Özgə ödəniş vasitələrinin istifadə olunma probleminin həlli zamanı tənzimləyici orqanlar qarşısında iki məsələ durur:

*xarici valyutanın ölkəyə axınını gücləndirmək;

*vəsaitlərin qeyri istehsal xərclərini rasionallaşdırmaq və mümkün qədər azaltmaq.

Bununla bağlı olaraq, valyuta qanunvericiliyinin bütün sistemini iki əsas qrupa ayırmaq olar. Birinci qrupa xarici valyutanın cəlb edilməsini və rəqabətini həvəsləndirən aktlar, ikinciyə beynəlxalq ödənişlər üçün istifadə oluna bilən vəsaitlərlə sərəncamı məhdudlaşdıran aktlar aiddir. Bu halda fəaliyyətlərinə qarşı məhdudlaşdırıcı və icbari tədbirlərin nəzərdə tutulduğu subyeklər müəyyənləşdirilir. Bunlar qızıl, ödəniş vasitələri (həm özgə, həm də öz), qiymətli kağızlar (səhmlər, istiqrazlar), ödəniş və kredit sənədləri və başqalarıdır. Məhdudiyyətlərə düşən əməliyyatların da kateqoriyaları müəyyənləşir. Bəzi hallarda onlar, məsələn, mallar, xidmətlər, fərdi

MUHASIBAT.AZ

köçürmələr kimi ümumi xarakter daşıyır, bəzi əməliyyatlarda isə ətraflı və müfəssəl xarakter daşıyır və bu zaman ayrı- ayrı mallar və ya ayrı- ayrı xidmətlər konkretləşdirilir. Fiziki və hüquqi şəxslərə nəzərən onların ölkədə və ya xaricdə qalmalarından asılı olaraq müxtəlif rejimlər müəyyənləşdirilir. Xarici valyutanın möhkəm alış və satış kursları müəyyənləşdirilir. Bəzi ölkələrdə əməliyyatlar qismən məhdudlaşdırıcı normalara düşmədiyi halda sövdələşmələrin azad (bazar) kursla həyata keçirilməsinə icazə verilir.

III. Xarici ödəniş vasitələrinin və qızılın səfərbərliyə alınması qanunverici qaydada həyata keçirilir:

*bəzi ölkələrdə qanun bütün vətəndaşların öhdəsinə qoyur ki, onlara məxsus olan xarici pulları və qızıl pulları, qızıl külçələrini banka təhvil verib öz valyutaları ilə dəyişsinlər;

*qanun xaricdə cari hesabları olan ayrı ayrı vətəndaşların və müəssisələrin öhdəsinə qoyur ki, bu hesablar üzrə qalıqların, beynəlxalq hesablaşmaları aparmaq icazəsi olan bankların cari hesablarına köçürüliməsi barədə sərəncam versinlər;

*qanun xarici qiymətli kağız (səhslər və istiqrazlar) sahiblərinin öhdəsinə qoyur ki, onları dövlətə satsınlar və dövlət də öz növbəsində özünün xarici valyuta ehiyatlarını artırmaq məqsədilə onları reallaşdırsın;

*qanun bütün ixracatçıların öhdəsinə qoyur ki, öz mallarının xarici valyuta ilə reallaşdırılmasından aldıqları mədaxili yuxarıda adı çəkilən banklara keçirsinlər. Bu halda bir neçə variant mövcuddur. Birinci variantda bütün mədaxil banka köçürülür, ixracla bağlı xərclərin yerinə yetirilməsi üçün lazım olan məbləğ isə banklar tərəfindən xüsusi icazə ilə təqdim olunur. Digər variantda ixracatçı öz xərcəlrini çıxaraq mədaxili təhvil verməyə borcludur. Üçüncü variantda ixracatçı əlinə aldığı valyutanın bir hissəsini, məsələn 80%-ni yuxarıda göstərilən bankların və ya mərkəzi bankların şəxsində dövlətə verməli, qalan hissəsini isə öz bildiyi kimi, məsələn, idxal mallarının alınması üçün istifadə etməlidir. Bəzən valyutanın müəyyən hissəsini təhvil verməməyə,

MUHASIBAT.AZ

valyuta bazarında satmağa icazə verilir. Təhvil verdikləri xarici valyutaya görə ixracatçılara verilən rəsmi əlavə mükafat həvəsləndirici tədbirlərə aiddir.

ÖZÜNÜ YOXLAMAQ ÜÇÜN SUALLAR

1.Valyuta kursu nədir?

2.Valyuta kursu valyuta paritetindən nə ilə fərqlənir?

3.Valyuta kurslarının əsas növləri hansılardır?

4.Valyuta kursunun növləri hansı meyarlarla təsnifata bölünür?

5.Möhkəm və üzən valyuta kurslarının hansı qarışıq formaları var?

6.Milli valyutaların xarici valyutaya dəyişdirilməsinin hansı təşkilat modelləri mövcuddur?

7.Nə üçün valyuta kursunun çoxluğu müvəqqəti tədbir kimi nəzərdən keçirilir?

8.Valyuta kursunun «təmiz» enmə-qalxmaları hansı nəticələrə gətrib çıxarır?

9.Milli pul vahidinin dəyişmə kursunun stabilləşməsi nə ilə nəticələnir?

10.Dəyişmə kursunun uzunmüddətli stabilləşməsinə hansı faktorlar mane ola bilər?

11.Ödəniş balansının vəziyyəti valyuta kursuna hansı tərzdə təsir edir?

12.Kotirovka nədir və onun hansı növləri var?

13.Valyuta kursunun müəyyənləşdirilməsinin əsas üsulları hansılardır?

14.Valyuta kursu ilə qiymətlər arasında hansı əlaqə var?

15.Valyuta kursuna hansı əsas faktorlar təsir edir?

16.Konverqensiyanın hansı effektləri qeyd olunmuş valyuta kurslarını doğurur?

17.Valyuta tənzimlənməsində istifadə olunan əsas alətlər hansılardır?

18.Valyuta qanunvericiliyində hansı istiqamətlər nəzərə alınır?

MUHASIBAT.AZ

22.VALYUTALARIN KONVERSİYA EDİLMƏSİ

22.1.VALYUTALARIN KONVERSİYA EDİLMƏ ANLAYIŞI VƏ ZƏRURİLİYİ

Beynəlxalq əmək bölgüsündə iştirak etmək müxtəlif növ xarici iqtisadi fəaliyyətin inkişafı ilə müşayiət olunur. Milli ərazidə iqtisadiyyatı idarə edən qanunlar, adətən, ölkə xaricində öz qüvvələrini itirirlər. Bu, xüsusən də beynəlxalq dövretmənin və mübadilənin, demək olar ki, bütün növ və formalarında mütləq vasitəçi kimi iştirak edən pullara aiddir. Xarici valyutanın (başqa dövlətin valyutasının) ölkə ərazisində qanuni ödəniş vasitəsi kimi tanınması problemi yaranır.

Belə ziddiyyət valyutaların dönmə (konversiya edilmə) mexanizmi vasitəsilə həll olunur. Bu mexanizm bir milli pul vahidlərinin başqalarına və ya beynəlxalq hesablaşmalarda və ödənişlərdə istifadə edilən üçüncü valyutaya dəyişməsini təmin edir. Valyutaların konversiya edilməməsinin üç əsas səbəbi var:

*milli pul vahidinin yüksək valyuta kursu. Bu, cari əməliyyatlar üzrə ödəniş balansının kəsirinə və nəticədə valyuta ehtiyatlarının azalmasına gətirib çıxarır;

*daxili qiymətlərin qeyri rasional sistemi mal istehsalının ictimai zəruri əmək məsrəflərini əks etdirmir, onların tələb və təklifini nəzərə almır və vəziyyəti həm də ona görə ağırlaşdırır ki, milli pul vahidinin rəsmi dəyişmə kursu bazar qüvvələrini nəzərə almadan, inzibati qaydada müəyyənləşdirilir;

*ticarət baxımdan konversiya edilməməzlik. Bu o deməkdir ki, inzibati – komanda iqtisadiyyatında malların, xidmətlərin və əmlakın yalnız nisbətən az hissəsi xaricilərə satıla bilər. Pulların geniş çeşidli mal və əmlaka sərbəst köçürülə bilmək qabiliyyəti mühüm faktordur və bu faktor sayəsində sənaye cəhətdən inkişaf etmiş ölkələrin valyutaları konversiya edilən olur.

Tamqiymətli metal pulların qeyri məhdud kəsilməsi, daxili pul dövriyyəsində onların geniş dövr etməsi və kağız pullarının möhkəm paritetlər

MUHASIBAT.AZ

üzrə qızıla maneəsiz dəyişdirilməsi ilə bağlı olan klassik qızıl standartının mövcud olduğu vaxtdarda konversiya edilmə problemi faktiki şəkildə yox idi. Məsələ bundadır ki, beynəlxalq pul əməliyyatları həm öz, həm də özgə valyutalarda sərbəst şəkildə aparılırdı. Hesablaşmalar və ödənişlər üçün qızılın ən müxtəlif formalarından istifadə olunurdu. Xarici iqtisadi sövdələşmələrin ödənişi bilavasitə milli pullarla da yerinə yetirilə bilirdi, çünki qızıl əsası onların xaricdə də tanınmasını avtomatik şəkildə təmin edirdi.

Qızıla çevrilmiş pul sənədlərinin köməyi ilə aparılan beynəlxalq hesablaşmalar da sərbəst şəkildə yerinə yetirilirdi. Məsələn, borclu şəxs valyuta bazarında veksel, bank çeki və ya kreditorun valyutasında yazılmış başqa bir öhdəlik ala bilərdi. Borclu şəxs bu sənədlərin istənilən brini kreditora göndərməklə tələb olunan ödənişi yerinə yetirmiş olurdu. Borcu analoji sənədlə və borclunun milli valyutası ilə də ödəmək olardı. Bu halda kreditor aldığı öhdəliyi öz ölkəsindəki və ya xaricdəki valyuta bazarında satır və özü üçün zəruri olan qanuni ödəniş vasitələrini əldə edirdi. Üçüncü ölkənin valyutasından da istifadə etmək olardı. Hamı tərəfindən qəbul olunmuş beynəlxalq statusla inhisarçı hesablaşma və ödəniş vasitəsi olmaq imtiyazı ingilis funt sterlinqinə məxsus idi. Beynəlxalq pul öhdəliklərini nəcib metalın tədarükü ilə də ödəmək olardı.

1929-1933-cü illərin dünya iqtisadi böhranı nəticəsində konversiya edilmənin qlobal iqtisadi problemə çevrilməsi baş verdi. İstehsalın sıxışdırılması, birja və bank iflasları, ticarətin ixtisarı və ödəniş balanslarının pozulması ilə müşayiət olunan iqtisadi böhran şəraitində dövlətlərin əksəriyyəti milli valyutanın qızıla dəyişdirilməsinin ən kiçik formalarını ləğv etmək və onun pul məqsədilə istiadəsinin qalan imkanlarını da aradan qaldırmaq məcburiyyətində oldular. Dövlət valyuta nəzarətinin və valyuta tənzimlənməsinin geniş yayılmış tədbirləri isə qızıl pulların sərbəst dövriyyəsinə və mübadiləsinə, o cümlədən onların valyuta bazarlarında alqı satqısına əsaslanan xarici iqtisadi sövdələşmələrin klassik hesablaşma

MUHASIBAT.AZ

üsullarını da aradan çıxardı. Belə şəraitdə beynəlxalq ödəniş sistemi dağıldı, valyutaların əksəriyyəti isə konversiya edilməyən oldu.

Konversiya edilmə problemi yalnız o zaman yaranır ki, söhbət xarici (beynəlxalq) hesablaşmalardan və ödənişlərdən (onları valyuta əməliyyatları adlandırmaq qəbul olunmuşdur) getsin və bununla əlaqədar olaraq bir pul vahidinin (milli) digər pul vahidinə dəyişdirilmə tələbatı yaransın. Başqa sözlə, valyutanın dönməsi - sırf pul dəyişmə kateqoriyası olub (D-D), həm də pul vahidlərinin «milli libaslarının» dəyişdirilməsi ilə əlaqədardır (Dmilli -Dxarici). Ona görə də xarici iqtisadi əlaqələrin intensiv inkişafının nəticəsi olaraq, əməyin beynəlxalq bölgüsü faktorundan aktiv istifadə etmək üçün dünya bazarında milli iqtisadiyyatın açılması ilə bağlı siyasi qərarın həyata keçirilməsi zamanı valyutanın konversiya edilmə tələbatı yaranır. Konversiya edilən valyuta xarici funksiyanı və ya dünya pulları fnksiyasını yerinə yetirə bilər, lakin dərhal və mütləq şəkildə yox. Ona görə də konversiya edilən valyuta beynəlxalq ödəniş və alış vasitəsi qismində dərhal və həmişə istifadə olunmur və ya beynəlxalq miqyasda yığım funksiyasını dərhal və həmişə yerinə yetirmir.

Müəyyən mənada bu qabiliyyətin sahibləri sadəcə olaraq konversiya edilən valyutalar yox, ehtiyat valyutalarıdır. Ehtiyat valyutalar – inkişaf etmiş və bütün dünyaya yayılmış bank sistemi, güclü maliyyə potensialı olan dövlətlərin istənilən mallarına sərbəst şəkildə çevrilən bilən pul vahidləridir. Digər dövlətlər bu valyutalar vasitəsilə öz ehtiyatlarını yaradırlar. XX əsrin axırlarına qədər konversiya edilən valyutaların sayı 60-dan çox idi. Sərbəst dönə bilən ehtiyat valyutalar isə az sayda idi: ABŞ dolları, AFR markası, ingilis funt sterlinqi, isveçrə frankı, yapon ienası və başqaları. Avronun yaranması öz düzəlişlərini tətbiq etdi. Dünya pulları rolunu bir valyuta – ABŞ dolları yerinə yetirir.

Keçmiş SSRİ –də sovet rublunun konversiya edilməsinin ilkin iqtisadi şərti vəhdətin olmaması ilə xarakterizə olunan daxili pul dövriyyəsinin nizamlanma zərurəti idi. Belə ki, SSRİ – nin xarici iqtisadi əlaqələri ya sənaye

MUHASIBAT.AZ

cəhətdən inkişaf etmiş ölkələrin sərbəst konversiya edilən valyutaları ilə, ya da köçürmə və ya klirinq rubllarla təmin olunurdu. Klirinq rublları hesablaşmaların klirinq formasında istifadə olunmasını və malların yalnız barter yerdəyişməsini nəzərə tutan rubllardır, çünki onların yerdəyişməsi ticarət dövriyyəsi və ödənişlər haqqında dövlətlərarası protokollarda nəzərə alınmışdır. Sovet təşkilatları xarici valyutanı xaricə köçürə bilir, plan və maliyyə orqanlarının müəyyənləşdirdiyi tələbat miqdarında rublları xarici valyutaya çevirirdilər. Sosialist ölkələrinə səyahət edən şəxsi adamlar 500 rubla qədər, kapitalist dövlətlərinə səyahət edənlər isə 30 rubla qədər (bir gedişdə) və ya ildə 200 rubla qədər pul götürə bilərdilər.

Ehtiyat vaylutaların emitentləri rolunda, adətən, sənaye cəhətdən inkişaf etmiş ölkələr çıxış edir. Malların təkrar istehsalına, sərbəst istehsal gücünə, işsizliyə malik olan bu ölkələr öz məhsullarının satış bazarı və kapitalın ixracı uğrunda mübarizə aparmaq məcburiyyətindədirlər. Ona görə də öz milli valyutalarının sərbəst konersiyasını tətbiq edən ölkələr öz mallarını başqa ölkələrin bazarlarına daxil etməyə çalışır və həmin ölkələrin də öz milli valyutalarına heç olmasa məhdud konversiya tətbiq etməsinə nail olurlar. Məhz buna görə də konversiya edilmiş valyutalar arasında iqtisadi və siyasi cəhətdən bir birlərindən asılı olan sənaye cəhətdən inkişaf etmiş dövlətlərin pul vahidləri olur. İqtisadi cəhətdən zəif olan belə ölkələr öz valyutalarının konversiya edilməsini qərara alarkən iqtisadiyyatlarının bəzi sahələrini yeniləşdirməyə ümid edirlər. Məsələ bundadır ki, bu halda konversiya edilmənin özü də milli iqtisadiyyatı kapitalist inhisarları üçün açа bilir. İqtisadiyyatı güclü olan ölkələr üçün yerli valyuta müstəqil bir maraq kəsb etmir. Bu valyutaya olan tələbatı məqsədli alış vasitəsilə də təmin etmək olar.

Milli pul vahidinin konversiya edilməməsi dövlətin xarici ölkələrlə xarici iqtisadi əlaqələrinin köklü islahatları yolunda və onun iqtisadiyyatının beynəlxalq əmək bölgüsü sisteminə daxil edilməsi yolunda ləngimələrdən biridir. Dünya təcrübəsi göstərir ki, konversiyanın tətbiqi nəticəsində aşağıdakılar baş verir:

MUHASIBAT.AZ

*milli iqtisadiyyatın yolu beynəlxalq rəqabət üçün açıq olur və bazar qiymətqoymasının tətbiqi üçün ilkin zəmin yaranır. İqtisadiyyatın konversiya edilməsi və açıqlığı perspektivdə inflyasiyanın aşağı salınma xərclərinin mühüm faktoru ola bilir;

*pul vahidinin cari əməliyyatlar üzrə konversiya edilməsinin nəticəsi olaraq, ödəniş balansının uzunmüddətli yaxşılaşması üçün ilkin zəmin yaranır. Məsələ ondadır ki, yerli mal istehsalçılarının dünya qiymətləri səviyyəsinə uyğunlaşdırılması ixrac üçün əlavə gəlirlərin tapılması imkanı deməkdir;

*cari əməliyyatlar üzrə konversiya edilməyə tədrici keçid həyata keçirilir və tam konversiya edilmənin uzunmüddətli yoxluğu müşahidə olunur. Məsələn, Qərbi Avropa ölkələrinin əksəriyyəti tam konversiya edilməyə on illərlə hazırlaşır, öz vətəndaşlarına və korporasiyalara xaricə investisiya etməyi qadağan edirdilər. 1989-cu ilə Fransa və İtaliya bu məhdudiyyətləri tam həcmdə ləğv etdilər. Yaponiya isə kapitalın ixracı ilə bağlı məhdudiyyətləri yalnız 1979-cu ildə ləğv etdi. Lakin məhdudiyyətlərin olması inkişaf etmiş rəsmi daxilli açıq bazarın mövcudluğunu tələb edir, çünki əks halda «qara bazarın» dəyişmə kursu hökumətin kurs siyasətindəki antiinflyasiya cəhdlərini dağıdardı;

*bütün ixracatçılar əldə etdikləri bütün valyuta ixrac mədaxilini rəsmi dəyişmə kursu ilə bank sisteminə satmalıdırlar (konversiya edilmənin tətbiqinin ilkin mərhələsində). Bu halda valyuta hesablarının bağlanması nəticəsində xarici valyutanın ölkədən çıxarılmasına qadağa qoyulur və bu ölkə vətəndaşları xaricdə olarkən həmin valyutanı ələ keçirmək məsələsindədə məhdudiyyətlərlə qarşılaşırlar. Valyutanın yüzfaizlik mütləq satışında valyuta bazarının təşkilinin xaricdəki təcrübəsi onun iki yaranma variantını göstərir. Birinci variant valyuta hərracları vasitəsilə baş verir. İkinci variant isə üstün mal idxalatçılarının valyutadan rəsmi mübadilə kursu ilə sərbəst istifadə etməsini nəzərdə tutur. Birinci variantda dəyişmə kursunun gözlənilməz enib – qalxmaları və kurs siyasətindən istifadənin mümkünsüzlüyü üçün ilkin şərait yaranır. İkinci variant isə ixracatçıların destimulyasiyasına gətirib çıxara bilər;

MUHASIBAT.AZ

*antiiflyasiya makroiqtisadi stabilləşdirmə siyasətinin, özəlləşdirmənin, xarici ticarətin liberallaşdırılmasının həyata keçirilmə imkanı yaranır;

*həcmli xarici bazarların axtarış problemi yaranır;

*gələcəkdə xarici investisiyaların həcmi çoxalır, lakin cari zərərlər və itkilər qaçılmazdır. İtkilər, əsasən, milli pul vahidinin devalvasiyası ilə (konversiya edilmənin tətbiqində, əməli olaraq qaçılmazdır) birlikdə idxalın liberallaşdırılmasından döğur. İdxalın əhəmiyyətli dərəcədə bahalaşması iflyasiyanın güclənməsinə gətirib çıxarır. İnflyasiyanı azaltmaq isə yalnız sərt büdcə və pul-kredit siyasəti ilə, həmçinin yerli mal istehsalçılarının və əhalinin real gəlirlərinin məhdudlaşdırılması vasitəsilə mümkündür. Belə siyasətin nəticəsi isə ayrı - ayrı mal istehsalçılarının müflis olması, işsizliyin artması, ödəməmə böhranı, dövlət büdcəsinin kəsiridir. Bunlar isə ağır sosial nəticələrə gətirib çıxarır.

Valyutaların konversiya edilməsi müəyyən milli pul vahidlərinin digərlərinə və ya üçüncü valyutalara (əgər onlar beynəlxalq hesablaşmalarda və ödənişlərdə istifadə olunursa) zəruri olaraq dəyişdirilməsini təmin edir. Konversiya edilən ayrı-ayrı valyutalar beynəlxalq hesablaşmaların və ödənişlərin hamı tərəfindən qəbul edilmiş vasitəsi kimi tətbiq olunur. Bu isə onunla şərtlənir ki, yalnız iqtisadi cəhətdən inkişaf etmiş, stabil və nüfuzlu dövlətlərin milli pul vahidləri dünya pulları funksiyasını yerinə yetirməyə qadirdirlər.

Bu halda həmin valyutanın emitent ölkəsi mal və xidmətlərin haqqı ödənilməyən idxalatından istifadə etmək imkanı əldə edir. Buna görə də həmin ölkə öz daxili iqtisadiyyatı üçün arzuedilməz nəticələrlə üzləşmədən uzun müddət ərzində passiv ticarət və ödəniş balansına malik ola bilir. Bu onunla əlaqədardır ki, dövlətin ödənişlərindəki kəsirlər onun öz milli pulları ilə və həmin pulların beynəlxalq ödəniş dövriyyəsindəki yatırılmış səviyyəsində ödənilə bilir. Milli pulların həmin səviyyəsi malların təchizat tələləbləri şəklində və ya digər dövlətlərin valyutası ilə dəyişdirilmək üçün geriyə təqdim edilmir. Bu və ya digər dövlətin valyutasının beynəlxalq hesablaşma və ödəniş

MUHASIBAT.AZ

vasitəsi kimi istifadə edilməsi həmişə həmin valyutanın emitent ölkə banklarında qeyri rezidentlərin hesablarında toplanması ilə müşayiət olunur.

Bu isə iqtisadi mahiyyətinə görə, emitent ölkənin öz valyutası ilə xaricdən kredit almasına bərabərdir. Belə kredit avtomatik şəkildə verilir, nisbətən ucuz olur, heç bir siyasi, iqtisadi və digər şərtlərlə bağlanmır, onun həcmi yalnız həmin valyutanın dünya ödəniş dövriyyəsindəki iştirakının miqyaslarından asılı olur. Bu kredit faktiki olaraq uzunmüddətli və hətta müddətsiz olur, çünki təcrübədə xarici iqtisadi əməliyyatların tətbiqi üçün daima dövriyyə vəsaitlərinə və bu dövriyyə vəsaitlərinin daima doldurulmasına tələbat yaranır.

Təcrübə göstərir ki, bu proses çox uzunmüddətlidir. İkinci dünya müharibəsindən sonra (1953-cü ilə qədər) Qərbi Avropada Avropa ödəniş ittifaqının (AÖİ) ikitərəfli xarici ticarət saldosunun transferti əsasında klirinq sistemi tətbiq olunurdu. Xarici ticarət saldosunun transferti konversiya edilmənin birinci dərəcəsidir. İkitərəfli klirinqlərin xarici ticarət saldosu mərkəzi banklar səviyyəsində qarşılıqlı şəkildə ödənilir və yalnız iri qalıq saldolar qızıl vasitəsilə, konversiya edilən valyuta ilə və yaxıd kreditlərlə ödənilməlidir.

1953-cü ildən sonra Avropa ödəniş ittifaqı ölkələri məhdud bazar konversiyasına keçdilər. Bu halda banklar və ya valyuta alverçiləri ixracatçıların valyuta tələblərini bazar qiymətləri ilə ala bilir və onları idxalatçılara bazar qiymətləri ilə sata bilirdi. Mərkəzi banklar razılaşdırılmış orta kursdan 3-4% kənara çıxma halında bazarda satıcı və alıcı rolunda çıxış etməli idilər (valyuta kursunun stabilləşdirilməsi üçün).

Qərbi Avropa valyutalarının konversiya edilməsinin əsas pilləsi transfert hesablar sisteminə keçid idi. Bu halda valyuta mübadiləsi bilavasitə ayrı ayrı dövlətlərin təsərrüfat vahidləri səviyyəsində həyata keçirilirdi. Bu sistem funt sterlinq bazası əsasında transfert hesablarının bütün qeyri dollar iqtisadi fəzasına yayılması yolu ilə tətbiq olunmuşdur. Belə sistemdə fiziki və hüquqi şəxslər dəyişiləcək valyuta tələblərini əldə edir və bu tələblər xüsusi transfert

MUHASIBAT.AZ

hesablarının kreditinə köçürülürdü. Transfert hesablar sisteminə keçən dövlətlər arasında da xarici ticarət hesablaşmaları həyata keçirilirdi. Lakin dollarlara dəyişmə bu halda mümkün deyildi.

22.2. VALYUTALARIN KONVERSİYA EDİLMƏSİNİN FORMA VƏ ŞƏRTLƏRİ

Müasir şəraitdə konversiya edilmə rejiminin müəyyənləşdirilməsi və saxlanması dövlətin müstəsna hüquq çərçivəsindən fərqli şəkildə reallaşdırıla bilməz. Ona görə də konversiya edilmənin real irəliləyişi uyğun rəsmi siyasətdən bilavasitə asılı olacaq. Bu siyasət isə xarici iqtisadi fəaliyyətə dövlət müdaxiləsinin sferalarının daralmasına yönəlməlidir. Xarici iqtisadi münasibətlərdə iştirakçıların seçim və hərəkət sərbəstliyinin mümkün hüdudlarından asılı olaraq (valyuta nəzarətinin və valyuta tənzimlənməsinin liberallaşdırma səviyyəsi), konversiya edilmə rejiminin bir çox növləri və variantları (formaları) mövcuddur. Onlar arasında tam konversiya edilməni, qismən konversiya edilməni, xarici konversiya edilməni və daxili konversiya edilməni fərqləndirirlər.

Tam konverstya edilmə xarici iqtisadi əməliyyatların bütün növlərini əhatə edir, hüquqi və fiziki şəxslərin bütün kateqoriyalarına nisbətdə eyni cür təsir göstərir, dünyanın bütün reqionlarına və valyutalarına tətbiq olunur.

Qismən konversiya edilmədə konversiya edilmə rejimi xarici iqtisadi fəaliyyətin ayrı- ayrı sahələrinə və ya valyutanın bəzi sahiblərinə tətbiq olunmur. Qismən dönmə rejimlərindən ən çox yayılanı o halda baş verir ki, milli valyutanın xarici valyutaya sərbəst dəyişdirilməsinə yalnız cari əməliyyatlar baxımından icazə verilsin (cari əməliyyatlar üzrə ödənişlərə aşağıdakılar aiddir: xarici ticarət və xidmətlər üzrə bütün ödənişlər, qısamüddətli bank və kredit əməliyyatları, istiqrazların və onların faizlərinin ödənişləri, investisiyalar və başqa növ kapital qoyuluşlar üzrə gəlir köçürmələri, qeyri kommersiya xarakterli, o cümlədən «ailə məişət xərcləri»

MUHASIBAT.AZ

üzrə pul köçürmələri) və xarici investisiyalarla, kapitalların digər beynəlxalq yerdəyişmələri ilə bağlı olan sövdləşmələrdə yol verilməsin.

Xarici konversiya edilmədə xariclə hesablaşmaq üçün ölkədə qazanılmış pulların dəyişdirilməsi üzrə tam sərbəstlik yalnız xaricilərə (qeyri rezidentlərə) verilir, bu ölkənin vətəndaşları və hüquqi şəxsləri isə (rezidentləri) belə sərbəstliyə malik olmurlar. Beynəlxalq təcrübə göstərir ki, konversiya edilməyə keçid məhz xarici konversiya edilmədən başlayır.

Daxili konversiya edilmədə milli pul vahidlərini xarici valyutalara dəyişdirmək hüququndan yalnız həmin ölkələrin rezidentləri istifadə edə bilir. Qeyri rezidentlər isə bu hüquqa malik olmurlar. Daxili konversiya edilmə, faktiki olaraq, valyuta vəsaitlərinin bəzi (və ya bütün) növlərini saxlamaq hüququnun və ölkə daxilində milli valyutanı sərbəst konversiya edilən valyutaya sərbəst şəkildə dəyişdirmək hüququnun yerli fiziki və hüquqi şəxslərə verilməsi deməkdir. Daxili konversiya edilmə xaricə gedən ödənişlərə qadağa və ya məhdudiyyət qoymur, rezidentlər üçün xaricdə hesablar saxlamaq öhdəliklərini tələb etmir, həmçinin xarici qiymətli kağızlarla, xarici hüquqi və fiziki şəxslərin digər öhdəlikləri ilə sərbəst əməliyyat aparmaq imkanını nəzərdə tutur.

Bəzən cari əməliyyatlar üzrə konversiya edilməni fərqləndirirlər. Bu, hüquqi və fiziki şəxslərin xarici ticarət fəaliyyəti ilə əlaqədar olan cari əməliyyatlar üzrə milli valyutanı digər valyutalara konversiya etmək hüququdur. Xarici ticarət fəaliyyəti dedikdə aşağıdakılar nəzərdə tutulur: mal və xidmətlərin ixrac və idxalı, yerli və xarici şəxslərin investisiyalardan əldə etdikləri gəlir (dividendlər, faizlər), xaricilərə ölkə daxilində göstərilən xidmətlərdən gələn gəlirlər, ölkə vətəndaşlarına xaricdə göstərilən xidmətlərlə bağlı xərclər, aviasiya və dəniz fraxtı, yüklərin sığortalanması və başqaları, o cümlədən vəsaitlərin xaricə və xaricdən birtərəfli köçürmələri (xaricdə yaşayan vətəndaşlara göndərilən ölkədə qazanılmış təqaüdlər, xaricdə işləyib pullarını evə köçürən vətəndaşların əmək haqqı, xarici dövlətlərin köməyi üzrə birdəfəlik ödəmələr).

MUHASIBAT.AZ

Milli pul vahidinin konversiyasının tətbiqindən bilavasitə fayda götürənlər istehlakçılar qismində yerli müəssisələr və təşkilatlardır. Bu müəssisələr özlərinə lazım olan mal və məhsulları istənilən xarici ölkədə əldə etmək üçün milli pullardan sərbəst şəkildə istifadə edə bilərlər. Mümkün təchizatçılar dairəsinin idxal hesabına genişləndirilməsi xammalın, yarımfabrikatların, avadanlığın, maşınların, ehtiyat hissələrinin və istehlak mallarının lazımlı növlərinin istehlakçılar üçün əlverişli şərtlərlə əldə edilməsinə imkan verir, idxal isə malların daxili bazarda əldə edilməsinin real alternativi olur. Belə şəraitdə yerli mal istehsalçıları məhsulların xarici istehsalçıları ilə rəqabət aparmalı olacaq. Bu isə, şübhəsiz, ölkədə buraxılan məhsulun keyfiyyət göstəricilərində əks olunacaq, istehsal xərclərinin azalmasına kömək edəcək, istehsal strukturunda və xarici iqtisadi əlaqələrdə iqtisadi cəhətdən məqsədəuyğun dəyişikliklərin aparılmasına yardım göstərəcək.

Milli pul vahidinin daxili konversiyası təkcə müəssisələrə və təşkilatlara (hüquqi şəxslər) yox, həm də ayrı - ayrı vətəndaşlara (fiziki şəxslər) tətbiq olunmalıdır. Bu isə onlara birbaşa gəlirlər gətirir. Məsələn, xaricə gedərkən milli pul vahidinin xarici valyutaya dəyişdirilməsində məhdudiyyətlərin və limitlərin ləğvi, xarici göndəriş şirkətlərinin kataloqlarındakı xarici malların milli pullarla əldə edilməsi hüququ bu qəbildəndir. Lakin ticarət kəsirinin olması və istehsal həcminin azalması şəraitində milli pul vahidinin valyuta (dəyişmə) kursu aşağı düşür. Bunun səbəbi xarici valyuta idxalına yüksək tələbatın (sırf möhtəkirçi) olmasıdır (xaricdəki malların xarici valyuta ilə əldə edilməsi nəzərdə tutulur). Bu isə daxili konversiyanın tətbiqi nəticəsində baş verir.

Ticarət kəsirində milli pul vahidinin daxili konversiyası xarici valyutaya olan tələbatı artırır. Ticarət vasitəçisi səlahiyyətli bank vasitəsilə xarici valyutanı alır, sonra həmin valyuta ilə xaricdə mal alır, onu idxal edir və gəlirlə satır, yenidən xarici valyuta alır və sairə. Ticarət kəsirinin az olduğu şəraitdə bu əməliyyatlar istehlak bazarının dolmasına kömək edir və nəticədə xarici

MUHASIBAT.AZ

valyutaya olan tələbatın azalmasına, milli pul vahidinin valyuta kursunun yüksəlməsinə gətirib çıxarır. Daxili istehsalın azaldığı və ticarət kəsirinin kəskin olduğu halda isə xarici valyutanın dəyişmə kursunun artımı baş verir. Əgər bunlar həm də kütləvi möhtəkirliklə və güclü valyutanın xaricə daşınması ilə müşayiət olunursa, inflyasiya böyük sürətlə artır.

Milli pul vahidinin xarici konversiyasına gəlincə, bu məsələdə xarici investorların maraqları daha çoxdur. Onlar öz kapitallarının digər ölkələrdə daha geniş yatırım imkanlarını məhz xarici konversiya ilə əlaqələndirirlər. Xarici investorlar müştərək müəssisələrin şərikləri kimi başqa dövlətin pul vahidində əldə etdikləri gəlirlərlə nə edəcəklərini düşünürlər. Konversiya edilmənin mövcud olmaması o deməkdir ki, xarici investor istənilən halda puldan sərbəst istifadə edəcəyinə, yəni xaricə köçürəcəyinə, lazımlı malları alacağına əmin deyil. Xarici şirkətlər pulların konversiya edilməsində həm də ona görə maraqlıdırlar ki, konversiya edilmə nəticəsində investisiya qoyulan dövlətlərdə müştərək müəssisələrin ehtiyacları məqsədilə ixracın əhəmiyyətli şəkildə artırılması imkanı yaranır.

Xarici və ya tam konversiya hesablaşmaların ikitərəfli klirinq qaydasından imtina edilməsini və valyuta hesablaşmalarının çoxtərəfli əsasda həyata keçirilməsini nəzərdə tutur. Qarşılıqlı ticarətin və hesablaşmaların bəzi hallarda tətbiq olunan ciddi ikitərəfli qaydası ayrı –ayrı dövlətləri təhrik edir ki, qarşılıqlı ixrac və idxalın dəyər həcmlərinin balanslaşdırılmasına can atsınlar, özləri üçün əlverişsiz şərtlərlə partnyoru kreditləşdirməmək üçün bəzi hallarda ixracı, digər hallarda isə borclu vəziyyətində qalmamaq üçün idxalı saxlamağa cəhd etsinlər. Bu vəziyyət isə qarşılıqlı əlverişli xarici iqtisadi əlaqələrin genişləndirilməsində, onların ticarət və reqional strukturunun təkmilləşdirilməsi yolunda ciddi əngələ çevrilir.

Milli pul vahidinin konversiyaya istiqamətlənməsində bu tədbirin təkcə müsbət məqamlarını yox, həm də bütövlükdə ölkə üçün və cəmiyyətin ayrı - ayrı sosial qrupları üçün mümkün mənfi nəticələrini nəzərə almaq, dövlətin malik olduğu real imkanları bilmək lazımdır. Milli pul vahidinin konversiya

MUHASIBAT.AZ

edilməsinin əsas məqsədləri milli iqtisadiyyatın digər dövlətlərin bazarları ilə və dünya bazarı ilə qarşılıqlı əlaqəsini gücləndirmək, həmçinin valyuta resurslarının istifadə olunma effektivliyini artırmaqdır.

Milli valyutanın konversiya edilməsinin tətbiqi nəticəsində müəssisələrin xarici iqtisadi fəaliyyəti onların ümumi təsərrüfat fəaliyyətinin orqanik hissəsi olur. Milli valyutanın konversiya edilməsi milli bazarı dünya bazarı ilə birləşdirir, xarici ölkələrlə iqtisadi əməkdaşlığın nəticələrini dürüst qiymətləndirməyə imkan verir. Milli valyutanın konversiya edilməsinə keçidi birdəfəlik akt kimi yox, valyuta məhdudiyyətlərinin aradan götürüldüyü proses kimi nəzərdən keçirmək lazımdır.

Ona görə də milli valyutanın konversiya edilməsi ilə bağlı zəruri tələb iqtisadiyyatın bu aksiyanın həyata keçirilməsinə hazırlıq səviyyəsinin araşdırılmasıdır. Əgər valyuta qızıldan yox, kredit mənşəlidirsə, istənilən ictimai quruluşda həmin valyutanın real konversiya edilməsi üçün dövlət bir sıra zəruri tələblərə riayət etməli və heç bir iqtisadi siyasət bu tələbləri pozmamalıdır. Dövlət öz mal və xidmətlərinə valyuta sahiblərinin tələbatlarını zəruri miqdarda və zəruri çeşiddə fasiləsiz olaraq təmin etməli, öz valyutasının xarici valyutaya mübadiləsini daima saxlamalı və özünün pul vahidinin real dəyişmə kursunu təmin etməlidir.

Bütün bunlar istehsalın uyğun strukturunu, texniki –iqtisadi səviyyəsini və onun inkişafının keyfiyyət xarakteristikalarını nəzərdə tutur. Milli valyutanın konversiyasının tətbiq edilmə şərtlərini iki hissəyə bölmək olar: ümumi (makroiqtisadi) və spesifik (valyuta -maliyyə).

Milli valyutanın konversiyasının tətbiq edilməsi üçün ümumi şərtlər iqtisadiyyatın planlaşdırılmasında və idarəetməsində desentralizasiyanı, həm milli, həm də beynəlxalq səviyyədə dəyər münasibətlərinin geniş istifadəsini nəzərdə tutur. Spesifik şərtlər sırasında isə ticarət və ödəniş balanslarının tarazlığı, dövləğ büdcəsinin balanslaşdırılması, real valyuta kursunun olması xüsusi əhəmiyyət kəsb edir.

MUHASIBAT.AZ

Yuxarıda adlarını çəkdiyimiz bütün şərtlər təyinedici səbəblərdir və onların yaranışını gələcəyə saxlamaq olmaz. Milli pul vahidini xarici valyutalara dəyişmək üçün müxtəlif xarici valyuta ehtiyatlarına malik olmaq lazımdır. Xarici valyutanı isə xarici bazarda malların satılması və xidmətlərin göstərilməsi yolu ilə qazanmaq olar. Milli pul vahidinin konversiya edilməsinə keçidin dörd əsas ilkin şərtini göstərmək olar.

Birincisi – ölkənin maliyyə vəziyyətinin stabilləşdirilməsi və sağlamlaşdırılması, onun daxili bazarının mallarla zənginləşdirilməsi, inflyasiyanın ləngidilməsi və milli pul vahidinə olan etibarın qazanılmasıdır.

İkincisi –qiymətqoyma islahatının keçirilməsi və mühüm malların daxili qiymətlərinin dünya qiymətlərinə yaxınlaşmasıdır.

Üçüncüsü – milli valyutaya pulun bütün funksiyalarının verilməsidir (bərpası).

Dördüncüsü – dövlətdə rəqabətədavamlı ixrac bazasının yaradılmasıdır. Bu baza dünya pul bazarında milli valyutanın stabil kursunun və ödəniş balansının tarazlığının müdafiəsi üçün zəruridir.

Milli valyutanın konversiyasının tətbiqi hər şeydən əvvəl müxtəlif dövlətlərin həqiqətən ümumiləşmiş bazarının tədriclə formalaşdırılması prosesində ilkin şərtlərin yaranma zəruriliyi ilə diktə edilir. Ümumiləşmiş bazar isə milli bazarların formalaşdırılmasını və qarşılıqlı təsirini nəzərdə tutur. Belə milli bazarlarda həm milli, həm də millidən üstün olan valyutalar fəaliyyət göstərə bilir. Bazar iqtisadiyyatına keçid şəraitində milli valyutaların konversiya edilməsinin üç tətbiq olunma variantını göstərmək olar:

*təkamül variantı ictimai –iqtisadi və valyuta –maliyyə ilkin şərtlərinin tədriclə yaradılması ilə əlaqədardır;

* «şok» variantı milli pul vahidinin dəyişmə kursunun qəflətən aşağı düşməsi, pul-kredit və valyuta tənzimlənmə orqanları tərəfindən intervensiya əməliyyatlarının tətbiqi nəticəsində üzən kursların daxil edilməsi ilə əlaqədardır;

MUHASIBAT.AZ

*yeni pul vahidinin daxil edilməsi vasitəsilə, yeni və köhnə valyutanın paralel dövriyyəsi vasitəsilə milli pul vahidinin konversiya edilməsinə keçidi nəzərdə tutur.

Birinci variant dövlət iqtisadiyyatının təkamül yolu ilə sağlamlaşdırılmasına əsaslanır. Bu variant iqtisadiyyatın stabilləşdirilməsi və bazar münasibətlərinə keçid, maliyyənin və pul dövriyyəsinin sağlamlaşdırılması, dövlət büdcəsinin kəsirinin azalması və dövriyyədə pul kütləsi ilə mal ehtiyatlarının uyğunluğu, ölkədə qiymət islahatının aparlıması və qiymət nisbətlərinin dünya bazarının qiymət nisbətinə uyğunlaşdırılması kimi ilkin şərtlərin yaradılmasını nəzərdə tutur. Həmçinin milli pul vahidinin iqtisadi cəhətdən əsaslandırılmış vahid kursunun tətbiq edilməsi, dövlətdə istehsal vasitələrinin (əmək alətləri, daşınmaz əmlak və s.) real bazarının yaradılması, ölkədə rəqabətədavamlı sektorun (əmək alətləri, maşınlar, dəzgahlar, avadanlıqlar və sənayenin emaledici sahələrinin digər malları) formalaşdırılması, cari ödəniş balansının əməliyyatları üzrə valyuta məhdudiyyətlərinin tədriclə ləğv edilməsi, sonra isə bütün sair valyuta əməliyyatları üzrə valyuta məhdudiyyətlərinin ləğvi və milli valyutanın daxili dönmə qabiliyyətinin tətbiqi də ilkin şərtlər sırasındadır.

«Şok» variantında valyuta məhdudiyyətlərinin əksəriyyəti eyni zamanda ləğv olunur, milli valyuta kursu isə tələb və təklif əsasında formalaşır. Bu üsul milli valyutanın rəsmi kursunun qəflətən aşağı düşməsini və onun «qara» və «boz» bazarlar səviyyəsində müəyyənləşdirilməsini və həmin kursun sonradan mərkəzi bank tərəfindən müdafiəsini (intervensiya əməliyyatlarının və diskont siyasətin, yaxud uçot siyasətinin yeridilməsi yolu ilə) nəzərdə tutur.

Üçüncü variant qızıl –valyuta ehtiyatı ilə təmin edilmiş yeni pul vahidinin yaradılmasını, o cümlədən paralel valyutanın müəyyən müddət ərzində dövr etməsini nəzərdə tutur.

Bu variantların tətbiq edilməsinin iqtisadi nəticələri aşağıdakı kimi ola bilər.

MUHASIBAT.AZ

Birinci variantda iqtisadiyyatın inkişafındakı pozitiv elementlərin artımına uyğun olaraq milli pul vahidinin tədriclə möhkəmlənməsi baş verəcək. Bazar infrastrukturu daha sürətlə inkişaf edəcək, sahibkarlığın təsərrüfat aktivliyinə təsiri güclənəcək. Yeni resurslar istehsal vasitələri bazarını dolduracaq və onun stabilləşməsinə kömək edəcək. Milli pul vahidinin konversiya edilməsi iqtisadiyyatın bazar transformasiyasının məntiqi yekunu kimi təzahür edəcək. Milli pul vahidinin rəsmi kursunun aşağı düşməsi qaçılmaz olsa da, digər iki variantla müqayisədə daha azdır. Milli valyutanın konversiya edilməsinin bu yolu əhalinin geniş təbəqələri üçün daha kiçik sosial xərclərlə müşayiət olunacaq.

İkinci («şok») variant ölkədə inflyasiya proseslərinin başlanmasına, möhtəkirliyin yayılmasına, kapitalların istehsal sferasından dövriyyə sferasına ötürülməsinə gətirib çıxaracaq. Bununla belə mərkəzi bankın valyuta bazarında keçirdiyi effektiv intervensiya əməliyyatları nəticəsində milli pul vahidinin dəyişmə kursunun enməsi o qədər də böyük olmaz. Qeyd etmək lazımdır ki, bu variant artıq müəyyən mənada bir sıra dövlətlərdə tətbiq olunur və bu da özünü valyuta möhtəkirliyinin artımında büruzə etdirir.

Üçüncü variant yeni pul vahidinin tətdiq edilməsi və köhnə pulların sıxışdırılması hesabına ölkədə pul dövriyyəsinin radikal şəkildə möhkəmlənməsi deməkdir. Bu variant əhali üçün sosial nəticələr nöqteyi nəzərindən çox ağır hesab olunur, çünki əhalinin geniş təbəqələrində olan pul əmanətləri qiymətdən düşür.

ÖZÜNÜ YOXLAMAQ ÜÇÜN SUALLAR

1.Valyutaların konversiya edilmə zəruriliyi nə vaxt yaranır?

2.Nə üçün ehtiyat valyutaların emitentləri rolunda sənaye cəhətdən inkişaf etmiş ölkələr çıxış edir?

3.Konversiya edilməyə nə kömək edir?

MUHASIBAT.AZ

4.Dünya pulları funksiyasını yerinə yetirən valyutanın emitent ölkəsi hansı üstünlükləri qazanır?

5.Konversiya edilmə rejiminin əsas formaları hansılardır?

6.Milli pul vahidinin konversiya edilməsinə keçidin əsas zəruri şərtləri hansılardır?

7.Milli pul vahidinin konversiya edilməsinə keçidin əsas ilkin şərtləri nədən ibarətdir?

8.Milli valyutaların konversiya edilmə üsulları hansılardır?

23.BEYNƏLXALQ BANK ƏMƏLİYYATLARI

23.1. BEYNƏLXALQ HESABLAŞMA ƏMƏLİYYATLARI NƏZƏRİYYƏSİ

Beynəlxalq hesablaşma əməliyyatlarının həyata keçirilməsi dünya pullarının funksiyası ilə əlaqədardır. Dunya pulları funksiyasının yaranmasının ilkin maddi şərti mal istehsalının inkişafı və mal mübadiləsinin dövlət sərhədlərindən çıxmasıdır. Pullar, K.Marksın ifadəsi ilə desək, dünya bazarında öz «milli libaslarını» çıxarır və nəcib metalların külçələri formasında çıxış edirdilər. Bu funksiyanı yalnız tamqiymətli və real pullar yerinə yetirirdi. Pullar dünya mal dövriyyəsində ümumi ödəniş vasiitəsi və ümumi alış vasitəsi kimi fəaliyyət göstərir. Pulun ödəniş vasitəsi funksiyası daha üstündür, çünki dünya ticarəti iri topdan ticarətdir. Ona görə də mallar ya kreditə satılır, ya da əksinə, alıcı əvvəlcədən malın haqqını avansla verir.

Pullar dünya dövriyyəsində var-dövlətin ictimai maddiyyatı kimi fəaliyyət göstərir. Bu isə onun bir ölkədən digərinə miqrasiyası ilə əlaqədardır. Hər bir ölkə beynəlxalq ödənişlərin həyata keçirilməsi üçün müəyyən qızıl valyuta ehtiyatına malik olmalıdır. Ona görə də pullar həm də xəzinə qismində dünya pullarının ehtiyat fondudur.

MUHASIBAT.AZ

XX əsrdə dünya pullarının funksiyalarında ciddi dəyişikliklər baş verdi. Belə ki, Bretton –Vuds razılaşmasına görə ABŞ dolları və ingilis funt sterlinqi dünya dövriyyəsində qızıl əvəzinə ödəniş, alış və ehtiyat vasitəsi qismində fəaliyyət göstərməli idi. Dünya pulları funksiyasının təkamül prosesi, faktiki olaraq, milli pulların keçdiyi yolu –metal pullardan kreditlərə doğru gedən yolu özünəməxsus formada təkrar edir. Lakin real olaraq, beynəlxalq dövriyyədə banknot formalı dünya pulları mövcud deyil. Hərçənd dünya kredit pullarının buraxılması ilə bağlı layihələr çoxdan hazırlanır.

Dünya kredit pullarının SDR (BVF –da alınmışların xüsusi hüquqları) şəklində nümunəsinin yaradılması ilə bağlı ilk təcrübə yeni beynəlxalq aktivlərin sırf hesablama pul vahidinə çevrilməsinə gətirib çıxardı. Bu, SDR-in qızılla bağlılığının kəsilməsi və onların kursunun hesablama yolu ilə, 16 valyutanın ortaçəkili dəyəri əsasında müəyyənləşdirilməsi ilə şərtlənir (avronun tətbiqinə qədər).

SDR beynəlxalq pul münasibətlərinin aparıcısı kimi öz mənşəyinə, maddiyyatına, fəaliyyət əsaslarına görə qızıldan əhəmiyyətli şəkildə fərqlənir. Əgər qızıl ümumi ödəniş və ümumi alış vasitəsi rolunu cəmiyyətin təbii «seçimi» nəticəsində qazanırdısa, SDR süni mənşəlidir, çünki fidusiar, yəni etibara əsaslanmış pul formasıdır. SDR müstəsna olaraq BVF-nun inzibati qərarı ilə yaradılır və yalnız BVF çərçivəsində qeydlər şəklində xüsusi hesablarda fəaliyyət göstərir.

İnsan əməliyinin məhsulu və ictimat sərvətin ümumi forması olan qızıldan fərqli olaraq, SDR özünün qondarmalığı ilə xarakterizə olunur. SDR –in yaranışı həqiqi kapitalın hərəkətini əks etdirmir, real yığımlara əsaslanmırdı. SDR-in spesifik xüsusiyəti onların millidən üstün olmasıdır. SDR «istənilən milli emissiyadan azad olan əsl beynəlxalq kredit pullarıdır». Bununla belə, SDR və qızıl beynəlxalq hesablaşmalarda bir sıra mürəkkəb ictimai funksiyaları yerinə yetirirlər. Onlar valyutaların dəyər müqayisələrində əsas rolunda çıxış edirlər. Məlum olduğu kimi, Bretton –Vuds valyuta sistemində bu rolu valyutaların qızıl paritetləri oynayırdı.

MUHASIBAT.AZ

Yamaya razılaşması isə valyuta «zənbili» prinsipindən istifadə edir. 1.01.1981-ci ildən başlayaraq, «zənbilin» tərkibinə beş iri kapitalist ölkəsinin valyutaları daxil idi. Bu ölkələr 1975-1979-cu illərdə mal və xidmət ixracının ən böyük həcminə malik idi. Onlar ABŞ, Yaponiya, AFR, Fransa və İngiltərə idi. Yeni «zənbildə» ümumi həcmin 42%-ni dollar, 19%-ni marka, 13%-ni isə iena, frank və funt sterlinq təşkil edirdi. Bu beş valyuta SDR-lə əməliyyatlar üzrə faizi də müəyyənləşdirirdi. 1999-cu ildə Beynəlxalq valyuta fondu sənaye cəhətdən inkişaf etmiş ölkələrin əksəriyyətinin vahid valyutaya keçid prosesinin təsiri ilə alman markasını və fransız frankını SDR zənbilində avroya dəyişdi. Bu zənbildə ABŞ dollarının 39%-nə və yapon ienasının 28%-nə qarşı yeni valyutanın payı 32% idi.

Hal hazırda BVF hər gün SDR-in dəyərini dollarla hesablayır, SDR-in kursunu «zənbilin» digər valyutalarında müəyyənləşdirir. Beynəlxalq hesablaşmaların yerinə yetirilməsinə kömək edən milli valyutalar bu planda mahiyyətcə SDR-in nişanları kimi çıxış edirlər. Londonun deviz bazarında «zənbildəki» valyutalara nəzərən dolların gündəlik kursu əsas götürülür. Əgər London bazarı bağlıdırsa, Nyu-Yorkun deviz bazarından istifadə olunur. Əgər o da fəaliyyət göstərmirsə, Frankfurt-Mayndakı deviz bazarının kurslarından istifadə olunur.

SDR təkcə hesablama vahidi deyil, eyni zamanda həm də beynəlxalq hesablaşmalar vasitəsi, müasir beynəlxalq likvidliyin mühüm tərkib elementidir. Məhz buna görə də o, 1970-ci ildə beynəlxalq valyuta münasibətlərinə tətbiq edilmiş, qızıl və ehtiyat valyutalarla bir sırada dayanmışdır.

Qərbi Avropa ölkələrində beynəlxalq pul münasibətlərinin aparıcısı qismində «Avropa valyuta vahidi» (ekyü) geniş istifadə olunurdu. O, Avropa valyuta sisteminin əsas elementlərindən biri və şərti hesablaşma vahidi kimi 13 mart 1979-cu ildən fəaliyyət göstərir.

Bununla belə, ölkələr arasında cari hesablaşmalar və ya beynəlxalq hesablaşma əməliyyatları ilə bağlı problem aşağıdakı məsələlərin həllinə gətirib

MUHASIBAT.AZ

çıxarır. Bir valyutanın digər valyutaya dəyişməsi hansı nisbətlə və ya hansı kursla həyata keçirilə biləcək, ölkənin digər ölkələrlə aktiv ödəniş balansı nəticəsində yaranan özgə ödəniş vasitələri necə istifadə olunacaq, ölkənin özgə ödəniş vasitələrinə olan çatışmazlıqları necə tamamlanacaq? Hər şeydən əvvəl beynəlxalq hesablaşmalarla əlaqədar olan valyuta qanunvericiliyi daima bu problemin həll edilmə zərurəti ilə qarşılaşır.

Beynəlxalq iqtisadi münasibətlərin müasir inkişaf mərhələsində dövlətlərarası valyuta münasibətlərinin millidən üstün olan müxtəlif tənzimlənmə orqanlarının rolu tədriclə artır. Bu özünü millidən üstün olan valyuta maliyyə istitutlarının buraxdığı qiymətli kağızların hesablaşma vahidlərinin istifadəsində büruzə verir. Belə hesablaşma vahidlərindən ən məşhuru «alınmışların xüsusi hüquqları» adlanır və ingilis abbreviaturasında SDR kimi işarə olunur.

«Alınmışların xüsusi hüquqları» - Beynəlxalq valyuta fondu tərəfindən süni şəkildə yaradılmış, ödəniş balansları saldosunun tənzimlənməsi üçün, BVF ilə hesablaşmaların və rəsmi ehiyatların tamamlanması üçün beynəlxalq ödənişlər sistemində istifadə olunan ehtiyat vasitələrdir. Lakin ödəniş vasitəsi kimi SDR-in istifadəsi haqqında yalnız şərti danışmaq olar. Onların tətbiq sistemi bundan ibarətdir ki, bütün SDR-in məbləği SDR barədə 1969-cu il razılaşmasının iştirakçı ölkələri arasında bölüşdürülür. SDR-in birinci bölüşdürülmə prosesində, 1970 -1972-ci illərdə dövriyyəyə 9,315 milyard SDR buraxılmışdırsa, ikinci bölüşdürmədə 1979 -1981-ci illərdə dövriyyəyə daha 12,0 milyard SDR buraxılmışdır. Hər bir ölkə özünün SDR hüdudunda digər ölkənin valyutasını almaq hüququna malikdir.

Digər ölkələrin valyutalarını SDR-lə əldə etmək əməliyyatları təyinat üzrə və müqavilə üzrə olur. «Təyinat üzrə» əməliyyat ondan ibarətdir ki, ödənişlə bağlı çətinliklərlə üzləşən ölkə BVF –a müraciət edir və BVF onun üçün kreditor ölkə təyin edir (ödəniş balansının müsbət saldosuna və iri valyuta ehtiyatlarına malik olan ölkələr sırasından). Kreditor ölkə SDR-in əvəzinə öz valyutasını təqdim etməlidir və bu məbləğ onun SBR-lə kumulyativ

MUHASIBAT.AZ

limitinin ikiqat məbləği hüdudunda olmalıdır. «Müqavilə üzrə» əməliyyatlarda SDR-in xarici valyuta mübadiləsi BVF-nun müdaxiləsi olmadan və sazişin iştirakçı ölkələri arasındakı qarşılıqlı razılaşmalar əsasında baş verir. SDR-lə əməliyyatların bu növü o halda tətbiq olunur ki, SDR-ə sahib olan ölkənin valyutası onun valyuta intervensiyaları vasitəsilə alınması nəticəsində digər ölkələrin ehtiyatına keçir. Bu zaman valyutası bu cür qarşılıqlı cəhdlərlə müdafiə olunan ölkə onu başqa dövlət ehtiyatlarından SDR əvəzinə alır.

XX əsrin sonuna qədər digər beynəlxalq hesablaşma vasitəsi ekyü (orta əsrlərdə fransız gümüş pul bu cür adlanırdı) idi. Ekyü Qərbi Avropa ölkələrində şərti vahid kimi çox geniş istifadə olunurdu. Ekyü 1979-cu il martın 13-dən fəaliyyət göstərən Avropa valyuta sisteminin əsas elementlərindən biri idi.

Kursların kənara çıxma hədləri müəyyənləşdirilmiş hüdudları keçən halda, AVS –ə üzv ölkələrin mərkəzi bankları partnyorların valyutalarını qeyri məhdud ölçülərdə almaq məcburiyyətində qalırdılar. Bu hüdudlar vaxtilə Avropa hesablaşma vahidinin (ere) əsası olan doqquz valyutanın ekyüyə nisbəti ilə müəyyənləşirdi: Qərbi Almaniya markası, fransız frankı, Britaniya funt sterlinqi, holland quldeni, İtaliya liri, Belçika frankı, irland funtu, Daniya kronu və Lüksemburq frankı.

Kursların qarşılıqlı mərkəzi kurslardan ekyüyə nəzərən dəyişmə həddi yeddi valyuta üçün +-2,25%, İtaliya liri üçün isə +-6% müəyyənləşdirilmişdir. Valyuta kursunun «qeyri normal» vəziyyəti haqqında siqnal verən göstərici «kənara çıxma həddi» adlanır və aşağıdakı düsturla hesablanırdı:

$$P(o) = 0,75 * 2,25 * (100 - U(v)). \qquad (23.1)$$

Burada U(v) – ekyü zənbilində valyutanın xüsusi çəkisidir (İtaliya liri üçün 2,25 əvəzinə 6,0 istifadə olunurdu).

Bu və ya digər valyutanın kursu həmin həddə çatan halda milli banklar onun stabilləşdirilməsi üzrə tədbirlər keçirməyə borcludurlar. AVS daxilində belə qeyd olunmuş nisbətlər «kross kurs» adını almışlar.

MUHASIBAT.AZ

Ekyünün ilkin emissiyası Avropa valyuta əməkdaşlığı fondunda (AVƏF) olan depozitlər əsasında və AVS –ə üzv ölkələrin qızıl və dollar ehtiyatlarının müəyyən hissələri (hər növ ehtiyatın 20%-i) əsasında həyata keçirilmişdir. Bu əmanətlər üçaylıq borcları təmsil edirdilər, yəni AVS-ə üzv ölkələr öz qızıl və dollar ehtiyatlarının beşdə bir hissəsini ekyüyə dəyişmişdirlər. Həm də AVƏF–da depozitə qoyulmuş qızıl son altı ayın orta bazar qiyməti ilə (ekyüyə hesablanmış) qiymətləndirilirdi (bu dövrün axırıncıdan əvvəlki iş gününün bazar qiymətindən çox olmayaraq). Dollarla olan əmanətlər isə ekyüdə hesablanılır və bu zaman hesablanma tarixinə iki iş günü qalmış anın qeyd edilən dollar kursundan istifadə olunurdu.

Dövriyyəyə buraxılan ekyünün miqdarı dörd faktordan asılı idi: qızılın qiymətindən, ABŞ dollarının kursundan, AİB-ə daxil olan ölkələrin ehtiyatlarındakı qızıl və dolların nisbi ölçüsündən, emissiyanın təminat fondu qismində istifadə olunan qızıl-dollar ehtiyatlarının payından.

İlk iki faktor AİB-in birbaşa səlahiyyəti xaricində yerləşir və bazar konyunkturası ilə müəyyənləşirdi. Üçüncü faktor ayrı ayrı ölkələrin siyasi və iqtisadi üstünlüklərindən asılı idi. Yalnız dördüncü faktor Avropa valyuta sisteminə daxil olan ölkələrin birgə qərarları ilə bilavasitə əlaqədar idi.

Ekyü təkcə valyutanın dəyər etalonu və valyuta kurslarının kənara çıxma «indikatoru» deyildi, o həm də valyuta orqanları arasında hesablaşma vasitəsi və dövlətlərarası kreditlərdə, beynəlmiləl əməliyyatlarda hesablama vahidi idi. Ekyüdə olan kreditlər AVƏF tərəfindən yox, AİB –in iştirakçı ölkələri tərəfindən təqdim edilir və aşağıdakı növlərə ayrılırdı:

*qısamüddətli borclar. Onların müddəti valyuta intervensiyasının həyata keçdiyi ayın qurtarmasından 45 gün sonra başa çatırdı;

*qısamüddətli valyuta yardımları üçaylıq kreditləri ifadə edir. Ayrı ayrı hallarda onların vaxtı 9 aya qədər uzadıla bilər;

*ortamüddətli maliyyə köməyi SM AİB tərəfindən müəyyənləşdirilmiş valyutanın stabilləşdirilmə tədbirlərinin keçirilməsi şərti ilə 2 ildən 5 ilə qədər

MUHASIBAT.AZ

təqdim olunur (onların istifadə olunmasına nəzarəti Avropa komissiyası və AİB Valyuta komitəsi həyata keçirir).

Hal hazırda qızıl özünəməxsus ödəniş və alış vasitəsidir. Bu onunla əlaqədardır ki, heç bir ölkə idxal mallarını bilavasitə qızılla almır. Məsələ bundadır ki, indiki zamanda malların dəyəri qızılın hər hansı ekvivalent çəkisi ilə ifadə olunmur. Ona görə də qızılı olan və aldıqdarını qızılla ödəmək istəyən ölkə xaricdə istehsal olunan malı almamışdan əvvəl qızılı xüsusi bazarda başqa mallar kimi satmalı, sonra isə əldə etdiyi valyutadan istifadə edərək tamamilə başqa kontraqentlərdən zəruri malları almalıdır.

1999-cu ildə yanvarın 1-də Avropa iqtisadi və valyuta birliyinin (AİB) ölkələri tərəfindən ekyü əvəzinə vahid valyutanın – avronun tətbiqi nəticəsincdə beynəlxalq hesablaşmalarda nəzərəçarpacaq dəyişikliklər baş verdi. Xarakterik haldır ki, avronun ilkin kursu 1 avro -1 ekyü (1998-ci il 31 dekabr vəziyyətində) nisbətində müəyyənləşdirilmişdir. AİB-in iştirakçı ölkələri Avstriya, Belçika, Almaniya, İrlandiya, İspaniya, İtaliya, Lüksemburq, Niderland, Portuqaliya, Finlaqdiya və Fransa (sonradan Yunanıstan da qəbul olundu) oldular.

Avronun dövriyyəyə buraxılması iki mərhələdə həyata keçirilir. Birinci mərhələ 1999-cu il yanvarın 1-dən 2001-ci il dekabrın 31-ə qədərki dövrü əhatə edirdi. Bu mərhələdə avro milli valyutalarla yanaşı qeyri nağd pul dövriyyəsində istifadə olunurdu. Təsərrüfat subyektləri əvəz olunan milli valyutalar və avro arasında seçim etmək hüququna malik idilər. Banklararası hesablaşmalar, maliyyə bazarları və dövlət qiymətli kağızlarının emissiyası kimi sferalar 1999-cu il yanvarın 1-dən tam həcmdə avronun istifadəsinə keçdilər.

İkinci mərhələ 2002-ci il yanvarın 1-dən 2002-ci il iyulun 1-ə kimi davam edir. Bu mərhələdə AİB-də iştirak edən ölkələrin milli valyutaları qeyri nağd pul dövriyyəsinin bütün sferalarında avro ilə əvəzlənir. Nağd banknotlar və pullar nağd pul dövriyyəsinə daxil olur və AİB ölkələrinin milli pul nişanları

MUHASIBAT.AZ

ilə yanaşı istifadə olunur. AİB ölkələrinin milli pul nişanları isə 2002-ci il iyulun 1-dən etibarən qanuni ödəniş vasitəsi statusunu itirir.

1999-cu il yanvarın 1-dən etibarən ekyü Avropa birliyinin hesablaşma pul vahidi kimi aradan götürüldü. Hüquqi sənədlərdə ekyü ilə bağlı bütün mənbələr avro ilə bağlı mənbələrlə əvəz olundu. Ekyüdə olan vəsaitlər isə avro ilə hesablandı. Eyni zamanda AİB ölkələrinin milli valyutalarının avroya hesablanma kursları qəti şəkildə qeyd olundu, həmçinin əvəzləyici milli valyutalarda vəsaitlərin avroya hesablanmasına və yuvarlaqlaşdırma xətalarına görə kurs fərqlərindən qaçmağa imkan verən xüsusi prosedurlar müəyyənləşdirildi. AİB-in iştirakçı ölkələri öz aralarında razılaşdılar ki, komisyon haqları çıxmamaq şərti ilə milli valyuta ilə olan vəsaitlərin avroya və əksinə konversiyasını həyata keçirsinlər və müştərilərin hesablarından çıxarılmış qeydlərdə məbləğ həm avro ilə, həm də milli valyuta ilə göstərilsin.

Beynəlxalq valyuta bazarlarında MDB ölkələrinin milli valyutalarına nəzərən avronun rəsmi kursunun müəyyənləşdirilməsi üçün avronun ABŞ dollarına nəzərən kursu əsas götürülürdü. AİB iştirakçı ölkələrinin milli valyutalarının MDB ölkələrinin milli valutalarına nəzərən rəsmi kursları MBD ölkələrinin mərkəzi bankları tərəfindən müəyyənləşir. Bu kurslar MDB ölkələrinin milli valyutalarına nəzərən avronun rəsmi kursu əsasında, 1998-ci il 31 dekabr tarixdə qeyd edilmiş avroya konversiya kurslarının yenidən hesablanması yolu ilə müəyyənləşir. Birinci mərhələdə xarici təsərrüfat subyektləri ilə AİB ölkələrinin kontraqentləri arasındakı hesablaşmalar onların öz banklarının müxbir hesabları vasitəsilə və müştərilərin avronu əvəzləyə biləcək milli valyutalardakı hesabları vasitəsilə həyata keçirilirdi. Birinci mərhələdə MDB ölkələrinin təsərrüfat subyektləri avro ilə hesablar açmalı idilər.

MUHASIBAT.AZ

23.2. BEYNƏLXALQ İQTİSADİ MÜNASİBƏTLƏRDƏ HESABLAŞMA FORMALARI

Beynəlxalq hesablaşmalar dövlətlər arasında, müxtəlif ölkə ərazilərində yerləşən hüquqi və fiziki şəxslər arasında xarici iqtisadi fəaliyyətin həyata keçirilməsi zamanı yaranan pul tələbləri və öhdəlikləri üzrə ödənişlərin təşkilat və tənzimlənmə sistemini təmsil edir. Beynəlxalq hesablaşmalarda əsas vasitəçilər rolunda banklar çıxış edir. Banklar xarici iqtisadi fəaliyyətin vasitəçilərinin – müştərilərinin pul vəsaitlərinin dövlətlərarası hərəkətini təmin edirlər. Beynəlxalq ödənişlərin əsas hissəsi qeyri nağd hesablaşmalar qaydasında aparılır.

Beynəlxalq hesablaşma əməliyyatları sistemi digər ölkələrdəki banklarla müxbir əlaqələri adlanan əlaqələrdən istifadə edirlər. Bu, kommersiya banklarının həyata keçirdiyi əməliyyatların daha geniş yayılmış formasıdır. Adətən, bankların müxbir əlaqələri xüsusi hesabların banklar tərəfindən qarşılıqlı şəkildə açılmasına əsaslanır. Bu hesablarda vəsaitlərin müəyyən məbləğləri saxlanılır və həmin vəsaitlərin miqyası banklararası əməliyyatların miqyasından asılı olur. Müxbir xidmətlərinin göstərilməsinə görə banklar tərəfindən komissiya tutulur.

Müxbir münasibətləri, adətən, diplomatik münasibətlərin mövcud olduğu ölkələrin bankları ilə qurulur. Bu münasibətlər ikitərəfli müqavilə və ya məktub mübadiləsi formasında banklararası müxbir razılaşmalarının bağlanması ilə rəsmiləşdirilir. Ona görə də müxbir münasibətləri ödəniş və hesablaşmaların bir birlərinin tapşırığı ilə həyata keçirilməsi məqsədilə banklar arasındakı müqavilə münasibətlərini ifadə edir. Bir birlərinin tapşırıqları üzrə ödənişlərin və hesablaşmaların həyata keçirilməsi üçün bank xarici banklarda və özündə nostro və loro müxbir hesablarını açır. Nostro hesabları xarici banklarda öz müxbir banklarının adına açılır. Bu, ödəniş dövriyyəsinin artıq mövcud hesab vasitəsilə həyata keçirilməsi zamanı müştərilərə xidmətlərin

MUHASIBAT.AZ

göstərilməsi üçün yerinə yetirilir və banklar arasında əməkdaşlığın əsası hesab olunur. Loro hesabları yerli banklarda xarici müxbir banklar üçün açılır.

Beynəlxalq bank əlaqələrinin bu forması çox rahat və məqsədəuyğundur. Bu zaman banklar digər ölkənin şirkətləri, bankları və şəxsləri ilə yalnız ayrı- ayrı, pərakəndə əməliyyatlar keçirirlər (hərçənd onlar çoxsaylı da ola bilir). Müxbir banklar bir birlərinə, adətən, qarşılıqlı əsasda verdikləri ayrı ayrı tapşırıqları yerinə yetirirlər. Bu növ tapşırıqların ən geniş yayılmışları xarici ticarət sövdələşmələri üzrə tapşırıqlar (akkreditivlər üzrə ödənişlər və s.), kredit informasıyasının təmin edilməsidir (müştərilərin iş vəziyyəti haqqında və s.). Banklar bir- birləri ilə əlaqəni əsasən poçt və ya teleqraf vasitəsilə qururlar.

Bir sıra hallarda müxbir əlaqələri daha sanballı maliyyə əsasında qurulan əməkdaşlığa çevrilirlər (iştirak əsasında, o cümlədən qarşılıqlı iştirak əsasında, kapitalda, dayanıqlı kredit əlaqələrində və s.). Son illər beynəlxalq bank əməliyyatlarının mürəkkəbləşməsi ilə və bankların xarici bazara «çıxışının» digər formalarının inkişafı ilə əlaqədar olaraq, müxbir əlaqələrinin əhəmiyyəti bir qədər azalmışdır. Buna baxmayaraq, aparıcı banklar öz müxbir şəbəkələrini bütün dünyada saxlamaqla yanaşı, həm də inkişaf etdirirlər.

Beynəlxalq hesablaşma əməliyyatları bank hesabları vasitəsilə və ya başqa sözlə, qeyri nağd köçürmələr yolu ilə həyata keçirilir. Beynəlxalq iqtisadi münasibətlərdə aşağıdakı ödənişlərdən istifadə olunur:

*avans ödənişlər bank köçürmələri vasitəsilə həyata keçirilir;

*təqdim edilmiş sənədlər əsasında və əsasən akkreditiv və ya inkasso vasitəsilə həyata keçirilən mal təchizatı;

*malların və köçürmələr vasitəsilə həyata keçirilən hesabların daxil olması;

*köçürmədən istifadə olunduğu halda ödəniş müddətinin başlanması.

Xarici ticarət üzrə hesablaşma forması dedikdə malbölüşdürücü ödəniş sənədlərinin beynəlxalq kommersiya və bank təcrübəsində təşəkkül tapmış qeydiyyat, ötürmə və ödənmə üsulları nəzərdə tutulur. Hesablaşmaların əsas

MUHASIBAT.AZ

formaları sənədli akkreditiv, ilkin akseptlə inkasso və bank köçürməsidir. Beynəlxalq hesablaşmalar yalnız öz aralarında müxbir münasibətləri olan banklar vasitəsilə yerinə yetirilir. Hesablaşma formalarının seçimində xarici ticarət sövdələşməsinin obyekti olan malın növü (maşınlar və avadanlıqlar, ərzaq, oduncaq, dənli bitkilər), kredit müqaviləsini olması, xarici iqtisadi sövdələşmələr üzrə kontraqentlərin nüfuzu nəzərə alınır.

Hesablaşmaların konkret formasının seçimi tərəflərin razılığı ilə müəyyənləşir və xarici ticarət müqaviləsində qeyd olunur. Beynəlxalq hesablaşmaların tətbiq formaları onların həyata keçirilmə prosesində kommersiya banklarının payına görə fərqlənir:

*bank köçürməsində bankların iştirak payı minimal olur (müştərinin ödəniş tapşırığının yerinə yetirilməsi);

*inkassasiya tapşırığının yerinə yetirilmə prosesində daha böyük payı var (malbölüşdürücü sənədlərin ötürülməsinə, göndərilməsinə, həmçinin vəkalət verənin təlimatlarına uyğun şəkildə ödəyiciyə verilməsinə nəzarət);

*akkreditivlə iş prosesində banklar maksimal iştirak payına malik olur (akkreditivdə olan əsas şərtlərin sonuncusunun yerinə yetirilməsi zamanı reallaşan ödəmə öhdəliklərinin benefisiara verilməsi).

Beynəlxalq hesablaşma formalarının həyata keçirilməsində bankların iştirak payının differensiasiyası ixracatçı üçün ödəniş təminatının differensiyasına gətirib çıxarır və yüklənmiş mallara görə bank köçürməsində minimal olduğu halda, akkreditivdə maksimal olur. Akkreditiv, faktiki olaraq, akkreditivi açan banka qarşı yüklənmiş mal ödənişinin pul qarantı kimi çıxış edir.

Xarici ticarət sövdələşmələrində istifadə olunan akkreditiv bank öhdəliyidir. Bu öhdəliyə əsasən, bank- emitent (akkreditivi açan) əmr (tapşırıq) əsasında və öz müştərisinin (idxalatçının) təlimatı əsasında hərəkət edərək, üçüncü şəxsə (ixracatçı -benefisiar) ödəniş aparmalı, yaxud bu şəxsin təqdim etdiyi barat veksellərini ödəməli və ya aksept verməlidir. Və yaxud başqa bir banka səlahiyyət verməlidir ki, belə ödənişi həyata keçirsin və ya

MUHASIBAT.AZ

müqavilənin bütün şərtlərinə riayət olunduğu halda nəzərdə tutulmuş sənədlərə qarşı barat veksellərini ya alsın, ya nəzərdə tutsun, ya da aksept versin, haqqını ödəsin. Göründüyü kimi, akkreditiv idxalatçının bankında və onun göstərişi ilə açılır (bank-emitent). Pulların akkreditivdən çıxarılma şərtləri ixracatçının bankına xəbər verilir. Hər bir akkreditivdə onun fəaliyyət müddəti, məbləği, akkreditiv üzrə ödənişi və ixracatçı banka göndərilməsi üçün təqdim olunan sənədlərin siyahısı göstərilir.

Beynəlxalq hesablaşmaların həyata keçirilmə prosesində akkreditivin qapalı (depozitə qoyulmuş) və qapalı olmayan (qarantlı), o cümlədən geri çağırılan və geri çağırılmayan növləri açıla bilər.

Qapalı (depozitə qoyulmuş) akkreditivlər açılan zaman emitent - bank ödəyicinin xüsusi vəsaitlərini və ya ona verilmiş krediti mal satıcısının bankına (icraedici bank) ayrıca balanç hesabına köçürür. Banklar arasında müxbir münasibətlərinin müəyyənləşdirilməsi zamanı icraedici bankda qapalı olmayan (qarantlı) akkreditiv açıla bilir. Bu isə emitent – bankın bankda olan əsas hesabından akkreditivin bütün məbləğinin silinmə hüququnu banka verir. Qapalı olmayan akkreditivin çıxardılması haqqında hüquqi şəxsin xahişi emitent bank tərəfindən ayrıca balansdankəqar hesabda mədaxil olunur. Bu halda üzə çıxan çətinliklər bankların hesablaşma yolu ilə sənədli akkreditiv vasitəsilə həll oluna bilər. Ödənişin akkreditiv forması hesablaşmaların həyata keçirilməsində bankların ən aktiv iştirakını tələb edir.

Sənədli akkreditiv dedikdə istənilən elə müqavilə başa düşülür ki, bu müqavilə əsasında emitent bank (akkreditivi üzə çıxaran bank) idxalçının (əmr verənin) xahişi ilə və onun göstərişlərinə uyğun olaraq üçüncü şəxsə (benefisiara) ödəniş aparmaq öhdəliyini öz üzərinə götürür. Yaxud şərtləşdirilmiş sənədlərə qarşı və razılaşdırılmış şərtlərə uyğun şəkildə belə ödənişin digər bank tərəfindən aparılmasına və ya barat veksellərinin digər bank tərəfindən ödənilməsinə və ya akseptinə sərəncam verir. Akkreditiv hesablaşmalar o halda tətbiq olunur ki, hesablaşmaların verilmiş formaları müqavilə ilə, ödənişlərin sistematik şəkildə ləngiməsi ilə (onun

MUHASIBAT.AZ

uzunmüddətliliyindən asılı olmayaraq) müəyyənləşir. Bu halda malgöndərən alıcını hesablaşmaların adı çəkilən formalarına keçirir.

Akkreditivin açılması (üzə çıxarılması) alıcının xüsusi vəsaitlərinin hesabına və ya bankın kreditləri hesabına həyata keçirilir. Bu kreditlər alıcının bankında akkreditiv məbləğdə depozitə qoyulur. Beynəlxalq hesablaşmaların həyata keçirilmə prosesində alıcı, alıcının bankı, satıcı, satıcının bankı iştirak edir. Satıcının bankı alıcı bankının müxbiri olur. Hesablaşma mexanizmi aşağıdakı kimi qurulur. Əvvəlcə alıcı öz bankına tapşırıq verir ki, satıcının xeyrinə sənədli akkreditiv açsın, yəni malların müqavilə şərtlərinə uyğun şəkildə yüklənməsini təsdiq edən sənədlərin ötürülməsinə qarşı malın ödəniş öhdəliyini öz üzərinə götürsün. Alıcı (əmr verən) akkreditivin açılması haqqında ərizəsində özünün bank –emitentlə münasibətlərini müəyyənləşdirir. Alqı - satqı müqaviləsində nəzərdə tutulmuş bütün mühüm şərtlər bu ərizədə olmalıdır.

Alıcının bankı öz müxbirinə (satıcının bankına) tapşırır ki, sənədli akkreditiv haqqında bildirişi satıcıya göndərsin və zərurət olan halda onu özünün təsdiqi ilə təchiz etsin. Ödəniş müqavilə əsasında dərhal və ya müəyyən müddətdən sonra həyata keçirilə bilər.

Əgər ödəniş dərhal yerinə yetirilirsə, malın yüklənməsindən sonra satıcının bankı sənədlərin müqavilə şərtlərinə uyğunluğunu yoxlayır. Əgər sənədlərlə müqavilə şərtləri uyğunluq təşkil edirlərsə, satıcının bankı sənədləri qəbul edir və satıcının hesabını müqavilədəki məbləğlə kreditləşdirir. Belə sövdələşmə «ödənişə qarşı sənədlər» adlanır. Satıcının bankı dərhal öz müxbirindən (alıcının bankından) əvəz alır və sənədləri ona göndərir. Alıcının da bankı öz növbəsində bu sənədləri öz müştərisinə (alıcıya) təqdim edir. Alıcı təqdim olunmuş sənədlər əsasında mal alır.

Əgər ödəniş müəyyən müddətdən sonra həyata keçirilirsə, satıcının bankı satıcının hesabını kreditləşdirmək əvəzinə barat vekselini müqavələdəki məbləğ qədər satıcının xeyrinə akseptləşdirir. Bu yolla «akseptə qarşı sənədlər» sövdələşməsi baş verir. Satıcının bankı alıcı bankının hesabını debetə qoyur. O

MUHASIBAT.AZ

isə öz növbəsində alıcının hesabını həmin müddətə debetə qoyur. Axır nəticədə, satıcı alıcıya kredit verir, lakin bu kredit satıcı üçün barat vekseli ilə deyil, danılmaz bank aksepti ilə qeyd olunmuşdur, çünki barat vekselinin dürüstlüyü ona şübhəli görünə bilərdi.

Sənədli akkreditivlərlə keçirilən hesablaşmalarda sövdələşmənin həyata keçirilmə mexanizmi şəkil 23.1.-də göstərilmişdir.

Emitent –bank 10 İcraedici bank

9

(idxalatçının bankı) 3 (eksportçunun bankı)

11 2 4 7 8

Akkreditivin əmr verəni 1 Benefisiar

(idxalçı) (eksportçu)

13 12 5 6

Kirələyən

Şəkil 23.1. Sənədli akkreditivlə hesablaşmalar zamanı əməliyyatların ardıcıllığı

Sənədli akkreditivlə hesablaşmalarda əməliyyatların tərkibi aşağıdakılardan ibarətdir:1 – eksportçu və idxalatçı müqavilə bağlayırlar. Bu müqavilənin mövzusu müəyyən malın təchizatından ibarətdir və müqavilənin şərtinə görə, sövdələşmə üzrə bütün hesablaşmalar akreditiv vasitəsilə aparılmalıdır (akkreditivin daha əhəmiyyətli şərtləri də burada şərtləşdirilməlidir);2-idxalatçı öz bankına akkreditiv açmaq barədə tapşırıq verir;3-akkreditivi açan bank (emitent bank) onu eksportçu ölkəsindəki

MUHASIBAT.AZ

müxbir bankına yollayır;4-bank akkreditivi benefisiara (eksportçuya) avizo göndərir;5-eksportçu malı göndərir;6-eksportçu kirələyəndən yüklənmə sənədlərini alır;7-eksportçu akkreditivdə nəzərdə tutulmuş sənədləri avizo göndərilmiş banka təqdim edir;8-avizo göndərilmiş bank sənədlərin akkreditivdəki şərtlərlə uyğunluğunu yoxlayır və ödənişi həyata keçirməyə səlihiyyəti çatırsa, həmçinin akkreditivin şərtləri yerinə yetirilirsə, sənədlər üzrə məbləğin ekvivalentini benefisiara ödəyir;9-avizo göndərilmiş bank sənədləri akkreditivi açan banka göndərir;10-benefisiara ödənmiş məbləğ ödəyici bankla emitent bank arasındakı hesablaşmalarda iştirak edir (əgər akkreditivi açan bank sənədləri alan zaman orada akkreditiv şərtləri ilə uyğunsuzluq aşkar edərsə, ödəyici bankın diqqətini bu məsələyə yönəldə bilər və bu rambursda onu rədd edə bilər);11-emitent bank sənədləri idxalatçıya ötürür və eyni zamanda onu sənədlərdəki məbləğin ekvivalenti üzrə debetə yazır.;12-idxalatçı malı almaq üçün sənədlərdən istifadə edir;13-idxalatçı malı alır.

Hesablaşmalarda akkreditivin iki növü tətbiq olunur. sənədli (mal) akkreditivlər və pul (dövretmə) akkreditivləri. Sənədli akkreditivlərdə mal və xidmətlər üzrə hesablaşmalar akkreditivdə şərtləşdirilmiş sənədlərin təqdim edilməsi ilə şərtlənirsə, pul (dövretmə) akkreditivlərinin ödənişi kommersiya sənədlərinin təqdim edilməsi ilə şərtlənmir. Beynəlxalq hesablaşmaların bu forması ödənişin etibarlı təminatıdır. Həm də bank benefisiar akkreditivin girovu ilə krediti ala bilər. Lakin bu, sənədələrin rəsmiləşdirilməsi məsələsinə daha sərt tələblərlə bağlı mürəkkəb formadır. Beynəlxalq hesablaşmaların bu formasındakı çatışmazlıqlar sırasında sənədlərin bankdan keçmə prosesində ləngimələrin olmasını, akkreditivin yüksək qiymətini göstərmək olar. Məsələ bundadır ki, hesablaşmaların bu forması böyük iş proseduru ilə əlaqədardır. Ona görə də akkreditiv üzrə tutulan komissiya ödənişin digər üsulları ilə müqayisədə daha yüksəkdir.

Təsdiq olunmuş akkreditivin benefisiara xəbər edilməsi digər bank tərəfindən də həyata keçirilə bilər və həm də xəbər verən bank tərəfindən heç bir məsuliyyət daşınmaz. Emitent bankın tapşırığı ilə geri çağırılmayan

MUHASIBAT.AZ

akkreditiv digər bank tərəfindən təsdiqlənə bilər (geri çağırılmayan təsdiq olunmuş akkreditiv). Akkreditivi təsdiq edən bank benefisiar qarşısında akkreditivin şərtləndirdiyi ödənişləri vaxtında həyata keçirməyə borcludur. Ona görə də yalnız geri çağırılmayan akkreditivin təsdiqlənmiş olması mümkündür. Geri çağırılmayan təsdiqlənmiş akkreditivin eksporçuya verdiyi üstünlük ondan ibarətdir ki, onun qarşısında təkcə emitent bank yox, həm də akkreditivi təsdiqləyən bank (bir qayda olaraq, eksportçu ölkənin bankıdır, lakin üçüncü tərəfin də bankı tərəflərin razılığı ilə akkreditivi təsdiqləyə bilir) cavab verir. Təsdiqləyən bank öz üzərinə emitent bankın götürdürü öhdəlikləri götürür.

Akkreditiv digər bank tərəfindən təsdiqləndiyi halda eksportçu bəzi risklərin əlavə qarantlarını –emitent bank tərəfindən təmin oluna bilməyən qarantları alır. Xüsusi halda söhbət idxalçı ölkədə xarici hesabların valyutalaşdırılma qadağaları ilə, yəni ticarət öhdəlikləri üzrə xarici valyutanın ödənilməsi ilə bağlı risklərdən gedir. Akkreditivləri təsdiq edən banklar, bir qayda olaraq, özlərini göstərilən risklərdən sığortalayırlar. Bu məqsədlə də, onlar emitent bank tərəfindən təsdiqlənmə zamanı vəsaitlərin dərhal akkreditiv üzrə gözlənilən ödəniş ödəmələrinə köçürülməsini tələb edirlər. Bu isə akkreditivin açılan anından həmin vəsaitlərin ödənilməsinə qədərki dövrdə idxalatçının vəsaitlərinin dondurulmasına gətirib çıxarır. Bundan başqa, mal hesablaşmalarında idxalatçı banka ödənilən komisyon haqlar üzrə ikiqat xərc çəkir. Ona görə də idxalatçılar təsdiqlənmiş akkreditivlərdən qaçmağa çalışırlar. Ticarətin normal şərtləri çərçivəsində akkreditivlərin təsdiqlənməsi eksportçulara o halda tələb olunur ki, eksportçu emitent banka etibar etməsin (əgər müqavilədə başqa şərt göstərilməyibsə, emitent bankın seçim hüququ alıcıya məxsusdur).

Köçürmə akkreditiv (transferabel) benefisiara hüquq verir ki, ödənişi, aksepti və ya barat veklellərinin (sənədlərin) alınmasını həyata keçirən banka akkreditivin tamamilə və ya hissə- hissə bir və ya bir neçə üçüncü şəxsə (ikinci benefisiarlara) köçürülməsi barədə göstəriş versin. İkinci benefisiarlar

MUHASIBAT.AZ

transferabel akkreditivin gələcək köçürmə hüququna malik deyillər. Əgər akrreditivdə emitent bank tərəfindən onun transferabelliyi barədə qeyd varsa, o halda akkreditiv köçürülən ola bilər. Bu halda «bölünmüş», «parçalanmış», «başqasına satılmış», «ötürülmüş» terminləri tətbiq olunmamalıdır, çünki onların hamısı «transferabel» termini tərəfindən udulur.

Akkreditivlər üzrə hüquqların ötürülməsi ona görə baş verir ki, təchizatçı subtəchizatçını akkreditivin vəsaitləri ilə maliyyələşdirə bilsin. Əgər akkreditivin şərtlərində natamam yüklənmələr qadağan olunmayıbsa, transferabel akkreditivin hissələri ayrıca köçürülə bilər. Adətən, transferabel akkredativ bir ölkə çərçivəsində tətbiq olunur. Akkreditivin başqa ölkəyə köçürülmə hüququ akkreditivin şərtlərində birbaşa göstərilməlidir. İdxalatçı subtəchizatçıları tanımadığını və onun qarşısında müqavilə üzrə yalnız təchizatçının cavab verdiyini əsas gətirərək, bu şərtdən imtina edə bilər.

Tapança akkreditivi onun icra prsesində akkreditivin təsir göstərdiyi bütün dövr ərzində avtomatik olaraq ilkin məbləğə qədər tamamlanır. Tapança akkreditivləri o halda tətbiq olunur ki, malın xaricdə satılması təcrid olunmuş sövdələşməni ifadə etməsin, xarici alıcı isə eksportçunun daimi müştərisi olsun. Alıcı daima təsir göstərən göstərişləri banka verir və bu göstərişlər eksportçunun xeyrinə akkreditivin açılması ilə bağlı olur. Akkreditivin məbləği müəyyənləşdirilmiş maksimumu istənilən anda aşmamalıdır. Belə razılaşmanın üstünlüyü akkreditivin yenidən bərpa edilməsinin tələb olunmaması və dəftərxana xərclərinin azalmasıdır.

Kompensasiya (qarşılıqlı) akkreditivi geriyə ixrac əməliyyatlarında və qarşılıqlı sövdələşmələrdə tətbiq olunur. Qarşılıqlı akkreditivin təcrübədə mal təchizatının maliyyələşdirilmə üsulu kimi istifadə olunması o halla məhdudlaşır ki, bu zaman qarşılıqlı sövdələşmənin hər iki iştirakçısı bir birlərinə eyni bir bankda akkreditiv açsınlar. Qiymətlər və hesab –fakturalar istisna olmaqla, hər iki akkreditivin şərtləri bir- birləri ilə üst- üstə düşməlidir.

Akkreditiv məktubun özünəməxsus xüsusiyyəti ondan ibarətdir ki, bu məktub satıcının ölkəsindəki banka yox, benefisiara göndərilir. Satıcının

MUHASIBAT.AZ

ölkəsindəki bank yalnız ötürücü mərhələ kimi istifadə oluna bilər. Benefisiar malın göndərilməsindən və bütün zəruri sənədlərin əldə edilməsindən sonra onları ya özünün seçdiyi banka göndərməli, ya da ödənilməsi üçün akkreditiv məktubu yazan banka bilavasitə yollamalıdır. Akkreditiv kommersiya məktublarının formasındakı hesablaşmalar alqı satqı müqaviləsindəki tərəflərlə razılaşdırılmalıdır. Qalan məsələlərdə isə akkreditiv məktublar sənədli akkreditivlərə uyğun gəlir.

Akkreditiv üzrə vəsaitlərin alınması üçün eksportçu malları yükləyərək hesabların reyestini, yüklənmə sənədlərini və akkreditivin şərtlərində nəzərdə tutulmuş başqa sənədləri xidmət göstərən banka təqdim edir. Akkreditiv üzrə ödənişləri təsdiq edən sənədlər akkreditiv müddəti qurtarana qədər təchizatçı tərəfindən banka təqdim edilməli və akkreditivin bütün şərtlərinin yerinə yetirilməsi təsdiqlənməlidir. Bu şərtlərin heç olmasa biri pozularsa, akkreditivlər üzrə ödənişlər həyata keçirilmir.

Akkreditiv sövdələşmələrdə aşağıdakı prinsip təsir göstərir: bütün iştirakçılar sənədlərin uyğunlaşdırıldığı mallarla və ya xidmətlərlə yox, sənədlərlə işləyirlər. Ona görə də akkreditiv sövdələşmələrdə meyar rolunu yalnız tələb olunan sənədlərin keyfiyyəti oynayır. Məhz buna görə də, bankın nəzarət üzrə öhdəlikləri eksportçu ilə idxalatçı arasında əsas sövdələşmənin adekvat keçirilməsinə, təchizatın keyfiyyət və kəmiyyət tərəflərinə, sənədlərin həqiqiliyinə tətbiq olunmur.

Bankların vəzifəsi bütün sənədləri ciddi cəhdlə yoxlamaq və əmin olmaqdır ki, bu sənədlər öz xarici formasına görə akkreditivin şərtlərinə cavab verir. Beləliklə, bankların nəzarət öhdəlikləri sənədlər və akkreditiv şərtlər arasında sırf formal uyğunluğun yoxlanılması ilə məhdudlaşır. Bu mənada ilk planda üç meyar durur: sənədlər toplusunun tamlığının yoxlanması, sənədlərin tələblərlə xarici uyğunluğu, sənədlər arasında ziddiyyətlərin olmaması.

Sənədlərin yoxlanması ilə əlaqədar olaraq, emitent banka digər bankdan (xəbər göndərən) və ya benefisiardan sənədlər daxil olan anda emitent banka göstərilən xüsusi tələbləri nəzərə almaq lazımdır. Əgər emitent bank sənədləri

MUHASIBAT.AZ

alan zaman onların xarici formaya görə akkreditiv şərtlərə uyğun gəlmədiyini görürsə, onda həmin sənədləri qəbul, yoxsa rədd edəcəyini müstəqil şəkildə həll etməlidir. Sənədlərin yoxlanmasına və qəbul edib-etməmək qərarına müəyyən vaxt ayrılır (Avropada, adətən, bir neçə gün ayrılır). Əgər emitent bank sənədləri rədd etmək qərarına gəlirsə, bu xəbəri ləngitmədən telekommunikasiya şəbəkəsi ilə və ya (belə imkan yoxdursa) istənilən başqa yolla sənədləri verən banka göndərməli, sənədlər bilavasitə benefisiardan alınmışdırsa, xəbər benefisiara göndərilməlidir. Bu bildirişdə emitent bank tərəfindən sənədlərin rədd edilməsinə gətirib çıxaran bütün səbəblər göstərilməlidir. Həmçinin sənədlərin onları təqdim edən şəxsin sərəncamında (remitent bank və ya benefisiar) qalacağı, yoxsa geri qaytarılacağı da bildirilməlidir. Əgər emitent bank bu davranış modelindən kənara çıxsa və sənədləri adı çəkilən şəxslərin sərəncamına verməsə (əmr verənin onlardan istifadə etməsi üçün), yaxud onları geri qaytarmasa, sənədlərin akkreditiv şərtlərlə uyğunsuzluğu ilə bağlı iddialarını irəli sürə bilməz.

Akkreditiv sövdələşmələrin bir sıra kommersiya aspektləri var. Bunlar eksportçunun və idxalatçının akkreditivindən gələn xeyir, həmçinin partnyorların məruz qaldığı riskdir.

Eksportçu üçün xeyir ondan ibarətdir ki, bank akkreditivdə göstərilmiş məbləği alıcıdan asılı olmayaraq ödəyir, alıcı heç bir bəhanə ilə ödənişi ləngidə bilmir. Alıcı mallara şikayət verə bilər, lakin o bunu akkreditivdən ayrı etməlidir. Akkreditiv eksportçuya sövdələşmə üzrə daha ağır çəkili müqavilə mövqeyi verir. Bankın göndərdiyi köçürmələrdə baş verə bilən ləngimələr akkreditvdə aradan qaldırılır. Akkreditiv üzrə ödənişlər, adətən, daha tez aparılır.

İdxalatçı üçün xeyir ondan ibarətdir ki, akkreditivi açan idxalatçı özünün möhkəm maliyyə vəziyyətini təsdiq edir və daha əlverişli ödəmə şərtlərinə nail ola bilir. Mallar təchizatın akkreditivdə göstərilmiş şərtləri ilə uyğunlaşdırılır, alıcı tələb etdiyi sənədləri daha tez alır. Alıcı əmin ola bilər ki,

MUHASIBAT.AZ

ödənişi yalnız sənədlərlə akkreditiv şərtlərinin üst- üstə düşdüyü halda aparacaq.

Bununla belə, idxalatçı aldığı təchizatın müqaviləyə tam uyğun olmaması ilə risk edir. Bunu sığortalamaq üçün tələb edilməlidir ki, akkreditiv altında eksportçunun ölkəsindən olan hər hansı müstəqil auditor şirkətinin müfəttiş sertivikatı təqdim edilsin. Əgər akkreditivi açan bank (idxalatçının bankı) məbləği sənədlərə uyğun şəkildə ödəyə bilmirsə, eksportçunun akkreditiv ödənişləri ala bilməmək riski qalır. Məsələn, əgər akkreditivi açan bankın ölkəsində valyuta ilə bağlı çətinliklər yaransa, bu hal baş verə bilər. Bundan sığortalanmaq istəyən eksportçu akkreditivin sazişdəki partnyor tərəfindən açılmasını tələb etməlidir. Bu akkreditiv eksportçunun ölkəsindəki bankların biri tərəfindən təsdiq olunmalıdır. Belə təsdiq həmin bankın akkreditivdə vəd olunmuş ödənişi müstəqil yerinə yetirmək öhdəliyini əsaslandırır. Əgər emitent bank sənədlərdə göstərilmiş məbləği ödəmək və ya köçürmək iqtidarında deyilsə, təsdiqləyici bank ödənişi həyata keçirməlidir.

İnkasso elə bank əməliyyatıdır ki, bank bu əməliyyat vasitəsilə öz ünvanına yüklənmiş mallara (xidmətlərə) görə, müştərinin tapşırığı ilə və hesablaşma sənədləri əsasında ona çatacaq pul vəsaitlərini ödəyicidən alır və bu vəsaitləri müştərinin bankdakı hesabına keçirir. Sadə inkasso və sənədli inkasso mövcuddur. Sadə inkassoda ödənişin alınması üçün veksellər, çeklər, qəbzlər və bu kimi ödəniş sənədləri təqdim olunur. Sənədli inkassoda isə ticarət sənədləri ilə müşayiət olunan ödəniş sənədləri inkassasiya olunur və ödəniş sənədlərinin inkassasiyası olmadan ticarət sənədləri inkassasiya olunur.

Hesablaşmaların inkasso formasının əsasında eksportçunun öz bankı ilə razılaşması və ya idxalatçının ölkəsində yerləşən bankla razılaşması durur. Bu razılaşma yalnız yüklənmiş malın dəyərinin idxalatçı tərəfindən ödənildiyi halda malpaylayıcı sənədlərin idxalatçıya verilməsi ilə bağlı eksportçunun öhdəliyini nəzərdə tutur. Bu razılaşma çərçivəsində iki cür saziş olur: «sənədlərə qarşı ödəniş» və «sənədlərə qarşı aksept». Bank tərəfindən

MUHASIBAT.AZ

sənədlərin idxalatçıya ötürülməsi onların ödənişindən və ya akseptdən sonra baş verir.

Sənədlərə qarşı ödəniş şərtləri ilə və ya aksept şərtləri ilə inkasso hesablaşması eksportçuya qarant verir ki, alıcı ödənişi aparmayana qədər və ya malın ödənilməsi ilə bağlı öhdəlik qəbul edilməyənə qədər (barat vekselinə aksept vermə) mal alıcının sərəncamına keçməsin. Bununla belə, hesablaşmaların bu formasında bir sıra çatışmazlıqlar var. İdxalatçı- ölkənin bankı tərəfindən sənədlərin alınma anında alıcı ödəniş qabiliyyətini itirə də bilər. Əlavə qarantları olmayan eksportçunun bu halda başqa çıxışı olmayacaq. O, ya malı başqa alıcıya satmalı olacaq, ya da malı qaytarmalı olacaq. Bu isə qeyri istehsal xərcləri ilə əlaqədardır. Bundan başqa, konyunkturanın dəyişməsi zamanı vicdansız alıcı ticarət sənədlərini geri almaqdan imtina da edə bilər. Bu halda eksportçu müqavilənin pozulması ilə bağlı iddia qaldıraraq, ziyanın ödənilməsini tələb edə bilər. Hərçənd çox vaxt bu proses böyük çətinliklərlə və vaxt itkisi ilə əlaqədar olur.

Belə risklərdən qurtulmaq istəyən eksportçu hesablaşmaların inkasso formasına yalnız elə alıcılarla razılaşır ki, onların alıcılıq qabiliyyətinə şübhə etməsin və onların vicdanlığı birgə işin əvvəlki təcrübəsi ilə yoxlanılsın. Həmçinin eksportçu göndərilmiş malın dəyərinin (qiymətinin) alıcı tərəfindən razılaşdırılmış müddətdə ödənilməsi ilə bağlı əlavə zəmanətlər də almağa cəhd edir. Eksportçu başqa bir problemlə qarşılaşır: ödənişin olmadığı, akseptin verilmədiyi halda və ya sənədlər olmasa, mal üzərində mülkiyyət hüququnu, sığorta mükafatını almaq hüququnu necə təmin etməli və ya malın yüklənməsini necə sübut etməli. Öz maraqlarını müdafiə etmək istəyən eksportçu, bir qayda olaraq, sənədləri yalnız bank vasitəsilə göndərir, həmçinin mal –sərəncam və sığorta sənədlərinin bank üzrə çıxarışı ilə özünü müdafiə etməyə çalışır.

Hesablaşmaların inkasso forması akkreditiv forma ilə müqayisədə idxalatçı üçün daha çox sərfəlidirsə, eksportçu üçün daha az sərfəlidir. İdxalatçı üçün hesablaşmaların inkasso formasının cəlbediciliyi həm də onunla

MUHASIBAT.AZ

müəyyənləşir ki, bu hesablaşma formasının aparılma prosesində bank komisiyaları və digər vergilər çox aşağı olur. Eksportçu təşkilatlar da hesablaşmaların inkasso formasına müraciət edə bilərlər. Bu o zaman baş verir ki, hesablaşmaların inkasso forması qarşılıqlıq prinsipləri ilə onların xarici kontraqentləri ilə qarşılıqlı ticarət əlaqələrində tətbiq olunsun və ya hökumətlərarası və ya banklararası razılaşmalarda nəzərdə tutulsun. Hesablaşmaların inkasso formasının tətbiqi eksportçunun idxalatçıdan əlavə qarantları – eksportçunun maraqlarını təmin edən qarantları almaq hüququnu istisna etmir.

Eksportçu üçün hesablaşmaların inkasso formasının mənfi tərəflərinin zəiflədilməsi məqsədilə təcrübədə onun adi formasını dəyişən aşağıdakı şətlər tətbiq olunur:


*idxalatçı tərəfindən bank zəmanətinin təqdim edilməsi. Eksportçunun ya onun bankının adına verilmiş bu zəmanət idxalatçı hər hansı bir səbəbdən malları ödəməkdən imtina etdiyi halda, yüklənmiş malların ticarət sənədlərinin müəyyən məbləği hüdudunda ödənişi nəzərdə tutur;

*yüklənmiş malın dəyərinin (qiymətinin) idxalatçı tərəfindən ödənilməsi eksportçu- ölkə bankının teleqraf bildirişinə qarşı yerinə yetirilir. Bildiriş mal sənədlərinin bank tərəfindən inkasso ilə qəbul edilməsi və onların idxalatçının ölkəsindəki müxbir banka göndərilməsi barədə olur;

*sənədlər üçüncü şəxs tərəfindən (adətən, bank tərəfindən) idxalatçının vəsaitləri hesabına ödənilir. Bu vəsaitlər həmin şəxsin depozitində olur. Üçüncü şəxs ona təqdim edilmiş və müəyyənləşdirilmiş şərtlərə uyğun olan mal sənədlərinin vaxtında və lazımlı şəkildə ödənilməsi üçün eksportçu qarşısındakı məsuliyyəti öz üzərinə götürür.

İnkasso sazişinin həata keçməsi aşağıdakı sxemdə göstərilmişdir (şəkil 23.2.).

MUHASIBAT.AZ



Şəkil 23.2. İnkasso sazişində əməliyyatların ardıcıllığı

İnkasso sazişinin həyata keçirilmə prsesində əməliyyatların ardıcıllığı aşağıdakı kimidir: 1-eksportçu və idxalatçı malın təchizatı haqqında müqavilə bağlayırlar və müqavilədə saziş üzrə hesablaşmaların inkasso vasitəsilə həyata keçiriləcəyi bildirilir; 2-eksportçu malı göndərir;3-eksportçu yüklənmə sənədlərini kirələyəndən alır; 4-eksportçu inkasso sənədlərini remitent banka təqdim edir; 5-remitent bank sənədlərin inkasso şərtləri ilə uyğunluğunu yoxlayır və sənədləri inkassasiya edən banka göndərir; 6-inkassasiya edən bank idxalatçıya sənədlərin gəlməsi (inkassonun mövcudluğu) barədə xəbər verir; 7-idxalatçı inkasso tapşırığında şərtləşdirilmiş müddət ərzində göstərilən məbləği ödəyir və inkassasiya edən bankdan onun üçün nəzərdə tutulmuş sənədləri alır; 8-idxalatçı malları almaq üçün sənədləri təqdim edir; 9-idxalatçı malı alır;10-inkassasiya edən bank icraedici bankın inkassosuna pul məbləğini ödəyir; 11-icraedici bank pulları eksportçunun inkassosuna köçürür.

İdxalatçının bankına müşayiətedici inkasso tapşırığı ilə birlikdə (collection order) sənədlər toplusu (hesablar, spesifikasiyalar, mal-nəqliyyat xərcləri, keyfiyyət sertifikatları və başqaları) daxil olur. Müşayiətedici inkasso tapşırığında tapşırığın hansı bankdan daxil olduğu, onun nömrəsi, sazişin

MUHASIBAT.AZ

məbləği, ödəmə müddəti, ödəyici, inkasso şərtləri göstərilir. Sənədlər alınandan sonra inkasso tapşırığı hesab üzrə uçota götürülür, ödəniş günü hesablanır, müştəriyə inkasso bildirişi göndərilir. Əgər müəyyənləşdirilmiş gündə ödəniş daxil olmayıbsa, inkassonu hesabdan çıxarmaq, başqa hesab üzrə uçota qoymaq (inkassonun vaxtı keçmiş ödəmə ilə uçotu) və müştəriyə ödəməmə barədə xəbər vermək lazımdır. Müştəri ödənişdən imtina etdiyi halda bank xarici banka imtina barədə bildiriş göndərməli, bildirişdə səbəbləri göstərməlidir (məsələn, ödəniş şərtlərinin pozulması, təchizatın əskikliyi). Əgər xarici bank şərtləşdirilmiş vaxtda cavab verirsə, onu müştəriyə xəbər vermək lazımdır. Əgər şərtləşdirilmiş vaxtda cavab yoxdursa, inkasso uçotdan çıxarılır və vaxtı keçmiş nişanı ilə xarici banka qaytarılır. İxracatla bağlı inkassoda isə mərhələlər əks istiqamətdə aparılır və collection order müştəri (eksportçu) tərəfindən doldurulur.

Hesablaşmaların inkasso formasının idxalatçıya xeyri ondan ibarətdir ki, banklar sənədlərin ödəniş anına qədər idxalatçının mala olan hüquqlarını qoruyur, inkasso əməliyyatları ilə bağlı xərclər isə nisbətən böyük olmur. İdxalatçı tərəfindən yoxlanılmaq üçün alınan sənədlər onların ödəniş (aksept) anına qədər bankın sərəncamında qalır və ödəməmə olan halda ödəməmə (akseptin olmaması) səbəbləri göstərilməklə xarici banka qaytarılır. Hesablaşmaların inkasso forması banklara imkan verir ki, ödənişin vaxtında alınmasına nəzarəti həyata keçirsinlər. Hərçənd, banklar bir qayda olaraq, sənədlərin ödənilməsinin tezləşdirilməsi məqsədilə idxalatçıya real təsir vasitələrinə malik deyillər.

Eksportçu ilə idxalatçı bir- birlərini yaxşı tanımadığı və partnyorun etibarlılığını qiymətləndirə bilmədiyi halda inkasso hesablaşmanın daha məqbul formasıdır. Sənədlər idxalatçıya müəyyən zəmanət verir ki, malı sazişdəki partnyorlar arasında şərtləşdirilən kəmiyyətdə və keyfiyyətdə ala biləcək. Eksportçu sənədləri təqdim edən zaman, yəni malın idxalatçı tərəfindən alınmasına qədər ödənişi tələb edə bilər. Bu isə uzun daşınmalarda və ya uzun sürən kömrük rəsmiyyətlərində əhəmiyyətsiz məsələ deyil.

MUHASIBAT.AZ

Hesablaşmaların inkasso formasının çatışmazlığı sənədlərin banklardan keçmə vaxtının uzun müddətli olması (1 aya qədər), idxalatçının təqdim edilmiş sənədləri ödəməkdən imtina etmək imkanı, həmçinin bəzən valyutanın xaricə köçürülmə icazəsinin olmamasıdır. Bu isə eksportçu üçün yüklərin saxlanması ilə bağlı xərclərin artması deməkdir. Vəziyyətdən çıxış yolu malın üçüncü şəxsə satılması və ya geriyə öz ölkəsinə daşınmasıdır.

Bank köçürmələri bir bankdan digərinə ünvanlanmış tapşırıqların köməyi ilə, həmçinin bank çekləri və digər ödəniş sənədləri vasitəsilə həyata keçirilir. Ödəniş tapşırığı bankın öz müxbirinə ünvanladığı əmri ifadə edir. Ödəniş tapşırığı köçürənin xahişi ilə və onun hesabına müəyyən pul məbləğinin xaricdəki alana (benefisiara) ödənilməsini nəzərdə tutur və ödəyici bankına ödənmiş məbləğin əvəzinin verilmə üsulunu göstərir. Ödəniş tapşırıqları bankların birindən digərinə poçtla, teleqrafla (teleks) və ya telekommunikasiya vasitələrinin digər üsullarının tətbiqi ilə göndərilir. Onlar, bir qayda olaraq, birdəfəlik sazişlər və ya başqa növ birdəvəlik ödənişlər olur. Bank köçürməsi vasitəsilə hesablaşmalar mərhələli şəkildə həyata keçirilir (şəkil 23.3).



Şəkil 23.3. Bank köçürməsinin istifadəsi ilə aparılan hesablaşmalar

MUHASIBAT.AZ

Bank köçürməsindən istifadə zamanı əməliyyatların ardıcıllığı aşağıdakı kimidir: 1- müqavilənin bağlanması; 2-malın yüklənməsi; 3-sənədlər kirələyəndən eksportçuya ötürülür; 4- sənədlər eksportçudan idxalatçıya ötürülür (bu andan başlayaraq idxalatçı malın sahibi olur); 5-idxalatçı öz bankına köçürmə tapşırığı (ərizəsi) təqdim edir; 6-idxalatçının bankı poçt və ya teleqrafla eksportçunun bankına ödəniş tapşırığı göndərərək valyuta köçürməsini həyata keçirir; 7-eksportçunun bankı ödəniş tapşırığının həqiqiliyini yoxlayır və ixrac mədaxilini köçürmənin benefisiarına – eksportçuya yazır.

Hesablaşmaların bu forması həm ixrac, həm də idxal əməliyyatlarında istiadə olunur. Bank müştərisi bank köçürməsini həyata keçirmək üçün balans hesabında köçürmə üçün zəruri olan məbləğə və banka ödəniləcək komisyon xərclərə malik olmalıdır. Müştəri bank köçürməsi ilə əlaqədar ərizəsini banka təqdim edir (köçürən şəxs ərizə ilə birlikdə xarici partnyoru ilə müqaviləsinin surətini də banka təqdlim edir). Ərizədə aşağıdakılar göstərilməlidir:

*xarici valyutanın köçürülən məbləği (rəqəmlərlə və yazı ilə). Əgər bu məbləğ müqavilə qiymətinin valyutası ilə ifadə olunmuşdursa, ödənişi isə başqa xarici valyutada aparmaq lazımdırsa, onda köçürən şəxs onların birincisinin ikinciyə olan dəqiq dəyişmə kursunu və ya kursun məyyənləşdirilmə üsulunu göstərir. Valyutaların yenidən hesablanması zamanı yaranan kurs fərqi köçürən şəxsin hesabına tənzimlənir və əsas ödənişlə eyni hesabda əks olunur;

*köçürməni alan şəxsin (benefisiarın) dəqiq və tam adı, onun poçt ünvanı;

*köçürməni alan şəxsin müştəri olduğu bankın dəqiq və tam adı, həmin bankda onun hesab nömrəsi;

*ödənişin təyini;

*xarici partnyorla müqavilənin nömrəsi və tarixi.

Hesablaşmaların bu formasının məziyyəti onun sadəliyi, sürəti, dəyərinin böyük olmamasıdır. Lakin bu formanın böyük çatışmazlıqları da

MUHASIBAT.AZ

var. Onlar hesablaşma formsının tətbiqində kontraqentlərin birinin üzlədiyi risklərlə bağlıdır. Hesablaşmaların bu forması çox vaxt digər formalarla uyğunlaşdırılaraq istifadə olunur.

ÖZÜNÜ YOXLAMAQ ÜÇÜN SUALLAR

1.Beynəlxalq hesablaşma əməliyyatlarının əsas problemləri nədən ibarətdir?

2.Hal hazırda beynəlxalq valyuta münasibətlərinin tənzimlənmə sahəsində hansı tendensiyalar təzahür olunur?

3.Beynəlxalq hesablaşmalar nəyi ifadə edir?

4.Beynəlxalq iqtisadi münasibətlərdə hansı ödənişlərdən istifadə olunur?

5.Müxbir münasibətləri nəyi ifadə edir və onların hansı növləri var?

6.Beynəlxalq hesablaşmlar onların həyata keçirilməsində kommersiya banklarının iştirak payına görə necə fərqlənirlər?

7.Hansı sazişlər «ödənişə qarşı sənədlər» və «akseptə qarşı sənədlər» adlanır?

8.Sənədli akkreditiv hesablaşması hansı əməliyyatlardan ibarətdir?

9.Sənədli akkreditivin hansı növləri var?

10.Eksportçu və idxalatçı üçün akkreditivin tətbiq edilməsinin hansı müsbət və mənfi nəticələri var?

11.Hesablaşmaların inkasso forması nədir və inkassonun hansı formaları var?

12.İnkasso sazişi hansı əməliyyatlardan ibarətdir?

13.İnkassonun məziyyətləri və çatışmazlıqları hansılardır?

14.Bank köçürməsinin istifadəsi ilə aparılan hesablaşmalarda əməliyyatların ardıcıllığı necədir?

15.Müştəri bank köçürməsi ilə bağlı ərizəsində nəyi göstərməlidir?

MUHASIBAT.AZ

LİTERATURA

Andrianov V. Qosudarstvennoe requlirovanie i mexanizm samorequləüii v rınoçnoy gkonomike \\ Vopr. Gkonomiki. 1996. №9.

Antonov N.Q., Pesselğ M.A. Denecnoe obrahenie, kredit i banki. M., 1995.

Bankovskoe delo \ Pod red. O.İ.Lavruşina. M., 1992.

Bankovskoe delo: Sprav. posobie \ Pod red. Ö.A.Babiçevoy. M., 1993.

Berce P. Denecnıy mexanizm. M., 1993.

Davıdov Ö.A. İnfləüiə i gkonomika. Mirovoy opıt i naşi problemı. M., 1991

Denğqi, kredit, banki \ Pod obh. red. prof. Q.İ.Kravüovoy. Mn., 1997.

Dceffri D. Saks, Felins Larren B. Makrogkonomika. Qlobalğnıy podxod. M., 1996.

Dc. R.Xiks. Stoimostğ i kapital. M., 1988.

Dodqi R. Kratkoe rukovostvo po standartam i normam audita. M., 1992.

İnfləüiə: priroda, suhnostğ, i requlirovanie. Mn., 1996.

Kapustin M.Q. Evro i eqo vliənie na mirovıe finansovıe rınki. M., 2001.

Keyns Dc. İzbrannıe proizvedeniə. M., 1993.

Kolesnikov A.İ. Bankovskoe delo.SPb.1993.

Konovalov S.F. Ob optimizaüii sostava pokazateley, xarakterizuöhix bankovskie riski \\ Denğqi i kredit.1997. №9.

Korobov Ö.İ. Kreditnıy mexanizm: Uçeb. posobie. Saratov, 1992.

Kotler F. Osnovı marketinqa. M., 1992.

Kuzneüov N. Liberalizaüiə denecnoqo obraheniə: problemı i podxodı \\ Vopr. gkonomiki. 1996.№8.

Luşin S.İ. İnfləüiə: obhiy podxod \\ Finansı. 1996.

Markova O.M. Kommerçeskie banki i ix operaüii: Useb. Posobie. M., 1995.

MUHASIBAT.AZ

Marks K., Gnqelğs F. Soç. 2-e izd. T.23.

Marks K., Gnqelğs F. Soç. 2-e izd. T24.

Marks K., Gnqelğs F. Sos. 2-e izd T.25 Ç.1.

Matuk C. Finansovıe sistemı Franüii i druqix stran: V 2 t. M., 1994.

Mecdunarodnıe valötno-kreditnıe i finansovıe otnoşeniə \ Pod red. L.N.Krasavinoy. M., 1994.

Mirkin Ə.M. Üennıe bumaqi i fondovıy rınok. M., 1995.

Osnovı mecdunarodnıx valötno –finansovıx i kreditnıx otnoşeniy \ Pod red. V.V.Kruqlova. M., 1998.

Pervozvannıy A.A., Pervozvannaə T.N. Finansovıy rınok: rasçet i risk. M., 1994.

Piter S. Rouz. Bankovskiy menedcment. Predostavlenie finansovıx usluq. M., 1997.

Polfreman D., Ford F. osnovı bankıovskoqo dela. M., 1996.

Poləkov V.P., moskovkina L.A. Osnovı denecnoqo obraheniə i kredita: Uçeb. Posobie. M., 1995.

Prikladnaə gkonomika: Uçeb. Posobie. M., 1993.

Puti soverşenstvovaniə orqanizaüii depozitnıx operaüiy bankov: Obzornaə informaüiə. M., 1991.

Rid G., Kotter R., Qill G., Smit R. Kommerçeskie banki. M., 1991.

Rikardo D. Naçalo politiçeskoy gkonomii i naloqovoqo obloceniə. Soç. T. 1. M., 1955.

Rodcer Leroy Miller, Devid D. Van-Xuz. Sovremennıe denğqi i bankovskoe delo. M., 2000.

Sevruk V.Q. Bankovskie riski. M., 1995.

Sençaqov V. Denecnaə massa i faktorı ee formirovaniə \\Vopr. Gkonomiki. 1997. №10.

Serqienko Ə. Nekotorıe osobennosti monetarnıx proüessov v perexodnoy gkonomike \\ Vopr. Gkonomiki. 1996. № 8.

Smit A. İssledovanie o prirode i priçinax boqatstva narodov. M., 1962.

MUHASIBAT.AZ

Spiüın İ.O., Spiüın Ə.O. Marketinq v banke. Ternopolğ, 1993.

Stoənova E.S. Finansovıy menedcment. Teroə i praktika. M., 2000.

Tarasov V.İ. Problemı sovremennıx deneq i monetarnaə politika \\ Belorus. gkonom. curn. 2000. №3.

Tarasov V.İ. Sovremennaə monetarnaə politika: Leküiə. Mn., 1999.

Ter-Balenü. Vıbor za vami \\ Gkonomika i cizng. 1991. №32

Usenko D. İnfləüiə: priçinı i sledstviə. SPb., 1994.

Usoskin V.M. Sovremennıy kommerçeskiy bank. Upravlenie i operaüii. M., 1993.

Utkin G.A. Bankovskiy marketinq. M., 1995.

Uşanov P.V. Konüepüiə sovremennıx deneq. M., 1991.

Fridmen M. esli bı denğqi zaqovorili… . M., 1999.

Xarris L. Denecnaə teoriə . M., 1990.

Şirinskaə E.B. Operaüii kommerçeskix bankov i zarubecnıy opıt. M., 1993.

Gdvin Dc. Dolan, Kolin D. Kgmpbell, Rozmari Dc. Kgmpbell. Denğqi, bankovskoe delo i denecno-kreditnaə politika. M. L., 1991.

Əkuşa Ö. Vvedenie konvertiruemosti v sisteme antikrizisnıx mer: opıt Vostoçnoy Evropı i perspektivı Ukrainı \\ Gkonomika Ukrainı. 1993. №6.

Əsinskiy Ö.M. Denecno-kreditnaə sistema i bankovskiy kontrolinq. Mn., 2000.

MÜNDƏRİCAT

Giriş ……..

I FƏSİL. PUL NƏZƏRİYYƏSİ……..

1. Pulların zəruriliyi və mahiyyəti …….....

1.1.Pullar iqtisadi kateqoriya kimi ……

1.2.Pulların mənşəyi və mahiyyəti ilə bağlı mübahisəli məsələlər..

2.Pullar, onların təbiəti və tərkibi ……..

2.1.Pulların xüsusiyyətləri, formaları, tipləri və növləri …….

MUHASIBAT.AZ

2.2. Qızıl pul dövriyyəsi və onun kağız pul dövriyyəsinə çevrilməsi
2.3. Kağız pullar…….
2.4.Kredit pullar …….
3.Pulların funksiyaları və onların iqtisadiyyatda rolu ……
3.1.Pulların funksiyaları və onların qarşılıqlı əlaqəsi ……
3.2.Pulların iqtisadiyyatdakı rolu ……
4.Pul dövriyyəsi və onun strukturu……..
4.1.Ödəniş sistemi və pul dövriyyəsi anlayışı ……
4.2.Qeyri nağd pul dövriyyəsinin xarakteristikası ……
4.3.Nağd pul dövriyyəsinin xüsusiyyətləri ……
5.Pul sistemi, emissiya və pul kütləsi ……
5.1.Pul sistemlərinin mahiyyəti, elementləri və tipləri…….
5.2.Emissiya anlayışı və onun növləri …….
5.3.Pul kütləsi və onun strukturu…….
6. İnflyasiya və iqtisadiyyatın antiinfylasiya tənzimlənməsi ……..
6.1.İnflyasiya sosial iqtisadi hadisə kimi ……
6.2.İnflyasiyanın inkişaf faktorları …….
6.3.İnflyasiyanın təzahür formalarının və növlərinin xarakteristikası
6.4.Antiinflyasiya siyasətinin əsas üsulları və pul islahatı..
II FƏSİL. KREDİT NƏZƏRİYYƏSİ
7.Kreditin zəruriliyi və mahiyyəti
7.1.Kredit münasibətlərinin yaranması
7.2.Kreditin mahiyyəti və kredit münasibətlərinin tipləri
8.Kreditin funksiyaları, prinsipləri və sərhədləri
8.1.Kreditin funksiya və prinsiplərinin xarakteristikası
8.2.Kreditin sərhədləri anlayışı
9.Kredit formaları
9.1.Kredit formalarının ümumi xarakteristikası və onun təsnifat meyarları
9.2.Bank krediti

MUHASIBAT.AZ

9.3.Kommersiya krediti

9.4.Lizinq krediti

9.5.İstehlak krediti

9.6.İpoteka krediti

9.7.Dövlət krediti

9.8.Beynəlxalq kredit

9.9. Kreditin ayrı-ayrı spesifik formaları

III FƏSİL. Pul – maliyyə bazarı

10. Pul maliyyə bazarının tərkib hissələri

10.1.Pul maliyyə bazarı anlayışı

10.2.Qiymətli kağızların ümumi xarakteristikası

10.3.Törəmə qiymətli kağızlar və onların xüsusiyyətləri

11.qiymətli kağızlar bazarı

11.1.Qiymətli kağızlar bazarının fəaliyyət xüsusiyyətləri

11.2.Qiymətli kağızlar kursunun formalaşması

11.3.Qiymətli kağızlar analizinin zəruriliyi və xüsusiyyətləri

12.Fond birjası və onun əməliyyatları

IV FƏSİL. KREDİT VƏ BANK SİSTEMLƏRİ

13.Kredit sistemi və onun hissələri

13.1.Kredit sistemi anlayışı

13.2.Bank sistemi və onun quruluş modeli

13.3. İxtisaslaşmış kredit maliyyə müəssisələrinin (institutlarının) xarakteristikası

14. Mərkəzi bank və onun fəaliyyət mexanizmi

14.1.Mərkəzi bankın, onun məqsədlərinin, vəzifələrinin, funksiya və əməliyyatlarının xarakteristikası

14.2.Mərkəzi bank tərəfindən pul dövriyyəsinin tənzimlənməsi

14.3.Mərkəzi bank tərəfindən aparılan minimal ehtiyat tələblər siyasətinin xüsusiyyətləri

14.4. Uçot norması pul dövriyyəsinin tənzimlənmə aləti kimi

MUHASIBAT.AZ

14.5.Mərkəzi bank tərəfindən açıq bazarda əməliyyatların həyata keçirilməsi

15.Kommersiya bankının fəaliyyət əsasları

15.1.Kommersiya bankı təsərrüfat subyekti kimi

15.2.Kommersiya banknın funksiya və əməliyyatlarının xarakteristikası

15.3.Kommersiya bankının balansı, onun analizinin məqsəd və vəzifələri

15.4.Kommersiya bankının kapitalının likvidliyi və kafiliyi

16.Bank faizi

16.1.Faizin, onun mahiyyətinin və növlərinin xarakteristikası

16.2.Kommersiya bankının depozit siyasəti və depozit faizi

16.3.Borc faizi, onun funksiyaları və rolu

17.Bank riskləri

17.1.Bank riskləri anlayışı və onların təsnifatı

17.2.Bank risklərinin əsas növlərinin xarakteristikası

18.Bank işində marketinq və menecment

18.1.Bankda marketinq

18.2.Bank menecmenti

19.Bank auditi

V FƏSİL. VALYUTA SİSTEMİ VƏ BEYNƏLXALQ VALYUTA KREDİT MÜNASİBƏTLƏRİ

20.Valyuta sistemi

20.1.Valyuta sisteminin və onun elementlərinin xarakteristikası

20.2.Müasir valyuta sistemləri və valyuta inteqrasiyası

21.Valyuta kursu və valyuta tənzimlənməsi

21.1.Valyuta kursu və onun növ təsnifatı

21.2.Valyuta kursunun müəyyənləşdirilmə üsullarının xarakteristikası

21.3.Valyuta tənzimlənməsi və onun alətləri

22.Valyutaların konversiya edilməsi

22.1.Valyutaların konversiya edilməsi anlayışı və zərurəti

22.2.Valyutaların konversiya edilməsinin forma və şərtləri

MUHASIBAT.AZ

23.Beynəlxalq bank əməliyatları

23.1.Beynəlxalq hesablaşma əməliyyatları nəzəriyyəsi

23.2.Beynəlxalq iqtisadi münasibətlərdə hesablaşma formaları

Ədəbiyyat

MUHASIBAT.AZ